# PREZİDENT
# İLHAM ƏLİYEV
# VƏ MƏDƏNİYYƏT

İKİ CİLDDƏ

BİRİNCİ CİLD

2003-2008

# PREZİDENT
# İLHAM ƏLİYEV
# VƏ MƏDƏNİYYƏT

- Qəbullar
- Nitqlər, çıxışlar
- Görüş və mərasimlər
- Səfərlər
- Müsahibələr

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi


| | |
|---|---|
| Layihənin rəhbəri və baş məsləhətçi: | **ƏBÜLFƏS QARAYEV** |
| Buraxılışa məsul: | **Teymur MEHDİYEV** |
| | **Sevda MƏMMƏDƏLİYEVA** |
| | **Ədalət VƏLİYEV** |
| Tərtibçilər: | **Lətifə MƏMMƏDOVA** |
| | **Mayıl ƏHMƏDOV** |
| Elmi məsləhətçilər: | **Teymur ƏHMƏDOV** |
| | **Əli EYVAZOV** |

P74 **PREZİDENT İLHAM ƏLİYEV VƏ MƏDƏNİYYƏT.**
2 clddə (I cild), Bakı, **"İDEAL-PRİNT"**, 2008, səh. -506.

**İSBN 978995244701**

P $\frac{4702060200}{122}$



**© Azərbaycan Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyi, 2008**

# KİTABIN İÇİNDƏKİLƏR


**GİRİŞ SÖZÜ**

**AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*27 yanvar 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN RESPUBLİKASI PREZİDENTİNİN MƏDƏNİYYƏT MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR**

*3 mart 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTANA DÖVLƏT SƏFƏRİ DAŞKƏNDDƏ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ**

*23 mart 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAŞKƏNDDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SƏMƏRQƏNDİN TARİX-MEMARLIQ ABİDƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*27 mart 2004-cü il*

**PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI REDAKSİYA HEYƏTİNİN İLK İCLASI KEÇİRİLMİŞDİR**

*8 aprel 2004-cü il*

**PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*10 aprel 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ANKARADA HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*14 aprel 2004-cü il*

**BAKIDA "HEYDƏR ƏLİYEV FONDU"NUN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*10 may 2004-cü il*

**PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVANDA HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR**

*14 may 2004-cü il*

**BRÜSSELDƏ "DƏDƏ QORQUD" ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ**

*18 may 2004-cü il*

**KİYEVDƏ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ**

*4 iyun 2004-cü il*

**KİYEVDƏ AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ**

*4 iyun 2004-cü il*

**YEVLAX ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏRKƏZİ MEYDANIN VƏ PROSPEKTİN AÇILIŞ MƏRASİMİ**

*9 iyun 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MƏDƏNİYYƏT VƏ KÜTLƏVİ KOMMUNİKASİYALAR NAZİRİNİ QƏBUL ETMİŞDİR**

*12 iyun 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*12 iyun 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN XATİRƏSİNİ YAD ETMİŞDİR**

*15 iyun 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TBİLİSİDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİ**

*15 iyun 2004-cü il*

**PREZİDENT İLHAM ƏLİYEV QAZAX RAYONUNUN YUXARI SALAHLI KƏNDİNDƏ SƏMƏD VURĞUN POEZİYA EVİ İLƏ TANIŞ OLMUŞDUR**

*18 iyun 2004-cü il*

**PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN MƏZARLARINI ZİYARƏT ETMİŞDİR**

*18 iyun 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ GƏNCƏ ŞƏHƏRİNDƏ OLMUŞDUR**

*18 iyun 2004-cü il*

**AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİ DÖVLƏT FİLARMONİYASINDA KONSERTDƏ OLMUŞLAR**

*22 iyun 2004-cü il*

**İSTANBULDA HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ ÜMUMMİLLİ LİDERİMİZİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ**

*24 iyun 2004-cü il*

**AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİ FİLARMONİYADA KONSERTDƏ OLMUŞLAR**

*9 iyul 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA HEYDƏR ƏLİYEV ADINA SARAYIN QARŞISINDAKI PARKDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞ, PAYTAXT SAKİNLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR**

*27 iyul 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BƏRDƏ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*11 iyul 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AFİNADA YUNANISTANIN TURİZM NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR**

*18 avqust 2004-cü il*

**FRANSA SENATININ MUZEYİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ**

*8 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ VƏ DİRİJOR MSTİSLAV**

**ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR**

*18 sentyabr 2004-cü il*

**BAKI DƏRİN ÖZÜLLƏR ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*5 oktyabr 2004-cü il*

**BUXARESTDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ**

*12 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA YÜKSƏK DÖVLƏT MÜKAFATLARI VƏ FƏXRİ ADLAR TƏQDİM ETMİŞDİR**

*29 dekabr 2004-cü il*

**PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ OLMUŞDUR**

*30 dekabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ OLMUŞDUR**

*30 dekabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏBRİZDƏ ŞAİRLƏR MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR**

*26 yanvar 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏDƏNİYYƏT NAZİRİ POLAD BÜLBÜLOĞLUNA "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDİR**

*4 fevral 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ İMPERATOR SARAYI KOMPLEKSİ İLƏ TANIŞLIQ**

*18 mart 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ ÇIXIŞI**

*22 mart 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ**

*30 mart 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ**

*31 mart 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN TURİZM NAZİRİ DİMİTRİS AVRAMOPULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR**

*7 aprel 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ "ŞƏKƏRPARYƏN" PARKI İLƏ TANIŞLIQ**

*13 aprel 2005-ci il*

**KİŞİNYOVDA NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ**

*21 aprel 2005-ci il*

**ŞAMAXIDA NƏSİMİNİN HEYKƏLİNİN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ**

*26 aprel 2005-ci il*

**BAKIDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ**

*10 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YAZIÇI ELÇİNƏ "İSTİQLAL" ORDENİ VƏ "XALQ YAZIÇISI" FƏXRİ ADININ VƏSİQƏSİNİ TƏQDİM ETMİŞDİR**

*13 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVA "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDİR**

*13 may 2005-ci il*

**XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVUN 70 İLLİK YUBİLEYİ QEYD OLUNMUŞDUR AZƏRBAYCAN**

**RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*14 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GORANBOYA SƏFƏRİ RƏSM QALEREYASI İLƏ TANIŞLIQ**

*19 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏYƏ SƏFƏRİ DEKORATİV-TƏTBİQİ SƏNƏT MƏRKƏZİ İLƏ TANIŞLIQ**

*19 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏYƏ SƏFƏRİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ-MUZEY KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ**

*19 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN P.İ.ÇAYKOVSKİ ADINA DÖVLƏT AKADEMİK BÖYÜK SİMFONİK ORKESTRİNİN BƏDİİ RƏHBƏRİ VƏ BAŞ DİRİJORU VLADİMİR FEDOSEYEVİ QƏBUL ETMİŞDİR**

*20 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GORANBOYA SƏFƏRİ TARİX MUZEYİNƏ BAXIŞ**

*21 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU DOKTOR ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR**

*27 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ATATÜRK KÜLTÜR, DİL VƏ TARİX YÜKSƏK QURUMUNUN SƏDRİ SADIQ KAMAL TURALI VƏ ATATÜRK ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ MEHMET SARAYI QƏBUL ETMİŞDİR**

*30 may 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYAYA RƏSMİ SƏFƏRİ ZAQREB**

**ŞƏHƏRİNİN TARİX-MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ**

*11 iyun 2005-ci il*

**SANKT-PETERBURQDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞI AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI**

*15 iyun 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QUBA ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*25 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ REGİONAL TURİZM İNFORMASİYA MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*26 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QUSARA SƏFƏRİ HEYDƏR ƏLİYEV BAĞI İLƏ TANIŞLIQ**

*28 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QUSARA SƏFƏRİ HEYDƏR ƏLİYEV GUŞƏSİ İLƏ TANIŞLIQ**

*28 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAŞ RAYONUNA SƏFƏRİ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ**

*7 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İYULUN 25-DƏ QUBA ŞƏHƏRİNDƏ "QƏDİM QUBA" ÖZƏL XALÇAÇILIQ MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN YENİ İSTEHSAL SEXİ İLƏ TANIŞ OLMUŞDUR**

*25 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XAÇMAZA SƏFƏRİ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ**

*26 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XAÇMAZA SƏFƏRİ HEYDƏR ƏLİYEV PARKI İLƏ**

**TANIŞLIQ**

*26 iyul 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTANLI YAZIÇI-TƏDQİQATÇI MURAD ACİNİ QƏBUL ETMİŞDİR**

*8 avqust 2005-ci il*

**PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI**

*8 avqust 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ QƏBƏLƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİ VƏ TİKİLMƏKDƏ OLAN HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ**

*18 avqust 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ RAYON MƏDƏNİYYƏT EVİ VƏ SƏRGİ İLƏ TANIŞLIQ**

*18 avqust 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ YENİDƏN BƏRPA EDİLMİŞ CÜMƏ MƏSCİDİ İLƏ TANIŞLIQ**

*18 avqust 2005-ci il*

**"GREEN HOUSE" İSTİRAHƏT-TURİZM MƏRKƏZİNİN AÇILIŞI**

*19 avqust 2005-ci il*

**İCTİMAİ TELEVİZİYA VƏ RADİO YAYIMLARI ŞİRKƏTİNİN (İTV) FƏALİYYƏTƏ BAŞLAMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM**

*29 avqust 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKAMIZIN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ LƏNKƏRAN ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ**

*8 sentyabr 2005-ci il*

**LERİK RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ MUZEYİ İLƏ TANIŞLIQ**

*8 sentyabr 2005-ci il*

**MASALLI ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKI İLƏ**

**TANIŞLIQ**

*9 sentyabr 2005-ci il*

**YARDIMLI RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI**

*9 sentyabr 2005-ci il*

**YARDIMLI RAYONUNDA HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞI VƏ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞ**

*9 sentyabr 2005-ci il*

**YARDIMLI RAYONUNDA XALÇA VƏ TİKİŞ SEXLƏRİ İLƏ TANIŞLIQ**

*9 sentyabr 2005-ci il*

**LERİKDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ VƏ RAYON İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞ**

*10 sentyabr 2005-ci il*

**DAHİ AZƏRBAYCAN BƏSTƏKARI, PEDAQOQU VƏ İCTİMAİ XADİMİ ÜZEYİR HACIBƏYOVUN 120 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*20 sentyabr 2005-ci il*

**BOLQARISTAN TURİZMİNİN TƏQDİMAT MƏRASİMİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ**

*24 sentyabr 2005-ci il*

**KÜRDƏMİR ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKININ VƏ ÜMUMMİLLİ LİDERİN ABİDƏSİNİN AÇILIŞI**

*6 oktyabr 2005-ci il*

**KÜRDƏMİR ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİ**

*6 oktyabr 2005-ci il*

**SABİRABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ABİDƏ-MUZEY KOMPLEKSİNİN AÇILIŞI**

*6 oktyabr 2005-ci il*

**SABİRABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ**

*6 oktyabr 2005-ci il*

**GƏNCƏ ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ-MUZEY KOMPLEKSİ İLƏ TANIŞLIQ**

*11 oktyabr 2005-ci il*

**QAZAX ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ**

*12 oktyabr 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AİLƏ ÜZVLƏRİ İLƏ BİRLİKDƏ "YAŞIL TEATR"DA YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞ, MİLLİ PARKDA SAKİNLƏRLƏ GÖRÜŞMÜŞDÜR**

*17 oktyabr 2005-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVAN ŞƏHƏRİNDƏ KİTAB EVİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR**

*19 dekabr 2005-ci il*

**BƏRDƏDƏ PREZİDENT İLHAM ƏLİYEVİN İŞTİRAKI İLƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR**

*2 mart 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RESPUBLİKA MUZEY MƏRKƏZİNDƏ OLMUŞDUR**

*18 mart 2006-cı il*

**ƏLİ BAYRAMLI (ŞİRVAN) ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI**

*24 mart 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏLİ BAYRAMLI (ŞİRVAN) ŞƏHƏRİNƏ GƏLMİŞDİR HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ**

*24 mart 2006-cı il*

**"ŞÖHRƏT" MUZEYİ ULU ÖNDƏRİN TARİXİ XİDMƏTLƏRİNİ YAŞADIR**

*27 mart 2006-cı il*

**İLİSU KƏNDİNDƏKİ "ULUDAĞ" TURİZM VƏ İSTİRAHƏT MƏRKƏZİ İLƏ TANIŞLIQ**

*13 aprel 2006-cı il*

**ŞƏKİ XANLARININ SARAYI İLƏ TANIŞLIQ**

*13 aprel 2006-cı il*

**ŞƏKİ RAYONUN KİŞ KƏNDİNDƏ QƏDİM ALBAN MƏBƏDİ İLƏ**

**TANIŞLIQ**

*13 aprel 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LATIN MƏDƏNİYYƏTİ AKADEMİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR**

*19 aprel 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA "ÜNS YARADICILIQ SƏHNƏSİ" TEATRININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*22 aprel 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MUSİQİ XADİMİ, "İPƏK YOLU" LAYİHƏSİNİN RƏHBƏRİ, ABŞ VİOLONÇELÇALANI YO YO MANI QƏBUL ETMİŞDİR**

*19 may 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 120 İLLİYİNƏ HƏSR EDİLMİŞ MUĞAM KONSERTDƏ OLMUŞDUR**

*13 iyun 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİM OLJAS SÜLEYMENOVUM QƏBUL ETMİŞDİR**

*21 iyun 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR MUSİQİÇİ HERBİ HANKOOKU QƏBUL ETMİŞDİR**

*27 iyun 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PREZİDENTİN İŞLƏR İDARƏSİNİN KİTABXANASINDA OLMUŞDUR**

*27 iyun 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "XALQ YAZIÇISI" VƏ "XALQ ŞAİRİ" FƏXRİ ADLARINA LAYİQ GÖRÜLMÜŞ BİR QRUP ƏDƏBİYYAT XADİMİ İLƏ GÖRÜŞMÜŞDÜR**

*28 iyun 2006-cı il*

**UCAR RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN**

**ABİDƏSİNİN AÇILIŞI**

*29 iyun 2006-cı il*

**"HEYDƏR PARKI" ZƏRDABLILARIN YENİ İSTİRAHƏT GUŞƏSİDİR**

*30 iyun 2006-cı il*

**HEYDƏR ƏLİYEV MUZEYİ ULU ÖNDƏRİN ZƏNGİN İRSİNİN ÖYRƏNİLMƏSİNDƏ İDEOLOJİ MƏRKƏZ ROLUNU OYNAYACAQDIR**

*30 iyun 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BƏSTƏKAR, XALQ ARTİSTİ VASİF ADIGÖZƏLOVA "İSTİQLAL" ORDENİNİ TƏQDİM ETMİŞDİR**

*6 iyul 2006-cı il*

**CEYHANDA "TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIĞI PARKI"NIN TƏNTƏNƏLİ AÇILIŞI**

*13 iyul 2006-cı il*

**ZƏRİFƏ XANIM ƏLİYEVA ADINA PARK SALYANLILARIN SEVİMLİ İSTİRAHƏT YERİDİR**

*10 avqust 2006-cı il*

**SAHİL PARKI LƏNKƏRANLILARIN YENİ İSTİRAHƏT GUŞƏSİDİR**

*11 avqust 2006-cı il*

**XALQ SƏNƏTKARLIĞI ŞƏHƏRCİYİ QƏDİM ADƏT-ƏNƏNƏNİ YAŞADIR**

*11 avqust 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR**

*11 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN TURİZM NAZİRİ XANIM NİLUFƏR BƏXTİYARI QƏBUL ETMİŞDİR**

*11 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİ QƏBUL ETMİŞDİR**

*11 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR**

*11 sentyabr 2006-cı il*

**ABŞERON RAYONUNDA HEYDƏR PARKININ VƏ ÜMUMMİLLİ LİDERİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA OLMUŞDUR**

*12 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIRDALAN ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR**

*12 sentyabr 2006-cı il*

**ABŞERON TARİX-DİYARŞÜNASLIQ MUZEYİ İLƏ TANIŞLIQ**

*12 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BİRİNCİ BEYNƏLXALQ RUS KİTABI FESTİVALININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR**

*15 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ ANTALYADA II BEYNƏLXALQ AVRASİYA KİNOFESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ OLMUŞDUR**

*19 sentyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏZƏPİR MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARILAN TƏMİR-TİKİNTİ VƏ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*21 sentyabr 2006-cı il*

**RİQANIN "İŞĞAL" MUZEYİ İLƏ TANIŞLIQ**

*5 oktyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİ MƏDƏNİ ƏMƏKDAŞLIQ ŞURASININ 21-Cİ İCLASI İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR**

*9 oktyabr 2006-cı il*

**MƏŞHUR RUMIN BƏSTƏKARI VƏ MUSİQİÇİSİ CORCE ENESKUNUN ABİDƏSİNİN AÇILIŞI**

*11 oktyabr 2006-cı il*

**BELARUS MİLLİ KİTABXANASI İLƏ TANIŞLIQ**

*19 oktyabr 2006-cı il*

**"RELAX" TURİZM İSTİRAHƏT MƏRKƏZİ İLƏ TANIŞLIQ**

*23 oktyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ İDMAN NAZİRİ GEORGİ QABAŞVİLİNİ QƏBUL ETMİŞDİR**

*30 oktyabr 2006-cı il*

**GƏNCƏNİN GERBİNƏ ABİDƏ QOYULMUŞDUR**

*31 oktyabr 2006-cı il*

**DAŞKƏSƏN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI**

*31 oktyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏDƏBƏY RAYONUNA SƏFƏRİ ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT VƏ HEYDƏR PARKI İLƏ TANIŞLIQ**

*1 noyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏMKİR RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ OLMUŞDUR**

*1 noyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ RAYONUNDAKI TARİX-DİYARŞÜNASLIQ MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR**

*7 dekabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ (İSESCO) BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN əl-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR**

*24 noyabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ ŞƏHƏRİNDƏ ŞƏXSİYYƏTLƏR MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR**

*7 dekabr 2006-cı il*

**AZƏRBAYCAN PREZİDENT İLHAM ƏLİYEV XAÇMAZ RAYONUNDA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKI İLƏ TANIŞ OLMUŞDUR**

*7 dekabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ RAYONUNDA XALÇA MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR**

*7 dekabr 2006-cı il*

**"MALİBU", "PALMA" VƏ "ATLANT" İSTİRAHƏT MƏRKƏZLƏRİ ÖLKƏMİZDƏ TURİZMİN İNKİŞAFININ GÖSTƏRİCİSİDİR**

*7 dekabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR**

*13 dekabr 2006-cı il*

**AKADEMİK YUSUF MƏMMƏDƏLİYEVİN EV MUZEYİ İLƏ TANIŞLIQ**

*21 dekabr 2006-cı il*

**"DUZDAĞ" SANATORİYASININ TƏMƏLİ QOYULMUŞDUR**

*21 dekabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RƏSSAMLAR İTTİFAQININ 65 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR TANINMIŞ RƏSSAMLARLA GÖRÜŞMÜŞDÜR**

*28 dekabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ, MİLLİ MƏCLİSİN DEPUTATI ZEYNƏB XANLAROVANI QƏBUL ETMİŞDİR**

*28 dekabr 2006-cı il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BİR QRUP ZİYALIYA ORDENLƏR VƏ FƏXRİ ADLARIN VƏSİQƏLƏRİNİ TƏQDİM ETMİŞDİR**

*12 fevral 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR YAZIÇI ÇİNGİZ AYTMATOVU QƏBUL**

**ETMİŞDİR**

*25 fevral 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ ARİF BABAYEVİ QƏBUL ETMİŞDİR**

*29 fevral 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ PARKDA YENİCƏ İSTİFADƏYƏ VERİLMİŞ MUSİQİLİ FƏVVARƏYƏ BAXMIŞDIR**

*28 fevral 2007-ci il*

**OĞUZ YAXIN VAXTLARDA TURİSTLƏRİN SEVİMLİ İSTİRAHƏT YERİNƏ ÇEVRİLƏCƏK**

*1 mart 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİ**

*2 mart 2007-ci il*

**ZƏRİFƏ ƏLİYEVA PARKI QƏBƏLƏLİLƏRİN ƏN SEVİMLİ İSTİRAHƏT GUŞƏSİDİR**

*2 mart 2007-ci il*

**HEYDƏR ƏLİYEV ADINA SARAYDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ APARILACAQDIR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LAYİHƏ İLƏ TANIŞ OLMUŞDUR**

*5 mart 2007-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV YAŞIL TEATRDA APARILAN VƏ BAKININ DİGƏR YERLƏRİNDƏ GÖRÜLƏCƏK YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*8 mart 2007-ci il*

**TACİKİSTANIN MİLLİ TARİX MUZEYİ İLƏ TANIŞLIQ**

*15 mart 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MSTİSLAV ROSTROPOVİÇİN 80 İLLİYİ ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR**

*27 mart 2007-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV APRELİN 5-DƏ XALQ ŞAİRİ QABİLLƏ VİDALAŞMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*5 aprel 2007-ci il*

**HEYDƏR ƏLİYEV SEYRƏHGAHI CƏLİLABADLILARIN SEVİMLİ İSTİRAHƏT YERİ OLACAQ**

*9 aprel 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MASALLI ŞƏHƏRİNDƏ OLMUŞDUR**

*9 aprel 2007-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR**

*10 aprel 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QUGENHAYM FONDUNUN DİREKTORU TOMAS KRENSİ QƏBUL ETMİŞDİR**

*22 aprel 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN CƏNUBİ KOREYAYA SƏFƏRİ**

*24 aprel 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR**

*26 aprel 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİMİ OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR**

*27 aprel 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*29 aprel 2007-ci il*

**AZƏRBAYCANDA BELARUS MİLLİ SƏRGİSİNİN AÇILIŞI**

*3 may 2007-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV YAŞIL TEATRDA BAŞA ÇATMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*4 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM**

**ƏLİYEVİN MİSİR ƏRƏB RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ MİSİR EHRAMLARI İLƏ TANIŞLIQ**

*6  may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR ƏRƏB RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ QAHİRƏDƏ MƏHƏMMƏD ƏLİ QALASI VƏ MƏSCİDİ İLƏ TANIŞLIQ**

*7 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR ƏRƏB RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAHİRƏNİN MƏŞHUR MİSİR MUZEYİNDƏ OLMUŞDUR**

*7 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ MƏCLİSDƏ "HEYDƏR ƏLİYEV XATİRƏ ZALI"NIN AÇILIŞINDA İŞTİRAK ETMİŞ, PARLAMENTİN BİNASINDA APARILAN YENİDƏNQURMA, TƏMİR İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*9  may 2007-ci il*

**YAŞIL TEATRIN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNDƏ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*10  may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR**

*14  may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT KUKLA TEATRINDA, HEYDƏR ƏLİYEV ADINA SARAYDA VƏ DÖVLƏT RUS DRAM TEATRINDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*16  may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT İNCƏSƏNƏT MUZEYİNİN YAXINLIĞINDAKI PARKDA BAŞA ÇATMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*22 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LUVR MUZEYİNİN DİREKTORU ANRİ LUARETİ QƏBUL ETMİŞDİR**

*29 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNDA OLMUŞDUR "MÜTƏFƏKKİRLƏR BAĞI" İLƏ TANIŞLIQ**

*30 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNDA İSMAYIL ŞIXLI ADINA PARKDA OLMUŞDUR**

*30 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNDA "DƏDƏ QORQUD" ABİDƏ KOMPLEKSİNDƏ OLMUŞDUR**

*30 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ RAYONUNDA "HEYDƏR ƏLİYEV SEYRƏNGAHI"NDA OLMUŞDUR**

*30 may 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA İDMAN-KONSERT KOMPLEKSİNDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR**

*13 iyun 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BAKI CAZ FESTİVALINDA İŞTİRAK EDƏN MƏŞHUR AZƏRBAYCANLI PİANOÇU, BƏSTƏKAR VƏ CAZ İFAÇISI ƏZİZƏ MUSTAFAZADƏNİ VƏ ANASI, TANINMIŞ MUSİQİÇİ ELZA MUSTAFAZADƏNİ QƏBUL ETMİŞDİR**

*14 iyun 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR OPERA MÜĞƏNNİSİ, SSRİ XALQ ARTİSTİ YELENA OBRAZTSOVANI QƏBUL ETMİŞDİR**

*14 iyun 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN TƏHSİL VƏ MƏDƏNİYYƏT**

**MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ QOLİ AMERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR**

*20 iyun 2007-ci il*

**İORDANİYANIN ARXEOLOGİYA MUZEYİ, TARİX-MEMARLIQ ABİDƏLƏRİ İLƏ TANIŞLIQ**

*30 iyul 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İNCƏSƏNƏT MUZEYİNİN VƏ GƏNC TAMAŞAÇILAR TEATRININ BİNALARINDA TƏMİR-TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR**

*15 avqust 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ MARAQLANMIŞDIR**

*15 avqust 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HACIQABUL RAYONUNDA OLMUŞDUR HACIQABULUN MƏDƏNİYYƏT EVİ YENİDƏN QURULACAQ**

*23 avqust 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ DƏVƏÇİ RAYONUNUN TURİZM İMKANLARI İLƏ MARAQLANMIŞDIR**

*24 avqust 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*30 avqust 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR MEMAR XANIM ZAHA HADİDİ QƏBUL ETMİŞDİR**

*10 sentyabr 2007-ci il*

**DÜNYA ŞÖHRƏTLİ BRİTANİYALI MUSİQİÇİ, SER ELTON CON BAKIDA TOFİQ BƏHRAMOV ADINA STADİONDA KONSERT VERMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KONSERTDƏ OLMUŞDUR**

*23 sentyabr 2007-ci il*

**BUXARESTDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞI**

*24 sentyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ XƏTAİ RAYONUNDA HEYDƏR PARKININ VƏ ULU ÖNDƏRİN ABİDƏSİNİN AÇILIŞINDA OLMUŞDUR**

*3 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN MƏDƏNİYYƏT NAZİRİ MİRZOŞOXRUX ASROROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR**

*18 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ HABİL ƏLİYEVİ QƏBUL ETMİŞDİR**

*22 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QOBUSTAN RAYONUNDA HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞINDA OLMUŞDU**

*23 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAX RAYONUNDA HEYDƏR ƏLİYEV ADINA SARAYIN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*24 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAX RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR**

*24 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAX RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ MUZEYİNDƏ OLMUŞDUR**

*24 oktyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "DÖVLƏT BAYRAĞI" MEYDANININ YERLƏŞƏCƏYİ ƏRAZİ İLƏ TANIŞ OLMUŞDUR**

*13 noyabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR EDİLMİŞ KONSERTDƏ OLMUŞDUR**

*12 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FUNİKULYORUN YAXINLIĞINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*14 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİNDƏ OLMUŞDUR**

*20 dekabr 2007-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV TƏZƏPİR MƏSCİDİNDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*20 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏJDƏRBƏY MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARILAN TƏMİR-TİKİNTİ, ABADLIQ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*20 dekabr 2007-ci il*

**DÖVLƏT KUKLA TEATRI ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*26 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAYTAXTIN MƏRKƏZİNDƏKİ BAĞDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*26 dekabr 2007-ci il*

**MİLLİ PARKDA MUSİQİLİ FƏVVARƏ İŞƏ SALINMIŞDIR**

*28 dekabr 2007-ci il*

**PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ƏSASLI TƏMİR-BƏRPA İŞLƏRİNDƏN SONRA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*28 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*28 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA DÖVLƏT BAYRAĞI MEYDANININ**

**TƏMƏLİNİN QOYULMASINDA İŞTİRAK ETMİŞDİR**

*30 dekabr 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ RAYONUNA SƏFƏRİ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI**

*17 yanvar 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "MUĞAM TELEVİZİYA MÜSABİQƏSİ-2007" QALİBLƏRİNİN QALA-KONSERTİNDƏ OLMUŞDUR**

*l fevral 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ ŞƏHƏRİNDƏ OLMUŞDUR DAHİ NİZAMİNİN XATİRƏSİNƏ EHTİRAM**

*3 mart 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV NAFTALAN ŞƏHƏRİNƏ GƏLMİŞDİR HEYDƏR ƏLİYEV PARKI VƏ MUZEYİ İLƏ TANIŞLIQ**

*3 mart 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SAMUX RAYONUNDA OLMUŞDUR HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ**

*3 mart 2008-ci il*

**GÖYGÖL (XANLAR) ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ**

*4 mart 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ ƏTRAF ƏRAZİLƏRDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*11 mart 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SABİR BAĞINDA VƏ NİZAMİ MEYDANINDA GÖRÜLMÜŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*18 mart 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR FRANSA MÜĞƏNNİSİ PATRİSİYA KAASIN**

**KONSERTİNDƏ OLMUŞDUR**

*19 mart 2008-ci il*

**BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏNLİKDƏ İŞTİRAK ETMİŞDİR**

*20 mart 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT FİLARMONİYASININ YERLƏŞDİYİ BAĞDA VƏ DƏNİZKƏNARI MİLLİ PARKDA HƏYATA KEÇİRİLƏN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*30 mart 2008-ci il*

**HEYDƏR ƏLİYEV PARKI BƏRPA EDİLMİŞ HORADİZİN YARAŞIQLI GUŞƏSİDİR**

*18 aprel 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FÜZULİ, BEYLƏQAN VƏ BİLƏSUVAR RAYONLARINA SƏFƏRİ HORADİZ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ**

*18 aprel 2008-ci il*

**AZƏRBAYCANDA MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI**

*23 aprel 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ADINI DAŞIYAN PARKDA GÖRÜLMÜŞ ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*25 aprel 2008-ci il*

**PARK KOMPLEKSİ ZİRƏYƏ XÜSUSİ YARAŞIQ VERİR**

*9 may 2008-ci il*

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN XATİRƏ LÖVHƏLƏRİNİN AÇILIŞI OLMUŞDUR**

*10 may 2008-ci il*

**BAKIDA LƏTİF KƏRİMOV ADINA AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİ BİNASININ TƏMƏLİ QOYULMUŞDUR**

*15 may 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR**

*15 may 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT RUS DRAM TEATRI BİNASININ BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*26 may 2008-ci il*

**DƏDƏ QORQUD MEYDANI VƏ TURİZM MƏRKƏZİ İLƏ TANIŞLIQ**

*3 iyun 2008-ci il*

**HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ**

*4 iyun 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR**

*23 iyun 2008-ci il*

**AZƏRBAYCANDA UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ KONSERT**

*30 iyun 2008-ci il*

**BAKIDA GÖRKƏMLİ UKRAYNA ŞAİRİ TARAS ŞEVÇENKONUN ABİDƏSİ AÇILMIŞDIR**

*30 iyun 2008-ci il*

**BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİ ƏSASLI YENİDƏNQURMA VƏ GENİŞ TİKİNTİ İŞLƏRİNDƏN SONRA İSTİFADƏYƏ VERİLMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*12 iyul 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIZI RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*22 avqust 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIZI RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ**

**MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*22 avqust 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALTIAĞAC MİLLİ PARKI, ZƏNGİN FAUNA VƏ FLORASI İLƏ TANIŞ OLMUŞDUR**

*22 avqust 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYIT ŞƏHƏRİNDƏ YENİDƏN QURULMUŞ MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA OLMUŞDUR**

*28 avqust 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*7 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV SEYRƏNGAHI İLƏ TANIŞ OLMUŞDUR**

*7 sentyabr 2008-ci il*

**BAKIDA BÖYÜK ÖZBƏK ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ ƏLİŞİR NƏVAİNİN ABİDƏSİ AÇILMIŞDIR AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İŞTİRAK ETMİŞLƏR**

*12 sentyabr 2008-ci il*

**BAKI MUSİQİ AKADEMİYASININ BİNASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*18 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ELM MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR**

*24 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX DÖVLƏT RƏSM QALEREYASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR**

*24 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM**

**ƏLİYEV AĞSTAFADA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR**

*24 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ RAYONUNDA ZƏRİFƏ ƏLİYEVA PARKINDA OLMUŞDUR**

*24 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR**

*24 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ RAYONUNDA KARVANSARA TİPLİ QALA KOMPLEKSİ İLƏ TANIŞ**

*24 sentyabr 2008-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏDƏKİ ŞAH ABBAS MƏSCİDİ İLƏ TANIŞ OLMUŞDUR**

*24 sentyabr 2008-ci il*

## GİRİŞ SÖZÜ

***"Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir".***

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Müasir dünyada Azərbaycanın layiqli yer tutmasında, sivilizasiya marafonunda inamla addımlamasında böyük rolu olan ulu öndər, müstəqil Azərbaycanımızın memarı, təkrarolunmaz şəxsiyyət Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev həyat və fəaliyyəti ilə öz nəslinin layiqli varisi olduğunu artıq sübut etmişdir. Prezident İlham Əliyevin 5 illik prezidentliyi dövründə ölkənin ictimai-siyasi, mədəni həyatında baş verən köklü dəyişikliklər, böyük yüksəliş estafetin layiqli əllərdə olduğuna bir daha əminlik yaradır.

"Qloballaşan dünyada Azərbaycan Respublikası və azərbaycanlılar özünün maddi-mənəvi və intellektual potensialına uyğun layiqli yer tutacaqlar" deyən möhtərəm prezidentimiz xalqın inkişafı yolunda dönməz mübariz olduğunu öz fəaliyyəti ilə daim hiss etdirməkdədir. Bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də ürəkaçan nailiyyətlər qazanılmışdır.

Ölkəmizin uğurlu iqtisadi fəaliyyəti mədəni inkişafa güclü təkan verir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu strategiya öz gözəl nəticələrini verməkdədir.

Mədəniyyətin, incəsənətin inkişafı üçün təkcə sənətin, sənətkarın olması kifayət etmir. Bu sənətə, sənətkara layiqli qiymət verilməsi də vacib şərtlərdəndir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün həyatı, fəaliyyəti dövründə sənətə və sənətkara həmişə layiqli qiymət vermişdir. Bu dahi şəxsiyyətin dövlətçilik strategiyasının davamçısı Prezident İlham Əliyev əsl sənəti daim yüksək qiymətləndirir, onun inkişafına təminat verərək qeyd edir ki, dövlət Azərbaycan xalqının mədəni həyatını daha da inkişaf etdirmək üçün bu sahədə öz işini davam etdirəcəkdir.

Sənətkarlar diyarı olan Azərbaycanımıza məhz sənəti duyan, qiymətləndirməyi bacaran İlham Əliyevin başçılıq etməsi, ilk öncə mədəniyyətimizin uğuru, xoşbəxtliyidir. Möhtərəm prezidentimiz xalqın milli xüsusiyyətlərinin qorunub saxlanılmasında ədəbiyyatın, mədəniyyətin böyük rolu olduğunu xüsusi vurğulayaraq demişdir: "Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur". Xalqın iftixar mənbəyi olan mədəniyyətin çiçəklənməsi, yeniləşməsi prosesi get-gedə daha böyük vüsət alır.

Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən mədəniyyətin inkişafına böyük diqqət və qayğı göstərmiş, mədəniyyəti dövlət siyasətinin əsas prioritetlərindən biri kimi daim diqqətdə saxlamışdır.

"Azərbaycanın qabaqcıl mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin fəaliyyəti yüksək qiymətləndirilməlidir" - sözləri də ölkə Prezidentinindir və bu sahənin insanlarına qayğı hər an hiss olunmaqdadır. Prezidentin son 5 ildə imzaladığı fərman və sərəncamlar əsasında mədəniyyətin müxtəlif sahələrində çalışan yüzlərlə insan fəxri adlara, orden və medallara, dövlət mükafatlarına layiq görülmüşdür.

Möhtərəm Prezident İlham Əliyevin səyləri nəticəsində son 5 ildə Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimlərinin yubileyləri təkcə respublikamızda deyil, dünyanın bir çox xarici ölkələrində qeyd edilmişdir.

Görkəmli rəssamlarımızın xarici ölkələrdə açılan sərgiləri, incəsənət ustalarının çıxışları, Azərbaycan filmlərinin beynəlxalq festivallarda nümayişi, dünya kitabxanalarında kitablarımızın nümayişi də buna misal ola bilər.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin layihəsi ilə nəşr olunan iki cildlik "Prezident İlham Əliyev və mədəniyyət" kitabında İlham Əliyevin 5 illik prezidentliyi dövründə Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri ilə görüşləri, onlarla xüsusi ünsiyyət və söhbətləri, habelə mədəniyyət məsələləri ilə bağlı nitqləri, çıxışları, səfərləri, müsahibələri, təbrikləri və digər materiallar toplanmışdır.

Bu zəngin materiallar Prezidentimizin ədəbi-mədəni irsimizə, mənəvi dəyərlərimizə bağlılığını, hörmətini və sonsuz qayğısını sübut edir.

Azərbaycan mədəniyyət salnaməsinin qızıl səhifələrini əks etdirən toplu vətənini, xalqını sevən, milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbət bəsləyən hər bir insanın stolüstü kitabı olacaqdır. Bu kitabın təkcə bu gün üçün, bugünkü oxucular üçün deyil, gələcək üçün, gələcək nəsillər üçün də böyük əhəmiyyət kəsb edəcəyinə əminik. O, həm də Azərbaycanın mədəniyyət tarixini öyrənənlər üçün zəngin məlumat mənbəyi olacaqdır.

***Ə. Qarayev***
***Azərbaycan Respublikasının***
***mədəniyyət və turizm naziri***

# AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDIR

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası binasının əsaslı bərpadan sonra təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı mərasimdən əvvəl Bakının ən gözəl memarlıq abidələrindən sayılan Filarmoniya binasında aparılmış tikinti-bərpa işləri ilə tanış oldu.

Mədəniyyət naziri Polad Bülbüloğlu vaxtilə ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə burada keçirilən görüşləri, onun olduğu konsertləri xatırlatdı. O, yeni görkəm almış Filarmoniyada aparılmış bərpa işləri, quraşdırılmış avadanlıq barədə ətraflı məlumat verdi, salonda tamaşaçı yerlərinin sayının 515-ə çatdırıldığını bildirdi.

Nazir dedi ki, əsas avadanlıq ABŞ, İtaliya, Almaniya, Yaponiya və İngiltərədən gətirilmişdir. Bərpa işlərində 800-dək adam çalışmışdır. Binanın divarları möhkəmləndirilərək, 8 ballıq zəlzələyə tab gətirmək həddinə çatdırılmışdır. Binada bütün tikinti-bərpa işlərini “Azərenerjitikintiquraşdırma” Səhmdar Cəmiyyəti görmüş, lazım olan inşaat materiallarının hamısı ən müasir tələblər səviyyəsində və qısa müddətdə Azərbaycanda hazırlanmışdır. Binanın işıq, su, qızdırıcı, kanalizasiya sistemləri də tamamilə yeniləşdirilmişdir.

Polad Bülbüloğlu dövlətimizin başçısına müraciətlə dedi: Cənab Prezident, biz ümummilli liderimiz Heydər Əliyevə dərin təşəkkürümüzü bildiririk ki, belə gözəl, qədimi bir binanın bu səviyyədə bərpa olunması barədə göstəriş verdi. O, bu işləri həmişə, daim nəzarətdə saxlamışdır və bütün məsələlər onunla razılaşdırılmışdır.

Prezident İlham Əliyev Filarmoniya binasının əvvəlki və müasir görünüşünü əks etdirən fotoşəkillərə baxdı, ayrı-ayrı mərtəbələrdəki otaqları, konsert salonunu gəzdi, milli memarlıq üslublarının qorunub saxlanılması işlərinə xüsusi diqqət yetirdi. Dövlətimizin başçısı ən müasir standartlara uyğun yeni səs sistemi ilə də yaxından maraqlandı.

İLHAM ƏLİYEV: Keçmişdə bunlar yox idi?

POLAD BÜLBÜLOĞLU: Bəli, bunlar ümumiyyətlə yox idi. Hamısı indi yaradılıbdır. Kondisioner də işləyir. Burada səsi udmaq üçün xüsusi qurğu qoyulmuşdur.

Cənab Prezident, Moskvada yaşayan azərbaycanlı Rafiq Rəhimov keçmiş İttifaqın tanınmış səs rejissorlarından biridir. İndi açılışda bizə kömək etmək üçün gəlmişdir.

İLHAM ƏLİYEV: Bu avadanlıq səsi tənzimləyir?

POLAD BÜLBÜLOĞLU: Bəli, bunlar ən müasir qurğulardır.

İLHAM ƏLİYEV: Yəni, konsert gedən zaman yazılır.

POLAD BÜLBÜLOĞLU: Tamamilə doğrudur. İstər diskə, istərsə də videoya yazılır.

İLHAM ƏLİYEV: Bəs, yazının təmizliyi necədir?

POLAD BÜLBÜLOĞLU: Cənab Prezident, burada hər cür şərait var və xüsusi televizorla da izləmək olur. Səsyazma ən müasir mikrofonlarla aparılır.

***27 yanvar 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür. Uzun fasilədən sonra Filarmoniya öz qapılarını tamaşaçılara açır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bilirsiniz ki, Filarmoniyamızın bərpası bilavasitə Prezident Heydər Əliyevin təşəbbüsü və şəxsi göstərişi ilə olmuşdur. Məhz onun göstərişləri əsasında qısa müddət ərzində Filarmoniya bərpa olundu və indi ən yüksək dünya standartlarına cavab verir. Bu, bir daha onu göstərir ki, hörmətli Prezident Heydər Əliyev musiqiyə, Azərbaycanın musiqi mədəniyyətinə, incəsənətinə, ümumiyyətlə, mədəniyyətə nə qədər əhəmiyyət vermişdir. Bu diqqət, bu qayğı daim hiss olunurdu. Mədəniyyət işçiləri bunu çox yaxşı bilirlər.

Bu, 1970-1980-ci illərdə də özünü göstərirdi. Məhz o illərdə, birinci katib Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan özünü dünya miqyasında incəsənət ölkəsi kimi, mədəniyyət mərkəzi kimi təqdim edə bilibdir. Məhz o illər ərzində Azərbaycanın görkəmli bəstəkarları, müğənniləri, mədəniyyət xadimləri Sovet İttifaqının ən yüksək mükafatları, ordenləri ilə təltif olunmuşlar.

O illərdə Azərbaycanda klassik musiqi inkişaf etmişdir. Eyni zamanda, dünya klassikasının da Azərbaycanda təbliğ olunmasında Heydər Əliyevin xidmətləri müstəsna idi. Unudulmaz klassik musiqi gecələri məhz bu salonda, yay mövsümündə Filarmoniyamızın yay meydançasında keçirilirdi. Beləliklə, Azərbaycan həm öz potensialını Sovet İttifaqı və dünya miqyasında təqdim edə bilibdir, eyni zamanda, dünyanın musiqi inciləri Azərbaycanda səsləndirilmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində, ümumiyyətlə, ölkəmiz çətin vəziyyətdə yaşayırdı və incəsənətə, mədəniyyətə o qədər də böyük önəm verilmirdi. Hətta bəziləri Azərbaycanda, ümumiyyətlə, klassik musiqini qadağan etmək istəyirdilər. Amma 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıdandan sonra, başqa sahələrdə olduğu kimi, bu sahədə də dönüş yarandı. Hər şey öz yerini tutdu. Mədəniy-

yət işçilərinə qayğı göstərilməyə, müxtəlif tədbirlər keçirilməyə başlandı. Beləliklə, Azərbaycanın mədəni həyatı dirçəldi, canlandı.

Ötən illər ərzində müxtəlif tədbirlər keçirilmiş, Heydər Əliyev tərəfindən çoxlu fəxri adlar verilmiş, xüsusi təqaüdlər təsis edilmişdir. Bunun da məqsədi məhz o idi ki, Azərbaycanın mədəniyyəti inkişaf etsin, incəsənəti, ədəbiyyatı, bütün sahələr inkişaf etsin. Çünki bizim xalqımız çox istedadlı xalqdır və onun imkanları olmalıdır ki, öz istedadını, öz potensialını bütün dünyaya çatdıra bilsin.

Filarmoniyanın bərpası da məhz bu siyasətin məntiqi nəticəsidir. Baxmayaraq ki, ölkənin müxtəlif iqtisadi-sosial problemləri mövcuddur, hələ ölkəmiz, tam mənada, öz iqtisadi potensialını yarada bilməyibdir, amma Filarmoniyanın bərpasına vəsait ayrıldı və qısa müddət ərzində bu gözəl bina, demək olar ki, yenidən yaradılıbdır.

Biz hamımız bu mərasimi başqa cür təsəvvür edirdik. Güman edirdik ki, Heydər Əliyev özü şəxsən bu açılışda iştirak edəcək, ürək sözlərini deyəcək və beləliklə, bu binaya ikinci həyatı, xeyir-duanı özü verəcəkdi. Amma Allah bunu bizə nəsib etmədi. Ancaq eyni zamanda, Heydər Əliyevin fiziki yoxluğu bizi sarsıtmamalıdır. Onun fiziki yoxluğu o demək deyil ki, o, bizdən ayrılıbdır. Onun siyasəti yaşayır, onun ideyaları yaşayır və onun əsəri olan müstəqil Azərbaycan yaşayır. O, bizim qəlbimizdə daim yaşayacaqdır.

– Əziz Slava, şəxsən Sizə müraciət etmək istəyirəm. Əziz dost! Bu gün biz Sizinlə görüşdük və mən düşündüklərimi söylədim. Buraya gəldiyinizə görə, neçə illər üçün əvvəlcədən tutulmuş çox gərgin iş cədvəlinizdə vaxt tapıb, Azərbaycana gəldiyinizə, öz Vətəninizə gəldiyinizə, amma qeyri-adi bir vaxtda gəldiyinizə görə öz dərin təşəkkürümü bir daha ictimaiyyət qarşısında bildirmək istəyirəm.

Siz hər bir gəlişinizdə həmişə dostunuz Heydər Əliyevlə görüşürdünüz. Sizin hər bir gəlişiniz bizim üçün, görüşlərinizi müşahidə edən insanlar üçün alicənablıq dərsi, dostluq dərsi, insanlar arasında münasibətlər dərsi olmuşdur. Biz Sizin Heydər Əliyevlə dostluğunuzu müşahidə edərək, çox şey öyrənmişik.

Lakin bu gün vəziyyət başqa cürdür və Siz buraya əsl dost, öz ölkənizin vətənpərvəri kimi, böyük insan kimi, insanpərvər insan kimi gəlmisiniz, öz dostunuzun xatirəsini anmağa və eyni zamanda, birgə səylərinizlə – həm Sizin səylərinizlə, həm də Heydər Əliyevin səyləri ilə tam bərpa olunmuş bu gözəl binanın açılış mərasimində iştirak etməyə gəlmisiniz. Mən buna görə Sizə çox minnətdaram. Mən Sizi yüksək qiymətləndirirəm, çox sevi-

rəm, Sizə böyük hörmət bəsləyirəm. Özü də təkcə mən yox, həm də bizim hamımız. Siz bizim üçün doğma insansınız. Bizim həmyerlimizsiniz, fəxrimizsiniz. Lakin biz Sizi daha çox bir insan kimi, sözün əsl mənasında, böyük İnsan kimi, sədaqətli dost, vətənpərvər insan kimi sevirik. Ümidvaram ki, – bu gün mən bunu Sizə dedim, bunu xahiş etdim, – Siz Azərbaycana müntəzəm səfərlər edəcəksiniz. Bura Sizin evinizdir, burada Sizin dostlarınız var, burada Sizi sevirlər. Mən Sizə bir daha təşəkkürümü bildirirəm, Sizi və hamımızı gözəl bayram – Filarmoniyanın açılışı, onun ikinci həyatı münasibətilə təbrik edirəm!

***27 yanvar 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN RESPUBLİKASI PREZİDENTİNİN MƏDƏNİYYƏT MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR

Mədəniyyət mərkəzinin direktoru Uluqbəy İbrahimov Azərbaycan Prezidentinə məlumat verərək dedi ki, 2000-ci ilin oktyabrında açılmış Mərkəzdə muzey, kitabxana, konsert salonu, təsviri və dekorativ tətbiqi sənət əsərləri nümayiş etdirilən qalereya fəaliyyət göstərir. Burada etnoqrafiya salonu və Qazaxıstanın müstəqillik illərindən bəhs edən guşə də yaradılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev mədəniyyət mərkəzi ilə tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı. Dövlətimizin başçısına mədəniyyət mərkəzinin albomu təqdim olundu.

Prezident İlham Əliyev mədəniyyət mərkəzinə ümummilli liderimiz Heydər Əliyevin kitablarını və Bakının panoramı təsvir olunmuş rəsm əsəri hədiyyə etdi.

***3 mart 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKISTANA DÖVLƏT SƏFƏRİ DAŞKƏNDDƏ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Daşkənd Pedaqoji Universitetinin qarşısında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimi olmuşdur.

Mərasimə toplaşanlar – Özbəkistanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Azərbaycan diasporunun nümayəndələri, universitetin müəllim və tələbləri, Özbəkistan ictimaiyyətinin nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevi və Özbəkistan Prezidenti İslam Kərimovu hərarətli alqışlarla qarşıladılar.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz bacılar və qardaşlar!

Bu gün həyatımızda çox əlamətdar hadisədir. Özbəkistanın paytaxtı Daşkənd şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi ucaldılıb və biz bu abidənin açılış mərasimini keçiririk. Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm.

Dahi Nizaminin əsərləri ölməzdir, dəyərlidir və bütün nəsillər üçün əhəmiyyətlidir. Bu əsərlər bizim üçün və gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır. Nizaminin əsərləri özbək və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırır və bir-birinə daha sıx bağlayır.

Xalqlarımız əsrlər boyu bir yerdə olmuş, yaşamış və yaratmışlar. Onlar daim bir-birinə arxa olmuşlar. Bütün dövrlərdə Özbəkistanla Azərbaycan arasında qardaşlıq münasibətləri mövcud olmuşdur və biz çox xoşbəxtik ki, bu gün bu münasibətlər davam edir. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra da münasibətlərimiz sürətlə inkişaf etmişdir. Bu istiqamətdə ən böyük xidmət iki xalqın ümummilli liderləri İslam Kərimov və Heydər Əliyevə məxsusdur. Məhz bu liderlər öz xalqlarının müstəqilliyini əbədi və

dönməz etmişlər, dövlətlərinin möhkəmləndirilməsi istiqamətində böyük səylər göstərmişlər.

Bu gün hörmətli İslam Abduqəniyeviç mənim haqqımda danışarkən dedi ki, o, Heydər Əliyevin oğludur. Həqiqətən, bu, mənim üçün ən böyük vəzifədir. Heydər Əliyevin oğlu olmaq mənim üçün böyük vəzifə və çox böyük şərəfdir. Əmin etmək istəyirəm ki, mən bu ada layiq olacağam, atamın yolu ilə gedəcəyəm, onun siyasətini davam etdirəcəyəm. Çalışacağam əlimdən gələni edim ki, xalqlarımız və ölkələrimiz bir-birinə daha yaxın olsunlar.

Bu gün Azərbaycan Prezidenti kimi mənim Özbəkistana ilk dövlət səfərim başlanmışdır. Bu dəvətə və mənə göstərilən qonaqpərvərliyə, diqqətə görə Özbəkistan Respublikasının Prezidenti hörmətli İslam Abduqəniyeviç Kərimova və bütün özbək xalqına öz dərin minnətdarlığımı bildirirəm.

Bu gün apardığımız söhbətlər, danışıqlar nəticəsində bir daha əmin oldum ki, ölkələrimiz gələcəkdə də daim birlikdə olacaq, xalqlarımız həmişə bir-birinə sıx bağlı olacaqlar. Bizim xoşbəxtliyimiz birlikdədir. Biz daim bir yerdə olmalıyıq, çünki taleyimiz, gələcəyimiz və niyyətimiz birdir. Niyyət də ondan ibarətdir ki, Özbəkistan və Azərbaycan rahat, azad və firavan yaşasınlar, öz dövlət müstəqilliyini bundan sonra da möhkəmləndirsinlər və beləliklə, insanlarımız əmin olsunlar ki, onların gələcəyi etibarlı əllərdədir.

Bu gün mən öz çıxışlarımda da, ikitərəfli danışıqlar zamanı da bir neçə dəfə qeyd etmişəm ki, Özbəkistan xalqı ona ümummilli lideri İslam Abduqəniyeviç Kərimov kimi tanınmış dövlət xadimi rəhbərlik etdiyi üçün xoşbəxt və bəxtiyardır. Özbəkistan dövlət müstəqilliyini əldə etdikdən sonra məhz onun yorulmaz fəaliyyəti nəticəsində böyük uğurlara nail olmuşdur. Ölkənin iqtisadi potensialı güclənmiş, Özbəkistan dünya birliyində özünə layiq yerini tuta bilmişdir. Bu gün Özbəkistan bütün region üçün çox əhəmiyyətli bir ölkədir. Əlbəttə, gələcəkdə Özbəkistan-Azərbaycan münasibətləri də bizim hamımızın diqqət mərkəzində olmalıdır. Biz bu siyasəti davam etdirməliyik. Əminəm ki, xalqlarımız bundan böyük fayda görəcəklər.

Sizə onu da demək istəyirəm ki, yaxın zamanlarda Bakı şəhərində dahi özbək şairi Əlişir Nəvainin də abidəsi ucaldılacaqdır və əminəm ki, əziz dostumuz və qardaşımız İslam Abduqəniyeviç və sizlər, əziz bacılar və qardaşlar, bu mərasimdə iştirak edəcəksiniz.

Mənim Özbəkistana, özbək xalqına həmişə böyük hörmət və məhəbbətim olmuşdur. Düzdür, bu mənim Özbəkistana ilk səfərimdir. Ancaq Özbəkistan və özbək xalqı haqqında geniş məlumatım vardır. Mənim atam

Prezident Heydər Əliyev dəfələrlə burada olmuş və öz fikirlərini və duyğularını mənimlə bölüşmüşdür. Əmin ola bilərsiniz ki, bu siyasət, yəni Azərbaycan-Özbəkistan münasibətlərinin daha da dərinləşdirilməsi, inkişafı istiqamətində aparılan siyasət bundan sonra da davam edəcəkdir və xalqlarımız gələcəkdə də birlikdə olacaqlar, bir nöqtəyə vuracaqlar, həmişə olduğu kimi, bir-birinə dayaq və arxa olacaqlar.

Bir daha mənə göstərilən bu böyük ehtirama, qonaqpərvərliyə, məhəbbətə görə hörmətli Prezident İslam Kərimova minnətdarlığımı bildirirəm. Qardaş özbək xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

***23 mart 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAŞKƏNDDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistanın Baş naziri Şavkat Mirziyayev mərasimdə iştirak edirdilər.

Mərasimə Özbəkistanda akkreditə olunmuş səfirliklərin rəhbərləri, Azərbaycan diasporunun və Daşkənd ictimaiyyətinin nümayəndələri toplaşmışdı.

Əvvəlcə, Mədəniyyət mərkəzinin yerləşdiyi küçəyə ümummilli liderimiz Heydər Əliyevin adının verilməsini bildirən lövhənin açılışı oldu. Prezident İlham Əliyev mərasimə toplaşanların alqış sədaları altında lövhənin üzərindəki örtüyü götürdü.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin Mədəniyyət mərkəzinin qarşısında qoyulmuş abidəsinin açılışı oldu. Dövlətimizin başçısı abidənin üzərindən örtüyü götürdü.

Azərbaycan Mədəniyyət Mərkəzinin açılışına həsr olunmuş mərasim başlandı. Mərasimi giriş sözü ilə açan ölkəmizin Daşkənddəki səfiri Aydın Əzimbəyov bildirdi ki, Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri günlərində ümummilli liderimiz Heydər Əliyevin abidəsinin, Azərbaycan Mədəniyyət Mərkəzinin, dahi Nizami Gəncəvinin abidəsinin və ölkəmizin səfirliyinin yeni binasının açılışı çox əlamətdar hadisələrdir. Səfir vurğuladı ki, qardaş və dost xalqlarımızın daha da yaxınlaşması naminə prezidentlər İlham Əliyev və İslam Kərimovun səyləri ikitərəfli əlaqələrin möhkəmlənməsi sahəsində Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin məntiqi davamıdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistanın Baş naziri Şavkat Mirziyayev mərasimdə çıxış etdilər.

***24 mart 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Əziz dostlar!

Dünən dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı zamanı Özbəkistanın Prezidenti hörmətli İslam Abduqəniyeviç Kərimov çıxış edərkən mən onun dediklərinin demək olar ki, hamısını başa düşdüm. O, özbək dilində çıxış edirdi. Mən Azərbaycan dilində çıxış edərkən o da mənim dediklərimin hamısını başa düşürdü. Bu, bir daha göstərir ki, bizim xalqlarımız nə qədər yaxındır.

Bu imkandan istifadə edərək, Azərbaycan dilinin özbəklər üçün ana dili qədər yaxın olduğunu və özbək dilinin azərbaycanlılar üçün doğma olduğunu nəzərə alaraq, mən sizin qarşınızda Azərbaycan dilində çıxış etmək istərdim.

Hörmətli xanımlar və cənablar!

Əziz bacılar və qardaşlar!

Mənim Özbəkistana dövlət səfərimin ikinci günüdür. Bu səfər çox uğurlu keçir. Səfər çərçivəsində aparılmış ikitərəfli danışıqların nəticəsi olaraq, iki ölkə bir-birinə daha da yaxın olmuşdur. Özbəkistanın Prezidenti hörmətli cənab Kərimovla apardığımız söhbətlər əsnasında bir daha əmin olduq ki, bütün məsələlərdə – ikitərəfli əlaqələr, regional əməkdaşlıq sahəsində mövqelərimiz üst-üstə düşür.

Özbəkistan və Azərbaycan uzun illərdir ki, bir-birinə kömək edir, arxa və dayaq durur. Bu səmimi münasibətlərin əsasını xalqlarımızın ümummilli liderləri İslam Kərimov və Heydər Əliyev qoymuşlar. Azərbaycanın hazırkı Prezidenti kimi mən bu siyasətə sadiqəm, onu davam etdirəcəyəm. Mənə göstərilən hörmət, ehtiram və diqqət bir daha əminlik hissi yaradır ki, xalqlarımız həmişə olduğu kimi, bundan sonra da uğurlara doğru çiyin-çiyinə addımlayacaqlar.

Bu gün Azərbaycanın və Özbəkistanın tarixində çox əlamətdar bir gündür. Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin yeni binasının açılışıdır.

Mədəniyyət mərkəzi çoxdan fəaliyyət göstərirdi, lakin binası yox idi. Özbəkistanda yaşayan azərbaycanlıların və özbək qardaşlarımızın, digər millətlərin nümayəndələrinin, Özbəkistan Prezidenti cənab Kərimovun bilavasitə köməyi və dəstəyi ilə Azərbaycan Mədəniyyət Mərkəzinin yeni bi-

nası tikilib istifadəyə verilir. Əminəm ki, Mərkəzdə keçiriləcək tədbirlər, o cümlədən ana dilində aparılacaq tədris proqramları burada yaşayan azərbaycanlılara böyük fayda verəcəkdir.

Eyni zamanda, bizim özbək qardaşlarımız da bu Mərkəzin əziz qonaqları olacaqlar.

Buradakı küçəyə Heydər Əliyevin adı verilmişdir. Bu qərara görə Azərbaycan Respublikasının Prezidenti və Heydər Əliyevin oğlu kimi mən Özbəkistan Prezidenti cənab Kərimova öz minnətdarlığımı bildirirəm.

Eyni zamanda, Mədəniyyət mərkəzinin qarşısında Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Heydər Əliyevin müasir Azərbaycanın tarixində müstəsna xidmətləri vardır. 1993-cü ildə məhz onun hakimiyyətə təkrar qayıdışından sonra Azərbaycanda böhrana və xaosa son qoyuldu. Ölkəmiz o ağır sınaqlardan ləyaqətlə çıxa bildi. O vaxt ölkəmizdə vəziyyət çox ağır idi. Əgər Heydər Əliyevin qətiyyəti, iradəsi və cəsarəti olmasaydı, ölkəmizi böyük bəlalar gözləyə bilərdi.

Son on il ərzində Azərbaycan öz müstəqilliyini möhkəmləndirmiş, iqtisadi potensialını gücləndirmişdir. Bu gün ölkəmiz dünyada öz layiqli yerini tuta bilmişdir və bütün sahələrdə sürətlə inkişaf edir. Əminəm ki, xalqımız bundan sonra sabitlik şəraitində, sülh və əmin-amanlıq şəraitində yaşayacaqdır. Azərbaycan xalqının ən böyük arzusu və istəyi ondan ibarətdir ki, ölkəmizdə sülh və sabitlik olsun, qayda-qanuna riayət edilsin, iqtisadi və sosial məsələlər öz həllini tapsın. Azərbaycan rəhbərliyi buna nail olmaq üçün əlindən gələni əsirgəməyəcəkdir.

Bu iki gün ərzində mən çox böyük hörmət, qonaqpərvərlik, diqqət gördüm. Bütün bunlara görə, ilk növbədə, Özbəkistan Respublikasının Prezidenti, Azərbaycan xalqının əziz dostu İslam Abduqəniyeviç Kərimova bir daha öz minnətdarlığımı bildirmək istəyirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra ölkələrimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətləri daha da güclənəcəkdir. Biz hamımız birlikdə yeni qələbələrə doğru addımlayacağıq.

Bir daha sizi təbrik edirəm. Cansağlığı, səadət və xoşbəxtlik arzulayıram.

***24 mart 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SƏMƏRQƏNDİN TARİX-MEMARLIQ ABİDƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanın Prezidenti İlham Əliyevin Səmərqəndlə tanışlığı dahi özbək şairi Əlişir Nəvainin abidəsinin ziyarət olunması ilə başlandı.

Sonra Prezident İlham Əliyev Uluqbəy rəsədxanasına gəldi. Dövlətimizin başçısına məlumat verildi ki, bu rəsədxana Əmir Teymurun nəvəsi, məşhur özbək astronomu Uluqbəy tərəfindən XV əsrdə yaradılmışdır. Sonrakı dövrlərdə bura uçulub dağılsa da, XX əsrin əvvəllərində rəsədxananın qalıqları tapılmış və yenidən bərpa olunmuşdur. Prezident İlham Əliyev burada yaradılmış muzeyin eksponatları ilə də tanış oldu.

Daha sonra Prezident İlham Əliyev Səmərqəndin ən qədim abidələrinin yerləşdiyi ərazidəki Əfrasiyab muzeyinə gəldi. 1970-ci ildə yaradılmış bu muzeydə eramızdan əvvəl V-IV və eramızın VII-VIII əsrlərinə aid arxeoloji tapıntılar, müxtəlif qədim bəzək əşyaları saxlanılır. Dövlətimizin başçısına məlumat verildi ki, indiki Səmərqənd qədimdə Marakanda, sonra Əfrasiyab adlanmışdır. Prezident İlham Əliyevə dünyanın müxtəlif yerlərindən gəlmiş arxeoloqlar tərəfindən aparılmış ekspedisiyaların nəticələri barədə də ətraflı məlumat verildi.

Azərbaycan Prezidenti Registan meydanına gəldi. Zəngin memarlıq abidələri ilə məşhur olan bu meydanda dövlətimizin başçısı XV-XVII əsrlərin yadigarı olan mədrəsələrin binalarına tamaşa etdi.

◆◆◆

Şəhərlə tanışlıqdan sonra Prezident İlham Əliyev jurnalistlərin suallarına cavab verdi.

SUAL: Cənab Prezident, 1997-ci ildə Prezident Heydər Əliyev Özbəkistana səfər etmişdi və bu səfər zamanı iki ölkə arasında əlaqələrin inkişafına dair mühüm danışıqlar aparılmış və sənədlər imzalanmışdır. O, həmçinin Səmərqənd şəhərində də olmuşdu. Bu gün siz bizim Prezidentimizlə bu əlaqələrin inkişafına dair danışıqlar aparmısınız. Bu danışıqlarda hansı məsələləri müzakirə etdiniz?

CAVAB: Qeyd etdiyiniz kimi, Azərbaycan Prezidenti Heydər Əliyev Özbəkistanda rəsmi səfərdə olarkən Səmərqənd şəhərinə də gəlmişdi. Sə-

fərdən sonra ölkələrimizin əlaqələri daha da güclənmişdir. O vaxtdan bu günə qədər aramızda olan bütün ikitərəfli məsələlər öz müsbət həllini tapmışdır. Azərbaycanla Özbəkistan qardaş ölkələrdir, tərəfdaşlardır və bu, davam edir. Mənim səfərim də dostluq əlaqələrinin davamında mühüm rol oynayacaqdır. İkitərəfli əlaqələrimiz əvvəllər olduğu kimi, bundan sonra da inkişaf edəcəkdir. Özbəkistanın Prezidenti hörmətli İslam Kərimovla imzaladığımız ikitərəfli sənədlər və digər sənədlər gələcəkdə uğurlu əməkdaşlıq üçün gözəl bir zəmindir. Mən gələcəyimizi çox parlaq görürəm. Xalqlarımız və ölkələrimiz bir-birinə yaxındır. Şəxsən mən əlimdən gələni edəcəyəm ki, ölkələrimiz arasında olan münasibətlər daha da inkişaf etsin.

SUAL: Cənab Prezident, bu, sizin Özbəkistana ilk dövlət səfərinizdir və çox səmərəli keçdi. Bu gün də Siz qədim Səmərqənddə oldunuz. Ümumi təəssüratınız necədir?

CAVAB: Təəssüratım çox müsbətdir. Artıq mən bu məsələyə toxundum. Bu səfəri çox yüksək qiymətləndirirəm. Apardığımız bütün söhbətlər zamanı toxunduğumuz məsələlərə dair fikirlərimiz üst-üstə düşmüşdür. İkitərəfli əlaqələr inkişaf edir. Düzdür, ticarət sektorunda hələ də lazımi nəticələr əldə olunmayıbdır. Lakin bunun obyektiv səbəbləri vardır. Kommunikasiyaların lazımi səviyyədə olmaması ticarət əlaqələrinə müəyyən çətinliklər yaratmışdır. Amma bu istiqamətdə də hökumətlərimiz arasında yaradılmış komissiya işləyəcəkdir və öz təkliflərini bizə təqdim edəcəkdir. Regional məsələlərə baxışlarımız, demək olar ki, eynidir. Özbəkistan və Azərbaycan rəhbərliyi dünyada gedən proseslər ətrafında da vahid mövqedən çıxış edir.

***27 mart 2004-cü il***

## PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI REDAKSİYA HEYƏTİNİN İLK İCLASI KEÇİRİLMİŞDİR

Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan Milli Ensiklopediyası Redaksiya heyətinin ilk iclası keçirilmişdir.

Dövlətimizin başçısı, Azərbaycan Milli Ensiklopediyası Redaksiya heyətinin sədri İlham Əliyev iclası giriş nitqi ilə açdı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

– Əziz dostlar!

Üç aya yaxındır ki, "Azərbaycan Milli Ensiklopediyası"nın nəşri haqqında qərar qəbul edilmişdir. Bu, müasir Azərbaycanın tarixində çox əlamətdar bir hadisədir.

Bildiyiniz kimi, 1970-ci illərdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə köməyi ilə "Azərbaycan Sovet Ensiklopediyası" hazırlanmış və nəşr edilmişdir. Həmin ensiklopediyada Azərbaycanın tarixi, mədəni irsi haqqında, Azərbaycanın həyatı haqqında kifayət qədər geniş məlumatlar toplanmış və müəyyən ideoloji çərçivələr əsasında o ensiklopediya işıq üzü görmüşdür. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Azərbaycan Sovet İttifaqının bir hissəsi idi. Amma buna baxmayaraq, o ensiklopediyada Azərbaycanın milli-mənəvi dəyərləri öz əksini tapmışdı.

Prezident Heydər Əliyev bu məsələyə həmişə böyük diqqətlə yanaşırdı və şəxsən onun təşəbbüsü ilə ensiklopediyada Azərbaycanın keçmişi, o vaxtkı vəziyyəti, tarixi irsi kifayət qədər təhlil edilmişdir.

Bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və güclənir. Təbii ki, müstəqil Azərbaycanın yeni milli ensiklopediyası olmalıdır və artıq bu barədə qərar qəbul edilmişdir.

Bu gün ensiklopediyanın Redaksiya heyətinin ilk iclasıdır və yəqin ki, burada əməli-praktiki tədbirlər haqqında müzakirələr aparılacaq, iş bölgüsü prinsipləri haqqında söhbət gedəcək və ümumiyyətlə, Redaksiya heyətinin

gələcək fəaliyyəti haqqında biz danışacağıq. Redaksiya heyəti qarşısında çox mühüm vəzifələr durur. Mən artıq qeyd etdim ki, ensiklopediyanın hazırlanması və nəşri müasir Azərbaycan tarixində çox əlamətdar bir hadisə olacaqdır. Azərbaycanın ictimai-siyasi həyatının çox mühüm amili olacaqdır. Bütün bunları nəzərə alaraq, mən qərara gəldim ki, Redaksiya heyətinə özüm başçılıq edim. Əminəm ki, Redaksiya heyətinin bütün üzvləri bu nəcib və əhəmiyyətli işdə fəal iştirak edəcəklər. Redaksiya heyətində təmsil olunmuş insanlar Azərbaycanın görkəmli elm, mədəniyyət, siyasət xadimləridir. Əminəm ki, hamımız birlikdə yaxın zamanlarda müasir Azərbaycanın reallıqlarını əks etdirən, müasir dövrə uyğun formada yeni ensiklopediyanın nəşrinə nail olacağıq.

Mən düşünürəm ki, ensiklopediyamız hazırlanandan sonra onun elektron daşıyıcılarının da təqdimatı olmalıdır, o, İnternet vasitəsilə bütün dünyaya açıq olmalıdır. Xarici dillərə tərcümə edilməlidir ki, bütün dünya Azərbaycan haqqında məlumatı ilk mənbədən ala bilsin.

Mən qeyd etdim ki, üç aya yaxındır bu barədə qərar verilibdir. Yanvarın 12-də bu barədə Sərəncam verilib və Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov ensiklopediyanın baş redaktoru təyin edilibdir. İstərdim, bu müddət ərzində görülən işlər haqqında siz məlumat verəsiniz.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

Hörmətli Redaksiya heyətinin üzvləri!

Hesab edirəm ki, bu gün çox səmərəli müzakirələr aparıldı, çox dəyərli fikirlər səsləndi. Hesab edirəm ki, Redaksiya heyətinin ilk iclası ümumi işimizə gözəl istiqamət vermiş oldu. Heç bir fikir ayrılığı yoxdur, ensiklopediya Azərbaycan tarixini, Azərbaycanın bu gününü və ümumiyyətlə, Azərbaycanda bütün əsrlər boyu baş vermiş hadisələri oxuculara açıq-aydın, qərəzsiz, təhrifsiz çatdırmalıdır. Bu, özümüz üçün də, Azərbaycan xalqı üçün də lazımdır, eyni zamanda, dünya üçün də lazımdır.

Əfsuslar olsun ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra informasiya blokadasına düçar oldu. Ermənistanın və dünya erməni lobbisinin fəaliyyəti nəticəsində Azərbaycan haqqında ya ümumiyyətlə məlumat verilmirdi, ya da yalnız mənfi məlumat verilirdi. Bu blokadanı yarmaq çox çətin məsələ idi. Amma bütün bunlara baxmayaraq, xalqımızın ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində bu blokada dağıdıldı və artıq

Azərbaycan haqqında, Azərbaycan həqiqətləri haqqında dünyada, bütün beynəlxalq təşkilatlarda kifayət qədər məlumatlar var. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq təşkilatları artıq Ermənistanı işğalçı dövlət kimi tanıyırlar, Azərbaycan torpaqlarının işğal olunmasını etiraf edirlər və beləliklə, bu, gələcək danışıqlar prosesində gözəl bir zəmin yaradır.

"Azərbaycan Sovet Ensiklopediyası" haqqında kifayət qədər danışıldı. Əlbəttə ki, o dövr üçün "Azərbaycan Sovet Ensiklopediyası" ümumi bir əsər idi. Yenə də qeyd etmək istəyirəm, o vaxtın ideoloji çərçivələri belə idi ki, burada Azərbaycanın tarixi tam mənada öz əksini, təbii ki, tapa bilmirdi. Bəzi hallarda Azərbaycana yad olan, millətimizə, xalqımıza yad olan, yaxud da düşmənçilik mövqeyində dayanan şəxslər haqqında da məlumatlar verilmişdir. O da zəmanənin tələbi idi. Yenə də qeyd edirəm ki, Azərbaycan müstəqil dövlət deyildi və əlbəttə ki, bu ensiklopediyaya mərkəzi orqanlar tərəfindən də nəzarət var idi və burada qeyd olundu ki, müəyyən dəyişikliklər də edilmişdir.

İndi Azərbaycan müstəqil dövlətdir. İndi Azərbaycanda nə Şaumyan var, nə də başqası. Əgər özümüzdən olanlar burada Xankəndi əvəzinə Stepanakert yazmasalar, bizim qarşımıza heç bir problem çıxmayacaqdır.

Mən nə bu Sözlüyü, nə də 1-ci cild adlandırılan kitabı qəbul etmirəm və hesab edirəm ki, bu ensiklopediyanın hazırlanmasında, formalaşmasında bundan istifadə etmək mümkün deyildir. Bu, yenidən işlənilməlidir. Artıq mən Redaksiya heyəti üzvlərinin də əhval-ruhiyyəsini görürəm, görürəm ki, hamımız böyük həvəslə bu işə başlayacağıq. Əminəm ki, yaxın zamanlarda Sözlük, eyni zamanda, 1-ci cild də yenidən işlənib hazırlanacaqdır. Tələskənliyə də yol vermək olmaz. Biz hamımız çalışmalıyıq ki, bu, müfəssəl bir əsər olsun. Azərbaycanın reallıqlarını, tarixini əks etdirən, Azərbaycanın bu gününü əks etdirən əsər olsun. Ona görə nə qədər zaman, vaxt lazımdırsa, gərək işlər aparılsın.

Burada qeyd olundu ki, ensiklopediyamız 20-25 cilddən ibarət nəzərdə tutulur. Hesab edirəm ki, buna Redaksiya heyəti baxa bilər. Amma mənim fikrim belədir ki, hər halda, biz bunu 25 cilddən az olmamaq şərtilə nəşr etməliyik. Bu, İnternetə, bütün digər elektron daşıyıcılarına çıxarılmalıdır, xarici dillərə tərcümə edilməlidir ki, təkcə biz yox, bütün dünya Azərbaycan həqiqətləri ilə tanış ola bilsin.

Azərbaycan on ildən artıqdır ki, müstəqil dövlətdir və əlbəttə ki, bu dövr ensiklopediyada xüsusi bir yer almalıdır. Azərbaycanın müstəqilliyinin formalaşmasında, onun qorunub saxlanmasında, azərbaycançılıq ideologiyasının formalaşmasında, Azərbaycan dilinin qorunmasında ümummilli lideri-

miz Heydər Əliyevin fəaliyyəti və xidmətləri, təbii ki, xüsusi bir yer almalıdır. Mən əminəm ki, Redaksiya heyəti və bu məsələ ilə məşğul olan alimlərimiz bunun öhdəsindən gələcəklər. Bu, Azərbaycan tarixində xüsusi yeri olan bir dövrdür. Bildiyiniz kimi, Azərbaycan müstəqillik dövrünün ilk illərində çox böyük çətinliklər çəkib, Azərbaycan, demək olar ki, parçalanmaq ərəfəsində idi. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəlməsəydi, xalqımızı böyük bəlalar gözləyə bilərdi.

Mən hesab edirəm ki, ensiklopediyada Azərbaycan tarixi üçün mühüm hadisələr xronoloji baxımdan deyil, təhlil baxımından işıqlandırılmalıdır. Təbii ki, xronoloji gedişat çox mühümdür. Amma eyni zamanda, hesab edirəm ki, təhlillər də aparılmalıdır və Azərbaycan tarixi üçün həlledici hadisələr – iqtisadi, siyasi, tarixi cəhətdən önəmli hadisələr düzgün araşdırılmalıdır. Bu, bizim üçün lazımdır. Bu gün üçün lazımdır, gələcək nəsillər üçün lazımdır.

Azərbaycanın uğurlu neft strategiyası, Azərbaycanın iqtisadi inkişafı, sosial məsələlərin həlli, Azərbaycanda gedən quruculuq işləri, müstəqilliyimizin möhkəmləndirilməsi – bütün bu məsələlər öz əksini tapmalıdır. Əlbəttə ki, Ermənistanın Azərbaycana etdiyi təcavüz, işğal da öz əksini tapmalıdır. Bu məsələ ensiklopediyada çox geniş yer almalıdır. Hesab edirəm ki, əgər bu məsələ geniş yerini taparsa, düzgün təqdim olunarsa, bu gün üçün də, gələcək üçün də mühüm bir hadisəyə çevriləcəkdir.

Burada, Azərbaycan xalqının keçmişi ilə əlaqədar, başqa ölkələrdə yaşayan azərbaycanlıların taleyi ilə əlaqədar, Azərbaycanın milli irsi ilə əlaqədar çox dəyərli təkliflər səsləndi. Hesab edirəm, bütün bu məsələlər öz əksini tapacaq və əlbəttə ki, növbəti iclaslarda daha geniş müzakirə olunacaqdır.

Bugünkü müzakirədən çox razıyam, məndə bu gün əminlik hissi oyanıb ki, biz bu işin öhdəsindən gələcəyik. Düzdür, dünən bu yazıları vərəqləyəndə mən çox məyus oldum. Amma bugünkü iclas məni çox ruhlandırdı. Bu nəcib, olduqca vacib işdə sizin hamınıza uğurlar arzulayıram. Əminəm ki, biz Azərbaycan xalqına gözəl bir hədiyyə bəxş edəcəyik, “Azərbaycan Milli Ensiklopediyası” yaxın zamanlarda işıq üzü görəcəkdir. Sağ olun, təşəkkür edirəm.

***8 aprel 2004-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycanda Atatürk Mərkəzinin təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşanlar dövlətimizin başçısını ehtiramla qarşıladılar.

Respublikamızın rəhbəri xarici qonaqlarla, türkdilli ölkələrin Bakıdakı səfirləri ilə səmimi görüşdü.

Müstəqil Azərbaycanın qurucusu, xalqımızın ümummilli lideri Prezident Heydər Əliyev türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi ilə 2001-ci il martın 9-da Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır.

Atatürk Mərkəzinin yaradıcısı və ilk fəxri sədri olan Heydər Əliyev bu sənədi imzalamaqla Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha nümayiş etdirdi.

Elmi araşdırmalar və mədəniyyət təşkilatı olan bu Mərkəzin əsas vəzifəsi Mustafa Kamal Atatürkün türk dünyasındakı yerini və rolunu, türkdilli xalqların tarixi və mədəniyyətini fundamental şəkildə hərtərəfli öyrənmək və bu xalqların zəngin irsini təbliğ etməkdir.

Ölkəmizin həyatında əlamətdar hadisəyə həsr olunmuş mərasimi Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Milli Məclisin deputatı, Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov açdı.

***10 aprel 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab nazir!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür.

Bu gün Azərbaycanda Atatürkün evi – Atatürk Mərkəzi açılır. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Burada qeyd olundu ki, bu Mərkəzin açılması barədə qərar Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən verilmişdir. Həmin Sərəncam veriləndən sonra bir müddət Mərkəz üçün münasib bir bina axtarılıb və nəhayət, bu, müəyyən olunubdur. Bu gün gözəl tarixi binada Atatürk Mərkəzi öz fəaliyyətinə başlayır.

Mustafa Kamal Atatürk dünyanın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cümhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Atatürkdən sonra 65 il yaşayan Türkiyənin bütün uğurlarının təməli məhz 1923-cü ildən qoyulmuşdur. Bu, düzgün, sağlam təməl üzərində qurulmuş müasir dövlət inkişaf etmiş, güclənmişdir və bu gün Türkiyə dünyada böyük siyasi çəkiyə malik olan bir ölkədir. Türkiyənin dünya birliyində çox önəmli yeri vardır. Bu, bizim hamımızı – bütün türk dünyasını sevindirir.

Mustafa Kamal Paşanın ən böyük xidmətlərindən biri də odur ki, onun tərəfindən, bilavasitə onun rəhbərliyi və iştirakı ilə türk ordusu yaranmışdır. Bu ordu bu gün güclənmiş və deyə bilərəm ki, bölgədə, regionda sülhün, təhlükəsizliyin keşiyində duran bir ordudur. Türkiyə Cümhuriyyətinin, bütün türk dünyasının rahat, təhlükəsiz şəraitdə yaşamasında mühüm rol oynayan bir amildir. Biz, türk dünyası haqlı olaraq bundan qürur hissi duyuruq.

Mustafa Kamal Atatürk təkcə Türkiyə haqqında deyil, bütün türk dünyası haqqında daim düşünmüşdür. O cümlədən Azərbaycanda yaşanan olaylar da onu hər zaman narahat edirdi, düşündürürdü və azərbaycanlı qardaşlarına olan məhəbbəti, hörməti, sevgisi bizim hamımıza bəllidir.

Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyə qovuşandan sonra onu tanıyan ilk ölkə Türkiyə olmuşdur. Ondan sonra Türkiyə-Azərbaycan əlaqə-

ləri, münasibətləri günü-gündən inkişaf edir, güclənir. Bu münasibətlərin inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xidmətləri müstəsnadır. Məhz onun fəaliyyəti nəticəsində son on il ərzində Türkiyə-Azərbaycan münasibətləri güclənmiş, inkişaf etmişdir və bu gün ölkələrarası münasibətlərə örnək, nümunə ola bilər. Biz bu siyasətə sadiqik. Biz, Azərbaycanın yeni rəhbərləri bütün məsələlərdə Heydər Əliyevin yolu ilə gedirik. O cümlədən Türkiyə-Azərbaycan münasibətlərinin inkişafı baxımından da biz bu siyasətə sadiqik.

Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni – bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu, bizi çox sevindirir.

Bu gün Türkiyədə və Azərbaycanda dünyanın ən böyük layihəsi – Bakı-Tbilisi-Ceyhan layihəsi həyata keçirilir. Bu layihə bizi daha da sıx bağlayacaq, daha da sıx birləşdirəcəkdir. Regional əməkdaşlıq üçün gözəl şərait yaradacaqdır. Ümumiyyətlə, regionda bundan sonra gedən proseslərə böyük təsir göstərəcəkdir.

Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin həmişə kəlamını yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır.

Bilirsiniz ki, Heydər Əliyev, eyni zamanda, Atatürk beynəlxalq sülh mükafatı ilə təltif edilmişdir. Mən o mərasimi çox yaxşı xatırlayıram. O, orada böyük bir nitq söylədi və qeyd etdi ki, müxtəlif dövrlərdə çoxlu ordenlər, medallar, mükafatlar almışdır. Amma dedi ki, mənim üçün bu mükafat indiyə qədər aldığım bütün mükafatlardan qiymətlidir, doğmadır və əzizdir. Bu da təbiidir. Çünki Heydər Əliyev Atatürkün mədəni, tarixi irsinə həmişə sadiq olan bir şəxsiyyət idi və bugünkü Azərbaycan da məhz bu yol ilə gedir. Azərbaycan güclənir, öz iqtisadi, siyasi potensialını işə salır və dünyada özünə layiq yerini artıq tutubdur. Mən əminəm ki, ölkəmiz bundan sonra daha yüksək pilləyə qalxacaqdır.

Bu gün çox əlamətdar bir gündür. Mən ümid edirəm və əminəm ki, burada, Azərbaycanda fəaliyyət göstərəcək Atatürk Mərkəzində Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir. Mən Atatürk Mərkəzinə uğurlar arzulayıram. Sizin hamınızı bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

***10 aprel 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ANKARADA HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ankaranın yaxınlığında, Batıkənddə xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə salınmış parkın təntənəli açılış mərasimində iştirak etmişdir.

Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi. Təntənəli mərasimi Türkiyənin Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı Nazirliyi Baş meşəsalma idarəsinin müdiri Mustafa Yüksəl açdı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli nazirlər!
Hörmətli vali!
Əziz xanımlar və cənablar!

İlk növbədə, mən Türkiyə hökumətinə, ətraf mühitin mühafizəsi və meşə təsərrüfatı nazirinə, bütün türk qardaşlarımıza öz dərin minnətdarlığımı və təşəkkürümü bildirmək istəyirəm ki, bu parka Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını vermisiniz. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan xalqları, ölkələrimiz daim birlikdə olublar, bir-birinə yardım, kömək ediblər. Biz bu dəstəyi, Türkiyədən gələn məhəbbəti həmişə, bütün zamanlarda hiss edirdik. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyədən gələn dəstək bizim rahat və təhlükəsiz şəraitdə yaşamağımıza böyük fayda veribdir.

Heydər Əliyev müasir Azərbaycanın qurucusudur. Müasir, müstəqil Azərbaycan onun əsəridir. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkəmizdə sabitlik bərpa olundu, hərc-mərcliyə, anarxiyaya son qoyuldu və ölkəmiz yavaş-yavaş inkişaf etməyə başladı.

1993-cü ildən 1996-cı ilə qədər Azərbaycanın tarixində çox çətin illər yaşanmışdır. O illər ərzində Azərbaycan böyük təhlükələrdən keçərək, öz dövlət müstəqilliyini möhkəmləndirmiş və beləliklə, ölkəmizin gələcək inkişafı üçün gözəl imkanlar əldə olunmuşdur. 1996-cı ildən başlayaraq, bu

günə qədər ölkəmiz dinamik şəkildə inkişaf edir. Bizdə iqtisadi artım ildə 10 faiz həddindədir. Azərbaycanın dünyada mövqeləri möhkəmlənibdir, ölkəmiz dünya birliyində özünə layiq yerini tuta bilibdir. Ölkəmiz beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq edir. Azərbaycanın bütün sahələrinin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Biz, ondan sonrakı rəhbərlər, bu gün Azərbaycana rəhbərlik edən şəxslər bütün zamanlarda onun siyasətinə sadiq olacağıq. Çünki bu siyasətin alternativi yoxdur. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bəyənir və bu siyasətə səs verir.

Heydər Əliyevin Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında da müstəsna rolu olmuşdur. Onun siyasətinin ən əsas istiqamətlərindən biri də o idi ki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə inkişaf etsin. Biz bunun şahidiyik ki, bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz çox güclü münasibətlər qurmuşlar və birlikdə mühüm işlərin öhdəsindən gəlirlər.

Heydər Əliyevin ifadəsi bu gün burada səsləndi: "Biz bir millət, iki dövlətik". Bu, bir daha onu göstərir ki, o, Türkiyəyə, türk dünyasına nə qədər bağlı idi. Biz bu siyasətə sadiqik, bu siyasəti davam etdirəcəyik. Mənim Türkiyəyə indiki rəsmi səfərim də məhz bu siyasətin məntiqi nəticəsidir.

Dünən və bu gün keçirdiyim bütün görüşlərdə, apardığım bütün danışıqlarda bir daha əmin oldum ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri davam edir, güclənir. Mən əminəm ki, bu səfərdən sonra bu münasibətlərə yeni təkan veriləcəkdir. Ölkələrimiz daha sıx işbirliyi, əməkdaşlıq edəcəklər. Bunu dəfələrlə bilidirmişəm və bir daha demək istəyirəm ki, bizim gücümüz bizim birliyimizdədir. Biz daim bir-birimizin yanında olmalıyıq və əminəm ki, olacağıq.

Heydər Əliyevi Türkiyəyə böyük tellər bağlayırdı. O, qəlbən Türkiyəyə, türk xalqına yaxın idi. Bizə də vəsiyyət etmişdir ki, bu siyasəti davam etdirək. Biz də bunu edirik. Əminəm ki, bundan sonra, – bütün zamanlarda, 50-100-200 ildən sonra, bütün əsrlərdə Türkiyə və Azərbaycan, iki qardaş ölkə daim bir-birinin yanında olacaqdır.

Bu parka Heydər Əliyevin adının verilməsi çox rəmzi xarakter daşıyır. Deməliyəm ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev meşələrə, yaşıllığa daim böyük diqqət göstərmişdir. Onun təşəbbüsü ilə Azərbaycanın, bütün bölgələrində meşələr, parklar salınmışdır. Həmin parklar bu gün də Azərbaycanımızı gözəlləşdirir və onun adını daşıyır. O, bir dəfə çıxışları zamanı demişdir ki, ağacları kəsməyin, ağacları əkin, bilin ki, ağacları kəsəndə, elə bil, mənim qolumu kəsirsiniz. Bu gün bu parkı görəndə mən düşünürəm ki, bir neçə il sonra bu fidanlar böyüyəcək, qollu-budaqlı olacaq,

şəhərinizi gözəlləşdirəcəkdir. Beləliklə, Heydər Əliyevin xatirəsi burada da yaşayacaqdır.

Əziz qardaşlar, Azərbaycanın Prezidenti kimi, Heydər Əliyevin varisi kimi, davamçısı kimi mən sizə ürəkdən minnətdaram. Siz Heydər Əliyevin xatirəsinə böyük hörmət göstərirsiniz. Azərbaycanımıza böyük məhəbbət göstərirsiniz. Mənə, Azərbaycanın Prezidentinə, mənimlə Türkiyəyə rəsmi səfərə gəlmiş bütün nümayəndə heyətinin üzvlərinə böyük qonaqpərvərlik göstərirsiniz.

Mən sizin hamınızı bir daha salamlayır, Azərbaycan xalqının ən xoş arzularını çatdırıram. Əmin olduğumu bildirirəm ki, qardaş xalqlarımız, ölkələrimiz bundan sonra da əl-ələ verib irəliyə doğru uğurla gedəcəklər. Təşəkkür edirəm.

***14 aprel 2004-cu il***

# BAKIDA "HEYDƏR ƏLİYEV FONDU"NUN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İŞTİRAK ETMİŞDİR

Müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günündə Bakının Azərneft meydanı yaxınlığında – Niyazi küçəsində milli memarlıq üslubunda tikilmiş yeni binada "Heydər Əliyev Fondu"nun təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşanlar respublikamızın rəhbərini səmimiyyətlə qarşıladılar.

Fond Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzu və istəyi, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurəti, qloballaşan dünyada Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq niyyəti və Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq üçün yaradılmışdır. Fondun məqsədi ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə dəstək vermək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

***10 may 2004-cü il***

# PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVANDA HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədən sonra Prezident İlham Əliyev şəhəri gəzərək, ümummilli liderimiz Heydər Əliyevə burada ucaldılacaq heykəlin yerini müəyyənləşdirmək üçün mütəxəssislərlə məsləhətləşmələr apardı.

Sonra Azərbaycan Prezidenti və xanımı Mehriban Əliyeva Naxçıvandakı Heydər Əliyev muzeyinə gəldilər.

Muzeydə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən fotolara, dahi rəhbərin uşaqlıq, gənclik illərindən qalan dəyərli nümunələrə baxdılar. Buradakı eksponatlar müstəqil Azərbaycanın qurucusunun 1969-cu ildən başlayaraq, respublikamıza rəhbərlik etdiyi uzun bir dövrün ayrı-ayrı tarixi məqamlarını, onun əfsanəvi həyatını əks etdirir. Ulu öndərimizin və onun ömür-gün yoldaşı Zərifə xanımın portretləri toxunmuş xalça və digər qiymətli eksponatlar diqqəti xüsusilə cəlb edir.

Muzeyin yeni eksponatları arasında Heydər Əliyevin Naxçıvan Pedaqoji Məktəbini əla qiymətlərlə qurtarması barədə 1939-cu ildə verilmiş diplom və 1951-ci ildə Azərbaycan Dövlət Universitetinə qəbul imtahanlarını əla qiymətlərlə verməsi barədə sənəd də vardır.

◆◆◆

Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra jurnalistlərə müsahibə verdi.

SUAL: Cənab Prezident, Siz dediniz ki, bu, Prezident seçkilərindən sonra Naxçıvana ilk səfərinizdir. Sizcə, Naxçıvan hesab etdiyiniz səviyyəyə çatıbmı? Siz, ilk növbədə, hansı mühüm işlərin görülməsini tapşırdınız?

CAVAB: Prezident kimi ilk səfərimdir. Amma keçmişdə mən Naxçıvanda dəfələrlə olmuşam. Naxçıvanın ən çətin dövrlərində də mən dəfələrlə burada olmuşam. Əlbəttə, Naxçıvanda gedən proseslər çox uğurludur. Burada gedən sosial-iqtisadi islahatlar, quruculuq işləri, yeni müəssisələrin yaradılması – bütün bunlar çox müsbət haldır. Mən çox şadam, çox sevinirəm ki, Naxçıvan belə yüksək ahənglə inkişaf edir. Əlbəttə, bunlar məni razı saldı.

SUAL: Cənab Prezident, Dağlıq Qarabağın separatçı rejiminin qeyri-legitim rəhbərliyi Minsk qrupunun həmsədrlərinə, Ermənistan və Azərbaycan prezidentlərinə müraciət edərək, sülh sazişi imzalanana qədər atəşkəs rejiminə dair saziş haqqında bəyannamə imzalanmasını xahiş etmişdir. Sizcə, buna lüzum varmı?

CAVAB: Mən bunu eşitməmişəm. Zənnimcə, buna heç bir lüzum yoxdur. Atəşkəs rejimi davam edir və hər iki tərəf onu dəstəkləyir. Odur ki, belə sənədlərə lüzum yoxdur.

SUAL: Siz Naxçıvana gəlməzdən əvvəl İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi ilə görüşmüsünüz. Əgər mümkünsə, görüşün nəticələri barədə məlumat verin. İranın mövqeyində hər hansı irəliləyiş varmı?

CAVAB: Orada biz bir çox məsələləri, o cümlədən Naxçıvana qaz göndərilməsi, Naxçıvanın və digər rayonlarımızın elektrik enerjisinə tələbatını tam ödəmək üçün İranla Azərbaycan arasında yeni elektrik xətti çəkilməsi məsələsini müzakirə etdik. Xəzərlə bağlı məsələ də müzakirə olundu. Aparılan danışıqlar nikbinlik doğurur, bütün tərəflərin tez bir zamanda qarşılıqlı surətdə məqbul qərar tapmaq istəyi var. Ona görə də biz bu istiqamətdə bundan sonra da birlikdə işləyəcəyik.

SUAL: Cənab Prezident, Rusiya-Azərbaycan-İran elektrik xətlərinin birləşdirilməsi layihəsindən söhbət gedir. Sizin Rusiyaya səfəriniz zamanı bu barədə məlumat yayılmışdı. Çubaysın Azərbaycana səfəri barədə də danışılır. Ümumiyyətlə, bu barədə müzakirələr olubmu və bunun perspektivlərini necə görürsünüz?

CAVAB: Yox, belə müzakirələr olmayıbdır. Ola bilər, hansısa ekspertlərin səviyyəsində bu məsələ müzakirə edilib, amma, hələ qərar verilməyibdir. Bu, çox ciddi, mühüm məsələdir. Biz buna təkcə iqtisadi baxımdan yanaşa bilmərik. Gərək bütün başqa amillər təhlil edilsin. Ondan sonra biz öz fikrimizi bildirə bilərik. Hazırda bu istiqamətdə heç bir danışıqlar aparılmır.

SUAL: Cənab Prezident, ötən gün Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin görüşü olmuşdur. Bu barədə nə deyə bilərsiniz?

CAVAB: Hələ danışmamışam. Naxçıvanda o qədər çox işlər var ki, hələ bizim xarici işlər naziri ilə danışmamışam. Yəqin ki, bu axşam danışacağam.

SUAL: Cənab Prezident, Naxçıvana qaz verilməsi ilə bağlı razılıq əldə olunubmu?

CAVAB: Razılıq belədir ki, bu barədə İranla danışıqlar gedir. Bizim

təklifimiz ondan ibarətdir ki, İran Naxçıvana istənilən həcmdə qaz versin, biz də gələcəkdə bu borcu qazla ödəyək, yaxud elektrik enerjisi ilə indi də ödəyə bilərik. İranın başqa təklifləri var. Gərək bu məsələ iqtisadi cəhətdən işlənilsin. Hər halda, ümid edirəm ki, prinsip etibarilə məsələ öz müsbət həllini tapacaqdır.

SUAL: Cənab Prezident, Sizin İrana səfəriniz gözlənilirmi? Ümumiyyətlə, belə məlumatlar yayılmışdır ki, Prezident Məhəmməd Xatəmi ilə birlikdə Siz Astara-Bakı avtomobil yolunun təməlqoyma mərasimində iştirak edəcəksiniz. Bu, nə vaxt olacaq, gözlənilirmi?

CAVAB: Bu məsələ də müzakirə olunubdur. İlkin layihə işlərinə artıq İran tərəfindən vəsait ayrılıbdır. Texniki-iqtisadi əsaslandırma hazırlanacaq, ondan sonra digər işlər də görüləcəkdir. Yəqin ki, bizim xarici işlər naziri İrana səfər edəcəkdir və hər iki dövlət başçısının səfərləri nəzərdə tutulur. Vaxtı hələ ki, bəlli deyildir.

SUAL: Cənab Prezident, Siz Malkolm Bryus ilə görüşmüsünüz. Onun hüquq müdafiəçiləri ilə görüşü zamanı işlətdiyi bəzi ifadələr var idi. Sizinlə görüşdə onun fikirləri nədən ibarət oldu? Hər hansı məsələ ilə bağlı narahatlığını bildirdimi?

CAVAB: Bilirsiniz, biz cənab Bryus ilə dəfələrlə görüşmüşük. İlk dəfə dekabr ayında görüşmüşdük, o vaxt bir az narahat idi. Azərbaycanda fəaliyyət göstərən hüquq müdafiəçiləri ona demişdilər ki, hökumət heç bir addım atmayacaq, hökumət sizə yalan məlumatlar ötürür. Buna oxşar digər fikirlər də deyilmişdi. Amma bu dəfə və ondan əvvəl Strasburqda görüş zamanı Malkolm Bryusun fikri çox müsbət idi. Yəni o da, biz də eyni fikirdəyik ki, aramızda konstruktiv dialoq gedir, bu məsələ öz həllini tapır. Azərbaycanın rəhbərliyi öz xoşniyyətli iradəsini göstəribdir. Əlbəttə, Malkolm Bryus belə bir söz işlədibdir: “Siz mənim işimi asanlaşdırırsınız”.

Digər narahatlıqlar ola da bilər, olmaya da bilər. Bu barədə bir şey deyə bilmərəm. Onu deyə bilərəm ki, Avropa Şurası ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. Təkcə bu məsələ ilə bağlı deyil, bütün istiqamətlərdə çox yüksək səviyyədədir. Ümid edirik ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Avropa Şurası siyasi qiymət verəcəkdir. Ona görə bütün məsələlər həll olunacaqdır.

SUAL: Cənab Prezident, Sizin xəbəriniz var, bir vaxtlar mətbuatda dövlət məmurları ilə bağlı yazılar verilir və deyilirdi ki, kimlərsə işdən də çıxarıla bilər. Ümumiyyətlə, bu məsələyə münasibətiniz necədir?

CAVAB: Mən bu məsələlərə çox mənfi yanaşıram. Hesab edirəm ki, bu, çox aşağı səviyyəli mübarizə üsuludur və özünə hörmət edən şəxslər

buna getməməlidir. Əgər kimsə fikirləşir ki, hansısa qəzet məqaləsi ilə mənim fikrimə təsir edə bilər, o adamlar yanılırlar. Mən öz qərarlarımı müstəqil şəkildə qəbul edirəm. Qərarın qəbul edilməsi üçün səbəblər olmalıdır. Əlbəttə, qəzet yazısı, – xüsusilə də biləndə ki, bu, sifarişli yazıdır, – mənim fikrimə təsir edə bilməz.

SUAL: Cənab Prezident, Siz NATO-nun İstanbulda keçiriləcək zirvə toplantısında bu təşkilatın baş katibi ilə görüşəcəksiniz. İstanbulda Sizin hər hansı bəyanatınız gözlənilirmi?

CAVAB: Baxarıq, indidən bir şey deyə bilmərəm. NATO-nun baş katibi ilə görüş gözlənilir. Bizim əməkdaşlığımız çox uğurludur.

SUAL: Cənab Prezident, yaxın vaxtlarda hökumətdə dəyişikliklər gözlənilirmi? Siz bu gün nazirləri bir az danladınız. Gözlədikləriniz nə idi, yəni hökumət nə etməli idi?

CAVAB: Bilirsiniz, mən heç vaxt heç kimə əsassız irad tutmuram. Əgər səbəb varsa, ancaq o təqdirdə iradımı bildirirəm. Hesab edirəm ki, bu, düzgün siyasətdir. Nazirlərə göstəriş verilmişdir ki, onlar Naxçıvanla bağlı məsələlərə diqqətlə yanaşsınlar. Buraya tez-tez gəlsinlər, beləliklə, gedən işlərə kömək etsinlər. Düzdür, onlar buraya gəlməsələr də, Naxçıvanda işlər sürətlə gedir və gedəcəkdir. Amma, əlbəttə, bir halda, vaxtilə cənab Prezidentin belə göstərişi olmuşdur, deməli, onlar bunu etməli idilər. Prezident seçkilərindən 7 ay keçibdir. Bir nəfər istisna olmaq şərtilə qalanları gəlməyiblər. Ona görə tələbim budur ki, onlar gəlsinlər. Digər məsələlər də olubdur.

SUAL: Cənab Prezident, Gürcüstanın yeni Prezidenti ilə yaxşı münasibətiniz var. Gürcüstanda vəzifələrdə qubernatorun azərbaycanlı müavinləri var idi. İndi onlar yoxdur. Yəni azərbaycanlılar, demək olar ki, vəzifələrə təyin edilmirlər. Eyni zamanda, orada yaşayan soydaşlarımızın gömrük problemi də var. Onların yaşaması Azərbaycanla bağlıdır. Yəni mal gətirib aparırlar. Bununla bağlı edilən müraciət Sizə çatdırılıbmı?

CAVAB: Yox, belə müraciət mənə çatdırılmayıbdır. Amma buna baxmayaraq, Gürcüstan Prezidenti ilə hər dəfə görüşəndə mən bu məsələni qaldırıram və müzakirələr aparılır. Artıq təhsil sahəsində əməli işlər görülür. Bilirsiniz ki, keçmişdə Azərbaycanda çap olunmuş dərsliklərlə bağlı orada süni şəkildə çətinliklər yaradılırdı. İndi artıq bu halların qarşısı alınıbdır. Tarix dərslikləri birgə hazırlanacaqdır. Bu da çox mühüm haldır. Digər məsələlər də öz həllini tapacaqdır.

Bilirsiniz ki, Gürcüstana yeni səfir təyin olunubdur. Səfirə çox ciddi tapşırıqlar verildi. Mən ümid edirəm ki, həm orada yaşayan azərbaycanlılar,

həm də səfirliyin işçiləri soydaşlarımızın gündəlik problemlərinin həll olunması istiqamətində mühüm addımlar atacaqlar. Gürcüstanın Prezidenti də məni inandırıb ki, bu məsələlərə böyük diqqətlə yanaşacaqdır. Mənə verilən məlumata görə, artıq bəzi azərbaycanlılar məmur vəzifələrinə təyin ediliblər.

Əlbəttə, biz istəyirik ki, onların sayı çox olsun. Ümid edirəm ki, bundan sonra bu ənənə davam edəcəkdir. Bizim çox gözəl münasibətlərimiz var. Münasibətlərin çox gözəl, zəngin tarixi var. Gürcüstan Azərbaycan üçün çox önəmli dost ölkədir. Bizim strateji tərəfdaşımızdır. Gürcüstan-Azərbaycan münasibətləri gərək həmişə çox yüksək səviyyədə olsun.

SUAL: Cənab Prezident, Siz xarici ölkələrdə səfirliklərin açılması barədə hökumətə tapşırıqlar vermişdiniz. Bu istiqamətdə işlər nə yerdədir və cari ilin sonuna qədər neçə səfirliyin açılması nəzərdə tutulur?

CAVAB: Mənim tərəfimdən Milli Məclisə müraciətlər olub, Milli Məclis də qərar çıxarıbdır. Bəzi ölkələrdə təyin ediləcək səfirlərin aqremanları göndərilibdir. Bu elə məsələdir ki, gərək qarşı ölkədən təsdiq alaq. Yaxın zamanlarda olacaqdır.

SUAL: Cənab Prezident, Venesiya Komissiyasının Mərkəzi Seçki Komissiyası ilə bağlı tövsiyələrinə münasibətiniz necədir

İLHAM ƏLİYEV: Hansı tövsiyələrə?!

JURNALİST: Mərkəzi Seçki Komissiyasının tərkibinin dəyişdirilməsi ilə bağlı.

İLHAM ƏLİYEV: Mən buna ehtiyac görmürəm. Mərkəzi Seçki Komissiyasının tərkibi Azərbaycandakı bütün siyasi spektrin nümayəndələrini əks etdirir. Azərbaycanda fəaliyyət göstərən partiyalar burada təmsil olunurlar. Hesab edirəm, Mərkəzi Seçki Komissiyası seçkilərdə çox fəal işlədi. Belə bir ehtiyac yoxdur.

SUAL: Cənab Prezident, Sizin burada insanlarla görüşünüz çox yaxşı qarşılanırdı. Bu, həm Prezidentlə əhali arasında münasibəti səmimiləşdirir, həm də məmurlarda qorxu yaradır ki, ölkə əhalisi Prezidentlə birbaşa danışa bilir. Yəni onlar daha məsuliyyətli olurlar. Prezident İlham Əliyev bölgələrdə bu işi davam etdirəcəkmi?

CAVAB: Əlbəttə, davam etdirəcəyəm. Bu, çox vacibdir. Həm məlumat mənbəyidir, həm də belə görüşlər mənə insanların əhval-ruhiyyəsinin hansı səviyyədə olmasından xəbər verir. Mən belə görüşləri başqa bölgələrdə də davam etdirəcəyəm. Yəni bölgələrə gedəcəyəm.

***14 may 2004-cü il***

# BRÜSSELDƏ "DƏDƏ QORQUD" ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Brüsseldə, Dünya Gömrük Təşkilatının (DGT) iqamətgahı qarşısında "Dədə Qorqud" abidəsinin təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün DGT-nin iqamətgahına gəldi. Dövlətimizin başçısını burada DGT-nin baş katibi Mişel Dane böyük ehtiramla, səmimiyyətlə qarşıladı. Azərbaycan diasporunun nümayəndələri, Belçika Azərbaycan Evinin təmsilçiləri, səfirliyin əməkdaşları respublikamızın rəhbərini hərarətlə salamladılar, ona gül dəstəsi təqdim etdilər.

Milli geyimli azərbaycanlı oğlan və qız "Dədə Qorqud" abidəsinin üzərindəki örtüyü götürdülər. Heykəltəraş Namiq Zeynalovun hazırladığı abidə Belçika Azərbaycan Evinin rəhbəri Bülənd Gurcanın təşəbbüsü ilə qoyulmuşdur.

Abidənin yanındakı lövhədə Azərbaycan, ingilis və fransız dillərində verilmiş yazıda deyilir: "Dədə Qorqud Azərbaycan xalqının əcdadı olan qədim oğuzların baş bilicisi, ozanı, müdrik el ağsaqqalı, hörmətli və nüfuzlu simasıdır. Haqq-ədalət, barışıq carçısı olub. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının, bütün türkdilli xalqların qədim və möhtəşəm abidəsidir. Elm aləminə iki nüsxəsi məlumdur. Bunlardan biri Drezden, ikincisi Vatikan kitabxanasındadır. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2000-ci ildə Bakı şəhərində bütün türkdilli xalqların mədəni irsinin qədim və ayrılmaz hissəsi, Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley mərasimi təntənəli surətdə keçirilmişdir. Eyni zamanda, "Kitabi-Dədə Qorqud" eposunun yaranmasının 1300 illiyi YUNESKO xətti ilə dünya miqyasında qeyd edilmişdir".

Mərasimi Dünya Gömrük Təşkilatının baş katibi Mişel Dane açdı.

***18 may 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Mən bu gün burada, Ümumdünya Gömrük Təşkilatının binası qarşısında olmaqdan və Dədə Qorqudun abidəsinin açılmasından çox xoşbəxtəm. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün Türk dünyası üçün qədim tarixi və böyük mənası var.

1997-ci ildə Azərbaycanın Prezidenti Heydər Əliyev Dədə Qorqud dastanının 1300 illiyinin rəsmi qeyd olunması barədə Fərman imzaladı və 2000-ci ildə Bakıda türkdilli ölkələrin prezidentlərinin iştirakı ilə bu yubileyə həsr edilmiş böyük mərasim keçirildi. 1999-cu ildə YUNESKO da böyük proqramlarla çıxış edərək, "Dədə Qorqud" dastanının 1300 illiyini qeyd etdi. Bu ədəbi inci bu gün də yaşayır, "Kitabi-Dədə Qorqud"dakı ideyalar və fikirlər bugünkü nəsil üçün də əhəmiyyət kəsb edir və mən əminəm ki, hələ bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır.

Bu gün mən həm də çox xoşbəxtəm ki, Brüsseldə, Avropanın paytaxtındayam. Buraya Avropa Birliyinin dəvəti ilə gəldim. Çox səmərəli fikir mübadiləmiz oldu. Azərbaycan Avropa ailəsinə inteqrasiya xəttini bir daha qəti surətdə təsdiq etdi. Bizim Avropa Birliyi ilə gözəl münasibətlərimiz yaranıb, birlikdə iqtisadiyyatımızın və həyatımızın ayrı-ayrı sahələrində müxtəlif proqramlar üzərində işləyirik. Düşünürəm ki, Azərbaycan da daxil olmaqla, Cənubi Qafqaz ölkələri üçün hazırlanmış yeni qonşuluq strategiyası bizim ölkəni Avropa Birliyinə daha da yaxınlaşdıracaqdır.

Bugünkü Avropanın sərhədləri Azərbaycana daha çox yaxınlaşır. Bu da hadisələrin müsbət inkişafıdır. Azərbaycan Avropa strukturlarına genişmiqyaslı inteqrasiya siyasətini davam etdirəcəkdir. Düşünürəm ki, biz qazandığımız uğurlara gələcəkdə yenilərini əlavə edəcəyik.

Dünya Gömrük Təşkilatında olmaq mənim üçün xoşdur. Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında münasibətlər uğurla inkişaf edir, yaxşı qarşılıqlı anlaşma mövcuddur və bizim gömrük xidmətinə göstərdiyi yardıma görə Dünya Gömrük Təşkilatına minnətdaram. Cənab baş katib regional tədris mərkəzinin açıldığını qeyd etdi. Bu mərkəz tamamilə müasir cihazlar və infrastrukturla təchiz olunmuşdur. Burada təkcə Azərbaycandan

deyil, bütün regiondan gömrük işçiləri təhsil alıb, peşə bacarıqlarını artıra biləcəklər. Mərkəzin Bakıda, ölkəmizin paytaxtında açılması faktı Dünya Ticarət Təşkilatı ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsini bir daha göstərir.

Cənab baş katib, siz bizim ölkəyə bir neçə dəfə səfər etmisiniz. Siz Azərbaycanın necə inkişaf etdiyini, necə irəlilədiyini bilirsiniz və ölkədə aparılan əməli işlərin inkişaf prosesinə necə təsir etdiyindən xəbərdarsınız. Bizim siyasi, iqtisadi və sosial islahatlar xəttimiz davam etdiriləcəkdir. Düşünürəm ki, bizim Avropa strukturlarına inteqrasiya siyasətimiz çox uğurla davam etdiriləcəkdir. Bu gün Avropa Birliyindəki görüşlər bir daha göstərdi ki, qarşılıqlı surətdə faydalı münasibətlərə maraq olduqca böyükdür.

İstərdim ki, Dədə Qorquda heykəl qoyulması münasibətilə bir daha hamınızı təbrik edim, bu abidənin bu gözəl ağaclıqda, bağçada ucaldılmasına görə Dünya Gömrük Təşkilatına, onun baş katibinə minnətdarlığımı bildirim. Bir daha Azərbaycanla Avropa arasındakı daha sıx inteqrasiya ilə bağlı arzu və düşüncələrimi ifadə edirəm. Azərbaycan özünü Avropanın bir hissəsi hesab edir və biz əlimizdən gələni edəcəyik ki, münasibətlərimizi gələcəkdə daha da irəli aparaq.

Diqqətinizə görə sağ olun.

***18 may 2004-cü il***

## KİYEVDƏ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Ukrayna paytaxtında – Azərbaycan səfirliyinin yaxınlığındakı xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin təntənəli açılışı olmuşdur. Abidənin müəllifi Azərbaycan Rəssamlıq Akademiyasının kafedra müdiri, əməkdar rəssam Natiq Əliyevdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Leonid Kuçma mərasimdə iştirak edirdilər.

Kiyev şəhər şurasının sədri ALEKSANDR OMELÇENKO mərasimi açaraq dedi:

– Çox hörmətli Leonid Daniloviç!

Çox hörmətli İlham Heydər oğlu!

Xanımlar və cənablar!

Əziz kiyevlilər və paytaxtın qonaqları!

İcazə verin, şəhərimizdə əlamətdar hadisə münasibətilə keçirilən mərasimin bütün iştirakçılarını salamlayım. Biz iki dövlətin – Ukrayna və Azərbaycan Respublikası rəhbərlərinin iştirakı ilə görkəmli şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin abidəsini açırıq.

Azərbaycanın və Ukraynanın dövlət başçıları abidənin üzərindən ağ örtüyü götürdülər. Hər iki ölkənin dövlət himnləri səsləndi.

Ukrayna və Azərbaycan prezidentləri mərasimdə nitq söylədilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Çox hörmətli Leonid Daniloviç!

Çox hörmətli Lyudmila Nikolayevna!

Əziz dostlar!

İlk növbədə, Kiyevdə Heydər Əliyevə abidə qoyulması qərarına görə mən Ukrayna Prezidenti, çox hörmətli Leonid Daniloviç Kuçmaya özümün dərin minnətdarlığımı bildirmək istərdim. Bu qərar bütün Azərbaycan xalqı tərəfindən son dərəcə minnətdarlıqla qarşılanmışdır. Çünki Heydər Əliyev Azərbaycanın ümummilli lideridir.

Heydər Əliyev həmişə – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə

də, müstəqil Azərbaycana başçılıq etdiyi illərdə də öz xalqına, Azərbaycanın milli mənafeyinə xidmət etmişdir. Təsadüfi deyil ki, 1970-80-ci illərdə, onun 13 ildən artıq rəhbərliyi dövründə Azərbaycanda güclü iqtisadi potensial və sənaye potensialı yaradılmışdır. İndi bu potensial ölkəmizin iqtisadi təhlükəsizliyini əhəmiyyətli dərəcədə təmin edir.

Azərbaycan müstəqil dövlət olduqdan sonra istər daxili səbəblər üzündən, istərsə də xarici təcavüz nəticəsində son dərəcə mürəkkəb çətinliklərlə qarşılaşdıqda, xalq öz liderini yenidən ölkəyə başçılıq etməyə çağırdı. Azərbaycanda hamı qəti əmindir və bilir ki, əgər o ağır günlərdə Heydər Əliyev Bakıya qayıdıb Azərbaycana başçılıq etməsəydi, ölkəni çox ağır nəticələrə gətirib çıxara biləcək dağılma, parçalanma təhlükəsi gözləyirdi.

O illər – 1993-2003-cü illər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi dövrü oldu. Azərbaycan beynəlxalq birlikdə layiqli yerini tutdu, mühüm beynəlxalq təşkilatların üzvü oldu. İqtisadiyyat möhkəmləndi, iqtisadi potensial artdı. Heydər Əliyevin təşəbbüsü ilə başlanan neft strategiyası uğurla həyata keçirilir. Azərbaycan öz əhalisinin sosial məsələlərini həll edir.

Əlbəttə ki, bütün bunlarda əsas xidmət Azərbaycanın ümummilli liderinə məxsusdur.

Lideri itirmək xalq üçün həmişə böyük faciədir. Heydər Əliyevin yaxın və köhnə dostu Leonid Daniloviç Kuçmanın onunla vidalaşmaqdan ötrü matəm mərasimində iştirak etməsi bizim hamımız üçün, ilk növbədə, mənim üçün böyük təsəlli oldu.

Leonid Daniloviçlə Heydər Əliyevi çox yaxın dostluq telləri bağlayırdı. Zəmanəmizin bu iki görkəmli siyasətçisi, öz xalqlarının və ölkələrinin liderləri xarici təzyiqi və daxili çətinlikləri aradan qaldıraraq, öz ölkələrini böhrandan çıxardı, müstəqilliyini möhkəmləndirdi, iqtisadi potensialı gücləndirdi. Onları həm də sırf insani münasibətlər, dostluq münasibətləri yaxınlaşdırırdı. Bu, mənə çox yaxşı məlum idi. Atamın Leonid Daniloviçlə görüşlərindən, səmimi söhbətlərindən danışması çox yaxşı yadımdadır. Onlar bir-birinə, həqiqətən, ən səmimi hisslər, dostluq hissləri bəsləyirdilər.

Əlbəttə, bu şəxsi bağlılıq, qardaşlıq münasibətləri Ukrayna ilə Azərbaycanın strateji tərəfdaş olmasına çox kömək etmişdir. Ukraynaya indiki dövlət səfərim bunu bir daha təsdiqlədi. Ölkələrimiz arasında heç bir problem yoxdur, ikitərəfli əməkdaşlıq, regional əməkdaşlıq məsələlərində bizim aramızda tam qarşılıqlı anlaşma, mühüm dünya proseslərinə eyni mövqedən yanaşma, habelə əlaqələrimizi möhkəmlətmək və inkişaf etdirməkdə ümumi qarşılıqlı istək var.

Ukraynada yaşayan azərbaycanlılara mehriban, səmimi münasibətə görə Ukrayna Prezidentinə çox minnətdaram. Bu gün mən Azərbaycan diasporunun nümayəndələri ilə görüşdüm və bir daha yəqin etmək mənə olduqca xoş idi ki, rəhbərliyin onlara münasibəti çox müsbətdir, onlar burada özlərini evdəki kimi hiss edirlər. Onu da bilin ki, Azərbaycanda da Ukraynaya, ukraynalılara xüsusi məhəbbət hissləri bəsləyirlər. Bakı Slavyan Universitetində Ukrayna dili fakültəsinin olması, Ukrayna dilinin öyrənilməsi, – yeri gəlmişkən, Ukrayna dilinin öyrənilməsinə böyük maraq göstərilir, – sözlərimi bir daha təsdiq edir.

Əlbəttə, bir daha qeyd etməyə bilmərəm ki, iki liderin bu proseslərə – xalqlarımızın yaxınlaşması proseslərinə töhfəsi həlledici olmuşdur.

Bu gün Kiyevdə Heydər Əliyevə abidə qoyulması qardaşlığımızın, dostluğumuzun daha bir rəmzidir. Bu, münasibətlərimizin bir çox onilliklər və əsrlər ərzində davam və inkişaf edəcəyinin, indiki kimi sarsılmaz, möhkəm olacağının, dostluq və qardaşlıq münasibətləri olacağının daha bir rəmzidir.

Azərbaycanın yeni Prezidenti kimi mən bu siyasəti, ölkələrimizin və xalqlarımızın yaxınlaşması yolunu davam etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Mənə göstərilən qonaqpərvərlik, səmimiyyətə, mehribanlığa görə bütün Ukrayna xalqına da təşəkkür etmək istəyirəm. İnanın ki, bu iki gündə mən özümü evimdəki kimi hiss etdim. Mən Prezident Leonid Daniloviçə çox minnətdaram. Bizim müzakirə etdiyimiz bir çox problemlər barəsində ətraflı söhbətimiz oldu. Bir daha yəqin etdik ki, biz birlikdəyik, ölkələrimizin inkişafı yolunda, tərəqqi yolunda çiyin-çiyinə irəliləyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

***4 iyun 2004-cu il***

## KİYEVDƏ AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Azərbaycan Prezidenti İlham Əliyev sonra xalqımızın şanlı qızı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan küçəyə gəldi.

Dövlətimizin başçısı həmin küçədə yerləşən və xalqımızın görkəmli övladının adı verilmiş mərkəzi parkda Zərifə Əliyevanın abidəsinin açılış mərasimində iştirak etdi.

Mərasimi Kiyev vilayəti hökumətinin sədri Anatoli Zasuxa açaraq, bunu təkcə şəhərin deyil, ümumən Ukraynanın həyatında əlamətdar hadisə kimi qiymətləndirdi.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi, sonra isə açılışa toplaşanların alqış sədaları altında abidənin üzərindən ağ örtüyü götürdü.

Abidənin önünə Azərbaycan Prezidentinin adından əklil qoyuldu. Mərasim iştirakçıları abidənin qarşısına gül düzdülər.

Respublikamızın rəhbəri abidənin müəllifi, Xarkov şəhərində yaşayan həmyerlimiz, Ukraynanın xalq rəssamı, heykəltəraş Seyfəddin Qurbanov ilə görüşdü, Zərifə xanım Əliyevanın adını daşıyan parkda xatirə ağacı əkdi.

## KİYEV VİLAYƏTİ DÖVLƏT ADMİNİSTRASİYASININ SƏDRİ ANATOLİ ZASUXANIN ÇIXIŞI

Çox hörmətli İlham Heydəroviç!

Çox hörmətli xanım Əliyeva!

Hörmətli azərbaycanlı dostlar!

Əziz həmyerlilər!

İrpen şəhərinin həyatında bugünkü hadisə unudulmazdır. Bu, xarici dövlətin prezidentinin şəhərinizə ilk səfəridir. Bu, müasir Ukraynanın tarixində yeni səhifədir, Azərbaycan-Ukrayna münasibətlərinin yeni tarixində səhifədir.

Azərbaycanda 29 min ukraynalı, Ukrayna torpağında 400 mindən çox azərbaycanlı yaşayır. Bu gün biz Taras Qriqoryeviç Şevçenkonun abidəsini ziyarət etdik. Azərbaycan Prezidenti abidənin önünə gül-çiçək qoydu. Azərbaycan diasporunun və İrpen şəhəri sakinlərinin dostluğu bu abidədən baş-

lanmışdır. Kiyev vilayəti nümayəndə heyətinin ötən ilin iyununda Bakıya səfəri bu dostluğun davamı oldu. Azərbaycan Prezidenti, əfsanəvi insan Heydər Əliyeviç Əliyev ilə görüşlərdən alınan təəssürat unudulmayacaqdır. Biz Bakı şəhərinin Qaradağ rayonunda Lesya Ukrainka adına park açdıq. Bu il orada şairimizin büstü qoyulacaqdır.

Hörmətli cənab Prezident, biz Sizin səfərinizə çoxdan hazırlaşırdıq. Sizin səfərinizin intizarı çox həyəcanlandırıcı oldu. Budur, indi Siz bizim torpağımızdasınız. Bu gün Siz öz ananızın - görkəmli alim, akademik Zərifə Əliyevanın abidəsini aça bilərsiniz.

Hörmətli cənab Prezident, sözü Sizə verirəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz dostlar!

İcazə verin, ilk növbədə, dostluğa görə, Azərbaycana, ölkəmizin nümayəndəsinə - bu gün abidəsini birlikdə açdığımız görkəmli alim Zərifə Əliyevaya münasibətə görə sizə öz ehtiramımı və minnətdarlığımı bildirim.

Zərifə Əliyeva heyrətamiz insan idi. O, bütün həyatını elmə, təbabətə həsr etmişdi, çox məşhur oftalmoloq-praktik, habelə böyük alim idi. O, insanlara görmə qabiliyyətini qaytarırdı. Onun fəaliyyəti və elmi əsərləri sayəsində müasir oftalmologiya çox böyük uğurlara nail olmuşdur. Eyni zamanda, o, çox xeyirxah, həssas insan, son dərəcə qayğıkeş ana və atam üçün sadiq dost, yaxşı məsləkdaş idi. Əlbəttə, onun həyatdan getməsi təkcə ailəmizin üzvləri üçün deyil, həm də onu tanıyanların və onunla ünsiyyətdə olanların hamısı üçün çox böyük itki idi. Aradan artıq neçə illər keçmişdir, lakin bu itkinin ağrısı çox kəskin duyulur.

Bu gün qardaş Ukrayna torpağında, İrpen şəhərində Zərifə Əliyevanın abidəsinin açılışında iştirak etmək mənim üçün ikiqat xoşdur.

Mən dünəndən Ukraynadayam, dövlət səfərini həyata keçirirəm və özümü dostlarımın arasında hiss edirəm. Böyük qayğı və diqqətlə əhatə olunmuşam, mənə çox böyük qonaqpərvərlik göstərilir. Fürsətdən istifadə edərək, dəvətə və səmimi münasibətə görə, ilk növbədə, Ukrayna Prezidenti Leonid Daniloviç Kuçmaya təşəkkürümü bildirmək istəyirəm.

Dünən Ukrayna ilə Azərbaycan arasında 9 dövlətlərarası saziş imzalandı. Bu sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, ikitərəfli münasibətlərdə, regional və beynəlxalq miqyaslı münasibətlərdə da-

ha fəal iştirak etməyə imkan verəcəkdir. Ölkələrimiz arasında tarixən dostluq və qardaşlıq münasibətləri olmuşdur və mövcuddur. Müstəqillik əldə edildikdən sonra Ukraynanın və Azərbaycanın əsl tərəfdaşlar, strateji tərəfdaşlar olması faktı, ilk növbədə onu göstərir ki, ötən illərdə ölkələrimizdə həyata keçirilən siyasət səmərəli və düzgün olmuşdur. Mən münasibətlərimizin daha da möhkəmlənməsi üçün bu siyasəti Azərbaycanda davam etdirəcəyəm, ölkələrimiz, xalqlarımız arasında daha sıx əlaqələr olmasına çalışacağam.

Azərbaycanda Ukraynanı və ukraynalıları çox sevirlər, Ukrayna dilinə, mədəniyyətinə böyük səmimiyyətlə yanaşır, Azərbaycanın ali məktəblərində Ukrayna dilini öyrənirlər. Bütün bunlar da dövlətlərimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün çox yaxşı bazadır.

Dediyim kimi, biz yaxın ölkələrik, strateji tərəfdaşlarıq, bütün dünyada baş verən proseslərdə vahid mövqedən fəal iştirak edirik. Bizi, eyni zamanda, səmimi insani münasibətlər - dostluq, qarşılıqlı rəğbət, qarşılıqlı hörmət telləri bağlayır. Bax, elə bugünkü gün, Azərbaycanın görkəmli nümayəndəsi Zərifə Əliyevaya Ukraynada abidə açılması dostluq münasibətlərimizin, xalqlarımızın bir-birinə dərin məhəbbət və hörmət hisslərinin ifadəsidir. Fürsətdən istifadə edərək, abidənin qoyulmasında, bu gözəl parkın, habelə indən belə Zərifə Əliyevanın adını daşıyacaq küçənin abadlaşdırılmasında fəal iştiraka görə Kiyev vilayəti hökumətinin başçısı cənab Zasuxaya və İrpen Şəhər Şurasının başçısı cənab Skarçinskiyə şəxsən təşəkkür etmək istəyirəm.

Mən həm Ukraynaya dost dövlətin - Azərbaycan dövlətinin Prezidenti kimi, həm də Zərifə Əliyevanın oğlu kimi minnətdaram. Əminəm ki, bütün dövrlərdə - Sovet İttifaqında yaşadığımız dövrdə də, ən başlıcası isə, ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra da mövcud olmuş dostluq, qarşılıqlı yardım, qarşılıqlı dəstək münasibətləri davam etdiriləcək, ölkələrimizə və xalqlarımıza daha böyük fayda gətirəcəkdir.

Bir daha Ukraynaya, Ukrayna xalqına, gözəl İrpen şəhərinin sakinlərinə ən dərin hörmət hisslərimi və Azərbaycana, Zərifə Əliyevanın xatirəsinə belə münasibətə görə təşəkkürümü qəbul edin.

Sağ olun!

◆◆◆

Sonra Prezident İlham Əliyev mərasimə toplaşanların alqış sədaları altında abidənin üzərindən ağ örtüyü götürdü.

Abidənin önünə Azərbaycan Prezidentinin adından əklil qoyuldu. Mərasim iştirakçıları abidənin qarşısına gül-çiçək düzdülər.

Respublikamızın rəhbəri abidənin müəllifi, Xarkov şəhərində yaşayan həmyerlimiz, Ukraynanın xalq rəssamı, heykəltəraş Seyfəddin Qurbanov ilə görüşdü, Zərifə xanım Əliyevanın adını daşıyan parkda xatirə ağacı əkdi.

***4 iyun 2004-cü il***

## YEVLAX ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏRKƏZİ MEYDANIN VƏ PROSPEKTİN AÇILIŞ MƏRASİMİ

Yevlax şəhərinin mərkəzində ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan meydanın və prospektin təntənəli açılış mərasimi oldu.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

– Əziz yevlaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayır, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Bu gün Yevlaxda çox əlamətdar hadisə baş verir. Bu gözəl meydana və prospektə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı verilir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə vətənə və millətə xidmət etmişdir. 1970-80-ci illərdə onun rəhbərliyi və təşəbbüsü ilə Azərbaycanda böyük quruculuq işləri görülmüşdür. Ölkə iqtisadiyyatı inkişaf edirdi, Azərbaycan digər sovet respublikalarından irəlidə gedirdi. Əlbəttə, sovet Azərbaycanında yaşayan insanlar bunu hiss edirdilər. Həyat səviyyəsi durmadan yüksəlirdi, yeni müəssisələr, fabriklər, xəstəxanalar, məktəblər, elm və mədəniyyət ocaqları tikilirdi. Məhz o illərdə Azərbaycanda güclü iqtisadi potensial yaranmışdı. Xüsusilə neft sektorunda böyük potensial yaranmışdı. Həmin potensial bu gün də müstəqil Azərbaycana xidmət edir, ölkə iqtisadiyyatına böyük dayaq və dəstəkdir.

Heydər Əliyev o dövrdə 13 ildən çox Azərbaycana rəhbərlik etmişdir. O illər ölkəmiz çox sürətlə inkişaf edirdi. Bütün sahələrdə, o cümlədən kənd təsərrüfatında böyük uğurlar əldə olunmuşdu. Bu onu göstərir ki, ictimai quruluşdan asılı olmayaraq, xalqa və millətə məhəbbət varsa, ölkənin rəhbəri xalqına sədaqətlə xidmət edirsə, mütləq nailiyyətlər, uğurlar olacaqdır.

1993-cü ildə artıq müstəqil Azərbaycana rəhbərliyə qayıdandan sonra Heydər Əliyev yenə də xalqa xidmət etdi, ölkəni çətin və ağır vəziyyətdən çıxardı. Hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan öz dövlət müstəqilliyini

əldə etdikdən sonra çox çətin vəziyyətə düşmüşdü. Bir tərəfdən, Ermənistanın Azərbaycana təcavüzü, digər tərəfdən, ölkə daxilində gedən proseslər, daxili çəkişmələr, vətəndaş müharibəsi faktiki olaraq ölkəmizi uçuruma gətirib çıxarmışdı. Ölkəmizdə xaos və anarxiya hökm sürürdü. Özbaşınalıq nəticəsində dövlətimiz parçalanırdı. O çətin dövrdə xalq yenə üzünü öz ümummilli liderinə tutdu, onu Bakıya dəvət etdi. Heydər Əliyev Bakıya qayıtdıqdan sonra ölkədə vəziyyət sabitləşdi, asayiş bərpa olundu və gələcək inkişaf üçün gözəl şərait yaradıldı. O illərdən başlayaraq, Azərbaycan uğurla inkişaf edir.

İqtisadiyyatımız durmadan inkişaf edir və Azərbaycan bu baxımdan bütün keçmiş sovet respublikaları ilə müqayisədə qabaqcıl yerlərdədir. Ölkəmiz beynəlxalq aləmdə özünəlayiq yer tuta bilmişdir. Bu gün Azərbaycanla hesablaşır və ona hörmət edirlər. Son aylar ərzində mənim etdiyim xarici səfərlər bir daha göstərdi ki, Azərbaycan bölgədə çox mühüm ölkəyə çevrilmişdir. Bu, əlbəttə, ilk növbədə, Heydər Əliyevin xidmətidir, onun diplomatiyasının təntənəsidir.

Ölkəmizə iri həcmdə xarici sərmayələr gətirilmişdir. Azərbaycan bu baxımdan da liderdir. Bu gün Yevlaxda da ölkəmiz və bütün bölgə üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bir hissəsi inşa edilir, böyük nasos stansiyası tikilir. Şübhəsiz ki, bu da Heydər Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Əgər 1994-cü ildə Azərbaycanda Heydər Əliyev tərəfindən neft strategiyasının əsası qoyulmasaydı, əlbəttə, biz bu nailiyyətləri əldə edə bilməzdik. Bu gün iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycana bütün dünyada böyük hörmət vardır.

Eyni zamanda, sosial məsələlər də öz həllini tapır. Ən çətin vəziyyətdə yaşayan soydaşlarımızın – qaçqınların və köçkünlərin də həyat şəraiti yaxşılaşdırılır. Onlar üçün yeni qəsəbələr, şəhərciklər salınır, yeni məktəblər, xəstəxanalar tikilir. Bu proses davam edəcəkdir. Mən seçkilərdən əvvəl bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Biz çalışacağıq ki, bütün qaçqın-köçkünlərə kömək edək. Amma, ilk növbədə, ən ağır şəraitdə, çadırlarda yaşayan insanlarımızın həyat səviyyəsi yaxşılaşdırılmalıdır. Bu məqsədlə artıq müvafiq fərmanlar imzalanmış və onların icrasına başlanmışdır.

Bir sözlə, Azərbaycan son on il ərzində Heydər Əliyevin rəhbərliyi altında möhkəmlənmiş, inkişaf etmişdir. Bu gün ölkəmiz irəliyə çox inamla baxır. Bizim çox gözəl perspektivlərimiz vardır. Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan yaxın gələcəkdə iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir. Bunu etmək, buna nail olmaq üçün, ilk növbədə, Heydər

Əliyevin siyasəti davam etdirilməlidir. Mən bu gün fürsətdən istifadə edərək, prezident seçkilərində Heydər Əliyev siyasətinə səs verdiklərinə görə yevlaxlılara öz minnətdarlığımı bildirirəm. Azərbaycanda bu siyasətə alternativ yoxdur. Biz bu siyasəti bütün sahələrdə davam etdirəcəyik.

Azərbaycanın beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənəcəkdir. Mənim son müddət ərzində etdiyim xarici səfərlər, beynəlxalq təşkilatlarda keçirdiyim görüşlər bir daha göstərdi ki, Azərbaycan bu istiqamətdə çox uğurlu siyasət aparır. Dünyanın bütün nüfuzlu beynəlxalq təşkilatları ilə Azərbaycanın çox gözəl münasibətləri vardır. Avropa Şurası, Avropa Birliyi və NATO, habelə dünyanın aparıcı dövlətləri ilə ölkəmizin çox gözəl əlaqələri mövcuddur. Bu yaxınlarda mənim bu təşkilatlara etdiyim səfərlər bunu bir daha təsdiq etdi.

Azərbaycanın iqtisadiyyatı günü-gündən güclənir və yüksək sürətlə inkişaf edir. Yeni iş yerlərinin açılması istiqamətində işlər görülür. Neft strategiyası uğurla davam etdirilir və gələn ilin əvvəllərində ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan boru kəməri istifadəyə veriləcəkdir. Ölkəmizdə sosial problemlər öz həllini tapır. Ötən il pensiyalar, əmək haqları artırılmışdır. Bu müsbət meyllər davam edəcəkdir. Çalışacağıq ki, insanlarımızın daha yaxşı yaşaması üçün əlimizdən gələni edək.

Bildiyiniz kimi, bir müddət əvvəl Azərbaycanın gələcək inkişafı üçün böyük əhəmiyyətə malik olan sosial-iqtisadi və regional proqramlar qəbul edilmişdir. Artıq bu proqramlar həyata keçirilir. Əminəm ki, növbəti 5 ildə onların həyata keçirilməsi ölkəmizə böyük fayda gətirəcəkdir. Biz yoxsulluqla mübarizə aparırıq və onu davam etdirəcəyik. Yeni iş yerlərinin açılması bizim üçün prioritet məsələdir və mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm. Bu gün böyük məmnunluq hissi ilə demək istəyirəm ki, prezident seçkilərindən sonra Azərbaycanda 30 minə yaxın yeni iş yerləri açılmışdır. Çox sevindirici haldır ki, bu iş yerləri bölgələrdə, ölkəmizin müxtəlif rayonlarında açılmışdır. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycanın bütün bölgələri inkişaf etməlidir. Paytaxt şəhərimiz Bakı öz yerində, amma Azərbaycanın digər rayon və şəhərləri, kənd və qəsəbələri inkişaf etməlidir. İnsanlar işlə təmin olunmalıdır. Mən çox sevinirəm ki, bu siyasətin ilkin nəticələri artıq göz qabağındadır. Əminəm ki, bu meyllər davam edəcək və ölkəmizdə yoxsulluq, işsizlik aradan qaldırılacaqdır.

Bu gün mən Yevlaxda olmağımdan çox şadam. Burada deyildi, seçkilərdən əvvəl mən Yevlaxa gəlmişəm və yevlaxlılarla görüşmüşəm. Onların

dəstəyini aldım və bu dəstəklə prezident seçkilərində iştirak etdim və qalib gəldim. Çox sevindirici haldır ki, seçkilərdən sonra Yevlaxda gedən abadlıq, quruculuq işləri daha geniş vüsət almışdır. Bilirsiniz ki, iki ay əvvəl mən Yevlaxa yeni icra başçısı təyin etmişəm. Söhbət əsnasında qərara gəldik ki, müəyyən müddətdən sonra, hesab edirdim ki, təxminən 6 aydan sonra mən buraya gələcəyəm və görülən işlərlə tanış olacağam. Çox şadam ki, bu müddət iki ay oldu. Bu iki ay ərzində Yevlaxda mühüm işlər görülübdür – küçələr, parklar salınıb, müəssisələrin fəaliyyəti bərpa olunub, insanlara diqqət artırılıbdır. Məhz bu, bizim siyasətimizin ana xəttidir – iqtisadi və sosial inkişaf, insanlara qayğı və diqqət. Əgər bu amillər hər yerdə olarsa, Azərbaycan qısa müddət ərzində öz problemlərinin hamısını həll etmiş olar. Ümidvaram ki, bu, belə də olacaqdır. Əgər Yevlaxda iki ay ərzində bu qədər iş görülmüşsə, əminəm ki, digər bölgələrdə də bu işlər görülə bilər. Mənim bütün rəhbər işçilərdən, səlahiyyətli şəxslərdən tələbim bundan ibarətdir: rayonu, şəhəri inkişaf etdirmək, abadlıq, quruculuq işləri aparmaq, yeni iş yerləri açmaq, sahibkarlara gözəl şərait yaratmaq, kəndlilərə, fermerlərə kömək etmək, eyni zamanda, insanlara qayğı və diqqətlə yanaşmaq. Çox şadam ki, bunların hamısı Yevlaxda həyata keçirilir. Yeni rəhbərliyə, yevlaxlılara bu işdə yeni uğurlar arzulayıram.

Bu siyasətin təməli 1993-cü ildə qoyulmuşdur. Əgər həmin ildə bu inkişaf xətti götürülməsəydi, bu gün Azərbaycan çox çətin vəziyyətdə olardı. O illərdə ölkəmizin ən çətin problemləri həll edilirdi. Sabitliyin bərpa olunması, asayişin qorunub saxlanılması və eyni zamanda, ən mühüm problem kimi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesləri başlanmışdı. O zaman dövlət müstəqilliyimiz təhlükə altında idi. Heydər Əliyevin titanik səyləri nəticəsində bütün bu məsələlərin həlli istiqamətində böyük addımlar atıldı. Azərbaycan, demək olar ki, 1996-cı ildən bu çətinlikləri arxada qoymuşdur. Həmin ildən ölkə dinamik şəkildə inkişaf etməyə başladı.

Biz bu gün gələcəyə çox nikbinliklə baxırıq. Gələcəyimiz çox parlaq olacaqdır. Ölkəmiz inkişaf edəcək, güclənəcək, Azərbaycan üçün ən ağır problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaqdır. Mən buna əminəm. Bizim işimiz haqq işidir. Biz ədaləti müdafiə edir, ərazi bütövlüyümüzü bərpa etmək istəyirik. Çalışırıq ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə öz həllini tapsın. Amma, eyni zamanda, biz bütün digər hadisələrə də hazır olmalıyıq. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur, öz torpaqlarımızı da heç kimə verməyəcəyik. Biz öz doğma torpaqlarımızı azad edəcəyik. İstəyirik, bunu

sülh yolu ilə edək. Əgər bu mümkün olmazsa, bütün başqa vasitələrdən istifadə edib doğma torpaqlarımızı azad edəcəyik.

Qarşıda duran bütün vəzifələri yerinə yetirmək üçün Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu siyasət bu gün də Azərbaycana lazımdır, sabah da lazım olacaqdır. Mən seçkilərdən əvvəl bu siyasətə sadiq olacağımı və ondan dönməyəcəyimi demişdim. İndi siz görürsünüz ki, mən, həqiqətən, bu siyasətə sadiqəm və bir addım da geriyə çəkilməyəcəyəm. Biz yalnız irəliyə və yeni qələbələrə doğru addımlayacağıq.

Əziz yevlaxlılar, bu meydana və prospektə xalqımızın ümummilli lideri Heydər Əliyevin adının verilməsi münasibətilə mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

***9 iyun 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MƏDƏNİYYƏT VƏ KÜTLƏVİ KOMMUNİKASİYALAR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev adına sarayda Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar naziri Aleksandr Sokolovu qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq, Rusiyanın mədəniyyət xadimlərindən ibarət mötəbər nümayəndə heyətinin Azərbaycana gəlməsini ölkənin həyatında əlamətdar hadisə adlandırdı. Prezident İlham Əliyev Rusiya dövlətinin zəngin mədəni ənənələrindən danışaraq qeyd etdi ki, Azərbaycanda rus mədəniyyətinə maraq həmişə yüksək olmuşdur. Ölkəmizdə Rusiyanın televiziya kanalları yayımlanır və onların vasitəsilə Azərbaycan sakinləri Rusiya mədəniyyətinin dəyərli irsi ilə tanış olurlar.

Rusiya nümayəndə heyətinin indiki səfəri və Azərbaycanda Rusiya mədəniyyəti günlərinin keçirilməsi ölkələrimiz arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin inkişafına böyük töhfə olacaqdır. Azərbaycan Prezidenti mədəniyyət günlərinin uğurla keçməsini arzuladı.

Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar naziri Aleksandr Sokolov mədəniyyət günlərinin iştirakçıları üçün yaradılmış yaxşı şəraitə görə Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirdi və bu tədbirin keçirilməsini mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsində mühüm mərhələ kimi qiymətləndirdi.

Görüşdə mədəniyyət naziri Polad Bülbüloğlu, Rusiyanın Azərbaycandakı səfiri Nikolay Ryabov iştirak edirdilər.

***12 iyun 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Bakıda – Heydər Əliyev adına sarayda Azərbaycanda Rusiya Federasiyası mədəniyyət günlərinin təntənəli açılışı olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Mərasimin aparıcıları – Rusiya kinosunun populyar aktrisası Oksana Korostışevskaya və Rusiya Federasiyasının əməkdar artisti, bəstəkar Sergey Şustitski dövlətimizin başçısını və iştirakçıları salamlayaraq xatırlatdılar ki, Rusiya və Azərbaycan xalqları arasındakı əlaqələrin çoxəsrlik tarixi var. Bu əlaqələr heç zaman qırılmayıb, mədəniyyətlərimiz isə həmişə qaynayıb-qarışıb və bir-birini zənginləşdiribdir. Rusiya incəsənətinin bir çox ustalarının yaradıcılığı azərbaycanlılara yaxşı məlumdur. Eləcə də Azərbaycanın bir çox musiqiçilərinin, yazıçı və şairlərinin yaradıcılığı rusiyalılara əziz və yaxındır.

Sonra çıxış edən Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu vaxt tapıb mədəniyyət günlərinin açılışına gəldiyinə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi.

O, qonaqları səmimiyyətlə salamlayaraq, Rusiya Federasiyasının milli bayramı münasibətilə təbrik etdi.

Nazir dedi ki, biz mədəni ənənələrimizin davam etməsindən çox şadıq. Şadıq ki, hər il bizdə böyük tədbirlər keçirilir. Bir il Azərbaycan öz incəsənətini Rusiyada, növbəti ildə isə Rusiya öz incəsənətini Azərbaycanda təqdim edir. Prezident İlham Əliyevin fevralda Rusiyaya səfəri zamanı yüksək səviyyədə belə bir razılaşma əldə edilmişdir ki, 2005-ci il Rusiyada Azərbaycan ili, 2006-cı il isə Azərbaycanda Rusiya ili elan olunacaqdır. Əminəm ki, bu incəsənət illəri böyük uğurla keçəcək və bizi daha da yaxınlaşdıracaqdır.

Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar naziri Aleksandr Sokolov Azərbaycan Prezidentinə və mərasim iştirakçılarına müraciətlə dedi ki, bu gün burada, Rusiyanın mədəniyyətinin təqdim edildiyi bu gözəl sarayda sizi görməyimə çox şadam. Bu, çoxdankı və gözəl ənənədir. Mən bu səfərə hazırlaşarkən əvvəlki görüşlərimi yadıma saldım və belə bir qəti nə-

ticəyə gəldim ki, Rusiya ilə Azərbaycan arasında təşəkkül tapmış belə təcrübə, mədəniyyət sahəsində bu cür mehriban qonşuluq siyasəti yoxdur. Bu, doğrudan da belədir. Çünki heç yerdə, heç bir mərhələdə bizim aramızda ayrılıq olmamışdır.

A.Sokolov daha sonra bildirdi ki, bu gün iki nazirlik arasında XXI əsrə yol açan konkret sənədlər imzalanmışdır. Biz keçmiş ənənələri davam etdiririk.

Biz bu gün burada sevimli artistlərinizin iştirak etdiyi konsertlə çıxış edirik. Gələn ildə biz Azərbaycan artistlərini Moskvada gözləyəcəyik. Bu, təkcə mədəniyyət günləri yox, həm də məhz respublika ili olacaqdır. Başqa sözlə, biz dövlətlərarası ünsiyyətimizin tamamilə yeni səviyyəsinə qədəm qoyuruq.

◆◆◆

Sonra Rusiya Federasiyası incəsənət ustalarının konserti oldu. Tamaşaçılar sevimli artistlərini – Rusiyanin xalq artistləri Oleq Qazmanovu, Nadejda Babkinanı, əməkdar artist Yan Arlazorovu, İrina Ponarovskayanı və başqalarını hərarətlə alqışladılar.

◆◆◆

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdən sonra səhnə arxasına gələrək, Rusiyanın incəsənət ustaları ilə görüşdülər. Dövlətimizin başçısı tamaşaçılar tərəfindən alqışlarla qarşılanan gözəl çıxışlarına görə Rusiya artistlərinə təşəkkür etdi və mədəniyyət günlərinin iştirakçılarına uğurlar dilədi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertin iştirakçıları ilə xatirə şəkli çəkdirdilər.

***12 iyun 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN XATİRƏSİNİ YAD ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Tbilisinin qədim Meydan məhəlləsində yerləşən Botanika bağındakı Panteona gələrək, Azərbaycanın görkəmli siyasi və mədəniyyət xadimlərinin məzarlarını ziyarət etmişlər.

Azərbaycan Prezidenti və onun xanımı Azərbaycan poeziyasının klassiklərindən biri Mirzə Şəfi Vazehin, dramaturq və mütəfəkkir Mirzə Fətəli Axundovun, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən Həsən bəy Ağayevin və Fətəli Xan Xoyskinin məzarları üzərinə gül-çiçək qoydular.

Prezident İlham Əliyev və xanımı Şərqdə ilk müstəqil demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə qoyulmuş xatirə daşının önünə də gül qoydular.

Sonra gürcü və Azərbaycan jurnalistlərinə qısa müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın görkəmli xadimlərinin məzarlarının qayğı ilə qorunub saxlanmasına görə Gürcüstan hökumətinə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Tbilisidə keçirdiyi görüşlərdən danışaraq, səfərinin yekunlarından razı qaldığını vurğuladı.

Panteonun ziyarət olunması mərasimində Azərbaycan Prezidentini Tbilisi şəhərinin meri Zurab Çiaberişvili müşayiət edirdi.

***15 iyun 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TBİLİSİDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Tbilisinin mərkəzində Heydər Əliyev adına parkın açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, dövlətimizin başçısını səfərdə müşayiət edən Azərbaycan nümayəndə heyətinin üzvləri mərasimdə iştirak edirdilər.

Mərasimi Gürcüstan paytaxtının meri Zurab Çiaberişvili açdı.

Gürcüstan Prezidenti Mixail Saakaşvili və Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab Prezident!

Əziz dostlar!

Heydər Əliyev adına parkın yaradılması haqqında qərara görə, ilk növbədə, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə bütün Azərbaycan xalqı adından və şəxsən öz adımdan təşəkkür etmək istəyirəm. Bu qərar Azərbaycanda böyük minnətdarlıqla qarşılanmışdır. Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə Gürcüstanda ölkə rəhbərliyi tərəfindən göstərilən ehtiram bizə çox əziz və qiymətlidir. Bu, ölkələrimiz arasında və xalqlarımız arasında olan sarsılmaz əlaqələrə daha bir sübutdur.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, Azərbaycanın iqtisadi cəhətdən müstəqil, siyasi cəhətdən azad dövlət kimi təşəkkül tapmasında müstəsna rol oynamışdır. Prezident kimi Azərbaycana başçılıq etdiyi on il ərzində o, beynəlxalq aləmdə də, iqtisadi, sosial məsələlərin həllində də, habelə ən yaxın qonşumuz, strateji tərəfdaşımızla – Gürcüstanla münasibətlərdə çox böyük uğurlar qazanmışdır.

Onun millətlərarası münasibətlərin inkişafı işindəki rolunu Azərbaycanda və Gürcüstanda çox yüksək qiymətləndirirlər. Buna görə də biz Heydər Əliyevin adını daşıyacaq belə gözəl parkın yaradılması haqqında Gürcüstan rəhbərliyinin qərarını bir daha böyük minnətdarlıqla qarşılayırıq.

Bizim münasibətlərimiz bünövrəsi Prezidentimiz Heydər Əliyev tərə-

findən qoyulan təməl üzərində inkişaf edir və özü də uğurla inkişaf edir. Mənim Gürcüstana səfərim də buna daha bir sübutdur. Prezident Mixail Saakaşvilinin Azərbaycana çox uğurlu səfərini ölkəmizdə xatırlayırlar. İndi mən Gürcüstandayam. Biz bütün tədbirlərdə, imkan olan hər bir yerdə çox fəal ünsiyyətdə oluruq. Bizim dostluğumuz, şəxsi münasibətlərimiz bunun böyük rəhnidir ki, Gürcüstan və Azərbaycan əvvəlki kimi, yenə də həmişə bir-birinin yanında, həmişə birlikdə olacaq, həmişə bir-birinə kömək göstərəcək və ümumi məqsədə – mühüm məsələləri birlikdə həll edəcək azad, demokratik, iqtisadi cəhətdən güclü tərəfdaş dövlətlər yaratmaq məqsədinə doğru birlikdə irəliləyəcəklər.

Heydər Əliyevin xatirəsinə göstərilən belə səmimi ehtirama görə bir daha Prezidentə təşəkkür edirəm, bütün gürcü xalqına təşəkkür edirəm. Bu, həm Azərbaycan Prezidenti kimi, həm də Heydər Əliyevin oğlu kimi mənim üçün çox qiymətlidir.

Sağ olun.

***15 iyun 2004-cü il***

# PREZİDENT İLHAM ƏLİYEV QAZAX RAYONUNUN YUXARI SALAHLI KƏNDİNDƏ SƏMƏD VURĞUN POEZİYA EVİ İLƏ TANIŞ OLMUŞDUR

Prezident İlham Əliyev Qazax rayonunun Yuxarı Salahlı kəndində unudulmaz xalq şairi Səməd Vurğun Poeziya evini ziyarət etdi. Dövlətimizin başçısına bildirildi ki, Səməd Vurğunun Bakıdakı ev-muzeyinin filialı olan Poeziya evi 1976-cı ildən fəaliyyət göstərir. Ümummilli liderimiz Heydər Əliyev 1979-cu ildə Poeziya evində olmuş, buranın zənginləşdirilməsi üçün konkret tapşırıqlar vermişdi. İndi burada Heydər Əliyev guşəsi də var.

Prezident İlham Əliyev ekspozisiyaya tamaşa etdi, tövsiyələrini söylədi, Azərbaycan poeziyası klassikinin özünün oxuduğu şerlərin maqnitofon yazısına qulaq asdı. Azərbaycan Prezidenti fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Dahi Azərbaycan şairi Səməd Vurğunun yaradıcılığı Poeziya evinin ekspozisiyasında öz əksini tapır.

Ekspozisiya ilə böyük maraqla tanış oldum. Səməd Vurğunun əsərləri öz aktuallığını itirmir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Səməd Vurğun Poeziya evinin əməkdaşlarına uğurlar arzulayıram.

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti 15.06.2004-cü il"

***18 iyun 2004-cü il***

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN MƏZARLARINI ZİYARƏT ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Tbilisinin qədim Meydan məhəlləsində yerləşən Botanika bağına gələrək Azərbaycanın görkəmli siyasi və mədəniyyət xadimlərinin məzarlarını ziyarət etmişlər.

Azərbaycan Prezidenti və onun xanımı Azərbaycan poeziyasının klassiklərindən biri Mirzə Şəfi Vazehin, dramaturq və mütəfəkkir Mirzə Fətəli Axundovun, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən Həsən bəy Ağayevin və Fətəli Xan Xoyskinin məzarları üzərinə gül-çiçək qoydular.

Prezident İlham Əliyev və xanımı Şərqdə ilk müstəqil demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə qoyulmuş xatirə daşının önünə də gül qoydular.

Sonra dovlətimizin başçısı jurnalistlərin suallarına cavab verdi.

SUAL: Cənab Prezident, Siz bu gün gedirsiniz. Nə kimi təəssüratınız var?

CAVAB: Təəssürat yaxşıdır. Görüşlər keçirildi, danışıqlar aparıldı. Biz bütün məsələləri konstruktiv şəkildə müzakirə etdik. Mən səfərdən çox razıyam. Bu səfər bir daha göstərdi ki, əməkdaşlığımızın, dostluğumuzun səviyyəsi çox yüksəkdir.

SUAL: Siz burada dəfn edilmiş azərbaycanlıların fəaliyyəti barədə nə deyə bilərsiniz?

CAVAB: Onlar Azərbaycan xalqının böyük nümayəndələri idi. Bütün azərbaycanlılar onları xatırlayırlar. Biz onların xatirəsinə göstərilən belə münasibətə görə Gürcüstana və gürcü xalqına çox minnətdarıq. Bu insanların Azərbaycan tarixində izi çox böyükdür, tarixi, mədəni, siyasi proseslərə onların çox böyük təsirləri olmuşdur.

SUAL: Sizin atanızın adını daşıyan park barədə nə deyə bilərsiniz?

CAVAB: Əlbəttə, parka Azərbaycan xalqının lideri Heydər Əliyevin adının verilməsi barədə qərarına görə Gürcüstan rəhbərliyinə və şəxsən Prezidentə çox minnətdaram. Bu, bir daha sübut edir ki, müstəqil Azərbaycanın təşəkkülündə də, Gürcüstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında da onun xidmətləri çox böyükdür. Bu, bir daha sübut edir ki, əlaqələrimiz davam etdiriləcək, möhkəmləndiriləcəkdir, çünki biz

strateji tərəfdaşlarıq. Heydər Əliyevin xatirəsinə göstərilən belə ehtiram bir Prezident kimi və bir oğul kimi məni olduqca mütəəssir edir.

SUAL: Cənab Prezident, Sizin burada baxdığınız büstlər o qədər də yüksək səviyyədə deyildir. Bunların yüksək səviyyədə hazırlanması üçün hər hansı addım atıla bilərmi? Çünki bunlar bizim tariximizdir.

CAVAB: Bu məsələyə baxıla bilər. Hər halda, dediyim kimi, mən Gürcüstan hökumətinə minnətdarlığımı bildirirəm ki, burada uyuyan bizim görkəmli elm, mədəniyyət xadimlərinin, siyasi xadimlərin xatirəsi belə qorunur. Büstlərin səviyyəsinə gəldikdə, əlbəttə, hər dövrün öz tələbi var. O dövr üçün bunlar çox yüksək səviyyədə qoyulmuşdu. Əgər belə bir ehtiyac olarsa, mən ümid edirəm, biz buna birlikdə baxa bilərik. Gürcüstan və Azərbaycan hökumətləri buna birlikdə baxa bilər. Amma hər halda, mövcud olan abidələr dövrün səviyyəsinə uyğundur.

***18 iyun 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ GƏNCƏ ŞƏHƏRİNDƏ OLMUŞDUR

Prezident İlham Əliyev və xanımı dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirə kompleksinə gəldilər.

Dövlətimizin başçısı şairin məqbərəsi önünə əklil qoydu. Sonra Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva dünya poeziyası dahisinin məzarını ehtiramla ziyarət etdilər.

Mədəniyyət naziri Polad Bülbüloğlu Azərbaycan Prezidentinə kompleksdə nəzərdə tutulan bərpa işləri barədə ətraflı məlumat verdi.

Respublikamızın rəhbəri bununla əlaqədar öz təkliflərini söylədi.

◆◆◆

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İmamzadə pirini də ziyarət etdi.

Pirin axundu hacı Tahir ziyarətgah haqqında ətraflı məlumat verdi, Allah-Təaladan Prezidentə cansağlığı dilədi, ümummilli lider Heydər Əliyevin ruhuna və Azərbaycan xalqının gələcək firavanlığı, ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə dua etdi. Din xadimi dedi ki, cənab Prezident, Sizi Gəncədə çox sevirlər. Sizinlə fəxr edirik. Bizim şəhərimiz İlhamsevərlər şəhəridir.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

– Çox sağ olun. Gəncə də mənim üçün çox əziz, doğma şəhərdir. Mən burada dəfələrlə olmuşam. Gəncə bizim qədim şəhərimizdir, Azərbaycanın tarixidir. Müstəqil Azərbaycanın ikinci şəhəridir. Ona görə Gəncəyə xüsusi diqqət, münasibət olmalıdır. Abadlıq, quruculuq işlərini görəndə, yolların salınmasını, camaatın əhval-ruhiyyəsinin yüksəlməsini görəndə mən çox sevinirəm. Mən istəyirəm ki, bu şəhər daha da gözəlləşsin, abadlaşsın.

Bilirsiniz ki, son dövrdə burada birinci təzə binanı, idman kompleksini biz tikdik. İndi hava limanı tikiləcəkdir. Mən qərar qəbul etdim, bu məsələyə baxacağam. Yeni binalar, yaşayış binaları, mehmanxanalar tikiləcək, şəhər, necə deyərlər, öz qədimliyini, tarixi özəlliyini saxlamaq şərtilə müasirləşməlidir. Mən də çalışacağam ki, hamınızla birlikdə, gəncəlilərlə birlikdə buna nail olam. Sağ olun.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İmamzadə pirini gəzdilər, qurban kəsdirdilər və Azərbaycan naminə nəzir verdilər.

◆◆◆

Prezident İlham Əliyev daha sonra Azərbaycanın görkəmli dövlət xadimi, iki yüz il əvvəl çar Rusiyasının işğalçı qoşunları ilə döyüşdə qəhrəmancasına həlak olmuş Gəncə xanı Cavad xanın məzarını ziyarət etdi. Gəncə Regional Elm Mərkəzinin rəhbəri professor Fuad Əliyev həyatını Azərbaycanın müstəqilliyi uğrunda qurban verən qəhrəmanın qılıncının rəmzi surətini Prezidentə hədiyyə etdi və onun tarixi fəaliyyəti barədə danışdı.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan rəhbərinə Cavad xanın xatirəsinə ucaldılacaq məqbərənin layihəsi barədə məlumat verdi.

***18 iyun 2004-cü il***

## AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİ DÖVLƏT FİLARMONİYASINDA KONSERTDƏ OLMUŞLAR

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Yunanıstan Prezidentinin rəsmi səfəri ilə əlaqədar Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri Azərbaycan və Yunanıstan musiqisindən ibarət konsert vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos konsertdə olmuşlar.

Konsertdən əvvəl dövlət başçıları ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə müasir standartlara uyğun bərpa edilmiş Filarmoniya binasına və onun yay estradasına baxdılar.

Salona toplaşanlar prezidentləri hərarətli alqışlarla qarşıladılar.

Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndi.

Respublikamızın məşhur musiqi kollektivi konsertdə Azərbaycanın xalq artisti Rauf Abdullayevin və Yunanıstan dirijoru Yorqos Sanqarisin idarəsi ilə Fikrət Əmirovun "Azərbaycan kapriççiosu"nu, Yorqos Sanqarisin "Prometey", Qara Qarayevin "İldırımlı yollarla" baletlərindən parçaları, Nikos Skalkotasın "İki rəqs" simfoniyasını məharətlə ifa etdi.

Yunanıstanın məşhur bəstəkarı və dirijoru Yorqos Sanqaris Azərbaycan Dövlət Simfonik Orkestrinin musiqiçilərinə gözəl çıxışlarına görə dərin təşəkkürünü bildirdi, onların məharətini yüksək qiymətləndirdi. O, Azərbaycan və Yunanıstan prezidentləri qarşısında çıxış etməyin böyük şərəf olduğunu vurğuladı və Rauf Abdullayevə üzərində görkəmli yunan dirijoru Mitropolusun şəkli olan xüsusi medalı təqdim etdi.

***22 iyun 2004-cü il***

## İSTANBULDA HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ ÜMUMMİLLİ LİDERİMİZİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İstanbulun mərkəzində – Şişli bələdiyyəsinin ərazisində Azərbaycanın ümummilli lideri Heydər Əliyev adına parkın və xalqımızın dahi oğlunun büstünün açılış mərasimində iştirak etmişlər.

Büstün yaxınlığındakı binada ümumilli liderimizin həyat və fəaliyyətindən bəhs edən “Əsrlərə bərabər bir ömür” adlı fotosərgi təşkil olunmuşdu. Binanın divarındakı mərmər lövhədə Heydər Əliyevin məşhur “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir” kəlamı həkk edilmişdi.

Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Mərasim iştirakçılarına ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyəti barədə məlumat verildi.

İstanbulun minlərlə sakininin toplaşdığı mərasimi Şişli bələdiyyəsinin sədri Mustafa Sarıgül açdı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab vali!

Hörmətli Şişli bələdiyyəsinin başqanı!

Əziz dostlar, qardaşlar, xanımlar və cənablar!

Mən, ilk növbədə, sizin hamınızı ürəkdən salamlayıram. Sizi görməyimə çox şadam. Bu gün qeyd olundu ki, mən dövlət başçısı kimi İstanbula ilk səfərdəyəm. İstanbulda dəfələrlə olmuşam. Bu şəhəri çox sevirəm. Bu şəhər bizim hamımız üçün, həm Türkiyədə, həm də Azərbaycanda yaşayanlar üçün çox əziz, doğma şəhərdir. Mənim də həyatımın bir hissəsi İstanbulda keçmişdir. Ona görə mən İstanbulu çox yaxşı tanıyıram, gözəl xatirələrim var. Mən öz fikrimi demək istəyirəm və siz mənimlə razılaşarsınız ki, İstanbul dünyanın ən gözəl şəhəridir.

Əlbəttə, mənim üçün və bütün Azərbaycan xalqı üçün çox böyük şərəfdir ki, bu gün İstanbulda xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan park açılır. Burada Heydər Əliyevin abidəsi ucaldılıb və sərgi

təşkil edilibdir. Bütün bu işlərdə iştirak edən, bunları təşkil edən dostlarımıza, qardaşlarımıza öz dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Heydər Əliyev, həqiqətən, Azərbaycan xalqının ümummilli lideri idi. Azərbaycanın ən çətin anlarında, ən çətin dövrlərində xalqla bir yerdə idi. Xalqı çətin vəziyyətdən irəli, tərəqqiyə, inkişafa aparırdı. Keçən əsrin 70-ci illərində Azərbaycan müstəqil dövlət deyildi, Sovet İttifaqı çərçivəsində bir respublika idi. Amma o illər ərzində Azərbaycanda böyük quruculuq işləri aparılmış, zavod və fabriklər tikilmişdir. Azərbaycan, demək olar ki, öz iqtisadi potensialını məhz o dövrlərdə, məhz 70-ci illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman yaratmışdır.

Azərbaycanın müstəqilliyinin ilk illəri çox ağır keçirdi. Ölkə böhran içində idi, vətəndaş müharibəsi, qardaş qırğını baş verirdi. Müharibədə Azərbaycan torpaqları işğal olunurdu. Ölkə iqtisadiyyatı çökmüşdü. Ümumiyyətlə, Azərbaycan və onun müstəqil gələcəyi çox böyük təhlükə altında idi. Məhz o zaman, 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıtmış və qısa müddət ərzində ölkəni böhran vəziyyətindən çıxarmışdır. Bundan sonra Azərbaycan sabitlik əldə etmiş və öz inkişaf yoluna qədəm qoymuşdur.

Bu gün müstəqil Azərbaycan dünya birliyinin layiqli üzvüdür. Azərbaycan beynəlxalq təşkilatlarda fəal iştirak edir. Ölkəmizin iştirakı ilə dünyada və bölgədə önəmli regional layihələr həyata keçirilir. Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. Mən sizə deyə bilərəm ki, son yeddi il ərzində iqtisadiyyatımız 90 faiz artmışdır. Hər il iqtisadi artım 10 faizdən yuxarıdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Ölkəmizin çoxlu sosial problemləri öz həllini tapır. Bir sözlə, bu gün Azərbaycan inamla irəliyə, gələcəyə baxır.

Ölkəmizin iqtisadi, siyasi potensialı çox güclüdür. Siz bilirsiniz ki, Azərbaycanda həyata keçirilən böyük neft layihələri də Heydər Əliyevin neft strategiyası ilə bağlıdır. Məhz onun cəsarəti, uzaqgörənliyi və siyasi iradəsi 1994-cü ildə bu strategiyanın təməlini qoymuşdur. Baxmayaraq ki, o illərdə Azərbaycana bu məsələ ilə əlaqədar böyük təzyiqlər olmuşdur. Ölkə daxilində də buna müqavimət var idi. Xaricdə də bəzi dairələr açıq şəkildə bunun əleyhinə çıxırdı. Belə cəhdlər olurdu. Lakin bütün bunlara baxmayaraq, Heydər Əliyevin iradəsi və qətiyyəti nəticəsində bu layihələr həyata keçdi. Türkiyə və Azərbaycanı iqtisadi baxımdan daha da yaxınlaşdıran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi uğurla davam edir. Bu, bir daha onu göstərir ki, Heydər Əliyev ikitərəfli münasibətlərə, Türkiyə-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirdi. Mən şübhə etmirəm ki,

yaxın zamanlarda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası uğurla başa çatacaq və biz bu mərasimi qeyd edəcəyik.

Türkiyə-Azərbaycan əlaqələri Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. O, daim çalışırdı ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr bütün sahələrdə güclənsin və inkişaf etsin. Məhz onun rəhbərliyi altında son 10 il ərzində iki qardaş ölkə arasındakı əlaqələr ən yüksək zirvəyə qalxmışdır. Bu gün bizi siyasi, iqtisadi, mədəni və digər sahələrdə möhkəm tellər bağlayır. Türkiyə və Azərbaycan beynəlxalq aləmdə bir mövqedən çıxış edir, daim bir-birinə dəstək olur. Əlbəttə ki, Azərbaycanın və Türkiyənin xoşbəxt gələcəyi bizim xalqlarımızın birliyindədir. Bu gözəl kəlam Azərbaycanda və Türkiyədə çox məşhurdur. Bu, həm həqiqəti, həm də Türkiyə ilə Azərbaycan arasında olan əlaqələri əks etdirir. Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Bu şüar bizim hamımız üçün örnəkdir. Bu şüar bizim siyasətimizin əsasıdır. Biz bu dostluğa, bu qardaşlığa sadiqik.

Mən çox şadam ki, ölkə başçısı kimi bu əlaqələrin inkişafına da öz töhfəmi verirəm. Sizə deyə bilərəm ki, keçən il Azərbaycanın Baş naziri vəzifəsinə təyin olunduqdan sonra mənim ilk xarici səfərim məhz Türkiyəyə olmuşdur. Mən Prezident seçiləndən sonra da Türkiyə-Azərbaycan əlaqələrinə çox böyük əhəmiyyət verirəm və Azərbaycanın müasir siyasətinin prioriteti hesab edirəm. Mən Prezident kimi də Türkiyəyə səfər etmişdim. Lakin əfsuslar olsun ki, o zaman vaxt çox məhdud idi və İstanbula gələ bilmədim. Bu gün çox xoşbəxtəm ki, İstanbuldayam, bu gözəl mərasimdə sizinlə birlikdəyəm.

Heydər Əliyevin xatirəsinə belə hörmətlə, belə məhəbbətlə yanaşdığınıza görə mən sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan bu siyasətə, Heydər Əliyev siyasətinə sadiq qalacaqdır. Bu siyasət bütün sahələrdə davam etdirilir. Mən bu siyasətə sadiqəm. Yalnız Heydər Əliyev siyasəti Azərbaycanı xoşbəxt gələcəyə apara bilər.

Mən bir daha qeyd etmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri çox güclüdür. Aramızda olan qardaşlıq, dostluq çox güclüdür və heç kim bu münasibətlərə təsir edə bilməz. Bu, bizim siyasətimizdir, biz də bunu aparacağıq.

Əziz dostlar, qardaşlar, bu gözəl parka Heydər Əliyevin adını verdiyinizə görə, burada bu gözəl abidəni yaratdığınıza görə mən sizə həm Heydər

Əliyevin oğlu kimi, həm də Azərbaycan Prezidenti kimi bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!

◆◆◆

Sonra büstün uzərindəki örtük götürüldü.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, mərasim iştirakçıları "Əsrlərə bərabər bir ömür" adlı fotosərgi ilə tanış oldular. Sərgidə ümummilli liderimiz Heydər Əliyevin həyatının ən müxtəlif dövrlərindən bəhs edən fotoşəkillər nümayiş etdirilir. Burada dünyanın görkəmli dövlət xadimlərinin Azərbaycanın ümummilli lideri barədə fikirlərinə də geniş yer verilmişdir.

Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:

"Bu gün Türkiyənin İstanbul şəhərində Heydər Əliyev adına parkın açılışında iştirak etməkdən böyük mutluluq və qürur hissi duyuram. Parkda ucaldılan Heydər Əliyevin abidəsi çox böyük ustalıqla işlənilib.

Türkiyə-Azərbaycan ilişkiləri xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətində ən önəmli yer tuturdu. Mən Azərbaycanın Cümhurbaşqanı kimi bu siyasətə sadiqəm. Türkiyə-Azərbaycan ilişkiləri daha da inkişaf edəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaqdır. Biz bir millət, iki dövlətik

Yaşasın Türkiyə Azərbaycan dostluğu, qardaşlığı!

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti 26 iyun 2004-cü il".

***24 iyul 2004-cü il***

# AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİ FİLARMONİYADA KONSERTDƏ OLMUŞLAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında incəsənət ustalarının konsertində olmuşlar.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Pakistan Prezidenti Pərviz Müşərrəfi və xanımı Sehba Müşərrəfi hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının dövlət himnləri səsləndi.

Respublikamızın incəsənət ustalarının ifasında rəngarəng konsert proqramı böyük maraqla qarşılandı.

***9 iyul 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA HEYDƏR ƏLİYEV ADINA SARAYIN QARŞISINDAKI PARKDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞ, PAYTAXT SAKİNLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev aparılan yenidənqurma işləri ilə tanış olmuş, sakinlərlə görüşmüşdür.

İLHAM ƏLİYEV: Necəsiniz?

ŞƏHƏR SAKİNLƏRİ: Cənab Prezident, çox sağ olun. Biz Sizi ürəkdən dəstəkləyirik. Sizə uğurlar, cansağlığı arzulayırıq. Həmişə xalqla bir yerdə olasınız, bütün sahələrdə uğurlar qazanasınız.

İLHAM ƏLİYEV: Çox sağ olun. Bura da abadlaşacaq, gözəl bir park olacaqdır. Bilirsiniz ki, bu saraya Heydər Əliyevin adı verilibdir. Əlbəttə, bu meydan da yenidən qurulmalıdır. Ona görə gəlmişəm ki, özüm baxım, hansı layihələr var, hansı təkliflər var. Ümumiyyətlə, şəhərimiz abadlaşır, gözəlləşir. Bakı daha da gözəl olmalıdır.

ŞƏHƏR SAKİNLƏRİ: Cənab Prezident, biz görürük ki, Siz Prezident olandan sonra hər yer abadlaşır. Camaatın arasına çıxırsınız, söhbət edirsiniz. Sizə təşəkkür edirik. Biz bilirik ki, bundan sonra vəziyyətimiz lap yaxşı olacaqdır.

İLHAM ƏLİYEV: Əlbəttə, ölkəmiz inkişaf edir. Prezident də həmişə xalqla bir yerdə olmalıdır. Prezidenti xalq seçir. Prezident də xalqın qarşısında hesabat verməlidir. Ona görə də mən sizinlə bir yerdəyəm.

ŞƏHƏR SAKİNLƏRİ: Sizdən hamı razıdır. Sizin xalqla görüşünüz bizdə böyük sevinc hissi yaradır. İndi də burada, Sizi görməyimizə görə çox sevinirik. Allah, Sizə yar olsun.

İLHAM ƏLİYEV: Çox sağ olun.

ŞƏHƏR SAKİNİ: İlham müəllim, bu sarayın arxası nə vaxt abadlaşacaqdır. Biz köhnə evlərdə yaşayırıq. Çox həsrətindəyik ki, ora da gözəlləşsin.

İLHAM ƏLİYEV: Siz orada yaşayırsınız?

ŞƏHƏR SAKİNİ: Bəli.

İLHAM ƏLİYEV: Yəni istəyirsiniz ki, o yeri kimsə alsın?

ŞƏHƏR SAKİNİ: Bəli, istəyirik, təki abadlaşsın.

İLHAM ƏLİYEV: Hacıbala müəllim, belə bir layihə var?!

HACIBALA ABUTALIBOV: Bəli, baş plana uyğun olaraq, işlər gedir.

İLHAM ƏLİYEV: Olacaqdır.

Siz bilirsiniz ki, mən minimum əmək haqqını qaldırdım. 60 min manat idi, indi 100 min manat olubdur. Gələn ildən də artıracağam. Hər halda, 150 min manatdan aşağı olmayacaqdır.

MƏCBURİ KÖÇKÜN: Cənab Prezident, mən 1993-cü ildən Cəbrayıl rayonundan didərgin düşmüşəm. Neçə ildir qardaşımla bir yerdə yaşayırıq. Bizi məhkəməyə veriblər.

İLHAM ƏLİYEV: Yəni siz harasa müraciət etmisiniz?

MƏCBURİ KÖÇKÜN: Bəli, məhkəməyə veriblər, bizi oradan çıxarmaq istəyirlər.

HACIBALA ABUTALIBOV: Prezidentin imzaladığı Sərəncama görə, 1998-ci ilə qədər hansı məcburi köçkün, qaçqın harada məskunlaşıbsa, məhkəmənin qərarı olsa belə, ona güldən ağır söz deməyəcəklər.

İLHAM ƏLİYEV: Sizə dəymək olmaz. Hacıbala müəllimə tapşırıq verirəm ki, bu məsələ ilə məşğul olsun.

Sakinlər ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini, quruculuq işlərini davam etdirdiyinə görə dövlətimizin başçısına minnətdarlıq etdilər, Bakıda aparılan abadlıq və yenidənqurma işlərini, Prezidentin tez-tez xalq arasında olmasını bir daha yüksək qiymətləndirdilər, onu ürəkdən dəstəklədiklərini vurğuladılar.

Prezident İlham Əliyev sakinlərin problemləri ilə maraqlandı, arzu və təkliflərini dinlədi, müraciət olunan məsələlərlə bağlı konkret tapşırıqlar verdi.

***27 iyul 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLIYEV BƏRDƏ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Bərdədə ümummilli lider Heydər Əliyevin xatirəsinə yaradılacaq muzeyin binasının təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşan minlərlə bərdəli dövlətimizin başçısını gül-çiçəklə, sürəkli alqışlarla qarşıladı.

Prezident İlham Əliyev tikinti sahəsi ilə tanış oldu, muzey binasının təməlinə ilk betonu tökdü.

Sonra dövlətimizin başçısı rayon icra hakimiyyətinin binasına gəldi və burada Heydər Əliyev muzeyi binasının maketi ilə tanış oldu. Prezidentə məlumat verildi ki, üç mərtəbədən ibarət olacaq binanın ümumi sahəsi 1000 kvadratmetrə yaxındır. Binanın ətrafında istirahət zonası, park salınacaqdır. Tikinti işlərini dörd aya başa çatdırmaq nəzərdə tutulur. Bu muzey qədirbilən bərdəlilərin müasir Azərbaycan dövlətinin banisi, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə sonsuz ehtiramının daha bir təcəssümü olacaqdır.

***11 iyul 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AFİNADA YUNANISTANIN TURİZM NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Afinada səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstanın turizm naziri Dimitris Avramopulos ilə görüşmüşdür.

Səmimi şəraitdə keçən söhbət zamanı Azərbaycan Prezidenti Afinada XXVIII Yay Olimpiya oyunlarının yüksək səviyyədə təşkil edildiyini bildirərək, bu məsul işdə Yunanıstan hökumətinin səmərəli fəaliyyətini vurğuladı.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərdən söhbət açan Prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini bildirdi. Turizm sahəsində geniş imkanları olan Yunanıstanın bu perspektivli sahədə respublikamızla əməkdaşlığını xatırladan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, tezliklə Azərbaycan da dünyanın inkişaf etmiş turizm ölkələrindən birinə çevriləcəkdir.

Cənab Avramopulos Azərbaycanda idman və turizmin inkişafına dövlət səviyyəsində göstərilən qayğını yüksək qiymətləndirdi. Yunanıstan naziri Dünya Turizm Təşkilatının son vaxtlar Azərbaycana marağının artdığını da xüsusi vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Yunanıstanın turizm nazirini Azərbaycana səfərə dəvət etdi. Cənab Avramopulos dəvəti məmnunluqla qarşıladı.

Görüşdə Azərbaycanın gənclər, idman və turizm naziri Əbülfəz Qarayev, ölkəmizin Afinadakı səfiri Mirhəmzə Əfəndiyev iştirak edirdilər.

***18 avqust 2004-cü il***

## FRANSA SENATININ MUZEYİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

Parisdə – Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərginin rəsmi açılış mərasimi olmuşdur.

Sərgi Azərbaycan Prezidentinin təşəbbüsü və Fransa Senatının razılığı ilə təşkil edilmişdir.

Lüksemburq bağında yerləşən muzeyin salonuna toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Fransa Senatının sədri Kristian Ponsöleni səmimiyyətlə qarşıladılar.

Mərasimi Fransa Senatının sədri Kristian Ponsöle açdı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Fransa Senatının hörmətli sədri!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının sərgisinin keçirilməsi ilə əlaqədar hörmətli cənab sədrə və bu sərginin təşkilində iştirak etmiş bütün dostlarımıza dərin təşəkkürümü bildirirəm.

Bu sərginin keçirilməsi bir daha onu göstərir ki, Fransa ilə Azərbaycan arasında ənənəvi dostluq əlaqələri güclənir, inkişaf edir və bütün sahələri əhatə edir. Ölkələrimiz arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Eyni zamanda, Fransa və Azərbaycan iqtisadi sahədə də çox səmərəli əməkdaşlıq edirlər. Birgə layihələr həyata keçirilir, ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artır. Bunlar hamısı göstərir ki, ölkələrimiz bütün sahələrdə bir-birinə yaxınlaşır və gözəl əməkdaşlıq edirlər.

Bu ilin yanvarında mən Fransada rəsmi səfərdə olarkən Senatda cənab sədrlə görüşmüşdük və çox geniş fikir mübadiləsi aparılmışdı. Bu gün də çox səmərəli söhbətimiz olmuşdur. Biz bir daha əmin olduq ki, ildən-ilə güclənən Fransa-Azərbaycan əlaqələri bu gün də genişlənir və çalışacağıq ki, bütün sahələrdə əməkdaşlığımız daha da səmərəli olsun.

Azərbaycanın Avropa strukturlarına inteqrasiyasında biz daim Fransanın dəstəyini hiss etmişik və bu gün də hiss edirik.

Bu gün burada Azərbaycanın rəssamlıq məktəbinin kiçik bir hissəsi təmsil olunur. Mən çox şadam ki, bizim mədəni əlaqələrimiz də inkişaf edir. Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çox istəyirik ki, Fransa tamaşaçıları bu mədəniyyətlə tanış olsunlar, gələcəkdə belə sərgilərin sayı daha da artsın, insanlarımız bir-birinə daha da yaxın olsunlar. Bu sərginin keçirilməsi bizim xalqlarımızı daha da birləşdirəcəkdir.

Sərginin keçirilməsi münasibətilə bir daha hamınızı təbrik edir və onun təşkilinə görə Fransa Senatına dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olun.

***8 sentyabr 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ VƏ DİRİJOR MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviçi qəbul etmişdir.

Hörmətli qonağı səmimiyyətlə, mehribanlıqla salamlayan və onunla görüşdən çox məmnun olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində əldə olunmuş uğurlardan, sürətli inkişafdan ətraflı söhbət açdı.

Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin yaxın dostu, xalqımızın böyük hörmət bəslədiyi Rostropoviçin vaxtaşırı olaraq vətənə gəlməsinin çox böyük əhəmiyyət daşıdığını vurğuladı.

Səmimi qəbula və xoş sözlərə görə dərin minnətdarlığını bildirən Mstislav Rostropoviç doğma vətənində olmasından çox böyük məmnunluq duyduğunu vurğuladı, Azərbaycanın sürətli inkişafına və respublikamızda görülən əzəmətli işlərə heyran qaldığını söylədi. O dedi ki, iftixar hissi keçirirəm ki, mənim üçün çox əziz olan Azərbaycanda bütün sahələr və onun regionları sürətlə inkişaf edir.

Cənab Rostropoviç ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın sürətli inkişafı naminə gördüyü işlərin uğurla davam etdirildiyini bildirərək dedi ki, mən Prezident İlham Əliyevin Azərbaycan xalqı tərəfindən sevildiyinin və ölkədə böyük nüfuz qazandığının şahidi oldum.

Vişnevskaya-Rostropoviç Fondunun Azərbaycanda uşaqlara peyvənd edilməsi sahəsində gördüyü işləri xatırladan Rostropoviç bildirdi ki, bundan sonra da yüz minlərlə uşağın vaksinasiyası davam etdiriləcəkdir.

Azərbaycandakı sürətli inkişafın onu qəlbən sevindirdiyini nəzərə çarpdıran maestro özünün xoş arzularını bildirdi və əmin olduğunu söylədi ki, ölkəmiz bundan sonra da böyük nailiyyətlər əldə edəcəkdir.

***18 sentyabr 2004-cü il***

## BAKI DƏRİN ÖZÜLLƏR ZAVODUNDA ÜMUMMUİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDIR

Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin abidəsinin təntənəli açılışı olmuşdur. Abidənin müəllifi xalq rəssamı, akademik Ömər Eldarovdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün zavoda gəldi. Zavodun həyətinə toplaşanlar dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar. Onların əllərində Azərbaycanın dövlət bayrağı və ümummilli liderimizin portretləri var idi.

Prezident İlham Əliyev açılışı bildirən ağ örtüyü götürdü və abidənin önünə gül dəstəsi qoydu.

Təntənəli mərasimi Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev açdı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz dostlar!

Mən çox şadam ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Bakı dərin özüllər zavodu indi onun adını daşıyır və burada Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq xalqa, millətə, doğma vətənə ləyaqətlə və sədaqətlə xidmət etmişdir.

1970-1980-ci illərdə məhz onun fəaliyyəti nəticəsində Azərbaycanda güclü iqtisadi potensial yaranmış, Azərbaycan öz iqtisadiyyatının bütün sahələrini uğurla inkişaf etdirə bilmişdir. Məhz o illərdə Azərbaycanda nəhəng sənaye müəssisələri, mədəniyyət ocaqları, infrastruktur yaradılmışdır. Təsəvvür etmək çətindir ki, əgər o illərdə hazırda Heydər Əliyevin adını daşıyan Bakı

dərin özüllər zavodu və digər iri müəssisələr yaranmasaydı, Azərbaycanın indiki vəziyyəti necə ola bilərdi?

Müstəqil Azərbaycanın uğurlu inkişafı məhz bu zəmində mümkün olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə çalışırdı ki, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanda bütün sahələr inkişaf etsin, güclü iqtisadiyyat yaransın, beləliklə, ölkəmiz dünya birliyində yerini daha da möhkəm tuta bilsin.

Zavodun yaranma tarixi yəqin ki, sizə bəllidir. O vaxtlar mərkəzi hakimiyyətdə belə fikirlər vardı ki, zavod başqa yerdə tikilsin. Məhz Heydər Əliyev öz fəaliyyəti nəticəsində nail ola bildi ki, zavod Bakıda tikildi. Zavod bu gün müstəqil Azərbaycana çox gözəl xidmət edir. Əgər vaxtilə bu zavod tikilməsəydi və indi fəaliyyət göstərməsəydi, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi olan "Əsrin müqaviləsi"nin həyata keçirilməsi azı 5-7 il gecikə bilərdi.

Müstəqil Azərbaycanın Prezidenti kimi Heydər Əliyev ölkəni hər cəhətdən inkişaf etdirdi. Azərbaycan 1993-cü ildə çox ağır vəziyyətdə idi. Həm siyasi, həm də iqtisadi cəhətdən ölkədə böhran yaşanırdı. Demək olar ki, müəssisələr dayanmışdı, tənəzzül ölkəmizi iqtisadi cəhətdən uçuruma aparırdı. Məhz o çətin illərdə Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, cəsarəti, apardığı siyasət sayəsində indi Azərbaycan bölgədə iqtisadi cəhətdən lider ölkəyə çevrilibdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Azərbaycan beynəlxalq, regional layihələrdə aparıcı rol oynayır və iqtisadiyyatı ildən-ilə güclənir, xalqın rifah halı getdikcə yaxşılaşır.

Bütün bu uğurları əldə etmək üçün, əlbəttə, 1993-1994-cü illərdə çox cəsarətli addımlar atmaq lazım idi. O çətin şəraitdə "Əsrin müqaviləsi"nin imzalanması, demək olar ki, Azərbaycanın müasir inkişafının təməlini qoydu. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin müqaviləsi" 1994-cü ildə imzalanmasaydı, Azərbaycanın indiki durumu necə olardı. "Əsrin müqaviləsi" iqtisadiyyatımızın bütün digər sahələrinə öz müsbət təsirini göstərdi, ölkəyə böyük həcmdə xarici sərmayə gəldi, elə bu zavoda da çoxlu sərmayə qoyuldu. Azərbaycan iri neft şirkətləri ilə, beynəlxalq neft şirkətləri ilə çox uğurlu əməkdaşlığa başladı və bunun nəticəsində həm neft kəmərlərinin tikintisi mümkün oldu, həm də Azərbaycanda neftin hasilatı artırıldı.

Biz bu gün Azərbaycan həyatında çox böyük bir mərhələnin astanasındayıq. Yenə də məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi nəinki mümkün olmuşdur, həm də bu tikinti uğurla davam etdirilir və bu yaxınlarda kəmər istismara veriləcək-

dir. Bu, ölkəmiz üçün həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik baxımından müstəsna əhəmiyyəti olan bir layihədir. Azərbaycan bu layihənin hesabına öz iqtisadi potensialını daha da gücləndirəcək, ölkə iqtisadi cəhətdən çox möhkəm olacaqdır. İnsanlarımızın həyat səviyyəsi yaxşılaşacaqdır. Ölkəyə böyük həcmdə gəlir gələcəkdir ki, bu da öz növbəsində, bizə imkan verəcək ki, Azərbaycanda bütün mövcud olan problemlər öz həllini daha sürətlə tapsın.

Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəmərə Heydər Əliyevin adı verilmişdir.

Növbəti mərhələ isə Azərbaycan qazının dünya bazarlarına çatdırılmasından ibarət olacaqdır. Bu da ölkəmiz üçün çox önəmli bir layihədir və uğurla icra olunur. Heç şübhə etmirəm ki, bu layihə də uğurla başa çatdırılacaqdır.

Beləliklə, 1970-ci illərdə respublikamızda bu zavodun tikilməsi və buna bənzər infrastrukturun, müəssisələrin yaranması, müstəqil Azərbaycanda "Əsrin müqaviləsi"nin və ondan sonrakı müqavilələrin imzalanması imkan verir ki, Azərbaycan yaxın zamanlarda çox qüdrətli dövlətə çevriləcəkdir. Budur, əsil siyasi xadimin fəaliyyəti, budur, əsil dövlət xadiminin fəaliyyəti!

Bayaq qeyd etdiyim kimi, Heydər Əliyev bütün dövrlərdə xalqa xidmət edirdi. Ömrünün son gününə qədər xalqa xidmət edirdi. Mən xatırlayıram ki, keçən il aprelin 26-da o, buraya gəlməli və bu zavodun 25 illiyini burada sizinlə birlikdə qeyd etməli idi. Amma ondan beş gün əvvəl onun səhhətində problemlər yaranmışdı və o, buraya gələ bilmədi. Amma mən xatırlayıram, istəyirdi ki, zavoda gəlsin, zavodla bir daha tanış olsun. Bilirsiniz ki, Heydər Əliyev zavodda müxtəlif dövrlərdə dəfələrlə olmuşdur və onun fəaliyyəti ilə maraqlanırdı. Azərbaycanda Heydər Əliyevin neft strategiyasının icrası başlanandan sonra zavodun, demək olar ki, ikinci həyatı başladı.

Bilirsiniz ki, zavod bir müddət fəaliyyətsiz qalmışdı. Burada olan avadanlıq köhnəlmişdi, işçilərin sayı da azalmışdı. Amma yeni neft strategiyasının icrası nəticəsində zavodda yeni həyat başladı. Bu gün mənə verilən məlumata görə, zavodda və onunla birgə fəaliyyət göstərən təşkilatlarda çalışan insanların sayı 5 mindən yuxarıdır. Burada orta əmək haqqı 300 dollardan 700 dollara qədərdir.

Sadaladığım bütün bu məsələlər müasir Azərbaycanın həyatını göstərir. Göstərir ki, Azərbaycan uğurla inkişaf edir, Azərbaycan Heydər Əliyev

siyasətinə sadiq olaraq, bütün dövrlərdə öz imkanlarından istifadə etməklə uğurla irəliyə gedir.

Gələcəkdə bizim vəzifələrimiz çoxdur. Biz Heydər Əliyev siyasətini bütün sahələrdə davam etdirməliyik. Yalnız bu siyasət Azərbaycan xalqına xoşbəxtlik gətirəcəkdir. Yalnız bu siyasət Azərbaycanı iqtisadi cəhətdən daha da güclü edəcəkdir.

Çox şadam ki, bu gün zavod çox uğurla fəaliyyət göstərir. Mən keçmiş işimlə əlaqədar zavodda dəfələrlə olmuşam. Prezident kimi də olmuşam və yəqin ki, hələ çox olacağam. Mən çox şadam ki, zavodda gedən işlər bu gün dünya standartlarına cavab verir. Burada tikilən, inşa edilən qurğular ən yüksək səviyyədə istismara verilir, bu da onu göstərir ki, zavodun çox peşəkar kollektivi var. Çox şadam ki, bu peşəkar kollektiv Azərbaycana çox ləyaqətlə xidmət edir, böyük işlər görür.

Əziz dostlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin zavodda ucaldılmış abidəsinin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Zavodun kollektivinə yeni-yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun!

***5 oktyabr 2004-cü il***

## BUXARESTDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ

Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri çərçivəsində, Buxarestin mərkəzindəki “8 May” parkında xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün açılışı olmuşdur.

Mərasimə toplaşan şəhər sakinləri, Azərbaycan diasporunun və türk toplumunun nümayəndələri prezidentlər İlham Əliyevi və İon İliyeskunu böyük səmimiyyətlə qarşıladılar.

Mərasimi Rumıniya Senatının üzvü, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop De Popa açdı

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab Prezident İon İliyesku!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Rumıniya torpağında, Rumıniyanın paytaxtı olan Buxarest şəhərində büstünün ucaldılmasına görə bütün rumın xalqına və ilk növbədə, Prezident cənab İliyeskuya öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət etmişdir. O, Azərbaycanda hakimiyyətə gələndə ölkəmiz çox çətin dövr yaşayırdı. Ölkə siyasi cəhətdən təcrid olunmuş vəziyyətdə idi, iqtisadiyyat tamamilə dağılmışdı və total böhran yaşanırdı. Ermənistanın Azərbaycana təcavüzü davam edirdi və torpaqlarımız işğal altına düşürdü. Məhz Heydər Əliyevin cəsarəti, qətiyyəti, uzaqgörənliyi nəticəsində ölkəmiz bu çətin vəziyyətdən çıxa bildi və bu gün Azərbaycan çox dinamik şəkildə inkişaf edir. Onun səyləri nəticəsində müharibə dayandırıldı, ölkədə vətəndaş müharibəsinə son qoyuldu, sülh və əmin-amanlıq yarandı. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bildi, Avropa, Avratlantik strukturlarına inteqrasiya etməyə başladı.

Bu gün Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə regionda irimiqyaslı layihələr həyata keçirilir. Bu layihələrin təşəbbüskarı da məhz Prezident Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə başlanmış iqtisadi islahatlar ölkəmizi iqtisadi cəhətdən gücləndirdi və deyə bilərəm ki, son səkkiz il ərzində Azərbaycanın ümumi daxili məhsulu yüz faiz artmışdır. Bu meyillər indi də davam edir.

Heydər Əliyevin neft strategiyası nəticəsində ölkəmizə milyardlarla dollar sərmayə qoyulubdur və bu gün adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bölgədə lider dövlətdir. Aparılmış iqtisadi islahatlar bizə imkan verdi ki, ölkədə mövcud olan çoxlu sosial problemlər öz həllini tapsın. Heydər Əliyevin təşəbbüsü ilə, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlər üçün yeni layihələr həyata keçirilməyə başlandı. Onlar üçün yeni qəsəbələr, şəhərciklər salındı. Yenə də qeyd etməliyəm ki, bu gün bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də siyasət davam etdirilir və biz bundan sonra da bu məsələ ilə ciddi məşğul olacağıq.

Bir sözlə, bütün sahələrdə – beynəlxalq, siyasi, iqtisadi, sosial, regional istiqamətlərdə Heydər Əliyevin siyasi xətti ölkəmizi yeni mərhələyə gətirib çıxarmış, Azərbaycanı möhkəmləndirmiş, beynəlxalq aləmdə onun mövqelərini gücləndirmiş və iqtisadi potensialını artırmışdır. Bu gün Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Biz bu gün də ölkəmizdə bu siyasəti davam etdiririk.

Heydər Əliyevin Rumıniyaya və rumın xalqına xüsusi münasibəti var idi. Burada qeyd olundu ki, Azərbaycanın Şərqi Avropada ilk səfirliyi Rumıniyada açılmışdır. Prezident Heydər Əliyevin Rumıniyaya və Prezident İon İliyeskunun Azərbaycana etdikləri səfərlər iki ölkə arasında olan əlaqələri daha da gücləndirmişdir. Bu gün ölkələrimiz arasında çox gözəl münasibətlər mövcuddur. Onu da demək istəyirəm ki, Prezident Heydər Əliyevlə Prezident İon İliyeskunu çox güclü dostluq telləri bağlayırdı. Bu iki lider həm öz ölkələri üçün, həm də regionun inkişafı üçün çox böyük işlər görmüşlər. Onların öz ölkələrinin inkişafında müstəsna xidmətləri vardır.

Ölkəmizdə bütün başqa sahələrdə olduğu kimi, Rumıniya-Azərbaycan münasibətlərində də bu gözəl ənənələr yaşayır, Heydər Əliyev siyasəti davam etdirilir. Mənim Rumıniyaya səfərim buna gözəl sübutdur. Fürsətdən istifadə edərək, mənə və nümayəndə heyətimizə göstərilmiş gözəl münasibətə, qonaqpərvərliyə görə hörmətli cənab Prezident İon İliyeskuya bir daha öz təşəkkürümü bildirirəm.

Əziz dostlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün ucaldılması münasibətilə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Büstün qoyulmasında iştirak etmiş bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Heydər Əliyevin xatirəsini əziz tutduqları üçün rumın xalqına, Prezident İon İliyeskuya bir daha həm Azərbaycan Respublikasının Prezidenti kimi, həm də Heydər Əliyevin oğlu kimi öz təşəkkürümü bildirirəm.

***12 oktyabr 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA YÜKSƏK DÖVLƏT MÜKAFATLARI VƏ FƏXRİ ADLAR TƏQDİM ETMİŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Prezident Sarayında ədəbiyyat və incəsənət xadimlərinin bir qrupuna – xalq şairi Nəbi Xəzriyə, xalq yazıçıları Anara, Əkrəm Əylisliyə, Maqsud İbrahimbəyova və xalq rəssamı Fərhad Xəlilova yüksək dövlət mükafatlan və fəxri adlar təqdim etmişdir.

Dövlətimizin başçısı **İLHAM ƏLİYEV** təltif olunanları səmimiyyətlə salamlayaraq dedi:

– Mən ilk növbədə, sizin hamınızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm.

Müxtəlif vaxtlarda siz dövlətimizin ən yüksək ordeninə və fəxri adlara layiq görülmüşünüz. Mən də istərdim ki, yeni il ərəfəsində bunları sizə təqdim edim.

Bilirsiniz ki, Azərbaycan xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəniyyət, incəsənət, elm xadimlərinə diqqəti daim yüksək olubdur. O, şəxsən özü bütün məsələlərlə məşğul olurdu, çalışırdı ki, maksimum dərəcədə diqqət göstərilsin, qayğı göstərilsin. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk illərin çətinliklərinə baxmayaraq, bu sahəyə də daim diqqət göstərilirdi. Mən də öz növbəmdə çalışıram ki, bu ənənələri davam etdirəm. Seçkilərdən əvvəl ziyalılarla görüşdə də bunu bəyan etmişdim.

Hesab edirəm ki, 2004-cü il bu baxımdan da mühüm olubdur. Latın qrafikası ilə çapdan çıxmış yeni kitablar ölkəmizin gənc nəslinin yetişməsində mühüm rol oynayacaqdır. Mənim yadımdadır, ziyalılarla görüşdə Anar müəllim bu məsələni qaldırdı. Mən də söz vermişdim ki, əgər bu vəzifəyə seçilsəm, bunu edəcəyəm və bunu etdik. Bir il ərzində böyük işlər görüldü. 2005-2006-cı illərdə də yeni kitabların, dərsliklərin və lüğətlərin nəşri nəzərdə tutulubdur.

Əlbəttə, biz hamımız çalışmalıyıq ki, başqa sahələrdə də mədəniyyət, incəsənət xadimlərinə diqqət daim artsın. Mənə çoxlu müraciətlər olmuşdur, ərizələr daxil olmuşdur və hər bir müraciətə reaksiya verilmişdir. Xüsusilə, mədəniyyət və incəsənət xadimlərindən gələn ərizələrə böyük diq-

qətlə baxılmışdır. Orada göstərilən problemlərin, demək olar ki, tam əksəriyyəti öz həllini tapmışdır.

Gələn il 2005-ci ildə də bu sahədə işlər görüləcəkdir. Mən Nazirlər Kabinetinə göstəriş vermişəm ki, bizim mədəniyyət ocaqlarının vəziyyəti dərindən öyrənilsin. Bilirəm ki, teatrlarımızın, muzeylərimizin vəziyyəti o qədər də yaxşı deyildir. Yəni onların təmirə ehtiyacı vardır. Göstərişlər artıq verilibdir. Mən özüm şəxsən gedib baxacağam. İstəyirəm ki, 2005-ci ildə biz bu sahədə də böyük bir proqramı həyata keçirək. Bizim mədəniyyət ocaqlarımız yüksək səviyyədə olmalıdır. Bütün bu sahəyə diqqət gərək yüksək olsun. İndi dövlətin, hökumətin nəyə imkanı çatırsa, bunu edirik. Bu işdə özəl təşkilatlar da iştirak etməlidirlər. Bu, bizim ümumi işimizdir. Məsələn, mən rayonlarda bu sahəyə diqqət göstərildiyini görəndə sevinirəm. Bu yaxınlarda Lənkəranda olarkən orada teatrın təmirdən sonra açılışını qeyd etdik. Çox yüksək səviyyədə təmir olunubdur. Naxçıvanda olarkən gördük ki, orada teatr təmir edilib və yüksək standartlara cavab verir. İndi Bakı bu baxımdan bir az geridə qalıbdır. Gərək biz bu vəziyyəti düzəldək.

Böyük iqtisadi layihələr həyata keçirilir. Bu gün insanlarımızın sosial təminatının yaxşılaşdırılması istiqamətində növbəti addımlar atılıbdır, fərmanlar, göstərişlər verilibdir. Amma demək istəyirəm ki, mədəniyyət, incəsənət sahəsinə də diqqət daim yüksək olacaqdır. Mən istəyirdim, bunu sizə deyəm, öz fikirlərimi sizə çatdıram. İndi isə təltif mərasiminə keçə bilərik.

Dövlətimizin başçısı İlham Əliyev xalq şairi Nəbi Xəzriyə “İstiqlal” ordeni, Əkrəm Əylisliyə “İstiqlal” ordeni və “Xalq yazıçısı” fəxri adı, Anara və Maqsud İbrahımbəyova “Xalq yazıçısı” fəxri adı, Fərhad Xəlilova “Xalq rəssamı” fəxri adı təqdim edərək, onları bir daha təbrik etdi.

Xalq yazıçısı ANAR Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirərək dedi: Fəxr edirik ki, bu adları bizə Siz təqdim edirsiniz. Mən bu adı hörmətli, unudulmaz Heydər Əliyevin imzası ilə 1998-ci ildə almışam. Bu, bir daha onu təsdiq edir ki, o, bizim ədəbiyyatımıza, incəsənətimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstəribdir. Mən çox şadam ki, Siz bu sahədə onun yolunu davam etdirirsiniz. Məsələn, kitabların latın qrafikası ilə çap olunması haqqında yanvarın 12-də imzaladığınız fərman çox böyük boşluğu aradan qaldırmaq üçün tarixi bir sənəddir. Bu il Sizin göstərişinizlə Yazıçılar Birliyinin Tərcümə mərkəzi üçün və digər məsələlərlə əlaqədar vəsait ayrılmışdı. Bütün bunlara görə mən Sizə bir daha təşəkkür edirəm.

Xalq rəssamı FƏRHAD XƏLİLOV dövlətimizin başçısına bütün rəssamların minnətdarlığını çatdırdı, qarşıdan gələn bayramlar münasibətilə

onu təbrik etdi, ümummilli liderimiz Heydər Əliyev tərəfindən fəxri ad almasına görə özünü xoşbəxt saydığını vurğuladı və onun tarixi xidmətlərindən danışdı. O, vaxtilə ulu öndər Heydər Əliyevin rəssamları yüksək mükafatlarla təltif etməsini xatırlatdı, Prezident İlham Əliyevin bu ənənəni davam etdirməsini və ölkəmizdə mədəniyyət ocaqlarının yenidən qurulması istiqamətində təşəbbüsünü və fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İLHAM ƏLİYEV xoş sözlərə görə təşəkkür edərək dedi ki, təqaüdlərin verilməsi də çox vacibdir. Çünki bilirsiniz ki, keçmişdə, Sovet İttifaqı zamanı yazıçılara, rəssamlara, ümumiyyətlə, mədəniyyət xadimlərinə həm maddi, həm də mənəvi baxımdan həmişə diqqət olubdur. Bütün kitablar sovet məkanında satılırdı, tərcümə olunurdu. Əlbəttə, maddi təminat da pis deyildi. Amma sistem dağılandan, biz yeni sistemə keçəndən sonra elə bil ki, bu sahə bir az unuduldu. Necə deyərlər, bu ədalətsizliyi aradan götürmək üçün cənab Prezident Heydər Əliyev xüsusi təqaüdlər təsis etdi və digər məsələlər də nəzərdə tutuldu. Düzdür, bu, onları tam mənada təmin edə bilməz. Amma yenə də, hesab edirəm ki, böyük dəstək olar. Əvvəl təqaüdlərin sayında məhdudiyyət var idi, ancaq 250 nəfər nəzərdə tutulmuşdu. Biz o məhdudiyyəti götürdük, bunu 400 nəfərə çatdırdıq. Gələcəkdə bu, bizim iqtisadi imkanlarımızdan asılı olacaqdır. İmkanlar yaxşı olsa, bunun həm məbləğini qaldırmaq olar, həm də sayını artırmaq olar. Mən yaradıcı insanlara da kömək etməyə hazıram.

***29 dekabr 2004-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində olmuşdur.

Muzeyin direktoru, Milli Məclisin deputatı Rafael Hüseynov, əməkdaşlar dövlətimizin başçısını binanın önündə böyük mehribanlıqla və hərarətlə qarşıladılar. Prezident İlham Əliyevə gül dəstəsi təqdim olundu. Sonra Rafael Hüseynov muzey binasının tarixi barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verərək dedi:

– Son 40 ildə dördüncü dəfədir ki, Azərbaycan dövlətinin rəhbəri muzeyə gəlir. Ümummilli liderimiz Heydər Əliyev üç dəfə burada olmuşdur. Heydər Əliyev Azərbaycan ədəbiyyatını, xüsusilə muzeyimizi çox sevirdi. Növbəti gəliş isə Sizinkidir. Biz girəcəkdə binanın tarixçəsini yazmışıq. Bu, 150 yaşı olan bir binadır. Bakı quberniyasının memarı Qasım bəy Hacıbababəyovun layihəsi əsasında XIX əsrin ortalarında tikilmişdir. O vaxt bu, birmərtəbəli bir bina idi. Sonradan yeni layihə əsasında daha bir mərtəbə artırılıb, "Metropol" mehmanxanasına çevrilmişdir. 1918-ci ilin sentyabrında Bakı ermənilərdən və bolşeviklərdən azad edildikdən sonra Gəncədən Bakıya köçən Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti – Fətəli xan Xoyskinin başçılığı ilə ilk Nazirlər Kabineti bu binada yerləşirdi. 1939-cu ildə Nizaminin 800 illik yubileyi ilə əlaqədar Nazirlər Soveti Ədəbiyyat Muzeyinin yaradılması haqqında qərar qəbul edir, Mikayıl Hüseynov və Sadıq Dadaşovun layihəsi əsasında bina yenidən qurulur və indiki görkəmini alır. Amma muzeyi açmaq mümkün olmur, müharibə başlanır. Muzey yalnız 1945-ci ilin mayın 14-də açılır. Cənab Prezident, indi, Sizin təşəbbüsünüz və qayğınız sayəsində bu binanın həyatında yeni bir dövr başlanacaq və o, ən azı 60-70 il insanların zövqünü oxşayacaqdır.

Siz prezident seçkiləri ərəfəsində və dövlət başçısı seçildiyiniz ilk günlərdə söz vermişdiniz ki, əsas qayğılarınızdan biri mədəniyyətə, ədəbiyyata, ziyalılara yönələcəkdir. Siz verdiyiniz bütün sözləri yerinə yetirirsiniz. Buraya gəlişiniz də bunun bir ifadəsidir. Həm muzey işçisi, həm də Azərbaycan ədəbiyyatının nümayəndəsi olaraq, bu diqqətə görə Sizə dərin təşəkkürümü bildirirəm.

İLHAM ƏLİYEV: Çox sağ olun. Mən bir müddət əvvəl Abid Şərifova göstəriş vermişdim ki, gəlib burada vəziyyətlə tanış olsunlar və biz bu muzeyi ən yüksək səviyyədə bərpa edək, faktiki olaraq yenidən quraq. Çünki bu, bizim tarixi sərvətimizdir, Azərbaycan xalqının yaratdığı çox görkəmli bir əsərdir. Həm muzey kimi, həm də bir bina kimi buranın çox böyük tarixi əhəmiyyəti vardır. İndi Azərbaycanda abadlıq, quruculuq işləri gedir. Mədəniyyətə xüsusi diqqət göstərilir. Mən istədim ki, Yeni il ərəfəsində özüm buraya gəlim, tanış olum və 2005-ci ilin əvvəlindən burada böyük quruculuq işlərinə başlayaq.

Rafael Hüseynov bir daha xatırlatdı ki, 1918-ci ildə Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun, Nəsib bəy Yusifbəylinin və başqalarının iştirakı ilə Nazirlər Kabinetinin iclasları burada keçirilmişdir. Bu, bir tarixdir. Mən məşhur rəssamımız Altay Hacıyevə sifariş etdim ki, bir rəsm əsəri hazırlayıb bu otağı əbədiləşdirək. Amma görürsünüz ki, bu otaq nə kökə düşübdür.

Abid Şərifov dövlətimizin başçısına məlumat verərək dedi ki, Sizin tapşırığınızla layihələr hazırlanıb, binanın işıq sistemi yeniləşdiriləcək, kondisioner təchiz edəcəyik, istilik sistemləri də quraşdırılacaqdır.

Prezident İlham Əliyev bildirdi ki, bütün naxışlar bərpa olunmalıdır, digər işlər də tam görülməlidir.

Dövlətimizin başçısı yenidənqurma işlərini əks etdirən maketlərlə tanış oldu, sonra muzeyin eyvanına çıxaraq ətrafı seyr etdi, binanın qarşısındakı ərazidə aparılacaq yenidənqurma işləri ilə əlaqədar tövsiyələrini də verdi, bütün işlərin bir il müddətində başa çatdırılması zərurətini vurğuladı.

Rafael Hüseynov muzeyin sifarişi ilə nəfis şəkildə hazırlanmış və dahi Azərbaycan şairi Füzuliyə həsr olunmuş bədii vazanı Heydər Əliyev Fonduna hədiyyə etdi. O bildirdi ki, ümummilli liderimiz Heydər Əliyev Füzulinin yaradıcılığını çox sevirdi. Dahi şairin yubileylərindəki çıxışları və onun yubileylərinin yüksək səviyyədə keçirilməsinə nail olması ümummilli liderimizin Azərbaycan ədəbiyyatına göstərdiyi böyük qayğı və diqqətin təzahürü idi. Vaza üçün düzəldilmiş altlıqda Heydər Əliyevin Füzuli ilə bağlı iki fikri yazılmışdır. Bunların birincisində o deyir ki, mən uşaqlıq illərində – 1930-cu illərin ortalarında məktəbimizdə şagirdlərin rəsm əsərlərindən ibarət müsabiqə keçirilərkən Füzulinin portretini çəkdim və müsabiqədə I yeri tutdum. İkinci fikir isə dünya ədəbiyyatında Füzulinin yeri, öz yaradıcılığı ilə özünə abidə qurması və insanlıq tarixində qalan bir zirvə olması barədədir. Bu sözlərin altında ümummilli liderimiz Heydər Əliyevin imzası qoyulmuşdur.

***30 dekabr 2004-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyində olmuşdur.

Muzeyin direktoru, MEA-nın müxbir üzvü Nailə Vəlixanlı, Baş nazirin müavini Abid Şərifov dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Azərbaycan Prezidentinə məlumat verdilər ki, vaxtilə Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş bu binada yerləşən muzey ilk tamaşaçılarını 1920-ci ildə qəbul etmişdir. Binanın özü isə 1895-1897-ci illərdə tikilmişdir. Burada Azərbaycan tarixinin bütün dövrlərinə aid zəngin ekspozisiya ilə yanaşı, xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin təhsil almasına yardımçı olmuş Tağıyevin həyatına dair fotoşəkillər, fəaliyyəti ilə bağlı tarixi sənədlər və qiymətli əşyalar, eləcə də muzeyin tarixi ilə bağlı elmi əsərlər, məcmuələr toplanmışdır. Muzeydə müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin xarici ölkələrə səfərlərini, beynəlxalq sammitlərdə iştirakını, dünyanın gör-kəmli siyasətçiləri ilə görüşlərini əks etdirən guşə də yaradılmışdır.

Hazırda muzeydə 130-dan çox işçi çalışır. Burada saxlanılan əşyaların bərpası üçün laboratoriya vardır. Bu ilin fevralında tariximizin ən qədim zamanlardan XIX əsrə qədər olan dövrünü əhatə edən ekspozisiyanın açılışı olmuşdur.

Dövlətimizin başçısı bir əsrdən çox yaşı olan binanın vəziyyəti ilə maraqlandı, onun əsaslı təmirə ehtiyacı olduğunu vurğuladı. Baş nazirin müavini Abid Şərifov dedi ki, cənab Prezident, Sizin tapşırığınıza və göstərişinizə əsasən, binada əsaslı bərpa və təmir işlərinin aparılması üçün lazımi işlər görülür. Bir neçə layihə hazırlanmışdır. Burada Şərq memarlığına xas çox incə və zəngin naxışlar olduğuna görə, yerli mütəxəssislərin belə zərif bərpa işləri aparmağa imkanları yoxdur. Ona görə də Şirvanşahlar sarayının bərpasında işləyən tanınmış İtaliya şirkətinin nümayəndələrini dəvət etmişik. Onlar Almaniyada, İtaliyada, Fransada, Böyük Britaniyada və digər Avropa ölkələrində sırf bu işlə məşğul olurlar. Onların gücü ilə bütün binanı yox, yalnız bir hissəni, 5-6 otağı təmir etmək nəzərdə tutulur. Artıq təkliflərini veriblər, müsabiqə elan olunacaqdır. Burada bir neçə məsələ ilə əlaqədar Sizin məsləhətinizə ehtiyac vardır. Binada kondisioner sisteminin ol-

maması müəyyən çətinliklər yaradır. Hazırda zirzəmidə möhkəmləndirmə işləri görülür. İndiyədək bir-iki dəfə aparılan yüngül təmir zamanı otaqların ilkin görünüşü tamamilə dəyişdirilmişdir. Amma hazırladığımız layihəyə əsasən, otaqların əvvəlki vəziyyəti qaytarılacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev binanın keçmiş qonaq, yataq, yeməkxana, uşaq otaqları ilə tanış oldu. Əsasən, Şərqdən gələn qonaqları qəbul etmək üçün nəzərdə tutulan dəbdəbəli Şərq salonunu, onun incə naxışlarını nəzərdən keçirdi, hər bir otağın ilkin görünüşünü, binanın ümumi fasadını əks etdirən şəkillərə, ev əşyalarına baxdı və dedi ki, təmir zamanı hər bir memarlıq elementi qorunub saxlanılmalıdır. Mən 7 ay bundan əvvəl bir neçə dəfə bu muzeyə nümayəndələr göndərmişəm ki, gəlib vəziyyətlə maraqlansınlar. Demək olar ki, hazırlıq işləri görülübdür. Hesab edirəm, Yeni ilin ilk günlərindən təmir işlərinə başlaya bilərik. Mən bütün bunları büdcədə nəzərdə tutmuşam. Yəqin ki, bunun bir hissəsini xarici mütəxəssislər, bir his-səsini isə yerli mütəxəssislər həyata keçirəcəkdir. İşlər paralel getməlidir. Çalışmalıyıq ki, bu işləri bir ilə olmasa da, il yanma başa çatdıraq. Bütün işlər yüksək səviyyədə görülməlidir və buna nəzarət olunmalıdır. Əsas odur ki, binanın orijinal görkəmi saxlanılsın.

Prezident İlham Əliyev bərpa işlərinə xüsusi həssaslıqla yanaşmağı bir daha tapşırdı, binanın istilik sistemi ilə də maraqlandı və müvafiq göstərişlər verdi.

Dövlətimizin başçısı Hacı Zeynalabdin Tağıyevin indiyədək saxlanılan kitabxanasına baxdı, buradakı o dövrün qanunlar toplusu ilə maraqlandı.

Sonra Azərbaycan Prezidenti muzeyin ən qədim dövrlərdən bəri xalqımızın tarixini əks etdirən ekspozisiya, arxeologiya, qiymətli metallar, təsviri incəsənət fondları ilə yaxından tanış oldu, Azıx mağarasında tapılan qiymətli eksponatlara, zərif şəkildə işlənmiş əşyalara böyük maraqla baxdı.

Prezident İlham Əliyev iki min il bundan əvvəl Azərbaycan şəhərlərində mühəndis texniki qurğuların olduğunu göstərən eksponatlarla da tanış oldu və dedi ki, bu cür qədim tariximiz var. Belə zəngin tarixi irsi olan bir millət üçün dünyaya nəyisə sübut etməyə ehtiyac yoxdur. Milli tariximizin bu zəngin abidələri qorunmalı, ciddi mühafizə olunmalıdır.

Muzeyin direktoru Nailə Vəlixanlı dövlətimizin başçısına minnətdarlıq edərək dedi ki, cənab Prezident, muzeylərin yenidən bərpası üçün təşəbbüs göstərdiyinizə, bu işlərə diqqət ayırdığınıza, şəxsən maraqlandığınıza görə Sizə təşəkkür edirik. Xalqımızın ümummilli lideri Heydər Əliyev də mədəniyyət obyektlərinin yüksək səviyyədə olmasını daim diqqətdə saxlamış, bir neçə dəfə bu muzeyə gəlmişdir. Təmir işləri başa çatdıqdan sonra

Hacı Zeynalabdin Tağıyevin vaxtilə yaşadığı otaqların bir neçəsində onun ev-muzeyini yaratmaq fikrindəyik.

Azərbaycan Prezidenti İlham Əliyev dedi ki, hələ bir neçə il bundan əvvəl onun Mərdəkandakı qəbrini abadlaşdırdım. O vaxt mənə heç müraciət də olunmamışdı. Özüm gedib ora baxanda gördüm ki, çox pis, bərbad vəziyyətdədir. Biz oranı çox gözəl abadlaşdırdıq. İndi növbə onun evinə gəlib çatıbdır. Belə gözəl bina indi bərbad vəziyyətdədir. Prezident İlham Əliyev sonra Hacı Zeynalabdin Tağıyev küçəsindən bu tarixi binanın xarici görünüşünü də seyr etdi, bərpa işlərinin tam başa çatdırılması istiqamətində müvafiq göstəriş və tapşırıqlarını verdi.

***30 dekabr 2004-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏBRİZDƏ ŞAİRLƏR MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR

Dövlətimizin başçısı burada dəfn olunmuş ədiblərin xatirəsini ehtiramla andı, müasir Azərbaycan və fars ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Məhəmmədhüseyn Şəhriyarın məzarı üzərinə gül dəstəsi qoydu.

Prezident İlham Əliyev məqbərənin xatirə kitabına ürək sözlərini yazdı.

***26 yanvar 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏDƏNİYYƏT NAZİRİ POLAD BÜLBÜLOĞLUNA "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident Sarayında mədəniyyət naziri Polad Bülbüloğluna respublikamızın ali mükafatı olan "İstiqlal" ordenini təqdim etmişdir.

Prezident İlham Əliyev Polad Bülbüloğlunu yubileyi münasibətilə təbrik etdi və Azərbaycan mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə görə onun "İstiqlal" ordeni ilə təltif edilməsi barədə Sərəncam verdiyini bildirdi.

Dövlətimizin başçısı İlham Əliyev uzun illərdən bəri tanıdığı, görkəmli ifaçı, bəstəkar Polad Bülbüloğlunun unudulmaz əsərlərinin xalqımız tərəfindən həmişə sevildiyini vurğuladı və bir nazir kimi onun Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Polad Bülbüloğlunun uzun müddət xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında işlədiyini xatırladaraq dedi ki, ölməz Bülbülün oğlunun yaradıcılığına və fəaliyyətinə ulu öndərimiz həmişə böyük diqqət və qayğı göstərmişdir. Dövlətimizin başçısı onun yaradıcılığını bu gün də davam etdirməsini yüksək dəyərləndirərək dedi ki, bu, qəlbən hələ də gənc olduğunuzu göstərir.

Prezident İlham Əliyev Polad Bülbüloğlunu yubileyi münasibətilə bir daha təbrik etdi və "İstiqlal" ordenini ona təqdim etdi.

Polad Bülbüloğlu onu Vətənimizin ali mükafatı olan "İstiqlal" ordeni ilə təltif etdiyinə və yaradıcılığına, fəaliyyətinə verdiyi yüksək qiymətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi. O, ulu öndərimiz Heydər Əliyevin yolunun ən layiqli davamçısı olan Prezident İlham Əliyevin böyük Bülbülün varisinə Azərbaycanın ali mükafatını təqdim etməsindən böyük şərəf və qürur duyduğunu söylədi. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında on ildən çox işləməsindən böyük şərəf duyduğunu bildirən Polad Bülbüloğlu dedi ki, bu dövr onun üçün həyatda ən böyük məktəb idi və o, həmin illərin heç bir gününü heç vaxt unutmayacaqdır.

Ulu öndərimiz Heydər Əliyevin Bülbül ocağına daim böyük diqqət və qayğı ilə yanaşdığını vurğulayan Polad Bülbüloğlu dedi ki, Bülbülün ev muzeyinin yaradıcısı da məhz Heydər Əliyev olmuşdur. O bildirdi ki, Bülbülün 100 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə ümummilli liderimiz

Heydər Əliyevin dərin məzmunlu nitq söyləməsi və həmin günlərdə dahi müğənninin məzarını ziyarət etməsi Bülbülün ailə üzvlərinin qəlbində daim yaşayacaqdır.

Polad Bülbüloğlu xalqımızın ümummilli lideri Heydər Əliyev məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin ona Vətənin ali mükafatını təqdim etməsinə görə dövlətimizin başçısına bir daha dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

***4 fevral 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ İMPERATOR SARAYI KOMPLEKSİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə ölkəmizin nümayəndə heyətinin üzvləri XV əsrdə, Çin imperiyası dövründə tikilmiş məşhur Ququl imperator sarayı kompleksi ilə tanış olmuşlar.

Dövlətimizin başçısına orta əsr Çin memarlığının nəhəng, 72 hektar ərazini əhatə edən heyrətamiz nümunəsi barədə ətraflı məlumat verildi.

Azərbaycan Prezidenti sarayın Fəxri qonaqları kitabına ürək sözlərini yazdı:

"Ququl imperator sarayı ilə tanış oldum. Saray böyük təəssürat bağışlayır. Çin xalqının böyük tarixi, zəngin mədəniyyəti, özünəməxsus memarlıq sənəti burada öz əksini tapmışdır. Çin Xalq Respublikasının və Çin xalqının mədəni irsə olan qayğısı çox yüksək səviyyədədir və təqdirəlayiqdir. Dost Çin xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram. İlham Əliyev Azərbaycan Prezidenti. 18 mart 2005-ci il"

***18 mart 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ ÇIXIŞI

Əziz həmvətənlər!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı Azərbaycan xalqının ən əziz, ən sevimli bayramlarından biri – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Novruz bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Azərbaycan xalqı bu bayramı əsrlər boyu yaşatmışdır. Ancaq yalnız Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa edəndən sonra bu bayram Azərbaycanda dövlət bayramı kimi qeyd olunmağa başladı. Azərbaycanın müstəqilliyi bizim ən böyük sərvətimizdir. Biz hamımız hər gün, hər ay, hər il bu müstəqilliyi saxlamalıyıq, qorumalıyıq, möhkəmləndirməliyik.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə çox çətin vəziyyətdə yaşayırdı, böyük təhlükələr var idi. Demək olar ki, Azərbaycanda böhran hökm sürürdü və Azərbaycanın gələcəyi çox böyük təhlükələrlə üzləşə bilərdi. Xalqımızın müdrikliyi, iradəsi onunla nəticələndi ki, xalqımızın lideri Heydər Əliyev hakimiyyətə gəldi və bundan sonra ölkədə vəziyyət tamamilə dəyişdi.

1993-cü ildən 2003-cü ilə qədərki dövr ərzində Azərbaycan inkişaf yolunu keçdi. Biz bu inkişafı bütün istiqamətlərdə görürük, hiss edirik. Ölkədə gedən proseslər, iqtisadi inkişaf, siyasi islahatlar, ölkənin nüfuzunun artması bu gün Azərbaycanı bölgədə çox güclü dövlətə çevirdi.

2003-cü ildən sonra ölkəmizdə bütün istiqamətlərdə müsbət meyllər daha da gücləndi. Azərbaycan xalqı inamla inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini daha da gücləndirir. Bölgədəki nüfuzumuz artır. Azərbaycanda aparılmış siyasi, iqtisadi islahatlar ölkəmizi yaxın zamanlarda daha da qüdrətli dövlətə çevirəcəkdir. Mən buna şübhə etmirəm. Bu baxımdan 2004-cü il ölkəmiz üçün çox uğurlu il olubdur. Azərbaycan bütün istiqamətlərdə uğurla irəliləyibdir. Bizim qarşımızda duran bütün məsələlər 2004-cü ildə öz həllini tapıbdır.

2004-cü il iqtisadi inkişaf baxımından çox uğurlu olubdur və 170 min iş yerinin açılması bunun əyani sübutudur. Azərbaycanda sosial məsələlər öz həllini sürətlə tapır. Minumum əmək haqqının 2 dəfədən çox qaldırılması, təqaüdlərin qaldırılması, digər sosial ödəmələrin qaldırılması bir məqsəd güdür. O da ondan ibarətdir ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, Azərbaycanda daha da güclü iqtisadi potensial yaransın və ölkədə yaşayan hər bir vətəndaş öz həyat səviyyəsini yaxşılaşdırsın. Bu, bizim strateji xəttimizdir, bizim üçün prioritet məsələdir.

Mən çox şadam ki, 2004-cü ildə qarşımızda duran bütün məsələlər öz həllini tapdı. 2003-cü ildə keçirilmiş prezident seçkilərində verilmiş bütün vədlər həyatda öz əksini tapdı.

Mən çox şadam ki, nəzərdə tutulmuş bütün planlar, layihələr Azərbaycan xalqının dəstəyi ilə öz həllini tapdı. Əminəm ki, 2005-ci il də ölkəmiz üçün uğurlu olacaqdır. Hər halda ilin əvvəli bunu göstərir ki, iqtisadi inkişafda müsbət irəliləyiş müşahidə olunur. Azərbaycanda 2005-ci ilin ilk ayları onu çox açıq-aydın göstərir. Amma 2005-ci il Azərbaycan üçün bir çox mənada həlledici il olacaqdır. 2005-ci ildə Azərbaycanın gələcəyini böyük mənada müəyyən edən, Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməlidir. Bu kəmərin istismara verilməsi ilə bölgədə yeni vəziyyət yaranacaqdır. Azərbaycanda nəzərdə tutulmuş bütün layihələr daha da sürətlə icra olunmağa başlanacaqdır. Bu, bizim arzumuzdur. Azərbaycan daha da zəngin olacaqdır. İnsanlarımız daha da yaxşı yaşamağa başlayacaqlar. Mən buna şübhə etmirəm və bizim bütün səylərimiz bir məqsədə qulluq edir: Azərbaycanı zənginləşdirmək, ölkədə yaşayan insanların həyat səviyyəsini yaxşılaşdırmaq, ölkəmizi bölgədə daha da möhkəmləndirmək və nəticədə ölkə qarşısında duran bütün məsələləri həll etmək.

2005-ci ildə Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Biz bu seçkilərə böyük əhəmiyyət veririk və mən şübhə etmirəm ki, bu seçkilər Azərbaycanın demokratik inkişafı üçün mühüm mərhələ olacaqdır. Mən əminəm ki, seçkilər şəffaf, ədalətli şəkildə keçiriləcək və Azərbaycan xalqının iradəsi bu seçkilərdə öz əksini tapacaqdır.

Azərbaycan xalqının iradəsi, istəyi, arzusu bizim üçün prioritet məsələdir. 2003-cü ildə bizim siyasətimizə göstərilmiş dəstək bütün işlərin daha da uğurla aparılması üçün gözəl şərait yaradır. Mən bu dəstəyi bu gün də hiss

edirəm, bu dəstəyə arxalanıram və ölkədə gedən siyasi, iqtisadi islahatlar bu dəstəyə arxalanır.

Ümid etmək istəyirəm ki, 2005-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işində də vacib il ola bilər. Ümid etmək istəyirəm ki, bu istiqamətdə də irəliləyiş ola bilər. Hər halda, bu vaxda qədər gedən proseslər bunu deməyə əsas verir. Azərbaycanın diplomatik uğurları, bu işdə atılmış siyasi addımlar artıq danışıqlar prosesində yeni şərait yaradıbdır. Birləşmiş Millətlər Təşkilatında aparılmış müzakirələr, Avropa Şurası tərəfindən qəbul edilmiş qərar, digər beynəlxalq təşkilatlarda bu məsələyə diqqətin artırılması müsbət hallardır. Mən əminəm ki, bunlar danışıqlar prosesinə müsbət təsir edəcək məsələlərdir.

Azərbaycanın işi haqq işidir. Biz öz ərazi bütövlüyümüzü beynəlxalq hüquq prinsipləri əsasında bərpa etmək istəyirik və buna nail olacağıq da. Buna heç kimin şübhəsi olmasın. Sadəcə, biz istəyirik ki, bunu sülhlə həll edək, danışıqlar yolu ilə həll edək. Ümid edirik ki, bu danışıqlar yolu məsələnin həllinə gətirib çıxaracaqdır. Çünki başqa cür ola bilməz.

Beynəlxalq hüquq normaları hər bir ölkə üçün əsas prinsip olmalıdır. Azərbaycan heç bir başqa ölkənin torpaqlarını işğal etməyibdir. Heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur. Amma biz öz torpaqlarımızı da heç kimə verən deyilik. Əgər biz buna sülh yolu ilə nail ola bilməsək, yeni vəziyyət yaranacaq və onda Azərbaycan başqa variantlarla məşğul olacaqdır. Amma bu məsələni həll etmək üçün, ümumiyyətlə, ölkəmizi daha da hərtərəfli inkişaf etdirmək üçün biz güclü olmalıyıq. Biz öz iqtisadi potensialımızı gücləndirməliyik. Ordu quruculuğunda böyük işlər görməliyik. İnsanlarımızın həyat səviyyəsini yaxşılaşdırmalıyıq. Bir sözlə, Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirməliyik. Ancaq o təqdirdə qarşımızda duran bütün məsələlər öz həllini daha asanlıqla tapa bilər. Ancaq o təqdirdə Azərbaycan özü bu məsələlərlə bağlı ciddi addımlar ata bilər. Yenə də deyirəm, ümid edirəm ki, sülh danışıqlarının potensialı hələ tükənməyibdir. Heç şübhə etmirəm ki, biz ədalətli həllə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır və bir milyondan artıq qaçqın-köçkünümüz öz doğma torpaqlarına qayıdacaqdır.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Bu gün bizimlə bərabər bu gözəl bayramı Gürcüstandan gəlmiş qonaqlar da qeyd edirlər. Mənim yaxın dostum, qardaşım Mixail Saakaşvilinin həyat yoldaşı xanım Sandra bizimlə bərabərdir. Gəlin, onu salamlayaq.

Biz bütün dost, qardaş ölkələrlə ikitərəfli, qarşılıqlı sürətdə faydalı münasibətlərin güclənməsinə tərəfdarıq. Biz istəyirik ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, əməkdaşlıq olsun. Belə olan halda bölgədə yaşayan bütün xalqlar, bütün dövlətlər yalnız faydalanacaqdır. Azərbaycanın siyasəti bundan ibarətdir. İlk növbədə Azərbaycanın milli maraqları qorunmalıdır, Azərbaycan xalqının rifahı təmin edilməlidir, eyni zamanda, qonşu, dost ölkələrlə daha da mehriban münasibətlər yaranmalıdır ki, həm daxildə, həm də xaricdə bizim gücümüz artsın. Əgər biz daxildə güclü olsaq, beynəlxalq müstəvidə də daha güclü olacağıq. Əgər biz nə qədər çox diplomatik uğurlar əldə etmiş olsaq, Azərbaycan xalqı bundan o qədər çox faydalanacaqdır.

Sizin hamınızı bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar, xoşbəxtlik arzu edirəm.

Bayramınız mübarək olsun!

***22 mart 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev Seymdə görüşdən sonra Polşa parlamentinin yuxarı palatasına – Senata gəlmiş, burada təşkil olunmuş "Polyak memarları Bakıda" sərgisi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verilərək bildirildi ki, sərgi Bakı şəhərinin memarı, XIX əsrin sonunda ölkəmizin paytaxtına sürgün olunmuş İosif Qoslavskinin vəfatının 100 illiyinə həsr olunmuşdur. Burada Polşanın Bakıdakı səfirliyi tərəfindən "Polyak memarları XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda" fotomüsabiqəsi qaliblərinin işləri nümayiş etdirilir. Onların arasında İosif Qoslavskinin, İosif Ploşkonun, Kazimir Skoreliçin və digər polyak memarlarının layihələri əsasında Bakıda tikilmiş binaların fotoları da var.

***30 mart 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Varşavanın tarixi yerləri ilə tanış olmuş, Polşa paytaxtının "Köhnə şəhər" adlanan hissəsinə – Stare – Myastoya baxmışlar. Şəhərin bu hissəsi Visla çayının sol sahilində yerləşir və Bakının İçərişəhəri kimi qala divarları ilə əhatələnmişdir.

Varşava şəhərinin meri Lex Koçinski Prezident İlham Əliyevə tarixi memarlıq abidələri barədə ətraflı məlumat verdi. Bildirildi ki, İkinci Dünya müharibəsindən sonra şəhərin memarlıq əhəmiyyətli binalarının hamısı əvvəlki görkəmində bərpa olunmuşdur.

Dövlətimizin başçısı Varşava üsyanı muzeyinin həyətində İkinci Dünya müharibəsi zamanı Varşava Müqavimət Hərəkatının tərkibində döyüşmüş və həlak olmuş azərbaycanlı zabitlərin xatirə lövhəsinin açılışı mərasimində iştirak etdi.

Lex Koçinski mərasimi açaraq, Azərbaycan Prezidentini Polşanın paytaxtında görməsindən şərəf duyduqlarını söylədi, bu xatirə lövhəsinin açılışını Azərbaycan və Polşa xalqları arasında dostluğun daha bir əlaməti kimi səciyyələndirdi.

Prezident İlham Əliyev mərasimdə nitq söyləyərək bildirdi ki, İkinci Dünya müharibəsində azərbaycanlılar digər xalqlarla birlikdə faşizmə qarşı mübarizəyə qoşulmuş, bu müharibədə 600 min azərbaycanlı döyüşmüş və onların yarısı qəhrəmancasına həlak olmuşdur.

Dövlətimizin başçısı Polşaya rəsmi səfərinin tarixi ənənələri olan Azərbaycan-Polşa əlaqələrinin inkişafına güclü təkan verəcəyinə ümidvar olduğunu söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev xatirə lövhəsinin üzərindən ağ örtüyü götürdü.

Sonra dövlətimizin başçısı Varşava üsyanı muzeyi ilə yaxından tanış oldu.

***31 mart 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN TURİZM NAZİRİ DİMİTRİS AVRAMOPULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı Afina Olimpiya Oyunları keçirilərkən bu ölkəyə etdiyi səfəri və bu səfər zamanı Baş nazir Konstantinos Karamanlislə və cənab Dimitris Avramopulos ilə görüşlərini məmnunluqla xatırladı, Olimpiya oyunlarının yüksək səviyyədə təşkil edildiyini vurğuladı.

Prezident İlham Əliyev Yunanıstan Prezidentinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində yeni bir mərhələ açdığını, həmin səfər zamanı keçirilən görüşlərin, aparılan danışıqların, imzalanmış sənədlərin əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.

Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya edildiyini vurğulayan Prezident İlham Əliyev Yunanıstan hökumətinin ölkəmizin bu səylərini dəstəkləməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında həm ikitərəfli, həm də Avropa Birliyi çərçivəsində əlaqələrin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini vurğuladı və ümidvar olduğunu bildirdi ki, cənab Dimitris Avramopulosun bu səfəri həm əlaqədar nazirliklər, həm də ölkələrimiz arasında turizm sahəsində, habelə digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.

Cənab Dimitris Avramopulos Yunanıstanın Baş naziri Konstantinos Karamanlisin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı, Azərbaycan Prezidentinin Yunanıstana rəsmi səfərini gözlədiklərini bildirdi.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial olduğunu vurğuladı. Azərbaycanın müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə böyük inkişafa nail olduğunu nəzərə çarpdıran Dimitris Avramopulos bütün bu proseslərin yaxın zamanlarda Azərbaycanın regionda sülhün və sabitliyin təminatçısı olması işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev Yunanıstan Baş nazirinin səmimi salamlarına görə minnətdarlığını bildirdi, onun da səmimi salamlarını cənab Konstantinos Karamanlisə çatdırmağı xahiş etdi.

***7 aprel 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ "ŞƏKƏRPARYƏN" PARKI İLƏ TANIŞLIQ

Parkın salınmasına Pakistan İslam Respublikasının yaradıldığı ilk ildən başlanmışdır. Prezident İlham Əliyev burada 1996-cı ilin aprelində ümummilli liderimiz Heydər Əliyevin Pakistana rəsmi səfəri zamanı əkdiyi ağaca baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, ötən illər ərzində Pakistan İslam Respublikasının qonaqlan – xarici ölkələrin məşhur dövlət və hökumət başçıları, tanınmış ictimai və siyasi xadimlər bu parkda xatirə olaraq ağac əkmişlər və bunların hər birinə diqqətlə qulluq edilir. Prezident İlham parkla tanış oldu və xatirə ağacı əkdi. sonra Islamabad şəhərinin gözəl mənzərəsini seyr etdi. Ölkəmizin rəhbərinə məlumat verildi ki, paytaxtın genişləndirilməsi, yeni park və küçələrin salınması nəzərdə tutulur. Azərbaycan Prezidenti İlham Əliyev parkın xatirə kitabına ürək sözlərini yazdı. Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

***13 aprel 2005-ci il***

## KİŞİNYOVDA NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya rəsmi səfəri çərçivəsində Kişinyovda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi olmuşdur.

Mərasimə toplaşan Moldova ictimaiyyətinin nümayəndələri, Kişinyov sakinləri və Azərbaycan diasporunun üzvləri, Azərbaycan Prezidenti İlham Əliyevi və Moldova Prezidenti Vladimir Voronini hərarətlə qarşıladılar.

Moldovanın mədəniyyət və turizm naziri Artur Kozma mərasimi açaraq, Prezident İlham Əliyevin rəsmi səfəri çərçivəsində Kişinyovda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılmasını tarixi hadisə kimi qiymətləndirdi.

Prezidentlər İlham Əliyev və Vladimir Voronin mərasimdə nitq söylədilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, Moldova Respublikasına rəsmi səfərim zamanı mənə və nümayəndə heyətimizin üzvlərinə yüksək qonaqpərvərlik göstərildiyinə görə Moldova Respublikasının Prezidenti çox hörmətli Vladimir Nikolayeviçə bir daha öz minnətdarlığımı bildirmək istərdim.

Məmnunluqla vurğulamaq istəyirəm ki, sizin gözəl ölkənizə səfərim daha bir əlamətdar hadisə ilə qeyd olunur. Bildiyiniz kimi, bugünkü görüşümüzdən məqsəd Azərbaycan xalqının dahi oğlu, XII əsrin şair və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini açmaqdır. Nizami təkcə şair, müdrik söz ustadı deyildi, həm də gözəl filosof idi. Onun əsərləri dünyanın azad fikir xəzinəsini layiqincə zənginləşdirmiş və bütün Şərq xalqlarını bəşəriyyətin firavanlığı naminə yaxşı, xeyirxah işlərə ruhlandırmışdır. Heç bir şübhə yoxdur ki, Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin dahiyanə əsərləri dünya mədəniyyətinin qızıl fondunun ən parlaq nümunələrini təş-

kil edir və bəşəriyyətin böyük nümayəndələrinin yaratdıqları əbədiyaşar abidələr sırasında fəxri yer tutur.

Nizaminin bütün fəlsəfəsinin mərkəzində varlığın ali dəyəri, mənəvi zənginliyin və biliklərin tükənməz mənbəyi kimi insan durur. Nizami insanın cəmiyyətdə roluna öz baxışı prizmasından nəzər salaraq, antik irsi, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik poetik ənənələrini yaradıcılığında əks etdirə bilmişdir. Böyük sənətkarların yaratdıqlarının ümumbəşəri əhəmiyyətinin xüsusiyyətlərindən biri budur ki, onlar həyati əhəmiyyətlidir, əbədiyaşardır, çünki onların mənası gözəllik və əzəmətdədir. Bu əsərlərdə əks olunmuş ümdə arzu – insanları xoşbəxt etmək istəyi ümumbəşəri mədəniyyət inkişaf tapdıqca, dünya miqyasında sivilizasiyanın səviyyəsi yüksəldikcə açıqlanır. Nizaminin yaradıcılığı bunun aşkar təsdiqidir. Onun bəşər sivilizasiyasının inkişafındakı rolunu bütün zəmanələrin bədii və fəlsəfi təfəkkürünün katalizatorları olmuş Aristotel, İbn Sina, Dante, Şekspir və Puşkin kimi dühalarla müqayisə etmək olar. Nizaminin əsil humanizm ideyalarını özündə birləşdirən fəlsəfi konsepsiyası onun ilhamlı lirikasının və qəhrəmanlıq dastanının bənzərsiz dünyasında ifadəsini tapmışdır. Məhəbbətin əbədiliyi, həyat və ölümün mənası, cəmiyyətin ideal quruluşu, kainatın böyük sirləri haqqında onun yaratdığı poemalar bugünədək Şərqdə örnək üçün meyar olaraq qalır. Dünya şöhrətli ölməz "Xəmsə"nin müəllifi olan Nizami humanizm, insan şəxsiyyətinin azadlığı ideologiyası, onun iradəsinin taleyin qaçılmaz iradəsindən və təbiətin fövqündə duran qüvvələrin hökmündən asılı olmaması kimi böyük fəlsəfi təlimlərin banilərindən biridir. O, bəşər tarixində ilk dəfə olaraq, insan qəlbinin saf və ülvi amallarının gözəl aləmini ilahiləşdirmiş, nəcib və pak məhəbbətin mükəmməl nəzəriyyəsini yaratmışdır.

Nizami bu gün də müasirimiz olaraq qalır. O, özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir. Xeyrin, ülvi olan hər bir şeyin gözəlliyinin mənəvi qüvvəsinə inamı ilə bu gün də bizimlədir. Fürsətdən istifadə edərək, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin sözlərini misal gətirmək istəyirəm. O demişdir: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Məhz mədəni əlaqələr, mənəvi yaxınlıq xalqları getdikcə daha çox yaxınlaşdırır və dostluq münasibətlərini möhkəmləndirir". Hesab edirik ki, bu baxımdan Azərbaycan və Moldova təkcə siyasi, iqtisadi və digər sahələrdə deyil, mədəniyyət və incəsənət sahəsində də ikitərəfli əməkdaşlığı genişləndirməlidir.

Əziz dostlar, fürsətdən istifadə edərək qonaqpərvərliyə görə, mənə və nümayəndə heyətimizə səmimi münasibətə görə, bu gün Moldova paytaxtında, Kişinyov şəhərində Azərbaycan xalqının dahi oğlu Nizami Gəncəvinin abidəsinin açılmasına görə Moldova Prezidenti hörmətli Vladimir Nikolayeviç Voroninə, Moldova hökumətinə təşəkkürümü bildirmək istəyirəm.

İkitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Bu gün ölkələrimiz arasında siyasi dialoq ən yüksək səviyyədədir, mühüm sazişlər imzalanmışdır, onlar ölkələrimizin gələcək inkişafını müəyyən edəcəkdir. İkitərəfli miqyasda, regional kontekstdə və regionda təhlükəsizliyin qlobal sistemi məsələlərində Moldova ilə Azərbaycanın əməkdaşlığı birinci dərəcəli əhəmiyyətə malikdir. Biz dostuq, biz müttəfiqik, bizi çox şey birləşdirir. Ona görə də bundan sonra da çalışacağıq ki, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq genişlənsin və həm Moldova vətəndaşlarına, həm də Azərbaycan vətəndaşlarına fayda gətirsin.

Bu imkandan istifadə edərək, sizin gözəl ölkənizdə yaşayan azərbaycanlılara xoş münasibətə görə də Moldova Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Moldovadakı Azərbaycan diasporu çox mütəşəkkildir, iqtisadiyyatın inkişafına böyük töhfə verir, Moldova cəmiyyətinə fəal inteqrasiya olunub və əminəm ki, ikitərəfli əlaqələrimizin mühüm vəsiləsidir. Sizə məmnunluqla demək istəyirəm ki, Azərbaycanın Moldovada səfirliyinin açılması haqqında bu yaxınlarda qərar qəbul edilmişdir. Səfirlik bir müddətdən sonra açılacaqdır. Əminəm ki, bundan sonra ölkələrimiz arasında ikitərəfli münasibətlər daha intensiv olacaqdır. Biz əməkdaşlığı bundan sonra da inkişaf etdirmək istəyirik. Bunun üçün yaxşı zəmin var. Ölkələrimizin iqtisadi potensialı artır, qarşılıqlı siyasi əlaqələr möhkəmlənir. Hesab edirəm ki, gələcəkdə ölkələrimiz Avropaya inteqrasiya yolu ilə, quruculuq yolu ilə, regionumuzda sülhün və təhlükəsizliyin təmin olunması yolu ilə birlikdə gedəcəklər.

Hörmətli Vladimir Nikolayeviç, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək və Azərbaycan xalqının ən dərin hörmətini ifadə etmək, bütün Moldova vətəndaşlarına sülh və firavanlıq arzulamaq istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***21 aprel 2005-ci il***

## ŞAMAXIDA NƏSİMİNİN HEYKƏLİNİN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz şamaxılılar!

Əziz dostlar!

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Mən çox şadam ki, bu gün Şamaxıdayam, səhərdən burada müxtəlif tədbirlərdə iştirak edirəm. Mənim üçün bu gün xüsusi əzizdir ona görə ki, bu gün Azərbaycan xalqının dahi şairi İmadəddin Nəsiminin heykəlinin açılışında iştirak edirəm. Hesab edirəm ki, bu, bizim həyatımızda çox əhəmiyyətli bir hadisədir.

Otuz ildir ki, heykəlin ucaldılması haqqında qərar qəbul edilmişdir. Amma müəyyən səbəblərə görə biz buna nail ola bilməmişdik. Amma indi, bu gözəl gündə dahi Nəsiminin Vətənində, gözəl Şamaxıda Nəsiminin heykəli ucaldılır və biz bunu qeyd edirik. Bu, çox əlamətdar hadisədir, onu göstərir ki, biz öz tariximizə, öz mədəniyyətimizə, öz ədəbiyyatımıza böyük hörmətlə yanaşırıq. Başqa cür ola da bilməz.

Düzdür, bu gün bütün inkişaf etmiş ölkələrdə bazar iqtisadiyyatı prinsipləri hökm sürür. Azərbaycan da istisna deyildir. Azərbaycan da bu yolu seçibdir. Çünki ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün başqa yol yoxdur. Bazar iqtisadiyyatı prinsipləri əsasında yaşayan dövlətlərdə, əlbəttə ki, iqtisadi inkişafa, maddi dəyərlərə daha çox üstünlük verilir. Bu da təbiidir. Çünki zaman bunu tələb edir. Azərbaycan öz potensialını daha da sürətlə inkişaf etdirməlidir. Bu istiqamətdə önəmli addımlar atılır və bundan sonra da atılacaqdır. Amma mən bu gün çox şadam, ona görə ki, biz öz milli dəyərlərimizi də unutmuruq və bu, çox gözəldir. Bu onu göstərir ki, Azərbaycan cəmiyyəti düz istiqamətdə inkişaf edir.

Azərbaycan, Azərbaycan xalqı uzun illər, onilliklər, əsrlər boyu müstəmləkə vəziyyətində yaşamışdır. Müstəqil respublika kimi də yaşamışdır. Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur. Əgər bunlar olmasaydı, əgər Azərbaycan xalqı öz tarixi köklərinə bağlı olmasaydı, bizim bugünkü taleyimiz başqa cür ola bilərdi. Məhz Azərbaycanın zəngin tarixi, mədəniyyəti, Azərbaycan dili bizi – Azərbaycan xalqının nümayəndələrini bu gün də öz keçmişimizə hörmətlə yanaşmağımıza imkan verir.

Bu gün, Azərbaycan müstəqil dövlət kimi inkişaf etdikcə, biz heç vaxt öz milli köklərimizi unutmamalıyıq. Azərbaycan tarixində müstəsna xid-

mətləri olmuş şəxslərin xatirəsinə həmişə hörmətlə yanaşmalıyıq, onları həmişə ehtiramla yad etməliyik.

Öz keçmişini bilməyən, dərk etməyən, düzgün başa düşməyən insanın gələcəyi də ola bilməz. Bizim xoşbəxtliyimiz bundadır ki, Azərbaycanda görülən bütün işlər məhz milli zəmində görülür. Azərbaycanın bundan sonrakı inkişafı da bunu tələb edir. Biz dünya birliyinə inteqrasiya edirik. Azərbaycan beynəlxalq aləmin çox dəyərli üzvünə çevrilibdir və əlbəttə ki, dünyada gedən proseslərdən kənarda qala bilməz. Amma eyni zamanda, biz heç vaxt öz milli xüsusiyyətlərimizi unutmamalıyıq, öz keçmişimizi unutmamalıyıq. Əksinə, bunu daim yadda saxlamalıyıq. Keçmişimizin və bu günümüzün gözəl nümunələrini təbliğ etməliyik, dünyada yaymalıyıq. Bütün bu məsələlər öz həllini tapmalıdır. Ona görə mən çox şadam ki, bu gün Şamaxıda həm idmanın inkişafı üçün, infrastrukturun möhkəmlənməsi üçün gözəl Olimpiya İdman Kompleksi istifadəyə verilibdir. Azərbaycanın iqtisadi inkişafı üçün lazım olan televizor istehsalı zavodu istismara verilibdir. Həm də dahi şairimiz Nəsiminin heykəli ucaldılıbdır və biz bu gün bunu qeyd edirik.

Mən çox şadam ki, Şamaxı inkişaf edir. Şamaxı Azərbaycanın inkişaf proqramında xüsusi yerə malikdir. Burada gedən inkişaf prosesləri onu göstərir ki, biz düz yoldayıq. Bundan bir qədər əvvəl burada bu zonanın sahibkarları ilə görüşdə də bunu hiss elədim. Canlanma var, fəallıq var, insanlarımızın gələcəyə ümidi var. Ən önəmlisi budur. Azərbaycan düz istiqamətdə inkişaf edir. Hamımız çalışmalıyıq ki, əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirək və ölkəmizi hərtərəfli inkişaf etdirərək zəngin, həm iqtisadi, həm də mənəvi cəhətdən qüdrətli dövlətə çevirək. Əminəm ki, biz bunu edəcəyik.

Mən dəfələrlə Şamaxıda olmuşam. Bu şəhər, bu diyar mənim üçün çox əzizdir. Burada çox gözəl təbiət var, gözəl insanlar var. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində şamaxılıların həmişə çox fəal iştirakı olubdur və bu gün də, Azərbaycanın gələcək inkişafında da şamaxılıların rolu çox böyükdür.

Mən əminəm ki, bundan sonra da biz hamımız ölkəmizin inkişafı üçün əlimizdən gələni edəcəyik. Azərbaycanın bütün regionlarını inkişaf etdirəcək, qarşıda duran bütün vəzifələri uğurla həyata keçirəcək, yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması istiqamətində görülmüş tədbirləri davam etdirəcəyik və nəhayət, ölkəmizi müasir, zəngin dövlətə çevirəcəyik. Bu işdə sizin hamınıza uğurlar arzulayıram. Bu gözəl abidənin açılışı münasibətilə sizi bir daha təbrik edirəm. Bu işdə əməyi olan heykəltəraşa, memara dərin minnətdarlığımı bildirirəm. Sağ olun.

***26 aprel 2005-ci il***

# BAKIDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 82-ci ildönümüdür. Bu gün biz burada Heydər Əliyevin abidəsinin açılışına toplaşmışıq. Abidə üçün yer axtaranda biz buranı seçdik. Çünki bura Heydər Əliyevin 1970-ci illərdə tikdirdiyi və bu gün onun adını daşıdığı sarayın önüdür. Eyni zamanda, bu yer həmişə insanlarla dolu olur. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli yerlərindən biridir. İnsanlar buraya tez-tez gəlirlər, dincəlirlər, istirahət edirlər. Heydər Əliyev həmişə insanlarla birlikdə idi, öz doğma xalqı ilə birlikdə idi. Bu abidə də həmişə insanlarla əhatə olunacaqdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə Azərbaycana, Azərbaycan xalqına sədaqətlə xidmət etmişdir. Onun bütün həyat və fəaliyyəti bu məqsədə qulluq edirdi. Hələ 1970-ci illərdə Azərbaycana ilk dəfə rəhbər seçiləndə respublikanın hərtərəfli inkişafı üçün çox böyük işlər görmüşdür, Azərbaycanı irəliyə aparmışdır.

1969-cu ildə Azərbaycan Sovet İttifaqının tərkibində yaşayırdı və başqa respublikalarla müqayisədə ən geridə qalmış respublikalardan idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmiz hərtərəfli inkişaf etdi, yeni müəssisələr, fabriklər, zavodlar tikildi. Bu gün Azərbaycanın iqtisadi və sənaye potensialını xeyli dərəcədə müəyyən edən zavodlar tikildi. Neft infrastrukturu yarandı. Əgər o vaxt bu infrastruktur yaranmasaydı, indi Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində böyük çətinliklərlə üzləşə bilərdik. Məhz o illərdə Azərbaycan üçün və bugünkü müstəqil Azərbaycan üçün lazımlı infrastruktur yarandı. Kənd təsərrüfatında böyük inkişaf baş verdi. Kənddə yaşayan insanların rifah halı yaxşılaşdı. Azərbaycanın mədəni həyatında böyük hadisələr baş verdi.

Bir sözlə, 1970-ci illər Azərbaycanın inkişaf dövrü idi. Düzdür, biz o vaxt başqa ictimai-siyasi quruluşda yaşayırdıq. Amma buna baxmayaraq, əsil lider istənilən şəraitdə öz xalqına xidmət etməyə, onu gələcəyə aparmağa qadirdir. Təsadüfi deyil ki, 1982-ci ildə Heydər Əliyev Azərbaycanda

rəhbər kimi öz vəzifəsini başa çatdıranda və Moskvaya Siyasi Büroya üzv seçiləndə Azərbaycan müttəfiq respublikalar arasında öndə gedirdi.

Ondan sonrakı dövr də Heydər Əliyevin həyatında çox əhəmiyyətli idi. O, Sovet İttifaqının rəhbərlərindən biri idi. İlk dəfə, azərbaycanlı Sovet İttifaqında partiyanın Siyasi Bürosunun tərkibinə seçilmişdi. Əlbəttə, Moskvada işlədiyi beş il ərzində əlindən gələni edirdi ki, Azərbaycan daha da inkişaf etsin, öz imkanlarından istifadə edib Azərbaycanın sənaye və iqtisadi potensialının güclənməsinə öz köməyini göstərsin. O illərdə də Azərbaycan üçün çox əhəmiyyətli işlər görürdü.

Heydər Əliyev bütün dövrlərdə xalqı düşünürdü, milləti düşünürdü. 1970-ci illərdə ölkəmiz üçün yeni kadrların hazırlanmasına da böyük diqqət göstərirdi. Sovet İttifaqının aparıcı ali məktəblərinə minlərlə azərbaycanlı oxumağa getmişdi və bu gün o insanlar, gözəl peşəkarlar müstəqil Azərbaycana xidmət edirlər. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb fəaliyyətə başladı və bu gün Azərbaycanın Milli Ordusunda böyük vəzifələrdə xidmət edən insanlar məhz o məktəbin yetirmələridir. Sanki o, Azərbaycanın gələcəyini görürdü. Sanki bilirdi ki, Azərbaycan müstəqil olacaq, xalqımız azad olacaq, Azərbaycan dünya birliyinin üzvü olacaqdır.

Ondan sonrakı dövrdə müxtəlif hadisələr baş vermişdi. Amma bütün hallarda Heydər Əliyev öz səsini, öz sözünü həmişə deyirdi. 1990-cı ilin qanlı Yanvar hadisələrindən sonra, xalqımız üçün o çətin, ağır dövrdə öz haqq səsini ucaltdı, Sovet İttifaqı Kommunist Partiyasının və onun rəhbərliyinin apardığı siyasəti qətiyyətlə pislədi. O, xalqla birlikdə idi. Təsadüfi deyil ki, dərhal ona qarşı təzyiqlər başladı, təqiblər başladı. Ancaq bütün bunlara dözdü, əyilmədi, öz sözünü axıra qədər dedi və etiraz əlaməti olaraq uzun illər və sədaqətlə xidmət etdiyi Kommunist Partiyasından imtina etdi.

Ondan sonrakı dövr həm onun gələcək fəaliyyəti üçün, həm də Azərbaycanın müstəqilliyi üçün çox əhəmiyyətli və həlledici dövr olmuşdur. Artıq Moskvada o çətin şəraitdə, daim təhlükə altında qalmaq mümkün deyildi və Heydər Əliyev Azərbaycana gəldi. Amma Azərbaycanın o vaxtkı və ondan sonrakı rəhbərliyi onun nüfuzundan qorxaraq, Bakıda qalmasına imkan yaratmadı. O, Naxçıvana, doğulduğu yerə getdi və naxçıvanlılar onu dəstəklədilər. Naxçıvanlılar onu qorudular, o da naxçıvanlıları və Naxçıvanı qorudu. Ermənilər bütün cəhdlərinə baxmayaraq, Naxçıvan barədə planlarını həyata keçirə bilmədilər. Heydər Əliyevin rəhbərliyi ilə əhali öz torpağını müdafiə etdi.

Çətin günlər idi, ağır anlar idi. Azərbaycanda gedən proseslər ölkəni

uçuruma aparırdı. Ölkə faktiki olaraq dağılırdı. Total böhran, hakimiyyətsizlik, özbaşınalıq hökm sürürdü. Azərbaycanın gələcəyi, müqəddəratı şübhə altında idi. O illər xalqımızın gələcəyi üçün həlledici illər olmuşdur. Xalqın müdrikliyi özünü yenə də göstərdi, öz liderinə üz tutdu, onu dəvət etdi və xalqın tələbi ilə Heydər Əliyev 1993-cü ildə Azərbaycana qayıtdı, Prezident seçildi. Ondan sonra ölkədə vəziyyət tədricən yaxşılığa doğru inkişaf etməyə başladı. Bütün təhlükəli amillər aradan götürüldü, qanunsuz silahlı dəstələr, silahlı birləşmələr tərksilah edildi, vətəndaş müharibəsinə son qoyuldu, atəşkəs əldə olundu və ölkə inkişaf etməyə başladı. Sabitlik, əmin-amanlıq yarandı ki, bunlar da hər bir ölkənin inkişafı üçün başlıca şərtdir.

1993-cü ildən 2003-cü ilə qədər, on il ərzində Azərbaycanın keçdiyi inkişaf, quruculuq yolu bir daha göstərdi ki, liderdən, onun apardığı siyasətdən çox şey asılıdır. Azərbaycan çətin vəziyyətdən şərəflə çıxdı. Ölkəmiz dünya birliyində özünə layiq yerini tuta bildi. İnteqrasiya proseslərinə qoşuldu. Azərbaycan dünyada böyük hörmətə malik bir ölkəyə, regionda lider dövlətə çevrildi. Azərbaycanda iqtisadi islahatlar aparılmağa başladı və nəticədə ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf etdi. Əgər 1993-cü ildə Azərbaycan regionun ən geridə qalmış ölkəsi idisə, bu gün ən aparıcı ölkədir. Əgər 1993-cü ildə Azərbaycanın xəzinəsi boş idisə, bu gün bizim valyuta ehtiyatlarımız 2 milyard dollara bərabərdir. Əgər o vaxt Azərbaycanda ordu çox ağır vəziyyətdə idisə, bu gün Azərbaycanda nizami ordu var və istənilən vəzifəni həll etməyə qadirdir.

1993-cü ildə Azərbaycan iqtisadiyyatı tənəzzülə uğrayan, geridə qalmış ölkə idisə, bu gün iqtisadi inkişaf sürətinə görə nəinki regionda, həm də dünyada lider dövlətdir. Bu yaxınlarda Dünya Bankı tərəfindən verilmiş açıqlamaya görə, iqtisadi inkişaf sürətinə görə Azərbaycan bu il dünyada birinci yeri tutacaqdır. Bütün bunlar Heydər Əliyevin siyasətinin nəticələridir və onlar bu gün də özünü göstərir, büruzə verir. Ardıcıl, məqsədyönlü, düşünülmüş siyasət nəticəsində Azərbaycan inamla inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirir, sözün əsil mənasında, tam müstəqil siyasət aparır. Bu, böyük xoşbəxtlikdir, böyük nemətdir. Bütün bunları bizə bəxş edən, vətəninə sədaqətlə xidmət edən ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

1990-cı illərdə Azərbaycan üçün, Azərbaycanın gələcəyi üçün, regionun inkişafı üçün çox əhəmiyyətli hadisələr baş verdi. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış Azərbaycanın neft strategiyası uğurla həyata keçirilməyə başladı. İndi biz bu strategiyanın nəticələrini görürük. İki həftədən sonra Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft

kəməri istismara veriləcəkdir. Bu, Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətə malik bir hadisədir. Ölkəmizə imkan verəcək ki, insanlarımız daha da yaxşı yaşasınlar, daha da yüksək maaş alsınlar, xalqımızın rifah halı yaxşılaşsın. İqtisadi inkişaf daha da sürətlə getsin. Gələcək illərdə Azərbaycanda bu vaxta qədər görünməmiş işlər görüləcəkdir. Sürətlə abadlıq, quruculuq işləri aparılacaqdır, ölkəmiz güclənəcək və müasir dövlətə çevriləcəkdir. Biz bunun əlamətlərini bu gün də görürük. Bütün görülən bu işlərin nəticəsində ölkədə gedən proseslər, ictimai siyasi vəziyyət, sabitlik, iqtisadi inkişaf Azərbaycanı sözün əsil mənasında, çox inamla inkişaf edən ölkə kimi dünyaya təqdim edir.

1990-cı illərdə ölkəmizin qarşısında duran bir çox məsələ öz həllini tapdı. Azərbaycan öz xarici siyasətini xalqın milli maraqlarına uyğun şəkildə apardı, iqtisadi inkişaf sürətlə getdi və bütün başqa sahələrdə uğurlar göz qabağındadır. Amma problemlər də var və bizim ən başlıca, ən əsas problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməmişdir. Hamımız bilirik ki, bu məsələdə də Heydər Əliyev həmişə birmənalı və çox qətiyyətli mövqe tuturdu ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxmalı və Azərbaycanın suverenliyi bərpa olunmalıdır. Bu prinsipial mövqedir və danışıqlar prosesində bizim üçün əsas məsələdir. Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq. Dağlıq Qarabağ problemi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapmalıdır. Çox sevindirici haldır ki, artıq dünya ictimaiyyəti də bunu gözəl dərk edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin insani keyfiyyətləri də çox yüksək idi. Demək olar ki, Azərbaycan xalqının, Azərbaycan xalqına xas olan bütün xüsusiyyətləri özündə əks etdirirdi. Müdriklik, mərdlik, güclü iradə, cəsarət – Azərbaycan xalqına xas olan bütün bu keyfiyyətlər Heydər Əliyevdə var idi.

İki il bundan əvvəl, 2003-cü il aprelin 21-də o, sarayda gələcək zabitlər qarşısında çıxış edərkən səhhəti pisləşəndə özündə güc tapıb iki dəfə yenidən kürsüyə qayıtmışdı. O, həmin gün səhnədə yıxılmadı, ucaldı. O, bir liderlik nümunəsi idi. Dəmir iradə nümunəsi idi. Heydər Əliyev o səhnəni qalib kimi, qəhrəman kimi tərk etdi. Salonda oturanlara əl elədi və səhnəni tərk etdi.

O, həmişə qalib gəlirdi. Heç kim və heç nə onu məğlub edə bilmədi. Qalib kimi yaşadı, öz xalqına xidmət etdi, qalib kimi də dünyadan getdi. Bizim vəzifəmiz, bizim borcumuz ondan ibarətdir ki, bu siyasəti davam etdi-

rək. Prezident seçkiləri ərəfəsində və ondan sonrakı dövrdə bəyan etmişəm ki, mən bu yoldan dönməyəcəyəm, bu siyasətə sadiq olacağam və Azərbaycan xalqının dəstəyi ilə biz bu siyasəti bundan sonra da həyata keçirəcəyik. Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir, insanlarımız ildən-ilə daha da yaxşı yaşayacaqlar. Azərbaycan dünyadakı mövqelərini daha da inamla möhkəmləndirəcəkdir. Biz öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən azad edəcəyik.

Sülh yolu artıq 10 il davam edir. Amma biz ordumuzu da gücləndirməliyik. Bilirsiniz ki, orduya ayrılan xərclər ildən-ilə artır. Ordumuz bu gün istənilən vəzifəni yerinə yetirməyə qadirdir. Heydər Əliyevin siyasətini həm iqtisadi islahatların aparılmasında, həm də xarici siyasətin aparılmasında və bütün başqa sahələrdə davam etdirəcəyik. Əlbəttə ki, onun sadiq olduğu azərbaycançılıq ideologiyasını biz bundan sonra da həyata keçirəcəyik.

Heydər Əliyev bizim aramızda deyildir. Amma onun siyasəti yaşayır, onun ideyaları yaşayır. Onun yaratdığı, qurduğu müstəqil Azərbaycan yaşayır və bundan sonra da yaşayacaqdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

***10 may 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YAZIÇI ELÇİNƏ "İSTİQLAL" ORDENİ VƏ "XALQ YAZIÇISI" FƏXRİ ADININ VƏSİQƏSİNİ TƏQDİM ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Sarayında yazıçı Elçinə "İstiqlal" ordeni və "Xalq yazıçısı" fəxri adının vəsiqəsini və nişanını təqdim etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev 2003-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin yazıçı Elçini Azərbaycanın yüksək mükafatı – "İstiqlal" ordeni ilə təltif etdiyini, 1998-ci ildə isə ona "Xalq yazıçısı" fəxri adı verildiyini xatırlatdı.

Prezident İlham Əliyev ad günü və həmin mükafatları alması münasibətilə yazıçını təbrik edərək dedi ki, siz uzun illər Heydər Əliyevlə birlikdə yüksək vəzifədə işləmisiniz. Bilirsiniz ki, onun sizə münasibəti çox müsbət olubdur, böyük hörmətlə yanaşırdı. Artıq bir ildən çoxdur ki, biz birlikdə işləyirik. Mən də birgə fəaliyyətimizdən çox razıyam. Həm hökumətdə, həm də ictimai həyatda sizin böyük rolunuz vardır. Bu gün böyük məmnuniyyətlə yüksək mükafatları sizə təqdim etmək istəyirəm. Azərbaycan Prezidentinə dərin təşəkkürünü bildirən yazıçı Elçin bildirdi ki, ötən əsrin 60-cı illərinin nəsli, – yalnız ədəbiyyatda yox, musiqidə də, sənətdə də, rəngkarlıqda da, kinoda da, – əslində, Heydər Əliyev məktəbinin nümayəndələri idi. Heydər Əliyev məktəbi həqiqi sənət nümunələrinin yarandığı bir dövrdür. O, ədəbiyyatın, sənətin qədrini bilən insan idi. Nə üçün?! Ona görə ki, xalqın marağı ilə nəfəs alırdı. O, hamıdan yaxşı bilirdi ki, sənət nə deməkdir, sənət xalqa xidmət etməkdir. Əgər sən yaxşı bir əsər ortaya qoyursansa, bu, xalqa xidmətdir. Güman edirəm, inanıram və bilirəm ki, onun ruhu çox şaddır. Ona görə ki, bu münasibət Sizin simanızda davam edir. Həm şəxsi münasibət, həm də ədəbiyyata, sənətə, mədəniyyətə münasibət davam etdirilir. Sizə bir daha təşəkkür edir, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sonra Prezident İlham Əliyev "İstiqlal" ordeni və "Xalq yazıçısı" fəxri adının vəsiqəsini və nişanını yazıçı Elçinə təqdim etdi.

***13 may 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ YAZİÇISI MAQSUD İBRAHİMBƏYOVA "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Sarayında Xalq yazıçısı Maqsud İbrahimbəyova "İstiqlal" ordeni təqdim etmişdir.

Prezident İlham Əliyev xalq yazıçısı, Milli Məclisin deputatı Maqsud İbrahimbəyovu 70 illik yubileyi münasibətilə təbrik etdi, Azərbaycan ədəbiyyatında onun rolunu, ictimai-siyasi fəaliyyətini yüksək qiymətləndirərək dedi ki, sizin böyük ictimai fəaliyyətiniz var. Eyni zamanda, cəmiyyətimizi narahat edən məsələlərə də özünəməxsus tərzdə həmişə münasibət bildirirsiniz. Bu da çox vacibdir. Siz cəmiyyətimizin çox fəal üzvüsünüz. Biz hamımız sizi sevirik və böyük hörmət bəsləyirik. Arzu edirəm ki, bu fəaliyyəti bundan sonra da davam etdirəsiniz və xalqımıza ləyaqətlə xidmət edəsiniz.

Dövlətimizin başçısı İlham Əliyev "İstiqlal" ordenini xalq yazıçısına təqdim etdi. Maqsud İbrahimbəyov dövlətimizin başçısına təşəkkür edərək dedi ki, hörmətli cənab Prezident, bu gün mənə təqdim etdiyiniz "İstiqlal" ordenini ən yüksək mükafat kimi qəbul edirəm. Çox sağ olun. Sizə dərin minnətdarlığımı bildirirəm.

***13 may 2005-ci il***

## XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVUN 70 İLLİK YUBİLEYİ QEYD OLUNMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDIR

"Gülüstan" sarayında xalq yazıçısı, Milli Məclisin deputatı Maqsud İbrahimbəyovun anadan olmasının 70 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Prezident İlham Əliyev mərasimdə çıxış edərək, xalq yazıçısı Maqsud İbrahimbəyovu 70 illik yubileyi münasibətilə təbrik etdi, onun ölkəmizin ictimai-siyasi həyatındakı fəaliyyətini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı yazıçının Azərbaycan ədəbiyyatında özünəməxsus dəst-xətti olduğunu, əsərlərinin respublikamızın tanınmasında mühüm rol oynadığını vurğuladı, ona yeni yaradıcılıq uğurları arzuladı. Mərasimdə ölkəmizin ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri, respublika ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

***14 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GORANBOYA SƏFƏRİ RƏSM QALEREYASI İLƏ TANIŞLIQ

Prezident İlham Əliyev rayonun rəsm qalereyası ilə tanış oldu, burada saxlanılan yüzlərlə əl işinə, o cümlədən məktəbli Kəmalə Qasımovanın ötən il Səttar Bəhlulzadə adına sərgi salonunda nümayiş etdirilən əsərlərindən ibarət sərgiyə baxdı.

Dövlətimizin başçısına məlumat verildi ki, uşaq və gənclərdə rəssamlığa böyük həvəs var, respublika miqyaslı müsabiqələrdə yer tuturlar. Onların rəngkarlıq, qrafika, portret və digər janrlarda çəkdikləri rəsmlər maraq doğurur. Burada yeniyetmələrə tikiş və toxuma sənəti də öyrədilir.

Prezident İlham Əliyev gənclərin yaradıcılığını yüksək qiymətləndirdi, nümayiş etdirilən əsərlərin onda xoş təəssürat yaratdığını bildirərək dedi ki, Azərbaycanda istedadlı gənclərə həmişə qayğı göstəriləcəkdir.

***19 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏYƏ SƏFƏRİ DEKORATİV-TƏTBİQİ SƏNƏT MƏRKƏZİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədəki dekorativ-tətbiqi sənət mərkəzində də oldu, XII əsrə aid müxtəlif eksponatlara, yerli ustaların burada hazırladıqları sənət nümunələrinə baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, mərkəz qədim el sənətini yaşadır, keçmişin nümunələrini bərpa edib gələcək nəsillərə çatdırır.

Mərkəzin direktoru Qalib Bağırov dövlətimizin başçısına suvenir xəncər təqdim edərək, balaca Heydərə çatdırmağı xahiş etdi.

***19 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏYƏ SƏFƏRİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ-MUZEY KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Gəncənin baş meydanında ümummilli liderimiz Heydər Əliyevin abidə-muzey kompleksinin tikintisi ilə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, tikinti işləri hələ davam edir. 3 hektar sahəni əhatə edən meydanın hələlik bir hissəsində yenidənqurma işləri aparılmışdır. Təsdiq olunmuş layihəyə əsasən burada ulu öndərin 4 metrlik postament üzərində 7 metr hündürlüyündə heykəli ucaldılacaqdır. Abidənin müəllifi tanınmış heykəltəraş Şərif Şərifovdur. Kompleksdə dahi şəxsiyyətin ömür yolundan bəhs edən muzey yaradılmışdır.

Prezident İlham Əliyev muzeydə ulu öndərin həyatının bütün dövrlərini, siyasi fəaliyyətini, respublikamıza və xarici ölkələrə səfərlərini əks etdirən şəkillərə baxdı.

*19 may 2005-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN P.İ.ÇAYKOVSKİ ADINA DÖVLƏT AKADEMİK BÖYÜK SİMFONİK ORKESTRİNİN BƏDİİ RƏHBƏRİ VƏ BAŞ DİRİJORU VLADİMİR FEDOSEYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Simfonik orkestrin Bakıda konsertinin böyük uğurla keçdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında humanitar sahədə, o cümlədən mədəniyyət, incəsənət sahəsində əlaqələrin yüksək səviyyədə olduğunu nəzərə çarpdırdı.

Prezident İlham Əliyev bu il Rusiyada Azərbaycan ilinin, gələn il isə Azərbaycanda Rusiya ilinin keçirilməsini ölkələrimizin əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Vladimir Fedoseyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Moskvada, Bakıda görüşlərini həmişə böyük məmnunluqla xatırladığını bildirdi, O, bu dahi şəxsiyyətin onun konsertlərində iştirak etməsindən həmişə böyük şərəf duyduğunu vurğuladı.

Azərbaycanda ona və rəhbərlik etdiyi orkestrin üzvlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən qonaq ölkəmizdə musiqinin inkişafı üçün çox gözəl şərait yaradıldığını söylədi.

***20 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GORANBOYA SƏFƏRİ TARİX MUZEYİNƏ BAXIŞ

İcra hakimiyyətinin başçısı Novruz Novruzov ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 82-ci ildönümü günlərində açılmış və 3 minədək eksponatı olan muzeyin yaradılmasına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisini aparan Beynəlxalq Əməliyyat Şirkətinin maliyyə dəstəyini razılıqla vurğuladı.

Muzeyin əməkdaşları dövlətimizin başçısına burada toplanmış materiallar barədə ətraflı məlumat verdilər, ulu öndər Heydər Əliyevin tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə daim böyük qayğı göstərdiyini vurğuladılar. Bu baxımdan rayonlarda tarix-diyarşünaslıq muzeylərinin fəaliyyət göstərməsi çox əhəmiyyətlidir.

Prezident İlham Əliyev muzeyin qədim eksponatlarına, o cümlədən arxeoloji qazıntılar zamanı tapılmış əşyalara, habelə müasir dövrümüzə, ümummilli liderimiz Heydər Əliyevin Goranboya, xarici ölkələrə səfərlərinə aid guşələrə baxdı.

***21 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU DOKTOR ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Sarayında İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycrini qəbul etmişdir.

Azərbaycanın bu təşkilatla yaxşı əməkdaşlıq etdiyini bildirən dövlətimizin başçısı İlham Əliyev doktor Əbdüləziz bin Osman Əl-Tuveycrinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərə gəlməsini elm, təhsil və mədəniyyət sahəsində fikir mübadiləsi aparılması, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həmçinin birgə proqramların həyata keçirilməsində mühüm rol oynayacağını vurğuladı.

Azərbaycanda təhsilin, elmin, mədəniyyətin inkişafına böyük əhəmiyyət verildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev bu sahələrdə ölkəmizə göstərdiyi köməyə görə təşkilata minnətdarlığını bildirdi.

Səudiyyə Ərəbistanına səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı orada Kralla və yüksək vəzifəli digər rəsmi şəxslərlə keçirdiyi görüşlərin, apardığı danışıqların ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət göstərdiyini vurğuladı.

Cənab Əbdüləziz bin Osman Əl-Tuveycri mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verildiyi günlərdə və 28 May – Respublika Günü ərəfəsində Prezident İlham Əliyev ilə görüşməyindən şərəf duyduğunu bildirdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ehtiramla ziyarət etdiyini söylədi.

Qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən elm, təhsil və mədəniyyət sahəsində böyük inkişafın şahidi olduğunu bildirdi, Ölkənin sürətli inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olduğunu söyləyən cənab Əbdüləziz bin Osman Əl-Tuveycri Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğuladı.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq dövlətimizin başçısının Səudiyyə Ərəbistanına səfə-

rinin bu əlaqələrin daha da inkişaf etməsi işində böyük rol oynadığını bildirdi.

Doktor Əbdüləziz bin Osman Əl-Tuyeycri Azərbaycan Prezidenti İlham Əliyevə İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatına – İSESCO-ya göstərdiyi köməyə görə bu təşkilatın baş mükafatını təqdim etdi.

***27 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ATATÜRK KÜLTÜR, DİL VƏ TARİX YÜKSƏK QURUMUNUN SƏDRİ SADIQ KAMAL TURALI VƏ ATATÜRK ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ MEHMET SARAYI QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı "Erməni iddiaları və Azərbaycan gerçəkliyi" mövzusunda Bakıda keçirilən ikinci beynəlxalq simpoziumu yüksək dəyərləndirdi. On illərdən bəri Azərbaycan və Türkiyə dövlətlərinin ermənilərin siyasi və ideoloji təxribatları və əsassız ərazi iddialan ilə üz-üzə qaldığını nəzərə çarpdıran Prezident İlham Əliyev bildirdi ki, yalnız birgə əməkdaşlıq əlaqələrimizi gücləndirməklə, yüzillik mənfur təcrübəyə malik erməni təbliğatının və qərəzli türk düşmənçiliyinin qarşısını ala və dünyanı öz haqq işimizə inandıra bilərik. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu simpozium erməni-türk münasibətlərini obyektiv araşdırmalara cəlb etməklə bu münasibətlərin əsil mahiyyətinin açılmasında öz sanballı sözünü deyəcək, eyni zamanda, uydurma Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, "erməni soyqırımı" barədə elmi-tarixi gerçəkliyin dünya ictimaiyyətinə çatdırılması işində ciddi dönüş yaradacaqdır.

Belə tədbirlərin gələcəkdə daha geniş məkanda keçirilməsinin vacibliyini vurğulayan Prezident İlham Əliyev Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinə başçılıq etdiyi zaman və bundan sonra da beynəlxalq təşkilatların tədbirlərindəki çıxışlarında bu məsələlərə daim xüsusi diqqət yetirdiyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı bir daha vurğuladı ki, bizim işimiz haqq işidir və bunun bütün dünyada yayılması, təbliğ olunması çox vacibdir.

Azərbaycanda Atatürk Mərkəzinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmasından məmnunluqla söhbət açan professor Mehmet Saray dedi ki, ulu öndər Heydər Əliyev Azərbaycan və bütövlükdə türk dünyası haqqında həqiqətlərin beynəlxalq aləmdə yayılması və təbliğ olunması işinə daim böyük önəm verirdi. Türk dünyası qarşısında Atatürkün və Heydər Əliyevin böyük xidmətlər göstərdiyini, onların ideyalarının təbliği və yayılmasının vacibliyini vurğulayan qonaq dedi ki, ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" ideyası xalqlarımızı daha da sıx birləşdirir. Mehmet Saray bildirdi ki, Prezident İlham Əliyev hazırda bu siyasəti uğurla davam etdirir, xarici ölkələrə bütün səfərləri zamanı Azərbaycan və türk

dünyası haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırır və bu, türk dünyasında böyük maraqla qarşılanır.

Professor Sadiq Kamal Tural türk dünyasının böyük şəxsiyyəti Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində yaradılmış Azərbaycanda Atatürk Mərkəzinin yüksək səviyyədə fəaliyyət göstərdiyini bildirdi, onun türkdilli xalqların birliyinə daim xüsusi diqqət yetirməsindən məmnunluqla bəhs etdi. O dedi ki, Heydər Əliyev Atatürk Araşdırmalar Mərkəzi və digər qurumlarla əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdi və indi biz bunun müsbət nəticələrini görürük. Qonaq Azərbaycanda bu sahədə əlaqələrin genişlənməsi üçün yaradılmış gözəl şəraitə görə Prezident İlham Əliyevə dərin minnətdarlığım bildirdi.

***30 may 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYAYA RƏSMİ SƏFƏRİ ZAQREB ŞƏHƏRİNİN TARİX-MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

Xorvatiya Respublikasının paytaxtı Zaqrebin görməli yerlərini gəzmiş, tarix-mədəniyyət abidələri ilə tanış olmuşlar. Prezident İlham Əliyevə məlumat verildi ki, tarixi mənbələrdə şəhərin adı ilk dəfə 1094-cü ildə yepiskopluğun mərkəzi kimi çəkilir. Şəhərin indiyədək qalan qala divarları 1226-cı ildə inşa edilmişdir. Dövlətimizin başçısı “Daş qapı” adlanan yerə gəldi. 1760-cı ildə tikilmiş bu kompleksdə şəhər sakinləri “böyük yanğın” zamanı Zaqrebi xilas etmiş qadının xatirəsinə şamlar yandırırlar.”

Sonra Azərbaycan Prezidenti və xanımı Zaqreb yepiskopluğunun əsaslı bərpa işləri aparılan binasına gəldilər. 1217-ci ildə tikilmiş bu kompleks 1242-ci ildə monqol-tatar qoşunları tərəfindən dağıdılmış, 1284-cü ildə isə qotika üslubunda yenidən bərpa edilmişdir. Binanın bir hissəsi 1880-ci ildə zəlzələ nəticəsində dağılsa da, 1902-ci ildə hazırkı görkəmində bərpa olunmuşdur. On bir hissədən ibarət kompleksdə orqan salonu olan kilsə, mehrab və onun arxasında apostolların, yepiskopların və qəhrəmanların şəkilləri vardır. Pəncərələrdəki rəngli mozaikalar 1847-ci ildə Münxendən gətirilmişdir.

Prezident İlham Əliyev və Mehriban xanım şəhərin qədim hissəsindəki digər abidələrə də tamaşa etdilər və mərkəzi meydanda Zaqreb sakinləri ilə birgə çay içdilər.

***11 iyun 2005-ci il***

# SANKT-PETERBURQDA ÜMUMMİLLİ LIDER HEYDƏR ƏLİYEVIN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞI AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Əziz dostlar!

Bu gün çox əlamətdar gündür. Bu gün gözəl Peterburq şəhərində Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin xatirə lövhəsi açılır. Bu, çox əlamətdar hadisə, çox mühüm hadisədir. Bu, bir tərəfdən, Heydər Əliyevin xatirəsinə ehtiram əlamətidir. Digər tərəfdən isə onun xidmətlərinə göstərilən ehtiramdır. Bu həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin bundan sonra da və daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Heydər Əliyev Azərbaycan xalqının görkəmli lideridir. Yaşadığı və Azərbaycana rəhbərlik etdiyi dövrdə ictimai-siyasi formasiyadan asılı olmayaraq, o, respublikanın möhkəmlənməsi, siyasi sistemdə öz mexanizmlərini təkmilləşdirməsi, iqtisadi cəhətdən inkişaf etməsi üçün hər şey etmişdir, hər şey edirdi ki, Azərbaycan xalqı daha yaxşı yaşasın. Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə də, müstəqil Azərbaycanın Prezidenti olduğu dövrdə də bütün həyatını öz xalqına xidmətə həsr etmişdi.

Heydər Əliyevin həyatının bir çox illəri Rusiya, Peterburq, Moskva ilə bağlı olmuşdur. O, gənclik illərində Peterburqda oxumuşdur və bu şəhər haqqında həmişə böyük səmimiyyətlə danışırdı. Yadımdadır, bu söhbətlər çox olmuşdur. O, həmin illəri xatırlayaraq, Peterburqdan, o vaxtkı Leninqraddan, öz dostlarından, burada birlikdə oxuduğu və ünsiyyətdə olduğu insanlardan həmişə böyük məhəbbətlə, səmimiyyətlə söhbət açırdı.

Xatirimdədir, mən o vaxt Leninqrada gələrkən mənə həmişə deyərdi: Qoroxovaya küçəsinə get, mənim oxuduğum binaya bax. Yadımdadır, mən buraya gələrkən bu binanın qarşısında şəkil çəkdirir, sonra bu şəkilləri gətirib ona göstərirdim. Bütün bunlar Heydər Əliyevin Peterburqa ömrünün sonunadək bəslədiyi dərin şəxsi hissləri nümayiş etdirirdi. O, artıq Azərbaycanın Prezidenti olduğu dövrdə bu şəhərə dəfələrlə gəlmişdi və ona həmişə məhəbbətlə yanaşırdı.

Bu gün Azərbaycan və Rusiya öz münasibətlərində keyfiyyətcə tamam yeni bir mərhələni – strateji tərəfdaşlıq, dostluq, iqtisadi münasibətlərin fəal inkişafı dövrünü yaşayırlar. Bu yeni mərhələnin bünövrəsini iki Prezident – Prezident Putin və Prezident Heydər Əliyev qoymuşlar. Məhz onların səyləri sayəsində 2000-ci ilin əvvəllərindən başlayaraq, ölkələrimiz

arasında münasibətlər yeni mərhələyə çıxdı və indi çox fəal inkişaf edir və möhkəmlənir. Vladimir Vladimiroviç Putinlə mənim bugünkü görüşüm və forumda iştirakım buna daha bir əyani sübutdur.

Heydər Əliyev tərəfindən Azərbaycanda əsası qoyulan ənənələr yaşayır, onun siyasəti bütün istiqamətlərdə, o cümlədən Rusiya ilə ikitərəfli münasibətlərimizdə davam etdirilir. Biz çox məmnunuq ki, bu münasibətlər qarşılıqlı etimad, hörmət və qarşılıqlı dəstək əsasında qurulur.

Heydər Əliyev Azərbaycan üçün ən çətin anda, 1993-cü ildə xalqın iradəsi ilə respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycanın gələcəyi böyük sual altında idi. Ölkəni daxili ziddiyyətlər, vətəndaş müharibəsi didib-dağıdırdı, qan tökülürdü, ucdantutma qarmaqarışıqlıq və tam iqtisadi tənəzzül hökm sürürdü. Onun rəhbərliyinin 10 ili ərzində Azərbaycan siyasi və iqtisadi cəhətdən tam tənəzzülə uğramış ölkədən indi regionun dinamik inkişaf edən dövlətinə çevrilmişdir. İndi Azərbaycan həm iqtisadi inkişaf sürətinə, həm sənaye məhsulu istehsalının artımına, həm bazar iqtisadiyyatı əsaslarının inkişaf sürətinə, həm də yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması, inteqrasiya proseslərinin sürətinə görə, habelə adambaşına düşən sərmayələrin həcminə görə regionda və postsovet məkanında qabaqcıl yerlərdən birini tutur.

Bax, liderin gücü budur, xalqın tarixində liderin rolu budur. Ən ağır dövrdə, əslində, ümidsiz bir vəziyyətdə ölkəni böhrandan çıxarmaq, ayağa qaldırmaq və sabit inkişafa nail olmaq deməkdir! Bu gün biz, Azərbaycan vətəndaşları, onun ardıcılları bütün bunların hamısına malikik, vəzifəmiz də ölkəmizin bütün istiqamətlərdə firavan yaşaması və tərəqqisi üçün bu siyasəti inkişaf etdirməkdən və möhkəmlətməkdən ibarətdir.

Əlbəttə ki, Rusiya ilə münasibətlər gələcəkdə də bizim üçün çox mühüm rol oynayacaqdır. Ümidvarıq ki, bu münasibətlər çox fəal inkişaf etdiriləcək və möhkəmləndiriləcəkdir. Əlbəttə ki, Bakı ilə Sankt-Peterburq arasında münasibətlər də. Tarixən bu münasibətlər həmişə yaxın, səmimi olmuşdur və bu gün də belədir. Heydər Əliyevin xatirəsinə bu lövhənin açılması da dostluğumuza daha bir sübutdur. Bu, həm Prezidentimizin xatirəsinə hörmət, həm onun xidmətlərinin qiymətləndirilməsi və həm də sadəcə, Peterburq hökumətinin çox insani bir təşəbbüsüdür. Azərbaycan xalqı bunu qiymətləndirir və həmişə xatırlayacaqdır.

Bu xatirə lövhəsinin açılışına görə şəhərin rəhbərliyinə bir daha təşəkkürümü ifadə edir və əmin olduğumu bildirmək istəyirəm ki, bizim münasibətlərimiz əbədi olaraq bu zəmində qurulacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

***15 iyun 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QUBA ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

7 hektar ərazini əhatə edən Heydər Əliyev parkında yaradılmış muzeydə ulu öndərin 1970-80 ci illərdə və 1998-ci ildə Qubaya səfərlərini əks etdirən, o cümlədən ümummilli liderimizin özünün təşəbbüsü ilə salınmış palmet meyvə bağları ilə tanışlıq zamanı, habelə ailəvi çəkilmiş fotoşəkillər nümayiş olunur.

Muzeyin direktoru Elza Orucova bildirdi ki, Prezident İlham Əliyevin 2003-cü ildə Qubada Olimpiya İdman Kompleksinin açılışında iştirakı qubalıların xatirəsində əbədi qalmışdır.

Dövlətimizin başçısı muzeyin "Sülhə aparan yollar", "Məkkəni ziyarət", "Avropa Şurası və Azərbaycan", "Dostluq sərhədləri aşır" guşələri ilə maraqla tanış oldu.

Prezident İlham Əliyevə muzeylə tanışlıqdan xatirə olaraq albom təqdim edildi.

Dövlətimizin başçısı muzeyin xatirə kitabına öz ürək sözlərini yazdı:

"Heydər Əliyev muzeyinin ekspozisiyası ilə tanış oldum. Xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti burada nümayiş etdirilən şəkillərdə əks olunur.

Heydər Əliyev müxtəlif dövrlərdə Qubada dəfələrlə olmuş və çoxsaylı görüşlər keçirmişdir. Azərbaycanın qədim şəhəri olan Qubaya və qubalılara həmişə böyük diqqət göstərirdi. Heydər Əliyevin siyasəti bu gün də yaşayır və əbədi yaşayacaqdır. İlham ƏLİYEV. Azərbaycan Respublikasının Prezidenti. 25 iyul 2005-ci il."

***25 iyul 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ REGİONAL TURİZM İNFORMASİYA MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Gənclər, idman və turizm naziri Əbülfəz Qarayev dövlətimizin başçısına məlumat verdi ki, mərkəzin əsas məqsədi regionda daxili turizmin inkişaf etdirilməsi, yerli və xarici turistlərin bölgəyə cəlb olunmasıdır. Onun fəaliyyəti nəticəsində ölkəmizin bu regionunun turizm potensialı haqqında bütün məlumatları dünyanın hər bir nöqtəsinə çatdırmaq mümkün olacaqdır. Son dörd ildə 30-a qədər belə mərkəz yaradılmışdır. İndi Xaçmaz rayonunda yataq yerləri ilə təmin olunmaqla eyni vaxtda 5 mindən artıq turisti qəbul etmək imkanı vardır.

Bildirildi ki, burada treninq kursları, seminarlar keçirilməsi nəzərdə tutulur. Xüsusi sayt vasitəsilə dünyanın hər bir yerindən insanlar Xaçmazın istənilən yerində özlərinə əvvəlcədən yer sifariş verə və kirayə edə bilərlər.

Prezident İlham Əliyev ölkəmizdə turizmin inkişafı üçün mühüm layihələrin həyata keçirilməsinin, infrastruktur yaradılmasının vacibliyini diqqətə çatdırdı və dedi ki, bizim gözəl təbiətimiz, səfalı yerlərimiz var və bundan səmərəli istifadə olunmalıdır.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, məlumat, təlim, kompüter otaqlarına, konfrans salonuna baxdı, yaradılmış iş şəraiti, habelə ölkəmizdə turizmə dair çap olunmuş broşürlərlə tanış oldu.

Prezident İlham Əliyev mərasimdə iştirak edən BMT-nin rezident-əlaqələndiricisi Marko Borsotti ilə görüşdü, Azərbaycanda yoxsulluğun azaldılması istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər barədə söhbət etdi.

***26 iyul 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVIN QUSARA SƏFƏRİ HEYDƏR ƏLİYEV BAĞI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev sonra Qusar rayonunun mərkəzindəki Heydər Əliyev bağına gəldi. Burada dövlətimizin başçısını minlərlə sakin böyük hörmət və ehtiramla qarşıladı. Prezidentə və xanımına gül dəstələri təqdim olundu.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin bağda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.

Dövlətimizin başçısı bağda nümayiş etdirilən Qusar rayonunun qədim xalçaçılıq sənəti nümunələri, məişət əşyaları ilə yaxından tanış oldu, təndir çörəyindən daddı. Qusarın milli rəqs, folklor ansamblı, özfəaliyyət kollektivi üzvlərinin çıxışlarına tamaşa etdi və onlara uğurlar arzuladı.

***28 iyul 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVIN QUSARA SƏFƏRİ HEYDƏR ƏLİYEV GUŞƏSİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev daha ümummilli liderimizin xatirəsinə yaradılmış Heydər Əliyev guşəsi ilə tanış oldu.

Burada ulu öndərimizin Azərbaycan qarşısında tarixi xidmətlərini, xarici ölkələrə səfərlərini, dünyanın aparıcı dövlətlərinin başçıları ilə görüşlərini, Qusar rayonunda olmasını əks etdirən fotoşəkillər nümayiş olunur. Ulu öndərimizin həyat və fəaliyyətinə həsr olunmuş dəyərli kitablar, Prezident İlham Əliyevin siyasi fəaliyyətindən bəhs edən fotoşəkillər də böyük maraq doğurur.

Prezident İlham Əliyev guşənin xatirə kitabına öz ürək sözlərini yazdı:

"Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyətini əks etdirən fotoşəkillər, kitablar, başqa sənədlər Heydər Əliyevin xalqa nə qədər bağlılığını göstərir. Heydər Əliyevin tarixi irsinin öyrənilməsi və tədqiqi gələcək nəsillərin tərbiyə olunmasında çox mühüm rol oynayır. Heydər Əliyev Qusara və qusarlılara həmişə böyük diqqət və qayğı göstərirdi. Mən də çalışıram ki, Qusar rayonunda yaşayan insanların həyatı, güzəranı yaxşılaşsın, burada yaşayan bacı-qardaşlarım bundan sonra da rahat, firavan yaşasınlar. Qusarlılara öz dərin hörmət və məhəbbətimi ifadə edirəm. İlham ƏLİYEV. Azərbaycan Respublikasının Prezidenti. 28 iyul 2005-ci il. Qusar şəhəri"

***28 iyul 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAŞ RAYONUNA SƏFƏRİ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev rayon mərkəzindəki istirahət guşəsinə – ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəldi. Yolboyu və parkda minlərlə sakin dövlətimizin başçısını böyük hörmət və ehtiramla salamladı.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstələri qoydular. Bu əzəmətli abidə, parkdakı səliqə-sahman, istirahət üçün yaradılmış şərait yüksək qiymətləndirildi.

Prezident İlham Əliyev parka toplaşanlarla səmimiyyətlə görüşdü, ona göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Sakinlər dövlətimizin başçısına və ailə üzvlərinə ən xoş arzularım çatdırdılar, onun rəhbərliyi altında aparılan işlərin xalqımız tərəfindən böyük rəğbətlə qarşılandığını, ümummilli liderimizin siyasətinin inamla davam etdirilməsindən məmnunluqlarını vurğuladılar.

Dövlətimizin başçısı və ailə üzvləri rayon özfəaliyyət kollektivinin çıxışına qulaq asdılar, balaca rəssamların əl işlərindən ibarət sərgiyə baxdılar. Rəssam Məlahət İsmayılqızı respublika və rayon üzrə keçirilən müsabiqələrdə uşaqların uğur qazandıqlarını, mükafata layiq görüldüklərini söylədi, istedadlı uşaqların inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçına və onun xanımına təşəkkürünü bildirdi, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya rəsm əsəri hədiyyə etdi.

***7 iyul 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QUBA ŞƏHƏRİNDƏ "QƏDİM QUBA" ÖZƏL XALÇAÇILIQ MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN YENİ İSTEHSAL SEXİ İLƏ TANIŞ OLMUŞDUR

Cəmiyyətin sədri Humay Məmmədova dövlətimizin başçısını və xanımını səmimiyyətlə salamlayaraq dedi ki, cənab Prezident, bizim müəssisəmizi ikinci dəfə ziyarət etdiyiniz üçün Sizə təşəkkür edirik. Məhz Sizin tapşırığınızla keçən il bizə 150 min dollar məbləğində kredit ayrılmışdı. Həmin vəsaitin bir hissəsinin hesabına bu yeni sex yaradılmışdır. Burada hazırda 18 nəfər işçi çalışır. Kreditdən maksimum səmərəli istifadə olunması üçün başqa yeni sahələrin də açılması nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev sexdə quraşdırılmış müasir avadanlıqla tanış oldu, istehsal prosesini izlədi və görülən işləri yüksək qiymətləndirdi.

Sonra dövlətimizin başçısı cəmiyyətin satış-sərgi mərkəzi ilə də tanış oldu. Cəmiyyətin sədri dedi ki, əsasən xarici qonaqlar, turistlər, habelə camaat bizim xalçalarımıza böyük maraq göstərirlər. Məhsulumuza xaricdə də böyük tələbat vardır. Lakin xarici bazarda böyük tələbat olsa da, dünya bazarına məhsul çıxara bilmirik. Gömrüklə bağlı problemlər mövcuddur. Əgər bunlar həll olunarsa, işçilərin sayını maksimum səviyyədə artırmaq və müəssisənin fəaliyyətini genişləndirmək mümkündür. Əvvəllər "Azərxalça"nın tərkibində fəaliyyət göstərəndə belə problemlər olmurdu. Amma indi bu problemlər mövcuddur və bunun həlli üçün Sizin köməyinizə ehtiyac vardır.

Sonra Humay Məmmədova rayonda çətin xalçaçı peşəsi sahiblərinə göstərilən qayğını xüsusi vurğuladı.

Prezident İlham Əliyev xalçaçılığın genişləndirilməsinin vacibliyini bildirərək dedi ki, bir halda ki, sizin işlərinizin nəticəsi var, bundan sonra da hər cür kömək göstəriləcəkdir. Mən çox sevinirəm ki, verilən kredit bir il ərzində öz nəticəsini göstərir. Yeni iş yerlərinin açılması, müəssisənin genişlənməsi buna sübutdur. Əlavə kömək də edilməlidir ki, fəaliyyətiniz daha da genişlənsin. Məhsullarınız xaricdə də bəyənilir. Qaldırılan problem də aradan götürüləcəkdir.

Prezident İlham Əliyevə xatirə olaraq, müəssisədə toxunulmuş xalça hədiyyə edildi.

***25 iyul 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XAÇMAZA SƏFƏRİ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Xaçmazda ümummilli lider Heydər Əliyevin xatirəsinə yaradılmış muzeylə tanış olmuşdur.

Heydər Əliyev parkında müasir tələblərə uyğun yaradılmış və bu il mayın 10-da istifadəyə verilmiş muzey altı guşədən ibarətdir. Burada ulu öndərin ailəvi şəkilləri, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən respublikada kənd təsərrüfatının, sənayenin inkişafı üçün gördüyü işlərə dair fotoşəkillər, habelə Xaçmaz rayonuna səfərini, Xudat konserv zavodunun əməkçiləri ilə görüşünü, Nabran-Yalama zonasının ümumittifaq kurort zonasına çevirmək məqsədi ilə 1982-ci ildə rayona növbəti səfərini, müstəqil Azərbaycanın Prezidenti kimi 1998-ci ildə Xaçmazda olmasını, dünyanın aparıcı dövlətlərinin başçıları ilə görüşlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Ulu öndərimizin həyat və fəaliyyətinə həsr olunmuş kitablardan, dövlətimizin başçısı İlham Əliyevin 2003-2004-cü illərdə rayona səfərləri zamanı çəkilmiş fotoşəkillərdən ibarət guşələr də diqqəti cəlb edir.

Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə maraqla tanış oldu, xatirə kitabına öz ürək sözlərini yazdı:

"Heydər Əliyev muzeyinin ekspozisiyası ilə tanış oldum. Muzeydə Heydər Əliyevin həyat və fəaliyyəti fotoşəkillərdə və başqa eksponatlarda əks olunur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi irsinin öyrənilməsi və tədqiqi gələcək nəsillərin tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Xalqa sədaqətlə xidmət etmək, onun qayğıları ilə yaşamaq, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək Heydər Əliyevin fəaliyyətinin əsas prinsipləri idi. Bu gün bu siyasət Azərbaycanda davam etdirilir və bundan sonra da əbədi yaşayacaqdır.

İlham ƏLİYEV Azərbaycan Respublikasının Prezidenti 25 iyul 2005-ci il".

Muzeydən xatirə olaraq Heydər Əliyev Fonduna muzeyin maketi və rəsm əsəri təqdim edildi.

Sonra Prezident İlham Əliyev muzeyin həyətində yerli rəssamların əsərlərindən ibarət sərgiyə baxdı. Beynəlxalq və respublika səviyyəli müsabiqələrdə mükafatlara layiq görülmüş müxtəlif janrlarda çəkilmiş bu əl işləri böyük maraq doğurdu.

***26 iyul 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XAÇMAZA SƏFƏRİ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Uşaq-Gənclər İdman Məktəbi ilə tanışlıqdan. sonra Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkına gəldi. Dövlətimizin başçısını və onun xanımını böyük hörmət və ehtiramla qarşılayan sakinlər Prezidentlə görüşüb səmimi söhbət etdilər. İlham Əliyev onların problemləri ilə maraqlandı, şikayətlərini dinlədi, ərizə və məktublarına baxılacağını bildirdi.

Sonra dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu, burada yaradılmış səliqə-sahmanı, görülmüş abadlıq və yaşıllaşdırma işlərini yüksək qiymətləndirdi. İnsanların asudə vaxtının səmərəli keçməsi üçün yaradılmış şəraitdən razı qaldığını vurğuladı.

***26 iyul 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTANLI YAZIÇI-TƏDQİQATÇI MURAD ACİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Sarayında dağıstanlı yazıçı-tədqiqatçı, türkdilli xalqların tarixinin araşdırıcısı Murad Acini qəbul etmişdir.

Dövlətimizin başçısı dedi ki, siz tarixi həqiqətlərin üzə çıxarılması üçün fəal yaradıcılıq işləri aparırsınız. Türk dünyasının qədim tarixi vardır, türkdilli ölkələrin əməkdaşlığının möhkəmlənməsi böyük əhəmiyyətə, potensiala malikdir. Müasir dövrdə bu ölkələrin siyasi, iqtisadi və mədəni əlaqələrinin genişlənməsi və möhkəmlənməsi böyük əhəmiyyət kəsb edir. Türkdilli xalqların müştərək tarixinin dərindən öyrənilməsi çox vacibdir.

Cənab Murad Aci bildirdi ki, Naxçıvan Muxtar Respublikasında Gəmiqayada aparılan axtarışların nəticələri bizim gözlədiyimizdən də ciddi oldu. Naxçıvan tədqiqatlar üçün çox mühüm və nadir bir yerdir. Bütün bunlar Azərbaycanın, Naxçıvanın türk dünyası tarixində önəmli yer tutduğunu göstərir.

O dedi ki, türk dünyası qədim tarixə malikdir. Geniş tədqiqatlar apardıqca türkdilli xalqların çox zəngin və qədim tarixə malik olduğu, dünyanın hər yerində türk tarixinin və mədəniyyətinin böyük izlər qoyduğu və bu günədək yaşadığı sübut olunur.

***8 avqust 2005-ci il***

## PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Bəxtiyar Vahabzadənin 80 illik yubileyi ilə əlaqədar ona telefonla zəng etmişdir.

Dövlətimizin başçısı çağdaş Azərbaycan poeziyasının inkişafında Bəxtiyar Vahabzadənin rolunu yüksək qiymətləndirərək, xalq şairinin əsərlərində azərbaycançılıq, millilik, vətəndaşlıq prinsiplərinin ana xətt təşkil etdiyini vurğulamışdır. Prezident İlham Əliyev Bəxtiyar Vahabzadəyə Azərbaycan ədəbiyyatının daha da inkişafı naminə gələcək fəaliyyətində yeni-yeni uğurlar, şəxsi həyatında möhkəm cansağlığı arzulamışdır.

Bəxtiyar Vahabzadə təbriklərə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirmiş, Azərbaycan Prezidentinin ədəbiyyatımızın inkişafına və onun yaradıcılığına göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirmişdir. O, öz yaradıcılığında daim Azərbaycan Prezidentinə arxalandığını vurğulayaraq, bundan sonra da bütün ömrünü Azərbaycan şeir sənətinin inkişafına həsr edəcəyini bildirmişdir.

***16 avqust 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ QƏBƏLƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİ VƏ TİKİLMƏKDƏ OLAN HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

Dövlətimizin başçısı İlham Əliyevi və Mehriban xanımı burada gül-çiçəklə qarşıladılar. Direktor Xalis Məmmədov məlumat verdi ki, tarix-diyarşünaslıq muzeyi və tikilməkdə olan Heydər Əliyev muzeyi eyni ərazidə yerləşir. Tarix-diyarşünaslıq muzeyi 1980-ci ilin mayından fəaliyyət göstərir. 2004-cü ilin aprelindən yeni binaya köçmüşdür. Fondda 12 mindən çox eksponat vardır. Bunların xeylisi nadir eksponatlardır. Muzey Qəbələnin 2500 illik tarixini əks etdirir. Burada ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin Qəbələyə səfərlərini əks etdirən fotoşəkillər də toplanmışdır.

Prezident İlham Əliyev Qafqaz Albaniyası dövrünə aid eksponatlarla maraqla tanış oldu, bunların böyük əhəmiyyəti olduğunu, Azərbaycanın qədim tarixə malik olmasını sübut etdiyini vurğu-ladı.

Dövlətimizin başçısı Heydər Əliyev muzeyinin binasının tikintisinə də baxdı.

Prezident İlham Əliyev tarix-diyarşünaslıq muzeyi ilə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:

"1980-ci illərin əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Qəbələ diyarşünaslıq muzeyi, şübhəsiz öz eksponatları ilə diyarın qədim tarixini əks etdirir. Qəbələ Azərbaycanın qədim torpağıdır, eramızdan əvvələ aid yazılı mənbələrdə Qəbələnin adını çəkirlər. Biz öz tarixi və mədəni irsimizə böyük diqqətlə yanaşırıq. Biz öz qədim tariximizi sevməliyik, onu dərindən öyrənməliyik və beynəlxalq ictimaiyyətə təqdim etməliyik. Qəbələ diyarşünaslıq muzeyi bu vəzifələri uğurla yerinə yetirir. Qəbələlilərə öz dərin hörmət və məhəbbətimi bildirirəm. İlham ƏLİYEV. Azərbaycan Respublikasının Prezidenti. 18 avqust 2005-ci il".

***18 avqust 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ RAYON MƏDƏNİYYƏT EVİ VƏ SƏRGİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Heydər bağında sakinlərlə görüşdən sonra Qəbələ rayon mədəniyyət evinə gəlmişdir. Dövlətimizin başçısı mədəniyyət evinin ansamblının çıxışım dinlədi, burada təşkil edilmiş sərgi ilə tanış oldu.

Rayon mədəniyyət şöbəsinin müdiri Nargilə Qafarova Prezident İlham Əliyevə son aylar ərzində görülən işlər və sərgi barədə məlumat verdi. Bildirildi ki, burada texniki yaradıcılıq mərkəzinin əl işləri nümayiş olunur. Texniki yaradıcılıq mərkəzində hazırlanmış əl işləri ötən il Bakıda keçirilən müsabiqədə birinci yer tutmuşdur.

Azərbaycan Prezidenti Uşaq Yaradıcılıq Mərkəzində məşğul olanların əl işləri, qədim xalq sənəti nümunələri, "Mənsur 555" müəssisəsinin istehsal etdiyi mebellə, qapı və pəncərələrlə tanış oldu. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, bu müəssisə fəaliyyətini genişləndirmiş və əlavə 20 iş yeri açılmışdır. Ağac üzərində oyma sənəti ilə məşğul olan Şahin Rəhimov öz əl işləri barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, bu məhsullar xaricilər tərəfindən də yüksək qiymətləndirilir və münasib qiymətə satılır.

Dövlətimizin başçısı İlham Əliyev xalq sənətinin, onun dəyərli nümunələrinin qorunub saxlanmasının vacibliyini bildirdi.

Sonra Azərbaycan Prezidenti incəsənət məktəbi uşaqlarının əl işlərinə, turizm istirahət mərkəzlərinin fotoşəkillərinə, "Azərxalça"nın yeni yaranmış və 80 nəfərlik işçisi olan Qəbələ filialında toxunan xalçalara baxdı, makaron məmulatları fabrikinin məhsullarının çeşidləri ilə maraqlandı. Bildirildi ki, bu fabrikdə 20 nəfər işlə təmin olunmuşdur.

Dövlətimizin başçısı sərgidə nümayiş etdirilən məhsullara bazarda tələbat olduğunu, qədim xalq sənətinin yaşadılmasının zəruriliyini vurğuladı, sahibkarlara dövlət tərəfindən bundan sonra da qayğı göstəri-ləcəyini bildirdi.

Dövlətimizin başçısına üzərində ümummilli liderimiz Heydər Əliyevin, özünün portretləri və Azərbaycanın bayrağı toxunmuş xalçalar hədiyyə edildi.

Azərbaycan Prezidenti daha sonra yeni bərpa olunmuş mədəniyyət evi, onun 300-dən çox tamaşaçı tutan yaşıl teatrı ilə tanış oldu və burada xatirə şəkli çəkdirdi.

***18 avqust 2005-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ YENİDƏN BƏRPA EDİLMİŞ CÜMƏ MƏSCİDİ İLƏ TANIŞLIQ

Qəbələdə məscid 1899 – 1906-cı ildə tikilmiş, 1920-ci ilədək dini ocaq kimi fəaliyyət göstərmişdir. Sonralar binadan savadsızlığın ləğvi klubu, anbar, kinoteatr, mədəniyyət evi, muzey kimi istifadə edilmişdir. 2005-ci ildən bərpa edilərək yenidən dindarların ixtiyarına verilmişdir. Burada eyni vaxtda 1000 nəfər namaz qıla bilir. Rayon mərkəzində başqa bir məscid də vardır.

Prezident İlham Əliyevi burada məscidin axundu ehtiramla qarşıladı, Qurani-Kərim hədiyyə etdi, dövlətimizin başçısına Allah-taaladan can-sağlığı, uzun ömür arzuladı.

Axund məscidi ziyarət etdiyinə görə Prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, Azərbaycanın inkişafı yolundakı fəaliyyətinizdə Allah Sizə yar olsun. Xalqın ədalətli Prezidentisiniz və biz hamımız Sizin uğurlu siyasətinizi dəstəkləyirik və daim Sizə arxa olacağıq.

Prezident İlham Əliyev dindarlara uğurlar və xoşbəxtlik arzulayaraq dedi ki, çox şadam, rayonlarda böyük işlər görülür, yerlərdə vəzifəli şəxslər, icra hakimiyyəti başçıları yaxşı işləyirlər. Abadlıq, quruculuq işləri gedir, problemlərin aradan qaldırılması üçün mühüm tədbirlər görülür. Bütün dövrlərdə xalqın həqiqi lideri olan Heydər Əliyevin uzaqgörən siyasəti indi də öz bəhrəsini verir. Eyni zamanda milli-mənəvi, dini dəyərlərimizin qorunmasında da ulu öndərin böyük xidmətləri vardır.

Qəbələnin qədim Qafqaz Albaniyasının paytaxtı olduğunu xatırladan Prezident İlham Əliyev dedi ki, ulu öndərimiz 1970-ci illərdəki fəaliyyəti zamanı Azərbaycanın bu gününü düşünürdü. Çünki ən böyük sərvət xalqın, dövlətin azadlığı və xoşbəxtliyidir. Dövlətimizin başçısı bildirdi ki, görülən işlər daha da sürətlənəcəkdir. İstəyirik ki, problemlər tez həll olunsun, lakin bunun zamana da ehtiyacı vardır. Ancaq biz siyasi, iqtisadi istiqaməti düz seçmişik. Əsas odur ki, bölgələr inkişaf etdirilir, onların problemləri həll olunur. Bölgələrin paytaxt Bakının səviyyəsinə çatdırılması üçün çox işlər görülməlidir.

Dindarlar Prezidentə bir daha təşəkkürlərini bildirdilər, ölkəmizdə aparılan quruculuq işlərini yüksək qiymətləndirdilər.

***18 avqust 2005-ci il***

# "GREEN HOUSE" İSTIRAHƏT-TURİZM MƏRKƏZİNİN AÇILIŞI

İsmayıllının Sumağallı kəndi yaxınlığında yerləşən "Green House" istirahət-turizm mərkəzinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün buraya gəldi və müasir standartlara cavab verən bu turizm obyektinin rəmzi açılışını bildirən lenti kəsdi.

Gənclər, idman və turizm naziri Əbülfəz Qarayev dövlətimizin başçısına məlumat verdi ki, 2 hektar ərazisi olan bu istirahət guşəsində eyni vaxtda 110 nəfərin dincəlməsi üçün 3 ədəd üçmərtəbəli kottec tipli ev, 6 ədəd birmərtəbəli taxta kottec, 180 yerlik restoran, konfrans salonu, açıq hovuz (30 m. x 14 m.), 10 ədəd istirahət köşkü, futbol meydançası, camaşırxana, uşaq əyləncə mərkəzi, konsert səhnəsi tikilmişdir. İstirahət mərkəzinə 5 kilometr asfalt yol çəkilmişdir. Burada 65 nəfər xidmət heyəti çalışır. Gələcəkdə dördmərtəbəli 102 otaqlı mehmanxana, xarici və yerli idmançıların istirahəti və təlim-məşq toplanışı üçün idman kompleksi, yeni tennis kortu, voleybol və basketbol meydançaları tikiləcəkdir. Yaxın iki il ərzində burada 250 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Xidmət heyəti Türkiyədə xüsusi kurslar keçmişdir.

Prezident İlham Əliyev istirahət-turizm mərkəzi ilə ətraflı tanış oldu, bu obyektin dilbər bir guşədə, Avropa standartlarına uyğun inşa edildiyini xüsusi vurğuladı və ölkəmizdə turizm sektorunun bundan sonra daha da inkişaf etdirilməsinin əhəmiyyətini xatırlatdı.

Sonra dövlətimizin başçısı səfərdə onu müşayiət edən jurnalistlərə müsahibə verdi.

***19 avqust 2005-ci il***

## İCTİMAİ TELEVİZİYA VƏ RADIO YAYIMLARI ŞİRKƏTİNİN (İTV) FƏALİYYƏTƏ BAŞLAMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Prezident İlham Əliyev yeni televiziyanın yaradıcı kollektivi ilə səmimiyyətlə görüşdü, onlara fəaliyyətlərində uğurlar arzuladı və İTV-nin texniki avadanlığı, işçilər üçün yaradılan müasir şəraitlə tanış oldu, studiyalara, montaj otaqlarına baxdı.

Sonra təntənəli mərasim keçirildi. Mərasimi İTV-nin baş direktoru İsmayıl Ömərov açdı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Azərbaycanda ictimai televiziya yaranır və bu gün fəaliyyətə başlayacaqdır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Əminəm ki, ictimai televiziya Azərbaycanın televiziya məkanında özünəməxsus yerini tutacaq və qısa müddət ərzində tamaşaçıların rəğbətini qazanacaqdır.

Mən bu gün televiziyadakı avadanlıqla tanış oldum, yaradıcı kollektivlə tanış oldum. Deyə bilərəm ki, burada quraşdırılan avadanlıq ən yüksək standartlara cavab verir. Artıq demək olar ki, televiziya fəaliyyətə hazırdır.

İctimai televiziyanın yaranma tarixi bizim hamımıza bəllidir. Bu barədə çox danışmaq istəməzdim. Hesab edirəm ki, televiziyanın bu il yaranması xüsusi əhəmiyyət daşıyır. Heç kəs üçün sirr deyil ki, ictimai televiziyanın yaranması Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən biri idi. Biz bunu etməliydik. Ancaq eyni zamanda, televiziyanın yaranması bir zərurət idi. Azərbaycanda fəaliyyət göstərən müxtəlif kütləvi informasiya orqanları, o cümlədən televiziya kanalları əhaliyə kifayət qədər dolğun məlumat çatdırırlar. Ancaq tam şəkildə müstəqil ictimai televiziyaya da böyük ehtiyac var idi.

Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Azərbaycanda sözün əsil mənasında müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır. İctimai televiziyanın yaranması bu istiqamətdə atılan çox böyük və önəmli bir addımdır. Mən ümid edirəm ki, bir müddətdən sonra Azərbaycanda, sözün əsil mənasında, müstəqil KİV-lər yaranacaqdır.

Azərbaycan keçid dövrünü yaşayır. Ölkəmiz bir ictimai quruluşdan digər ictimai quruluşa addımlayır. Belə olan halda, təbii ki, ilk mərhələdə mətbuat orqanlarına siyasi təzyiqlər daha çox olur. Mətbuatın böyük əksəriyyəti siyasi dairələrin təsiri altındadır. Yenə də demək istəyirəm ki, bəlkə də bu, təbii prosesdir. Ancaq hər bir mərhələnin sonu var, son həddi var. Ümid edirəm ki, Azərbaycanın hərtərəfli inkişafı, Azərbaycanda gedən siyasi proseslər, demokratikləşmə prosesləri ölkəmizə yeni ab-hava gətirəcəkdir.

Azərbaycanın ictimai həyatı kifayət qədər zəngindir. Azərbaycanda baş verən hadisələr, o hadisələrin təhlili, regionda gedən proseslər və Azərbaycanın bu proseslərdə rolu və əhəmiyyəti, əlbəttə, böyük maraq doğurur. Şübhəsiz ki, ictimai televiziyanın fəaliyyəti bu istiqamətdə çox maraqlı olacaqdır. Eyni zamanda, ümid edirəm ki, ölkəmizi ən çox narahat edən problemlər də televiziyanın fəaliyyətində böyük yer tutacaqdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin üzləşdiyi problemlər, işsizlik, yoxsulluq, korrupsiya ilə mübarizə, demokratik və hüquqi dövlətin qurulması prosesi və s. cəmiyyətimizin əsas hissəsini narahat edən məsələlərdir.

Ölkəmizin milli maraqlarının qorunması işində mətbuatın böyük rolu vardır. Biz dəfələrlə şahidi olmuşuq ki, bəzi hallarda Azərbaycan mətbuatında müəyyən informasiyanın çıxması bölgədə əks-səda doğurur. Biz bu məsələdə də çox həssas olmalıyıq. Bilməliyik ki, Azərbaycan müharibə şəraitində yaşayır. Ölkəmizdə gedən həm mənfi, həm də müsbət proseslər şübhəsiz ki, düşmən tərəfindən izlənilir və buna ciddi reaksiya verilir.

Mən öz işimdə mətbuata həmişə dəstək verməyə çalışmışam. Bu gün də bu siyasəti aparıram. Hesab edirəm ki, qəbul edilmiş qərarlar bunun əyani sübutudur. Gələcək fəaliyyətimdə də çalışacağam ki, Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanlarına öz köməyimi, dəstəyimi verim. Mən əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır.

Azərbaycan parlament seçkiləri ərəfəsindədir və bəzi hallarda ictimai televiziyanın məhz bu ərəfədə yaranması da parlament seçkiləri ilə əlaqə-

ləndirilirdi. Şübhəsiz ki, bu amil də var. Lakin parlament seçkiləri noyabrın 6-da olacaq, ancaq ictimai televiziyanın qarşısında böyük vəzifələr durur və onun qarşısında böyük yol var. Əlbəttə, seçkilərlə bağlı televiziyanın fəaliyyəti çox böyük önəm daşıyır. Mən əminəm ki, deputatlığa bütün namizədlər ictimai televiziya vasitəsilə öz seçicilərinə birbaşa müraciət edəcəklər və onların hamısına eyni şərait yaradılacaqdır.

Mən ümid edirəm ki, ictimai televiziya Azərbaycanda özünəməxsus və çox önəmli yerini tutacaqdır. Yenə də demək istəyirəm, ümidvaram ki, tamaşaçıların rəğbətini qazanacaq və gələcəkdə ölkəmizin hərtərəfli inkişafı üçün öz mühüm rolunu oynayacaqdır.

Mənə verilən məlumata görə, televiziyada işləyən mütəxəssislərin hazırlıq səviyyəsi, peşəkarlıq səviyyəsi də çox yüksəkdir. Ümid edirəm, bütün bu amillər imkan verəcək ki, ictimai televiziya Azərbaycanın teleməkanında çox önəmli rol oynayacaqdır.

Mən ictimai televiziyanın fəaliyyətinə uğurlar arzulayıram. Televiziyada çalışanlara cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, Azərbaycan mətbuatı, televiziyası inkişaf etsin və xalqımıza ləyaqətlə xidmət etsin. Bayramınız bir daha mübarək olsun. Sağ olun.

***29 avqust 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKAMIZIN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ LƏNKƏRAN ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Dövlətimizin başçısı ilk olaraq Lənkəran şəhərinə gəldi. Şəhərin mərkəzi meydanına toplaşmış on minlərlə sakin Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, hərarətli alqışlarla, gül-çiçəklə qarşıladı. Prezidenti qarşılamağa gələnlərin əllərində Azərbaycanın dövlət bayraqları, ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısının portretləri, respublikamızın rəhbərini salamlayan şüarlar yazılmış transparantlar var idi.

Prezident İlham Əliyev əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində iştirak etdi. Prezident İlham Əliyev şəhər icra hakimiyyəti binasının qarşısında ucaldılmış abidənin üzərindən ağ örtüyü götürdü, heykəlin önünə gül dəstəsi qoydu. Dövlətimizin başçısının xanımı Mehriban Əliyeva və qızı Leyla da abidənin önünə gül dəstələri qoydular.

Tuncdan hazırlanmış və hündürlüyü 3,8 metr olan abidənin müəllifi Lənkəran Şəhər Rəsm Qalereyasının direktoru Məmmədsadıq Axundovdur.

***8 sentyabr 2005-ci il***

# LERİK RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Lerik rayon Tarix-diyarşünaslıq muzeyi ilə tanış olmuşdur.

Rayon mədəniyyət şöbəsinin müdiri Həmzə Vəliməmmədov dövlətimizin başçısına muzeyin tarixi və burada saxlanılan eksponatlar barədə məlumat verdi. Bildirildi ki, rayon kimi yaranmasının 75 illiyi bu il qeyd olunan Lerik Azərbaycanın qədim tarixə malik bölgələrindəndir. Tarix-diyarşünaslıq muzeyinin binası ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə ötən əsrin 80-ci illərində tikilmişdir. 5 bölmədən ibarət muzeydə 4 min eksponat nümayiş etdirilir. Onların arasında eramızdan əvvəl XIV-XII əsrlərə aid tunc xəncərlər, ox ucluqları, amuletlər və s. maddi mədəniyyət nümunələri vardır.

Muzeydə müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ümummilli lider Heydər Əliyevə həsr olunmuş xüsusi bölmə yaradılmışdır. Vətən uğrunda döyüşlərdə həlak olmuş lerikli şəhidlərə – beş Milli Qəhrəmana həsr olunmuş guşələr də vardır. Hazırda muzeyin binasında yüksək səviyyəli təmir-bərpa işləri aparılır və artıq başa çatmaqdadır.

Prezident İlham Əliyev muzeylə yaxından tanış oldu, burada saxlanılan eksponatların rayonun qədim tarixini əks etdirən nümunələr kimi qiymətli olduğunu vurğuladı.

Dövlətimizin başçısına xatirə olaraq Lerik rayonunun mənzərəsi çəkilmiş tablo hədiyyə edildi.

***8 sentyabr 2005-ci il***

# MASALLI ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Masallı şəhərində salınmış və xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkla tanış olmuşdur. Parkın qarşısına toplaşmış sakinlər dövlətimizin başçısını böyük hörmət və ehtiramla, mehribanlıqla salamladılar.

Prezident İlham Əliyev parkın görünüşünü əks etdirən fotostendə baxdı. Rayon İcra Hakimiyyətinin başçısı parkda görülmüş işlər barədə məlumat verdi, o cümlədən 16 metr diametrində dairəvi fəvvarə yaradıldığını bildirdi. Parkın ərazisindəki köhnə yay kinoteatr binası da yenidən qurularaq, burada Heydər Əliyev muzeyi yaradılmışdır. Muzeyin sahəsi 620 kvadratmetrdir.

Eyni zamanda bildirildi ki, parkda ümummilli liderimiz Heydər Əliyevin böyük abidəsi də ucaldılacaqdır.

Prezident İlham Əliyev parkla yaxından tanış oldu, Heydər Əliyev muzeyinə, ulu öndərin abidəsi ucaldılacaq yerə baxdı. Yaradılmış şəraiti yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Masallıda fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi məhsullardan ibarət sərgi ilə də tanış oldu, çeşidləri ilə maraqlandı. Onlara göstərilən qayğıya görə Prezidentə minnətdarlıq edən sahibkarlar istehsal sahələrinin daha da genişləndirilməsi, yeni iş yerlərinin açılması üçün regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq fəaliyyət göstərdiklərini bildirdilər.

Prezident İlham Əliyev bu sahədə onlara dövlət tərəfindən daim qayğı göstəriləcəyini vurğuladı.

***9 sentyabr 2005-ci il***

# YARDIMLI RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

Dövlətimizin başçısı muzeyin açılışını bildirən qırmızı lenti kəsdi. Ulu öndərin xatirəsinə yaradılmış muzey qəsəbənin mərkəzi küçəsində ikimərtəbəli binada yerləşir. Binanın birinci mərtəbəsində Heydər Əliyevin tuncdan büstü qoyulmuşdur. İkinci mərtəbədə ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən geniş materiallar toplanmışdır.

Prezident İlham Əliyev xalqımızın ümummilli liderinin uşaqlıq, gənclik illərinə, Dövlət Təhlükəsizlik Komitəsinə, 1970-ci illərdə və müstəqillik illərində respublikaya rəhbərlik etdiyi dövrlərə aid, habelə ailəvi fotoşəkillərə, ulu öndərə həsr olunmuş kitablara, Heydər Əliyevin yeni obyektlərin açılışlarındakı iştirakını, xarici ölkələrə və respublikamızın regionlarına səfərlərini, zəhmətkeşlərlə keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə baxdı.

Muzeylə tanışlıqdan sonra Prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Bu gün çox əlamətdar bir gündür. Yardımlıda ulu öndər Heydər Əliyevin büstü və muzeyi açıldı. Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət idi. Ölkəmizin müstəqilliyinin möhkəmlənməsində Heydər Əliyevin müstəsna rolu olmuşdur. Ölkədə gedən islahatlar Heydər Əliyevin siyasi kursunun davamıdır. Yardımlıda regionların inkişafı proqramı uğurla icra olunur. Ümid edirəm ki, yaxın zamanlarda Yardımlı Azərbaycanın qabaqcıl rayonlarından birinə çevriləcəkdir. Yardımlılara cansağlığı və xoşbəxtlik arzulayıram. İlham ƏLİYEV Azərbaycan Respublikasının Prezidenti Yardımlı, 9 sentyabr 2005-ci il".

***9 sentyabr 2005-ci il".***

## YARDIMLI RAYONUNDA HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞI VƏ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞ

Rayon mərkəzinin girəcəyində dövlətimizin başçısını minlərlə sakin böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək dəstələri təqdim olundu.

Parkda ümummilli lider Heydər Əliyevin büstü ucaldılmışdır. Postamentlə birlikdə onun hündürlüyü 3,9 metrdir. Parkda sakinlərin istirahəti üçün gözəl şərait yaradılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimizin büstünün üzərindən ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva büstün önünə gül qoydular.

Sonra Yardımlı rayonunun sakinləri ilə görüş keçirildi. Görüşü rayon ağsaqqalı Mirzəli Cəfərov açdı.

## RAYON AĞSAQQALI MİRZƏLİ CƏFƏROVUN ÇIXIŞI

Cənab Prezident!

İcazə verin, bütün yardımlılar adından, o cümlədən ziyalılar və ağ-saqqallar adından, çoxsaylı Yardımlı gəncləri adından Sizə “Xoş gəlmirsiniz!” deyim, qədəmləriniz mübarək olsun. Rəhmətlik Heydər Əliyev hələ 1964-cü ilin oktyabr ayında Yardımlıya xoş bir müjdəni yerinə yetirmək üçün gəlmişdi. Bu gün Siz buradasınız, bizimləsiniz.

Həyatımızın elə bir sahəsi yoxdur ki, Heydər Əliyev dühası oraya nüfuz etməmiş olsun. Məncə, Heydər Əliyevin ən böyük xidmətlərindən biri Sizin kimi dünya şöhrətli, ən görkəmli bir insanı Azərbaycan xalqına bəxş etməsidir.

Cənab Prezident, 2003-cü il oktyabrın 1-də Heydər Əliyevin Azərbaycan xalqına müraciətində deyilirdi: “İlham Əliyev praqmatik düşüncəli, yüksək ideyalı, mənim qurub başa çatdıra bilmədiyim ən çətin işləri axıra çatdıra biləcək bir şəxsiyyətdir. Mən ona özüm qədər inanıram”. Xalq bu müdrik sözləri, nəsihətləri qəbul elədi və Sizə səs verdi, Sizi Prezident seçdi. O vaxt yardımlıların 79 faizi Sizə səs vermişdi. Sizin Prezident seçildik-

dən az sonra təsdiq etdiyiniz regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı ulu öndərin bütün arzularının həyata keçirilməsinə kömək etdi.

Cənab Prezident, ulu öndər Heydər Əliyev məktəbliləri sevirdi və hesab edirdi ki, gələcəkdə Azərbaycanın ən mühüm işlərinin ağırlığını uşaqlar öz çiyinlərində aparacaqlar. Bu sahədə möhtərəm Mehriban xanım Əliyevanın işləri çox böyükdür. O, Azərbaycanda bu sahədə Heydər Əliyev ideyalarının həyata keçirilməsində, xalqa xidmətdə nümunə göstərir. Respublikada tikilən 132 məktəbdən 6-sı rayonumuzda qısa vaxt ərzində tikilib bütün avadanlığı, təchizatı ilə istifadəyə verilmişdir.

Cənab Prezident, Siz həmişə xalqla birlikdə olmuşsunuz. Bütün bunlar bizim qəlbimizi riqqətə gətirir. Xalqla rəhbərin vəhdətinin nə demək olduğunu göstərir. Biz qarşıdakı seçkilərdə də, sonrakı seçkilərdə də bütünlüklə Sizinlə xalqın vəhdətinə, Heydər Əliyev ideyalarının həyata keçməsinə səs verəcəyik.

Cənab Prezident, Prezident kimi çətin, məsul, şərəfli bir vəzifənin öhdəsindən layiqincə gəlmək üçün Sizə Ulu Tanrıdan uzun ömür, cansağlığı arzu edir, bütün yardımlılar və onların burada iştirak edən nümayəndələri adından uğurlar diləyirəm.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev sakinlərə yaxınlaşaraq onlarla səmimi söhbət etdi, qayğıları ilə maraqlandı.

Ağsaqqallar, müharibə veteranları dövlətimizin başçısına dərin minnətdarlıq edərək dedilər ki, kaş bizim rayonumuzun rəhbərliyini iki il əvvəl göndərəydiniz. Üç aydır işə başlayıb, amma nə qədər işlər görübdür. O gələndən Yardımlı inkişafa başlayıbdır.

İLHAM ƏLİYEV: Mən onu təyin edəndə tapşırıq verdim ki, get insanlara qayğı göstər, bütün işləri gör və Yardımlını qabaqcıl rayona çevir. Yardımlı ucqar rayondur. Buraya gəlmirdilər, amma bundan sonra gələcəklər. Mən də gəlib yoxlayacağam. Yaxşı işlər görür, işə yaxşı başlayıb, gərək yaxşı da davam etdirsin.

SAKİNLƏR: Yardımlıya Sizin bu gəlişiniz çox lazım idi. Kənd təsərrüfatı texnikası sarıdan çox əziyyət çəkirik.

İLHAM ƏLİYEV: İndi hər şey veriləcəkdir. Mən “Aqrolizinq” Səhmdar Cəmiyyəti yaratdım. Onun xətti ilə texnika alınır, gətiriləcək və bütün bölgələrə paylanılacaqdır.

SAKİNLƏR: Traktorlar, kombaynlar sovet dövründən qalmadır, köhnəlibdir. İnsanlar bellə, xışla şumlayırlar.

İLHAM ƏLİYEV: Mən deyirəm ki, burada işlər yaxşı gedəcəkdir. Bu,

həm sizin üçün, həm də bütövlükdə ölkə üçün lazımdır. Ən çətin vəziyyətdə olan rayon ən qabaqcıl olmalıdır. İş, həmrəylik olan yerdə, quruculuq işləri aparılanda bu, mümkündür. Ona görə bu, hamımızın borcudur.

SAKİNLƏR: Bakıda, Lənkəranda və digər yerlərdə bizdən soruşanda ki, haralısınız, deyirdik Lənkərandanıq. Yardımlı deyə bilmirdik. Yeni icra hakimiyyəti başçısı Süleyman müəllim tərifi xoşlamır, ancaq həqiqətən tərifəlayiqdir. Onun gəlişindən sonra rayonda ağ daşdan evlər, məktəblər tikilir.

İLHAM ƏLİYEV: Neçə məktəb tikilir?

SAKİNLƏR: 18 məktəb tikilir. Sizin kadr siyasətiniz çox güclüdür, uzaqgörənsiniz. Biz Sizinlə fəxr edirik. Bəlkə də, ilin sonunadək rayon mərkəzi şəhərə bənzəyəcəkdir.

İLHAM ƏLİYEV: Elə də olmalıdır. Kadr məsələsini düz deyirsiniz. Bu, eyni zamanda niyyətdən asılıdır. İcra hakimiyyətinin başçısı xalqa xidmət etməyə gəlməlidir. O, başqa məramla gəlməməlidir. Gəlib adamları soymaqla, onların qanını sormaqla, rüşvət almaqla məşğul olmamalıdır. Mənim prinsipim budur. Mən göndərdiyim icra hakimiyyəti başçılarına bildirirəm ki, yaxşı işləsən, fəaliyyətini qiymətləndirəcək, sənə daha böyük vəzifə verəcəyəm. Amma təmiz işlə, insanlara qayğı göstər, çünki biz insanlar üçün işləyirik. Prezident də xalqın xidmətçisidir. Sadəcə olaraq, bu, ən yüksək icra vəzifəsidir. Ona görə əsas budur ki, hansı niyyətlə gəlir.

Yardımlı sakinləri problemlərindən də söhbət açdılar. Dövlətimizin başçısı məktub və şikayətlərə diqqətlə baxılacağını bildirdi və dedi ki, mən buraya gəldim, yol yaxşı vəziyyətdə deyil, çoxdandır təmirsizdir. Mən tapşırıq vermişəm ki, baxsınlar. Nəqliyyat naziri də buradadır, tapşırıram, məşğul olun və qısa müddət ərzində Masallıdan Yardımlıya yaxşı, rahat yol çəkilsin.

ZİYA MƏMMƏDOV (nəqliyyat naziri): Cənab Prezident, Sizin tapşırığınızla 15 milyard manat ayrılıbdır. Gələn ilin birinci yarısında 50 kilometrlik bu yol beynəlxalq standartlara uyğun qurulub Sizə məruzə olunacaqdır.

İLHAM ƏLİYEV: Yol tikilib qurtarandan sonra açılışına gələcəyəm.

SAKİNLƏR: Allah qoysa. Biz həmişə Sizin və kadrlarınızın arxasınca gedəcək, dəstəkləyəcəyik. Bizə qalsa, 20-30 il Sizi Prezident seçəcəyik. Allah Sizdən razı olsun.

***9 sentyabr 2005-ci il***

# YARDIMLI RAYONUNDA XALÇA VƏ TİKİŞ SEXLƏRİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Yardımlıda xalça və tikiş sexləri ilə tanış olmuşdur.

Xalçaçı qızlar dövlətimizin başçısını və xanımını hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.

Bu sexlər ümummilli liderimizin adını daşıyan mərkəzi küçədəki üç-mərtəbəli binada yerləşir. Birinci mərtəbədə Heydər Əliyev guşəsi yaradılmışdır. İkinci mərtəbədə 103 nəfər daimi işçisi olan xalça sexi, üçüncü mərtəbədə isə 42 nəfərin çalışdığı tikiş sexi fəaliyyət göstərir. Bina əsaslı təmir olunmuşdur. Rayonun bu ilk sənaye müəssisəsi gələcəkdə Yardımlının iqtisadi inkişafında mühüm rol oynayacaq, eyni zamanda, qədim xalq sənəti olan xalçaçılığın inkişafına təkan verəcəkdir. Prezident İlham Əliyev sexlərlə tanış oldu, hanada toxunub qurtarmış xalçanın iplərini kəsdi, ilk xalça hazır oldu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və qızı Leyla isə hana arxasında oturaraq xalça toxudular.

Dövlətimizin başçısına xatirə olaraq xalça hədiyyə olundu. Prezident və ailə üzvləri xalçaçı qızlarla xatirə şəkli çəkdirdilər.

***9 sentyabr 2005-ci il***

# LERİKDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ VƏ RAYON İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev Lənkəran-Lerik avtomobil yolunun açılışından sonra Lerik qəsəbəsinə gəldi.

Rayon mərkəzinin və ətraf kəndlərin minlərlə sakini dövlətimizin başçısını çox böyük səmimiyyətlə, hərarətli alqışlarla qarşıladı. Azərbaycan Prezidentinə və xanımına gül dəstələri təqdim edildi.

Əvvəlcə burada müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimi oldu. Prezident İlham Əliyev büstün üzərindən ağ örtüyü götürdü, abidənin önünə gül dəstəsi qoydu.

***10 sentyabr 2005-ci il***

# DAHİ AZƏRBAYCAN BƏSTƏKARI, PEDAQOQ VƏ İCTİMAİ XADİM ÜZEYİR HACIBƏYOVUN 120 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDIR

Xalqımız dahi bəstəkar, müasir Azərbaycan professional musiqi sənətinin və milli operamızın banisi, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyovun anadan olmasının 120 illiyini öz böyük oğluna dərin minnətdarlıq və məhəbbət hissi ilə qeyd edir. Xalqımızın ümummilli lideri, milli mədəniyyətimizin böyük himayədarı Heydər Əliyev Azərbaycan musiqisinin inkişafında Üzeyir Hacıbəyovun misilsiz xidmətlərini nəzərə alaraq, onun yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək üçün 1995-ci ildə imzaladığı fərmanla hər il sentyabrın 18-də Üzeyir musiqi günü keçirilməsi barədə qərar vermişdir. Məhz həmin fərmanın davamı olaraq, Azərbaycan Prezidenti İlham Əliyev bu il fevralın 28-də Üzeyir Hacıbəyovun 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Həmin sərəncama əsasən, respublikamızda silsilə tədbirlər keçirilmiş, Üzeyir Hacıbəyovun ev-muzeyi əsaslı təmir olunmuşdur.

XX əsr musiqi sənətinin inkişafında böyük xidmətləri ilə, Şərqdə ilk operanın banisi kimi məşhur olan Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci il sentyabrın 18-də Şuşa qəzasının Ağcabədi kəndində dünyaya göz açmışdır. Azərbaycan opera sənətinin tarixi unudulmaz bəstəkarın 1908-ci ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə başlanır. Üzeyir bəy daha sonra "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid banu", "Əsli və Kərəm", "Harun və Leyla" operalarını, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarını, nəhayət, yaradıcılığının zirvəsi olan "Koroğlu" operasını, habelə "Sənsiz", "Sevgili canan" kimi bənzərsiz romanslarını yazmışdır.

Bəstəkarlıq fəaliyyəti ilə yanaşı, mütəmadi elmi araşdırmalar da aparmış, "Azərbaycan xalq musiqisinin əsasları" kimi fundamental əsər yaratmışdır. Üzeyir bəy həm də gözəl pedaqoq idi. Yaradıcısı olduğu konservatoriyanın peşəkar kadrlarla təmin edilməsi sonralar özünün bəstəkarlıq məktəbinin davamçıları olan neçə-neçə qüdrətli sənətkarların yetişməsində mühüm rol oynamışdır.

Sentyabrın 19-da Heydər Əliyev adına Sarayda keçirilən yubiley gecəsi dahi bəstəkara ümumxalq məhəbbətinin parlaq ifadəsinə çevrildi.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Yubiley gecəsini mədəniyyət naziri Polad Bülbüloğlu açdı.

– Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz musiqisevərlər!

Bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan professional musiqisinin banisi, milli peşəkar bəstəkarlıq məktəbinin yaradıcısı, SSRİ xalq artisti, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, görkəmli ictimai xadim, dramaturq, publisist, alim, böyük vətəndaş, dahi bəstəkar Üzeyir Hacıbəyovun 120 illik yubileyi qeyd olunur.

Odlar diyarı Azərbaycan dünya mədəniyyəti xəzinəsinə od ürəkli, od nəfəsli sənətkarlar vermişdir. Bu qədim torpaq bir çox böyük şair və yazıçıların, alim və filosofların, rəssam və heykəltəraşların, bəstəkar və xanəndələrin, dramaturq və səhnə xadimlərinin mənəvi beşiyi, tükənməz ilham mənbəyi olmuşdur. Belə ölməz sənətkarlar arasında Üzeyir Hacıbəyovun xüsusi yeri vardır. O, zəngin, ecazkar, çoxsahəli və çoxjanrlı yaradıcılığa malik böyük şəxsiyyət, parlaq istedad sahibi olmuşdur. Üzeyir bəy Azərbaycan xalqının mənəvi qüdrətinin timsalıdır. Xalqa yaxın olması, coşqun ictimai və ədəbi fəaliyyəti, tükənməz yaradıcılıq imkanları ona zəmanəsinin sənət korifeyləri sırasında yüksək yer qazandırmışdır.

Mən bu çıxışımı hazırlayarkən çoxlu materialları nəzərdən keçirdim. Bunların arasında Üzeyir Hacıbəyov haqqında ən mühüm fikirlər, zəngin və mükəmməl nitq xalqımızın ümummilli lideri Heydər Əliyevə məxsusdur. Böyük tədqiqat əsəri qədər qiymətli olan bu nitqi Heydər Əliyev 1995-ci il sentyabrın 18-də, indi ulu öndərin adını daşıyan həmin bu sarayda söyləmişdir. Nitqdə Üzeyir Hacıbəyovun bütün yaradıcılığı böyük diqqət və qayğı ilə təhlil edilir, bəstəkarın həyatındakı bir sıra məqamlara aydınlıq gətirilir. Heydər Əliyev öz nitqində demişdir: “Əgər tarixə nəzər salsaq, Üzeyir Hacıbəyov üç hakimiyyət dövründə yaşamışdır. Onun doğulduğu dövr, mədəniyyət xadimi kimi dünyaya gəldiyi dövr Azərbaycanda çar Rusiyasının hakimiyyəti dövrü idi. Ondan sonra Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yarandı. İki ilə yaxın müddət müstəqil Azərbaycan Respublikası dövrü idi. Ondan sonra Azərbaycanda sovet hakimiy-

yəti quruldu və bu hakimiyyət 1991-ci ilə qədər davam etdi. Üzeyir Hacıbəyov bütün bu üç mərhələdə hakimiyyətin xarakterindən, formasından asılı olmayaraq, xalqına xidmət etmişdir. Bu gün bunu deməyə əsas var ki, o, belə düşünmüşdür: Hansı hakimiyyət olursa-olsun, xalqa sədaqətlə xidmət edən, xalqın irəli getməsinə çalışan adam heç bir şeylə hesablaşmamalıdır. Üzeyir Hacıbəyov belə olmuşdur... Üzeyir Hacıbəyov anadan olandan dünyasını dəyişənə qədər Azərbaycan xalqının görkəmli bir oğlu olmuşdur. Azərbaycan xalqına xidmət etmişdir... Üzeyir Hacıbəyov bizimdir – bütün varlığı, yaradıcılığı ilə".

Bu, doğrudan da belədir. Biz hər səhər onun musiqisi ilə oyanırıq. Hər səhərimiz Üzeyir Hacıbəyovun yazdığı Azərbaycan Respublikasının Dövlət himni ilə açılır. Bəstəkarın taleyində ən möhtəşəm səhifə budur ki, indiyə kimi iki dəfə yazılan Azərbaycanın Dövlət himninin hər ikisinin müəllifi məhz Üzeyir Hacıbəyov olmuşdur. Bu, xalqın, millətin qan yaddaşında əbədi yaşayan bir tarixdir, dünyada analoqu olmayan bir faktdır.

Üzeyir Hacıbəyov Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Böyük ustadın məşhur "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyaları bu janrın Azərbaycanda özülünü qoymuş və öz müəllifinə böyük şöhrət gətirmişdir. "Arşın mal alan" musiqili komediyası bir çox dillərə tərcümə edilərək, dünyanın müxtəlif teatrlarında səhnəyə qoyulmuşdur. Bu əsər haqqında Heydər Əliyev belə demişdir: "Üzeyir Hacıbəyov "Arşın mal alan" əsərini XX əsrin əvvəlində yazıbdır. Deyə bilərəm ki, o, bir əsrdir yaşayır, gələcək əsrlərdə də yaşayacaqdır. Çünki o qədər mənalı-məzmunlu, həm də gözəl musiqiyə malik olan bir əsərdir ki, heç vaxt öz aktuallığını itirmir. İnsanı – musiqi sevən, sənət sevən insanı heç vaxt yormur. Əksinə, hər dəfə insana sevinc gətirir, insana ilham verir. "Arşın mal alan"ın ekranlaşdırılması da təbiidir. Təkcə səhnədən ekrana keçməsi yox, yeni quruluşda verilməsi böyük bir hadisə idi. Bu, Azərbaycan mədəniyyətini, Azərbaycan musiqisini, mahnısını dünyaya tanıdan bir əsər oldu".

Elə bu yaxınlarda dahi bəstəkarın dünya şöhrətli komediyası Ukraynanın Dnepropetrovsk şəhərində, Taras Şevçenko adına Akademik Dövlət Musiqili Dram Teatrında Ukrayna dilində böyük uğurla tamaşaçılara təqdim edilmişdir.

Üzeyir Hacıbəyovun mədəniyyətimizin tərəqqisi uğrunda apardığı mübarizə sahələri çox geniş, yaratdığı sənət nümunələri çox rəngarəng olmuşdur. Onun ecazkar musiqisi öz mayasını Azərbaycan xalqının zəngin və tükənməz mənəvi sərvətindən almışdır. Xalqın qəlbindən qopub gələn şirin melodiyalar, muğamlar, folklor nümunələri Üzeyir Hacıbəyovun ilk yaradı-

cılıq məktəbi olmuşdur. Onun musiqi və ədəbi irsi bir məktəbdir. Möhkəm özüllər üzərində qurulmuş zəngin bir məktəb.

1885-ci il sentyabrın 18-də Azərbaycanın gözəl guşələrindən biri olan Qarabağda dünyaya gəlmiş Üzeyirin uşaqlığı qədim Şuşada keçmişdir. Qafqazın konservatoriyası adlanan Şuşa balaca Üzeyir üçün ilk musiqi məktəbi olmuşdur. Sonralar o, Qori seminariyasında, Sankt-Peterburq Konservatoriyasında təhsil almışdır.

Üzeyir Hacıbəyov yaradıcılığının ilk illərində jurnalistika ilə də məşğul olmuşdur. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi" və başqa qəzetlərdə, "Molla Nəsrəddin" jurnalında gizli imzalarla dövrün mühüm ictimai, siyasi və maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. Həmin dövrdə hekayə yaradıcılığı və tərcümə ilə də məşğul olan Üzeyir Hacıbəyov bir müddət "Azərbaycan" qəzetinə baş redaktorluq etmiş, Azərbaycan ədəbiyyatı tarixinə böyük publisist və yazıçı kimi daxil olmuşdur.

Bəstəkar 22 yaşında olanda dahi Məhəmməd Füzulinin poeması əsasında "Leyli və Məcnun" operasını yazmış və bununla özünü çox istedadlı bəstəkar kimi tanıtdırmışdır. "Leyli və Məcnun" operası təkcə Azərbaycanda deyil, bütün Şərqdə opera sənətinin əsasını qoymuşdur. Üzeyir bəy daha sonra bir-birinin ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid banu", "Harun və Leyla", "Əsli və Kərəm" muğam operalarını bəstələmişdir.

Ötən əsrin 20-ci illəri Azərbaycan musiqisinə təşkilatçılıq illəri kimi daxil olmuş və bu təşkilati işlərin başında məhz Üzeyir Hacıbəyov durmuşdur. Azərbaycan Xalq Maarif Komissarlığı yanında İncəsənət İdarəsinin musiqi şöbəsinə rəhbərlik edən bəstəkar Azərbaycan musiqisinin gələcək inkişaf proqrammı müəyyənləşdirmişdir. O, peşəkar musiqiçi kadrları yetişdirməklə, milli musiqinin əsaslarını nəzəri cəhətdən işləyib hazırlamaqla, ümumdünya musiqisini öyrənməklə məşğul olmuşdur. Azərbaycan tələbələri üçün Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdir. Sonradan bu məktəb texnikuma çevrilmiş, texnikum isə 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyası ilə birləşdirilmişdir. Hələ o zamanlar Üzeyir bəy burada nəzəriyyə, harmoniya, Azərbaycan musiqisinin əsasları fənlərindən dərs demiş, 1940-cı ildə professor adına layiq görülmüşdür.

Bəstəkar Azərbaycanda ilk çoxsəsli xor kollektivi yaratmışdır. Daha sonra Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestri təşkil etmişdir və bu orkestr üçün bir neçə əsər yazmışdır. Üzeyir Hacıbəyov 1930-cu illərin sonlarından eyni vaxtda üç mühüm vəzifəni icra et-

miş – Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru və Azərbaycan Bəstəkarlar İttifaqın sədri vəzifələrində çalışmışdır. O, Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən və onun ilk akademiklərindən biri olmuşdur.

1937-ci ildə Azərbaycan tarixində, milli musiqi mədəniyyəti tarixində böyük bir hadisə baş vermiş, opera sənətimizdə "Koroğlu" epoxası başlanmışdır. Bu əsər mədəniyyətimizin ümumi tarixində yeni bir səhifə açmışdır. "Koroğlu" operası dünya musiqi mədəniyyəti nailiyyətlərini özündə təcəssüm etdirən Azərbaycan musiqi mədəniyyətinin yüksək bir zirvəsi olmuşdur. Bu əsərdə bəstəkar klassik Avropa opera formalarına riayət edərək, bitkin ariyalar, duetlər, ansambllar, balet nömrələri, reçitativlər yaratmışdır.

Operanın musiqi dramaturgiyasının əsasını monumental xor səhnələri təşkil edir. Koroğlu xalq qəhrəmanı olmaqla yanaşı, həm də aşıqdır. Buna görə də opera əsasən aşıq musiqisi üslubunda bəstələnmişdir. Üzeyir bəy "Koroğlu" operasında simfonik orkestrin tərkibinə milli musiqi alətləri də daxil edərək, orkestrin qeyri-adi, rəngarəng səslənməsinə nail olmuşdur. Ulu öndər Heydər Əliyev "Koroğlu" operası haqqında danışarkən deyirdi: "Üzeyir Hacıbəyov "Koroğlu" operasını yazarkən böyük sənətkarımız Bülbülü nəzərdə tutubdur. Bülbül və Koroğlu rolu. Elə bil ki, Koroğlu rolu Bülbül üçün yaranıbdır".

Bəlkə də bu, mənim tərəfimdən bir qədər qeyri-təvazökarlıqdır, amma bunu mən deməmişəm, bizim böyük öndərimiz demişdir. Heydər Əliyev sözünə davam edərək demişdir ki, "Koroğlu" əsəri o vaxtdan – 1937-ci ildən indiyə qədər səhnədədir və bundan sonra da səhnədə olacaqdır.

Mədəniyyət naziri olaraq mən deyə bilərəm ki, biz böyük öndərin sözlərini həyata keçiririk. Akademik Opera və Balet Teatrımızda "Koroğlu" səhnədədir, "Leyli və Məcnun" səhnədədir. Bizim yeni Koroğlularımız var, gözəl Nigarlarımız var, yeni Leylilərimiz var, yeni Məcnunlarımız var. Fürsətdən istifadə edərək, mən hörmətli Prezidentimizə dərin təşəkkürümü bildirmək istəyirəm: iki gün öncə Üzeyir Hacıbəyovun yubileyi ilə bağlı bir sıra sənət adamlarımızı respublikanın ən yüksək fəxri adları ilə təltif etmişdir. Hörmətli Prezidentimiz, mən Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin kollektivi, bu salonda əyləşən xalq artistləri, əməkdar artistlər adından Sizə dərin təşəkkürümü bildirirəm.

Mən bir faktı da qeyd etmək istərdim ki, Bülbül Koroğlu rolunda 400 dəfədən artıq çıxış etmişdir. Hər dəfə də bu rolu ifa edərkən Üzeyir bəyin sənətinə valeh olduğunu dilə gətirirdi. "Koroğlu" operasındakı vətən-pərvərlik ruhu bu gün də Vətəni sevən insanlar üçün bir nümunədir. "Koroğ-

lu"nun uvertürası Azərbaycan milli ruhunun himnidir. Bu musiqiyə və bütünlüklə "Koroğlu" operasına millətin sonsuz məhəbbəti var. Heydər Əliyevin təbirincə desəm, "xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar – gənclər, vətəndaşlarımız məhz Üzeyir Hacıbəyovun əsərlərindən ruhlanaraq, Vətənimizi daha da çox sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır".

Bütün bu göstəricilər bəstəkar, vətəndaş Üzeyir Hacıbəyovun həyat mövqeyi, yaradıcılıq amalı idi. Bunları ulu öndər Heydər Əliyev demişdir.

Dahi bəstəkarımız Böyük Vətən müharibəsi illərində bir sıra marşlar, mahnılar, xalq çalğı alətləri üçün pyeslər yaratmışdır. Onun həmin illərdə yazdığı və Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr etdiyi "Sənsiz" və "Sevgili canan" romansları bəstəkarın yaradıcılığında xüsusi bir yer tutur.

Üzeyir Hacıbəyov Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, opera və musiqili komediyalarında, eləcə də digər janrlardakı əsərlərində Şərq və Qərb musiqi sistemlərinin üzvi vəhdətini yaratmağa nail olmuşdur. Bəstəkar vaxtilə Şərq və Qərb musiqi mədəniyyətləri arasında keçilməz sayılan səddi aradan götürmüş, Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir. Öz yaradıcılığında Azərbaycan xalq musiqisinin bütün janrlarının – mahnılarının, rəqslərinin, muğam və aşıq musiqisinin üslub xüsusiyyətlərini birləşdirərək özünün orijinal üslubunu, Üzeyir üslubunu yarada bilmişdir.

O, həm də böyük musiqişünas alim idi. Azərbaycan musiqisinin xüsusiyyətlərinin Üzeyir Hacıbəyov tərəfindən verilən dərin elmi təhlili də musiqimizin inkişafı üçün qüvvətli nəzəri əsas olmuşdur. Üzeyir bəy müasir Azərbaycan musiqişünaslıq elminin əsasını qoymuş, bu barədə çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır. "Azərbaycan xalq musiqisinin əsasları" (1945) fundamental tədqiqat əsərində o, qədim tarixə malik musiqimizin milli xüsusiyyətlərini böyük ustalıqla göstərə bilmişdir.

Üzeyir Hacıbəyov istedadlı bəstəkar, musiqişünaslar nəsli yetişdirmişdir. Məhz onun rəhbərliyi altında Azərbaycanda əsaslı bəstəkarlıq məktəbi yaranmışdır. Üzeyir bəyin çoxlu tələbələri olmuş, sonrakı nəsillər isə onun əsərlərinin təsiri altında böyümüş, bəstəkarlıq sənətini qavramış və yeni-yeni musiqi əsərləri yaratmışlar.

Əziz dostlar, dünən biz illərdən bəri artıq ənənəyə çevrilən milli musiqi bayramını keçirdik. Fəxri Xiyabanda böyük bəstəkarın abidəsi önünə çiçək dəstələri qoyduq. Bu böyük bayramı 1995-ci il 18 sentyabr tarixli fərmanı ilə Azərbaycan xalqına hədiyyə edən Heydər Əliyevin məzarını ziyarət etdik. İncəsənət Muzeyinin həyətində Şuşadan didərgin düşmüş, güllələnmiş heykəlləri ziyarət etdik. Üzeyir Hacıbəyovun ev-muzeyində aparılan böyük bərpa işlərindən sonra muzeyin yeni ekspozisiyasını açdıq. Bakı Musiqi Akademiyasının qarşısında böyük bayram şənlikləri yaşandı. Lakin Şuşa, Qarabağ nisgili bu tədbirlərdə daima bizimlə birlikdə oldu. Qəlbimizdən bir istək keçdi ki, kaş, böyük bəstəkarın gələn yubileyləri Şuşada qeyd olunsun.

Üzeyir Hacıbəyovun yaradıcılığı artıq dünya musiqisinin ayrılmaz bir parçasıdır. Biz hələ neçə illər sonra da bu ölməz əsərləri eşidəcək və bundan qürur duyacağıq.

Nə qədər ki, Azərbaycan var, nə qədər ki, Azərbaycan xalqı var, Üzeyir bəyin də adı, musiqisi yaşayacaqdır.

Üzeyir Hacıbəyov kimi dahilər yetirən ulu Azərbaycan xalqına eşq olsun!

Sonra incəsənət ustalarının iştirakı ilə böyük yubiley konserti oldu. Əvvəlcə xalq artisti Rauf Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında "Koroğlu" operasının əzəmətli uvertürası səsləndi.

Müvəffəqiyyətlə keçən konsertdə Üzeyir bəyin "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun", "Arşın mal alan" operaları və musiqili komediyalarından parçalar, ariyalar, "Arazbarı", "Sənsiz", "Sevgili canan" kimi musiqi inciləri ifa olundu, bir daha dinləyicilərə və tamaşaçılara unudulmaz anlar bəxş edildi.

Dahi bəstəkarın çıxışını, Bülbülün Koroğlusunu əks etdirən kinokadrlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1995-ci il sentyabrın 18-də Üzeyir bəyin 110 illik yubileyi gecəsində dediyi sözlər alqışlarla qarşılandı: "Üzeyir Hacıbəyovun yaşadığı hər gün bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə, Azərbaycan xalqının mədəniyyətinin inkişaf etməsinə, Azərbaycan xalqının özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir.

Bütün bunlara görə Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xal-

qının milli sərvətidir. Üzeyir Hacıbəyov şəxsiyyəti Azərbaycan xalqının iftixarı, bizim milli iftixarımızdır...

Üzeyir Hacıbəyovun yaradıcılığı insanları həmişə vətənpərvərliyə çağırdığı kimi, bu gün də Azərbaycan vətəndaşlarının vətənpərvərliyə dəvət edir. Əgər biz bu gün Üzeyir Hacıbəyovun xatirəsini yad ediriksə, əgər onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq.

Biz öz torpaqlarımızın sahibi olmalıyıq. Məsələləri sülh yolu ilə həll etməliyik. Nəyin bahasına olursa-olsun, hansı yolla olursa-olsun, Şuşa da, Qarabağ da, işğal edilmiş bütün torpaqlarımız da azad olunacaq – Azərbaycan xalqının iradəsi ilə azad olunacaq, Azərbaycanın qəhrəman oğullarının şücaəti ilə azad olunacaq və Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir".

Yubiley gecəsi Üzeyir Hacıbəyovun bəstələdiyi Azərbaycanın Dövlət himninin əzəmətlə səsləndirilməsi ilə başa çatdı.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV konsertdən sonra səhnə arxasına gələrək, uğurlu çıxışlarına görə incəsənət ustalarını təbrik etdi:

– Çox sağ olun. Sizə təşəkkür edirəm. Bu gün dahi Üzeyir bəyin ölməz əsərləri səsləndi. Siz də onları çox gözəl ifa etdiniz. Çox gözəl konsert oldu. Yenidən bu əsərləri dinləmək çox böyük zövq verir. Sizin hamınıza bu münasibətlə öz təşəkkürümü bildirirəm. Doğrudan da, bu gün Üzeyir bəyin yubileyi bizim hamımız üçün böyük bayramdır. Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

MƏNSUM İBRAHİMOV (xalq artisti): Cənab Prezident, bu günlərdə bizə fəxri ad vermisiniz. Sənət dostlarım adından Sizə çox böyük minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, bizə belə böyük etimad göstərmisiniz, səhnəmizin Leyli və Məcnununa yüksək ad vermisiniz.

İLHAM ƏLİYEV: Siz buna layiqsiniz. Mən çalışıram ki, sənət adamlarının əməyini qiymətləndirim. Bu, belə də olmalıdır. Bizim ulu öndərimiz Heydər Əliyev həmişə bu məsələlərə çox böyük diqqət göstərirdi. Çünki Azərbaycanın müstəqil ölkə kimi yaşaması üçün mədəniyyət, incəsənət çox böyük əhəmiyyət kəsb edir. İqtisadi cəhətdən nə qədər zəngin olursa-olsun, əgər mədəniyyət, incəsənət inkişaf etmirsə, ölkə uğurla inkişaf edə bilməz. Ona görə bu, bizim bugünümüz üçün lazımdır, gələcək nəsillərin tərbiyə olunması üçün lazımdır. Xüsusilə də nəzərə alsaq ki, bizim mədəniyyətimiz çox zəngin, nadir və dünyada analoqu olmayan mədəniyyətdir. Üzeyir bə-

yin əsərləri, bizim başqa görkəmli incəsənət, mədəniyyət xadimlərinin əsərləri – bütün bunlar milli sərvətimizdir. Sənət adamlarına həmişə böyük diqqət olmalıdır, həmişə qayğı olmalıdır. Olan problemlər gərək həmişə öz həllini tapsın. Allaha şükürlər olsun ki, indi ölkəmiz sürətlə inkişaf edir, imkanlarımız artır. Əlbəttə, ilk növbədə, siz bu imkanlardan bəhrələnməlisiniz. Mən çalışacağam ki, bundan sonra da həmişə sizin yanınızda olum.

LÜTFİYAR İMANOV (xalq artisti): Cənab Prezident, bu gözəl bayram münasibətilə Siz Azərbaycanın incəsənət və mədəniyyət xadimlərinə fəxri adlar verdiniz. Bu, çox böyük işdir. Allah Sizi var eləsin. Arzu edirəm ki, belə hadisələr daha da çox olsun. Sağ olun, var olun.

AFAQ BƏŞİRQIZI (xalq artisti): Cənab Prezident, Siz bizim mədəniyyətimizin mənəvi dayağısınız. Bu, bizi çox qüdrətləndirir. Hər bir ölkənin dövlət bayrağından sonra mədəniyyəti gəlir. Siz mənim Prezidentimsiniz.

İLHAM ƏLİYEV: Çox sağ olun. Bilirsiniz ki, indi biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Əlbəttə, bu da zəmanənin tələbidir və bütün inkişaf etmiş ölkələr bu şəraitdə yaşayır. Belə olan halda, əlbəttə, bizneslə məşğul olanlar, sahibkarlıqla məşğul olanlar öz məişət şəraitini yaxşılaşdırırlar. Onların böyük imkanları var və daha da artıq olsun. Amma sənət adamlarının belə bir imkanı yoxdur. Ona görə dövlət bu məsələni daim diqqət mərkəzində saxlamalıdır. Mən çalışıram ki, mənə ünvanlanan bütün müraciətlərə müsbət münasibət göstərim. Son müddət ərzində bu məsələlərin böyük əksəriyyəti öz həllini tapmışdır.

AFAQ BƏŞİRQIZI: Allah eləsin ki, məmurların hamısı öz öhdələrinə düşən vəzifələri dərk etsinlər, bilsinlər ki, biz hər şeyə görə Sizə müraciət etməyək.

İLHAM ƏLİYEV: Gərək onlar da nümunə götürsünlər.

AFAQ BƏŞİRQIZI: Bəli. Çünki incəsənəti qiymətləndirmək lazımdır. Bu gün Üzeyir bəyin yubileyinin keçirilməsi Azərbaycan xalqının böyüklüyüdür. Müharibə vaxtı Nizaminin yubileyi keçirilibdir. Biz müharibəyə görə belə dahilərimizi qurban verə bilmərik. Allah qoysa, müharibəyə Sizinlə birlikdə son qoyacağıq.

İLHAM ƏLİYEV: İnşallah. Çox sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyev incəsənət ustaları ilə xatirə şəkli çəkdirdi.

***20 sentyabr 2005-ci il***

# BOLQARISTAN TURİZMİNİN TƏQDİMAT MƏRASİMİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Belə maraqlı təqdimata görə sağ olun. Bu, potensialınızı da, inkişafı da, imkanları da çox əyani şəkildə göstərdi. Bu dinamika ondan xəbər verir ki, turizm infrastrukturunun inkişafı istiqamətində işlər çox səmərəli gedir. Bu baxımdan, əlbəttə, ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Mənim səfərim çərçivəsində çox mühüm sənədlər imzalandı və biz ümidvarıq ki, yaxın vaxtlarda ölkələrimiz arasında hava yolu açılacaq və adamlarımız arasında ünsiyyət daha canlı olacaqdır. Çünki turizm infrastrukturunu inkişaf etdirmək üçün ilk növbədə informasiya gərəkdir. İnformasiya əlyetən, geniş əhatəli olmalı və potensial turistləri başqa bir ölkəni deyil, məhz bu ölkəni seçməyə sövq etməlidir. Ona görə ki, indi dünyanın müxtəlif ölkələrində, o cümlədən də bizdə turizmin infrastrukturunun inkişafına böyük əhəmiyyət verilir. Bizdə bu, hələlik başlanğıc mərhələsindədir, hərçənd potensial böyükdür – həm dəniz sahili, həm dağ turizmi, həm də tarixi yerlər vardır. Bir sözlə, biz bu sahədə sizin təcrübənizi – son beş ildə turizmin inkişafında böyük inkişafa necə nail olduğunuzu öyrənmək istiqamətində çox fəal işləyə bilərik. Eləcə də əməli baxımdan. Yəni vətəndaşlarımız sizin ölkənizə, sizin vətəndaşlarınız isə bizim ölkəmizə istirahətə gəlsinlər. Düşünürəm ki, bu baxımdan potensial çox yaxşıdır. Mənimlə birlikdə böyük bir nümayəndə heyəti, o cümlədən turizm naziri gəlmişdir, siz onunla artıq tanışsınız. Bu sahəni inkişaf etdirməyə çalışacağıq.

Ölkənizin potensialı artır, insanların həyatı yaxşılaşır. Xaricə istirahətə gedən Azərbaycan vətəndaşlarının sayı ildən-ilə artır. Ölkəmizə gələnlərin sayı da çoxalır. Lakin müasir infrastruktur yaratmaq gərəkdir, çünki bizdə olan turizm infrastrukturu, əsasən, sovet dövründən qalmadır. O, fiziki cəhətdən də, mənəvi cəhətdən də köhnəlib, xaricdən daha çox turist qrupları cəlb etməyə imkan vermir. İndi dəniz sahilində də, dağlıq yerlərdə də çoxlu turizm kompleksi tikilir. Mən Azərbaycanın müxtəlif guşələrində olarkən bununla maraqlanıram. Çünki bu, gəlir, məşğulluq üçün daimi mənbədir. Yeri gəlmişkən, siz bunu hər cəhətdən – sosial-iqtisadi cəhətdən də, infrastruktur cəhətdən də çox səriştəli şəkildə təqdim edə bilirsiniz. Bu, işsizlik problemini həll edir.

Ölkələrimizin əhalisinin sayı təxminən eynidir. Sizdə turizm sahəsində 170 min adam işləyir. Bunlar ancaq bilavasitə bu sahədə çalışanlardır, ancaq dolayısı ilə həmin sahə ilə bağlı olanlar da var. Bu isə çox böyük rəqəmdir. Zənnimcə, bu, çox perspektivli istiqamətdir və biz səmərəli əməkdaşlıq edəcəyimizə çox ümid bəsləyirik. Ölkənizdə Azərbaycanın səfirliyi artıq fəaliyyət göstərir. Bu da münasibətlərin inkişafı üçün mühüm amildlr. Müvafiq nazirliklər, idarələr səviyyəsində birbaşa əlaqələr də var. Hökumətlərarası komissiya da mövcuddur. Bir sözlə, əməkdaşlığı inkişaf etdirəcəyik.

***24 sentyabr 2005-ci il***

## KÜRDƏMİR ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKININ VƏ ÜMUMMİLLİ LİDERİN ABİDƏSİNİN AÇILIŞI

Parka toplaşmış on minlərlə sakin Prezidenti və xanımını böyük hörmət və ehtiramla qarşıladılar. Onların əllərində ümummilli lider Heydər Əliyevin, dövlətimizin başçısının portretləri, Azərbaycanın dövlət bayraqları və Prezidenti salamlayan şüarlar var idi.

Prezident İlham Əliyevə məlumat verildi ki, parkın ümumi sahəsi 6,5 hektardır. Zövqlə düzəldilmiş pilləvarı fəvvarələr parka xüsusi yaraşıq verir, ulu öndərin abidəsi və Heydər Əliyev muzeyinin binası ilə birlikdə gözəl ansambl yaradır. Burada şəhər sakinlərinin istirahəti üçün hər cür şərait var.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış abidəsinin üzərindən ağ örtüyü götürdü.

Qranitdən yonulmuş əzəmətli abidənin hündürlüyü 3,3 metr, potstamentlə birlikdə isə 5,5 metrdir. Abidənin müəllifi respublikanın xalq rəssamı, akademik Ömər Eldarovdur.

Prezident İlham Əliyev və Mehriban xanım abidənin önünə gül dəstələri qoydular. Dövlətimizin başçısı kürdəmirlilərin sevimli istirahət guşəsinə çevriləcək Heydər Əliyev parkında görülmüş abadlıq işlərini yüksək qiymətləndirdi.

***6 oktyabr 2005-ci il***

# KÜRDƏMİR ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİ

Muzeyin işçiləri Prezident İlham Əliyevi səmimiyyətlə qarşıladılar. Muzeyin direktoru İradə Şahverdiyeva dövlətimizin başçısına məlumat verdi ki, Heydər Əliyev muzeyinin tikintisinə 2005-ci ilin yanvar ayında başlanmış və avqust ayında başa çatdırılmışdır. Rayon ictimaiyyətinin təşəbbüsü ilə tikilmiş ikimərtəbəli bina altı otaqdan ibarətdir. 366 kvadratmetr ümumi sahənin 500 kvardratmetri ekspozisiya üçün ayrılmışdır. Ekspozisiya zövqlə tərtib olunmuşdur. Burada ulu öndərin bütün ictimai-siyasi, dövlətçilik fəaliyyətini, habelə respublikamızın rayonlarına, o cümlədən Kürdəmirə səfərlərini əks etdirən fotoşəkillər, kitablar toplanmışdır. Ulu öndərin rəssam Elçin Cabbarovun kətan üzərində yağlı boya ilə işlənmiş iri portreti diqqəti cəlb edir. Ümummilli lider Heydər Əliyevlə bağlı videomaterialları nümayiş etdirmək üçün burada ən müasir texniki avadanlıq quraşdırılmışdır. Ümummilli liderin zəngin irsinin öyrənilməsi üçün konfrans salonunda elmi-praktik konfransların və “dəyirmi masa”ların keçirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev muzeydə toplanan eksponatları yüksək qiymətləndirdi, bunların Heydər Əliyev irsinin gələcək nəsillərə öyrədilməsi üçün faydalı olacağını söylədi. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin fəaliyyətinə dair qısa videofilmə baxdı, muzeyin xatirə kitabına ürək sözlərini yazdı:

“Heydər Əliyev muzeyinin ekspozisiyası ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Muzey müasir üslubda tikilib. Gözəl memarlığı və dizaynı ilə fərqlənir. Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi kursu bu gün də davam edir. Azərbaycanın uğurlu və hərtərəfli inkişafı üçün bu siyasət əbədi yaşamalıdır. Bütün kürdəmirlilərə öz hörmət və məhəbbətimi ifadə edirəm. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Kürdəmir, 6.10.2005-ci il”.

Prezident İlham Əliyevə ümummilli lider Heydər Əliyevin 1970-80-ci illərdə Kürdəmirə səfərini əks etdirən fotoalbom, habelə xalça təqdim olundu.

***6 oktyabr 2005-ci il***

## SABİRABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ABİDƏ-MUZEY KOMPLEKSİNİN AÇILIŞI

Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Abidə-Muzey Kompleksinin açılışı mərasimində iştirak etmişdir.

Kompleksin ətrafına toplaşan on minlərlə sabirabadlı dövlətimizin başçısını hərarətlə qarşıladı. Onların əllərində Azərbaycanın dövlət bayraqları, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, ulu öndərin müdrik kəlamları yazılmış, dövlətimizin başçısını salamlayan şüarlar var idi.

Prezidentə və xanımına gül dəstələri təqdim olundu.

Dövlətimizin başçısı komleksin açılışını bildirən qırmızı lenti kəsdi.

Altı hektar sahəni əhatə edən kompleksin mərkəzində ümummilli lider Heydər Əliyevin möhtəşəm abidəsi ucaldılmış, muzey yaradılmışdır. Abidənin hündürlüyü postamentlə birlikdə 6,5 metrdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Ümumi sahəsi 466 kvadratmetr olan muzeydə Heydər Əliyevin Sabirabad rayonu ilə bağlı fəaliyyətini əks etdirən 6 bölmə təşkil edilmiş, ulu öndərin əsərlərindən ibarət kitabxana yaradılmışdır.

***6 oktyabr 2005-ci il***

## SABİRABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Sabirabaddakı Heydər Əliyev muzeyi ilə tanış olmuşdur. Xalqımızın ümummilli liderinin müxtəlif illərdə 14 dəfə Sabirabada gəlməsini, zəhmət adamları ilə unudulmaz görüşlərini əks etdirən fotoşəkillər dövlətimizin başçısında böyük maraq doğurdu.

Rayon Mədəniyyət şöbəsinin müdiri Böyükağa Həmidov Prezidentə müraciətlə dedi ki, biz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində müstəqil Azərbaycanımızın bu gün dünyada tanınmasından fəxr duyuruq. Böyük qürur hissi keçiririk ki, Siz də müstəqil Azərbaycanın qurucusunun siyasətini davam etdirirsiniz.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev muzeyinin eksponatları, fotoşəkillər, kitablar xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif aspektlərini əks etdirir. Sabirabada və sabirabadlılara xüsusi hörmət və məhəbbət bəsləyən, 14 dəfə Sabirabada gəlmiş ulu öndərin siyasəti bu gün də yaşayır və Azərbaycan xalqının xoşbəxt gələcəyinə xidmət edir.

Mən 2003-cü ilin oktyabr ayında burada olarkən bəyan etmişəm ki, bu siyasətə sadiq olacağam, onu davam etdirəcəyəm və xalqın dəstəyi ilə qarşıda duran bütün məsələlər həll olunur.

Sabirabadlılara möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. 6 oktyabr 2005-ci il."

***6 oktyabr 2005-ci il***

# GƏNCƏ ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ-MUZEY KOMPLEKSİ İLƏ TANIŞLIQ

Prezident İlham Əliyev əvvəlcə şəhərin mərkəzi meydanına gəldi. O, burada tanınmış heykəltəraş Şərif Şərifovun layihəsi ilə ümummilli liderimiz Heydər Əliyevə ucaldılmış abidəni ziyarət edərək, gül dəstəsi qoydu.

Dövlətimizin başçısına mərkəzi meydanın yenidən qurulması, ulu öndərin xatirəsinə yaradılan abidə-muzey kompleksinin tamamlanması üçün görülən işlər barədə məlumat verildi. Azərbaycan Prezident İlham Əliyev burada yaradılan səliqə-sahmanı, abadlıq işlərini yüksək qiymətləndirdi və gəncəlilərin istirahəti üçün çox gözəl şərait yaradıldığını bildirdi.

Dövlətimizin başçısı sonra Heydər Əliyev xatirə muzeyinə gəldi. Muzeyin qarşısında səmimi söhbət zamanı akademik Siddiqə Məmmədova şəhər ziyalılarının ürək sözlərini ifadə edərək, Prezident İlham Əliyevi yenidən Gəncədə görməkdən fəxr etdiklərini bildirdi, ona cansağlığı, uğurlu fəaliyyətində daha böyük nailiyyətlər arzuladı.

Sonra Prezident İlham Əliyev muzeylə yaxından tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətinin bütün dövrlərini, o cümlədən müstəqil Azərbaycanın Prezidenti kimi xarici ölkələrə səfərlərini, nüfuzlu dövlət xadimləri ilə görüşlərini əks etdirən fotoşəkillər, ulu öndərə həsr olunmuş kitablar toplanmışdır. Muzeydə qoyulmuş kompüter vasitəsilə Heydər Əliyevin bütün həyatı barədə internet saytından məlumat almaq mümkündür. Sonda Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözünü yazdı:

“Cənab Heydər Əliyev muzeyinin ekspozisiyası ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Müasir Azərbaycanın qurucusu Heydər Əliyev Gəncəyə və gəncəlilərə həmişə böyük qayğı və diqqət göstərirdi. Bütün başqa sahələrdə olduğu kimi, bu işdə də Heydər Əliyevin siyasəti davam etdirilir. Gəncəyə və gəncəlilərə mənim xüsusi hörmətim vardır. Çox sevinirəm ki, öz tarixi simasını saxlayaraq, Gəncə yeniləşir, abadlaşır, gözəlləşir. Əminəm ki, bundan sonra da Gəncə sürətlə inkişaf edəcək. Burada yaşayan insanlar sülh, əmin-amanlıq, sabitlik şəraitində yaşayacaqlar. Gəncəlilərə öz dərin hörmətimi və məhəbbətimi ifadə edirəm. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Gəncə, 11.10. 2005-ci il”.

Muzeylə tanışlıqdan sonra meydana toplaşan insanlarla səmimi görüşən Prezident İlham Əliyev onların qayğı və problemləri ilə maraqlandı. Sakin-

lər ulu öndərin siyasi xəttinin layiqli davamçısının Gəncəyə tez-tez gəlməsini yüksək qiymətləndirdilər, şəhərin inkişafına göstərdiyi diqqətə görə təşəkkürlərini bildirdilər.

Prezident İlham Əliyev şəhər sakinlərinə müraciətlə dedi: Yenidən Gəncəyə gəlmişəm. Görürəm ərizə, məktublar verirlər. İndi bunlar yığılır və hamısına baxılacaqdır. Siz narahat olmayın, mənə daxil olan məktublara reaksiya verilir, çalışırıq kömək edək ki, sizin problemləriniz aradan qaldırılsın. Mənim də bölgələrə səfərlərimin əsas məqsədi odur ki, yerlərdə abadlıq, quruculuq işləri daha da yaxşı getsin, ərizə və şikayətlərə baxılsın. Əgər kiminsə problemi varsa, narahat edən məsələ varsa, onlar həll olunmalıdır. Ona görə bütün ərizələrə, şikayətlərə baxılacaq və lazımi tədbirlər görüləcəkdir. Mən sizi bir daha salamlayıram, təbrik edirəm ki, şəhəriniz, bizim qədim Gəncəmiz günü-gündən gözəlləşir, abadlaşır, yeni müəssisələr yaranır, binalar tikilir, parklar salınır.

***11 oktyabr 2005-ci il***

## QAZAX ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ

Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdən sonra Qazax şəhərindəki Heydər Əliyev parkına gəldi.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış qranit abidəsi önünə gül dəstəsi qoydu. 5 hektardan çox ərazini əhatə edən və şəhərin mənzərəli guşəsində, Ağstafaçayın sahilində yerləşən, sakinlərin rahatlığı üçün hər cür şərait yaradılmış bu park bir neçə ay ərzində salınmışdır. Dörd ay əvvəl sakinlərin istifadəsinə verilmiş parkda müxtəlif növ ağaclar və gül kolları əkilmişdir.

Prezident İlham Əliyev respublikamızda ilk dəfə bu parkda yaradılmış və ulu öndərimizin xidmətlərini əks etdirən foto-kompüter köşkü ilə yaxından tanış oldu. Köşkün üzərindəki lövhədə bu sözlər yazılmışdır: "Bu yüksək texnologiyalı informasiya köşkü Azərbaycan xalqının ümummilli lideri, dahi Prezident Heydər Əliyevin uca xatirəsinə ithaf olunur. Bu köşk vasitəsilə siz onun həyat yolu və fəaliyyəti haqqında dolğun informasiya ala bilərsiniz. Köşk internet şəbəkəsinə qoşulmuşdur. Siz həmçinin dünya informasiya mənbələrinə də daxil ola bilərsiniz. Əlavə olaraq, bu köşk vasitəsilə siz rayon icra hakimiyyətinin başçısına elektron poçt vasitəsilə öz təkliflərinizi və fikirlərinizi yaza bilərsiniz".

Prezident İlham Əliyev parkda görülən işləri yüksək qiymətləndirdi, informasiya köşkündən sakinlərin necə istifadə etmələri ilə maraqlandı, əhalinin bu cür köşklər vasitəsilə ulu öndərin fəaliyyətinə dair daha geniş məlumat ala biləcəklərini vurğuladı.

***12 oktyabr 2005-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AİLƏ ÜZVLƏRİ İLƏ BİRLİKDƏ "YAŞIL TEATR"DA YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞ, MİLLİ PARKDA SAKİNLƏRLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Yaşıl teatr"a gələrək, burada aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

Vaxtilə paytaxt sakinlərinin ən sevimli istirahət yerlərindən olan "Yaşıl teatr" uzun illər baxımsız qaldığından acınacaqlı vəziyyətə düşmüşdü. Bir müddət əvvəl Prezident İlham Əliyev buranın vəziyyəti ilə maraqlanmış, "Yaşıl teatrın" müasir tələblər səviyyəsində yenidən qurulması üçün tapşırıqlar vermişdir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov "Yaşıl teatr"ın tarixi barədə, burada görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verərək bildirdi ki, yenidənqurmadan sonra bu mədəniyyət ocağında tamaşaçı yerlərinin sayı 2100-ə çatdırılacaqdır. Teatrın səhnəsi, tamaşaçılar üçün oturacaqlar, işıqlandırma sistemi, giriş və çıxışları tamamilə yenidən qurulacaq, xidmət otaqları yaradılacaq, yüksək qonaqlar üçün yer ayrılacaq, bir sözlə, ən müasir standartlara uyğun olacaqdır.

"Yaşıl teatr"ın tarixi yer olduğunu xatırladan Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, yenidənqurma işlərinin sürətlə və keyfiyyətlə görülməsi üçün tapşırıq və tövsiyələrini verdi.

Sonra Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə Milli Parka gəldi. Dövlətimizin başçısı burada insanların istirahəti üçün daha əlverişli şəraitin yaradılmasının vacibliyini söylədi və məsləhətlərini verdi.

Prezident İlham Əliyev parkda onu və ailə üzvlərini mehribanlıqla, səmimiyyətlə qarşılayan şəhər sakinləri ilə görüşüb, onların qayğı və problemləri ilə maraqlandı.

***17 oktyabr 2005-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVAN ŞƏHƏRİNDƏ KİTAB EVİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Naxçıvan şəhərində Kitab evinin açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, Kitab evi ilə tanış oldu.

Üçmərtəbəli binanın birinci mərtəbəsində məktəb ləvazimatı, dərsliklər, ikinci mərtəbədə Naxçıvanda istehsal olunan məktəbli geyimləri, idman ləvazimatı satılır. Üçüncü mərtəbədə isə müxtəlif ədəbiyyat, o cümlədən bədii əsərlər, uşaq ensiklopediyası, qanun topluları, ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən kitablar toplanmışdır.

Dövlətimizin başçısı Kitab evinin əhalinin maariflənməsi işinə çox böyük töhfə verəcəyini bildirdi, müasir tələblərə uyğun tikilən binanın Naxçıvan şəhərini gözəlləşdirdiyini vurğuladı.

Sonra Prezident İlham Əliyev buraya toplaşan sakinlərlə görüşüb söhbət etdi, problemləri ilə maraqlandı. Sakinlər onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.

***19 dekabr 2005-ci il***

# BƏRDƏDƏ PREZİDENT İLHAM ƏLİYEVİN İŞTİRAKI İLƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR

Bərdədə Prezident İlham Əliyevin iştirakı ilə Heydər Əliyev muzeyinin rəsmi açılışı olmuşdur.

Ümumi sahəsi 900 kvadratmetr olan muzey Heydər Əliyev parkında yerləşir. Burada ulu öndərin 1970-80-ci və 1990-cı illərdə 14 dəfə Bərdəyə səfərini əks etdirən materiallar xüsusi yer tutur. Eyni zamanda, ümummilli liderimizin ailəvi fotoşəkilləri, həyat və fəaliyyətinə, dünyanın müxtəlif ölkələrinə səfərlərə, müasir dövrdə iqtisadi inkişafımızın təməli hesab olunan neft strategiyasının həyata keçirilməsinə dair fotomateriallar nümayiş olunur.

Muzeydə Prezident İlham Əliyevin bu qədim şəhərə səfərlərini, keçirdiyi görüşləri əks etdirən eksponatlar da diqqəti cəlb edir.

Dövlətimizin başçısı və ailə üzvləri muzeyin ayrı-ayrı guşələri ilə maraqla tanış oldular.

Azərbaycan Prezidenti İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı:

“2004-cü ilin sentyabr ayında biz Bərdədə “Heydər Əliyev muzeyi”nin təməl daşını qoyduq. Bu gün isə muzeyin açılışını qeyd edirik. Bu muzey ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Eyni zamanda, “Heydər Əliyev muzeyi” gözəl memarlıq abidəsidir.

Heydər Əliyev Bərdəyə və bərdəlilərə həmişə böyük diqqət göstərmişdir. 14 dəfə Bərdədə olmuşdur və Bərdənin inkişafında onun çox böyük rolu olmuşdur. Bu gün bu gözəl ənənələr davam etdirilir. Bərdə inkişaf edir və gözəlləşir.

Bütün bərdəlilərə öz hörmət və məhəbbətimi bildirirəm. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti Bərdə, 1 mart 2006-cı il”.

***2 mart 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RESPUBLİKA MUZEY MƏRKƏZİNDƏ OLMUŞDUR

Dövlətimizin başçısı Muzey Mərkəzinin yerləşdiyi binanın xarici görünüşünə diqqət yetirdi. Bakının mərkəzində, dənizkənarı Milli parkla üzbəüz yerləşən bu bina 1960-cı ildə tikilmişdir. 1991-ci ildən etibarən burada üç muzey və İncəsənət Qalereyası yerləşir.

Prezident İlham Əliyev əvvəlcə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin fondunda saxlanılan xalçalara və buradakı şəraitə baxdı. Dövlətimizin başçısı dedi ki, bu muzeyin ayrıca binası olmalıdır. Çünki xalça muzeyi doğrudan da dünyada yeganə muzeylərdəndir. Azərbaycan Prezidenti mədəniyyətimizi ilmələrdə yaşadan bu sənət növünün nümunələrinin daha etibarlı qorunması üçün ən yüksək şərait yaradılacağını bildirdi və bunun üçün lazımi təkliflər hazırlayıb təqdim olunmasını tapşırdı.

15 minə qədər eksponatın toplandığı muzeydə Azərbaycan xalçaçılıq sənəti məktəblərinin ayrı-ayrı dövrlərə şahidlik edən ən müxtəlif çeşnili nümunələri, milli geyimlər, bədii tikmələr, zərgərlik məmulatı, bədii metal, ağac və daş üzərində oyma sənəti nümunələri nümayiş etdirilir. Ümummilli liderimiz Heydər Əliyev bu muzeyə daim diqqət və qayğı göstərmişdir.

Dövlətimizin başçısı muzeyin ekspozisiyası ilə tanış oldu, dünya muzey təcrübəsinə uyğunluğu ilə maraqlandı, ulu öndərin muzeyə diqqətini əks etdirən tarixi fotolara baxdı.

Növbəti tanışlıq səhnə mədəniyyətimizin bir əsrdən artıq dövrünü özündə əks etdirən Azərbaycan Dövlət Teatr Muzeyi ilə oldu. Təxminən 127 min eksponatın qorunduğu muzey barədə Prezidentə məlumat verildi. Dövlətimizin başçısı Azərbaycan teatrının tarixini özündə yaşadan bu cür eksponatların daha etibarlı və beynəlxalq tələblərə cavab verən şəraitdə saxlanılmasının vacibliyini vurğuladı və müvafiq tövsiyələrini verdi.

20 mindən artıq eksponatı olan Azərbaycan İstiqlal Muzeyi də Muzey Mərkəzinin binasında yerləşir. Prezident İlham Əliyev milli azadlıq hərəkatı tarixinə, sovet repressiyasına və Böyük Vətən müharibəsi illərinə, XX əsrin axırlarında Azərbaycanda milli azadlıq hərəkatına, Qarabağ müharibəsinə, müstəqil Azərbaycan Respublikasının tarixinə dair bölmələrə, ümummilli lider Heydər Əliyevin fəaliyyətini əks etdirən fotolara baxdı. Prezident

milli istiqlal tariximizin daha canlı və ətraflı təbliği üçün lazımi göstərişlərini verdi.

Dövlətimizin başçısı xalça muzeyinin keramika fonduna da baxdı, buradakı şəraitlə maraqlandı. Prezident İlham Əliyev dedi ki, bütün muzeylərin binaları yenidən bərpa və təmir olunmalıdır. Lazım gələrsə, yenidən tikilməlidir. Bu bina uzun illər təmirsiz qalmışdır. Memarlıq baxımından çox gözəldir, amma bərbad vəziyyətdədir. Xalça muzeyi üçün ayrı bina tikilməlidir. Bütün eksponatlar yaxşı şəraitdə saxlanmalıdır. Əlbəttə ki, lazımi temperatur rejimi olmalıdır. Dünyada mövcud olan ən yüksək standart nədirsə, o da Azərbaycanda olmalıdır. Qısa müddətdə hərtərəfli təkliflərinizi verin.

Sonra Prezident binanın sonuncu mərtəbəsində yerləşən İncəsənət Qalereyası ilə tanış oldu. Qalereyanın yerləşdiyi və yararsız vəziyyətə düşmüş salonun əsaslı təmir edilməsinin zəruriliyini vurğuladı.

Daha sonra Prezident İlham Əliyev Muzey Mərkəzinin dəyirmi salonunda Azərbaycanın tarix, mədəniyyət abidələrinin əsaslı təmiri, turizm mərkəzlərinin tikintisi ilə bağlı layihələrlə tanış oldu. Dövlətimizin başçısı vurğuladı ki, bütün muzeylər və teatrlar ən yüksək səviyyədə təmir olunmalıdır. Xaricdən memarlar, dizaynerlər, interyerlə məşğul olan mütəxəssislər cəlb edilməlidir. Ayrı-ayrı layihələrə baxan Azərbaycan Prezidenti dedi ki, tarix və mədəniyyət abidələrinin bərpa və təmiri rəqabət şəraitində aparılmalıdır, müxtəlif təkliflər olmalıdır. Çoxlu tikinti-bərpa şirkətləri var. Xarici şirkətləri cəlb etmək olar. Amma, əlbəttə ki, dövlət orqanları tərəfindən bu işə nəzarət olmalıdır.

Respublikamızın rəhbəri Qusar rayonunda yaradılacaq dağ xizəkçiliyi kompleksinin layihəsi ilə də tanış oldu, onun Avropa standartlarına uyğun icrası barədə tapşırıqlarını verdi. Dövlətimizin başçısı dedi ki, paralel olaraq mehmanxanaların yerləri müəyyən edilib tikilməlidir. Elə olmasın ki, kortəbii şəkildə gəlib burada hərə özü üçün tiksin. Bura beynəlxalq səviyyəli kurort və idman-turizm mərkəzi olmalıdır.

Daha sonra Azərbaycan Prezidenti respublikamızın gözəl təbiətini, tarixi keçmişini, mədəniyyətini əks etdirən qısa videolentə baxdı, tövsiyələrini verərək bildirdi ki, belə reklam çarxlarında qədim tarix, bügünkü müasirlik, təbiətimizin müxtəlifliyi və qədim mədəni irsimiz öz əksini tapmalıdır.

Dövlətimizin başçısı mədəniyyətimizə və tarixi keçmişimizə daim həssaslıqla yanaşmağın vacibliyini vurğuladı.

***18 mart 2006-cı il***

# ƏLİ BAYRAMLI (ŞİRVAN) ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısı muzeyin açılışını bildirən qırmızı lenti kəsdi.

Şəhərin mərkəzi küçəsində ulu öndərin xatirəsinə yaradılmış muzeydə Heydər Əliyevin büstü qoyulmuş, ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən geniş materiallar toplanmışdır.

Prezident İlham Əliyev və xanımı xalqımızın ümummilli liderinin uşaqlıq, gənclik illərinə, 1970-ci illərdə və müstəqillik dövründə respublikaya rəhbərlik etdiyi vaxtlara aid, habelə ailəvi fotoşəkillərə, ulu öndərə həsr olunmuş kitablara, Heydər Əliyevin yeni obyektlərin açılışlarındakı iştirakını, xarici ölkələrə və respublikamızın regionlarına səfərlərini, əhali ilə keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə baxdılar. Muzeydə əbədiyaşar Prezidentin Əli Bayramlı şəhərinə tarixi səfərlərindən ibarət guşə və ulu öndərin portretləri diqqəti cəlb edir. Muzeyə gələnlər dahi şəxsiyyətin fəaliyyətinin bütün dövrləri ilə bağlı sənədli filmlərə də baxa biləcəklər.

Muzeylə tanışlıqdan sonra Prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Ulu öndər Heydər Əliyev Əli Bayramlı şəhərinin inkişafına həmişə böyük diqqət göstərmişdir. 1970-ci illərdə və 1990-cı illərdə isə müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi çalışırdı ki, Əli Bayramlının iqtisadi və sənaye potensialı daha da möhkəmlənsin.

Bu gün bu siyasət davam edir və ölkəmizin hər bir bölgəsində abadlıq, quruculuq işləri geniş vüsət alıb. Əli Bayramlı şəhəri də hərtərəfli inkişaf edir, abadlaşır, gözəlləşir.

Bütün əlibayramlılara yeni uğurlar və xoşbəxtlik arzulayıram. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti Əli Bayramlı, 23 mart 2006-cı il".

***24 mart 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏLİ BAYRAMLI (ŞİRVAN) ŞƏHƏRİNƏ GƏLMİŞDİR HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Əli Bayramlı şəhərinin mərkəzindəki istirahət guşəsinə – ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəldi.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva səliqə-sahmanlı parkda, istirahət üçün yaradılmış şəraitlə tanış oldular. Yeni salınmış bu parkın ərazisi bir neçə hektardır. Yay aylarında şəhər sakinləri boş vaxtlarını bu istirahət guşəsində keçirir, dincəlirlər. Burada uşaqlar üçün karusellər də quraşdırılmışdır.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı parkı gəzdilər, yüksək zövqlə yaradılmış şəlaləyə tamaşa etdilər.

***24 mart 2006-cı il***

# "ŞÖHRƏT" MUZEYİ ULU ÖNDƏRİN TARİXİ XİDMƏTLƏRİNİ YAŞADIR

Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında "Şöhrət" muzeyinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, ulu öndərə həsr olunmuş muzeyin zövqlə və müasir dizaynla tərtib edilmiş stendlərində 1998-ci il dekabrın 1-də Heydər Əliyevin Akademiyanın yaradılması haqqında imzaladığı Sərəncam, Akademiyaya Heydər Əliyevin adının verilməsi barədə Prezident İlham Əliyevin 2005-ci il 20 dekabr tarixli Fərmanı, müxtəlif fotoşəkillər, materiallar, ilk dəfə təqdim olunan arxiv sənədləri nümayiş etdirilir.

Burada ulu öndərin ömrünün 25 ilini həsr etdiyi xüsusi xidmət orqanlarındakı fəaliyyətinə dair guşə böyük maraq doğurur. Eyni zamanda, onun uşaqlıq, gənclik illərini, respublikaya rəhbərliyinin hər iki dövrünü əhatə edən fotoşəkillər, sənədlər və materiallarla da tanış olmaq mümkündür.

Muzeydə Heydər Əliyevin Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi dövrə aid hərbi geyimi, kabinetində olan əşyalar, ona verilmiş hədiyyələr, mükafatlar, ümumiyyətlə, ulu öndərlə bağlı minə yaxın eksponat toplanmışdır. Bundan sonra da yeni sənədlərlə zənginləşəcək muzeydə ulu öndərimizin həyat və fəaliyyətini əks etdirən salon, rəsmi mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş konfrans salonu, arxiv, fond fəaliyyət göstərir. Muzeydə xalqımızın ümummilli liderinin büstü də qoyulmuşdur.

Prezident İlham Əliyev muzeylə yaxından tanış oldu, ayrı-ayrı fotoşəkillərə, arxiv sənədlərinə, ümummilli liderimizin təltif olunduğu orden və medallara, əbədiyaşar Prezidentin iş otağının eksponatlarına maraqla baxdı.

Muzeylə tanışlıqdan sonra dövlətimizin başçısı fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev muzeyinin eksponatları ulu öndərin həyat və fəaliyyətini çox dolğun şəkildə əks etdirir. Gənc yaşlarından öz taleyini təhlükəsizlik orqanları ilə bağlayan Heydər Əliyev ən yüksək zirvələri fəth etmişdir. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi bütün dünyada böyük hörmət qazanmışdır.

Müstəqil Azərbaycanın Prezidenti kimi ölkəmiz üçün həlledici, taleyüklü anlarda həmişə cəsarət, müdriklik, vətənpərvərlik nümayiş etdirmiş-

dir. Onun həyat və fəaliyyəti hamımız üçün örnəkdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Eyni zamanda, təhlükəsizlik orqanlarında işlədiyi dövr bizim üçün həmişə çox əziz idi. Ən kiçik vəzifədən Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə yüksəlmiş, general rütbəsi almış ulu öndər Azərbaycanda təhlükəsizlik orqanlarının formalaşmasında və möhkəmlənməsində müstəsna rol oynamışdır.

Bu gözəl muzeyi yaradanlara öz təşəkkürümü bildirirəm. Milli Təhlükəsizlik Nazirliyinin bütün əməkdaşlarına dövlət maraqlarmızın qorunmasında yeni uğurlar arzulayıram. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 27 mart 2006-cı il”.

***27 mart 2006-cı il***

## İLİSU KƏNDİNDƏKİ "ULUDAĞ" TURİZM VƏ İSTİRAHƏT MƏRKƏZİ İLƏ TANIŞLIQ

Prezident İlham Əliyev Qax rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdən sonra Azərbaycanın ən dilbər guşələrindən biri sayılan qədim İlisu kəndinə gedərək, burada yeni yaradılmış "Uludağ" turizm və istirahət mərkəzi ilə tanış olmuşdur.

Dövlətimizin başçısını və ailə üzvlərini burada böyük ehtiramla qarşıladılar.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Prezidentə məlumat verdi ki, turizmin inkişafı üçün bütün potensial imkanlara malik olan İlisu kəndinin yuxarı hissəsində, uca dağlarla əhatə olunmuş ərazidə yaradılan, 4 hektara yaxın sahəsi olan "Uludağ" turizm və istirahət mərkəzi ailəvi istirahət üçün nəzərdə tutulmuşdur. Kompleksə kotteclər, mehmanxana, 100 nəfərlik yeməkxana, idman və rəqs meydançaları, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün salon və digər infrastruktur daxildir. Mərkəzin tikintisinin birinci mərhələsi artıq başa çatdırılmış və hazırda 50 nəfər turisti qəbul etmək imkanına malikdir. Ötən ilin yayında buraya ilk turistlər gəlmişdir. Hazırda ikinci mərhələdə nəzərdə tutulan işlər görülür.

Bənzərsiz təbiəti olan bu kənddə Azərbaycan memarlığının qiymətli nümunələrindən sayılan memarlıq abidələri, o cümlədən məscid vardır. Hazırda onlarda təmir-bərpa işləri görülür. İlisuda dağ turizmi və alpinizm həvəskarları üçün hər cür təbii şərait vardır.

Prezident İlham Əliyev "Uludağ" turizm və istirahət mərkəzinin ərazisini gəzdi və burada yaradılan şəraiti yüksək qiymətləndirdi və bu məkanda turizm sektorunun inkişafı üçün dövlət tərəfindən diqqət və qayğının bundan sonra da artırılacağını vurğuladı.

***13 aprel 2006-cı il***

## ŞƏKİ XANLARININ SARAYI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdən sonra Şəki xanlarının sarayına gəlmişdir.

Milli geyimli oğlan və qız dövlətimizin başçısına və xanımına gül dəstələri təqdim etdilər. Şəkinin özfəaliyyət kollektivləri üzvlərinin ifasında milli rəqslər və xalq mahnıları maraqla qarşılandı.

Prezident İlham Əliyev sarayın xarici görünüşünü, 1530-cu ildə əkilmiş çinarı seyr etdi.

Şərq memarlığının nadir incilərindən olan saray Şəki xanlığının əsasını qoyan Hacı Çələbinin nəvəsi Hüseyn xanın dövründə – 1761-62-ci illərdə tikilmişdir. Şəkinin rəmzi sayılan və vaxtilə iri memarlıq kompleksinin tərkib hissəsi olan saray 1955-1965-ci illərdə memar H.Rzayevin layihəsi əsasında bərpa olunmuşdu. Lakin illər ötdükcə, abidənin yenidən bərpasına ehtiyac yaranmışdı.

Ulu öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında bağlanmış kredit sazişi əsasında 2002-ci ilin sentyabrında Şəki xanları sarayının əsaslı bərpa işlərinə başlanmışdır. Bunun üçün Dünya Bankı tərəfindən 3,2 milyon ABŞ dolları ayrılmışdı. Bərpa işlərini Almaniyanın "Denkmalrfleqe Mesklenburq" şirkəti yerli sənətkarlarla birlikdə birgə həyata keçirmişdir. Abidənin bünövrəsində möhkəmləndirmə və izolyasiya işləri görülmüş, dam örtüyü tamamilə sökülərək, yeni layihə ilə bəpa edilmiş, elektrik və su xətləri təzələnmiş, yeni inzibati bina tikilmişdir. Sarayın şəbəkəli pəncərələri, divar rəsmlərinin qopmuş yerləri tədqiq olunaraq, bərpa edilmiş, həyətdə abadlıq işləri görülmüşdür.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sarayın ayrı-ayrı otaqlarını gəzdilər. Dövlətimizin başçısı görülən işləri, milli ornamentlərin, Şərq üslubunun qorunub saxlanmasını yüksək qiymətləndirdi. Azərbaycanın milli mədəniyyət abidələrinin qorunmasına bundan sonra da dövlət tərəfindən qayğı göstəriləcəyini xüsusi vurğuladı.

***13 aprel 2006-cı il***

# ŞƏKİ RAYONUN KİŞ KƏNDİNDƏ QƏDİM ALBAN MƏBƏDİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Kiş kəndindəki qədim alban məbədində də oldular.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, məbədin direktoru İlhamə Hüseynova dövlətimizin başçısını, xanımını səmimiyyətlə qarşıladılar. Bildirildi ki, kəndin Maflar məhəlləsində yerləşən məbədin ətrafındakı divarların qalıqları bəzi yerlərdə indi də qalmaqdadır. Erkən orta əsrlərdə Qafqaz Albaniyasında xristianlığın mərkəzlərindən olan Kişdə (Qişdə) tikilmiş IV əsrə aid məbəd tarixi abidə kimi dövlət tərəfindən qorunur. Məbədin günbəzi iç tərəfdən metal pulları cəzbetmə xüsusiyyətinə malikdir. Bu cür magik xüsusiyyətinə görə bura müqəddəs yerlərdən biri hesab olunur. Yerli əhali arasında deyirlər ki, buraya ziyarətə gələn şəxs ürəyində bir niyyət tutur, onun yapışdırmaq istədiyi pulu divar cəzb edərsə, niyyəti baş tutmuş hesab olunur.

Prezident İlham Əliyev və Mehriban xanım da ürəklərində niyyət tutaraq, metal pulu divara yapışdırdılar.

Dövlətimizin başçısı orta əsrlərə aid qəbirlərə, Kiş kəndi ərazisində tapılmış maddi-mədəniyyət nümunələrinə, Yaloylutəpə mədəniyyətinə aid tapıntılara, Qafqaz Albaniyasının tarixi xəritəsinə baxdı.

Məlumat verildi ki, məbədin həyətində uzunluğu 2, eni isə 1 metrdən çox olan yastı daş vardır. Yerli camaat yeriməyən, dil açmayan və ya şikəstliyi olan uşaqları bu daşın üstündə oturtmaqla onları ruhi və cismani xəstəliklərdən xilas etməyin mümkün olduğunu bildirir.

Sonra Prezident İlham Əliyev məbədin həyətində qədim dövrün memarlıq abidələrinə aid yaradılmış xüsusi güşələrə, Kiş məbədinin müxtəlif dövrlərdəki vəziyyətini əks etdirən maketlərə də tamaşa etdi. Bildirildi ki, sovet dövründə alban məbədində təmir işləri aparan erməni mənşəli bərpaçılar bu abidəyə süni düzəlişlər edərək saxtalaşdırmışlar. Lakin Norveçdən dəvət olunmuş mütəxəssislər araşdırma apardıqdan sonra bu məbədin əvvəlki görkəmi bərpa edilmişdir.

Prezident İlham Əliyev və xanımı burada çay süfrəsinə dəvət olundular, məbədə aid fotoalboma baxdılar. Dövlətimizin başçısı fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

“Kiş kəndində yerləşən qədim alban məbədi dünya əhəmiyyətli tarixi

abidədir. Azərbaycanın qədim tarixi öyrənilməli və dünya ictimaiyyətinə təqdim edilməlidir.

Ölkəmizin tarixi abidələrini qorumaq və bərpa etmək dövlətimizin borcudur.

Bütün dinlərin tarixi və mədəniyyət abidələri bizim üçün əzizdir. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. 13.04.2006-cı il”.

***13 aprel 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LATIN MƏDƏNİYYƏTİ AKADEMİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfransda iştirak edən Latın Mədəniyyəti Akademiyasının nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları görməkdən çox şad olduğunu söylədi, beynəlxalq tədbiri məhz Bakıda keçirdiklərinə görə onlara minnətdarlığını bildirərək dedi ki, zənnimcə, konfransın burada təşkili bir-birimizi tanımaq üçün və ölkələrimizin daha da yaxınlaşmasından ötrü yeni imkanlar açacaq və sizin ideyalar regionda daha yaxşı şəkildə təşviq olunacaqdır. Azərbaycan çox mühüm bir məkanda yerləşir, müstəqil dövlət kimi gəncdir. Biz cəmi 15 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Lakin bizim tariximiz olduqca böyükdür və genişdir, zəngin adət-ənənələrimiz var. Əsrlər boyu müxtəlif millətlərin, dinlərin nümayəndələri Azərbaycanda sülh və dostluq şəraitində yaşamışlar. Buna görə konfransın mövzusu, yəni, sivilizasiyalar arasında dialoq bizə yaxşı məlum olan mövzudur. Azərbaycan regionda nadir yerlərdən biridir ki, biz burada qarşılıqlı hörmət, ehtiram, anlaşma müşahidə edirik. Bütün dinlər arasında anlaşma var. Azərbaycanda tarix boyu dinlərarası heç bir münaqişə və yaxud toqquşma olmamışdır və mən əminəm ki, bu dostluq və qardaşlıq ruhu gələcəkdə daha da möhkəmlənəcəkdir. Mən hesab edirəm ki, ölkəmizin bu sahədəki təcrübəsi dünyanın müxtəlif guşələrində də öyrənilə bilər. Əgər millətlər sülh şəraitində yaşayırlarsa, ölkənin sürətli inkişafı da təmin edilir. Biz çoxmillətli ölkəyik, burada bir çox xalqların nümayəndələri yaşayır və onlar özlərini təhlükəsiz və rahat hiss edirlər.

Prezident İlham Əliyev daha sonra dedi ki, dünyanın hazırkı inkişaf mərhələsində biz sivilizasiyalar arasında dialoqdan danışırıq. Lakin bəzi hallarda reallıqda biz təhlükəli meyillər, toqquşmalar, təcridolunma və digər hallar görürük və bunları dini mənsubiyyətlə bağlayırlar. Bu, çox təhlükəli meyillərdir. Çünki bunun çox gözlənilməyən nəticələri olur. Mən hesab edirəm ki, dünyanın aparıcı intellektual dairələri – alimlər, qabaqcıl insanlar birgəyaşayış prinsiplərinin, dinlər arasında, xalqlar, millətlər arasında anlaşmanın təşviq olunmasında rol oynaya bilərlər. Beləliklə, təcridolun-

manın qarşısını alarlar və bütün millətlərin nümayəndələri yan-yana yaşaya bilərlər. Hesab edirəm ki, bu konfransın keçirilməsi ideyası və orada müzakirə olunan məsələlər bütün bəşəriyyət üçün vacibdir. Əgər biz xalqlar arasında sülhün bərqərar edilməsinə nail ola bilsək, onda ölkələr, əsasən, özlərinin gündəlik problemlərinə daha çox diqqət ayıra biləcəkdir. Belə olsa, dünyada təhlükələrin sayı da azalacaqdır.

İndi Azərbaycan bu istiqamətdə inkişaf etməyə çalışır. Qonşularımızla çox yaxşı münasibətlərimiz var, çünki biz bu regionda yaşayırıq. Regional inkişaf və regional təhlükəsizlik bizim üçün vacibdir və bunun bizə praktik təsiri var. Bildiyiniz kimi, Azərbaycan dünya birliyinə fəal inteqrasiya olunur. Biz Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə qoşulmuşuq. Sülh olmadan siyasi, iqtisadi inkişaf baş verə bilməz. Eyni zamanda, ölkədə yaşayan xalqlar arasında problemlər olsa, biz buna nail ola bilmərik.

Bir sözlə, sizin keçirdiyiniz çox yaxşı konfransdır, yaxşı gündəliyi var. Konfransı keçirmək üçün çox müdrik olaraq, məhz bizim ölkəmizi seçmisiniz. Buna görə də sizə minnətdaram. Sizdən xahiş edirəm ki, vaxtınızı konfransa sərf etməklə yanaşı, boş vaxt tapıb Bakının tarixi yerlərini də gəzin, insanlarımızla görüşlər keçirin və Azərbaycanın bugünkü həyatı ilə daha yaxından tanış olun.

Sizi bir daha salamlayır və sizə uğurlar arzulayıram. Sağ olun.

***19 aprel 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA "ÜNS YARADICILIQ SƏHNƏSİ" TEATRININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Bakıda, Neftçilər prospekti 69 ünvanında yerləşən "ÜNS yaradıcılıq səhnəsi" teatrının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və qızı Arzunu binanın qarşısında "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva, Rusiyanın və Azərbaycanın tanınmış incəsənət və mədəniyyət xadimləri böyük hörmət və ehtiramla qarşıladılar, onlara gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev üzərinə "ÜNS yaradıcılıq səhnəsi" 2006-cı ildə yaradılmışdır. Bu mədəni layihə Aida xanım İmanquliyevanın xatirəsinə ithaf olunur" sözləri yazılmış lövhəni və teatr binasının xarici görünüşünü seyr etdi.

Dövlətimizin başçısı teatrın rəmzi açılışını bildirən lenti kəsdi, ailə üzvləri ilə birlikdə teatrın foyelərinə, aktyor otaqlarına, səhnənin quruluşuna baxdı.

Binanın təmir-tikinti işləri on ay çəkmişdir. Yeni tikilmiş hissənin memarı Oqtay Səttarovdur. Rəssam Altay Sadıqzadənin dizaynı əsasında qurulmuş metal konstruksiyalar teatrın əsas giriş hissəsinə xüsusi yaraşıq verir. Hər iki foyedə güclü obrazlılığa və təsir gücünə malik müasir sənət nümunələri, rəsm əsərləri asılmışdır. Teatrın binasının önündə və foyedə qoyulmuş heykəltəraşlıq əsərləri xalq rəssamı Fuad Salayevə məxsusdur, burada poetik və satirik obrazlar böyük ustalıqla işlənmişdir.

"ÜNS yaradıcılıq səhnəsi" nəzdində xeyriyyəçi gənclər qrupu da fəaliyyət göstərir.

Sonra teatrın təntənəli açılışı oldu. "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva mərasim iştirakçılarını səmimiyyətlə salamlayaraq dedi ki, Azərbaycanda 150 illik bir dövrdə milli səhnəmiz zəngin teatr məktəbini formalaşdırmış və ənənələr yaratmışdır. Böyük aktyorlar Şərq mədəniyyəti üçün ənənəvi olmayan sahədə böyük uğurlar qazanmış, özlərindən sonra böyük məktəb və ənənə qoymuşlar. "ÜNS yaradıcılıq səhnəsi" teatrının əsas məqsədlərindən biri Azərbaycan-

da teatr sənətinin zəngin ənənələrinə əsaslanaraq onu indiki, müasir səviyyəyə qaldırmaq, bir növ ənənəni və yeniliyi birləşdirməkdir.

Qeyri-kommersiya xarakterli olmaqla fikri, ideyanı, mənəvi tələbatı reallaşdırmaq məqsədi daşıyan layihədə üstünlük teatr tamaşalarına verilsə də, burada ədəbi-bədii axşamlar, maraqlı şəxsiyyətlərlə görüşlər, maarifçi xarakterli tədbirlər də təşkil ediləcəkdir. Çünki məhz bu teatr mədəniyyətin bir çox növlərini və janrlarını özündə təmsil edir və mərkəzi xarakter daşıyır.

O xüsusi vurğuladı ki, bu layihənin ideya istiqamətlərindən biri də Şərq və Qərb mədəniyyətləri birliyinin bədii əksini sənətdə və mədəniyyətdə göstərməkdir. Bu mədəni layihə anamın – öz həyat və yaradıcılığı ilə sanki Şərq və Qərb birliyini təmsil edən, XX əsr milli elmimizin və mədəniyyətimizin tanınmış şərqşünas alimi Aida xanım İmanquliyevanın xatirəsinə ithaf olunur.

Sonra “ÜNS” teatrının ilk səhnə əsəri – “Bakı” musiqili tamaşası göstərildi. Tamaşanı yüksək peşəkarların rəhbərliyi altında Bakı Musiqi Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Bülbül adına orta ixtisas musiqi məktəbinin tələbələri – 16 gəncdən ibarət kollektiv hazırlamışdır. Tamaşada unudulmaz bəstəkar Tofiq Quliyevin 30 mahnısından istifadə olunmuşdur. Dinləyicilər nəğmələrlə yanaşı, çox az ifa olunan və geniş auditoriyaya bəlli olmayan melodiyalara maraqla qulaq asdılar. Bu mahnılar Moskva arxivlərində uzun axtarışlardan sonra tapılmış və musiqisevərlərə yenidən təqdim edilmişdir.

Tamaşanın quruluşu üzərində Rozetta və Maksimilian Nemçinskilər (Moskva), xalq artisti Azər Paşa Neymət (Bakı) işləmişlər. İştirakçıların vokal hazırlığına Rauf Babayev rəhbərlik etmişdir. Səhnənin dekorativ fonu rəssam Altay Sadıqzadənin əsərlərindən ibarətdir. Tamaşanı müşayiət edən tanınmış caz qrupu – Salman Qəmbərov və “Bakustic-jazz” Tofiq Quliyevin mahnılarının işlənilməsində melodiyaların təravət və gözəlliyini olduğu kimi saxlamış, onları yeni müasir çalarlarla zənginləşdirmişdir. Əsərin “Bakı” adlanması isə təkcə şəhər və paytaxt mənasında deyil, mentaliteti, həyat və təfəkkür tərzini, insanların, mədəniyyətlərin və dünyagörüşlərin bir şəhər daxilində birliyini təmsil etmək mənasını verir.

Tamaşanın sonunda bu günün vətənpərvərlik ruhuna tam uyğun gələn “Azərbaycan” mahnısı səsləndirildi və tamaşaçıların hərarətli, sürəkli alqışları ilə qarşılandı.

***22 aprel 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MUSİQİ XADİMİ, "İPƏK YOLU" LAYİHƏSİNİN RƏHBƏRİ, ABŞ VİOLONÇELÇALANI YO YO MANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev musiqi xadimi, "İpək Yolu" layihəsinin rəhbəri, ABŞ violonçelçalanı Yo Yo Manı qəbul etmişdir.

Yo Yo Ma Azərbaycana səfərini çox böyük səbirsizliklə gözlədiyini və ölkəmizə gəlişindən dərin məmnunluq keçirdiyini bildirmişdir. O, Azərbaycan mədəniyyətinin bir sıra nümayəndələri ilə bundan öncə görüşdüyünü vurğulayaraq, ölkəmizdə son illər mədəniyyətin inkişafı sahəsində böyük işlər görüldüyünü qeyd etmişdir.

Dövlətimizin başçısı məşhur mədəniyyət xadimi Yo Yo Manın ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etmiş və bu cür səfərlərin Azərbaycan mədəniyyəti haqqında dünyada dolğun məlumatın yayılması işində əhəmiyyətini vurğulamışdır.

***19 may 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 120 İLLİYİNƏ HƏSR EDİLMİŞ MUĞAM KONSERTDƏ OLMUŞDUR

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü və dəstəyi ilə təşkil olunmuş konsertdə xalq artistləri Möhlət Müslümovun (tar) və Fəxrəddin Dadaşovun (kamança) müşayiəti ilə xalq artistləri Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Aygün Bayramova və Mənsum İbrahimovun ifasında səslənən muğamlar musiqi xəzinəmizin bənzərsiz incilərinin əzəmətini bir daha nümayiş etdirdi.

Üzeyir Hacıbəyovun 120 illiyi ilə əlaqədar "Space" televiziyasının keçirdiyi "Televiziya muğam müsabiqəsi-2005"in finalçılarının – Babək Niftəliyev, Vəfa Orucova, İlkin Əhmədov, Təyyar Bayramov, Qoçaq Əsgərov, Elnur Zeynalov, Elşad Aydınoğlu, Pərvaz İbrahimli, Zülfiyyə Məmmədova, Aytən Məhərrəmova, Bəyimxanım Mirzəyeva və Gülnar İsayevanın məharətli ifaları da xoş təsir bağışladı. Gənc ifaçıları istedadlı musiqiçilər – "Humay" mükafatı laureatları, tarzən Elçin Həşimov və kamançaçalan Elnur Əhmədov, habelə nağaraçalan Kamran Kərimov müşayiət edirdilər.

Xalq artisti Alim Qasımovun qızı Fərqanə ilə birgə çıxışı hərarətli alqışlarla qarşılandı.

Müvəffəqiyyətlə keçən konsert başa çatdıqdan sonra səhnə arxasına gələn Prezident İLHAM ƏLİYEV muğam ifaçılarını təbrik edərək dedi:

– Çox gözəl konsert oldu. Hamımız müsabiqəni iki ay ərzində televiziya vasitəsilə izlədik. Bu, böyük hadisədir. Milli sərvətimiz olan muğam sənətimiz yaşayır və nə qədər ki, Azərbaycan xalqı yaşayacaq, muğam sənəti də yaşayacaqdır. Bu gün muğamın yeni dövrü başlayır. Mən hamınıza – həm ustadlara, həm də müsabiqə iştirakçılarına dərin təşəkkürümü bildirmək istəyirəm. Bu konsertdə iki nəsil – həm ustadlarımız, həm də gənclərimiz, uşaqlarımız, balalarımız iştirak edirdilər. Çox gözəl bir konsert oldu. Həqiqətən, bütün salonda əhval-ruhiyyə çox yüksək idi. Ona görə dərin minnətdarlığımı bildirir və sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Xalq artistləri Arif Babayev, Mənsum İbrahimov dövlətimizin başçısı-

na təşəkkür edərək müraciətlə dedilər ki, cənab Prezident, bütün bunlar Sizin sayənizdə mümkün olmuş, hazırda muğamımız bu səviyyəyə yüksəlmişdir. Biz sənət adamlarıyıq. Yaşlılar, cavanlar – hamımız deyirik ki, Allah Sizə ömür versin, yüz yaşayasınız. Nə arzularınız varsa, hamısı həyata keçsin.

Onlar qədim muğam sənətimizin qorunub-saxlanması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, nəhayət, muğamın inkişafı, yeni ifaçılar nəslinin yetişdirilməsi sahəsində Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın gördüyü işləri yüksək qiymətləndirdilər və ona bir daha dərin minnətdarlıqlarını bildirdilər.

Prezident İlham Əliyev vurğuladı ki, Mehriban xanımın rəhbərlik etdiyi həm Heydər Əliyev Fondu, həm də Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən müsabiqə təşkil olunmuşdur. Muğam Mərkəzi də tikiləcəkdir. Biz onun təməl daşını bərabər qoyduq. İndi yaxın zamanlarda tikinti başlayacaqdır və o, Muğam Mərkəzi kimi əbədi yaşayacaqdır.

Sağ olun. Sizə bir daha təşəkkür edirəm.

***13 iyun 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİM OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı İlham Əliyev bildirdi ki, Azərbaycan və Qazaxıstan respublikaları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə Oljas Süleymenovu ölkəmizin yüksək mükafatı – "Şöhrət" ordeni ilə təltif etmişdir. Prezident İlham Əliyev ordeni Oljas Süleymenova təqdim edərək dedi ki, siz ölkəmizin ən ağır vaxtlarında Azərbaycan xalqının yanında olmusunuz, Azərbaycanın ərazi bütövlüyü məsələsində daim birmənalı mövqe nümayiş etdirmisiniz. Biz bunu unutmuruq və yüksək qiymətləndiririk. Azərbaycan xalqı sizi sevir, sizin yaradıcılığınız və vətəndaşlıq mövqeyiniz böyük hörmətə layiqdir.

Yüksək mükafata görə təşəkkürünü bildirən Oljas Süleymenov dedi ki, hər dəfə Azərbaycana gələndə sevinirəm, Azərbaycanın dinamik inkişafını görməyimdən çox məmnunam.

Sonra Oljas Süleymenov yenicə çapdan çıxmış kitabını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

***21 iyun 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR MUSİQİÇİ HERBİ HANKOOKU QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı Azərbaycanda caz festivalının keçirilməsinin və Herbi Hankookun bu tədbirdə iştirakının ölkəmizin mədəni həyatında mühüm hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin böyük ənənələrə malik olduğunu bildirdi və bu sahənin inkişafına daim xüsusi diqqət göstərildiyini qeyd etdi.

Herbi Hankook ölkəmizə ilk dəfə səfər etdiyini bildirdi. Caz festivalının yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdıran qonaq Azərbaycanda mədəniyyətin inkişafına dövlət tərəfindən verilən dəstəyin onda xoş təəssürat yaratdığını qeyd etdi.

***27 iyun 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PREZİDENTİN İŞLƏR İDARƏSİNİN KİTABXANASINDA OLMUŞDUR

Bu kitabxana 2003-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Bakının iki böyük kitabxanasının – keçmiş Lenin adına Mərkəzi şəhər kitabxanasının və keçmiş Siyasi maarif evinin kitabxanasının bazasında yaradılmışdır.

Kitabxana ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verildi ki, fondda XVIII-XIX əsrlərdə və XX əsrin əvvəllərində müxtəlif dillərdə çap olunmuş nadir nəşrlər saxlanılır. Kitabxananın dövri mətbuat fonduna respublikamızda və digər ölkələrdə çıxan 230 adda jurnal, qəzet və digər dövri nəşrlər daxil olur.

Prezident İlham Əliyev kitabxananın biblioqrafiya xidməti və oxu zalları ilə tanışlıqdan sonra fondun elektron nəşrlərlə komplektləşdirilməsi ilə də maraqlandı. Dövlət başçısına bildirildi ki, elektron nəşrlərə ümummilli lider Heydər Əliyevin 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi zaman söylədiyi nitqləri, məruzələri, çıxışları, müsahibələri, habelə 2003-cü ilin oktyabr ayından başlayaraq, Prezident İlham Əliyevin müxtəlif tədbirlərdəki nitq və çıxışları, həmçinin müsahibələri daxildir. Elektron nəşrlərdə ölkəmizin ictimai-siyasi və mədəni həyatının ən mühüm sahələrini əks etdirən materiallar da toplanmışdır.

Azərbaycan Prezidenti kitabxananın fondunun daha da zənginləşdirilməsi, habelə maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tövsiyələrini verdi.

***27 iyun 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "XALQ YAZIÇISI" VƏ "XALQ ŞAİRİ" FƏXRİ ADLARINA LAYİQ GÖRÜLMÜŞ BİR QRUP ƏDƏBİYYAT XADİMİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında "Xalq yazıçısı" və "Xalq şairi" fəxri adlarına layiq görülmüş bir qrup ədəbiyyat xadimi – Çingiz Abdullayev, Gülhüseyn Abdullayev (Hüseynoğlu), Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı və Zəlimxan Yaqubla görüşmüşdür.

Prezident İLHAM ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

– Keçən il sizə "Xalq yazıçısı", "Xalq şairi" yüksək fəxri adları verdim. İstəyirəm bu gün nişanları sizə təqdim edim. Çoxdan istəyirdim ki, görüşək. Amma vaxt məhdudluğundan imkan olmurdu. Sizi şəxsən bir daha təbrik etmək istəyirəm. Siz uzun illərdir ki, ədəbiyyat sahəsində çox fəal işləyirsiniz. Demək olar ki, Azərbaycanın ən görkəmli şair və yazıçılarısınız. Mən də çox şadam ki, bu yüksək adları sizə təqdim edirəm.

Bilirsiniz ki, bəzi hallarda ki, müxtəlif fikirlər olur, bu fəxri adlar olsun, ya olmasın. Əlbəttə, xalq məhəbbəti, xalq sevgisi hər şeydən üstündür və siz öz fəaliyyətinizlə, yaradıcılığınızla bunu sübut etmisiniz. Belə fikirlər var ki, bu adlara ehtiyac yoxdur. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki görkəmli mədəniyyət xadimlərinə dövlət də öz tərəfindən münasibətini bildirməli, onların fəaliyyətini qiymətləndirməlidir. Ona görə mən hesab edirəm ki, bu ənənə yaşamalıdır və Azərbaycanın qabaqcıl mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin fəaliyyəti yüksək qiymətləndirilməlidir.

Biz artıq 15 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Ondan əvvəl, əsrlər boyu Azərbaycan dövlət müstəqilliyindən məhrum olmuşdur. Bizim xalqımız müəyyən dövrlərdə müstəmləkə şəraitində, müəyyən dövrlərdə başqa formada başqa ölkələrin tərkibində yaşamışdır. Sual olunur, necə olub ki, bütün bunlara baxmayaraq, Azərbaycan öz xüsusiyyətlərini saxlamışdır? Azərbaycan xalqı assimilyasiyaya məruz qalmamış, öz tarixi keçmişini qoruyub saxlaya bilmişdir?

Mən hesab edirəm ki, müxtəlif amillər olubdur. Amma onların içərisində ana dili və ədəbiyyat ən başlıca amildir. Çünki bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir.

Azərbaycanın keçmişində bütün dövrlərdə sənət adamları – şairlər, yazıçılar ictimai-siyasi həyatda da həmişə çox fəal olmuşlar. Bəlkə də başqa keçmiş sovet respublikaları ilə müqayisə etsək görərik ki, məhz Azərbaycanda bu sahəyə həmişə böyük maraq olmuşdur. Deyə bilərəm ki, bizim yazıçılarımız, şairlərimiz Azərbaycanda ən populyar insanlardır. Keçmişdə də belə olub və bu gün də belə olmalıdır.

Düzdür, bütün inkişaf etmiş ölkələr kimi, indi Azərbaycan da öz fəaliyyətini bazar iqtisadiyyatı prinsipi əsasında qurur. Əlbəttə, dünya praktikası artıq sübut edib ki, bu, ən mütərəqqi bir yanaşmadır. Ancaq bəzi hallarda əgər mənəviyyat itirsə, mənəvi dəyərlər o bazar iqtisadiyyatı içərisində əridilirsə, bu, cəmiyyətin normal yaşamasına böyük təhlükə yarada bilər. Biz çalışmalıyıq ki, ölkəmizin uğurlu iqtisadi inkişafını şərtləndirən bütün amillərlə yanaşı, mütləq və mütləq mənəvi dəyərlər itməsin. Bizim ənənələrimiz, tarixi nailiyyətlərimiz saxlanılsın, qorunsun. Əlbəttə, ölkənin gücü, zənginliyi onun iqtisadi qüdrətindədir. Ancaq, eyni zamanda, onun mənəvi gücündədir. Ona güc verən məhz mənəvi dəyərlərdir. Əlbəttə, bunda yazıçıların, şairlərin əvəzsiz rolu vardır.

Biz hamımız istəyirik ki, ölkəmiz daha da müasirləşsin, zənginləşsin, qüdrətlənsin və bütün amillər bunda mühüm rol oynamalıdır. Ona görə mən çalışıram ki, bu sahə də daim diqqətlə əhatə olunsun. İqtisadi nailiyyətlərlə yanaşı, bu sahədə də böyük irəliləyiş olsun. Cəmiyyət bunu tələb edir və Azərbaycanın hərtərəfli inkişafı bunu tələb edir. Çalışıram ki, öz fəaliyyətimdə bu prinsipləri eyni səviyyədə saxlayım və beləliklə, ölkəmizin normal, hərtərəfli inkişafına daha da sürətlə nail olaq.

Sizi bir daha görməyimə də şadam. Sizi bu hadisə münasibətilə təbrik edir və uğurlar arzulayıram.

◆◆◆

İndi isə icazə verin, mən nişanları təqdim edim.

Sonra Çingiz Abdullayevə, Gülhüseyn Abdullayevə (Hüseynoğlu), Nəriman Həsənzadəyə, Sabir Rüstəmxanlıya və Zəlimxan Yaquba "Xalq yazıçısı" və "Xalq şairi" fəxri adlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının mətni oxundu.

Dövlətimizin başçısı İlham Əliyev görüş iştirakçılarına nişanları və vəsiqələri təqdim etdi.

“Xalq yazıçısı” adına layiq görülən Azərbaycan Yazıçılar Birliyinin katibi ÇİNGİZ ABDULLAYEV ürək sözlərini çatdıraraq dedi:

– Çox sağ olun ki, bu gün Siz şəxsən özünüz vaxt tapıb nişan və vəsiqələri bizə təqdim etdiniz. Öz adımdan deyə bilərəm ki, bu, mənim üçün çox gözlənilməz oldu. Mən bunu Sizə demişəm, indi də deyirəm: hesab edirəm, bundan sonra da çalışmalıyam ki, Azərbaycan mədəniyyəti, ədəbiyyatı inkişaf etsin, bütün dünyada bizi tanısınlar. Söz verirəm, indiyədək necə işləmişəmsə, eləcə də işləyəcəyəm ki, bizi bütün dünya tanısın. Azərbaycan yazıçılarını, onların əsərlərini dünyanın hər yerində tanısınlar. Çox sağ olun.

Xalq şairi NƏRİMAN HƏSƏNZADƏ yüksək fəxri ada görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi, Prezident İlham Əliyevin Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinə göstərdiyi diqqət və qayğını xüsusi vurğuladı.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

– Bu, yaxşı fürsətdir, bir az söhbətləşək. İndi hansı məsələlər var, hansı problemlər var, narahatedici məqamlar nədir, mən necə kömək edə bilərəm. Çünki bilirsiniz, mən bir daha demək istəyirəm, bu, çox vacib sahədir. Ölkəmizin inkişafının möhkəmlənməsi üçün, xalqımızın daha da tərəqqisi üçün, bütövlükdə, bu humanitar sahəyə böyük diqqət göstərilməlidir. Mən də çalışıram başqa cəhətlərdən, maddi cəhətdən kömək edim. Əlavə nə kimi tədbirlər görülməlidir? Misal üçün, kitablarımızın latın qrafikası ilə çap olunmasına qısa müddət ərzində nail olduq. Əlbəttə, bu, böyük hadisədir. Amma dövlət, hökumət başqa hansı tədbirləri görməlidir ki, biz bu işdə istədiyimizə daha da tezliklə nail olaq. Bəlkə hansısa təklifləriniz var, hansısa narahatedici məsələlər var?

Xalq şairi SABİR RÜSTƏMXANLI dövlətimizin başçısına müraciətlə dedi:

– Cənab Prezident, mən də təşəkkür etmək istəyirəm. İstənilən bir qələm adamı üçün şübhəsiz, ən böyük ad, mükafat xalq şairi və xalq yazıçısı olmalıdır. Çünki ömrün boyu millət üçün yazırsan və bundan yüksək ad yoxdur. Bu fəxri adın rəsmi sənədini, vəsiqəsini Sizin əlinizdən almaq bizə çox xoşdur.

Azərbaycanın tarixində bəxti gətirməyən bir zümrə varsa, o da ziyalılardır. Bütün tariximiz boyu ziyalılar döyülüblər, söyülüblər, dərisi soyulub, dar ağacından asılıb, çox müsibətlər görüblər. Bu gün bu otaqda mərhum Prezidentimiz Heydər Əliyevin xatirəsi və ruhu qarşısında bir şeyi etiraf et-

məliyəm, onun dövrü bəlkə də Azərbaycan tarixinin yeganə dövrü olub ki, ziyalılar bu qədər ciddi qayğı görüblər.

Rəssama, bəstəkara, şairə, alimə – bütün ziyalılara son dərəcə yüksək qiymət verilibdir. Biz bunu onun özünün iştirakı ilə dəfələrlə demişik. Onun ziyalılara xüsusi bir münasibəti var idi. Ziyalısız bir millətin perspektivinin olmadığını gözəl hiss edirdi, bilirdi. Həmişə, bütün şəraitlərdə, lap SSRİ-nin sərt çərçivələri dövründə də Azərbaycan ziyalılarını çox yüksək səviyyədə təbliğ edirdi. Biz SSRİ Yazıçılar İttifaqına gedəndə divarda Sosialist Əməyi Qəhrəmanlarının şəkilləri arasında birdən-birə dörd azərbaycanlını görəndə sevinirdik ki, heç bir respublikada belə bir hal yoxdur. Mən sevinirəm ki, həmin ənənə, başqa sahələrdə olduğu kimi, bu gün də davam edir, yaşayır.

Ən ağır vaxtlarda bizim ziyalılara Prezident təqaüdünün verilməsini də demək istəyirəm. Bəzi MDB ölkələrindən maraqlanırdılar ki, ziyalılarınızın vəziyyəti necədir. Deyəndə ki, Azərbaycanda belə bir ənənə var, onlar doğrudan da heyrətlənirdilər. Təbii ki, hamının, xalqın vəziyyəti yaxşılaşmalıdır. Amma bir də fərdlər var ki, onlar tarixin yetişdirdiyi xüsusi adamlardır. O adamları çətin dövrdə xilas etmək, əslində, ölkənin mədəniyyətinə və gələcəyinə xidmətdir. Bu iş görülüb və bu gün də davam edir və ona görə Sizə çox minnətdaram. Mən istəyirəm ki, Azərbaycan ziyalılarına Prezident səviyyəsində olan münasibət kiçik idarələr tərəfindən pozulmasın. Bəzən xırda məmurlar ziyalını, sənət adamını nəzərə almır. Çünki o sahəni bilmir və buna görə də həmin sahəyə yabançı baxır. Gərək onlar da bu münasibəti nəzərə alsınlar.

1989-cu ildə Bakıda "Səadət" sarayının bir hissəsi Bakı Şəhəri İcra Hakimiyyətinin qərarı ilə Ziyalı evi kimi təsdiq olunmuşdur. Bakı kimi bir şəhərdə Ziyalı evi yoxdur. Yaradıcılıq evləri var, o da bəzi insanlar üçündür. Amma ümumi bir Ziyalı evinin olması zəruridir və Azərbaycanın bütün elitar ziyalı təbəqəsi orada görüşə, yığışa, müəyyən tədbirlər keçirə bilər. Məncə, buna ehtiyac vardır.

İLHAM ƏLİYEV: Çox sağ olun ki, vacib məsələyə toxundunuz. Doğrudan da, gərək bütün məmurlar, bütün dövlət strukturlarında işləyənlər ziyalılara daha böyük diqqət və qayğı ilə yanaşsınlar. Mənim mövqeyim belədir. Hamımız bilirik ki, hər bir cəmiyyəti irəliyə aparan, tərəqqiyə aparan, inkişaf etdirən aparıcı qüvvə var. Bu, həm siyasi elitadır, eyni zamanda, ziyalı elitasıdır. Yəni cəmiyyətin önündə gedənlərdir. Onlar bütün dövrlərdə, – bunu hər bir ölkəyə şamil etmək olar, – ölkənin uğurlarını müəyyən ediblər, təmin ediblər. O cümlədən Azərbaycanda da. Ona görə ziyalılar cəmiy-

yətimizin elitasıdır və ölkənin inkişafı xeyli dərəcədə onların fəaliyyətindən asılıdır. Belə olan halda, ziyalı insanlara maksimum dərəcədə qayğı, diqqət göstərilməlidir, onlar yaxşı yaşamalıdırlar.

Bilirsiniz, indi biz özümüzü keçmişdə olan bəzi xoşagəlməz hallardan təmizləyirik. Amma etiraf etməliyik ki, sovet dövründə ziyalı insanlara xüsusi münasibət var idi, yəni çox təqdirəlayiq münasibət var idi. Onların maddi vəziyyəti, təminatı, yaradıcılıq evlərinin tikintisi – bütün bunlar var idi. Biz bunu etiraf etməliyik. Sovet İttifaqı dağılandan sonra, əlbəttə ki, bütün respublikalar çətin vəziyyətə düşdü. İlk növbədə, bütün təsərrüfat əlaqələri kəsildi və beləliklə, hər bir respublika, artıq müstəqil ölkə çətinliklərlə üzləşdi, o cümlədən də Azərbaycan. Belə olan halda, əlbəttə, mədəniyyət sahəsinə diqqət azalmışdı. Ona görə yox ki, siyasət belə idi. Ona görə ki, imkan yox idi, maddi imkanlar yox idi.

Hamımız yaxşı xatırlayırıq ki, 1990-cı illərin əvvəllərində, daha doğrusu, 1990-cı illərin ortalarına qədər Azərbaycanda çox ciddi iqtisadi böhran yaşanırdı. Ancaq indi ölkəmiz güclənir, maddi imkanlarımız artır və ilk növbədə, ziyalı insanların bütün təminatı daha da yüksək olmalıdır. Prezident təqaüdlərinin təsis edilməsi də bu məqsədi güdürdü. Çünki hansısa işlə, ticarətlə, yaxud da bizneslə məşğul olan insanlar özlərini təmin edirdilər. Ancaq yazıçı, alim, ziyalı insan çətin vəziyyətə düşürdü. Çünki onun qazancı onun kitablarından əldə edilən gəlirlər idi, qonorarlar idi. Kitablar isə çap olunmurdu, vəsait ayrılmırdı. Belə olan halda, bu insanlar çox çətin vəziyyətə düşdülər. Bir vaxt olduqları ən qabaqcıl mövqelərdən ən çətin vəziyyətə düşdülər. O cümlədən, akademiya üzvləri. Siz bunları yaxşı bilirsiniz. Biz bunları bərpa etməliyik. Prezident təqaüdlərinin təsis edilməsinin məqsədi də məhz bunda idi.

İndi imkanlarımız daha da genişdir. Ona görə mən istəyirəm biz bu sahədə daha da geniş proqramlar müəyyən edək. Həm bizim görkəmli yazıçılarımızı, mədəniyyət xadimlərimizi, eyni zamanda, gənc istedadları gərək dəstəkləyək. Gənc nəsil yetişməlidir. Sizdən sonrakı nəsil gərək bütün o gözəl ənənələri yaşatsın. Bu baxımdan bütün bu məsələlərə gərək kompleks şəkildə baxaq. Ona görə mən sizdən də təklif gözləyirəm ki, bu işləri daha da səmərəli şəkildə aparaq.

O ki qaldı Azərbaycanda gedən proseslərə, mən hesab edirəm, bu, müsbət istiqamətdə inkişaf edir. İndi həm bölgədə, həm də dünyada ölkəmizin mövqeləri möhkəmlənir. Azərbaycanın seçdiyi yol düzgün yoldur. Bunu həyat, praktika sübut edir. Prezident kimi mənim də əsas məqsədim Azərbaycanı daha da möhkəmləndirmək, insanların həyat səviyyəsini yax-

şılaşdırmaq və bütövlükdə, ölkəmizi qorumaqdır. Çünki indi dünya və bizim bölgə, necə deyərlər, elə bir dövrə qədəm qoyur ki, müəyyən risklər artır. Bəzi hallarda təhlükələr artır. Azərbaycanın yerləşdiyi bölgə çox həssas bölgədir. Burada müxtəlif maraqların toqquşması da baş verir. Azərbaycanın nüfuzu və önəmi artır. Əlbəttə, bunun çox müsbət əlamətləri var. Eyni zamanda, bizə maraq da, diqqət də artır. Bəzi hallarda bu maraqlar burada toqquşur.

Bilirsiniz, həmişə mən demişəm ki, ilk növbədə, Azərbaycanın milli maraqları qorunmalıdır və biz onları təmin etməliyik. Bu gün və gələcəkdə ilk növbədə, Azərbaycanın təhlükəsizliyi təmin olunmalıdır ki, bizim xalqımız rahat yaşasın. Bizim siyasətimiz belədir ki, özümüzə aid olmayan məsələlərə müdaxilə etmirik, heç bir başqa ölkənin daxili işlərinə qarışmırıq. Bu, bizim prinsipial siyasətimizdir. Bütün dost, tərəfdaş ölkələrlə səmərəli münasibətlər qurulmasının tərəfdarıyıq.

Bir daha deyirəm, indiki dövrdə biz hər şeyi etməliyik ki, ölkəmizi qoruyaq. Bunu etmək üçün, əlbəttə, iqtisadi potensial möhkəmlənməlidir. Bizim bölgədəki mövqelərimiz güclənməlidir. Bunu etmək üçün, şübhəsiz ki, ikitərəfli müstəvidə, regional əməkdaşlıq çərçivəsində qonşu dövlətlərlə, tərəfdaşlarla münasibətlər daha da möhkəmlənməlidir. Daxildə gedən proseslər müsbət istiqamətdə inkişaf etməlidir. Aşkarlıq, demokratikləşmə, ictimai nəzarət – bütün bunlar bir-birilə çox bağlı olan məsələlərdir.

Mən bir neçə dəfə demişəm, iqtisadi cəhətdən güclü olmaq hələ o demək deyil ki, bütün məsələlər həllini tapacaqdır. Biz dünya təcrübəsini də, keçmişi də, tarixi də bilirik, oxumuşuq, öyrənmişik. Əgər ictimai quruluş insanlara məhdudiyyətlər tətbiq edirsə, heç bir iqtisadi irəliləyiş uğura gətirib çıxarmaz. Sovet İttifaqının təcrübəsini o dövlətdə yaşamışıq. İqtisadi cəhətdən, təbii ehtiyatlar, neft, qaz, sənaye kompleksi, hərbi sənaye – bütün sahələrdə ən zəngin ölkə idi. Amma ölkə dağıldı. Nəyə görə? Çünki ictimai quruluş belə idi ki, onun davamlı inkişafı mümkün deyildi. Bu, nə vaxtsa qurtarmalı idi. Elə də oldu.

Ona görə iqtisadi islahatlar, sərbəst bazar iqtisadiyyatı, eyni zamanda, azad cəmiyyət, demokratik cəmiyyət – yalnız və yalnız bunların sintezi uğura gətirib çıxara bilər. Sadəcə olaraq, baxmaq lazımdır ki, hansı ölkələr bu gün dünyada gedən proseslərə təsir edir, onları müəyyən edir, hansı ölkələr, sadəcə olaraq, buna passiv tamaşa edir. Onda görərik ki, o ölkələr öndədir ki, orada həm iqtisadi, həm də siyasi cəhətdən, ictimai məsələlər baxımından işlər düzgün qurulubdur. Biz də istəyirik ki, Azərbaycan qüdrətli döv-

lətə çevrilsin. Bunu etmək üçün bütün bu amillər bir-birilə çox bağlıdır və böyük əhəmiyyət kəsb edir.

Bizim böyük nailiyyətimizdir, bizim böyük uğurumuzdur ki, Azərbaycanda daxildə vətəndaş cəmiyyəti yaradılması sahəsində işlər görülür, vətəndaş həmrəyliyi var, yekdil fikir var. Azərbaycanın bütövlükdə gələcək inkişafı ilə bağlı ictimaiyyətdə fikir ayrılığı yoxdur. Çox vacibdir ki, biz bilirik haraya gedirik. Biz gələcəyi, 5 ildən sonra, 10 ildən sonra, 20 ildən sonra nə olacağını görməliyik. Bu gün Azərbaycanın uzunmüddətli inkişaf strategiyası müəyyən olunur, çünki ölkə yeni bir dövrə qədəm qoyur. Müstəqillik qazanıldıqdan sonrakı birinci dövr başa çatıbdır. O, kiçik dövrlərə də bölünə bilər, amma bütövlükdə bu, artıq başa çatıbdır. İqtisadi çətinliklər, torpaqlarımızın işğal olunması, bölgədəki gərginliklər və böhrandan çıxmaq məsələləri və sabitləşmə prosesi.

Bu gün yeni dövr başlayır. Bu, sırf Azərbaycanın inkişafı ilə bağlı dövr olacaqdır. Mən demişəm və bir də demək istəyirəm ki, Azərbaycanda yoxsulluq, işsizlik aradan qaldırılacaq, güclü sənaye potensialı yaranacaq və ölkəmiz demokratik inkişaf baxımından çox sürətlə irəliyə gedəcəkdir. Yəni bir sözlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsindən başqa mən bizim qarşımızda elə ciddi problem görmürəm. Mən əminəm ki, biz onu da həll edəcəyik. Bizim buna iradəmiz də çatır, gücümüz də çatır. Sadəcə olaraq, istəyirik bunu sülh yolu ilə həll edək ki, qan tökülməsin, müharibə olmasın.

Ancaq bilirsiniz ki, biz bütün başqa variantlara da hazır olmalıyıq və hazırlaşırıq. Çünki biz heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılması ilə barışmayacağıq. Ermənistanın mövqeyi qeyri-konstruktivdir. Faktik olaraq, indi onlar çıxılmaz vəziyyətdədirlər. Çünki həm siyasi, həm tarixi, həm də ümumi cəhətdən haqsızdırlar. Dağlıq Qarabağ tarixi baxımdan, siyasi cəhətdən Azərbaycan torpağıdır. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və indi siyasi cəhətdən Azərbaycan Ermənistandan qat-qat üstün mövqelərə malikdir. Hüquqi cəhətdən də həmçinin. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü Dağlıq Qarabağ daxil olmaq şərtilə tanıyır. Belə olan halda, hansı güzəştlərdən söhbət gedə bilər? Bizim ermənilərə, Ermənistana məxsus olan nəyimiz var ki, onlara güzəşt edək. Biz onlara güzəşt edə bilmərik. Ərazi bütövlüyü güzəşt predmeti ola bilməz. Güzəşt ondan ibarət ola bilər ki, bəli, məsələnin həlli üçün sülhməramlı qoşunlar gələ bilər. Biz buna hazır ola bilərik. Halbuki, buna razılıq vermək o qədər də asan məsələ deyildir. Çünki bilirsiniz ki, Azərbaycanda heç bir başqa ölkənin silahlı birləşmələri yoxdur. Bu, bizim prinsipial mövqeyimiz-

dir. Bəzən bu barədə də çox şayiələr gəzir ki, Azərbaycanda hansısa hərbi baza yaradılacaqdır. Mənim mövqeyim açıqdır, hesab edirəm ki, buna ehtiyac yoxdur. Mən belə bir ehtiyac duymuram. Bizim bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı hörmət, dostluq müstəvisində aparılmalıdır. Yenə də deyirəm, hər bir ölkə kimi, biz də ilk növbədə, öz milli maraqlarımız haqqında fikirləşməliyik və bunu təmin edirik. Yəni ki, bu güzəşt ola bilər.

Digər tərəfdən, Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsinə razılıq böyük güzəştdir. Çünki onun statusu həmişə muxtar vilayət olubdur. Mən bəyan etmişəm, bir də deyirəm, dünyada hansı muxtariyyət statusu varsa, onun ən yüksək variantını biz burada tətbiq etməyə hazırıq. Bundan başqa güzəşt ola bilməz!

Əlbəttə, Ermənistanın vəziyyəti getdikcə çətinləşir. Onlar dünyada artıq işğalçı dövlət kimi tanınırlar. Mən bizim bütün nümayəndələrimizə göstəriş vermişəm, beynəlxalq təşkilatlarda, bütün tədbirlərdə gərək onların işğalçı siyasəti ifşa olunsun. Biz gərək öz mövqeyimizi dünya ictimaiyyətinə çatdıraq və beləliklə, təbliğat baxımından üstünlük artıq bizdədir. Ona görə ermənilər çalışırlar müxtəlif yollarla ya bizi şantaj etsinlər, ya reallığı əks etdirməyən bəyanatlar versinlər. Təəssüf edirəm ki, bunu onların rəsmi orqanları edir. Bəzi hallarda Xarici İşlər Nazirliyi həqiqəti əks etdirməyən və yaxud, necə deyərlər, daxili istehlaka yönəldilmiş qeyri-ciddi tezisləri ortaya atır.

Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur və olmayacaqdır. İnanıram ki, biz torpaqlarımızı geri qaytaracağıq. Bunu etmək üçün həm siyasi, həm iqtisadi, həm hərbi, həm də bütün başqa imkanlar var. Ona görə, bu problemdən başqa mən Azərbaycanın qarşısında ciddi problem görmürəm. Mən hesab edirəm ki, 5 ildən, 10 ildən, 15 ildən sonra Azərbaycan daha da möhkəmlənəcək və artıq bugünkü artan mövqelərini daha da gücləndirəcəkdir. Belə planlar var.

Bilirsiniz ki, indi bölgələrdə böyük abadlıq işləri gedir. Mən tez-tez bölgələrdə oluram. Hər dəfə inkişafı görəndə çox sevinirəm. Azərbaycan gərək nümunəvi ölkə olsun. Bizim buna imkanlarımız çatır və Azərbaycanın hərtərəfli inkişafı təmin ediləcəkdir. \

Bu işdə sizin də böyük rolunuz var, həmişə olub, gələcəkdə də olmalıdır ki, bizim xalqımıza xas olan mənəvi dəyərlər gərək yaşasın. Çünki bir daha demək istəyirəm, biz müstəmləkə kimi yaşamışıq, əsarət altında yaşamışıq. Azərbaycanı müxtəlif dövrlərdə işğal etmişlər, zəbt etmişlər, ancaq Azərbaycan xalqının iradəsini heç kim qıra bilməyibdir.

Müstəqillik əldə olunandan sonra Azərbaycan dərhal müstəqil dövlə-

tə xas olan bütün əlamətlərini bərpa edibdir. Bu baxımdan ədəbiyyat, tarix, ana dili kitablarımız, necə deyərlər, ən böyük rol oynayıbdır. Bəzi hallarda yəqin sizə də, mənə də sual verilir ki, necə olub, siz öz xüsusiyyətlərinizi saxlamısınız? Bizim ana dilimiz, kitablarımız, ədəbiyyatımız olubdur. Çünki o dövrdə heç bir başqa amil yox idi. Müstəqil dövlət deyildik, ideoloji çərçivələr içərisində yaşayırdıq, məhdudiyyətlər var idi. Bizi bir millət kimi saxlayan nə idi?! Bunlar idi. Gələcək inkişafı təmin edəcək amillər də bunlardır. Əlbəttə, biz iqtisadi cəhətdən güclü olanda, bütün işlər daha da sürətlə gedəcəkdir. Milli ruh, bizim mənəvi dəyərlərimiz, tariximiz, torpağa bağlılığımız – budur bizim gələcəyimizi müəyyən edən amillər.

Mən bir daha demək istəyirəm ki, bu işdə sizin fəaliyyətiniz çox önəmlidir. Bütün ziyalıların, mədəniyyət işçilərinin fəaliyyəti çox vacibdir və çox dəyərlidir. Ona görə, mən istəyirəm gələcək fəaliyyətinizdə sizə bir daha uğurlar diləyim.

Xalq şairi ZƏLİMXAN YAQUB: Siz bizə çox böyük şərəf verərək, fəxri adların təqdimatına dəvət etdiniz, buna görə çox sağ olun. Şübhəsiz, Azərbaycan xalqının əxlaqi dəyərlərini, mənəvi sərvətlərini, tarixi keçmişini, ədəbiyyatını, mədəniyyətini, incəsənətini, böyük şəxsiyyətlərini qoruyan, yüksəldən, daha da hörmətli edən bu dövlətin Heydər Əliyev ənənəsi var. Biz hamımız çox xoşbəxtik ki, bu gün həmin ənənə çox yüksək səviyyədə Sizin tərəfinizdən davam etdirilir.

İLHAM ƏLİYEV: Çox sağ olun.

***28 iyun 2006-cı il***

## UCAR RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI

Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev adına parkda ulu öndərin tuncdan tökülmüş abidəsinin təntənəli açılış mərasimində iştirak etdi. Dövlətimizin başçısı abidənin üzərindən ağ örtüyü götürdü. Abidənin müəllifləri Rəssamlıq Akademiyasının müəllimləri Nəriman Məmmədov və İslam Abdullayevdir. Qranit postamentlə birlikdə heykəlin hündürlüyü 5 metrdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydular və sonra parkı seyr etdilər. Bildirildi ki, beş hektar ərazisi olan park tamamilə yenidən qurulmuş, yaraşıqlı fəvvarələr quraşdırılmışdır. Burada şəhər sakinlərinin istirahəti üçün lazımi şərait yaradılmışdır.

***29 iyun 2006-cı il***

## "HEYDƏR PARKI" ZƏRDABLILARIN YENİ İSTİRAHƏT GUŞƏSİDİR

Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı xalqımızın ümummilli liderinin xatirəsinə salınmış və 5 hektar sahəni əhatə edən "Heydər parkı"na gəldilər.

Ulu öndərin burada ucaldılmış abidəsi parka xüsusi görkəm verir. Parkda üç fəvvarə və bir şəlalə var, üçtağlı giriş qapısı, dörd kölgəlik tikilmişdir. 8 min kvadratmetrdən çox sahədə yaşıllıq salınmışdır. Gələcəkdə daha bir fəvvarənin tikilməsi planlaşdırılır.

Dövlətimizin başçısı sakinlərin mədəni istirahətinin və asudə vaxtlarının səmərəli keçirilməsi üçün bu cür parkların salınmasının faydalı olduğunu və şəhərə xüsusi gözəllik verdiyini vurğuladı.

***30 iyun 2006-cı il***

# HEYDƏR ƏLİYEV MUZEYİ ULU ÖNDƏRİN ZƏNGİN İRSİNİN ÖYRƏNİLMƏSİNDƏ İDEOLOJİ MƏRKƏZ ROLUNU OYNAYACAQDIR

Azərbaycan Prezidenti İlham Əliyev Zərdab şəhərində Heydər Əliyev muzeyinin təntənəli açılış mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu. Şəhərin Heydər Əliyev prospektində, ulu öndərin adını daşıyan parkda yerli mütəxəssislər tərəfindən memarlıq üslubunda tikilmiş muzeydə xalqımızın ümummilli liderinin zəngin həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən kitablar, sənədlər, fotoşəkillər toplanmışdır. Muzeydə ulu öndərin büstü də qoyulmuşdur. 10 guşədə yerləşdirilmiş eksponatlar arasında ümummilli lider Heydər Əliyevin 1978-ci ildə Zərdaba gəlişini, keçirdiyi görüşləri əks etdirən bölmə xüsusi yer tutur.

Xüsusi vurğulandı ki, Heydər Əliyevin zəngin irsinin öyrənilməsində ideoloji mərkəz rolunu oynayacaq bu muzeyin yaradılması dahi şəxsiyyətə zərdablıların böyük məhəbbətinin təzahürüdür. 1978-ci ildə Kür çayında baş vermiş daşqınlarla əlaqədar Zərdab rayonu böyük fəlakətlə üzləşmişdir. Çətin gündə həmişə öz xalqı ilə bir yerdə olan ulu öndərimiz o vaxt zərdablıları darda qoymamış, rayona gələrək problemlə yerindəcə tanış olmuş və dəyərli məsləhətlərini vermiş, rayonu fəlakətdən qurtarmışdır. Ulu öndər o zaman təsərrüfatlarda da olmuş, ağsaqqallarla, ictimaiyyətin nümayəndələri ilə səmimi görüşlər keçirmişdir.

Bütün bunları əks etdirən fotoşəkillər Prezident İlham Əliyevdə xüsusi maraq doğurdu.

Dövlətimizin başçısı muzeylə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev" muzeyinin fotoşəkilləri ulu öndərin həyat və fəaliyyətini nümayiş etdirir. Muzeyin xarici görünüşü və daxili tərtibatı yüksək standartlara cavab verir.

Heydər Əliyevin 1978-ci ildə Zərdab rayonuna səfəri rayonun sosial-iqtisadi inkişafına böyük təkan vermişdir. Bu gün də Zərdab rayonu inkişaf edir, burada quruculuq, abadlıq işləri gedir. Azərbaycanın hərtərəfli inkişafını təmin etmək üçün regionların sosial-iqtisadi inkişaf proqramı sürətlə icra olunmalıdır.

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, doğma vətənimizə sədaqətlə xidmət etməsi bizim üçün örnək və nümunədir.

Heydər Əliyev siyasəti yaşayır və davam etdirilir.

Bütün zərdablılara öz hörmət və məhəbbətimi bildirir, onlara yeni uğurlar arzulayıram. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti 30.06.2006-cı il".

***30.06.2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BƏSTƏKAR, XALQ ARTİSTİ VASİF ADIGÖZƏLOVA "İSTİQLAL" ORDENİNİ TƏQDİM ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Bəstəkarlar İttifaqı İdarə heyətinin birinci katibi, görkəmli bəstəkar, xalq artisti Vasif Adıgözəlova yüksək dövlət mükafatı – "İstiqlal" ordenini təqdim etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev bəstəkara müraciətlə dedi ki, təxminən bir il idi mən sizi "İstiqlal" ordeni ilə təltif etmişəm. İndi isə istəyirəm bunu təqdim edim.

Vasif Adıgözəlov Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirərək dedi:

– Cənab Prezident, yaxın günlərdə 71 yaşım tamam olacaqdır. Mənim bütün nailiyyətlərim rəhmətlik ulu öndərimizin adı ilə bağlıdır. 1973-cü ildə mənə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adı, sonra Dövlət mükafatı, daha sonra "Xalq artisti" kimi yüksək ad vermişdir. Bütün bunların hamısı onun adı ilə bağlıdır. Bu gün mən yeganə bəstəkaram ki, – təvazökarlıqdan bir az kənara çıxıram, – həm "Şöhrət" ordenim, həm də "İstiqlal" ordenim var.

Siz mənə respublikanın ən yüksək mükafatı olan "İstiqlal" ordenini verdiniz. Yəni, Heydər Əliyevin işləri davam edir, özü də Sizin fəaliyyətinizlə uğurla davam etdirilir. Bu, bizim üçün, ziyalılar üçün ən vacib məsələdir.

Müstəqillik illərində bizim mədəniyyətimizə, musiqimizə qayğıkeş münasibət Heydər Əliyev 1993-cü ildə yenidən rəhbərliyə gəldikdən sonra başladı. Yoxsa, əmr etmişdilər, ittifaqları bağlayırdılar. Gəldilər bizi oradan çıxardılar. Amma Heydər Əliyevin qayıdışından sonra Bəstəkarlar İttifaqı fəaliyyətini davam etdirdi. İndi 24 bəstəkar Prezident təqaüdü alır. Xalq artistlərinin hamısının "Şöhrət" ordeni var. Hər nə lazımsa, edilir. Son illərdə mənzillərlə də təmin olunurlar. Sizə minnətdaram, mənə də mənzil vermisiniz. Bir daha Sizə minnətdarlığımı bildirirəm.

İLHAM ƏLİYEV: Vasif müəllim, sağ olun. Mən də sizi bir daha təbrik edirəm.

Siz qeyd etdiyiniz kimi, mədəniyyət xadimlərinə diqqət həmişə yük-

sək səviyyədə olmuşdur. Bu, Heydər Əliyev siyasətidir və siz də bunu qeyd etdiniz. 1993-cü ildə o, Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra bu ənənələr bərpa olundu. Çünki 1970-ci illərdə də bu var idi. Bilirsiniz, o vaxt çox çalışırdı ki, bizim sənət adamlarımız, mədəniyyət xadimlərimiz SSRİ-nin ən yüksək mükafatlarını alsınlar. Onlar eyni zamanda, Sovet İttifaqının ordenlərini və medallarını almışlar.

Sonra bir ara münasibət dəyişdi. Biz də bunun hamısını bilirik, ittifaqları bağlamaq istədilər. Ümumiyyətlə, hesab edirdilər ki, bu sahə Azərbaycan üçün vacib deyildir. Baxmayaraq ki, Azərbaycanı dünyada tanıdan, ilk növbədə, bizim musiqiçilərimiz, yazıçılarımız, şairlərimiz olmuşdur.

Bu gözəl ənənə bu gün də davam edir. Mən də çalışıram ki, fəxri adların verilməsində, Prezident təqaüdlərinin verilməsində həmişə öz köməyimi göstərim. Ümumiyyətlə, bəzən belə fikir səslənir ki, fəxri adlar lazım deyil, xalq özü müəyyən edir. Doğrudur, ən böyük qiyməti xalq verir. Ancaq dövlət də öz tərəfindən münasibətini, hörmətini bildirməlidir. Bu sahədə böyük nailiyyətlərə çatmış insanlar gərək həmişə qiymətləndirilsinlər. Sizin də fəaliyyətinizi həm Azərbaycan xalqı, həm də Azərbaycan dövləti çox yüksək qiymətləndirir. Siz bu böyük mükafata layiqsiniz. Mən də çox şadam ki, bu ordeni sizə təqdim edirəm.

***6 iyul 2006-cı il***

## CEYHANDA "TÜRKIYƏ-AZƏRBAYCAN QARDAŞLIĞI PARKI"NIN TƏNTƏNƏLİ AÇILIŞI

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Ceyhan şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın təntənəli açılışında iştirak etmişlər.

Dövlətimizin başçısını və dost ölkənin Baş nazirini buraya toplaşan minlərlə sakin böyük hörmət və hərarətlə, gül-çiçəklə qarşıladı. Ətraf binada türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin portretləri, Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı. Azərbaycan Prezidentini salamlayan, hər iki qardaş ölkənin birliyini vurğulayan şüarlar diqqəti cəlb edirdi.

Ceyhan şəhərinin mərkəzi küçəsində yerləşən bu istirahət guşəsi müasirliyi, gözəlliyi və sakinlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılan şərati ilə göz oxşayır. Parkda ulu öndərlər Atatürkün və Heydər Əliyevin abidələri ucaldılmış, heykəllərin arxasındakı lövhədə isə Türkiyənin və Azərbaycanın xəritələrinin üzərində iki dost, qardaş ölkənin qədimliyini əks etdirən tarix-mədəniyyət abidələrinin şəkilləri, Atatürkün və Heydər Əliyevin "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir", "Biz bir millət, iki dövlətik" müdrik kəlamları yazılmışdır. Abidə kompleksi Azərbaycan və Türkiyə memarları və mütəxəssisləri tərəfindən hazırlanmışdır.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan türk dünyasının dahi şəxsiyyətləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin abidələri önünə gül dəstələri qoydular, kompleksi seyr etdilər.

Mərasimi Ceyhan bələdiyyəsinin başçısı HÜSEYN SÖZLÜ açaraq dedi:

– Qardaş Azərbaycanın çox hörmətli Prezidenti İlham Əliyev!

Türkiyə Cümhuriyyətinin hörmətli Baş naziri!

Hörmətli nazirlər, millət vəkilləri, valilər!

Hörmətli qonaqlar, sevimli ceyhanlılar!

Bu gün Bakı-Tbilis-Ceyhan boru xəttinin açılışı münasibətilə tarixi bir günü yaşayırıq. Biz, dəyərli həməvətənlərimizin arzusu ilə gerçəkləşdirdiyimiz "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nda türk millətinin iki dəyərli övladının – ulu öndərimiz, qurucumuz Atatürkün və Azərbaycanın ulu ön-

dəri, qurucusu Heydər Əliyevin abidələrini də ziyarət edərək, çox şərəfli bir günü qeyd edirik. Mən bütün qonaqlarımza bir daha "Xoş gəlmisiniz!" deyir, dərin sevgi və hörmətimi bildirirəm.

Bu tarixi günü yaşayarkən, həqiqətən də, çox böyük həyəcan içindəyik. Eyni dili danışdığımız, eyni kökdən gəldiyimiz, eyni mədəniyyətin övladları olduğumuz Azərbaycanın möhtərəm Prezidentini bir daha salamlayır və böyük məmnuniyyətlə sözü ona verirəm.

***13 iyul 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Əziz dostum, qardaşım Rəcəb Tayyib Ərdoğan!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bütün türk xalqına öz dərin hörmət və məhəbbətimi ifadə edirəm.

"Türkiyə-Azərbaycan qardaşlığı parkı" iki ölkə, iki xalq arasında olan münasibətləri əks etdirir. Bizim tariximiz, müştərək köklərimiz və bizim bu günümüz – bütün bunlar bir-biri ilə sıx bağlıdır. Türk və Azərbaycan xalqları əsrlər boyu bir-birinə çox sıx bağlı olmuşlar. Ancaq tarixin hökmünə görə, illər ərzində bir-birindən uzaq düşmüşlər. Yalnız Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz yenidən bir-birimizə qovuşduq, bir-birimizlə yenidən təmasda oluruq. Bu gün bizim birliyimiz, bir-birimizə bağlılığımız həm xalqlarımız, dövlətlərimiz üçün və həm də bütün bölgə üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün açılışında iştirak etdiyimiz Bakı-Tbilisi-Ceyhan boru xəttinin ərsəyə gəlməsi də iki xalqın, iki ölkənin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bizim gücümüz birliyimizdədir. Bu gün biz çox tarixi gün yaşadıq. Əsrlər boyu Azərbaycan xalqı və türk xalqı birlikdə yaşamağa meyil göstərmişdir. Bu gün biz bunu yaşayırıq. Bu gün bizim birgə fəaliyyətimizdən dünyada gedən proseslərə də təsir payı düşür. Bu gün bu gözəl gündə sizinlə bərabər olmağımdan çox böyük xoşbəxtlik hissi duyuram.

Bu parkda iki ulu insanın, türk dünyasının öndərlərinin heykəlləri qoyulmuşdur. Mustafa Kamal Atatürk, ulu öndərimiz müasir Türkiyənin qurucusudur, Türkiyənin xilaskarıdır və bu gün müasir Türkiyənin çox möhkəm inkişafı məhz Mustafa Kamal Atatürkün fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə gələndə Azərbaycan faktik olaraq parçalanma ərəfəsində idi. Azərbaycan çox pis duruma düşmüşdü və ölkənin müqəddəratı çox qeyri-müəyyən idi. Onun fəaliyyəti nəticəsində Azərbaycan toparlandı, öz müstəqilliyini qoruyub saxlaya bildi və bu gün uğurla inkişaf edən ölkədir.

Bu gün Türkiyə və Azərbaycan dünyada öz mövqeylərini möhkəmləndirirlər. Türkiyə və Azərbaycan iqtisadi baxımdan öz imkanlarını artırırlar. Bizim birgə fəaliyyətimiz bizə fayda gətirir, xalqlarımıza fayda gətirir, böl-

gəyə sülh, sabitlik gətirir və bu gün bu gözəl gündə sizinlə bərabər olmaq mənim üçün çox böyük şərəf və xoşbəxtlikdir.

Əziz, doğma bacı-qardaşlarım, bu əziz gündə sizi bir daha ürəkdən salamlayıram. Hər bir Türkiyə vətəndaşına, xoşbəxtlik, səadət, cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Türkiyə, yaşasın Azərbaycan!

***13 iyul 2006 – cı il***

## ZƏRİFƏ XANIM ƏLİYEVA ADINA PARK SALYANLILARIN SEVİMLİ İSTİRAHƏT YERİDİR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Salyan şəhərinin mərkəzi küçəsində yerləşən və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan parka gəldilər.

Prezident və xanımı Zərifə Əliyevanın büstünü ziyarət etdilər və gül dəstələri qoydular.

Bir il əvvəl istifadəyə verilmiş parkda ətraf binaların sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyev şəhər və rayonlarda bu cür abadlıq işlərinin aparılmasından razılığını bildirdi.

***10 avqust 2006-cı il***

# SAHİL PARKI LƏNKƏRANLILARIN YENİ İSTİRAHƏT GUŞƏSİDİR

Lənkəran şəhərində, Xəzər dənizinin sahilində müasir tələblərə cavab verən yeni sahil parkı salınmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva parka gələrək, burada yüksək zövqlə yaradılan istirahət guşələrini gəzdilər. Gəzintiyə çıxan sakinlər onları ehtiramla qarşıladılar, uşaqlara göstərilən diqqət və qayğıya görə təşəkkür etdilər. Xəzərin sahilində gəzintiyə çıxmağın, xüsusilə uşaqlarda böyük sevinc doğurduğunu bildirdilər.

Gələcəkdə bu park sahilboyu bir neçə kilometr uzadılacaq, burada xüsusi işıqlandırma sistemi, əyləncə qurğuları quraşdırılacaqdır.

Dövlətimizin başçısı və xanımı parkdan Xəzər dənizini seyr etdilər, uşaqlarla söhbət etdilər.

***11 avqust 2006-cı il***

## XALQ SƏNƏTKARLIĞI ŞƏHƏRCİYİ QƏDİM ADƏT-ƏNƏNƏNİ YAŞADIR

Lənkəranda Xalq Sənətkarlığı Şəhərciyinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada milli geyimli oğlan və qız gül-çiçəklə qarşıladılar.

Dövlətimizin başçısı əvvəlcə şəhərciyin layihəsi ilə tanış oldu. Məlumat verildi ki, yerli mətbəxi və xalq sənətkarlığını bir yerdə birləşdirən şəhərciyin yaradılmasından məqsəd milli adət-ənənəni təbliğ etməkdir. Lənkərana gələn xarici qonaqlar burada Azərbaycanın, o cümlədən bu bölgənin xalq sənəti, milli mətbəxi ilə yaxından tanış olacaqlar. Burada dulusçuluq, misgərlik, xalçaçılıq nümunələri və s. hazırlanır, plov, təndir çörəyi, cücə ləvəngisi bişirilir. Qədim musiqi, rəqslər də unudulmamışdır. Şəhərcikdə qonaqlar milli üslubda düzəldilmiş taxtlarda oturaraq Lənkəran çayı da içəcəklər.

Prezident İlham Əliyev şəhərciyi gəzdi, milli musiqiyə qulaq asdı, təndir çörəyindən və plovdan daddı, xalq sənəti nümunələrinin hazırlanması prosesinə, qədim rəqslərə maraqla tamaşa etdi. Prezident və xanımı ənənəvi çay süfrəsinə dəvət olundular.

***11 avqust 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

ÜTT-nin baş katibi Françesko Franjialli vaxtilə Azərbaycanda olduğunu, xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevlə görüşünü məmnunluqla xatırlatdı. O, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin V Konfransının Azərbaycanda keçirilməsinin böyük əhəmiyyət daşıdığını bildirdi.

Prezident İlham Əliyev ÜTT-nin baş katibinin ölkəmizə səfərinin turizmin inkişafı ilə əlaqədar Azərbaycanda görülən işlərlə yaxından tanış olması üçün yaxşı imkan yaratdığını söylədi.

Dövlətimizin başçısı İKT ölkələri turizm nazirlərinin V Konfransının önəmini xüsusi vurğuladı, Ümumdünya Turizm Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

***11 sentyabr 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN TURİZM NAZİRİ XANIM NİLUFƏR BƏXTİYARI QƏBUL ETMİŞDİR

Qonaq Azərbaycana ilk dəfə səfər etdiyini və bundan çox böyük məmnunluq hissi keçirdiyini söylədi. Nazir Prezident İlham Əliyevin Pakistana rəsmi səfərini xatırlatdı, onun çox uğurla keçdiyini vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini söylədi və əminliyini bildirdi ki, Azərbaycanın və Pakistanın turizmlə məşğul olan qurumları arasında da bu əlaqələr daim genişlənəcəkdir

***11 sentyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİ QƏBUL ETMİŞDİR

Nazir Atilla Koç bir neçə il bundan əvvəl Bakıya gəldiyini xatırlatdı, ötən son illər ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu bildirdi. O, İKT ölkələri turizm nazirlərinin V Konfransının Azərbaycanda yüksək səviyyədə təşkil edildiyini və bu mötəbər tədbirin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı İlham Əliyev respublikamızda gedən inkişaf proseslərindən danışdı.

Görüşdə ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

***11 sentyabr 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı İlham Əliyev qonağın bu səfərini, İKT-nin Bakıda keçirilən tədbirində iştirak etməsini Azərbaycan haqqında daha geniş və dolğun məlumat alması üçün gözəl fürsət kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini və keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.

Sultan bin Salman bin Əbdüləziz Al Səud Bakıda yüksək səviyyədə təşkil edilən konfransın əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycanda turizm infrastrukturunun sürətlə inkişaf etdiyi, bu sahənin əməkdaşlıq üçün yeni imkanlar açdığı bildirildi.

***11 sentyabr 2006-cı il***

# ABŞERON RAYONUNDA HEYDƏR PARKININ VƏ ÜMUMMİLLİ LİDERİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA OLMUŞDUR

Dövlətimizin başçısı əvvəlcə Xırdalan qəsəbəsində Heydər parkının və xalqımızın ümummilli liderinin abidəsinin açılış mərasimində iştirak etmişdir.

Mərasimə toplaşmış minlərlə insan Prezident İlham Əliyevi böyük hörmət və ehtiramla, alqışlarla qarşıladı. Sakinlərin əllərində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar, Prezidenti salamlayan şüarlar var idi.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsinin üzərindən ağ örtüyü götürdü. Bütöv qranitdən hazırlanmış bu abidənin hündürlüyü 4,2 metr, postamentlə birlikdə isə 6 metrdir. Abidənin müəllifi heykəltəraş Səlhab Məmmədovdur.

Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.

Məlumat verildi ki, 9,6 hektar ərazini əhatə edən, Xırdalan sakinlərinin ulu öndərin xatirəsinə sonsuz hörmət və ehtiramının bariz nümunəsi olan bu parkda istirahət üçün hər cür şərait yaradılmışdır. Parkda Heydər Əliyev muzeyi və Tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir. Yaşıllıqları, gül-çiçəyi, yaraşıqlı fəvvarələri ilə gözoxşayan parkda yay estradası da vardır. Burada müxtəlif iaşə xidməti müəssisələri də fəaliyyət göstərir.

Azərbaycan Prezidenti parkı seyr etdi, burada görülən işlərdən razılığını bildirdi.

***12 sentyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIRDALAN ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR

Muzeyin direktoru Tükəzban Həsənova dövlətimizin başçısına məlumat verdi ki, 10 bölmədən ibarət muzey dahi şəxsiyyət Heydər Əliyevin irsinin təbliği, gənc nəslin bu irsdən yararlanması məqsədi ilə yaradılmışdır. Burada ulu öndərin uşaqlıq və gənclik illərini, təhlükəsizlik orqanlarında fəaliyyətini, Azərbaycana rəhbərliyinin ilk dövrünü, 1981-ci ildə Abşeron rayonuna gəlməsini, müstəqil Azərbaycan dövlətinə rəhbərlik illərini, kənd təsərrüfatının, sənayenin inkişafına, milli-mənəvi dəyərlərimizin qorunmasına, ordu quruculuğuna, mədəniyyətə və idmana qayğısını, yeni neft strategiyasının həyata keçirilməsini, xarici ölkələrə rəsmi səfərlərini, tanınmış dövlət xadimləri və siyasətçilərlə görüşlərini, 2001-ci ildə Abşeron rayonunda istifadəyə verilən obyektlərin açılış mərasimində iştirakını əks etdirən çoxsaylı fotoşəkil və eksponat toplanmışdır.

Muzeydə ümummilli liderin büstü də qoyulmuş, Abşeron rayonunda olmasını əks etdirən xüsusi fotoalbom hazırlanmışdır.

Prezident İlham Əliyev muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, fotoşəkillərə, Qobu xalçaçılarının toxuduqları, üzərində ulu öndərin portreti olan xalçaya böyük maraqla tamaşa etdi.

Sonra dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev muzeyində ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər bir daha göstərir ki, bütün dövrlərdə Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev Abşeron rayonunun sosial-iqtisadi inkişafına böyük diqqət göstərmişdir.

Bu gün Abşeron rayonu uğurla inkişaf edir, burada quruculuq, abadlıq işləri sürətlə gedir. Əminəm ki, bundan sonra da abşeronlular, həmişə olduğu kimi, doğma Vətənimizin inkişafına öz töhfələrini verəcəklər. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. 12 sentyabr 2006-cı il."

***12 sentyabr 2006-cı il***

## ABŞERON TARİX-DİYARŞÜNASLIQ MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Abşeron tarix-diyarşünaslıq muzeyi ilə tanış olmuşdur.

Dövlətimizin başçısını burada ehtiramla qarşıladılar. Direktor Yeganə Mənsimova məlumat verdi ki, tarix-diyarşünaslıq muzeyi ötən əsrin 80-ci illərindən fəaliyyət göstərir. Bina bu ilin əvvəllərində təmir olunmuşdur. Burada minlərlə eksponat vardır. Bunların xeylisi nadir eksponatlardır və Abşeronun, ümumən rayonun qədim tarixini, məişətini, mədəniyyətini əks etdirir. Muzeydə Balaxanıda ilk neftin çıxarılması, Hacı Zeynalabdin Tağıyevin və digər neft milyonçularının fəaliyyəti, Abşeronun inkişafı, bu torpaqda doğulmuş görkəmli şəxsiyyətlər, eləcə də köhnə Bakı barədə fotoşəkillər və dəyərli sənədlər toplanmışdır.

Muzeydə xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini, o cümlədən Abşeron rayonunda olmasını əks etdirən xüsusi bölmə də vardır.

Prezident İlham Əliyev rayonun tanınmış şəxslərinin tərcümeyi-halı ilə maraqlandı, qədim dövrlərə və orta əsrlərə aid məişət, kənd təsərrüfatı alətlərinə, hərbi silah-sursata baxdı, bunların böyük əhəmiyyət daşıdığını, Abşeronun qədim tarixə malik olmasını sübut etdiyini vurğuladı.

***12 sentyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BİRİNCİ BEYNƏLXALQ RUS KİTABI FESTİVALININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Bakıda keçirilən Birinci beynəlxalq rus kitabı festivalının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

– Sizin hamınızı ölkəmizdə görməyimə çox şadam. Xoş gəlmisiniz! Azərbaycanda Rusiya İlinin keçirilməsi nadir hadisədir. Düşünürəm ki, rus kitabı festivalı keçiriləcək bütün tədbirlər çərçivəsində ən yaddaqalanı olacaqdır. Ona görə də ümidvaram ki, ölkəmizə səfər sizin üçün də çox xoş olacaqdır. Bir çoxunuz əvvəlki illərdə, son onillikdə Azərbaycanda artıq dəfələrlə olmusunuz, bir çoxunuzla məni şəxsi dostluq münasibətləri bağlayır. Ona görə də sizin hamınızı, o cümlədən ölkəmizə ilk dəfə gələnləri ürəkdən salamlayıram.

Bir tərəfdən, bu festival Bakı sakinlərinin rus ədəbiyyatının, rusdilli ədəbiyyatın nailiyyətləri ilə tanış olmasından ötrü gözəl imkandır, eyni zamanda, ümumən ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm hadisədir. Çünki iqtisadi, siyasi əlaqələrlə yanaşı, – bizim bu istiqamətdə böyük uğurlarımız var, – ikitərəfli münasibətlərdə humanitar əməkdaşlıq da əvəzsiz rol oynayır. İndi o da ön sıraya keçir ki, bu da çox sevindiricidir. Görünür, bu onunla bağlıdır ki, ölkələrimizdə, MDB ölkələrində dövlətçiliyin təşəkkülü prosesləri artıq bitmişdir, iqtisadi böhranlar da əsasən başa çatmışdır və indi daha dinamik inkişaf dövrü gəlib çatmışdır ki, burada da mənəvi dəyərlərə tələbat artır. Ona görə də bir daha demək istəyirəm ki, mən bu festivalı məhz həmin nöqteyi-nəzərdən qiymətləndirirəm. Festivalın çox böyük səmərəsi, böyük əhəmiyyəti var. Mövcud olan, genişləndirilməli olan əlaqələr ikitərəfli münasibətlərin möhkəmlənməsində, şübhəsiz, öz rolunu oynayır.

Rusiya ilə Azərbaycan arasında münasibətlər ümumən çox müsbətdir, biz bundan məmnunuq. Festivalın keçirilməsi buna daha bir sübut və bu əlaqələrin möhkəmlənməsi işində daha bir addımdır.

Siz yəqin bilirsiniz ki, Azərbaycanda rus dilinə böyük məhəbbətlə yanaşırlar. Rus dilinin ölkəmizdə saxlanması bizim üçün çox vacibdir. Əlbəttə, 15 il müstəqillikdən sonra bizdə rus dilindən Sovet İttifaqı dövründəki qədər

istifadə edilmir və bunun da təbii səbəbləri var. Lakin gənc nəslin də rus dilini bilməsi çox vacibdir.

Yeri gəlmişkən, bu gün Azərbaycanda əlamətdar gündür – sentyabrın 15-i dərs ilinin başlanğıcı günüdür. Mən səhər tezdən bir neçə məktəbə getdim, onlardan birinin təmirdən sonra açılışında iştirak etdim. Bu məktəbdə iki bölmə – Azərbaycan və rus bölmələri var. Azərbaycanda tədrisin rus dilində aparıldığı belə məktəblər 300-dən çoxdur. Bu baxımdan biz fəxr edə bilərik ki, SSRİ dağıldıqdan sonra rusdilli məktəblərin sayı azalmadı, harada tədris rus dilində aparılırdısa, eləcə də saxlanmışdır. O cümlədən dövlət ali məktəblərində, orada da təhsilin rus dilində aparıldığı şöbələr var. Məsələn, Slavyan Universiteti. Başqa sözlə, bu, dövlət siyasətidir, çünki Azərbaycan çoxmillətli dövlətdir və hər bir millət təkcə Konstitusiyaya görə deyil, real həyatda da bərabər hüquqlara malikdir. Ona görə də ölkəmizdə yaşayan xalqlar arasında sülh inkişafımızın və dövlətçiliyi möhkəmlətməyin mühüm amillərindən biridir. Ona görə də çoxmillətli dövlət kimi biz, təbii ki, ölkədə yaşayan xalqların milli mədəniyyətlərinin inkişaf etdirilməsi, tam ahəngdarlıq şəraiti yaradılması məsələləri ilə çox ciddi məşğul olmalıyıq. Bundan ötrü çox yaxşı zəmin var. Azərbaycan tolerantlığı, dözümlülüyü, milli həmrəyliyi ilə həmişə fərqlənmişdir və indi də fərqlənir. Əlbəttə ki, bu festival kimi tədbirlər belə meyilləri gücləndirir. Gərək bizim aramızdakı əlaqələr qırılmasın, onlar daimi xarakter daşısın. Məsələn, ötən il və cari il əlaqələrin yeni formatı üçün imkanlar yaratmışdır: keçən il Rusiyada Azərbaycan İli idi, bu il Azərbaycanda Rusiya İlidir. Bu iki il bizi daha da yaxınlaşdırdı. Gərək bu illər başa çatdıqdan sonra əlaqələr kəsilməsin, meyil davam etsin. Bu, ilk növbədə, bizdən, ölkələrin rəhbərlərindən və təbii ki, ictimai və siyasi proseslərə təsir göstərən, ictimai rəyi formalaşdıran adamlardan asılıdır. Rusiyada da, Azərbaycanda da ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri sayılıb-seçilən, hörmət bəslənən insanlardır. İctimai şüurun, ictimai rəyin, ölkənin inkişaf yollarının formalaşmasında onların rolu böyükdür. Tanınmış yazıçının, şairin, mədəniyyət xadiminin dediyi sözün ictimaiyyət üçün böyük dəyəri var. Ona görə də gələcəkdə münasibətlərimizin necə inkişaf edəcəyi həm də xeyli dərəcədə ölkələrimizin nümayəndələri arasında bu sahədə əməkdaşlığından asılı olacaqdır.

Biz çox istəyirik ki, münasibətlərimiz indiki kimi dinamik inkişaf etsin. Bundan ötrü bütün əsaslar var, qarşılıqlı istək var və deyə bilərəm ki, biz hesab edirik, ümumiyyətlə, Rusiya ilə Azərbaycanın münasibətləri qonşular arasında münasibətlərə nümunədir. Qonşuları seçmirlər, amma təəssüf ki, bəzən qonşular arasında mübahisələr, hansısa anlaşılmazlıqlar, daha ciddi

problemlər meydana çıxır. Lakin bizim münasibətlərimizdə belə şeylər yoxdur. Ona görə də əlaqələrimizi möhkəmlətmək lazımdır. Ümidvaram ki, biz birgə səylərimizlə daha da irəliləyəcəyik.

Sizi bir daha salamlamaq istərdim, sizinlə şəxsən görüşməyimə çox şadam, şadam ki, şəhərimizin sakinlərinin də sizinlə görüşmək imkanı olacaqdır. Bilirəm ki, bu axşam filarmoniyada görüş keçiriləcəkdir. Arzu edirəm ki, ölkəmizdə olduğunuz günlər xatirinizdə qalsın və xoş keçsin. Sağ olun.

İTAR-TASS informasiya agentliyinin baş direktoru VİTALİ İQNATENKO görüşdə çıxış edərək dedi:

– İlham Heydəroviç, Sizinlə söhbət etmək, görüşmək imkanına görə sağ olun. Demək istəyirəm ki, bu salon Rusiya Federasiyasının ziyalılarını birinci dəfə qəbul etmir. Unudulmaz Heydər Əliyeviç məhz bu salonda bizi bir neçə dəfə qəbul etmişdi. Biz bunların hamısını xatırlayırıq. Diqqətəlayiq haldır ki, biz bütün bunları unutmuruq. Budur, indi bizi Siz qəbul edirsiniz.

Bu gün başlanan festivalın təşkilində Rusiya XİN-i xüsusi rol oynayır. Sizə və festivalın təşkilinə kömək edənlərin hamısına dərin təşəkkürümüzü bildiririk. Bu günlər ərzində biz "dəyirmi masalar" keçirəcək, Bakı Slavyan Universitetində olacağıq. Biz çox şadıq ki, rus kitabı festivalının tarixi məhz burada başlayır.

Sonra "Drujba narodov" jurnalının baş redaktoru ALEKSANDR EBANOİDZE çıxış edərək dedi:

– Mən "Drujba narodov" jurnalına başçılıq edirəm. O, ünsiyyət və mədəni əlaqələr vasitəsidir, əvvəldən belə düşünülmüşdür və belə də fəaliyyət göstərməkdədir. Sizə deməyə şadam ki, ilk dəfə olaraq bu il biz Azərbaycan ədəbiyyatına həsr olunmuş xüsusi buraxılış nəşr etməyi qərara aldıq. Son 15 ildə Moskva nəşrlərində Azərbaycan yazıçılarının əsərləri çap edilməmişdi. Xüsusi buraxılış jurnalın üçüncü nömrəsidir, onun birinci səhifəsində Mehriban xanım Əliyevanın məktubu dərc olunmuşdur. Biz buna görə ona minnətdarıq. Xüsusi buraxılış maraqlı alındı. Bu yaz nömrəsindən sonra Azərbaycan müəlliflərinin daha iki əsəri çap olundu. İtirilmiş ədəbi əlaqələr beləcə bərpa edilir.

Federal Mətbuat və Kütləvi Kommunikasiyalar Agentliyinin rəhbəri MİXAİL SESLAVİNSKİ rus kitabı festivalının təşkilinin miqyasını və səviyyəsini yüksək qiymətləndirdi. O dedi: "Festivalın açılışının idman kompleksində olmasına yaxşı mənada qibtə etdik. Xatırladaq ki, əvvəllər şair və yazıçıları böyük stadionlar qəbul edərdi. Burada olanların bir çoxu

1970-ci illərdə Heydər Əliyevin təşkil etdiyi sovet ədəbiyyatı festivallarına gəlmişdi. Biz burada, festivalda xoş təbəssümlər, səmimi maraq və diqqət gördük. Bu, təkcə salonda deyil, şəhərdə, küçələrdə də baş verirdi. Adamlar müasir kitablarla, 1970-ci illərin kitabları ilə yazıçılara yaxınlaşır, avtoqraf xahiş edirdilər. Bütün bunlar insan qəlbinə hərarət verir.

Dünya şöhrətli yazıçı, Qırğızıstanın Lüksemburqdakı səfiri ÇİNGİZ AYTMATOV Azərbaycan dövləti başçısının elm və mədəniyyətə yetirdiyi diqqəti yüksək qiymətləndirdi, Bakıda rus kitabı festivalının keçirilməsini buna sübutlardan biri kimi vurğuladı. O dedi: "Bizə çox xoşdur ki, Azərbaycan Prezidenti bizim üçün aktual olan məsələləri bizimlə bilavasitə müzakirə edir. Özü də iqtisadi, sosial problemlərlə, siyasətlə birlikdə".

Görkəmli yazıçı, Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi OLJAS SÜLEYMENOV vurğuladı ki, yaradıcılıq təşkilatı kimi qorunub saxlanmasında məşhur siyasi xadim Heydər Əliyevin böyük rol oynadığı Azərbaycan Yazıçılar Birliyinin qorunub saxlanması faktının özü yüksək qiymətə layiqdir. Bu siyasəti Prezident İlham Əliyev də uğurla davam etdirir. O dedi: "Rus kitabına belə əhəmiyyət verilməsini ancaq alqışlamaq lazımdır".

Şair Dmitri Bıkov Rusiyanın gənc yazıçıları adından çıxış edərək, azərbaycanlı müəlliflərlə yaradıcılıq əlaqələrindən danışdı.

Mixail Seslavinski Birinci beynəlxalq rus kitabı festivalının iştirakçıları adından "Bolşaya rossiyskaya ensiklopediya"nın sanballı nəşrinin indiyədək çapdan çıxmış cildlərini, habelə sonrakı cildlərin alınması üçün sertifikatları Azərbaycan dövlətinin başçısına təqdim etdi. O həmçinin bildirdi ki, nəşrin ilk cildlərində Azərbaycan, Prezident Heydər Əliyev, paytaxt Bakı haqqında geniş məqalələr dərc olunmuşdur.

Görüşdən sonra Prezident İlham Əliyev və qonaqlar Prezident sarayı qarşısında xatirə şəkli çəkdirdilər.

***15 sentyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ ANTALYADA II BEYNƏLXALQ AVRASİYA KİNOFESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ OLMUŞDUR

Türkiyənin Antalya Kültür Mərkəzində II Beynəlxalq Avrasiya kinofestivalının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Kinofestivalı Türkiyənin tanınmış kinoaktyoru Korkan Abay açaraq, bu kinofestivalın 43-cü Avrasiya Qızıl Portağal kinofestivalının tərkib hissəsi kimi, iki il bundan əvvəl təşkil edildiyini bildirdi. Sentyabrın 23-dək davam edəcək festivalda 100-dən artıq ölkənin filmləri nümayiş etdiriləcəkdir. Festival iştirakçıları arasında tanınmış kinoşünaslar, aktyorlar, mədəniyyət və incəsənət xadimləri vardır. Azərbaycanı bu festivalda kinorejissor Şamil Nəcəfzadə, aktyorlar Sənubər İsgəndərli və Çimnaz Atakişiyeva təmsil edirlər.

Sonra Antalya Böyük Şəhər Bələdiyyəsinin başçısı Menderes Türel çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı, Antalyada keçirilən Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının digər iştirakçılarını, sənət adamlarını salamladı. O, belə tədbirlərin mədəniyyət, incəsənət sahəsində əlaqələrin daha da genişlənməsi baxımından səmərəli olduğunu söylədi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevə xatirə olaraq, festivalın xüsusi hədiyyəsi təqdim olundu.

Dövlətimizin başçısı hədiyyəyə görə təşəkkür etdi.

Daha sonra Şimali Kiprin Prezidenti Mehmet Əli Tələtə, habelə Orta Asiya dövlətlərinin prezidentlərinə təqdim edilmək üçün həmin ölkələrdən gəlmiş nümayəndə heyətlərinin başçılarına, eləcə də sənət adamlarına, festivalın təşkilində əməyi olanlara xatirə hədiyyələri təqdim olundu.

Baş nazir Rəcəb Tayyib Ərdoğan və digər çıxış edənlər festivalın əhəmiyyətindən, kino sənətinin inkişafından, ölkələrarası münasibətlərdə mədəniyyətin rolundan danışdılar və festivalın işinə uğurlar arzuladılar.

Sonra incəsənət ustalarının çıxışı oldu. Azərbaycanın xalq artisti Zeynəb Xanlarovanın ifası tamaşaçılar tərəfindən hərarətli alqışlarla qarşılandı.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, nümayəndə heyətlərinin üzvləri, Antalya Dövlət Opera və Balet Teatrı orkestrinin ifasında "İpək yolu" əsərini dinlədilər.

***19 sentyabr 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏZƏPİR MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARILAN TƏMİR-TİKİNTİ VƏ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısını burada Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadə ehtiramla qarşıladı.

Prezidentə məlumat verildi ki, məscidin ərazisində aparılan təmir-tikinti işlərinə bu il iyunun 10-dan başlanmışdır. Burada Qafqaz Müsəlmanları İdarəsinin və İslam Universitetinin inzibati binaları, qonaq evi yerləşəcəkdir. Üç korpusdan ibarət olacaq yeni kompleksin mərkəzində 900 kvadratmetrlik konfrans salonu tikiləcəkdir. Qurbangah, namazgah və yardımçı otaqlar da olacaqdır. Dördmərtəbəli kompleksin ümumi sahəsi 40 min kvadratmetrdir. "İnam H" şirkəti tərəfindən hazırda 6 min kvadratmetr ərazidə tikinti işləri yerinə yetirilir

Prezident İlham Əliyev əvvəlcə Təzəpir məscidinin daxilində aparılacaq təmir işləri ilə maraqlandı, milli memarlıq üslubunda hazırlanmış ayrı-ayrı layihələrə baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, məscidin daxilindəki əsas çilçırağın çəkisi çox ağır olduğu üçün dəyişdiriləcək, işıqlandırma sistemi müasir üslubda qurulacaqdır. Tavan və divar suvaqları ilkin memarlıq nümunələri saxlanılmaqla, yeni texnologiyalar əsasında müasirləşdiriləcək, Qurani-Kərimin ayələrindən yazı-naxışlar, xüsusi dini emblemlər və rəmzlərlə bəzədiləcəkdir. Qapı-pəncərələr də dəyişdiriləcəkdir. Bildirildi ki, 1926-cı ildən məscid kinoteatr kimi istifadə olunduğu üçün binanın daxili quruluşu dəyişdirilmiş, qədimilik əlamətləri itirilmişdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra məscid bir neçə dəfə təmir edilmiş, lakin Bakıda baş vermiş sonuncu güclü zəlzələ nəticəsində divarlarda çatlar əmələ gəlmişdir.

Dövlətimizin başçısı məscidin bütünlüklə əsaslı təmir olunmasının, işıqlandırma sisteminin milli üslub qorunub saxlanılmaqla dəyişdirilməsinin zəruriliyini bildirdi.

Sonra Azərbaycan Prezidenti məscidin ərazisində aparılan tikinti işlərinin gedişi ilə maraqlandı.

Şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevin milli, mənəvi və İslami dəyərlərin qorunub saxlanılmasına, ölkəmizdə dini ocaqlara diqqət və qayğısını yüksək qiymətləndirdi. Eyni zamanda bildirdi ki, Qaf-

qaz Müsəlmanları İdarəsinin burada yerləşən əvvəlki binası, mədrəsə və ətrafdakı bəzi evlər sökülmüşdür. Üç aydan artıqdır inşaat işləri aparılır. Bütün işlər 2008-ci ilin birinci rübünədək başa çatdırılacaqdır. Təmir-tikinti işlərinə 8,2 milyon dollar sərf olunacaqdır. Əlavə layihələr də nəzərdə tutulubdur. Universitet binası genişləndiriləcək, ərazidə bütün kommunikasiya sistemi yenidən qurulacaqdır. Bütün bu işlər dövlətimizin başçısının təşəbbüsü və dəstəyi ilə aparılır.

Prezident İlham Əliyev ətraf ərazini gəzdi, yolların, küçələrin genişləndirilməsinin, məscidin xarici görünüşünə xüsusi diqqət yetirilməsinin zəruriliyini söylədi.

Sonra dövlətimizin başçısı məscidin ərazisində tikilən sahələrin layihəsinə, məscidin əvvəlki və üç tərəfdən yeni görünüşünün şəkillərinə, tikintidə istifadə olunan mərmər və daşların nümunələrinə baxdı.

Qafqaz Müsəlmanları İdarəsinin, İslam Universitetinin inzibati binaları və qonaq evi bir-birinə bitişik olacaqdır. Burada 100-dək avtomobilin saxlanması üçün yeraltı dayanacaq da tikiləcəkdir.

Prezident İlham Əliyev bütün fasadların xüsusi daşlarla üzlənməsinin, əsasən yerli materiallardan istifadə olunmasının, məscid-kompleksin, eləcə də şəhərdə tikilən binaların daha yaraşıqlı görünməsinə xüsusi fikir verilməsinin vacibliyini bildirdi. O, Təzəpir məscidinin ümumi görünüşünün xüsusi əhəmiyyət daşıdığını vurğuladı, məscidin günbəzinin yenidən qurulması, bu istiqamətə gələn əsas yolların genişləndirilməsi, müasir işıqlandırma sistemi ilə təmin olunması, ətrafdakı bəzi sakinlərin köçürülməsi və abadlıq işlərinin aparılması üçün Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyinə müvafiq tövsiyə və tapşırıqlarını verdi.

***21 sentyabr 2006-cı il***

## RİQANIN "İŞĞAL" MUZEYİ İLƏ TANIŞLIQ

Muzeyin direktoru Valter Nolendorf Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladı.

Direktor ali qonağa məlumat verərək dedi ki, muzey xaricdə yaşayan latışların təşkilatları, cəmiyyətləri və "İşğal" Muzeyi Fondu tərəfindən 1993-cü ilin yayında yaradılmışdır. Buradakı eksponatlar Latviya torpağında törədilmiş hadisələri, o cümlədən totalitar sovet rejiminin gətirdiyi müsibətləri, habelə 1941-45-ci illərdə faşistlər tərəfindən törədilən qırğınları əks etdirir. Muzeydə 30 min sənəd, məktub, fotoşəkil, müxtəlif eksponatlar toplanmışdır.

Muzeyin təhsil proqramının əməkdaşları burada məktəblilərə Latviyanın tarixi ilə bağlı dərslər, tarix müəllimləri üçün seminarlar keçirir, Latviyanın ən yeni tarixinə dair tədris-metodik materiallar hazırlayırlar. İngilis, fransız, rus və digər dillərdə illik bülletenlər hazırlanıb nəşr olunur. Muzeyə ildə 100 min tamaşaçı gəlir, bunların əksəriyyəti xarici turistlərdir.

Prezident İlham Əliyev Latviyanın XX əsrdəki mürəkkəb tarixindən bəhs edən ayrı-ayrı bölmələrinə baxdı, muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

***5 oktyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİ MƏDƏNİ ƏMƏKDAŞLIQ ŞURASININ 21-Cİ İCLASI İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Prezident İlham Əliyev iclasın uğurlu keçməsini Bakıda belə tədbirlərin tez-tez təşkil olunması ilə əlaqələndirərək dedi ki, Azərbaycanda Müstəqil Dövlətlər Birliyinin müxtəlif strukturlarının mötəbər tədbirləri həmişə yüksək səviyyədə keçir. Dövlət başçısı bildirdi ki, Azərbaycanda Rusiya İlinin tədbirlər planına uyğun olaraq, belə tədbirlər intensiv xarakter almışdır. Belə ki, son vaxtlar Rusiya Elmlər Akademiyasının alimləri, hökumət üzvləri, yaradıcı kollektivlər Azərbaycanın qonağı olublar. Prezident İlham Əliyev dedi ki, biz MDB çərçivəsində bütün humanitar tədbirlərdə fəal iştirak edirik və ümidvaram ki, həm Mədəni Əməkdaşlıq Şurası iclasının qəbul edəcəyi qərarlar, həm də iştirakçıların ölkəmizlə yaxından tanış olmaları baxımından bu tədbir də faydalı olacaqdır.

Görüş iştirakçıları Şura iclasının yüksək səviyyədə təşkilindən razılıqlarını ifadə etdilər və bu cür tədbirlərin mədəniyyətlərin inteqrasiyasında mühüm rol oynadığını vurğuladılar.

***9 oktyabr 2006-cı il***

## MƏŞHUR RUMIN BƏSTƏKARI VƏ MUSİQİÇİSİ CORCE ENESKUNUN ABİDƏSİNİN AÇILIŞI

Bakıda, 8-ci mikrorayonda məşhur rumın bəstəkarı və musiqiçisi, müasir rumın milli bəstəkarlıq məktəbinin banisi, Rumıniya Elmlər Akademiyasının yaradıcılarından biri Corce Eneskunun (1881-1955) abidəsinin təntənəli açılışı olmuşdur.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və Rumıniya Prezidenti Trayan Beseskunu hərarətlə qarşıladılar.

Dövlət başçıları abidənin üzərindən ağ örtüyü götürdülər və əzəmətli heykəlin önünə gül dəstələri qoydular.

Prezidentlər mərasimdə çıxış etdilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

–Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün Rumıniya-Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Rumıniya mədəniyyətinin ən görkəmli simalarından biri olan Corce Eneskunun abidəsi ucaldılıb və bu gün biz bu abidənin açılışında bərabər iştirak edirik. Mən bu münasibətlə hamınızı ürəkdən təbrik edirəm.

Corce Enesku həm dahi bəstəkar, həm dirijor, həm də mahir musiqiçi olubdur. Onun əsərləri – opera, simfoniya və sonataları müasir rumın musiqisinin əsasını qoymuşdur. Corce Enesku dünya mədəniyyət xəzinəsinə çox böyük töhfəsini vermişdir. Bununla bərabər, Corce Eneskunun ictimai fəaliyyəti də çox geniş olmuşdur. O, Rumıniya Bəstəkarlar Cəmiyyətinin təsisçisi və prezidenti olmuşdur, antifaşist hərəkatında da çox fəal iştirak etmişdir.

Mən çox şadam ki, bu gün Rumıniya Prezidenti cənab Beseskunun iştirakı ilə biz bu abidənin açılışında iştirak edirik. Bu bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər dostluq, qardaşlıq əsasında qurulmuşdur.

Prezident Beseskunun Azərbaycana səfəri bu münasibətlərin inkişafında çox böyük rol oynayır.

Ölkələr arasında münasibətlərin inkişafında insanlar arasında münasibətlər də mühüm rol oynayır. Xalqların görkəmli xadimlərinin xatirəsinin hörmətlə yad edilməsi də, şübhəsiz, bizim münasibətlərimizin inkişafında çox böyük rol oynayacaqdır.

İki il bundan əvvəl Rumıniyanın paytaxtı Buxarest şəhərində, gözəl parkda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Bu yaxınlarda parka Heydər Əliyevin adı verilmişdir. Onu da qeyd etmək istəyirəm ki, abidənin ucaldılması üçün müvafiq qərarları şəhər meriyası vermişdir. 2004-cü ildə Buxarest şəhərinin meri cənab Besesku idi və ulu öndər Heydər Əliyevin abidəsi Rumıniya paytaxtında onun şəxsi təşəbbüsü və iştirakı ilə ucaldılmışdır. Mən buna görə bütün Azərbaycan xalqı adından cənab Beseskuya öz minnətdarlığımı bildirmək istəyirəm.

Bizim münasibətlərimiz hərtərəflidir, çoxşaxəlidir. Siyasi müstəvidə çox fəal əməkdaşlıq edirik. Rumıniya Azərbaycanı daim dəstəkləyən ölkədir. İqtisadi əlaqələrimiz inkişaf edir. Bütün başqa sahələrdə ikitərəfli münasibətlərimiz bizi tam şəkildə qane edir. Çox sevindirici haldır ki, humanitar sahədə də əlaqələr genişlənir. Əminəm ki, dahi bəstəkar Corce Eneskunun abidəsinin ucaldılması bu işdə çox önəmli bir addım və çox önəmli bir qərardır.

Əziz dostlar, bu abidənin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Rumıniya-Azərbaycan münasibətləri bundan sonra da sürətlə inkişaf etsin və bizim xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

***11 oktyabr 2006-cı il***

## BELARUS MİLLİ KİTABXANASI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Belarus Milli Kitabxanasına gəlmişdir.

Prezident İlham Əliyevi burada gül-çiçəklə və duz-çörəklə qarşıladılar. Kitabxananın direktoru Roman Motulski Prezident İlham Əliyevə məlumat verdi ki, 2000-ci ildə Prezident Aleksandr Lukaşenkonun sərəncamı ilə tikintisinə başlanmış bu kitabxana binası cari ilin əvvəlində istifadəyə verilmişdir. Ümumi sahəsi 166,5 min kvadratmetr olan kitabxana kompyuterləşdirilmişdir.

Kitabxananın ədəbiyyat fondunda 8 milyon nüsxə kitab vardır. Yaxın 30 ildə onun sayını 14 milyon nüsxəyə çatdırmaq nəzərdə tutulmuşdur. Burada 500 işçi çalışır, müxtəlif şöbələr və 19 oxu zalı fəaliyyət göstərir. Gündə kitabxanaya 25 min oxucu müraciət edir.

Azərbaycan Prezidenti İlham Əliyev ayrı-ayrı oxu zallarını və şöbələri gəzdi, binanın layihəsi ilə yaxından tanış oldu, Milli Kitabxananın onda dərin təəssürat oyatdığını söylədi, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

***18 oktyabr 2006-cı il***

## "RELAX" TURİZM İSTİRAHƏT MƏRKƏZİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolüstü Lerik rayonundakı "Relax" turizm-istirahət mərkəzi ilə tanış olmuşdur.

Prezidentə məlumat verildi ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı çərçivəsində bir il ərzində yaradılan turizm istirahət mərkəzində 15-dək işçi çalışır. Qış, yay mövsümündə istirahət üçün hər cür şərait var, 20-dən çox kottec, habelə yay istirahət güşələri yaradılmışdır. Müasir standartlara cavab verən bu istirahət mərkəzinin ərazisi gələcəkdə daha da genişləndiriləcəkdir.

Dövlətimizin başçısı ölkəmizdə turizmin inkişafı üçün hər cür şəraitin olduğunu bildirdi və belə obyektlərin daha çox tikilməsinin zəruriliyini vurğuladı, kotteclərə baxdı və hazırlanan ləziz yeməklərdən daddı.

***23 oktyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ İDMAN NAZİRİ GEORGİ QABAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, idman və digər humanitar sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Georgi Qabaşvili Gürcüstan ilə Azərbaycan arasında münasibətlərin müvəffəqiyyətlə inkişafından ölkəsinin məmnunluğunu ifadə etdi. Səfəri müddətində keçirdiyi görüşlər barəsində dövlətimizin başçısına məlumat verən qonaq əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.

***30 oktyabr 2006-cı il***

## GƏNCƏNİN GERBİNƏ ABİDƏ QOYULMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncənin Heydər Əliyev prospektində qədim şəhərin gerbinə ucaldılmış abidə ilə tanış olmuşdur.

Prezident İlham Əliyev abidəni seyr etdi. Abidənin üzərində "Əsrlər boyu Gəncə xanlığının bayrağında həkk olunmuş bu rəmz 1804-cü ilin yanvarında şəhərin işğalı zamanı ləğv edilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Gəncənin qədim rəmzi yenidən gerb olaraq bərpa olunmuşdur" sözləri yazılmışdır.

Bu abidənin müəllifi əməkdar rəssam Şərif Şərifovdur.

***31 oktyabr 2006-cı il***

## DAŞKƏSƏN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI

Daşkəsən şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü. Postamentlə birlikdə abidənin hündürlüyü 6 metrdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Prezident İlham Əliyev burada salınmış Heydər Əliyev parkına da baxdı, burada sakinlərin istirahəti üçün yaradılmış şəraiti, görülmüş abadlıq işlərini yüksək qiymətləndirdi.

***31 oktyabr 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏDƏBƏY RAYONUNA SƏFƏRİ ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT VƏ HEYDƏR PARKI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Gədəbəy rayonunda olmuşdur. Rayon mərkəzinə toplaşan minlərlə sakin dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, əsil bayram-əhval ruhiyyəsi ilə, gül-çiçəklə qarşıladılar.

Prezident İlham Əliyev Heydər Parkında ucaldılmış ulu öndərin abidəsini ziyarət etdi. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular və parka tamaşa etdilər. Müəllifi xalq rəssamı Natiq Əliyev olan abidənin hündürlüyü postamentlə birlikdə 6 metrdir. 5 hektar ərazisi olan parkda sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır.

Sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri qarşısında nitq söylədi.

***1 noyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏMKİR RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ OLMUŞDUR

Şəmkir şəhərində Heydər Əliyev muzeyinin açılışı olmuşdur.

Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

Muzeyin direktoru Fəxri Yusibov dövlətimizin başçısına məlumat verdi ki, ümumi sahəsi 567 kvadratmetr olan ikimərtəbəli binanın birinci mərtəbəsində linqafon kabineti, inzibati otaqlar və arxiv yerləşmişdir. İkinci mərtəbədə isə iki ekspozisiya salonu və elektron kitabxana zalı vardır.

Heydər Əliyev Fondunun verdiyi tərtibat əsasında hazırlanmış ekspozisiyada ulu öndərin uşaqlıq və gənclik illərinə, milli təhlükəsizlik orqanlarında çalışdığı illərə, respublikamıza rəhbərliyinin hər iki dövrünə, Azərbaycanın yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsinə, ordu quruculuğu sahəsindəki fəaliyyətinə, xarici ölkələrə səfərlərinə aid fotoşəkillər, müxtəlif kitablar nümayiş etdirilir. Ulu öndərin həyat və fəaliyyəti ilə bağlı materiallar kompyuterlərin yaddaşına və disklərə yazılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə muzeydə rayonun ən fəal gəncləri, məktəbliləri üçün xüsusi kurslar da açılacaqdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva rəssam Afaq Kərimovanın üzərində ulu öndərin ayrı-ayrı sahələr üzrə tarixi xidmətlərini nümayiş etdirən "Heydər Əliyev və Azərbaycan xilaskarı" adlı rəsm əsərinə maraqla tamaşa etdilər, muzeyin ekspozisiyasına, o cümlədən əbədiyaşar Prezidentin 1972, 1979, 1998 və 2000-ci illərdə Şəmkirə səfərlərini və burada keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə, ümummilli liderin xalq rəssamı Natiq Əliyev tərəfindən hazırlanmış büstünə baxdılar.

Prezident İlham Əliyev gənclərin bu cür muzeylərdən mərkəz kimi istifadə edərək, Heydər Əliyevin zəngin irsini öyrənməsinin əhəmiyyətli olduğunu bildirdi.

Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

***1 noyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ RAYONUNDAKI TARİX-DİYARŞÜNASLIQ MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev Xaçmaz tarix-diyarşünaslıq muzeyində olmuşdur.

Dövlətimizin başçısı əvvəlcə muzeyin ilk guşəsinə – ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillərə baxdı.

Muzeydə qədim tayfaların istifadə etdiyi məişət, kənd təsərrüfatı əşyaları, ayrı-ayrı yaşayış məskənlərinin şəkilləri, bəzək əşyaları və s. toplanmışdır. Prezident İlham Əliyev Xaçmazın təbiətinin zənginliyini və qədim tarixini əks etdirən eksponatlara maraqla baxdı.

Mədəniyyət və etnoqrafiya guşəsində bəy evinin interyeri, gümüş qablar, müxtəlif əşyalar, qədim silahlar diqqəti cəlb edir.

Bildirildi ki, Xaçmaz şəhəri 1898-ci ildə, Bakı-Dərbənd dəmir yolu xəttinin çəkilişi zamanı salınmışdır. Dövlətimizin başçısı bununla bağlı maraqlı materiallara, habelə, milyonçu-xeyriyyəçi hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə Bakı şəhərinə çəkilmiş Şollar su kəmərinin layihəsinə də baxdı.

Azərbaycan Demokratik Cümhuriyyəti dövrünə həsr edilmiş ayrıca guşədə də maraqlı materiallar və fotoşəkillər nümayiş etdirilir.

Xaçmaz rayonu yaradıldıqdan sonra onun həyatında baş verən hadisələrlə bağlı sənədlər, repressiya dövrünü əks etdirən materiallar, Böyük Vətən müharibəsi iştirakçılarının (rayondan 8749 nəfər bu müharibədə iştirak etmişdir) orden və medalları, əsgər məktubları araşdırıcılar üçün də əhəmiyyətlidir.

Muzeyin sonuncu guşəsi Xaçmaz rayonunun müasir dövrü ilə bağlıdır. Burada 20 Yanvar faciəsi zamanı və Qarabağ müharibəsində həlak olmuş xaçmazlılar haqqında materiallar, Prezident İlham Əliyevin Xaçmaza səfərlərini əks etdirən fotoşəkillər, Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində rayonda tikilən 40-a yaxın məktəbin fotoşəkilləri, rayon rəssamlarının əl işləri, yerli idmançıların müxtəlif yarışlarda qazandıqları medallar, diplomlar və digər materiallar toplanmışdır.

Dövlətimizin başçısı muzeyin ətrafında XIV əsrə aid qəbir daşlarına da baxdı.

Prezident İlham Əliyev son vaxtlar Xaçmaz rayonunda aparılan abadlıq-quruculuq işlərini yüksək qiymətləndirdi və dedi ki, abadlıq işləri üçün lazımi vəsait ayrılacaqdır. Binalar, muzeylər çox gözəl olmalıdır. Xaçmazda çox böyük işlər görülmüşdür. Bütün yaxşı işlər məni sevindirir. Əminəm ki, bu proses bundan sonra da davam etdiriləcəkdir.

***7 dekabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ (İSESCO) BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN əl-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir.

Bu yaxınlarda İSESCO-nun Küveytdə sessiyasının keçirildiyini bildirən qonaq növbəti sessiyanın 2008-ci ildə Bakıda keçirilməsinə razılıq verildiyinə görə, Azərbaycan tərəfinə və şəxsən Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O, noyabrın 23-də Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevaya İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının "Xoşməramlı səfiri" fəxri adının verilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə verilən yüksək qiymətə görə İSESCO-ya və təşkilatın rəhbəri Əbdüləziz bin Osman əl-Tuveycriyə minnətdarlığını bildirdi.

İSESCO-nun növbəti sessiyasının Bakı şəhərində keçirilməsinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu il ölkəmizdə İslam Konfransı Təşkilatı çərçivəsində iki tədbirin uğurla keçirildiyini də xatırlatdı. Dövlətimizin başçısı belə tədbirlərin İslam Konfransı Təşkilatı ilə əməkdaşlığın daha da genişləndirilməsi işində mühüm rol oynadığını bildirdi.

***24 noyabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ ŞƏHƏRİNDƏ ŞƏXSİYYƏTLƏR MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Muzeyin girəcəyini xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin böyük portretləri bəzəyir.

Dövlətimizin başçısına məlumat verildi ki, bu, Azərbaycanda ilk belə muzeydir. Burada salınmış parkda Azərbaycan ədəbiyyatı və incəsənətinin inkişafında böyük xidmətlər göstərmiş 14 görkəmli şəxsiyyətin – Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov və Şövkət Ələkbərovanın büstləri, dahi Nizami Gəncəvinin heykəli ucaldılmışdır.

Parkda müasir fəvvarələr quraşdırılmış, oturacaqlar qoyulmuşdur. Yaxınlıqda mərkəzi kitabxana yerləşir.

Prezident İlham Əliyev yeni tipli muzeyin xüsusi zövqlə layihələndirildiyini söylədi, digər şəhər və qəsəbələrdə də açıq tipli muzeylərin yaradılmasının zəruriliyini bildirdi.

***7 dekabr 2006-cı il***

# AZƏRBAYCAN PREZİDENT İLHAM ƏLİYEV XAÇMAZ RAYONUNDA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKI İLƏ TANIŞ OLMUŞDUR

Şəhər sakinlərinin istirahətindən ötrü gözəl şəraiti olan parkda uşaqlar üçün xüsusi guşələr yaradılmış, müxtəlif yelləncəklər, oyuncaqlar quraşdırılmışdır. Süni çaylar, şəlalə və fəvvarələr istirahət guşəsinə xüsusi yaraşıq verir. Parkda 50 növ agac əkilmişdir.

Parkı gəzən Prezident İlham Əliyev burada yaradılmış şəraiti, səliqə-sahmanı yüksək qiymətləndirdi.

***7 dekabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ RAYONUNDA XALÇA MUZEYİNİN AÇILIŞINDQ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

150 kvadratmetr sahəsi olan bu muzeydə, əsasən, müxtəlif çeşnili Quba, Dərbənd, Şirvan xalçaları, xalq sənəti nümunələri nümayiş etdirilir. Burada yerli sənətkarlar tərəfindən toxunan xalçalar da toplanmışdır. Ekspozisiyada yüzə yaxın xalça və xalça məmulatı vardır. Yerli sakinlər də bu sənət növü ilə bağlı əl işlərini muzeyə təqdim edirlər.

Dövlətimizin başçısı muzeyin ekspozisiyası ilə yaxından tanış oldu. Prezident İlham Əliyevə xatirə olaraq xalça və Xaçmaz rayonuna səfərlərini əks etdirən fotoalbom hədiyyə edildi.

***7 dekabr 2006-cı il***

## "MALİBU", "PALMA" VƏ "ATLANT" İSTİRAHƏT MƏRKƏZLƏRİ ÖLKƏMİZDƏ TURİZMİN İNKİŞAFININ GÖSTƏRİCİSİDİR

Azərbaycan Prezidenti İlham Əliyev turizmin inkişafı və istirahət üçün nadir təbiəti olan Nabran qəsəbəsində tikilmiş "Malibu", "Palma" və "Atlant" istirahət mərkəzləri ilə yaxından tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, altı ildir fəaliyyət göstərən bu istirahət mərkəzlərində dincələnlər üçün hər cür şərait yaradılmışdır. 4 hektar ərazisi olan "Malibu"da 40-dan çox kottecdə eyni vaxtda 240 nəfər istirahət edə bilər.

"Palma" istirahət mərkəzi isə Xəzərin mənzərəli sahilində yerləşir. Burada müasir tipli ikimərtəbəli 28 kottec var. Otaqların hər biri televizor, daxili telefon, mebel dəsti, soyuducu və sanitar qovşağı ilə təchiz edilmişdir. Dincələnlərin Qafqaz dağlarının ecazkar təbiətini seyr etməsi, eləcə də Azərbaycanın bir sıra tarixi abidələri ilə tanış olması üçün gəzintilər, Quba, Xaçmaz, Qusar və Dərbənd şəhərlərinə ekskursiyalar təşkil olunur.

Sonra Prezident İlham Əliyev "Atlant" istirahət və əyləncə mərkəzində oldu. Bildirildi ki, burada eyni vaxtda 600-dən çox insanın dincəlməsi mümkündür, yerli və xarici turistlərin rahatlığı üçün hər cür şərait var. 8 hektar sahəsi olan bu kompleks ilin müxtəlif fəsillərində, xüsusilə yay aylarında qonaqları öz gözəlliyi ilə valeh edir. Bütün xidmət növləri beynəlxalq standartlar səviyyəsində təşkil edilmişdir. Burada 176 kottec tipli evlər, idman meydançaları, avtomobil dayanacaqları, bazar xidməti sahəsi, 550 nəfərlik diskoteka, üç hovuz, dörd akvapark, gəmi-bar, kompyuter salonu, bar və 120 nəfərlik yay kafesi var. Əsasən günəş və külək enerjisindən istifadə olunur.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Atlant" istirahət mərkəzinə dördulduzlu sertifikat verilmişdir. Ərazini daha 4 hektar genişləndirmək nəzərdə tutulur. Məqsəd yerli turistlərlə yanaşı, xarici turistlərin respublikamıza axınına da nail olmaqdır. Gələn il mövsümündə Dağıstandan 500-dən çox turistin gəlməsi gözlənilir.

Dövlətimizin başçısı istirahət mərkəzini gəzdi, "Atlant"da yay istirahəti ilə bağlı filmə baxdı. O, burada yaradılan şəraiti yüksək qiymətləndirdi, turizmin inkişafı üçün ölkəmizdə hər cür potensialın olduğunu, istirahət mərkəzlərinin daha da genişləndirilməsinin zəruriliyini bildirdi, turizmin inkişafı üçün səylərin daha da artırılmasını tövsiyə etdi.

***7 dekabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının mədəniyyət və informasiya naziri İyad ibn Əmin əl-Mədəninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında münasibətlərin çox uğurla inkişaf etdiyini və əməkdaşlığımızın yüksək səviyyədə olduğunu bildirdi. O, Səudiyyə Ərəbistanına son illər ərzində etdiyi səfərləri və keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Prezident İlham Əliyev nazirin bu səfərinin ölkələrimiz arasında mədəniyyət və informasiya sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

İyad ibn Əmin əl-Mədəni Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycana səfəri barədə dövlətimizin başçısına məlumat verərək, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan qonaq humanitar və mədəniyyət sahələrində əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Krala çatdırmağı xahiş etdi.

***13 dekabr 2006-cı il***

# AKADEMİK YUSUF MƏMMƏDƏLİYEVİN EV MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev akademik Yusuf Məmmədəliyevin Ordubad şəhərindəki ev muzeyi ilə tanış olmuşdur.

Dövlətimizin başçısı görkəmli alimin evin yaxınlığındakı heykəlinin önünə gül dəstəsi qoydu.

Azərbaycan Prezidentinə məlumat verildi ki, bu muzey 1975-ci ildə, ulu öndər Heydər Əliyevin təşəbbüsi ilə yaradılmışdır. İlk vaxtlar burada 407 eksponat olmuşdur. İkimərtəbəli binanın ümumi sahəsi 190 kvadratmetrdir, ekspozisiya 135 kvadratmetr sahədə yerləşir. Burada 10 nəfər işçi çalışır. Hazırda muzeyin dörd otağında Azərbaycan elminin görkəmli nümayəndələrindən biri, dünya şöhrətli kimyaçı alim Yusuf Məmmədəliyevin həyat və fəaliyyətini əks etdirən 2000-dən çox eksponat toplanmışdır. Onlardan 350-ni Mədəniyyət və Turizm Nazirliyi bu günlərdə muzeyə hədiyyə etmişdir.

Prezident İlham Əliyev muzeylə böyük maraqla tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.

***21 dekabr 2006-cı il***

## "DUZDAĞ" SANATORİYASININ TƏMƏLİ QOYULMUŞDUR

Naxçıvan Muxtar Respublikasının Babək rayonunda "Duzdağ" sanatoriyasının təməli qoyulmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə sanatoriyanın baş planı ilə tanış oldu. Prezidentə məlumat verildi ki, bir il ərzində tikintisi başa çatdırılacaq sanatoriyanın beşmərtəbəli binasında müalicə, müayinə və istirahət üçün hər cür şərait yaradılacaqdır. "Duzdağ" ərazisi müalicə üçün çox əlverişli yer olduğuna görə, burada yüksək səviyyəli, müasir standartlara cavab verən sanatoriyanın tikilməsi qərara alınmışdır.

Prezident İlham Əliyev burada üzgüçülük hovuzunun, geniş yeməkxanaların və digər lazımi sahələrin yaradılması üçün də müvafiq tövsiyə və tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı "Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Babək rayonunda "Duzdağ" sanatoriyasının təməli qoyulmuşdur.

21 dekabr, 2006-cı il" sözləri yazılmış kağız olan gilizi bünövrəyə qoydu və beton qarışığı tökdü.

Prezident İlham Əliyev inşaat işlərinin yüksək səviyyədə aparılması barədə tapşırıqlarını verdi.

***21 dekabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RƏSSAMLAR İTTİFAQININ 65 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR TANINMIŞ RƏSSAMLARLA GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rüstəm Mustafayev adına Dövlət İncəsənət Muzeyində Rəssamlar İttifaqının 65 illik yubileyi ilə əlaqədar ölkəmizin tanınmış rəssamları ilə görüşmüşdür.

Dövlətimizin başçısı görüşdən əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirə otağında müasir Azərbaycan rəssamlarının ulu öndərə həsr etdikləri rəngkarlıq əsərlərinə, habelə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın abidəsinə baxdı. Bu abidə xalq rəssamı, akademik Ömər Eldarovun ən gözəl əsərlərindən biridir.

Rəssamlar İttifaqının 65 illik yubileyi ilə əlaqədar muzeyin sərgi salonunda artıq həyatdan getmiş görkəmli fırça ustalarının əsərlərindən ibarət retro sərgi təşkil edilmişdir. Prezident İlham Əliyev bu sərgi ilə də tanış oldu. Məlumat verildi ki, burada qrafika və boyakarlıq janrında çəkilmiş 25 əsər nümayiş etdirilir. Eksponatlar arasında Əzim Əzimzadənin "Arvad toyu", Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşları", Mikayıl Abdullayevin "Uzaq çaypur", Vəcihə Səmədovanın "İmtahandan qabaq", Elmira Şaxtaxtinskayanın "Nəsirəddin Tusi", Ələkbər Rzaquliyevin "Aşıq Ələkbər", Tağı Tağıyevin "Qız portreti", Salam Salamzadənin "İpəyrici fabrikində", Mahmud Tağıyevin "Bağçada yaz günləri", Baba Əliyevin "Qız şərbət ilə", Nadir Qasımovun "Xəzərdə səhər", Qəzənfər Xalıqovun "Qadınlar Şurası", Hüseyn Əliyevin "Güllər və külək" və digər məşhur əsərlər var.

Sonra Rəssamlar İttifaqının sədri, xalq rəssamı FƏRHAD XƏLİLOV vaxt ayırıb onlarla görüşə gəldiyinə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi və dedi ki, bu görüş bizim xatirəmizdə əbədi qalacaqdır. O, Azərbaycanda sənətə göstərilən diqqəti örnək kimi dəyərləndirərək dedi ki, keçmiş SSRİ respublikalarının heç birində bu cür işlər görülmür. Dövlət səviyyəsində qəbul olunan qanunları, o cümlədən yaradıcılıq emalatxanalarının xərclərinin ev xərcləri ilə bərabərləşdirilməsi, kommunal xərclərin azaldılması xarici qonaqlar tərəfindən də böyük maraqla qarşılanmışdır, onlar bunu yaradıcılığa verilən ən yüksək qiymət hesab edirlər.

Rəssamların dostu ulu öndər Heydər Əliyevin xidmətlərini məmnunluqla xatırladan ittifaqın sədri dedi ki, cənab Prezident, ulu öndərdən qalan

gözəl ənənələr bu gün də yaşadılır. Siz bu gün sübut etdiniz ki, ölkəmizdə rəssamlara, sənətkarlara nə qədər böyük diqqət və qayğı vardır. Bizim 65 illik yubileyimizlə əlaqədar yüksək səviyyəli qərarın verilməsi böyük sevinc hissi ilə qarşılanmışdır. Rəssamlara emalatxana tikmək, onlara kömək etmək tarixi xidmətlərdir.

Müasir İncəsənət Muzeyinin tikilməsi ilə bağlı qərarın hazırda icra olunduğunu, bunun müasir sənətin mərkəzi rolunu oynayacağını bildirən F.Xəlilov qısa zaman ərzində ölkəmizdə baş verən iqtisadi dirçəlişdən, regionlardakı inkişafdan, yeni müəssisələrin işə düşməsindən bəhs etdi, bunun xalqımız üçün faydalı olduğunu vurğulamaqla yanaşı, incəsənətin gələcəyi baxımından da yeni imkanlar açdığını vurğuladı. O, rəssamların adından Prezidentə təşəkkür edərək dedi ki, Sizin simanızda ulu öndərin qoyub getdiyi ənənə uğurla davam etdirilir, daha da genişləndirilir və bunun gələcəyinə inanırıq. Bütün rəssamların, sənət adamlarının dostu olan Heydər Əliyevi biz heç vaxt yaddan çıxara bilmərik. Biz bu salonda onunla dəfələrlə görüşmüşük, bizlərə dəfələrlə yaxşılıqlar edibdir. Tanınmış sənətkarlara, ehtiyacı olan istedadlı rəssamlara daim maddi və mənəvi kömək göstərilmişdir. Ulu öndər bu sənəti daxilən sevirdi. Biz bunun canlı şahidləri olmuşuq. Siz bu yolu davam etdirirsiniz.

F.Xəlilov ulu öndərin 80 illiyi ilə əlaqədar "Azərbaycanın müstəqilliyi və Heydər Əliyev" beynəlxalq sərgi-müsabiqənin keçirildiyini və bu tədbirə 27 ölkənin rəssamlarının gəldiyini bildirdi və həmin sərgi-müsabiqədə nümayiş etdirilən əsərlərin fotoşəkillərindən ibarət albomu xatirə olaraq Prezident İlham Əliyevə təqdim etdi. O dedi ki, bu il ilk dəfə olaraq Rəssamlar İttifaqı qızıl medal təsis etmişdir və tanınmış rəssamlar bu medalla təltif olunacaqlar. Cənab Prezident, Azərbaycanın təsviri sənətinin inkişafına verdiyiniz töhfəyə, onun zənginləşməsinə göstərdiyiniz diqqətə görə Rəssamlar İttifaqının Rəyasət heyəti ilk medalın Sizə verilməsi barədə qərar qəbul etmişdir. İttifaqın sədri qızıl medalı Prezident İlham Əliyevə təqdim etdi.

F.Xəlilov rəssamların ölkənin ictimai həyatında yaxından iştirak etdiyini vurğulayaraq dedi ki, onlar Azərbaycanın çətin vaxtlarında da kənarda qalmamış, bütün maneələrə baxmayaraq, 20 Yanvar faciəsi zamanı çəkilmiş kasetləri Almaniyaya, Rusiyaya, Baltikyanı ölkələrə və digər yerlərə göndərmişlər. Rəssamlarımız bundan sonra da Azərbaycanın adını daim uca tutacaq, həmişə Sizin yanınızda olacaq, yeni-yeni gözəl əsərlər yaradacaqlar.

Dövlətimizin başçısı görüşdə nitq söylədi.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

– Çox sağ olun.

Bu gözəl medala görə sizə öz təşəkkürümü bildirmək istəyirəm. Bu medal mənim üçün əzizdir. Mən fürsətdən istifadə edib, hamınızı qarşıdan gələn Yeni il münasibətilə, eyni zamanda, Qurban bayramı, Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Biz bütün bu bayramları yaxın günlərdə qeyd edəcəyik. Arzu edirəm ki, növbəti 2007-ci il bizim üçün uğurlu olsun, Azərbaycan xalqı üçün xoş keçsin, ölkəmizin gələcək inkişafı üçün də yadda qalsın. Əminəm ki, 2006-cı ildəki kimi 2007-ci ildə də biz qarşımıza qoyduğumuz bütün məqsədlərə çatacağıq, buna nail olacağıq.

Rəssamlar İttifaqı bu il 65-ci ildönümünü qeyd edir. Sizi bu gözəl yubiley münasibətilə də ürəkdən təbrik edirəm. Bu yubileylə əlaqədar burada nümayiş etdirilən sərgi də çox gözəl təəssürat bağışlayır. Bu, bir daha göstərir ki, Azərbaycanın incəsənəti, rəssamlıq məktəbi çox zəngindir, çox dərin köklərə əsaslanır və eyni zamanda, indi artıq gənc nəsil də öz yerini tutmaqdadır. Bu da çox vacibdir. Yəni bu əlaqələr qırılmır, bu gözəl ənənələr davam edir. Xüsusilə onu qeyd etmək istəyirəm ki, Rəssamlar İttifaqının fəaliyyəti və peşəkarlığı nəticəsində, rəssamların gördüyü işlərin nəticəsində Azərbaycanda bütövlükdə rəssamlıq məktəbi son illər ərzində xeyli dərəcədə güclənmişdir. Bunu Azərbaycan ictimaiyyəti də görür və xarici mütəxəssislər də qeyd edirlər.

İndi biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və şübhəsiz ki, bu, bütün sahələrə həm müsbət, həm də bəzi hallarda, mənfi təsirini göstərir. Biz çalışırıq ki, mənfi təsirlərin dərəcəsini maksimum səviyyədə azaldaq. Azərbaycanda görülən işlər, həyata keçirilən sosial proqramlar da məhz bu məqsədi daşıyır ki, bazar iqtisadiyyatı şəraitində insanların bəzi təbəqələrinin çətinliklərinin qarşısı dövlət tərəfindən alınsın və dövlət öz dəstəyini göstərə bilsin. Əlbəttə, rəssamların da bu vəziyyətlə uyğunlaşması asan məsələ deyildir. Siz bu çətin sınaqdan çox şərəflə çıxa bilmisiniz və bu gün Azərbaycan rəssamları dünyada tanınır. Müxtəlif şəxsi kolleksiyalarda, kataloqlarda Azərbaycan rəssamlarının işləri vardır. Siz bizdən də yaxşı bilirsiniz ki, Azərbaycan rəssamları bu gün doğrudan da çox böyük beynəlxalq şöhrət

qazanıblar. Bu, çox sevindirici haldır və onu göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir.

Düzdür, biz indi daha çox iqtisadi uğurlardan danışırıq və hər bir dövlətin, hökumətin fəaliyyəti müəyyən meyarlarla ölçülür: iqtisadi artım, siyasi məsələlərin həlli, təhlükəsizlik məsələlərinin təşkil olunması. Ancaq bununla bərabər, hər bir ölkənin mənəvi, mədəni həyatı da ölkənin səviyyəsini göstərir. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir.

Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır – alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır. Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar Azərbaycan cəmiyyətinin aparıcı təbəqəsidir, cəmiyyətin elitasıdır. Bütün cəmiyyətlərin və ölkələrin inkişafı müəyyən bir qrup insanın fəaliyyəti ilə bağlıdır. İstər siyasi müstəvidə, istərsə də mədəniyyət, incəsənət sahəsində. Bəzi başqa ölkələrin tarixinə nəzər salanda görürük ki, kim yadda qalır. Şəxsiyyətlər yadda qalır. İqtisadi göstəricilər yadda qalmır. Yaxud da hansısa bir konkret xarakter daşıyan uğurlar yadda qalmır. İnsanlar yadda qalır, əməllər yadda qalır.

Azərbaycanın çox nadir imkanları, çox nadir şansı var ki, biz ölkəmizi hərtərəfli inkişaf etdirək, müasirləşdirək. Öz milli ənənələrimizə sadiq qalaraq, dünyada gedən proseslərə açıq gözlə baxaq və ən müsbət, ən mütərəqqi yenilikləri Azərbaycanda tətbiq edək. Bu baxımdan bütövlükdə ölkənin mədəni həyatına çox böyük diqqət göstərilməlidir. Mən Prezident kimi çalışıram ki, bu sahə diqqətdən kənarda qalmasın. Bu sahəyə daim diqqət verilməlidir və son müddət ərzində Azərbaycanın iqtisadi imkanları artdıqca, əlbəttə, biz bunu daha da sürətlə həyata keçiririk. Xoş niyyət ola bilər və bu, bizdə həmişə vardır. Amma bunu həyata keçirmək üçün imkanlar olmalıdır. Azərbaycan zənginləşməlidir, iqtisadi potensial möhkəmlənməlidir və möhkəmləndikcə, bütün başqa məsələlər öz həllini asanlıqla tapa bilər.

Fərhad müəllim qeyd etdi ki, Azərbaycanın bölgələri də inkişaf edir. Siz də bölgələrdə olursunuz və Azərbaycan rəssamlarının əsas ilham mənbəyi Azərbaycanın təbiətidir, dağlarıdır, Xəzər dənizidir, meşələrimizdir, çaylarımızdır, mənzərələrdir. Əlbəttə, siz bölgələrə tez-tez gedir və bu dəyişiklikləri görürsünüz. Mən də tez-tez oluram, mən də görürəm və çox sevinirəm. Çünki Azərbaycanın inkişafı məhz bölgələrin inkişafından keçir. Ən müasir texnologiyalar Azərbaycanda olmalıdır. Mən istəyirəm ki, dünyada olan ən yüksək səviyyə Azərbaycanda tətbiq edilsin. Azərbaycan xalqı buna layiqdir. Ən qabaqcıl meyarlar və səviyyə Azərbaycanda olmalıdır. Ona görə, o cümlədən mədəniyyət sahəsində indi görülən işlər artan iqtisadi potensialın əsasında daha da sürətlə gedir.

Bir müddət bundan əvvəl mən Azərbaycanın iki muzeyinin bərpası ilə əlaqədar göstəriş verdim və artıq bu işlər uğurla gedir. Azərbaycan Tarixi Muzeyində və Azərbaycan Ədəbiyyatı Muzeyində ikinci ildir təmir-bərpa işləri çox yüksək səviyyədə aparılır. Yəqin ki, gələn il hər iki muzey öz qapılarını açacaqdır. Mən Tarix Muzeyinin bərpası ilə əlaqədar verilmiş qərarı özümə mənəvi bir borc hesab edirdim. Çünki bilirsiniz, o binanı, evi məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tikdirmişdir. Mən bu binaya iki prizmadan yanaşırdım. Bir tərəfdən, ora Azərbaycan Tarixi Muzeyidir, gərək ən yüksək səviyyədə təmir olunsun və istifadəyə verilsin. Digər tərəfdən, mən buna Hacı Zeynalabdinin evi kimi yanaşırdım və hesab edirdim, Azərbaycanın borcudur ki, onun evi bərpa edilsin və biz buna nail oluruq.

Gələn il isə Azərbaycanda çox geniş yenidənqurma-bərpa işləri nəzərdə tutulur. Bütün teatrlar təmir olunacaqdır. Opera və Balet Teatrı, Azərbaycan Milli Dram Teatrı, Rus Dram Teatrı, Kukla Teatrı, Gənc Tamaşaçılar Teatrı, Heydər Əliyev adına Saray tamamilə yenidən qurulacaqdır. Gəncə şəhərində filarmoniyanın, teatrın tikintisi. Bir müddət bundan əvvəl Lənkəranda teatr təmir olundu, Naxçıvanda Heydər Əliyev adına Mədəniyyət sarayının yenidən qurulması, ondan sonra muzeylərin bərpası. Artıq İncəsənət Muzeyində işlər başlanmış, layihələr təqdim edilmişdir. Muğam Mərkəzi tikilir. Xalça muzeyi üçün çox gözəl layihə hazırlanmışdır və mən də onu təsdiq etdim. Yəqin ki, tikinti gələn il başlayacaqdır. Bir müddət bundan əvvəl mən Muzey Mərkəzinə getdim, gördüm təmirə çox böyük ehtiyac var. Xalça Muzeyi faktik olaraq fəaliyyət göstərmir. Orada anbarlarda yığılan, bizim milli dəyərimiz olan xalçaları tamaşaçı faktik olaraq görmür. Ona görə həm Muzey Mərkəzi təmir olunur və orada digər ekspozisiyalar nümayiş etdiriləcək, həm də bununla bərabər, Xalça Muzeyi də tikilməlidir.

Bu yaxınlarda mən İstiqlal Muzeyinin və İstiqlal abidəsinin yaradılmasına dair sərəncamlar imzaladım. Mən çox istəyirəm ki, Azərbaycanda, Bakının ən gözəl yerində çox əzəmətli, möhtəşəm İstiqlal abidəsi ucaldılsın. Azərbaycanın müstəqilliyini əks etdirən əsər hələ ki, yoxdur. Mən bütün rəssamları, heykəltəraşları müsabiqədə iştirak etməyə dəvət edirəm. Açıq müsabiqə elan olunub və əminəm ki, fəal iştirak edəcəksiniz.

Müasir İncəsənət Muzeyinin yaradılması, bilirsiniz ki, çoxdan müzakirə olunan məsələ idi. Bu qərar da verildi. Mən istəyirəm ki, muzeyin binası da müasirliyi əks etdirsin, xarici görünüşü çox gözəl olsun, əlbəttə, daxili tərtibatı da müasir olsun.

Rəssamları, heykəltəraşları narahat edən, maraqlandıran məsələlərdən biri də emalatxana ilə təminatdır. Mən buna bir az daha da geniş kontekstdə

baxıram. Əlbəttə ki, emalatxanalar olmalıdır və olacaqdır. İlk növbədə, istər onun yeri, istərsə də dizaynı baxımından, sizin də rəyiniz nəzərə alınmalıdır. Ancaq mən hesab edirəm ki, biz gərək buna bir az daha geniş, bir yaradıcılıq mərkəzi kimi baxaq. Orada təkcə emalatxanalar olmasın, görüşlər, konfranslar keçirmək, istirahət etmək üçün yer olsun. Rəssamlar yaradıcılıq şəraitində orada işləyə, istirahət edə bilsinlər, qonaqları qəbul edə, müxtəlif tədbirlər keçirə bilsinlər. Ona görə mən öz tərəfimdən qərarları verdim, indi növbə sizindir. Sizdən təklif gözləyirəm. Təklif olan kimi, dərhal bunun maliyyə mənbələrini də həll edəcəyik.

Bir sözlə, bütün bunları deməklə mən heç də bildirmək istəmirəm ki, bu sahədə məsələlərin hamısı öz həllini tapmışdır. Problemlər var, çoxdur və əminəm ki, birgə fəaliyyət nəticəsində biz bunları həll edəcəyik. Eyni zamanda, mən sizdən həm təklif gözləyirəm, həm də bəlkə sizi narahat edən məsələ var. Tutaq ki, biz hansısa məsələni bilmirik, bunu etmək mümkündür, amma hansısa səbəbə görə etmirik. Ona görə istəyirəm ki, siz də öz fikirlərinizi söyləyəsiniz.

Mən bir daha demək istəyirəm, indi Azərbaycan elə inkişaf edir, özünün elə inkişaf dövrünü yaşayır ki, bizim qarşımızda faktik olaraq, həll edilə bilməyən məsələ qalmır. Biz hər şeyə qadirik. Azərbaycan bir ölkə kimi artıq dünya birliyində özünə layiq yerini tutubdur. Bizim beynəlxalq hörmətimiz artır, təzyiq etmək imkanlarımız da artır. Nəinki biz, artıq regionda gedən bütün işlərlə maraqlanan siyasətçilər, ekspertlər, dövlət xadimləri Azərbaycanı regionun lideri kimi tanıyırlar. Bu, böyük nailiyyətdir. Səmimi deyirəm, mən çox böyük qürur hissi keçirirəm. Bizim ölkəmiz 15 illik müstəqillik dövründə özünü təsdiq edə bilibdir. Bu da çox böyük nailiyyətdir. Yəni şərt deyildi ki, bu, belə olmalı idi. Başqa cür də ola bilərdi. Tam başqa cür ola bilərdi. Fərhad bu gün qanlı 20 Yanvar günlərini xatırlatdı. Faktik olaraq, Azərbaycana edilən zorakılıq, təcavüz – Azərbaycan xalqının iradəsini qırmaq, əzmək üçün edilən o təcavüz ölkəmizi sarsıtmışdı, insanları sarsıtmışdı. On illər ərzində insanların şüurunda olan düşüncələri darmadağın etmişdi. İnsanlar çox ağır vəziyyətdə idi, pərişan idi. O vəziyyətdən çıxmaq, özünü toplamaq və bir ölkə kimi özünü təsdiq etmək çox böyük məsələdir. Xatırlayırıq ki, 1993-cü ilə qədər Azərbaycanda gedən çətin proseslər faktik olaraq, ölkəmizi siyasi səhnədən silirdi. Azərbaycan olmaya da bilərdi, parçalana da bilərdi. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri heç vaxt unudulmur. Bu gün 15 il müstəqil ölkə kimi yaşayan Azərbaycan özünü təsdiq edə bilibdir.

Biz uzun illər, əsrlər boyu müstəqillikdən məhrum idik, müstəqil döv-

lət kimi yaşamırdıq. Bəzi hallarda müstəmləkə kimi, bəzi hallarda müttəfiq respublika kimi, demək olar ki, heç bir dövrdə Azərbaycanda siyasi sistem mövcud deyildi, müstəqil iqtisadi siyasət, təbii ki, yox idi. Bütün bunları yaratmaq, bərpa etmək, sıfırdan ölkəni yaratmaq böyük nailiyyətdir. Xüsusilə indi biz görürük, ölkəmiz həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən, həm də regional çərçivədə qabaqcıl mövqelərdədir. Bu, bizi, ölkə rəhbərlərini, əlbəttə, yeni işlərə sövq edir. Əldə edilən uğurlar ruhlandırır, mövcud olan qüsurlar, çətinliklər bizi daha da fəal edir və etməlidir. Mən də bu görüşü çoxdan arzulayırdım. Çoxdan istəyirdim ki, rəssamlarla görüşüm. İndi yaxşı fürsət yarandı və biz görüşürük. Bir daha demək istəyirəm, mən öz tərəfimdən çalışacağam ki, gələcəkdə bu sahəyə diqqət daim artsın. Sizi narahat edən problemlərin həlli üçün çalışacağam. Amma yaxşı olardı, bilim ki, sizi ən çox narahat edən məsələlər hansılardır və biz onları operativ qaydada həll edə bilərik.

***28 dekabr 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ, MİLLİ MƏCLİSİN DEPUTATI ZEYNƏB XANLAROVANI QƏBUL ETMİŞDİR

Prezident İLHAM ƏLİYEV görkəmli müğənniyə müraciətlə dedi:

– İstəyirəm, sizi bu əziz gün, ad gününüz münasibətilə təbrik edim və bu yüksək mükafatı sizə təqdim edim. Mən sizi "İstiqlal" ordeni ilə təltif etdim və bu gün, sizin üçün bu əziz gündə istəyirəm, onu şəxsən təqdim edim, sizi təbrik edim, sizə cansağlığı, uğurlar arzulayım. Siz uzun illərdir ki, Azərbaycan xalqını öz sənətinizlə sevindirirsiniz. Azərbaycan xalqı sizi çox sevir. Bir müğənni kimi, gözəl ifaçı kimi, insan kimi, şəxsiyyət kimi biz hamımız sizi çox sevirik. Mən istədim, sizin üçün bu əziz gündə sizinlə görüşüm, bu yüksək mükafatı sizə təqdim edim və sizə gələcək uğurlar arzulayım.

Eyni zamanda, ictimai həyatda da çox fəalsınız. Mən bunu bilirəm, görürəm. Uzun illərdir, siz Milli Məclisin üzvü kimi Azərbaycanın müxtəlif problemlərinin həlli üçün, insanların problemlərinin həlli üçün həmişə çox ürək ağrısı ilə, çox fəal çalışırsınız. Bu da çox təqdirəlayiqdir. Ona görə mən istəyirəm, bu yüksək mükafatı – "İstiqlal" ordenini sizə təqdim edim.

Prezident İlham Əliyev "İstiqlal" ordenini Zeynəb Xanlarovaya təqdim etdi.

Xalq artisti, Milli Məclisin deputatı ZEYNƏB XANLAROVA dövlətimizin başçısına dərin minnətdarlığını bildirərək dedi:

– Cənab Prezident, deməyə söz tapmıram. Müxtəlif dövlət mükafatları almışam, çox ordenlərim var. Unudulmaz Heydər Əliyevə Allah qəni-qəni rəhmət etsin, aldığım bütün adlara, mükafatlara görə ona minnətdaram. Axırıncı dəfə "Şöhrət" ordenini ondan almışam. İndi də bu ordeni Sizdən alıram. Sənətkar üçün ən böyük mükafat Prezidentin, xalqın ona qiymət verməsidir. İnanın, həmişə, səhnəyə çıxandan Heydər müəllimin gözlərini görmüşəm, xalqımı görmüşəm. Həmişə ilhamı xalqımdan, böyük Prezidentimdən almışam. İndi mən çox şadam ki, Siz onun gözəl işlərini davam etdirirsiniz. Mənim bir sözüm var və bunu həmişə deyirəm: Kişinin kişi oğlu. Mən heç vaxt üzə tərifləməyi xoşlamıram, amma ürəyimdən gələni də deməyə bilmirəm. Mən çox prezident görmüşəm. Amma o prezidentlər bəlkə də rayonları tanımırdılar. Siz ki, qısa bir müddətdə belə böyük işlər görürsünüz,

inanın, uşaqdan-böyüyə qədər hamı deyir ki, halal olsun, o, atasının oğludur. Bu sözü hamıdan eşidirik. Atasının oğlu olmaq çox böyük məsuliyyətdir. Mən Sizə dərin təşəkkürümü bildirirəm.

Yaradıcılıq planlarından danışan Zeynəb Xanlarova mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi xüsusi qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi, bu cür qayğını sənətkara verilən ən böyük qiymət kimi dəyərləndirdi.

***28 dekabr 2006-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BİR QRUP ZİYALIYA ORDENLƏR VƏ FƏXRİ ADLARIN VƏSİQƏLƏRİNİ TƏQDİM ETMİŞDİR

Prezident İLHAM ƏLİYEV ziyalılara müraciətlə dedi:

– Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Siz müxtəlif vaxtlarda Azərbaycan Respublikasının yüksək mükafatları ilə təltif olunmusunuz. Mən bu gün bu ordenləri və fəxri adları sizə təqdim etmək istəyirəm. Siz ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatında çox fəal iştirak edirsiniz və öz fəaliyyətinizlə ölkəmizin möhkəmlənməsində çox böyük rol oynayırsınız. Sizi Azərbaycanda yaxşı tanıyırlar. Sizin fəaliyyətiniz Azərbaycan xalqı tərəfindən bəyənilir və yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, siz bu yüksək mükafatlara layiq görülmüsünüz.

Mən çox məmnunam ki, bütövlükdə Azərbaycanın hərtərəfli inkişafı çox sürətlə gedir. Bu inkişaf hər bir vətəndaşdan asılıdır. Bu, bütün sahələrdə olmalıdır. İlk növbədə, iqtisadi-siyasi sahədə ki, həm iqtisadi potensial, həm də siyasi mövqelər baxımından ölkəmiz daha da möhkəmlənsin. Şübhəsiz ki, bu, ölkəmizin uzunmüddətli inkişafını təmin edəcək, insanların həyat səviyyəsini yaxşılaşdıracaqdır. Bununla bərabər, mədəni irsimizin qorunmasında, mədəni həyatın zənginləşdirilməsində də böyük işlər görülür. Azərbaycanın məhz hərtərəfli tərəqqisi ölkəmizin dinamik inkişafına imkan yaradır. Ölkəmizin aparıcı simaları, elitası da bütün bu işlərdə çox fəal iştirak edir. Bu, hər bir cəmiyyətdə, o cümlədən Azərbaycan cəmiyyətində də var. Biz ümid edirik ki, artıq müəyyən edilmiş bütün proqramlar yaxın gələcəkdə uğurla icra olunacaq, ölkəmizdə gedən böyük quruculuq, abadlıq işləri davam edəcək və hər bir vətəndaş bu müsbət dəyişiklikləri öz gündəlik həyatında görəcəkdir.

Mən bir daha demək istəyirəm ki, sizin fəaliyyətiniz hər bir azərbaycanlı üçün çox doğmadır. Mən sizi yaxından tanıyıram və əminəm ki, dövlətimizin bu yüksək mükafatları sizi yeni uğurlara nail olmağa sövq edəcəkdir. Bu, həm yaxşı stimuldur, eyni zamanda, sizin əməyinizin qiymətləndirilməsidir. Bu da lazımdır. Əminəm ki, bu qərar, yəni, sizə bu yüksək ordenlərin və fəxri adların verilməsi Azərbaycan xalqı tərəfindən bəyənilir. Sizi bir daha ürəkdən təbrik edirəm.

İndi isə istəyirəm, bu mükafatları sizə təqdim edim.

◆◆◆

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalq şairi Qabil İmamverdiyevin "İstiqlal" ordeni, respublikanın Baş prokuroru Zakir Qaralovun "Azərbaycan Bayrağı" ordeni, iqtisadi siyasət məsələləri üzrə dövlət müşaviri Vahid Axundovun, Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilovun, Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısı Sündüz Babayevanın, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyevin "Şöhrət" ordeni ilə təltif olunması, yazıçı Mövlud Süleymanlıya "Xalq yazıçısı", Tofiq Ağababayev, Nazim Bəykişiyev, Xanlar Əhmədov, Arif Hüseynov, Ağəli İbrahimov, Salxab Məmmədov və Mirnadir Zeynalova "Xalq rəssamı" fəxri adlarının verilməsi barədə sərəncamları oxundu.

Prezident İlham Əliyev ordenləri və fəxri adların vəsiqələrini onlara təqdim etdi.

◆◆◆

Xalq şairi QABİL İMAMVERDİYEV minnətdarlıq edərək dedi:

Hörmətli Prezidentimiz, bu yüksək mükafata layiq görülən

adamlar kimi, mən də yaşlaşanda uşaqlaşan, həyatımın müdrikləşən çağında fəxr edirəm. Mənə "Şöhrət" ordenini ölməz Prezidentimiz Heydər Əliyev təqdim etmişdi. Ömür vəfa elədi, Allah ömür verdi, yaşayıram, "İstiqlal" ordenini də Siz verdiniz mənə. Elə bildim ki, iki ordendi mənə təqdim etdiniz.

Möhtərəm Prezidentimiz, "Rübailər"in miniatür nəşridir, Sizə, birini də Mehriban xanıma bağışlayıram.

Balaca Yardımlıdan tutmuş, möhtəşəm Parisə qədər bu məkan dairəsində Sizin gördüyünüz işlərə xarici qonaqlar da, adicə kənd sakini də heyrandır. Bunlar adi həqiqətlərdir. Bunları görməmək qeyri-mümkündür. Sizin həm daxili, həm xarici siyasətiniz səmərələri ilə bərabər göz qabağındadır.

Türkan, Zirə, Xınalıq, Yardımlı, Lerik, başqa kəndlər, yaşayış məntəqələri hara – möhtərəm Prezident, Sizin oralara Mehriban xanımla, Heydər Əliyev Fondunun rəhbəri ilə bir yerdə getməyiniz, məsələləri ye-

rində həll etməyiniz çox böyük işdir. Siz həm də çörəkverən Prezidentsiniz! Çünki bütün diplomatik irəliləyişlərlə bərabər, bütün başqa işlərlə bərabər, hər yerdə məktəblərin, xəstəxanaların tikilməsi ilə bərabər, Siz camaatın gündəlik vəziyyətinin qayğısına qalırsınız. Siz insanların rifah halını yaxşılaşdırırsınız. Böyük bir ailə başçısı kimi, Siz ölkəmizə gələn gəlirləri tənzim edirsiniz.

Məni eşitdiyinizə görə təşəkkür edirəm, Sizə cansağlığı, böyük işlərinizdə uğurlar arzulayıram. Çox sağ olun.

Xalq rəssamı FƏRHAD XƏLİLOV çıxışında dedi:

– Sizə dərin şəxsi minnətdarlığımı bildirirəm ki, mənə belə qiymət vermisiniz. Mən sənətimizin inkişafı üçün bundan sonra da çalışacaq, əlimdən gələni edəcəyəm. Demək istəyirəm ki, rəssamlarımız bu günə qədər Sizinlə görüşümüzün təsiri altında yaşayırlar. Bir müddət bundan əvvəl biz görüşmüşdük. Səmimi deyirəm ki, nəinki rəssamlar, ümumiyyətlə, həmin görüşü izləyən çoxları mənə zəng edir və bu görüşdən məmnunluqlarını bildirirlər. Doğrudan da, mən deyərdim ki, bu görüşün sədası ayrı şəhərlərə də çatıbdır. Mən bu yaxınlarda Moskvada idim, orada bizim konfederasiyanın iclası keçirilirdi. Mən bilərəkdən onlara dedim ki, bizim Azərbaycanın Prezidenti müasir İncəsənət Muzeyinin, rəssamlar üçün müasir şəhərcik tikilməsi barədə qərarlar verir. Onlar dedilər ki, doğrudan da, bugünkü zamanda belə qərar vermək nadir hadisədir. Dedim ki, mən hələ hamısını demirəm, bu ikisini deyirəm. İnandırım Sizi ki, ayağa qalxıb əl çaldılar və dedilər ki, biz də köçürük Azərbaycana.

Həqiqətən də, Siz qısa zamanda şəxsən rəssamlara nə qədər yaxşılıqlar etmisiniz – fəxri adların verilməsi və sair. Allaha şükür ki, imkanlar da var.

Nəinki mükafat alanların, ümumiyyətlə, bütün rəssamlarımızın adından Sizə uğurlar və cansağlığı arzulayıram.

Azərbaycan Respublikasının Baş prokuroru ZAKİR QARALOV təşəkkür edərək dedi:

– Möhtərəm cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin təsis etdiyi “Azərbaycan Bayrağı” ordeninə layiq görülməyim, bu yüksək dövlət mükafatının şəxsən Sizin tərəfinizdən təqdim olunmasından böyük şərəf hissi keçirirəm və bu təltifi bütövlükdə Azərbaycan Respublikası Prokurorluğu kollektivinin əməyinə dövlət səviyyəsində verilən qiymət kimi qəbul edirəm. Sizin uğurlu, cəsarətli, yeni və müasir məzmunlu dövlət siyasətinizin nailiyyətləri göz qabağındadır. Bütün bu uğurlar hər bir Azərbaycan və-

təndaşının qürur mənbəyidir. Bu uğurların əsası olan ictimai asayişin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin, vətəndaşlarımızın hüquq və azadlıqlarının təmin olunması, sözsüz ki, prokurorluğun qarşısında duran əsas vəzifələrdən biridir.

Möhtərəm cənab Prezident, Sizin bilavasitə nəzarətiniz və dəstəyiniz sayəsində, bütün sahələrdə olduğu kimi, məhkəmə hakimiyyətinin tərkib hissəsi olan prokurorluq orqanlarında da müvafiq Fərmanlara və Sərəncamlara uyğun olaraq, yenidənqurma və islahatlar prosesi davam etdirilir. Peşə bayramımız ərəfəsində əməkdaşlarımızın böyük bir qrupunun yüksək dövlət mükafatlarına, ali xüsusi rütbələrə layiq görülməsinə, eyni zamanda, prokurorluq işçilərinin maddi, sosial rifahının yaxşılaşdırılması istiqamətində gördüyünüz işlərə görə Respublika Prokurorluğunun kollektivi adından Sizə dərin təşəkkürümüzü bildiririk.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

– Mən də sizi bir daha təbrik edirəm. Bugünkü görüşdə cəmiyyətimizin bütün sahələrində çalışan insanlar iştirak edirlər – ziyalılar, hüquq mühafizə orqanlarının nümayəndələri, iqtisadçılar, icra hakimiyyətinin nümayəndələri. Yəni, bu onu göstərir ki, hər bir insanın əməyi qiymətləndirilir və hər bir sahə vacibdir. Əgər iqtisadi potensial olmasa, heç bir məsələni həll etmək mümkün deyildir.

Fərhad müəllim qeyd etdi ki, indi bizim imkanlarımız artır. Bu, doğrudan da belədir. Mən də çox istəyirəm ki, artan bu imkanları, ilk növbədə, həm ölkənin möhkəmlənməsinə, həm də insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək. Biz xüsusilə ziyalıları mükafatlandırmalıyıq, onlara dəstək verməliyik. Çünki əfsuslar olsun, bazar iqtisadiyyatı şəraitində bəzi hallarda bu sahə yaddan çıxır. Əgər biz ən inkişaf etmiş ölkələrin təcrübəsini götürsək, yaxud da orada olan vəziyyətə baxsaq görərik ki, həmin ölkələrdə ziyalı təbəqə dövlət tərəfindən heç bir qayğı görmür. Yəni, orada bütün münasibətlər bazar iqtisadiyyatı prinsipinə o qədər söykənib ki, artıq o cəmiyyət özü-özünü idarə edir. Biz isə hələlik bu səviyyəyə çatmamışıq. Ona görə dövlət tərəfindən mütləq və mütləq dəstək, qayğı olmalıdır.

Xüsusilə nəzərə alsaq ki, Azərbaycan cəmiyyətində həmişə ziyalılara böyük hörmət olubdur. Onların sözünə, əsərlərinə böyük maraq, tələbat olubdur. İndi bizim artan imkanlarımız məsələləri həll etməyə şərait yaradır. Rəssamlar şəhərciyi, müxtəlif tədbirlərin keçirilməsi. Rəssamlarla görüşdən sonra Fərhad müəllimlə söhbət əsnasında danışdıq ki, əlavə tədbirlər həyata keçiriləcəkdir. Artıq bu barədə qərarlar verilir. O ki qaldı şəhər-

ciyin yaradılmasına, mən təkliflər gözləyirəm. Hazır olan kimi biz dərhal bunun maliyyə tərəfini təmin edəcəyik.

Azərbaycanın uğurlu inkişafı ölkə daxilində və ətrafında sabitlik olmadan mümkün deyildir. İnkişaf üçün həm ölkə daxilində vəziyyət normal olmalıdır və bu da var. Həm də qonşu ölkələrlə münasibətlərimizdə də gərək əməkdaşlıq, qarşılıqlı hörmət, qarşılıqlı maraq olsun. Bu da var. Azərbaycanın həyata keçirdiyi nəhəng layihələr bunu göstərir. Biz bu yaxınlarda Bakı-Tbilisi-Qars kimi tarixi bir layihəyə qədəm qoyduq. Bunun tarixi əhəmiyyəti illər keçdikcə daha da aydın görünəcəkdir. Amma biz indidən bilirik ki, bu, Azərbaycanın inkişafına, xalqın rifahına, Azərbaycanın mövqelərinin möhkəmlənməsinə yönəldilmiş addımdır. Azərbaycan bu işlərdə aparıcı rol oynayır. Bu, eyni zamanda, ölkəmizi gücləndirir, bizim imkanlarımızı artırır və nəticədə sosial məsələlərin həlli, insanların rifah halının yaxşılaşması, maaşların, pensiyaların qaldırılması da mümkündür. Bu, var. Biz bu işləri görürük və çox istəyirəm ki, daha da sürətlə getsin.

Bölgələrdə abadlıq işləri aparılır. Üç ildir ki, regional inkişaf proqramı qəbul edilibdir. Üç il tarix baxımından çox qısa bir müddətdir. Amma baxın, bu üç il ərzində bizim rayonlarımız abadlaşıb, orada dəyişikliklər baş verir, infrastruktur yaradılır, məktəblər, xəstəxanalar tikilir, sosial infrastruktur yaradılır, iş yerləri açılır, insanlar daha yaxşı yaşamağa başlamışlar. Bu proses daha da sürətlə gedəcəkdir. Bizim uğurlarımızın əsasında cəmiyyətin birliyi və müxtəlif sahələrdə çalışan insanların fəallığı dayanır. Bu fəallıq var. Bütövlükdə, mən görürəm ki, indi Azərbaycanda nikbinlik əhval-ruhiyyəsi var. İlk növbədə ona görə ki, bu günə qədər görülən bütün işlər öz nəticələrini veribdir. Ona görə ki, əhali baxımından, ərazi baxımından böyük ölkə olmayan Azərbaycan böyük işlərlə məşğuldur, regionun inkişafı üçün həm neft sahəsində, həm energetika sahəsində, həm də nəqliyyat sahəsində çox fəal işlər görür. İnsanlar da görürlər ki, Azərbaycanın nüfuzu artır. Təbii ki, hər bir vətəndaş, hər bir azərbaycanlı bundan qürur hissi keçirir.

Bu gün xarici səfərlərdən də söhbət açıldı. Bu səfərlər də ölkəmizin əhəmiyyətini, inkişafını göstərir. Bizim xalqımız uzun illər, əsrlər boyu müstəqillikdən məhrum idi. Biz müstəmləkə kimi, müttəfiq respublika kimi, yaşamışdıq. Böyük bir nailiyyət, tarixi nailiyyətdir ki, biz müstəqilik. Müstəqil ölkə kimi cəmi 15 ildir yaşayırıq. Bu 15 il ərzində Azərbaycan o qədər sürətlə inkişaf edib ki, dünyanın aparıcı ölkələri ilə artıq bərabər səviyyədə əməkdaşlıq edir. Ona görə gedən bu proseslər, eyni zamanda, iqtisadi islahatlar, ölkəmizin möhkəmlənməsi və ən önəmlisi, bizi gələcəkdə

gözləyən uğurlar və nəticələr, əlbəttə ki, insanlarımızı ruhlandırır. Ona görə cəmiyyətdə də bu nikbinlik ruhu çox güclüdür və bu, çox gözəl göstəricidir. Yəni inam var və işləmək üçün istək də var. Hər bir vətəndaş fəal olmalıdır, hər bir insan öz çalışdığı yerdə ölkəmizin möhkəmlənməsində fəal iştirak etməlidir.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün burada, demək olar, Azərbaycan cəmiyyətinin kiçik bir nümunəsi iştirak edir. Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, siz gələcəkdə də öz fəaliyyətinizlə ölkəmizi möhkəmləndirəsiniz və doğma Vətənə bundan sonra da ləyaqətlə xidmət edəsiniz.

Təbrik edirəm, sizə uğurlar arzulayıram.

***12 fevral 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR YAZIÇI ÇİNGİZ AYTMATOVU QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı hörmətli qonağı salamlayaraq, onu yenidən Bakıda görməyindən şad olduğunu bildirdi.

ÇİNGİZ AYTMATOV: Mən isə Sizə öz ehtiramımı bir daha bildirmək üçün yenidən burada olmağıma şadam. Mən Sizin atanızı yaxşı tanıyırdım, onunla Moskvada söhbətlərimiz olubdur.

İLHAM ƏLİYEV: Hörmətli Çingiz Torekuloviç, mən Sizi Azərbaycanın yüksək ordeni ilə təltif etmək istərdim. Bu orden "Dostluq" adlanır. Siz həmişə, bütün dövrlərdə Azərbaycanın böyük dostu olmusunuz. Bu, sovet dövründə də belə olub, – mən bunu atamın söhbətlərindən də bilirəm, Sizin onunla münasibətləriniz mənə məlumdur, – müstəqillik dövründə də. Siz həmişə bizi dəstəkləmisiniz. Çətin anlarda Siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi öz qətiyyətli sözünüzü demisiniz. İcazə verin, bu mükafatı Sizə təqdim edim. Təbrik edirəm.

Burada bir xüsusi məqam var. Bu ordenin qeydiyyat nömrəsi 1-dir. "Dostluq" ordeni yeni ordendir, dövlət təltifidir. Siz bu ordenin təqdim edildiyi birinci şəxssiniz. Bu, çox mühümdür, bu – tarixdir.

***25 fevral 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ ARİF BABAYEVİ QƏBUL ETMİŞDİR

Prezident İLHAM ƏLİYEV görkəmli muğam ustasına müraciətlə dedi:

– Mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm və istəyirəm bu gün bu ordeni özüm sizə təqdim edim.

Xalq artisti ARİF BABAYEV dövlətimizin başçısına təşəkkür edərək dedi:

– Cənab Prezident, çox sağ olun, Sizə minnətdaram. Müstəqil Azərbaycanımızın bu yüksək ordenini mənə verdiyinizə görə Sizə öz adımdan, ailəmin adından və qarabağlıların adından təşəkkürümü bildirirəm.

İLHAM ƏLİYEV: Siz buna layiqsiniz. Azərbaycan xalqı qarşısında böyük xidmətləriniz olmuşdur. Həmişə öz sənətinizlə bütün Azərbaycan xalqını sevindirmisiniz.

Dövlətimizin başçısı "İstiqlal" ordenini Arif Babayevə təqdim edərək, onu bir daha təbrik etdi.

ARİF BABAYEV: Cənab Prezident, çox sağ olun, minnətdaram.

Mən çalışacağam ki, bu etimadı doğruldum. Nə qədər ömrüm var, öz sahəmdə əlimdən gələni əsirgəməyəcəyəm. Mən bunu ürəyimlə, varlığımla deyirəm ki, son zamanlar Azərbaycan başdan-başa dəyişir, gözəlləşir, abadlaşır. Hər şeyi xalqımız görür. Qarşıdan seçkilər gəlir. Xalqımız ürəklə, canla-başla Sizə səs verəcəkdir. Siz Prezident olduğunuz bu müddətdə çox böyük, əvəzolunmaz işlər görmüsünüz. Allah ulu öndər Heydər Əliyevə rəhmət eləsin. Siz onun davamçısı kimi hər sahədə çox böyük işlər görürsünüz. Vallah, bizim rayonlara gedəndə gərək rezin çəkmə alıb geyinəydin. İndi maşallah, ölkəmizin hər bölgəsində, rayonlarda gözəl asfalt çəkilir, evlər tikilir. Hansı rayona gedirsən, hansı bölgəyə gedirsən, hamısı gözəldir, indi o rayonları tanımaq olmur. Bunun hamısı Sizin qayğınızdır. Allah Sizə yar olsun.

Mehriban xanıma da biz öz təşəkkürümüzü bildiririk. Mehriban xanımın bizim muğam sahəsində həyata keçirdiyi layihələri bütün dünya alqışlayır. Bu yaxınlarda müsabiqələr oldu. O müsabiqələrdə telefon zənglərinin ardı-arası kəsilmirdi. Bütün dünyanın hər yerindən azərbaycanlılar zəng

edirdilər. Heç vaxt milli musiqimiz bu zirvəyə qalxmamışdı, bu ucalıqda olmamışdı.

İLHAM ƏLİYEV: Əlbəttə, biz elə etməliyik ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Həm regionlarda, həm də Bakıda görülən işlər Azərbaycanı gücləndirir, insanlar üçün daha da yaxşı şərait yaradır. İndi Bakı şəhərini görürsünüz, necə gözəlləşir. Həm rayonlar, həm infrastruktur, həm binalar, həm də yollar – hər şey. O cümlədən, bizim mədəniyyətimizə də böyük diqqət göstərilməlidir. Mən həmişə demişəm ki, bizi bir millət kimi assimilyasiyadan qoruyan mədəniyyətimiz, dilimiz, musiqimiz və əsərlərimiz olubdur. Ona görə biz bu sahəyə daim böyük diqqət göstərməliyik. Muğam sənətinə Azərbaycan xalqının qəlbində olan məhəbbəti biz bir daha müsabiqədə gördük. Siz yaxşı bilirsiniz ki, xaricdə yaşayan bütün soydaşlarımız televiziya vasitəsilə baxırdılar və Azərbaycan vətəndaşları da baxırdılar. Hamımız çox sevinirdik ki, gənc nəsil yetişir. Yəni bu sənət davam edir və bunun gələcəyi də çox gözəl olacaqdır.

***29 fevral 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ PARKDA YENİCƏ İSTİFADƏYƏ VERİLMİŞ MUSİQİLİ FƏVVARƏYƏ BAXMIŞDIR

Azərbaycanın sürətli iqtisadi inkişafı respublikamızın bütün bölgələrində, o cümlədən paytaxt Bakıda da beynəlxalq standartlar səviyyəsində yenidənqurma və abadlıq işlərinin aparılmasına geniş imkanlar açır. Dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn rəsmi qonaqlar, iş adamları, turistlər qədim və həmişəcavan Bakının sürətlə inkişaf etdiyini, görkəmini günbəgün dəyişdiyini vurğulayırlar. Elə bu günlərdə istifadəyə verilmiş musiqili fəvvarə də özünəməxsusluğu ilə seçilir, Bakıya xüsusi yaraşıq verir və şübhəsiz ki, bura sakinlərin, eləcə də paytaxtımızın qonaqlarının ən sevimli istirahət guşələrindən birinə çevriləcəkdir.

Fəvvarəyə tamaşa edən Prezident İlham Əliyev Milli parkın bu hissəsində həyata keçiriləcək əlavə tədbirlər barədə tövsiyə və göstərişlərini verdi, həmin fəvvarənin ölkəmizin paytaxtını daha da gözəlləşdirdiyini vurğuladı. Dövlətimizin başçısı paytaxtın başqa yerlərində də belə fəvvarələrin yaradılması barədə tapşırıq verdi.

***28 fevral 2007-ci il***

## OĞUZ YAXIN VAXTLARDA TURİSTLƏRİN SEVİMLİ İSTİRAHƏT YERİNƏ ÇEVRİLƏCƏK

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oğuz rayonunda "Apra" istirahət və sağlamlıq kompleksinin tikintisi ilə tanış olmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, tikintisinə 2006-cı ilin iyulunda başlanan kompleks ilin sonunadək tam istifadəyə veriləcəkdir. Dövlətimizin başçısının sahibkarlığın, regionların sosial-iqtisadi inkişafına diqqət və qayğısının daha bir təzahürü olan bu kompleksin ərazisi 1,5 hektar təşkil edir. Tikinti sahəsinin ərazisi isə 4200 kvadratmetrdir. 2,2 milyon dollara başa gələcək kompleksə indiyədək 1,6 milyon manat xərclənmiş, bunun 400 min manatı işçilərə maaş kimi verilmişdir.

Burada 31 otaqlı beşulduzlu mehmanxana, 4 kottec, sağlamlıq mərkəzi, gənclərin istirahəti üçün diskoklub olacaq, idmanla məşğul olmağa şərait yaradılacaqdır. Beşmərtəbəli mehmanxanada 70 nəfərlik konfrans salonu, restoran, internet otağı, beynəlxalq tədbirlərin keçirilməsi üçün sinxron tərcümə mərkəzi də fəaliyyət göstərəcəkdir. Burada üçulduzlu mehmanxananın da tikintisi nəzərdə tutulur.

Prezident İlham Əliyev inşaatçılarla görüşdü, layihə ilə tanış oldu, tikinti sahələrinə baxdı.

Dövlətimizin başçısı binanın yuxarı mərtəbəsindən ətraf mənzərəni, gözəl təbiəti seyr etdi və bu cür obyektlərə gələcəkdə tələbatın çox olacağını bildirdi. Turistlərin bu bölgəyə gəlməsi üçün bütün işlərin yüksək səviyyədə görülməsinin zəruriliyini söylədi.

*1 mart 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİ

Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı rayon sakinləri böyük hörmət və ehtiramla, gül-çiçəklə, hərarətli alqışlarla qarşıladılar. Onların əllərində Azərbaycanın dövlət bayraqları, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, xalqımızın ümummilli liderinin müdrik kəlamları yazılmış transparantlar var idi.

Prezident əvvəlcə Qəbələdə Heydər Əliyev muzeyinin təntənəli açılış mərasimində iştirak etdi.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, ulu öndərin muzeydə qoyulmuş büstü önünə gül dəstəsi qoydu.

200-dən artıq fotoşəkil, arxiv sənədləri və müxtəlif kitablar toplanmış muzey həm də Heydər Əliyev Fondunun Qəbələ filialı kimi də fəaliyyət göstərəcəkdir. Burada kitabxana, sənədli filmin nümayişi üçün salon var. Ekspozisiya ulu öndərin uşaqlıq və gənclik illərindən, ailə həyatından, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdən, Azərbaycana rəhbərliyinin hər iki dövründən, Moskvada SSRİ-nin ali rəhbərliyində işlədiyi, habelə sonralar Naxçıvanda yaşadığı illərdən bəhs edir. Eyni zamanda, muzeydə ümummilli liderin 1978-ci və 2002-ci illərdə Qəbələ rayonuna səfərləri və burada keçirdiyi görüşləri əks etdirən fotoşəkillər də toplanmışdır.

Bildirildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2004-cü il mayın 10-da "Heydər Əliyev İrsi Beynəlxalq Elektron Kitabxana" yaradılmışdır. Bu layihənin müəllifi "Azərbaycan Nyumedia" şirkətidir. Burada ulu öndərin zəngin irsini əks etdirən materiallar toplanmışdır. 25 dildə hazırlanmış və 100 mindən çox sənədin yerləşdiyi sayt daim zənginləşdirilir, ekspertlər tarixi araşdırmalar aparır. Azərbaycanın xarici dövlətlərlə münasibətlərinə dair qısa oçerklər, məlumat, sorğu materialları toplanmışdır. Saytın fotoqalereyasında ulu öndərə aid nadir fotolar da vardır. Hər ay 100-dən çox ölkədən 10 min oxucu sayta daxil olur. Amerika, Fransa, İngiltərə, Almaniya və digər ölkələrin vətəndaşları bu sayta mütəmadi müraciət edir və sənədlərlə tanış olurlar. Muzeydə tədbirlərin, təlimlərin və veb-konfransların keçirilməsi, videomaterialların nümayiş etdirilməsi üçün brifinq zalı da vardır. Məktəblilər də muzeyə daim gələcək və ulu öndərin zəngin irsi ilə tanış ola biləcəklər.

Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.

***2 mart 2007-ci il***

# ZƏRİFƏ ƏLİYEVA PARKI QƏBƏLƏLİLƏRİN ƏN SEVİMLİ İSTİRAHƏT GUŞƏSİDİR

Prezident İlham Əliyev parkın rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, 6,5 hektar ərazini əhatə edən parkda milliliklə müasirlik çox uyarlı şəkildə uzlaşdırılmışdır. Burada kafe, şirniyyat evi, idman kompleksi, ağsaqqallar üçün çay evi, restoran, diskoteka, konsert və əyləncəli proqramlar üçün gözəl səhnə yaradılmışdır. Gözoxşayan parkda 7 süni göl, fəvvarəli hovuzlar, yaraşıqlı bulaqlar vardır. Parkda 10 mindən çox gül kolu və ağac əkilmişdir. Xüsusilə gecə vaxtları əsrarəngiz görünən park zəngin təəssürat bağışlayır. Sakinlərin istirahəti üçün hər cür şərait yaradılmış bu mədəniyyət və istirahət obyekti müasir standartlara cavab verir. Gənclərin asudə vaxtının səmərəli keçməsi üçün maraqlı proqramlar təşkil olunur, kiçik yaşlı uşaqlar üçün də karusellər, yelləncəklər quraşdırılmışdır. Kompleksdə futbol, voleybol, basketbol meydançaları, idman salonları var. Burada gələcəkdə rayon əhəmiyyətli yarışlar keçiriləcəkdir.

Prezident İlham Əliyev incəsənət ustalarının ifasını dinlədi, idman kompleksində balaca karateçilərin nümunəvi çıxışlarına, futbolçuların məşqlərinə tamaşa etdi.

Dövlətimizin başçısı parkı gəzdi, rayonun gənc rəssamlarının işlərinə baxdı, parka gəzintiyə çıxmış sakinlərlə görüşdü. Prezident İlham Əliyevə gənc rəssamların adından rəsm əsəri hədiyyə olundu.

Sakinlər ali qonağı və xanımını salamladılar, istirahət üçün yaradılan şəraitə görə təşəkkür etdilər, göstərilən diqqət və qayğıdan razılıqlarını bildirdilər. Balaca uşaqlar ulu öndər Heydər Əliyevə və dövlətimizin başçısına həsr olunmuş şeirlər söylədilər.

Prezident İlham Əliyev onlara təşəkkür edərək dedi ki, park çox gözəldir. İstirahət üçün hər bir şərait var, çox gözəl abadlıq işləri görülmüşdür. İnsanlar buradan səmərəli istifadə edəcəklər.

Sakinlər və balaca uşaqlarla xatirə şəkli çəkdirən dövlətimizin başçısı gənclərin asudə vaxtlarının səmərəli keçməsi üçün yaradılan diskoteka ilə də tanış oldu.

Sonra Prezident İlham Əliyev parkda istirahət edən ağsaqqallarla görüşüb söhbət etdi.

Rayon Ağsaqqallar Şurasının sədri NAZİM MUSTAFAYEV dövləti-

mizin başçısına müraciətlə dedi ki, cənab Prezident, bu gün bizim üçün çox xoş bir gündür. Sizin və xanımınızla birlikdə buraya gəlməyiniz bizim üçün toy-bayramdır. Ulu öndərimizi biz heç vaxt yaddan çıxarmırıq. Allah ona qəni-qəni rəhmət eləsin. Sizə isə ailənizlə birlikdə xoşbəxtlik arzulayırıq. Siz nəinki Azərbaycanda, xarici ölkələrdə də ən yüksək hörmətlə qarşılanırsınız. Bu da bizi fərəhləndirir.

YAVƏR MƏMMƏDOV (rayon ağsaqqalı): Cənab Prezident, bu istirahət parkı rəhmətlik Zərifə xanım Əliyevanın adını daşıyır. Zərifə xanım yeganə akademik olub ki, göz xəstəliklərinin müalicəsi ilə əlaqədar zavodlarda, fabriklərdə, müəssisələrdə xüsusi laboratoriyaları var idi. Fəhlələri müalicə edib, çox insanlara şəfa veribdir. Mənim böyük qızım onun tələbəsi olub, müəyyən vaxtlarda o proseslərdə iştirak edibdir. Allah-taaladan ona rəhmət diləyirik. Ağsaqqal kimi mən fəxr edirəm ki, Zərifə xanımın adına belə gözəl park salınıbdır. Biz Mehriban xanıma da minnətdarıq. Heydər Əliyev Fondunun təşəbbüsü, köməyi ilə Qəbələdə neçə-neçə məktəb tikilibdir. O, dağılan məktəbləri yenidən tikir. Bu xeyirxah işlərə görə hamı təşəkkür edir. Hamınıza xoşbəxtlik, ailə səadəti arzulayırıq. Qəbələ camaatının Sizə xüsusi hörməti var.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi ki, bu park çox yüksək səviyyədə salınmışdır. Əslində, bu parkda ölkəmizdə gedən bütün proseslər öz əksini tapır. İdmançılar, gənclər, uşaqlar üçün məşq, istirahət, oyun yerləri, ağsaqqalların istirahəti üçün şərait yaradılmışdır. Buranın havası da, təbiəti də çox gözəldir. Adam bu dağlara baxanda özünü daha da gümrah hiss edir. Ona görə hər cür şərait var. İndi məndən də yaxşı bilirsiniz ki, Qəbələ necə gözəlləşir, inkişaf edir. Qəbələ buna layiqdir. Çünki Azərbaycanın qədim paytaxtı olubdur, qədim, tarixi şəhəridir. Ona görə gərək inkişafı hərtərəfli olsun.

Ulu öndər Qəbələyə 2002-ci ildə gəlmişdi. O vaxtdan beş il keçib, amma nə qədər böyük dəyişikliklər baş veribdir. Qəbələni tanımaq mümkün deyildir. Bundan sonra daha da yaxşı olacaqdır. Parklar, müəssisələr, xəstəxanalar, müxtəlif sənaye obyektləri tikilir, iş yerləri açılır. Bunların hamısı vacibdir.

YAVƏR MƏMMƏDOV: Rayonun inkişafında Milli Məclisin deputatı Fəttah Heydərovun da xidmətləri var. İndi rayonda sovet dövründə görülən işlərdən qat-qat artıq işlər görülür. Qəbələdə altı mindən çox iş yeri yaradılıbdır. İnsanlar bu inkişafı, bu gözəlliyi görəndə yaşamaq həvəsi daha da artır.

İLHAM ƏLİYEV: Mən də görəndə ki, insanların əhval-ruhiyyəsi yaxşıdır, üzü gülür, mənə daha çox güc gəlir.

FƏTTAH HEYDƏROV (Milli Məclisin deputatı): Həqiqətən də, ulu öndərimizin ayağı haraya dəyibsə, ora dirçəlib, yeni həyat qazanıbdır. Qəbələ tamamilə dəyişibdir, inkişaf edir. Ağsaqqalların hamısı sanki cavanlaşıbdır.

NAZİM MUSTAFAYEV: Cənab Prezident, ağsaqqallar Sizdən çox razıdırlar. Sağ olun ki, pensiyaları vaxtaşırı artırırsınız.

İLHAM ƏLİYEV: Pensiyalar, minimum əmək haqqı artırılıbdır. Bu hələ başlanğıcdır. İmkanlarımız genişlənir, daha da çox artıracağıq.

NURU CABBAROV (ağsaqqal): Hörmətli Prezidentimiz, bu gün bizə ən yüksək, əvəzolunmaz mükafat verirsiniz. Allah Sizə cansağlığı versin, atanıza da rəhmət diləyirik. Görülən bu işlərə görə, bu gözəlliyi, imkanları bizlərə verdiyinizə görə olduqca minnətdarıq.

İLHAM ƏLİYEV: Çox sağ olun. Həm iqtisadi, həm də sosial sahədə inkişaf var, sosial məsələləri həll edirik. İndi böyük xəstəxana tikirik.

NAZİM MUSTAFAYEV: İstəyirik, Siz uzun illər, on, iyirmi, otuz il Azərbaycana rəhbərlik edəsiniz. Siz hamımızın Prezidentisiniz.

SÜLEYMAN MEHDİYEV (ağsaqqal): Apardığınız siyasəti biz çox böyük ruh yüksəkliyi ilə dəstəkləyirik. Həmişə Sizin yanınızdayıq. Yaratdığınız şəraitə görə də minnətdarıq. İndi Qəbələ rayonu qələbə rayonuna çevrilibdir.

İLHAM ƏLİYEV: Görəndə ki, həyat yaxşılaşır, sevinirəm. Yeni binalar tikilir, insanlar daha da yaxşı yaşayır, əhval-ruhiyyə yaxşıdır. Qəbələ indi ən sürətlə inkişaf edən rayonlardan biridir.

NURU CABBAROV: Rayonumuzdan seçilən deputatımız da, icra hakimiyyətinin başçısı da yorulmaq bilmədən çalışırlar.

İLHAM ƏLİYEV: Deputatlar öz seçiciləri üçün işləməlidir. Deputat belə olmalıdır.

NAZİM MUSTAFAYEV: Səhər işə gedib, axşam evinə dönən adam xoşbəxtdir. Siz bu xoşbəxtliyi insanlara bəxş etmisiniz. Dediyiniz 600 min iş yeri açılır, insanlar işlə məşğul olur, axşam ailəsi üçün çörək aparır – bunların hamısı çox gözəldir. Hazırda 520 min iş yeri yaradılıbdır.

İLHAM ƏLİYEV: Sosial məsələlərə diqqət yetirilir. Məsələn, məktəb tikilir. Nə üçün? Çünki uşaqlar yaxşı məktəbdə oxusunlar, internet olsun, bilsinlər dünyada nə baş verir. Yəni bilikli olsunlar. İndi bizim iqtisadi potensialımız möhkəmlənir. Əsas istəyimiz odur ki, gənc nəsil savadlı ol-

sun. Xəstəxanalar da tikilir. Qəbələdə müalicə-diaqnostika mərkəzi tikilir. Sizdən xahiş edirəm ki, hazır olanda vaxtaşırı oraya gedin, müayinədən keçin. Düzdür görürəm, siz sağlamsınız, gümrahsınız. Amma yenə də tibbi nəzarət olmalıdır. Əvvəllər, Sovet İttifaqı zamanı belə təşəbbüs irəli sürmüşdülər ki, insanlar ümumi dispanser müayinəsindən keçməlidirlər. Amma onu təmin edə bilmədilər, çünki imkan yox idi. Biz indi bölgələrdə müalicə-diaqnostika kompleksləri yaradırıq. Əsas məqsəd odur ki, bütün insanlar ildə bir dəfə orada müayinədən keçsinlər. Orada həm rentgen müayinəsi, həm qan, həm də digər analizlər aparılır və s. İnsanlar bilir ki, xəstəliyi nədir və necə müalicə olunmalıdır. Ondan sonra müalicə alır, rahat yaşayır. Mən istəyirəm bölgələrdə bu yeniliklər kök salsın ki, yaşından asılı olmayaraq, bütün insanlar öz sağlamlığını qorusunlar, çox yaşasınlar. Ağsaqqallar həmişə qabaqcıl mövqelərdə olsunlar. Siz həmişə fəal olmusunuz.

FƏTTAH HEYDƏROV: Burada müdrik insanlar var. Ağsaqqallar Sizin dayağınızdır, bütün məsələlərdə öndədirlər, çevikdirlər, gənclərə düz yol göstərir, məsləhətlər verirlər, görülən işlərə sevinirlər. Problemlərin həllində səbir nümayiş etdirirlər.

İLHAM ƏLİYEV: Bu, gənclər üçün lazımdır. Biz gəncləri vətənpərvər, peşəkar böyütməliyik. Onlar sizə baxıb nümunə götürürlər. Çox şadam ki, sizinlə görüşdüm. Sizə cansağlığı, uğurlar arzulayıram.

Dövlətimizin başçısı ağsaqqallarla nərd oynadı, çay süfrəsi arxasında söhbət etdi.

◆◆◆

Prezident İlham Əliyev "Zopzopu" özfəaliyyət folklor ansamblının nümunəvi çıxışına maraqla tamaşa etdi. Bildirildi ki, ansambl Fransada, Rusiyada və digər ölkələrdə keçirilən folklor musiqisi festivallarında uğurla çıxış edir.

***2 mart 2007-ci il***

# HEYDƏR ƏLİYEV ADINA SARAYDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ APARILACAQDIR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LAYİHƏ İLƏ TANIŞ OLMUŞDUR

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev məlumat verərək bildirdi ki, dövlətimizin başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncamında göstərildiyi kimi, Heydər Əliyev adına Sarayın mühüm ictimai-siyasi, mədəni tədbirlərin təşkil edilməsi və həyata keçirilməsində əhəmiyyətini nəzərə alaraq, burada əsaslı təmir və yenidənqurma işləri aparılacaq, Saray müasir avadanlıqla təchiz ediləcəkdir. Bununla əlaqədar Türkiyənin "Pim Proje" şirkəti xüsusi layihə hazırlamışdır. Martın 15-dən Saray fəaliyyətini dayandıracaq, bir ay müddətində yenidən yoxlamalar aparıldıqdan sonra işə başlanacaqdır. "Aqrartikinti" Səhmdar Cəmiyyəti tərəfindən görüləcək işlər 2008-ci ilin sentyabrında başa çatdırılacaqdır.

Prezident İlham Əliyev əvvəlcə layihədə nəzərdə tutulan dəyişikliklərlə tanış oldu, Sarayın təmirdən sonrakı vəziyyətini göstərən şəkillərə baxdı.

"Pim Proje" şirkətinin rəhbəri Cəlal Özkan layihə barədə məlumat verərək, ulu öndər Heydər Əliyevin adını daşıyan Sarayın layihə işlərinin onlara həvalə olunmasına görə təşəkkür edərək dedi ki, bu, bizim üçün böyük fəxrdir. Layihədə binanın xaricində, ətrafında və daxilində görüləcək işlər nəzərdə tutulmuşdur. Binaya mərmər üzlük çəkiləcəkdir.

İLHAM ƏLİYEV: Gərək binanın xarici görünüşü çox gözəl olsun, müasir olsun.

CƏLAL ÖZKAN: İşıqlandırma sistemi tamamilə yenidən qurulacaq, İtaliyadan gətirilmiş xüsusi şüşələr quraşdırılacaq və beləliklə, 24 saat ərzində binanın üzərindən ekran kimi istifadə olunacaqdır. Bu, bizim layihəmizin əsasını təşkil edir. Binanın qarşısından keçən yolda nəqliyyat vasitələrinin dayandırılması üçün avtomat tipli xüsusi sədlər quraşdırılacaq və tədbirlər olan zaman bundan istifadə olunacaq və insanların qarşıdakı parkla əlaqəsi yaranacaqdır.

İLHAM ƏLİYEV: Yəni bütün insanlar buradan rahat keçə bilsinlər.

CƏLAL ÖZKAN: Binanın giriş hissəsinin hündürlüyünü bir metr qaldıracaq və işıqlandıracağıq. Xüsusilə tədbirlər gecə keçirildiyi üçün daha işıqlı olacaqdır.

ƏBÜLFƏS QARAYEV: Cənab Prezident, hazırda giriş hissənin hündürlüyü 3,5 metrdir. Biz bunu bir metr yuxarı qaldırmaqla daha yaraşıqlı edəcəyik.

İLHAM ƏLİYEV: Giriş hissədə neçə qapı olacaqdır?

ƏBÜLFƏS QARAYEV: 7-8 qapı idi, hamısı qalır.

İLHAM ƏLİYEV: Yəni, necə var idisə, elə də qalır.

CƏLAL ÖZKAN: Bəli, amma qapılar avtomatik açılıb-bağlanacaqdır. Görüləcək bütün işlərdə son texnologiyalar, Avropada istifadə olunan materiallar tətbiq ediləcəkdir. Bu bina memarlıq baxımından çox gözəldir. Hazırda 50-yə yaxın memar binada texniki araşdırmaları davam etdirir.

İLHAM ƏLİYEV: Demək olar ki, binanın xarici memarlığı dəyişməz olaraq qalacaqdır. Sadəcə olaraq, biz bunu müasirləşdirəcəyik və yeni texnologiyalar tətbiq olunacaqdır. Sanki yeni bir saray tikilir.

CƏLAL ÖZKAN: Cənab Prezident, tamamilə doğrudur.

ƏBÜLFƏS QARAYEV: Cənab Prezident, dövlət tədbirlərinin burada keçirilməsini nəzərə alaraq, ali və hörmətli qonaqlar üçün nəzərdə tutulan giriş hissədə, eləcə də VİP otaqlarda dəyişiklik ediləcəkdir. Sənətçilər üçün yer də müasirləşdiriləcəkdir. Burada ulu öndərin büstü də qoyulacaqdır.

CƏLAL ÖZKAN: Xüsusi şüşələrin üzərindən ekran kimi istifadə oluna bilər.

İLHAM ƏLİYEV: Bu şüşələrdən içəridə gedən tədbir göstərilə bilərmi?

CƏLAL ÖZKAN: Bəli, lazım olduqda göstərilir.

İLHAM ƏLİYEV: Yəni insanlar bayırdan da tamaşa edə bilərlər.

CƏLAL ÖZKAN: Bəli, xüsusilə mərhum Prezidenti anma günlərində, eləcə də xüsusi əhəmiyyət daşıyan tədbirlər zamanı insanlar salonu bayırdan seyr edə bilərlər.

İLHAM ƏLİYEV: O zaman yollar bağlanacaq, insanlar buradan keçilən tədbirə baxacaqlar.

CƏLAL ÖZKAN: Hər bir işimizdə yenilik olacaqdır. Foyedə lazer fəvvarələr də yaradılacaqdır.

İLHAM ƏLİYEV: Burada döşəmə, divarlar, tavan – hər şey dəyişir.

CƏLAL ÖZKAN: Foyelərdə nəzərəçarpacaq dəyişikliklər ediləcəkdir. Saatlar, videoekranlar quraşdırılacaq ki, insanlar içəridə olanları seyr edə bilsinlər. Burada xüsusi oturacaqlar qoyulacaq, dizayna uyğun olaraq paltarların asılması üçün işıqlı qarderoblar quraşdırılacaqdır.

İLHAM ƏLİYEV: Hər yer işıqlı olmalıdır.

CƏLAL ÖZKAN: Cənab Prezident, Milli Məclisdə də yeni sistem quraşdırılmışdır. Burada da həmin sistem tətbiq olunacaqdır. Qapılar mərmər

döşəmələrə uyğun olacaq, Sarayın kassaları da təmir ediləcək, binanın ümumi görünüşünə uyğunlaşdırılacaq və müasir vəziyyətə salınacaqdır. Səhnənin akustikasının daha da yaxşılaşdırılması üçün hazırda Türkiyənin Ortadoğu Texniki Universitetinin mütəxəssisləri bu istiqamətdə işləri tamamlamışlar. İndikindən yaxşı olacaqdır.

ƏBÜLFƏS QARAYEV: Cənab Prezident, mütəxəssislərlə görüş keçirmişik. Oturacaqlar eyni rəngdə olacaq, əlavə 15-ə yaxın yer artırılacaqdır. Əvvəllər səhnədə yerləşdirilmiş səs qurğuları üçün xüsusi otaqlar ayrılmışdır.

İLHAM ƏLİYEV: İndi burada nə qədər oturacaq var və nə qədər olacaqdır?

ƏBÜLFƏS QARAYEV: 2150 oturacaq var və 2165-ə çatdırılacaqdır.

CƏLAL ÖZKAN: Oturacaqlarda tamaşaçılara xüsusi qulaqcıqlar veriləcəkdir. Bütün dünyada bu sistemdən istifadə olunur. Onlar danışıqları tərcümə vasitəsilə istədikləri dildə dinləyə biləcəklər. Binanın bayır divarlarına üzlüklər xüsusi texnologiya əsasında vurulacaq və zəlzələyə davamlı, uzunömürlü olacaqdır.

Prezident İlham Əliyev Sarayın giriş və daxili qapılarının formasına, ABŞ, Yaponiya, Almaniya, İtaliya və Avstriyada istehsal olunan materialların nümunələrinə, binanın daxilində, xaricində, ön və arxa girişlərdə istifadə olunacaq qranit və mərmərin çeşidlərinə, akustika üçün nəzərdə tutulan vasitələrə baxdı. Binanın sütunlarının yoxlanılması üçün müvafiq tapşırıqlar verərək dedi ki, bu bina 30 ildən artıqdır tikilibdir. Düzdür, təməli möhkəmdir, amma yenə də yoxlamalıyıq. Çünki bu daşlar əlavə ağırlıq verəcəkdir.

Sonra Prezident İlham Əliyev Sarayın xarici və gecə görünüşünü əks etdirən videokadrlara baxdı, səhnəni, foyeləri gəzdi, səhnənin dizaynı, quraşdırılacaq işıqlandırma, isitmə və soyutma sistemi ilə maraqlandı. Dövlətimizin başçısına burada aparılacaq dəyişikliklərlə bağlı məlumat verildi, yeni ekskalatorların quraşdırılacağı da bildirildi.

Prezident İlham Əliyev binanın işıqlandırılması və digər işlərlə bağlı əlavə tövsiyə və tapşırıqlar verərək dedi ki, görüləcək bütün işlərdə dünyada mövcud olan ən müasir texnologiyalar istifadə olunmalıdır. Biz ilk növbədə, bu parkı abadlaşdırdıq, ulu öndərin abidəsi qoyuldu. Əvvəllər park çox bərbad vəziyyətdə idi. İndi çox gözəl olubdur. Biz gərək ətrafdakı binaları da təmir edək. Bura möhtəşəm bir kompleks olacaqdır. Ulu öndər bu binanı 1974-cü ildə tikdiribdir. Biz də buna yeni müasir həyat veririk. Biz Sarayı 2008-ci ilin payızınadək hazır etməliyik.

***5 mart 2007-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV YAŞIL TEATRDA APARILAN VƏ BAKININ DİGƏR YERLƏRİNDƏ GÖRÜLƏCƏK YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı 2005-ci ilin avqustunda vaxtilə paytaxtın məşhur mədəniyyət ocaqlarından olan Yaşıl teatrın yenidən qurulması haqqında Sərəncam imzalamışdı. Burada görüləcək işlərin layihəsini "Bakımənzilkommunallayihə" İnstitutu Türkiyədən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə hazırlamışdır.

Prezident İlham Əliyev burada yenidənqurma işlərinin gedişini daim nəzarətdə saxlayır. Növbəti dəfə buraya gələn dövlətimizin başçısına görülən işlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, bu ilin mayında istifadəyə veriləcək Yaşıl teatrda 2500 tamaşaçı yeri olacaqdır.

Prezident İlham Əliyev işlərin vəziyyəti ilə tanış oldu və yenidənqurmadan sonra Yaşıl teatrın ən müasir standartlar səviyyəsində olmasının zəruriliyini bildirdi, müvafiq tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı funikulyorun qarşısındakı meydana gəldi. Prezidentə burada aparılacaq yenidənqurma işləri ilə bağlı məlumat verilərək bildirildi ki, tezliklə meydan yeni görkəm alacaq, paytaxtın yaraşıqlı guşələrindən birinə çevriləcəkdir.

Azərbaycan paytaxtının baş meydanını bəzəyən, memarlığı baxımından və əzəməti ilə diqqəti cəlb edən, hazırda geniş təmir işləri gedən Hökumət evinin qarşısında, Milli parkda yerləşən fəvvarə də görkəmini büsbütün dəyişəcəkdir. Bütün bunlar barədə ətraflı məlumat alan Prezident İlham Əliyev müvafiq tövsiyələrini də söylədi. Eyni zamanda, dövlətimizin başçısı bildirdi ki, ölkəmizin mədəniyyət, incəsənət ocaqlarında, paytaxtı Bakının müxtəlif yerlərində əsaslı təmir və yenidənqurma, abadlıq işləri daha da genişləndiriləcəkdir.

***8 mart 2007-ci il***

## TACİKİSTANIN MİLLİ TARİX MUZEYİ İLƏ TANIŞLIQ

Prezident İlham Əliyevi muzeyin direktoru Saidmurad Bobolulloev böyük hörmət və ehtiramla qarşıladı, muzeyi ziyarət etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, dedi ki, qədim dövlətçilik ənənələrinə malik Tacikistanın tarixini əks etdirən muzeydə 10 mindən çox arxeoloji eksponat, geyim dəstləri, məişət əşyaları, kənd təsərrüfatı alətləri və s. toplanmışdır. 2001-ci ildə yaradılmış muzeydə ölkənin bütün regionlarından gətirilmiş eksponatlar 22 bölmədə nümayiş etdirilir.

Prezident İlham Əliyev muzeyi gəzdi və ayrı-ayrı bölmələrlə tanış oldu.

Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyevə muzeyin xüsusi albomu hədiyyə olundu.

***15 mart 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MSTISLAV ROSTROPOVİÇİN 80 İLLİYİ ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva zəmanəmizin görkəmli musiqiçisi və dirijoru, həmyerlimiz Mstislav Rostropoviçin 80 illiyi şərəfinə Rusiya Prezidenti Vladimir Putin tərəfindən Dövlət Kreml sarayında təşkil olunmuş rəsmi qəbulda iştirak etmişlər.

Qonaqlar arasında maestronun pərəstişkarları – Avropanın kral ailələrinin üzvləri, Monako knyazı II Albert, RF hökumətinin rəsmi şəxsləri, Rusiyanın bəzi regionlarının rəhbərləri də vardı.

MSTİSLAV ROSTROPOVİÇ qəbulda çıxış edərək dedi:

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən özümü ən xoşbəxt adam sanıram: ailəm, dostlarım və həmkarlarım mənimlədirlər. Bu hədiyyəyə – yubileyi əziz dostlarımın arasında bayram etməyə görə sizə və Prezidentə təşəkkür edirəm. Əgər bu gecə sizin üçün xoş olarsa, mən daha xoşbəxt olaram. Mən buna çox ümid bəsləyirəm. Çox sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Prezident İLHAM ƏLİYEV təntənəli qəbulda çıxış edərək dedi:

– Əziz Slava!

Əziz Qalina Pavlovna!

Hörmətli xanımlar və cənablar!

Bu gün, bu gözəl gündə şanlı yubiley münasibətilə bütün Azərbaycan xalqının hərarətli salamını və ən xoş arzularını əziz həmyerlimizə çatdırmaq istəyirəm. Azərbaycanda biz belə böyük həmyerlimizlə fəxr edirik. Bakıda Rostropoviçlərin adını daşıyan küçə var. Slava hər il öz Vətəninə gəlir, ustad dərsləri keçir, gənc istedadlara, xəstə uşaqların müalicəsinə kömək edir, öz vətəni üçün çox böyük humanitar iş görür.

Məlum olduğu kimi, Azərbaycan uzunömürlülər diyarıdır. Dünyanın ən məşhur uzunömürlü insanı Azərbaycanda yaşamış və o, 160 yaşınadək

ömür sürmüşdür. Lakin bu, heç də yeganə hal deyildi. 120-130 il yaşayan çoxlu adam var. Odur ki, Azərbaycan meyarlarına görə Slava hələ çox cavandır. Ruhən də gəncdir. O, həmişə ətrafdakılarda nikbinlik doğurur, həmişə öz enerjisi, təşəbbüsü və fəallığı ilə ilham verir. Biz həyatı sevməyi, həyatdan kam almağı və xeyirxah işlər görməyi ondan öyrənirik.

Hamı bilir ki, Slava Rostropoviç böyük musiqiçi, böyük vətənpərvər, böyük humanistdir. O, ən ağır anlarda belə öz prinsiplərinə sadiq qalmış, həmişə haqq-ədalət uğrunda mübarizə aparmış insandır. Lakin necə gözəl insan olduğunu yalnız onu tanıyan adamlar bilirlər. Onun özünə dost bildiyi adamlar bununla, haqlı olaraq, fəxr edirlər.

Bu gözəl gündə elan etmək istəyirəm ki, Azərbaycan dövləti özünün görkəmli həmyerlisini Azərbaycanın ən ali ordeni ilə – Slavanın dostunun adını daşıyan ordenlə, "Heydər Əliyev" ordeni ilə təbrik etmişdir. İndi mən bu ordeni təqdim etmək istəyirəm.

***27 mart 2007-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV XALQ ŞAİRİ QABİLLƏ VİDALAŞMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Mərhumun cənazəsi Azərbaycan Dövlət Mahnı Teatrının matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulmuşdu. Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyevin adından, habelə dövlət və hökumət təşkilatları, Yazıçılar Birliyi, müxtəlif kollektivlər adından əklillər və mərhumun orden və medalları düzülmüşdü.

Xalq şairi Qabilin həmkarları, dostları, tanışları, tanınmış mədəniyyət və incəsənət, elm xadimləri, mərhumun poeziyasının pərəstişkarları axın-axın teatrın binasına gəlir, görkəmli sənətkara və gözəl insana son borclarını verirdilər.

Salonda həzin matəm musiqisi səslənirdi. Dövlət və hökumət nümayəndələri, elm, incəsənət, mədəniyyət xadimləri və digər sakinlər cənazənin yanında fəxri qarovulda dayanırdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev poeziyamızın tanınmış simalarından biri olan Qabil ilə vidalaşma mərasimində iştirak etmək üçün teatra gəldi.

Prezident İlham Əliyev, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev mərhumun cənazəsi yanında fəxri qarovulda dayandılar.

Sonra dövlətimizin başçısı şairin ailə üzvlərinə, qohum-əqrəbasına dərin hüznlə başsağlığı verdi.

Matəm mitinqini Baş nazirin müavini Elçin Əfəndiyev açaraq, mərhum şairin həyat və yaradıcılığından danışdı. Bildirildi ki, ötən əsrin 40-cı illərində ədəbiyyata gəlmiş Qabilin bir çox əsərləri xalqın yaddaşına həkk olunmuş, XX əsr Azərbaycan poeziyasının ən layiqli nümunələrinə çevrilmişdir. "Nəsimi" poeması ilə klassikləşən mərhum şair yaradıcılığı ərzində bütün varlığı ilə azərbaycançılıq ideyası ilə yaşamış, xalqını, millətini, Vətənini, dövlətini, Prezidentini sevmiş, insanlara sədaqətli olmuşdur.

E.Əfəndiyev tanınmış şairin ulu öndər Heydər Əliyevlə əsl dostluğundan, ulu öndərin ona göstərdiyi qayğıdan danışaraq dedi ki, dövlətimiz Qabilin ədəbi fəaliyyətini yüksək qiymətləndirmiş və o, ölkəmizin ali mükafatları ilə təltif olunmuşdur.

Yazıçılar Birliyinin sədri Anar, mədəniyyət və turizm naziri Əbülfəs

Qarayev, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev, Milli Məclisin deputatı, xalq şairi Sabir Rüstəmxanlı və xalq şairi Zəlimxan Yaqub nikbin şairə Allah-təaladan rəhmət diləyərək vurğuladılar ki, o, təkcə yazdığı şeirlərlə deyil, yüksək şəxsi keyfiyyətləri, şux zarafatları ilə də insanların qəlbində əbədi məhəbbət qazanmışdır.

Bildirildi ki, Azərbaycanın kədərli və sevincli anlarını "Tramvay parka gedir", "Yağışlı havalarda", "Səhv düşəndə yerimiz", "Cırtdan", "Məhəbbət", digər məzmunlu şeirləri və "Ömür həbləri" romanı ilə qələmə almış Qabil olduqca şərəfli ömür və yaradıcılıq yolu keçmiş, həyat həqiqətlərini özünə xas olan üslubda əks etdirmişdir. Xasiyyətindəki humanizm və mərhəmət duyğusu şairi hamı ilə doğmalaşdırmışdı. Onun şeirləri hər zaman dillərdə əzbər dolaşır, ürəklərə və beyinlərə saf düşüncələr gətirir. Məhz buna görə də Qabilin vəfatı bənzərsiz şair itkisidir.

Çıxış edənlər vurğuladılar ki, Azərbaycanın zəngin poeziya ənənələrindən bəhrələnən Qabil özünün uca və həmişə təravətli olan söz dünyasını yaratmış və o, heç vaxt sözün düzünü deməkdən çəkinməmişdir. Kamil insan olan Qabilin dostluğunun mayası səmimiyyətlə yoğrulmuşdu. Elə buna görə də Azərbaycan mədəniyyətinin, ədəbiyyatının inkişafına daim böyük diqqət və qayğı göstərmiş ümummilli liderimiz Heydər Əliyev mərhum şairin şəxsiyyətinə və yaradıcılığına xüsusi hörmət bəsləmiş, onun ədəbiyyatdakı rolunu yüksək dəyərləndirmişdir. İlhamlı şair, əqidəli vətəndaş, etibarlı dost və müdrik ağsaqqal olan Qabilin parlaq xatirəsi heç zaman unudulmayacaqdır.

Natiqlər dedilər ki, lirik şeirləri, qəzəlləri, rübailəri, nəsr və publisistik kitabları hamı tərəfindən sevilən, yaradıcılığının bir sıra mühüm cəhətləri ilə nadir sənətkar olan, ədəbiyyatımıza yeni ab-hava gətirən Qabil şeirin demokratikləşməsi uğrunda mübarizə aparmış, xalqın mənəvi tərbiyəsində çox mühüm rol oynamış, keçmiş SSRİ rəhbərlərini xalqımızın başına gətirilən müsibətlərə görə kəskin ittiham etmişdir.

Mərhum şairin oğlu Mahir İmamverdiyev atasının yaradıcılığına verilən yüksək qiymətə, onun ruhuna göstərilən ehtirama görə dövlətimizin başçısına və Qabil poeziyasını sevən bütün insanlara təşəkkürünü bildirdi.

◆◆◆

Prezident İlham Əliyev mərhumun ailə üzvlərinə bir daha dərin hüznlə başsağlığı verdi, onlara Tanrıdan səbir dilədi.

Qabilin ailə üzvləri, qohumları mərhumla vidalaşdılar.

◆◆◆

Xalq şairi Qabilin cənazəsi teatrın binasından qaldırılaraq Fəxri xiyabana gətirildi. Burada mərhumun ruhuna dua oxundu. Əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq tanınmış sənətkar, əsl vətəndaş və gözəl insan Qabil Allahverdi oğlu İmamverdiyevin cənazəsi doğma torpağa tapşırıldı. Məzarı üzərinə əklillər, gül dəstələri düzüldü.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!

***5 aprel 2007-ci il***

# HEYDƏR ƏLİYEV SEYRƏHGAHI CƏLİLABADLILARIN SEVİMLİ İSTİRAHƏT YERİ OLACAQ

Prezident İlham Əliyev Cəlilabad şəhərində Heydər Əliyev seyrəngahının tikintisi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər haqqında məlumat verildi. Bildirildi ki, şəhərin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün 6 min metr əsas, 5,5 min metr məhəllədaxili su xətləri çəkilmişdir. Privolnoye kəndinin su təchizatının yaxşılaşdırılması üçün 3 min metr su xətti təzələnmişdir. Cəlilabad şəhərində yeni kanalizasiya sisteminin tikintisinə başlanılıb və 6 min metrdən artıq xətt çəkilmişdir.

Rayonda yeni tibb müəssisəsinin, Göytəpə şəhərində mədəniyyət evinin, Cəlilabad şəhərində doğum evinin, İdman kompleksinin tikintisi üçün torpaq sahəsi ayrılmışdır. Əlillər və şəhid ailələri üçün də yaşayış binasının inşası nəzərdə tutulmuşdur. Cəlilabadda 16 mənzilli yaşayış binası istifadəyə verilmişdir. 7 nömrəli şəhər orta məktəbi üçün 1100 şagird yerlik binanın tikintisi davam etdirilir.

Cəlilabadlıların sevimli istirahət yeri olacaq Heydər Əliyev seyrəngahında, ulu öndərin adını daşıyacaq muzeyin tikintisində işlər başa çatır. Heydər Əliyev prospekti əsaslı şəkildə yenidən qurulmuş, 1,5 kilometrlik məsafədə nəqliyyatın ikitərəfli hərəkəti təmin edilmiş, 19,4 min kvadratmetr asfalt döşənmişdir. 12 min kvadratmetr ərazidə çəmənliklər salınmış, suvarma məqsədi ilə üç artezian quyusu qazılmış və çənlər qoyulmuşdur. Rayonda taxılçılığın inkişafına xüsusi diqqət yetirilir. 2006-cı ildə 125 min 625 ton taxıl (2005-ci ildəkindən 2 min 621 ton çox) istehsal olunmuş, hər hektardan 26,1 sentner məhsul götürülmüşdür.

Fiziki və hüquqi şəxslər tərəfindən 729 hektar sahədə üzüm bağları salınmışdır. Damazlıq quşçuluq təsərrüfatının və broyler fabrikinin fəaliyyətinin bərpası üçün də işlər gedir. Hazırda fabrikin dörd sexi bərpa edilmiş və 200 ton quş əti istehsal olunmuşdur.

Sonra dövlətimizin başçısı rayon ağsaqqalları ilə görüşdü.

Cəlilabad rayon təhsil şöbəsinin müdiri ƏDALƏT ƏSGƏROV Prezidentə müraciətlə dedi: Cənab Prezident, icazə verin öz adımdan, ağsaqqallar adından, rayon ictimaiyyəti adından, rəhbərlik adından Sizə minnətdarlıq edim. Qədəmləriniz mübarək olsun. Siz bu gün bizi şərəfləndirdiniz, bi-

zə ilham verdiniz. Xoş gəlmisiniz ulu öndərimizin yadigarı. İlham müəllim, Siz Cəlilabadı həmişə yaşatmısınız. Ulu öndərimiz də rayonumuzu yaşatmışdır. Cəlilabad 40 ildir ulu öndərimizin qoyduğu yol ilə gedir, Allah qoysa, hələ 40 il bundan sonra da inkişaf yolu ilə gedəcəkdir. Biz Sizə çox minnətdarıq ona görə ki, bu gün bir daha Cəlilabada gəlməklə bizə yeni ruh verdiniz. Bu gün Sizin qarşınıza çıxarmağa az-çox işimiz var. Yadınızdadırsa, Heydər Əliyev adına məktəbin açılışına gələndə buranın vəziyyəti barədə məndən soruşmuşdunuz. Onda xəcalət çəkirdim, indi görün, necə dəyişibdir. Fikirləşirdim ki, cənab Prezident buranı məndən niyə soruşur.

İLHAM ƏLİYEV: O, 2004-cü il idi.

ƏDALƏT ƏSGƏROV: Bəli, layihəni Siz o vaxt vermişdiniz. İndi bura tanınmır. Səhər-səhər işə gələndə hər kəs rayonda yenilik görür. İnsanlarda böyük həvəs var, inciyirlər, deyirlər ki, bəs bizi niyə işlətmirsiniz? Hər kəs istəyir ki, işləməklə iz qoysun. Biz ulu öndərimizin layiqli davamçısı İlham Əliyevi ona görə çox istəyirik ki, rəhmətlik Heydər Əliyev Cəlilabadı çox sevirdi. Ulu öndərimizi Azərbaycanın hər yerində çox sevirlər, ancaq Cəlilabadda hamıdan çox sevirlər. Bu sözü Sizə tam səmimiyyətlə deyirəm. O vaxt ümummilli liderimiz Cəlilabada 3 dəfə səfər etmişdi və rayonumuza hər gəlişində burada bir iz qoyurdu. Allah Sizin ömrünüzü uzun, canınızı da sağ eləsin. Çünki Siz rəhmətlik Heydər Əliyevin ideyalarını uğurla davam etdirirsiniz. Allah Sizi bizlərə çox görməsin.

Cənab Prezident, Sizdən bir xahişim var ki, bu obyektlərin açılışında iştirak edəsiniz.

İLHAM ƏLİYEV: Mən mütləq gələcəyəm. O illəri çox yaxşı xatırlayıram, ulu öndər həmişə Cəlilabada gələndə, mən də onunla gəlirdim. Burada dəfələrlə olmuşam, bu yerləri çox yaxşı xatırlayıram və mənim üçün çox əzizdir. Ona görə 2004-cü ildə sizdən soruşdum ki, bu yer nə vəziyyətdədir. Sizin sözünüzdən bildim ki, o qədər də yaxşı vəziyyətdə deyil. O vaxt fikrimə gəldi ki, biz mütləq burada böyük yenidənqurma işləri aparaq. 1970-80-ci illərdə Heydər Əliyev Cəlilabadı, demək olar ki, inkişaf etdirdi, burada üzüm bağları salındı, çox işlər görüldü, insanlar yaxşı pul qazandılar, ev tikdilər, maşın aldılar. İndi biz Cəlilabada yeni həyat veririk.

Artıq müasir səviyyəyə uyğun şəkildə, yəni dünya səviyyəsində. Dünyanın istənilən ölkəsinə gedib baxmaq olar, amma bu gözəlliyi orada görmək mümkün deyildir. Hər yer abadlaşır, hər yer gözəlləşir. Mən indi avtovağzalın binasına baxdım. Müasir gözəl binadır, orada gözəl xidmət göstəriləcəkdir. Bu yerlər abadlaşır, insanların rahatlığı, istirahəti üçün park olacaqdır. Bunlar Cəlilabadın ümumi inkişafının dinamikasını göstərir. Bizim

də məqsədimiz odur ki, insanlar rahat yaşasınlar. Gözəl binalar, istirahət, dincəlmək üçün yaxşı yer olsun, iş yerləri olsun, məktəb tikilsin. Sizin çox gözəl məktəbiniz var. Mənim yadımdadır, o vaxt açılışında oldum.

ƏDALƏT ƏSGƏROV: Cənab Prezident, ondan da gözəl məktəbimiz olacaq və Siz açılışına gələcəksiniz.

İLHAM ƏLİYEV: İndi ondan da gözəl məktəb tikilir, şəkilləri görmüşəm, buradan sonra gedib baxacağam. Yəni bütün bunları biz edirik ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Maaşlar, pensiyalar artırılır, bu, öz yerində, amma belə gözəl məişət, istirahət yerləri də olmalıdır. Xüsusilə ağsaqqallar üçün, onlar böyük zəhmət çəkiblər, Azərbaycanın inkişafında çox fəal iştirak ediblər. Bu gün də iştirak edirlər və onların fəaliyyəti gənc nəsil üçün böyük örnəkdir. Onlar üçün, cavanlar üçün də gözəl istirahət yeri olmalıdır.

Mən bu yerin ilkin planını görəndə oraya bəzi düzəlişlər etdim. Yəni bilirəm ki, burada nələr olacaqdır. Çünki bu yerin planını özüm təsdiq etmişəm və şəkildəkindən də gözəl olmalıdır. Şəkildə çox gözəldir, həyatda da ondan gözəl olmalıdır. Ona görə bu işlər tezliklə başa çatacaq və mən də bundan sonra buraya dəfələrlə gələcəyəm.

ƏDALƏT ƏSGƏROV: Cənab Prezident, ümummilli liderimiz gənclərə çox böyük qayğı göstərirdi. Çox şadıq ki, o xətti Siz ləyaqətlə davam etdirirsiniz. Təyin etdiyiniz kadrlar Sizin iş sürətinizlə işləyirlər.

İLHAM ƏLİYEV: Onlar mənim tələblərimi bilirlər və təyin edəndə deyirəm ki, get düz işlə, insanlara qulluq et, qur, yarat, rayonu gözəlləşdir. Çalış ki, insanlara maksimum dərəcədə kömək ol. Yəni, mənim iş prinsiplərim belədir.

ƏDALƏT ƏSGƏROV: Sizin bir kəlamınız var: “Azərbaycan Heydər Əliyevin şah əsəridir”. Allah buna görə də ona rəhmət eləsin.

VƏDUD MƏMMƏDOV (rayon ağsaqqalı): Ümummilli liderimiz Heydər Əliyevin çox sevdiyi və rəğbət bəslədiyi Cəlilabad torpağına xoş gəlmisiniz! Qədəmləriniz mübarək, gəlişiniz uğurlu olsun!

Hörmətli Prezident, biz Sizin istər xarici, istərsə də regionlara bütün səfərlərinizi diqqətlə izləyirik. Xarici səfərləriniz dövlətlər arasında ünsiyyət, mehribançılıq, əməkdaşlıq yaradır və buna sevinirik. Respublikanın regionlarında olanda əhali Sizə, Siz əhaliyə yaxınlaşırsınız, xalq Sizi sevir, camaatın Sizə rəğbəti artır, Sizin camaata rəğbətiniz artır. Hamı ürəyində istilik hiss edir, qəlblərə işıq, nur çökür. Bilir ki, qayğıkeşi, problemlərə diqqətlə yanaşanı var. Bizim rayona da xoş gəlmisiniz. Biz çox sevinirik, neçə illərdir Sizinlə görüşməyi gözləyirik.

İLHAM ƏLİYEV: İllər yox, mən 2004-cü ildə gəlmişdim. Ondan əvvəl 2003-cü ildə Prezident seçkilərində də gəlmişdim. İndi də gəlmişəm, bundan sonra da gələcəyəm.

HİDAYƏT BABAYEV (rayon ağsaqqalı): Qədəmləriniz nurlu olsun, bu gəlişinizlə üç bayram bir yerə düşür. Sizin səfəriniz, yazın gəlişi və burada bu cür abadlığın aparılması. Buna kim şad olmaz ki?! Bütün cəlilabadlılar sevinirlər. Ümummilli liderimiz Heydər Əliyev həmişə cəlilabadlıları sevib, cəlilabadlılar da onu sevirdi və sevirlər. Həqiqətən də belədir. Bizə həmişə qayğı göstəribdir. Onun bir sözü vardı ki, Cəlilabad ictimaiyyətinə, Cəlilabad əhalisinə mənim az xidmətim olmamışdır. Bu, həqiqətən də belədir. Heydər Əliyevin fəaliyyəti həm də Cəlilabadla bağlı idi. Heydər Əliyevin və onun ailəsinin cəlilabadlıların qəlbində məhəbbəti elə həkk olunub ki, atalar demişkən, “südlə girib, sümüklə bərkiyibdir”. Heç bir qüvvə, heç bir təsir onu bizim qəlbimizdən çıxara bilməz.

Cənab Prezident, Sizin və xanımınızın ingilis dilində çıxışlarınız bizi həddindən çox sevindirir. Bütün arzularınız çin olsun, torpaqlarımız azad edilsin. Ölkəmizin iqtisadi cəhətdən daha da sürətlə inkişaf etməsi, əhalinin rifah halının yüksəlməsi – ürəyinizdəki bütün bu arzular çin olsun.

İLHAM ƏLİYEV: Mənim bir arzum var ki, Azərbaycan möhkəm olsun, güclü olsun.

SƏNAN DÖVLƏTOV (rayon ağsaqqalı): Sizin bütün xarici səfərlərinizi izləyirik, çıxışlarınızı diqqətlə dinləyirik. Sizin daxili və xarici siyasətinizi bəyənirik. Çünki Siz xalqın qayğısına qalırsınız. Cəlilabad əhalisi Sizinlədir və Sizi sevir, fəxr edir. Siz bizim fəxri vətəndaşımızsınız.

RƏŞİD ƏSGƏROV (rayon ağsaqqalı): Cənab Prezident, Cəlilabad rayonunda 1971-ci ildə ulu öndər Heydər Əliyevlə görüşdə mən də iştirak etmişəm. O, həmin vaxt rayon partiya komitəsinin binasına daxil olmadı, bağa getdi, əlini ağaca qoyub söykəndi və bütün camaat başına toplaşdı.

Orada camaatla söhbət etdi. Söhbətin əsas mövzusu rayonda üzümçülüyün inkişaf etdirilməsi idi. Həqiqətən də, o, bu məsələni ətraflı öyrəndi, müəyyən vaxtdan sonra Cəlilabad rayonunda 31 min hektar üzüm bağları salındı və üzüm istehsalı 265 min tona çatdı. Ancaq onun bir nigarançılığı var idi. Mən bunu həmişə demişəm, bundan sonra da deyəcəyəm. O nigarançılıq bu idi ki, Azərbaycan nə vaxt müstəqil olacaq və ona nə vaxt rəhbərlik edəcəkdir. Allaha şükür ki, ona da nail oldu. İndi Siz onu əvəz edirsiniz. Bu, böyük işdir. Sizin planlarınız var, qəzetdən oxuyuram. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı şəhərlərdə yox, daha çox kəndlərdə həyata keçirilir. Görülən işlərin hamısı onun nəticəsidir. Azər-

baycan xalqı nə qədər əziyyət çəkibsə, onun səfasını görməlidir və indi görür. İndi həmin məqamdır və ulu öndərin istəklərini həyata keçirdiyiniz üçün Sizə çox sağ olun deyirik.

İLHAM ƏLİYEV: 1969-70-ci illərdə Azərbaycan bütün sovet respublikaları arasında ən geridə qalanlardan idi. Ulu öndər 1969-cu ildə hakimiyyətə gəldi və Azərbaycan 1982-83-cü illərdə birinci yerə çıxdı. Təkcə iqtisadi göstəricilərə görə deyil, həm də insanların həyat səviyyəsi yaxşılaşdı, xüsusilə kəndlərdə. O, nədən başladı? Rayonların inkişafından. Ondan sonra, 1990-cı illərin əvvəllərində Azərbaycan çox çətin vəziyyətə düşdü, faktik olaraq, ölkəmiz dağılırdı, bizim müstəqilliyimiz də şübhə altında idi. İqtisadi tənəzzül, hərbi-siyasi böhran ölkəni, faktik olaraq, parçalayırdı və Azərbaycan dünya xəritəsindən silinə bilərdi. Yenə ulu öndər 1990-cı illərin əvvəllərində hakimiyyətə gəldi, ən çətin vəziyyətdə olan Azərbaycanı gətirib dünyanın ən sürətli inkişaf edən ölkəsi səviyyəsinə çıxardı. Bu gün biz taleyimizi özümüz həll edirik. Neftimiz Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edir. Büdcəmiz 1 milyard dollardan 6,5 milyard dollara qalxdı. May ayında hələ yenə düzəliş edəcəyik və əlavə vəsait ayrılacaqdır.

RƏŞİD ƏSGƏROV: İqtisadi artım 34,5 faiz olmuşdur.

İLHAM ƏLİYEV: Bəli, siz bunları yaxşı bilirsiniz. Bu artım heç bir başqa ölkədə yoxdur. Özü də bir il deyil, ardıcıl olaraq ikinci və üçüncü ildir ki, dünyada lider ölkəyik. Biz bütün abadlıq işlərini bunun hesabına görürük. Əgər 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi" imzalanmasaydı, bunun heç birini edə bilməzdik. Məhz bunun hesabına indi Azərbaycan dirçəldi, bizdə güc var, maddi imkanlar var, siyasi iradə var, xalqın dəstəyi var. Bizim bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı hörmət əsasındadır. Biz heç kimin qarşısında gözükölgəli deyilik.

Biz bölgədə, bütün işlərdə təşəbbüskar oluruq. Daxili sabitlik, xarici siyasət, iqtisadi islahatlar, insanların həyat səviyyəsinin yaxşılaşması, məktəb, xəstəxana, idman komplekslərinin tikintisi, abadlıq işləri, parkların, xiyabanların salınması – Azərbaycanın bugünkü reallıqları budur. Mən rayonların abadlaşdığını, gözəlləşdiyini görəndə çox şad oluram.

Bakıda oturub çox gözəl qərarlar vermək olar. Əgər onlar yerlərdə icra olunmursa, heç bir əhəmiyyəti yoxdur. Ona görə kadrlara, – siz dediniz, bu, xüsusi məhəbbətin əlamətidir, – tapşırıq vermişəm ki, qısa müddət ərzində gözəl işlər görəcəklər.

◆◆◆

Prezident İlham Əliyev ağsaqqallarla xatirə şəkli çəkdirdikdən sonra tikinti işləri ilə də tanış oldu. Məlumat verildi ki, seyrəngahda süni göl də yaradılacaq, şəhərə xüsusi yarışıq verəcək yeni mehmanxana tikiləcək, sakinlərin asudə vaxtını səmərəli keçirməsi üçün hər cür şərait yaradılacaqdır. Bütün işlər təxminən üç ay ərzində başa çatdırılacaqdır.

Dövlətimizin başçısı işlərin nəzərdə tutulan vaxtda keyfiyyətlə başa çatdırılmasının zəruriliyini bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.

***9 aprel 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MASALLI ŞƏHƏRİNDƏ OLMUŞDUR

Dövlətimizin başçısına məlumat verildi ki, yaraşıqlı alaqapıdan şəhərin mərkəzinə doğru uzanan 2,5 kilometrlik Heydər Əliyev prospekti başlayır. Təzə asfalt döşənmiş, abadlaşdırılmış prospekt boyunca yeni yaşayış binaları tikiləcəkdir. Burada 200 ədəd palma da əkilmişdir. Nəzərdə tutulan başqa layihələr də vardır. İlin sonuna qədər Heydər Əliyev adına parkın salınması, Heydər Əliyev Muzeyinin, mebel salonunun tikintisi başa çatdırılacaqdır. Masallıda qədim dövrlərdə fəaliyyət göstərmiş Qalabazarı da yenidən qurulacaqdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramına uyğun olaraq, rayonda ənənəvi istehsal sahələri bərpa olunur, turizm inkişaf etdirilir və bunun da sayəsində insanların sosial rifahı yaxşılaşır. Təkcə son 3 ayda 442 yeni iş yeri açılıb ki, bunun da 232-si daimidir. Bakı-Astara yolunun Masallı hissəsində 7 min ağac və kol əkilmişdir. İlin sonunadək yüzlərlə iş yeri yaradılacaq, Azərbaycan Beynəlxalq Bankının Masallı filialı üçün bina da inşa olunacaqdır.

Prezident İlham Əliyev yeni yaradılacaq obyektlərin gələcək görünüşünü əks etdirən fotoşəkillərə baxdı, müvafiq tapşırıq və tövsiyələrini verdi, qısa müddət ərzində rayonda görülən işlərdən razılığını bildirdi, nəzərdə tutulan işlərin yüksək səviyyədə, keyfiyyətlə yerinə yetirilməsinin vacibliyini söylədi.

***9 aprel 2007-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısının göstərişi ilə təmir edilən çoxsaylı tarixi binalardan biri olan Azərbaycan Tarixi Muzeyinin binası Bakının ən gözəl memarlıq abidələrindəndir. Muzeydə qədim dövrdən başlayaraq, Azərbaycan tarixinin bütün mərhələlərinə dair qiymətli eksponatlar toplanmışdır. Lakin uzun illər əsaslı təmir edilmədiyindən bərbad vəziyyətə düşmüşdü. 2004-cü ilin dekabrında muzeydə yaranmış vəziyyətlə yaxından tanış olan Prezident İlham Əliyev binanın əsaslı təmiri və bərpası barədə göstəriş vermiş, 2005-ci ilin sentyabr ayından bu işlərə başlanmışdır.

İşlərin gedişi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verildi ki, bütövlükdə bərpa prosesi son mərhələyə daxil olubdur. Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi ilə təmir işlərini yerinə yetirən "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti mühəndis-texniki qurğuların, kommunikasiya sisteminin yeniləşdirilməsini yekunlaşdırır. Binanın dam örtüyü tamamilə təzələnmişdir. Əsas ekspozisiya salonunun yerləşəcəyi birinci mərtəbədə təmir işləri əsasən başa çatıbdır. Bərpaçılar divarlardakı naxışların və bəzək elementlərinin originallığının qorunmasına xüsusi diqqət yetirirlər. XIX əsrin sonlarında məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən tikdirilmiş mülkün Şərq və Avropanın klassik memarlığı üslubunda yüksək zövq və məharətlə bəzədilmiş otaqlarında və salonlarında bərpa işləri dəqiqliklə görülür. Bu prosesə cəlb olunmuş İtaliyanın "Eleka" şirkəti divarlarda, arakəsmələrdə, tavan və döşəmələrdə yüz il əvvəlki bəzək və naxışları aşkarlayıb ilkin formada bərpa edir. O dövrdə quraşdırılmış qapı-pəncərələr, istilik və işıq sistemləri original üslubda yeniləşdirilibdir. Bütövlükdə ikinci mərtəbədə Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyi yerləşəcəkdir.

Prezident İlham Əliyev otaqların və salonların əvvəlki görünüşdə tərtibatına xüsusi diqqət yetirilməsini tövsiyə etdi.

Muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi-tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Binanın üçüncü mərtəbəsindəki otaqlar bu məqsəd üçün nəzərdə tutulmuşdur.

Dövlətimizin başçısı tariximizin tədqiqi, öyrənilməsi və təbliği baxımından burada çalışan mütəxəssislərin üzərinə yüksək məsuliyyət düşdüyünü xa-

tırlatdı və elmi araşdırmalar üçün onlara hərtərəfli şərait yaradılması ilə bağlı tapşırıqlarını verdi.

Muzeyin direktoru, AMEA-nın müxbir üzvü Nailə Vəlixanlı tariximizə və mədəni irsimizə həssaslıqla yanaşan Prezident İlham Əliyevə ölkəmizin sürətli inkişafına dair problemlərin həlli ilə yanaşı, çoxsaylı abidələrə və mədəniyyət ocaqlarına ikinci həyat bəxş etdiyinə görə dərin minnətdarlığını bildirdi.

***10 aprel 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QUGENHAYM FONDUNUN DİREKTORU TOMAS KRENSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muzey işinin təşkilində zəngin dünya təcrübəsi olan tanınmış Qugenhaym Fondunun direktoru Tomas Krensi qəbul etmişdir.

Görüşdə sürətli iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycanda milli mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində böyük işlərin görüldüyü vurğulandı. Söhbət zamanı Bakıda Müasir İncəsənət Muzeyinin yaradılması ilə bağlı da fikir mübadiləsi aparıldı, Qugenhaym Fondu ilə əməkdaşlığın Azərbaycanda muzey işinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

***22 aprel 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN CƏNUBI KOREYAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Seulda Koreya memarlığının ən gözəl abidələrindən sayılan nəhəng Kyonbokkun sarayı kompleksində olmuşlar.

Dövlətimizin başçısını və xanımını sarayın müdiriyyəti böyük hörmətlə qarşıladı.

Prezident İlham Əliyev əvvəlcə sarayın fərxi qonaqlar kitabına ürək sözlərini yazdı:

"Mən bu gözəl saraya gəlməkdən və Koreya Respublikasının tarixi və mədəniyyətini daha yaxşı öyrənməkdən çox məmnunam. Mən bütün Koreya xalqına sülh və firavanlıq arzulayıram. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. 24 aprel 2007-ci il."

Sonra dövlətimizin başçısı və xanımı sarayla yaxından tanış oldular. Məlumat verildi ki, bu saray 1394-cü ildə Li sülaləsinin (1392-1910-cu illər) banisi kral Txeçjonun vaxtında tikilmişdir. 330 müxtəlif ümumi binadan ibarət saray kompleksi 1593-cü ildə yaponlar tərəfindən dağıdılmışdır. 1868-ci ildə yenidən bərpa edilsə də, əvvəlki görkəmini qaytarmaq mümkün olmamışdır. 1950-53-cü illər müharibəsi zamanı yenidən dağıdılmışdır. 1990-cı ildə burada təmir-bərpa işlərinə başlanılmışdır. Əsas məqsəd saray kompleksinin əvvəlki görkəmini qaytarmaqdır. Sarayın əsas qapılarının təmiri isə 2009-cu ildə başa çatdırılacaqdır.

Saray kompleksi inzibati binalardan, çoxsaylı yaşayış evlərindən, parklardan ibarətdir. Burada süni göl də yaradılmışdır.

Prezident İlham Əliyev kralın xatirəsini əks etdirən lövhəyə, xarici qonaqların qəbul olunduğu yerə, iş və yataq otaqlarına, kralın həyat yoldaşı üçün tikilmiş iqamətgaha, 4 hektardan çox ərazini əhatə edən parklara və süni gölə baxdı, sarayın baş planı ilə tanış oldu.

Sarayla tanışlıqdan xoş təəssüratla ayrılan Prezident İlham Əliyevə kompleks barədə məlumat kitabları təqdim olundu.

***24 aprel 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir. Azərbaycana yenidən səfərə gəlməsindən məmnunluğunu ifadə edən Əbdüləziz bin Osman əl-Tüveycri rəhbərlik etdiyi təşkilatın son aylar ərzindəki fəaliyyəti haqqında Prezident İlham Əliyevə məlumat verdi və bildirdi ki, İSESKO Azərbaycanla əlaqələrinə xüsusi önəm verir. Qonaq məmnunluqla vurğuladı ki, İSESKO-nun Heydər Əliyev Fondu ilə əlaqələri də yüksək səviyyədədir. Ölkəmizlə İSESKO arasında münasibətləri yüksək qiymətləndirən dövlətimizin başçısı, bu təşkilatın fəaliyyətinin İslam dünyası üçün xüsusi önəmi olduğunu vurğuladı. Prezident İlham Əliyev cənab Əbdüləziz bin Osman əl-Tüveycrinin qısa dövr ərzində İSESKO-nun dünyada rolunun artırılmasına və təşkilatın gücləndirilməsinə nail olduğunu bildirdi. Prezident İlham Əliyev Əbdüləziz bin Osman əl-Tüveycrini Azərbaycanın yüksək mükafatı – “Şöhrət” ordeni ilə təltif etdi. İSESKO-nun Baş direktoru onun fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

***26 aprel 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİMİ OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR

Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edən Oljas Süleymenov ölkəmizdə "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda beynəlxalq konfransın böyük uğurla keçdiyini bildirərək dedi ki, belə tədbirlərin Azərbaycanda təşkil olunması böyük əhəmiyyət daşıyır. Oljas Süleymenov Prezident İlham Əliyevin Koreya Respublikasına uğurla keçən səfərini maraqla izlədiyini qeyd etdi.

Ölkəmizdə bir sıra mötəbər tədbirlərin keçirildiyini vurğulayan dövlətimizin başçısı indiki konfransda müxtəlif ölkələrin siyasət və dövlət adamlarının, o cümlədən görkəmli ictimai-siyasi xadim Oljas Süleymenovun iştirak etməsini bu tədbirin əhəmiyyətinin göstəricisi olduğunu bildirdi

***27 aprel 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan dövlətinin başçısı xanımı Mehriban Əliyeva ilə birlikdə böyük musiqiçyə dua oxunması mərasiminin keçirildiyi Xilaskar İsa Məsih kilsəsinə gəldi. Prezident Mstislav Rostropoviçin xanımı Qalina Vişnevskayaya, doğmaları və yaxınlarına dərin hüznlə başsağlığı verdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərhumun tabutu yanında dayanaraq onun unudulmaz xatirəsinə ehtiramlarını bildirdilər.

Böyük musiqiçinin xatirəsini yad etməyə gələn insan axınının ardı-arası kəsilmir. Xilaskar İsa Məsih kilsəsinə dua oxunması mərasiminə gələnlər arasında İspaniya kraliçası Sofiya, tanınmış incəsənət, siyasət, elm xadimləri vardır. Dünya musiqi tarixində silinməz iz qoymuş Mstislav Rostropoviç parlaq, hərtərəfli şəxsiyyət, əsl dünyamiqyaslı insan idi. Onun uçurulmuş Berlin divarı yanında violonçeldə ifası, habelə 1991-ci ilin avqustunda QKÇP əleyhinə etirazı məşhur musiqiçinin humanist mövqeyinin, onun despotizmlə barışmazlığının sübutudur.

Azərbaycanlıların yaddaşında bakılı Mstislav Rostropoviç Dost kimi qalmışdır. Azərbaycanın yaradıcı gənclərinə daim kömək etmiş, geniş xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş, uşaqların sağlamlığının qorunmasına yönəlmiş humanitar proqramları dəstəkləyən insanı məhz belə adlandırırlar. Prezident İlham Əliyev Qalina Vişnevskayaya ünvanladığı başsağlığı teleqramında qeyd etmişdir: "Mstislav Rostropoviç həqiqətən dünya vətəndaşı, görkəmli ictimai xadim, humanizmin və ümumbəşəri dəyərlərin ülvi amallarını həmişə və hər yerdə qoruyan ən yüksək mənəviyyata malik insan olmuşdur. O, bizim xatirəmizdə həmişə parlaq, qeyri-adi şəxsiyyət, gözəl, son dərəcə cəzbedici və xariqülada bir insan kimi qalacaqdır. Bizim hamımıza ağır, əvəzsiz itki üz vermişdir".

Azərbaycan dövlətinin başçısı xanımı ilə birlikdə Mstislav Rostropoviçin Novodeviçye qəbiristanlığında dəfn mərasimində iştirak etdi. Onlar böyük musiqiçini son mənzilə yola salaraq məzarına torpaq tökdülər.

Prezident İlham Əliyev Rusiyanın birinci prezidenti Boris Yeltsinin Mstislav Rostropoviçin dəfn mərasimində iştirak edən xanımı Naina Yeltsi-

naya da başsağlığı verdi, görkəmli dövlət və siyası xadimin məzarı üzərinə gül qoydu.

Azərbaycan dövlətinin başçısı və xanımı tanınmış jurnalist Artyom Borovikin də məzarı üzərinə gül düzdülər.

***29 aprel 2007-ci il***

# AZƏRBAYCANDA BELARUS MİLLİ SƏRGİSİNİN AÇILIŞI

Bakıda, Respublika Olimpiya Kompleksində Azərbaycanda Belarus milli sərgisinin rəsmi açılışı olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko mərasimdə iştirak etmişlər.

Milli geyimli belaruslu qızlar dövlət başçılarını duz-çörəklə qarşıladılar.

Açılışı bildirən qırmızı lenti kəsdikdən sonra prezidentlər ekspozisiya ilə tanış oldular. Belarus Dövlət Yeyinti Sənayesi Şirkəti ("Belqospişşeprom"), "Babuşkina krınka" ASC, Orşa "Ətkonservkombinatı" ASC, Minsk avtomobil zavodu, "Amkodor" ASC, Qomel kənd təsərrüfatı maşınqayırması zavodu ("Qomselmaş"), "Mogilyovliftmaş", "Mərkəz" Elm-İstehsal Birliyi, "Stroydetali" ASC və başqa müəssisələrin təmsilçiləri buraxdıqları məhsullar haqqında Azərbaycan və Belarus prezidentlərinə ətraflı məlumat verdilər.

Belarusun informasiya nazirinin müavini İqor Laptyonok Azərbaycan Prezidenti İlham Əliyevə qarşıdakı 9 May Qələbə günü münasibətilə ikicildlik "Pobeda" kitabını hədiyyə etdi. Nazirliyin sərgidəki stendində 500-dən çox adda kitab, jurnal və qəzet nümayiş etdirilir.

Kompleksin həyətində Gəncə avtomobil zavodunda buraxılmış Belarus avtomobilləri və traktorlarının sərgisində prezidentlərə müəssisənin fəaliyyəti, iki ölkənin maşınqayıranlarının əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məlumat verildi. Kənd təsərrüfatı naziri İsmət Abasov bildirdi ki, "Aqrolizinq" ASC xətti ilə ilin sonunadək Gəncə avtomobil zavodundan 8 milyon manatlıq 382 traktor alınacaqdır.

Prezident İlham Əliyev Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova "Mogilyovliftmaş" zavodu ilə müvafiq danışıqlar aparıb paytaxtın lift təsərrüfatını qaydaya salmaq barədə tapşırıq verdi.

***3 may 2007-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV YAŞIL TEATRDA BAŞA ÇATMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş Yaşıl teatr Bakıda mühüm mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəz, paytaxt sakinlərinin sevimli istirahət yerlərindən biri olmuşdur. Lakin sonradan baxımsızlıq üzündən teatr fəaliyyətini tamamilə dayandırmışdı. 1990-cı ildən isə bura bərbad vəziyyətə düşmüşdü. Teatrın Bakı üçün önəmlini nəzərə alan Prezident İlham Əliyev 2005-ci ilin avqustunda onun yenidən qurulması barədə sərəncam vermişdi.

O vaxtdan yenidənqurma işlərinə 30-dan çox inşaat briqadası cəlb olunmuşdu. Bu il martın 8-də dövlətimizin başçısı işlərin gedişi ilə maraqlanmış, müvafiq tövsiyə və tapşırıqlarını vermişdi.

İşlərin yekunu ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verildi ki, Yaşıl teatrın ərazisi iki dəfə genişləndirilmişdir. Tamaşaçılar üçün yerlərin sayının 1600-dən 2500-ə çatdırılması burada ən mühüm, geniş tədbirlərin keçirilməsinə imkan verəcəkdir. Oturacaqlar İspaniya istehsalıdır. Prezidentin tapşırıqlarına əsasən, səs və işıqlandırma sistemləri ən müasir səviyyədə quraşdırılmışdır. Səs avadanlığı və işıqlandırma qurğuları Amerika Birləşmiş Ştatlarının, İtaliyanın tanınmış şirkətlərindən alınmış və onların mütəxəssisləri tərəfindən də quraşdırılmışdır.

Yaşıl teatrın yerləşdiyi ərazi sürüşmə zonasında olduğundan, amfiteatrın təməlinin möhkəmləndirilməsi üçün 196 dirək vurulmuşdur. Qrim otağı, inzibatçılar otağı və digər xidməti otaqlar səhnənin altında yerləşdirilmişdir.

Teatrın açılışı mayın 10-da olacaqdır.

Prezident İlham Əliyev görülmüş işlərdən razılığını söylədi, Yaşıl teatrın gələcək istifadəsi ilə bağlı tapşırıqlarını verdi.

***4 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR ƏRƏB RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ
# MİSİR EHRAMLARI İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfərinin birinci gününün sonunda Cizə yaxınlığındakı Xeops ehramı ilə tanış olmuşdur.

Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, Misirdə Qədim padşahlıq dövründə (eramızdan əvvəl 2008-2250-ci illər) fironlar Xeops, Xefren və Mikerinin Cizə yaxınlığında əzəmətli ehram-sərdaba kompleksləri tikilmişdir. Dünyanın yeddi möcüzəsindən biri sayılan bu abidələrdən ən böyüyü hündürlüyü 146,6 metr olan Xeops ehramıdır. Ehramların yerləşdiyi sahədə Qədim Misir əsilzadələrinin dəfn olunduğu 7 mindən artıq sərdabadan ibarət nekropol var. Bu ərazidə XIX əsrdən arxeoloji qazıntılar aparılır.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Xeops ehramının tikintisinə dair müxtəlif fikirlər haqqında ətraflı məlumat verildi. Eyni zamanda bildirildi ki, ehram 2 milyon 300 min ədəd daş blokdan tikilmişdir. Blokların hərəsinin ortaq çəkisi 2,5 tondur.

Prezident İlham Əliyev və xanımı ehramın ətrafını gəzdilər, turistlər üçün nəzərdə tutulan keçiddən keçdilər.

Dövlətimizin başçısı və xanımı ətrafdakı kiçik ehramlara, məzarlığa, yaxınlıqdakı muzeydə qazıntılar zamanı tapılmış və bərpa olunmuş qayığa baxdılar.

Prezident və xanımı qədim abidələrlə tanışlıq zamanı xatirə şəkilləri çəkdirdilər.

***6 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR ƏRƏB RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ QAHİRƏDƏ MƏHƏMMƏD ƏLİ QALASI VƏ MƏSCİDİ İLƏ TANIŞLIQ

Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qalanın önündə böyük səmimiyyətlə qarşıladılar.

Məlumat verildi ki, Misirdəki ilk ərəb şəhərləri möhtəşəm qala divarları ilə əhatə olunur və hərbi düşərgə xarakteri daşıyırdı. Bu qədim qala isə Əyyubilər sülaləsinin nümayəndəsi Səlahəddin Əyyubi tərəfindən 1236-cı ildə inşa edilmişdir. Osmanlı imperiyası dövründə Misir hakimi Məhəmməd Əli paşa 1830-1848-ci illərdə qalada öz adını daşıyan məscid tikdirmiş və iqamətgah kimi istifadə etmişdir. Ölkənin mədəni həyatındakı bir sıra yeniliklər Məhəmməd Əlinin apardığı islahatlarla bağlıdır.

Qahirənin ən hündür yerində yerləşən bu qaladan bütün şəhəri seyr etmək mümkündür.

Məscid memarlığı və oyma bəzəklərinin zənginliyi ilə fərqlənir.

Osmanlı imperiyası dövründə Misirdə məscidlərin əksəriyyəti türk memarlığı üslubunda – böyük, yarımdairəvi günbəzlər, şişuclu minarələrlə inşa edilirdi. Məhəmməd Əli məscidi İstanbuldakı tarixi Ayasofiya məbədinə oxşar inşa edilmişdir. Burada eyni vaxtda beş minədək adam namaz qıla bilər. Qədim qalanı və məscidi görmək üçün hər il on minlərlə xarici turist gəlir.

Prezident İlham Əliyev və xanımı qala və məscidi gəzdilər, Məhəmməd Əli paşanın qəbrini də ziyarət etdilər.

Dövlətimizin başçısı və xanımı qala divarlarının üstündən Qahirənin mənzərəsini seyr etdilər.

***7 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR ƏRƏB RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAHİRƏNİN MƏŞHUR MİSİR MUZEYİNDƏ OLMUŞDUR

Misir Muzeyi qədim eksponatlardan ibarət ekspozisiyasının zənginliyinə görə dünyada ən nadir muzey hesab olunur. Burada Misir tarixinin erkən, qədim, orta, yeni, son padşahlıq və Yunan-Roma dövrlərinə aid nümunələr toplanmışdır.

Erkən padşahlıq dövründə Nil vadisində qədim Misir incəsənətinin prinsipləri təşəkkül tapmış və bunlar min illərlə Misir incəsənətinin inkişafının əsasını təşkil etmişdir. Muzeydə ehramların qarşısında qoyulmuş möhtəşəm sfinks heykəlləri, xatirə məbədləri, fironların heykəlləri, təbiət təsvirləri olan eksponatlar da mühüm yer tutur. Fiva yaxınlığında firon Tutanxamonun sərdabasından tapılmış və Misir Muzeyində nümayiş etdirilən eradan əvvəl XIV əsrə aid əşyalar – qızıl maska, tac, qablar, üzəri təsvirli mücrülər qədim Misir incəsənətinin texniki kamilliyi və dekorativ zərifliyi ilə yanaşı, akademik incəsənətin də xüsusiyyətlərini özündə əks etdirir.

Bəşəriyyətin qədim tarixinə aid onlarca eksponat vaxtilə Misir Muzeyindən aparılmışdır və hazırda Böyük Britaniya, Almaniya, Belçika və digər ölkələrin məşhur muzeylərində, rəsm qalereyalarında saxlanılır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeylə tanışlıqdan zəngin təəssüratla ayrıldılar. Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

***7 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ MƏCLİSDƏ “HEYDƏR ƏLİYEV XATİRƏ ZALI”NIN AÇILIŞINDA İŞTİRAK ETMİŞ, PARLAMENTİN BİNASINDA APARILAN YENİDƏNQURMA, TƏMİR İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısını binanın qarşısında Milli Məclisin sədri Oqtay Əsədov və parlament sədrinin müavinləri hörmətlə qarşıladılar.

Prezident İlham Əliyev əvvəlcə xatirə zalı ilə tanış oldu. Məlumat verildi ki, xatirə zalında ümummilli liderimizin gələcək nəsillərə örnək olan həyat yolunu, siyasi, dövlətçilik fəaliyyətini əks etdirən eksponatlar toplanmışdır. “Böyük həyatın astanasında”, “Sovet təhlükəsizlik xidməti leytenantından generalınadək”, “Sovet Azərbaycanını ucaldan rəhbər”, “Qayıdış: müstəqillik uğrunda yenilməz mübariz”, “Qurtuluş: müstəqil dövlətin xilaskarı və qurucusu”, “Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır”, “Azərbaycan ordusu müstəqil dövlətimizin əsas dayağıdır”, “Azərbaycançılıq, müstəqillik, dövlətçilik” və “Azərbaycanın müstəqil xarici siyasətinin banisi” bölmələrində Heydər Əliyevin uşaqlıq, gənclik illərinə, Sovet İttifaqının dövlət təhlükəsizliyi sistemində ilk azərbaycanlı generalın 1944-1967-ci illəri əhatə edən fəaliyyətinə, siyasi və dövlət xadimi kimi Sovet Azərbaycanına başçılıq etdiyi dövrə, ulu öndərin qurtuluş missiyasına dair, milli-mənəvi dəyərlərimizin qorunmasına, xarici siyasətinə aid fotoşəkillər toplamışdır. Dağlıq Qarabağ probleminə həsr edilmiş guşə, habelə ulu öndərin və Prezident İlham Əliyevin Milli Məclisin fəaliyyəti barədə fikirləri diqqəti cəlb edir.

Zalda Heydər Əliyevin özünün əsərləri, eləcə də onun həyatı, siyasi fəaliyyəti ilə bağlı və ömür-gün yoldaşı Zərifə xanım haqqında yazılmış çoxsaylı kitablar, ulu öndərin 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi üzrə səsvermənin nəticələri, parlamentin sədri seçilməsi haqqında qərar, parlamentə rəhbərlik etdiyi dövrdə imzaladığı sənədlər, beynəlxalq əhəmiyyətli layihələrin reallığa çevrilməsi, xarici və daxili siyasətə, iqtisadi islahatlara, mədəniyyətə və s. dair qəbul olunmuş tarixi qərarların surətləri, ona verilmiş xidməti və deputatlıq vəsiqələri nümayiş etdirilir.

“Heydər Əliyev irsi davam edir” adlı xüsusi bölmədə ulu öndərin siyasi varisi Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı fotoşəkillər toplanmış-

dır. Burada ulu öndərin vəfatından sonra deputatların və Milli Məclis aparatı əməkdaşlarının ürək sözlərini yazdığı Xatirə kitabı da vardır. Azərbaycan parlamentinə gələcək hər bir xarici qonaq bu zalla da tanış olacaqdır.

Prezident İlham Əliyev ayrı-ayrı stendlərdəki materiallarla tanış oldu, ümummilli liderin burada qoyulmuş büstünə baxdı.

Dövlətimizin başçısı xatirə zalının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev xatirə zalında nümayiş etdirilən eksponatlar ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Bütün dövrlərdə Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir. 70-80-ci illərdə Azərbaycanın rəhbəri kimi və müstəqil Azərbaycanın Prezidenti kimi Azərbaycanın inkişafında, dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmlənməsində onun müstəsna xidmətləri olmuşdur.

1993-cü ildə Milli Məclisin sədri kimi Azərbaycanın ağır və təhlükəli vəziyyətdən çıxarılmasında ulu öndərin müdrikliyi, siyasi təcrübəsi və cəsarəti əsas rol oynamışdır. Həmişə öz fəaliyyətində Azərbaycan xalqına arxalanan milli liderimiz 1993-2003-cü illərdə müstəqil Azərbaycanın Prezidenti kimi ölkəmizin hərtərəfli inkişafında və beynəlxalq mövqelərinin möhkəmlənməsində əsas və əvəzolunmaz rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. 9 may 2007-ci il".

***9 may 2007-ci il***

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNDƏ YAŞIL TEATRIN AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı teatra toplaşan paytaxt sakinləri, dövlət və hökumət nümayəndələri hərarətlə qarşıladılar.

Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş Yaşıl teatr Bakıda mühüm mədəni-kütləvi tədbirlərin keçirildiyi, paytaxt sakinlərinin sevimli istirahət yerlərindən biri olmuşdur. Burada dünyanın və keçmiş SSRİ-nin ən məşhur incəsənət ustaları da çıxış etmişlər. Lakin sonradan baxımsızlıq üzündən teatr fəaliyyətini tamamilə dayandırmışdı. 1990-cı ildən isə büsbütün bərbad vəziyyətə düşmüşdü. Teatrın Bakı üçün önəmini nəzərə alan Prezident İlham Əliyev 2005-ci ilin avqustunda onun əsaslı şəkildə yenidən qurulması barədə göstəriş vermişdi. Dövlətimizin başçısı burada işlərin gedişi ilə şəxsən maraqlanırdı. Bu diqqət və qayğı, habelə inşaatçıların səyləri sayəsində Yaşıl teatr simasını tamamilə dəyişmişdir. Açılış mərasiminə toplaşanlar bunu minnətdarlıqla vurğulayırdılar.

Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.

***10 may 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR

Görüşdə Azərbaycanla YUNESKO arasında əlaqələrin yüksək səviyyədə olduğu, ölkəmizdə bu təşkilatın xətti ilə keçirilən uğurlu tədbirlərin əməkdaşlığın daha da genişlənməsinə töhfə verdiyi bildirildi. Cənab Koişiro Matsuura ilə Azərbaycan Prezidenti arasında keçirilən səmərəli görüşlərin əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı və əməkdaşlığın bundan sonra da dərinləşəcəyinə əminlik ifadə olundu.

***14 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT KUKLA TEATRINDA, HEYDƏR ƏLİYEV ADINA SARAYDA VƏ DÖVLƏT RUS DRAM TEATRINDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamına uyğun olaraq, Bakının ən böyük mədəniyyət ocaqları əsaslı təmir edilir və yenidən qurulur.

Bu mühüm dövlət əhəmiyyətli işi daim nəzarətdə saxlayan Prezident İlham Əliyev əvvəlcə Dövlət Kukla Teatrına gəldi. Dövlətimizin başçısı uşaqların teatra rahat gəlib-getməsini təmin etmək üçün ətrafdakı kiçik və köhnə tikililəri sökərək, ərazini abadlaşdırmaq və səliqə-sahman yaratmaq barədə tapşırıqlar verdi.

Binanı gəzərkən Prezident İlham Əliyev təmir-bərpa işlərinin layihəsinə və teatrın təmirdən sonrakı görünüşünü əks etdirən şəklə baxdı. Bildirildi ki, hazırda, əsasən, bəzək-tərtibat işləri aparılır. Bərpaçılar divarlarda uşaqların zövqünə uyğun çəkilmiş rəsmlərin originallığını saxlamağa çalışırlar. "Embawood" şirkəti paralel olaraq sanitariya qovşağını, kommunikasiya xətlərini, səs və işıq sistemini də tamamilə dəyişdirir. Bütün avadanlıq Avropanın ən məşhur şirkətlərindən alınır.

Prezident İlham Əliyev həm də tarixi memarlıq abidəsi kimi tanınan bu binanın tamaşalara gələn uşaqların ürəyincə olması üçün təmir-bərpa işlərinin yüksək səviyyədə davam etdirilməsini tapşırdı.

◆◆◆

Dövlətimizin başçısının Sərəncamına əsasən təmir-bərpa və yenidənqurma işləri gedən mədəniyyət ocaqlarından biri də Heydər Əliyev adına Saraydır. Ulu öndərin saysız-hesabsız yadigarlarından biri olan bu saray 35 il ərzində ilk dəfədir əsaslı şəkildə yenidən qurulur. Prezident İlham Əliyev təmir-bərpa işləri yenicə başlananda da buraya gəlmiş, görüləcək işlərin layihəsi ilə tanış olmuşdu.

Dövlətimizin başçısına ötən aylarda görülmüş işlər barədə məlumat

verildi. Bildirildi ki, təmir-bərpa və yenidənqurma ən müasir texnologiyalar əsasında aparılır, mütəxəssislər konstruksiyaların və mühəndis qurğularının faktik vəziyyətini ekspertizadan keçirdikdən sonra təmir işlərinin mexanizmi müəyyənləşdirilir. Sarayın əsaslı şəkildə yenidən qurulması işlərini bu sahədə kifayət qədər təcrübəsi olan "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti və Türkiyənin tanınmış "Pim proje" şirkəti görür. Səhnə və salonun işıqlandırma, səs sistemləri tamamilə yeniləşdiriləcəkdir. İstilik və havalandırma avadanlığı da dünyanın tanınmış firmalarından alınır. Bəzək və tərtibat işlərində də xaricdən gətirilmiş materiallardan istifadə olunacaqdır. Yenisi ilə əvəz ediləcək oturacaqlar sökülmüş, kommunikasiya xətlərinin və sanitariya qovşağının quraşdırılmasına başlanmışdır.

Prezident İlham Əliyev Sarayın fasadında edilən dəyişikliklərlə də maraqlandı, binanın daha baxımlı və əzəmətli görkəm alması üçün hər bir işi dəqiqlik və incəliklə görməyi tövsiyə etdi.

Daha sonra Dövlət Rus Dram Teatrına gələn Prezident İlham Əliyevə məlumat verildi ki, digər teatrlardan fərqli olaraq, bu binanın tamaşa salonunun tavanı qəza vəziyyətində idi. XIX əsrin sonlarında tikilmiş bina ayrı-ayrı dövrlərdə müxtəlif funksiyaları yerinə yetirmiş, ötən əsrin 20-ci illərində isə teatra çevrilmişdir. Uzun illər təmirsiz qalması binanın bərbad hala düşməsinə səbəb olmuşdur. Prezidentin məlum Sərəncamına əsasən aparılan təmir-bərpa işləri teatrın binasına ikinci həyat verəcəkdir. Bütün mühəndis-texniki qurğuları, işıqlandırma, səs sistemləri tamamilə dəyişdiriləcəkdir. Elektrik, rabitə, yanğın təhlükəsizliyi xəbərdarlığı, ümumi havalandırma sisteminin, qazanxananın avadanlığı dünyanın məşhur şirkətlərindən gətirilir. Təmir-yenidənqurma işlərini "Nurgün" inşaat şirkəti yerinə yetirir.

Prezident İlham Əliyev binanın köhnəliyini nəzərə alaraq, tikinti texnologiyasına diqqət yetirməklə, teatrı ən müasir səviyyədə təmir etmək barədə tapşırıqlar verdi.

Teatrın bədii rəhbəri və baş rejissoru, xalq artisti Aleksandr Şarovski mədəniyyətə, incəsənətə, sənət adamlarına həssas münasibətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

***16 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT İNCƏSƏNƏT MUZEYİNİN YAXINLIĞINDAKI PARKDA BAŞA ÇATMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısına məlumat verildi ki, burada işlərə iki ay əvvəl başlanmış və qısa müddətdə tamamlanmışdır. Ötən əsrin 20-ci illərində memar K.Sençixinin layihəsi üzrə burada salınmış kiçik bağça sonralar bağ-park memarlığı nümunəsi kimi yenidən qurulmuşdur. Parkın elementlərinin özünəməxsus formaları keçmiş Dağüstü parkın arxitekturasını xatırladırdı. Bura ətrafda yaşayan sakinlərin xoşladıqları istirahət guşələrindən biri idi.

Dövlətimizin başçısı İlham Əliyev parkın təmir-bərpa işlərindən əvvəlki vəziyyətini əks etdirən fotoşəkillərlə tanış oldu. Bildirildi ki, görkəmini itirən park sakinlərin istirahəti üçün də yararsız vəziyyətdə idi. Şəhərin mərkəzində yerləşən bu guşənin yenidən əvvəlki görkəminə qaytarılması bir növ zərurətə çevrilmişdi. Əsaslı təmir işləri ən yüksək səviyyədə görülmüş, parkın ərazisi başdan-başa yenidən qurulmuşdur. Yaşıllaşdırma işləri aparılmış, yeni dekorativ bitkilər əkilmişdir. Dörd fəvvarə və bir neçə süni bulaq gözəl mənzərə yaradır. Burada xüsusi işıqlandırma sistemi də quraşdırılmış, yeni oturacaqlar qoyulmuşdur.

Prezident İLHAM ƏLİYEV tikintidə iştirak etmiş inşaatçılarla görüşüb onlarla söhbət etdi:

-Bu park çox gözəlləşibdir. Bura Bakının tarixi yeridir və indi yeni görkəm alıbdır. Amma bütün öz tarixi simasını saxlayıb, yəni burada heç nə dəyişilməyibdir. Sadəcə olaraq, yeniləşib və Bakının çox gözəl yerinə çevrilibdir. Gördüyünüz işlər mənim çox xoşuma gəldi, çox gözəldir.

Mən dünən axşam da gəlmişdim, gecə görüntüsü də çox gözəldir. İndi də gəldim ki, baxım gündüz necə görünür. Gündüz görüntüsü də gözəldir. Siz də iki ay ərzində burada çox fəal işləmisiniz, çox gözəl əsər yaratmısınız. Sizə təşəkkür edirəm.

Bakının gözəl yerləri çoxdur. Biz gərək onların hamısını abadlaşdıraq. Bütün meydanlar, tarixi küçələr, binalar təzə görkəm alır. Görürsünüz, bu binalara da yeni üzlük daş çəkilir ki, ətraf gözəl olsun. O biri tərəfdəki parkda da işlər başlanmalıdır. O da tarixi parkdır. Orada da təmirə ehtiyac var. Amma yenə də əvvəlki əsas tarixi quruluşunu saxlamaq şərtilə, heç nə

dəyişmədən, sadəcə olaraq, bərpa etmək lazımdır. Çox gözəl, müasir, səliqəli, təmiz, gözəl bir park yaranacaqdır.

Burada da istirahət etmək, dincəlmək, gəzmək üçün hər cür şərait var, oturacaqlar da qoyulmuşdur. Azərbaycanda bir neçə gözəl park yaranıbdır. Heydər Əliyev adına Sarayın qarşısında da. Yadınızdadır, ora əvvəllər nə gündə idi. Yerə iri beton plitələr döşənmişdi. Mən ilk dəfə heykəl qoyulacaq yerə baxanda gördüm. İndi isə ən gözəl parklardan biridir. Bakıda belə yerlər çoxdur. Sadəcə olaraq, biz gərək onları müasir səviyyəyə çatdıraq, səliqə ilə həm gözəlləşdirək, həm də onların funksional mənası da olsun. Yəni indi insanlar Heydər Əliyevin abidəsinin ətrafında gecə-gündüz gəzirlər, dincəlirlər. Yayın istisində fəvvarələr ətrafa sərinlik verir. Mən hər dəfə oradan maşınla keçəndə görürəm ki, park uşaqlarla, yaşlı insanlarla doludur. Amma əvvəllər qaranlıq idi, heç bir şərait yox idi və oraya heç kim də gəlmirdi. İndi bura da insanlarla dolu olacaqdır. Çünki belə gözəl şərait var, camaat gələcək, dincələcəklər.

Bura mənə də doğma yerdir. Burada vaxtımı çox keçirmişəm. Məktəbi də təmir etdik, indi gərək biz onu da üzlük daşla yenidən gözəlləşdirək. Bakının gözəl naxışları ilə, Bakı memarlığına xas olan elementlər bərpa olunmalıdır. Yadınızdadır, bu bina da nə gündə idi. Biabırçı vəziyyətdə idi, indi isə elə bil ki, təzə gözəl binadır. Hər tərəf belə olmalıdır. Ona görə hələ qabaqda iş çoxdur. Siz də hazır olun, şəhərimizi bərabər gözəlləşdirək. Sağ olun.

İnşaatçılar dövlətimizin başçısına təşəkkürlərini bildirdilər, onun rəhbərliyi altında aparılan abadlıq işlərindən məmnunluqlarını vurğuladılar.

◆◆◆

Daha sonra dövlətimizin başçısı Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının yerləşdiyi bağa gəldi, burada əsaslı təmir işlərinin aparılmasının vacibliyini bildirdi. Bildirildi ki, şəhərin ilk bağlarından olan və keçmişdə "Qubernator bağı" kimi tanınan bu ərazinin özünəməxsus bitki aləmi var. XIX əsrin 30-cu illərində salınan bu bağın ərazisi elə həmin əsrin 60-70-ci illərində xeyli genişləndirilmişdir. Ötən əsrin 70-ci illərində isə yenidən qurulmuş, əlavə yaşıllaşdırma işləri görülmüşdür. Lakin ərazinin təkrarolunmaz koloriti qorunub saxlanılmışdır. Bağdakı sıx yaşıllıq, fəvvarə, pavilyon və köşklər buranı paytaxt sakinlərinin daimi istirahət yerinə çevirmişdir. Lakin park mənzərəsinin yaddaqalan və ifadəli elementlərinin

mövcud olduğu bu ərazinin müasir görkəm alması üçün təmir işlərinin aparılmasına ehtiyac vardır.

Prezident İlham Əliyev ərazi ilə yaxından tanışlığı zamanı paytaxtın əsas istirahət yerlərindən olan bu bağın da təmir olunması üçün tapşırıq və tövsiyələrini verdi. Dövlətimizin başçısı bildirdi ki, təmir işləri elə aparılmalıdır ki, mövcud memarlıq ansamblı pozulmasın.

Prezident İlham Əliyev bağla tanışlıq zamanı paytaxt sakinləri ilə də görüşdü.

Sakinlər dövlətimizin başçısına Allahdan cansağlığı, işlərində uğurlar diləyərək dedilər ki, cənab Prezident, hamı Sizi çox istəyir, sevir. Allah atanıza rəhmət eləsin. Ulu tanrı Sizə yar olsun!

Prezident İlham Əliyev bağda yerləşən fəvvarənin kənarına gəldi, xüsusi memarlıq üslubuna malik fəvvarənin yenidən qurulması ilə bağlı tapşırıqlarını verdi, fəvvarənin yaxınlığındakı ərazinin də abadlaşdırılmasının, burada təmir işlərinin aparılmasının vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında aparılan təmir işlərinin gedişi ilə də maraqlandı. Bakıdakı memarlıq baxımından əhəmiyyətli binaların qorunmasının və təmir-bərpasının davam etdirilməsinin vacibliyini bildirdi.

***22 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LUVR MUZEYİNİN DİREKTORU ANRİ LUARETİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı dünyanın ən məşhur muzeylərindən olan Luvr muzeyinin direktorunun Azərbaycana səfərinin ölkəmizin mədəni həyatında əlamətdar hadisə olduğunu bildirdi. Luvr muzeyi ilə Azərbaycan muzeyləri arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışan dövlətimizin başçısı cənab Luaretin ölkəmizə səfərinin Azərbaycanın mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini söylədi.

Anri Luaret Azərbaycana səfərindən məmnun qaldığını bildirdi. Rəhbərlik etdiyi muzeyin Azərbaycan muzeyləri ilə əməkdaşlıq imkanları və gələcək planlar barədə danışan qonaq bu yaxınlarda Luvr muzeyində açılacaq yeni ekspozisiyada Azərbaycanın mədəniyyət nümunələrinin təmsil edilməsində maraqlı olduğunu vurğuladı.

***29 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNDA OLMUŞDUR "MÜTƏFƏKKİRLƏR BAĞI" İLƏ TANIŞLIQ

Dövlətimizin başçısına məlumat verildi ki, Qazax rayonunun ədəbiyyat, incəsənət, elm və hərbi sahədə görkəmli şəxsiyyətlərinin xatirəsinə salınmış bağ 2 hektar sahəni əhatə edir. Bağın giriş hissəsində xalq şairi Səməd Vurğunun heykəli, baş hissəsində isə Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin heykəlləri ucaldılmışdır. Bağda Azərbaycanın xalq yazıçıları Mehdi Hüseynin, İsmayıl Şıxlının, Yusif Səmədoğlunun, xalq şairləri Osman Sarıvəllinin, Mirvarid Dilbazinin, Cənubi Qafqazda ilk pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi Əhməd Seyidovun, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovun, ilk artilleriya generalı Əlağa Şıxlinskinin, ilk topoqrafiya generalı İbrahim ağa Vəkilovun, İtaliyanın milli qəhrəmanı Tahir İsayevin, saz havalarının mahir ifaçısı, ustad Ədalət Nəsibovun və akademik Teymur Bünyadovun büstləri qoyulmuşdur. 2005-ci ilin iyununda açılmış bağda milli ornamentli rəngli fəvvarələr kompleksi də yaradılmışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva büstlərə bir-bir tamaşa etdilər.

Prezident İlham Əliyev bu cür parkların və bağların başqa yerlərdə də salınmasının zəruriliyini vurğuladı, Qazaxda görülən abadlıq-quruculuq işlərini yüksək qiymətləndirdi.

***30 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNDA İSMAYIL ŞIXLI ADINA PARKDA OLMUŞDUR

Prezident İlham Əliyev abidənin üzərindən ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Abidənin və parkın inşasına 2006-cı ildə başlanılmışdır. 1,2 hektar sahəni əhatə edən parkda görkəmli ədibin qranit postament üzərində 4,2 metr hündürlüyündə heykəli qoyulmuşdur.

Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri Barat Vüsal xalq yazıçısı İsmayıl Şıxlının yaradıcılığından, görkəmli ictimai xadim kimi fəaliyyətindən söhbət açdı, onun Azərbaycanın müstəqilliyi yolunda xidmətlərini xatırlatdı. O, ulu öndər Heydər Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinə diqqət və qayğısını xüsusi vurğuladı, onların yubileylərinin keçirilməsini, xatirələrinin əbədiləşdirilməsinin ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılandığını bildirdi.

İsmayıl Şıxlının oğlu Elçin Şıxlı Prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, onun Qazax rayonuna, sərhəd bölgəsinə səfəri insanlarda böyük ruh yüksəkliyi doğurur.

Prezident İlham Əliyev Azərbaycan dilinin, tarixinin qorunmasında Heydər Əliyevin xidmətlərini xatırlatdı, ədiblərin bu sahədə fəaliyyətlərini yüksək qiymətləndirdi və dedi ki, onların yaradıcılığına yüksək qiymət verilməlidir. Azərbaycanda bu ənənə Heydər Əliyev dövründən sonra davam etdirilmişdir. Lakin 1990-cı illərin əvvəllərində bu sahəyə diqqət yetirilməmiş, əksinə, bir çox mədəniyyət ocaqlarının bağlanmasına qərar verilmişdir. Lakin ulu öndər əvvəlki ənənəni bərpa edərək, Azərbaycanın ədəbiyyat, mədəniyyət xadimlərinə daim böyük diqqət və qayğı göstərmişdir. Bu ənənə bundan sonra da davam edəcəkdir.

Prezident İlham Əliyev xalq yazıçısı İsmayıl Şıxlının Milli Məclisdəki fəaliyyətini xatırlatdı, onun adına parkın salınmasını və burada abidəsinin qoyulmasını ədibin yaradıcılığına verilən yüksək qiymət, xatirəsinə göstərilən ehtiram kimi dəyərləndirdi.

***30 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNDA "DƏDƏ QORQUD" ABİDƏ KOMPLEKSİNDƏ OLMUŞDUR

Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar ulu öndər Heydər Əliyevin 1999-cu il 21 fevral tarixli Sərəncamına əsasən, Qazax şəhərinin şərq girəcəyində "Dədə Qorqud" meydanı salınmışdır. 2005-ci ildə meydan tamamilə yenidən qurulmuşdur və 5 min kvadratmetr sahəni əhatə edir. Meydanda Dədə Qorqudun 9 metr hündürlüyündə heykəli qoyulmuşdur və dastanın 12 boyunu əks etdirən kompozisiyalarla birlikdə yaraşıqlı kompleks yaranmışdır.

Burada ulu öndərin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin bu gün üçün də, gələcək nəsillər üçün də, dünya üçün də böyük əhəmiyyəti vardır" kəlamı yazılmış lövhə də vurulmuşdur.

Prezident İlham Əliyev bu ulu dastanla bağlı qədim Qazax torpağında belə abidə kompleksinin yaradılmasını tariximizin bugünkü və gələcək nəsillərə olduğu kimi çatdırılması baxımından çox əhəmiyyətli olduğunu vurğuladı, eyni zamanda onun şəhərə xüsusi yaraşıq verdiyini bildirdi.

Sonra Qazax aşıqları Prezident İlham Əliyevin və xanımının gəlişi şərəfinə el havaları ifa etdilər.

Daha sonra dövlətimizin başçısına Qazağın rəmzi sayılan Dilboz atı hədiyyə olundu. Dilboz atı (Qazax atı da deyilir) Azərbaycanda XVIII əsrin sonu – XIX əsrin əvvəllərində yetişdirilmiş cinsdir. Bu atların boz rəngli yaxşı minik tipi vaxtilə Dilbazilər nəslinin ilxısında çox yayıldığına görə ona Dilboz (Dilbazi) atı adı verilmişdir. Prezident İlham Əliyev və Mehriban xanım atın yanında xatirə şəkli çəkdirdilər.

***30 may 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ RAYONUNDA "HEYDƏR ƏLİYEV SEYRƏNGAHI"NDA OLMUŞDUR

Prezidentə bu mədəniyyət və istirahət guşəsində yaradılmış şərait və aparılacaq yenidənqurma işləri barədə məlumat verildi. Bildirildi ki, şəhərin giriş hissəsində, o cümlədən seyrəngahda aparılacaq kompleks abadlıq işləri Tovuza xüsusi yaraşıq verməklə yanaşı, insanların da ürəyincə olacaq və xarici qonaqlarda xoş təəssürat yaradacaqdır.

Prezident İlham Əliyev və xanımı yerli özfəaliyyət kollektivlərinin, mahnı və rəqs qruplarının, aşıqlar dəstəsinin ifalarını böyük maraqla dinlədilər, onlarla xatirə şəkilləri çəkdirdilər. Ulu öndər haqqında şeir hərarətli alqışlarla qarşılandı.

Dövlətimizin başçısı ifaçılara təşəkkür edərək onlara uğurlar arzuladı, gənclərə, istedadlı uşaqlara xüsusi diqqət və qayğı göstərilməsinin zəruriliyini vurğuladı və "Heydər Əliyev seyrəngahı"nın müasirləşdirilməsi ilə bağlı tövsiyələrini verdi.

***30 may 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA İDMAN-KONSERT KOMPLEKSİNDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev adına İdman-Konsert Kompleksi ulu öndərin yadigar qoyduğu çoxsaylı mühüm obyektlərdən biridir. Keçmiş Sovet İttifaqı zamanında külli miqdarda vəsait tələb edən bu tipli binaların tikilməsi üçün hökumət səviyyəsində qərarın verilməsi vacib idi. Məhz Heydər Əliyevin iradəsi sayəsində bu nəhəng idman qurğusunun Bakıda inşasına başlamaq mümkün olmuşdu. Ümummilli liderin uzaqgörənliyinin bəhrəsi olan bu kompleks indi müstəqil Azərbaycanın paytaxtında ən mötəbər tədbirlərin keçirildiyi məkana çevrilmişdir.

Lakin vaxt ötdükcə, kompleksdə əsaslı təmir işlərinə zərurət yaranmışdı. Ötən ilin noyabrında başlayan əsaslı təmir və yenidənqurma işləri artıq sona çatır.

Dövlətimizin başçısına məlumat verildi ki, binanın fasadı yenidən qurulur. “Serb-Az” şirkəti ilə bağlanmış müqavilə əsasında işlər yüksək səviyyədə həyata keçirilir. 18 min kvadratmetrlik fasada Yunanıstanın “Etalbond” şirkətindən alınan üzlük vurulmuşdur. Təmir işlərində digər Avropa ölkələrindən alınmış materiallardan da istifadə edilir. Məsələn, fasad şüşələri Belçikadan gətirilmişdir.

Prezident İlham Əliyev kompleksin daxilində görülmüş işlərlə də tanış oldu. Bildirildi ki, 7800 tamaşaçı yeri olan salonda Çexiyadan gətirilmiş oturacaqlar, Koreyadan alınmış iki müasir tablo da quraşdırılmışdır. Birinci və ikinci mərtəbələrə İtaliya qraniti döşənmişdir. Pilləkənlər də təzələnmişdir. Binada istilik sistemi quraşdırılmış, kondisioner sisteminin montajı artıq başa çatdırılmışdır.

Xatırladaq ki, paytaxtın ən böyük tikililərdən biri olan Heydər Əliyev adına İdman-Konsert Kompleksinin inşasına 1977-ci ildə başlansa da, yalnız 1990-cı ildə istifadəyə verilmişdir. Ötən əsrin 80-ci illərinin sonunda ölkədə yaranmış ümumi vəziyyət bu kompleksin inşasına təsirsiz ötüşməmiş və tikinti işləri lazımi səviyyədə tamamlanmamışdı. İndiki əsaslı təmir və yenidənqurma işlərindən sonra kompleks ən yüksək tələblərə cavab verəcəkdir.

Prezident İlham Əliyev əsaslı təmir olunan eyvana da baxdı, buradan ətrafı seyr etdi.

Xüsusi işıqlandırma sistemi ilə təmin edilmiş binanın əsaslı təmir və yenidənqurma işlərinə 11,6 milyon manat vəsait ayrılmışdır. İl ərzində 4-5 beynəlxalq səviyyəli yarışın, 12-14 sərgi və konsert tədbirlərinin keçirildiyi kompleksin ölkəmiz üçün əhəmiyyəti böyükdür. Bir neçə gündən sonra isə kompleks öz qonaqlarını yeni və daha mükəmməl görkəmdə qəbul edəcəkdir. İyunun sonu – iyulun əvvəlində burada bədii gimnastika üzrə 23-cü Avropa çempionatı, avqustda yeniyetmələr arasında boks üzrə dünya çempionatı, sentyabrda isə güləş üzrə dünya çempionatı və taekvondo üzrə Avropa birinciliyi keçiriləcəkdir.

***13 iyun 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BAKI CAZ FESTİVALINDA İŞTİRAK EDƏN MƏŞHUR AZƏRBAYCANLI PİANOÇU, BƏSTƏKAR VƏ CAZ İFAÇISI ƏZİZƏ MUSTAFAZADƏNİ VƏ ANASI, TANINMIŞ MUSİQİÇİ ELZA MUSTAFAZADƏNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı Beynəlxalq Bakı Caz Festivalının Azərbaycanın mədəni həyatında əhəmiyyətini vurğuladı. Respublikamızın hüdudlarından kənarda Azərbaycan mədəniyyətini layiqincə təmsil edən Əzizə Mustafazadənin ölkəmizlə bundan sonra da mütəmadi əlaqə saxlayacağına əminliyini ifadə etdi.

Sənətinə verilən yüksək qiymətə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq edən Əzizə Mustafazadə əldə etdiyi nailiyyətlərdə dövlətimizin başçısının qayğısını daim hiss etdiyini bildirdi.

***14 iyun 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR OPERA MÜĞƏNNİSİ, SSRİ XALQ ARTİSTİ YELENA OBRAZTSOVANI QƏBUL ETMİŞDİR

Tanınmış opera müğənnisi Yelena Obraztsova xalqımızın ümummilli lideri Heydər Əliyevlə bağlı xatirələrini böyük ehtiramla xatırladı. Uzun müddət Bakıya səfər etmədiyini deyən müğənni indiki səfəri zamanı ölkəmizdə çox böyük inkişafın getdiyini, aparılan abadlıq işlərinin onda böyük heyranlıq doğurduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafı, tarixi abidələrimizin qorunması, bərpa edilməsi və mədəniyyətimizin inkişaf etdirilməsi sahəsində görülən işlərdən danışdı.

***14 iyun 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN TƏHSİL VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ QOLİ AMERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Qoli Ameri ölkəsinin Azərbaycanla münasibətlərə böyük önəm verdiyini vurğuladı. O, ölkəmizdə olduğu müddətdə təhsil sahəsində məhsuldar görüşlər keçirdiyi və müzakirələr apardığı haqda Prezident İlham Əliyevə məlumat verdi. Qoli Ameri ABŞ-la Azərbaycan arasında təhsil və mədəniyyət sahələrində əlaqələrin bundan sonra daha da genişlənməsi istiqamətində bütün imkanlardan istifadə edilməsini vacib saydı.

Prezident İlham Əliyev təhsilin ölkəmizdə prioritet sahələrdən biri olduğunu vurğuladı və bu sahədə Azərbaycanda böyük işlərin görüldüyünü qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və bu istiqamətdə əlaqələrimizin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi

***20 iyun 2007-ci il***

## İORDANİYANIN ARXEOLOGİYA MUZEYİ, TARİX-MEMARLIQ ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

Prezident İlham Əliyevi Arxeologiya muzeyinin önündə İordaniyanın turizm naziri Usamə Ald Abbas qarşıladı.

Dövlətimizin başçısı burada yerləşən muzeylə, Herkules məbədi, Bizans kilsəsi ilə, qədim məscid və sarayla yaxından tanış oldu.

Muzeyin direktoru məlumat verdi ki, burada regionda mövcud olmuş bütün tarixi dövrlərə aid materiallar toplanmışdır.

Prezident İlham Əliyev eramızdan əvvəlki minilliklərə aid heykəllərə, daşdan, şüşədən hazırlanmış sənət nümunələrinə, müxtəlif növ geyim formalarına baxdı. Bildirildi ki, bu ərazidə Bizans imperiyasından qalmış kilsə, Əməvilər xilafətindən qalmış saray, su çənləri, məscid və dükanlar da vardır. Arxeoloji və geoloji qazıntılar zamanı tapılan və Paleolit, Neolit, Eneolit və Tunc dövrlərinə, habelə Roma imperiyası zamanına aid eksponatlar böyük maraq doğurur.

Azərbaycan Prezidenti xüsusi bölmələrdə İslam dövrü mədəniyyətini əks etdirən yazılı sənədlərə, pul nişanlarına və bəzək əşyalarına baxdı, muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı Herkules məbədinə, Bizans kilsəsinə, saray və məscidə, qədim tarixi yaşadan amfiteatra tamaşa etdi.

Məlumat verildi ki, İordaniya paytaxtının adı ilk vaxtlar Rabat Ammon olub. Romalılar bu ölkəni zəbt edəndən sonra Filadelfiya, Xilafət dövründə isə Əmman adlandırılmışdır. Bu ərazi qala divarları ilə əhatə olunmuşdur. Bütövlükdə il ərzində bu tarixi yerləri görməyə gələnlərin sayı 270 min nəfərdən çox olur. Bunun 70 mini ərəb ölkəsindən gələn turistlərdir.

***30 iyul 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İNCƏSƏNƏT MUZEYİNİN VƏ GƏNC TAMAŞAÇILAR TEATRININ BİNALARINDA TƏMİR-TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Rüstəm Mustafayev adına Dövlət incəsənət muzeyində aparılan əsaslı təmir işləri ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, 120 yaşlı bu binada müxtəlif dövrlərdə ayrı-ayrı idarə və təşkilatlar yerləşmişdir. 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış muzeydə çoxlu qiymətli sənət əsərlərinin yerləşdirilməsi, ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı xeyli artırmışdır. Lakin zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin saxlandığı bu binanın əsaslı təmirini zərurətə çevirmişdir. Tarixi dəyərlərimizin və mədəni sərvətlərimizin qorunmasına xüsusi diqqət və qayğı göstərən Prezident İlham Əliyev digər mədəniyyət ocaqları ilə yanaşı bu muzeyin də bərpası barədə göstəriş vermişdir.

Binada təmir-bərpa işlərini Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti aparır. "RA architect Ltd" müəssisəsində hazırlanmış layihəyə əsasən binanın bütün mühəndis-texniki qurğuları əsaslı surətdə yenidən qurulmuşdur. Birinci və ikinci korpuslar arasında yeni bina tikilir. İnşaatçılar ilk növbədə özülləri, həmçinin daxili və xarici divarları metal konstruksiyalar və beton məmulatı ilə bərkidirlər. Binanın fasadı isə 1987 kvadratmetr sahəsi olan əvvəlki görünüşünü saxlamaqla, üzlük daşlarla üzlənir. Layihəçilər bərpa zamanı fasadın tərtibatına xüsusi diqqət yetirmişlər. Mərtəbələrin köhnə döşəməsi sökülərək, monolit dəmir-beton plitələrlə əvəz olunmuşdur. Otaqların arakəsmələri əvvəlki formada saxlanılmaqla, yenidən qurulmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, muzeyin ekspozisiyasının daha cəlbedici görünməsi üçün milli arxitektura nümunələrindən istifadə olunacaqdır.

Həmin gün Prezident İlham Əliyev Dövlət Gənc Tamaşaçılar Teatrının binasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə də tanış olmuşdur.

Qeyd edək ki, dövlətimizin başçısının Sərəncamına əsasən əsaslı təmir olunan çoxsaylı tarixi abidələr, monumental binalar, maddi mədəniyyət ocaqları sırasında bu teatrın binası da vardır.

Ölkəmizin rəhbərinin "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi

haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamı ilə digər mədəniyyət ocaqları kimi, bu teatrın binası da yüksək səviyyədə təmir olunur.

Teatr binasında aparılan əsaslı təmir və bərpa işləri ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, inzibati bina, tamaşa salonu və səhnə tamamilə yenidən qurulacaqdır. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" Departamenti tərəfindən əsaslı təmir olunan binanın bütün sanitariya qovşaqları, elektrik və su xətləri, istilik və soyutma sistemləri tamamilə yeniləşdirilmişdir. Dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunmuşdur. Binada quraşdırılmış müasir elektrik avadanlığı Avropanın tanınmış şirkətlərindən alınıb gətirilmişdir. Teatrda ayrıca avtomat telefon stansiyası da olacaqdır. Altı kameradan ibarət videoçəkiliş sistemi tamaşaların lentə alınmasına, həmçinin canlı yayımına əlverişli imkan yaradacaqdır. Bu yenilik Bakının teatr və konsert salonlarında ilk dəfə Dövlət Gənc Tamaşaçılar Teatrında tətbiq olunur.

***15 avqust 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ MARAQLANMIŞDIR

Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırılan möhtəşəm layihələri sırasında xüsusi əhəmiyyətə malik olan bu mədəniyyət mərkəzinin inşası Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilir. Belə bir mədəniyyət ocağının tikilməsi, muğamın inkişaf və təbliğ edilməsi üçün görkəmli xanəndələr, muğam bilicilərinin iştirakı ilə dəyirmi masa keçirilmiş və Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır. Prezident İlham Əliyev 2005-ci il aprelin 6-da Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır.

Beləliklə, xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğama möhtəşəm abidə ucaldılması istiqamətində ciddi addım atılmışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi isə bütövlükdə onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Bakının möhtəşəm sənət ocaqlarından biri olacaq mərkəzin inşasına başlamazdan əvvəl muğam ustadları ilə mütəmadi görüşlər, məsləhətləşmələr aparılmış, nəhayət Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edilmiş və Heydər Əliyev Fondunda təqdimatı keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin və YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə 2005-ci il avqustun 24-də Dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur. Bu mərkəzin də inşası əsaslı təmir olunan və yenidən qurulan digər tarixi abidələr və monumental binalar kimi, dövlətimizin başçısının daim diqqətindədir. “Aikon” şirkətinin inşa etdiyi və Azərbaycan-YUNESKO əməkdaşlığının bəhrəsi olan bu mədəniyyət mərkəzinin dizaynında milli musiqi sənətimizin rəmzləri əks olunmuşdur.

Tikintinin gedişi və binanın maketi ilə tanış olan Prezident İlham Əliyev bu mərkəzin memarlıq ansamblının muğamın ənənələrinə uyğun yaradılması, inşaat işlərinin ən yüksək səviyyədə aparılması ilə bağlı tövsiyələrini vermişdir.

***15 avqust 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HACIQABUL RAYONUNDA OLMUŞDUR HACIQABULUN MƏDƏNİYYƏT EVİ YENİDƏN QURULACAQ

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Hacıqabul rayon mədəniyyət evinin yenidən qurulması layihəsi ilə də tanış oldu. Qeyd edildi ki, bu mədəniyyət evi əsaslı təmirdən sonra ən müasir standartlara cavab verəcək və burada mədəni tədbirlərin keçirilməsi üçün hər cür müasir şərait yaradılacaqdır.

Dövlətimizin başçısı binada aparılacaq yenidənqurma işləri ilə bağlı müvafiq tapşırıqlarını verdi.

*23 avqust 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ DƏVƏÇİ RAYONUNUN TURİZM İMKANLARI İLƏ MARAQLANMIŞDIR

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına dəniz sahilində, Dəvəçi limanında yerləşən ərazinin göstəriciləri barədə məruzə etdi.

Prezident İlham Əliyev burada turizmin inkişafı barədə tapşırıq və tövsiyələrini verdi.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva dəniz sahilində kvadrosiklla gəzintiyə çıxdılar.

Daha sonra dövlətimizin başçısı və xanımı çay süfrəsinə qonaq oldular.

***24 avqust 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı əvvəlcə binanın fasadına baxdı, burada işlərin gedişi ilə maraqlandı. Prezident İlham Əliyevə məlumat verildi ki, binada söküntü işləri demək olar ki, başa çatdırılmışdır. "Azəraqrartikinti" və "Pim Proje" Türkiyə-Azərbaycan birgə müəssisəsinin həyata keçirdiyi əsaslı təmir və bərpa işlərinin 2008-ci ilin mayında tamamlanması nəzərdə tutulur. Almaniyada sifariş olunan xüsusi dam örtükləri yaxınlarda Bakıya gətiriləcəkdir.

Dövlətimizin başçısı sarayın fasadında istifadə olunacaq mərmər nümunələrinə də baxdı. Mərmərlər İtaliya istehsalıdır və yüksək keyfiyyətlidir. Prezident İlham Əliyev fasadda açıq-qəhvəyi rəngli mərmərdən istifadə olunmasını tövsiyə etdi. Dövlətimizin başçısı sarayın daxilini əks etdirən eskizlərlə tanış oldu, səhnəyə də baxdı. Bildirildi ki, burada da işlər sürətlə davam etdirilir. 2128 yerlik salonda rahatlıq üçün bütün şərait yaradılacaqdır. Səhnənin akustikası ilə bağlı layihə işləri tezliklə başa çatdırılacaqdır. Sarayda işıq, istilik, səsləndirmə və kommunikasiya sistemləri tamamilə dəyişdiriləcək, salonda oturacaqlar yeniləri ilə əvəz olunacaqdır. Prezident İlham Əliyev səhnədə yüksək standartlara cavab verən müasir avadanlığın quraşdırılması barədə tapşırıq verdi. Dövlətimizin başçısı foyedə görülən işlərlə də maraqlandı.

Heydər Əliyev adına Sarayda aparılan əsaslı təmir və yenidənqurma işlərinin daha bir özəlliyi binanın qarşı tərəfində quraşdırılacaq şüşələrlə bağlı olacaqdır. ABŞ istehsalı olan şüşələr içəridə keçiriləcək tədbirləri birbaşa sarayın qarşısından izləməyə imkan yaradacaqdır. Gecələr isə bu şüşələr ətrafa yaraşıq verəcək, onlardan reklam roliklərinin nümayiş etdirildiyi nəhəng monitorlar kimi də istifadə ediləcəkdir.

Dövlətimizin başçısı xüsusi havalandırma sisteminin yerləşəcəyi yerə də baş çəkdi. İtaliyadan alınan avadanlığın yaxın gələcəkdə quraşdırılmasına başlanacaqdır.

Dövlətimizin başçısı sarayda əsaslı təmir və yenidənqurma işlərinin ən yüksək tələbələr səviyyəsində və keyfiyyətlə görülməsi barədə tapşırıq və tövsiyələrini verdi.

***30 avqust 2007-ci il***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR MEMAR XANIM ZAHA HADİDİ QƏBUL ETMİŞDİR**

Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasiminin əhəmiyyətindən danışan dövlətimizin başçısı bunun Azərbaycan dövlətinin və xalqının həyatında əlamətdar hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, yüksək beynəlxalq standartlar səviyyəsində inşa ediləcək bu Mərkəz təkcə Azərbaycan xalqı üçün deyil, eləcə də ölkəmizə gələn xeyli sayda xarici qonaqlara Azərbaycan haqqında daha ətraflı məlumat almaq işinə xidmət edəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev dünyanın bir sıra məşhur tikinti komplekslərinin arxitektura müəllifi olan xanım Zaha Hadidin layihəyə rəhbərliyini yüksək qiymətləndirdi.

Xanım Zaha Hadid Azərbaycana gəlişindən və Heydər Əliyev Mərkəzinin arxitektura layihəsinə rəhbərlik etməsindən məmnun olduğunu bildirdi. O, müəllifi olduğu kitabı Prezident İlham Əliyevə təqdim etdi.

***10 sentyabr 2007-ci il***

## DÜNYA ŞÖHRƏTLİ BRİTANİYALI MUSİQİÇİ, SER ELTON CON BAKIDA TOFİQ BƏHRAMOV ADINA STADİONDA KONSERT VERMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KONSERTDƏ OLMUŞDUR

Konserti 32 min nəfər tamaşaçı izləmişdir.

Stadiona toplaşan tamaşaçılar Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.

Müğənni və bəstəkar, dünyanın ən güclü pianoçularından biri, rok və pop əfsanəsi, ən məşhur estrada ulduzlarından biri, sənət adamları arasında nadir titul daşıyıcısı – Böyük Britaniya Krallığında Ser adına layiq görülmüş insan – bunlar hamısı vaxtilə iştirakçısı olduğu qrupun üzvlərinin adlarından özünə təxəllüs götürmüş Elton Cona aiddir. Əsl adı Recinald Kennet Duayt olan müğənninin hər çıxışı, əslində, adi anlayışda konsert deyil, gözəl musiqi və bənzərsiz işıq effektlərindən ibarət fantastik şoudur.

Azərbaycan tamaşaçısına da bu cür musiqi bayramı bəxş edən Ser Elton Conun mahnılarının əksəriyyəti royalda həzin melodiya ilə başlayaraq, musiqili enerji partlayışına çevrilirdi. Müxtəlif janrları əhatə edən, adi pop musiqidən roka və hətta hadroka keçən repertuar nümunələrində əsl caz improvizasiyaları da vardır. Eyni zamanda, lirikasını itirməyən mahnılarının çoxu artıq ölməz şlyagerə çevrilibdir.

Yaradıcılığını yaxşı tanıyan Azərbaycan tamaşaçıları da britaniyalı qonağa dəstəyini əsirgəmədilər. Populyar hitlərin ilk notlarından alqış sədaları bürüyən stadionun tribunaları hərdən sayrışan ulduzlarla dolu səmanı xatırladırdı. Yeni mahnılarla yanaşı, artıq müğənninin vizit kartına çevrilən məşhur "Rocket Man", "Daniel", həddindən artıq populyar "Sacrifice", eləcə də lirik "Sorry Seems To Be The Hardest Word", çoxlarının ürəyində həmişəlik yer tapan "Candle In The Wind" sürəkli alqışlarla qarşılandı.

İki saat ərzində canlı olaraq 20 mahnı ifa edən və dayanmadan royalda peşəkar pianoçu texnikasını nümayiş etdirən 60 yaşlı Elton Con konsertdə son mahnısı olan "Your song" əsərini Azərbaycan tamaşaçısına ithaf etdi.

Konsertdən sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Elton Conla görüşdülər. Müğənni Azərbaycana gəlməsindən və dövlətimizin başçısı ilə görüşməsindən məmnun olduğunu bildirdi. Konsertin keçirilməsi üçün yaradılan şəraitə görə minnətdarlıq etdi.

***23 sentyabr 2007-ci il***

## BUXARESTDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞI

2004-cü ilin oktyabrında burada zəmanəmizin görkəmli siyasi xadimi Heydər Əliyevin büstünün açılışı olmuşdur. Əlamətdar haldır ki, 1989-cu il inqilabından sonra Rumıniyada xarici ölkələrin siyasi xadimlərindən yalnız 3 nəfərin Şarl de Qoll, Mustafa Kamal Atatürk və Heydər Əliyevin abidələri qoyulmuşdur.

Bu ilin mart ayında parkda başlanmış yenidənqurma işləri avqust ayında başa çatdırılmışdır. Burada "Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir" xatirə kompleksi, üç uşaq meydançası, bir idman meydançası yaradılmışdır. İtibucaqlı ulduz şəklində olan mərkəzi fəvvarənin dövrəsində altı musiqili fəvvarə quraşdırılmışdır. Parkda fasiləsiz olaraq Azərbaycan və rumın xalq musiqisi səslənir. Parkın hasarının üzlənməsində Azərbaycan və rumın milli naxışlarından ibarət metal pannodan istifadə edilmişdir. Əsas giriş qapısı Azərbaycan milli memarlıq üslubunda – şəbəkəli tağ formasında düzəldilmişdir.

Parkda yenidənqurma işləri aparılarkən yaşıllaşdırmaya xüsusi diqqət yetirilmişdir. Burada təxminən 30 min çiçək, beş min kol əkilmiş, sahəsi 4 hektardan çox olan çəmənlik salınmışdır. Parkın bütün mərkəzi hissəsinə qranit plitələr döşənmişdir. Burada 100 oturacaq yeri olan amfiteatr vardır.

Parkın girəcəyində Azərbaycan Prezidenti İlham Əliyevi, Ruminya Prezidenti Trayan Beseskunu və onların xanımlarını Buxarestin ikinci sektorunun meri Nekulay Onsamu və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop de Popa qarşıladılar.

Mərasimdə çıxış edən Nekulay Onsamu dövlət başçılarını salamlayaraq dedi ki, Buxarestdə Heydər Əliyev parkının açılması Azərbaycan-Rumıniya əlaqələrinin inkişafının parlaq təzahürüdür.

Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop de Popa vurğuladı ki, Heydər Əliyev Rumıniyanın dostu idi, o, iki ölkənin strateji tərəfdaşlıq münasibətlərinin təməlini qoymuşdur. O, Bakıda görkəmli rumın bəstəkarı Corc Eneskuya abidə ucaldılmasına görə Prezident İlham Əliyevə təşəkkür etdi.

Rumıniya Prezidenti Trayan Besesku çıxışında bildirdi ki, Buxarestdə Heydər Əliyev Fondunun nümayəndəliyinin və Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan parkın açılması Azərbaycan və Rumıniya

xalqları arasında dostluq münasibətlərinə əyani sübutdur. O dedi ki, Xəzər və Qara dəniz regionlarında təhlükəsizlik və sülh zonası yaradılması üçün hər iki ölkə çox səy göstərir. Rumıniya beynəlxalq hüququn dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi prinsiplərinə riayət edilməsinə xüsusi əhəmiyyət verir.

Prezident İlham Əliyev mərasim iştirakçılarını Azərbaycan-Rumıniya münasibətlərinin tarixində əlamətdar gün – bütün həyatını öz xalqına xidmətə həsr etmiş Heydər Əliyevin adını daşıyan parkın açılışı münasibətilə təbrik etdi. O bildirdi ki, ümummilli liderin rəhbərliyi altında Azərbaycanın müstəqilliyi möhkəmlənmişdir və indi ölkəmiz sürətlə inkişaf edir.

Dövlətimizin başçısı Azərbaycan-Rumıniya münasibətlərinin genişlənməsindən bəhs edərək dedi ki, Rumıniya Azərbaycanın müstəqilliyini tanımış ölkələrin sırasında ikincidir. O, Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya səylərinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyinin dəstəklənməsinə görə Rumıniya rəhbərliyinə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə əməkdaşlıq kimi, humanitar sahədə əlaqələr də fəal inkişaf edir. Bakıda rumın bəstəkarı Corc Eneskuya abidə ucaldılması və Buxarestdə Heydər Əliyev parkının açılışı buna əyani sübutdur. Azərbaycan dövlətinin başçısı əmin olduğunu bildirdi ki, dost Rumıniya ilə Azərbaycanın əlaqələri daha da genişlənəcəkdir.

Azərbaycan və Rumıniya prezidentləri və onların xanımları Heydər Əliyevin büstü önünə gül qoydular.

Sonra dövlət başçıları parkı gəzdilər, Tei gölünün əsrarəngiz panoramına tamaşa etdilər.

Gəzinti zamanı Buxarest Texniki Universitetinin Heydər Əliyev təqaüdçüləri olan azərbaycanlı tələbələr Prezident İlham Əliyevə yaxınlaşaraq, ona minnətdarlıqlarını bildirdilər. Buxarestin türk və tatar diasporlarının nümayəndələri Azərbaycan Prezidentinə üzərində aşağıdakı sözlər yazılmış plaket təqdim etdilər: "Azərbaycan türklərinin, bütün türk dünyasının lideri mərhum Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq bu abidənin ucaldılmasına və bu parkın açılışına görə Sizə təşəkkürümüzü bildiririk".

Sonra parkda Azərbaycan və rumın artistlərinin iştirakı ilə konsert oldu.

***24 sentyabr 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ XƏTAİ RAYONUNDA HEYDƏR PARKININ VƏ ULU ÖNDƏRİN ABİDƏSİNİN AÇILIŞINDA OLMUŞDUR

Prezident İlham Əliyev ulu öndərin abidəsinin üzərindən ağ örtüyü götürdü, heykəlin önünə gül dəstəsi qoydu, parkla yaxından tanış oldu. Məlumat verildi ki, 2000-ci il iyunun 3-də Prezident Heydər Əliyev bu parkın açılışında olmuş, sakinlərlə görüşmüşdür. Ərazinin genişləndirilməsi və əhalinin mənalı istirahətinin müasir tələblərə cavab verən səviyyədə təmin olunması məqsədi ilə bu ilin əvvəlindən parkda abadlıq, əsaslı yenidənqurma işlərinə başlanmış, ulu öndərin abidəsi ucaldılmışdır. Heykəlin müəllifi Aslan Rüstəmovdur.

Ümumilikdə 13 hektar ərazisi olan parkın 5 hektarı rayonun daxili imkanları hesabına abadlaşdırılmışdır. Gələcəkdə digər sahələr də müasir səviyyəyə çatdırılacaqdır. Çin texnologiyası əsasında musiqili, rəngli fəvvarə quraşdırılmış, on mindən çox ağac, bəzək kolu, gül-çiçək əkilmiş, çoxlu oturacaq qoyulmuş, iki min kvadratmetr sahədə yaşıllıq salınmış, sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Parkın yuxarı hissəsindəki yamacda düzəldilmiş süni şəlalə buraya xüsusi gözəllik verir. Parkın girəcəyində isə milli memarlıq üslubunda hazırlanmış böyük giriş qapısı tikilmişdir.

Prezident İlham Əliyev burada belə bir istirahət guşəsinin yaradılmasından məmnun qaldığını bildirdi. Dövlətimizin başçısı şəlalənin yaxınlığında vaxtilə ulu öndərin əkdiyi ağacın yanında ağac əkdi və onu suvardı. Şəlalə “Koroğlu” operası uvertürasının sədaları altında işə salındı.

Videogörüntülər vasitəsilə ulu öndərin burada sakinlərlə görüşündə söylədiyi “Vaxtilə Əhmədli qəsəbəsi deyəndə, şəhərin mərkəzində yaşayanlar buranı kənd hesab edirdilər. Bəziləri deyirdi ki, “yox, mən gərək şəhərin mərkəzində yaşayam”. Amma mən o vaxt da buranı görmüşdüm və indi də baxıram ki, bura şəhərin mərkəzindən nə qədər gözəldir. Çünki buranın havası yaxşıdır, bura yüksəklikdədir, belə gözəl ağaclar əkilib, yaşıllaşıbdır, insanlar da məskunlaşıblar. Ona görə də şəhərin mərkəzində yaşayanlar səhv edirlər. Gəlib burada yaşamaq lazımdır. Mən xahiş edəcəyəm ki, mənə burada bir mənzil versinlər” sözləri maraqla dinlənildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Xətai rayonunun sakinləri ilə görüşdü, onları təbrik edərək dedi:

-Yeddi il bundan əvvəl ulu öndər burada olmuşdu, həm ağac əkmiş, həm də parkın açılışını etmişdir. İndi park yenidən qurulmuşdur. Rayon icra hakimiyyəti burada böyük işlər görübdür. Burada istirahət etmək üçün bütün imkanlar var. Çox gözəl yerlər, fəvvarələr var, oturmaq üçün yer kifayət qədərdir. Həm də çox müasir, gözəl parkdır, çox nadir xüsusiyyətləri var və belə də olmalıdır. Çünki bura çox böyük bir yaşayış massividir. Burada minlərlə insan yaşayır. Onlar üçün belə gözəl parkın yaradılması böyük işdir. Mən də məhz parkın yenidən açılışına və sizinlə görüşə gəlmişəm.

Sakinlər Prezident İlham Əliyevə Bakı şəhərinin, o cümlədən bu qəsəbənin abadlaşdırılmasına göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər, ulu öndərin tarixi xidmətlərini xatırladılar.

Sonra Prezident İlham Əliyev Ukrayna meydanına gəldi. Buraya rayonun on minlərlə sakini toplaşmışdı. Gurultulu, hərarətli alqışlarla qarşılanan dövlətimizin başçısı sakinləri səmimiyyətlə salamladı, onlarla xatirə şəkilləri çəkdirdi.

Açılış mərasimi geniş konsert proqramı ilə başa çatdı.

***3 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN MƏDƏNİYYƏT NAZİRİ MİRZOŞOXRUX ASROROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı bu yaxınlarda Tacikistana səfərini məmnunluqla xatırlatdı. Azərbaycan və Tacikistan prezidentlərinin qarşılıqlı səfərlər zamanı mədəniyyət günlərinin keçirilməsi barədə razılığa gəldiklərini deyən Prezident İlham Əliyev ölkəmizdə Tacikistanın mədəniyyət günlərinin başlanmasının iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirdi.

Mirzoşoxrux Asrorov ölkəmizə səfəri çərçivəsində iki ölkə rəhbərinin irəli sürdükləri təşəbbüslərin və əldə etdikləri razılıqların həyata keçirilməsi barədə Azərbaycanın mədəniyyət və turizm naziri ilə müzakirələr apardığını bildirdi. O, Azərbaycanda Tacikistanın mədəniyyət günlərinin təşkilinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə xidmət etdiyini vurğuladı.

***18 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ HABİL ƏLİYEVİ QƏBUL ETMİŞDİR

Xalq artisti Habil Əliyev dövlətimizin başçısına müraciətlə dedi:

-Möhtərəm cənab Prezident, Sizə təşəkkür edirəm. Mən televiziya kanallarına da müsahibə vermişəm. Siz bu yüksək mükafatı, ordeni verməklə mənə ömür də verdiniz, həyat da verdiniz. Sizə təşəkkür edirəm, neçənci dəfədir ki, mənə belə diqqətinizi sübut edirsiniz. Allah Sizi bu xalqın üstündən əskik etməsin.

Prezident İLHAM ƏLİYEV görkəmli kamança ustasına təşəkkür edərək dedi:

-Sağ olun, mən sizi təbrik edirəm. Siz buna layiqsiniz, böyük xidmətlər göstərmisiniz. Uzun illər ərzində Azərbaycan xalqına böyük xidmətlər göstərmisiniz, bizim milli musiqimizin, mədəniyyətimizin inkişafında sizin çox böyük rolunuz var. Siz bu yüksək mükafata layiqsiniz. Ona görə mən sizi təltif etdim və bu gün istədim ki, şəxsən özüm sizə "İstiqlal" ordenini təqdim edim.

Dövlətimizin başçısı İlham Əliyev "İstiqlal" ordenini xalq artisti Habil Əliyevə təqdim etdi.

HABİL ƏLİYEV: Cənab Prezident, Sizə çox təşəkkür edirəm. Rəhmətlik ümummilli liderimiz bu xalq üçün, respublika üçün çox böyük işlər görübdür. Sizin haqqınızda söz demək çətindir. Çünki sözün gücü çatmır, söz acizdir.

İLHAM ƏLİYEV: Sağ olun. Mən çalışıram ki, öz işimlə ölkəmizin inkişafına töhfə verim. Əsas məqsədim budur ki, ölkəmiz inkişaf etsin, qüdrətlənsin, insanlar yaxşı yaşasınlar, əmin-amanlıq, sülh olsun və mehribançılıq olsun. Ölkəmizin gələcəyi çox gözəldir. İndiki vəziyyəti də yaxşılaşır. Ona görə biz hamımız birlikdə ölkəmizin inkişafında iştirak edəcəyik. Siz də buna hazır olun. Baxmayaraq ki, 80 yaşınız tamam olub, ancaq siz həmişə cavansınız.

HABİL ƏLİYEV: Sizin bu mükafatınız ömrümü uzatdı, mən buna inanıram. Sizə bir daha təşəkkür edirəm.

***22 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QOBUSTAN RAYONUNDA HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞINDA OLMUŞDUR

Prezidentə məlumat verildi ki, ərazisi 5 hektar olan parkda istirahət zonası yaradılmış, müasir üslubda musiqili rəngli fəvvarələr, süni bulaqlar qurulmuş, çoxlu oturacaq qoyulmuşdur. Ərazidə çəmənlik salınmış, gül kolları və ağaclar əkilmişdir. Uşaqlar üçün yelləncəklər, idman qurğuları var. Parkın ərazisində Yeni Azərbaycan Partiyası rayon təşkilatının qərargahı, uşaq və incəsənət mərkəzi, nikah binası tikilmişdir. Ulu öndər Heydər Əliyevin heykəli bu istirahət guşəsinə xüsusi görkəm verir. Postamentlə birlikdə hündürlüyü 6,1 metr olan, qranitdən və tuncdan hazırlanmış abidənin müəllifi xalq rəssamı, akademik Ömər Eldarovdur.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva parkla tanış oldular, ulu öndərin abidəsini ziyarət edərək gül dəstələri qoydular.

Sonra dövlətimizin başçısı parkın ərazisində yerləşən Heydər Əliyev muzeyinə gəldi. Muzeyin açılışını bildirən lenti kəsdi, ümummilli liderimizin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən fotostendlərə maraqla baxdı. Burada ulu öndərə həsr olunmuş kitablar, müxtəlif sənədlər də toplanmışdır. Bildirildi ki, rayon orta məktəblərində təhsil alan şagirdlər, eləcə də sakinlər muzeyə gələrək ulu öndərin zəngin irsini öyrənəcək, onun fəaliyyətinə dair videofilmlərə baxacaqlar. Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra parkda rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.

Prezident İlham Əliyev görüşdə nitq söylədi.

***23 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAX RAYONUNDA HEYDƏR ƏLİYEV ADINA SARAYIN AÇILIŞ MƏRASİMİNDA İŞTİRAK ETMİŞDİR

Sonra dövlətimizin başçısı Heydər Əliyev adına sarayın açılış mərasimində iştirak etdi.

Prezident İlham Əliyev sarayın rəmzi açılışını bildirən lenti kəsdi, bu mədəniyyət ocağı ilə tanış oldu. Bildirildi ki, 2006-cı ildə Nazirlər Kabinetinin sərəncamına əsasən saraya Heydər Əliyevin adı verilmişdir. Sarayın binası 1963-cü ildə tikilmiş və son bir ildə əsaslı şəkildə yenidən qurularaq müasir görkəm almışdır. İkimərtəbəli binanın birinci mərtəbəsində 400 nəfərlik salon yerləşir. Foyedə Heydər Əliyevin büstü qoyulmuşdur. Ulu öndərin və Prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotostendlər vardır.

Sarayda müasir işıqlandırma sistemi, Yaponiya istehsalı olan aparatura quraşdırılmışdır.

Prezident İlham Əliyev sarayda görülmüş yenidənqurma işlərini yüksək qiymətləndirdi.

***24 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAX RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin açılışında iştirak edirdilər.

Dövlətimizin başçısı muzeyin yerləşdiyi Heydər Əliyev xiyabanına gəldi. Prezident İlham Əliyevə xiyabanda aparılmış genişləndirmə-abadlıq işləri barədə məlumat verildi. Xiyaban tamamilə yeni görkəm almışdır. Yeni quraşdırılmış musiqili rəngli fəvvarələr xiyabana xüsusi gözəllik verir.

Prezident İlham Əliyev muzeyin qarşısında qoyulmuş xatirə daşına baxdı. Daşın üzərində: "Heydər Əliyev xiyabanı Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev tərəfindən Yevlax sakinlərinin istifadəsinə verilmişdir" sözləri yazılmışdır.

Sonra Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu. İkimərtəbəli binanın birinci mərtəbəsində qonaq otağı, kompyuter, iş otaqları, konfrans salonu, inzibati otaqlar, kitabxana yerləşir. İkinci mərtəbədə isə ulu öndərin həyat və fəaliyyəti ilə bağlı fotoşəkillər toplanmışdır. Burada Heydər Əliyevin 1982-ci və 1998-ci illərdə Yevlax rayonuna səfərlərini, sakinlərlə görüşlərini əks etdirən fotolar diqqəti cəlb edir.

Heydər Əliyev Fondu tərəfindən muzeyə ulu öndərə həsr edilmiş kitablar hədiyyə olunmuşdur.

Muzeylə tanışlıqdan sonra dövlətimizin başçısı xatirə kitabına ürək sözlərini yazdı.

◆◆◆

Sonra Prezident İlham Əliyev Nizami parkına baxdı. Sakinlərin mədəni istirahəti üçün burada gözəl şərait yaradılmışdır. Dahi şairin "Xəmsə"sindəki obrazların rəmzi heykəlcikləri qoyulmuş parkda mütəmadi olaraq maraqlı tamaşalar göstərilir.

***24 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAX RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ MUZEYİNDƏ OLMUŞDUR

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər.

Dövlətimizin başçısı muzeyin açılışını bildirən lenti kəsdi, əvvəlcə "Yevlax şəhəri 2004-2007-ci illərdə" fotoguşəsi ilə tanış oldu. Muzeydə 5 min eksponat toplanmışdır. Bizim eradan əvvəl birinci minilliyə aid arxeoloji tapıntılar, rayonun flora və faunasına, xalq sənəti nümunələri, məişət əşyaları, Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin marşrutu üzrə aparılan arxeoloji qazıntı işləri zamanı tapılmış materiallar, müxtəlif dövrlərə aid saxsı qablar, silahlar diqqəti cəlb edir.

Ekspozisiyada Yevlax rayonunun tarixinə, görkəmli şəxsiyyətlərinə, ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin Yevlaxa səfərlərinə aid materiallar da nümayiş etdirilir.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva ekspozisiya ilə tanış oldular.

***24 oktyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "DÖVLƏT BAYRAĞI" MEYDANININ YERLƏŞƏCƏYİ ƏRAZİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Dövlət bayrağı" meydanının yerləşəcəyi ərazi ilə tanış olmaq üçün paytaxtın Bayıl qəsəbəsinə – Hərbi Dəniz Qüvvələrinin bazasına gəlmişdir.

Dövlətimizin başçısına məlumat verildi ki, "Dövlət bayrağı" meydanının yeri relyef baxımından standartlara cavab verir. Bu ərazi Dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradacaqdır. Bundan başqa, layihənin icrası ilin bütün aylarında turistlərin və paytaxta gələn qonaqların buraya cəlb olunması baxımından da əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev "Dövlət bayrağı" meydanının yerləşəcəyi ərazi ilə yaxından tanış oldu, ətrafı seyr etdi. Dövlətimizin başçısına məlumat verildi ki, tezliklə meydanın təməli qoyulacaq və inşaat işlərinə başlanacaqdır. 20 min kvadratmetr ərazisi olacaq meydanda bütün infrastruktur yaradılacaqdır.

Prezident İlham Əliyev tikinti işlərinin ən yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

***13 noyabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR EDİLMİŞ KONSERTDƏ OLMUŞDUR

Birinci beynəlxalq Rostropoviç musiqi festivalı çərçivəsində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş konsert olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdə olmuşlar.

Dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçin həyat yoldaşı Qalina Vişnevskaya da salonda idi. Amerikalı dirijor Kristian Badeanın rəhbərliyi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin ifasında P.Çaykovskinin əsərləri səslənmişdir. Solist görkəmli rusiyalı violonçelçi Nataliya Qutman idi.

***12 dekabr 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FUNİKULYORUN YAXINLIĞINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verərək dedi ki, dövlətimizin başçısının tapşırığı əsasında qısa müddətdə bu ərazi tamamilə yenidən qurulmuş, təxminən iki dəfə genişləndirilmişdir. Bəhram Gur abidəsi, buradakı dairəvi hovuz da yeni görkəm almışdır. Bu işi yaponiyalı mütəxəssislər ən müasir standartlar səviyyəsində yerinə yetiriblər. İşıqlandırma sistemi İtaliya texnologiyası əsasında yenidən qurulmuş, ərazidə yaşıllaşdırma işləri aparılmışdır. Yenidənqurma işləri görülərkən insanların istirahəti üçün maksimum şərait yaradılmasına, buranın ətrafla ümumi ansambl təşkil etməsinə xüsusi diqqət yetirilmişdir.

Prezident İlham Əliyev bütün park və bağlarda bu cür abadlıq aparılmasını, xaricdən bəzək ağacları və kolların gətirilib əkilməsini tövsiyə etdi. Dövlət başçısı gecələr Bakıya xüsusi yaraşıq verən binaların işıqlandırma sisteminin müasirləşdirilməsi barədə də tapşırıqlarını verdi.

Sonra Prezident İlham Əliyev funikulyorda aparılan yenidənqurma işləri ilə tanış oldu. Ölkə başçısına bildirildi ki, vaqonlar təzələnib, funikulyor fəaliyyət göstərməyə tam hazırdır.

Prezident İlham Əliyev paytaxtda yenidənqurma və abadlıq işləri görülərkən milli memarlıq ənənələrinə həssaslıqla yanaşılmasının vacibliyini vurğuladı.

***14 dekabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİNDƏ OLMUŞDUR

VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə islam dünyasının 3-cü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin 4 nümayəndəsi uyuyur. İmam Museyi Kazımın qızı həzrəti Hökümə xanımın məzarı da həmin ziyarətgahdadır. Azərbaycanın say-seçmə övladları ilə yanaşı, maddi-mədəniyyət abidələrimiz, o cümlədən xalqımızın iman və inanc yeri olan Bibiheybət ziyarətgahı da sovet dövründə repressiyaya məruz qalmış, 1934-cü ildə buradakı məscid dağıdılmışdır.

Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi, iradəsi, milli-mənəvi dəyərlərimizə dərindən bağlılığı sayəsində bu ziyarətgaha yenidən həyat verilmişdir. Ümummilli lider 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət etmiş, 1997-ci il iyulun 23-də, Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoymuşdur. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak etmişdir.

Heydər Əliyev ideyalarına sadiq qalan və uğurla davam etdirən Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı Fərman və Sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapmışdır. Dövlətimizin başçısı 2005-ci ilin oktyabrında buranı ziyarət edərkən fikirlərini bölüşmüş, tövsiyələrini vermişdir. Hazırda Bibiheybət ziyarətgah kompleksinin inşası sürətlə davam etdirilir.

Prezident İlham Əliyevə məlumat verildi ki, ərazinin relyefinin mürəkkəbliyi nəzərə alınaraq, ziyarətgahın və buradan keçən magistral yolun genişləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Köhnə evlər sahiblərinə yeni mənzillər verilməklə və ya konpensasiya ödənilməklə sökülmüşdür. Tikintinin ümumi sahəsi 1800 kvadratmetrdən çoxdur. Məscidin yaxınlığından keçən magistralın 1,8 kilometri genişləndirilərək, 30-34 metrə çatdırılmışdır. Müsəlmanların digər möhtəşəm ziyarətgahlarında olduğu kimi, bu məsciddə də ilk dəfə muzey və kitabxana zəvvarların ixtiyarına veriləcəkdir. Burada aparılan yenidənqurma tədbirləri ölkəmizdə dini dəyərlərə nə qədər həssaslıqla yanaşılmasının bariz nümunəsidir.

Dövlətimizin başçısına məlumat verildi ki, məsciddə eyni vaxtda təxminən 3 min nəfərin namaz qılması mümkündür. Qadınlar və kişilərin ayrı-

lıqda namaz qılmaları üçün müvafiq şərait yaradılmışdır. Namaz qılınacaq yerin döşəməsinin altında xüsusi istilik sistemi quraşdırılmışdır. İnşaat və tərtibat işləri klassik Şərq memarlığı üslubunda yerinə yetirilir.

Kompleksdə çoxlu yardımçı otaqlar da tikilmişdir.

Hər cür şəraiti olan qurbangah da yaradılmışdır. İndiki Qurban bayramı münasibətilə bu ziyarətgahda kəsilən qurbanlar Bibiheybət qəsəbəsində yaşayan aztəminatlı insanlara və şəhid ailələrinə paylanılmışdır. Kompleksdə yeməkxana, meyitlərin yuyulması üçün xüsusi yer də olacaqdır.

Ziyarətgahın axundu Hikmət Əlizadə bildirdi ki, layihəçilər, inşaatçılar bütün işləri yüksək səviyyədə görürlər. Buranın ayrıca qazanxanası, su təchizatı sistemi vardır. Bütün kommunikasiya sistemi mükəmməl şəkildə quraşdırılır.

Dövlətimizin başçısına kompleksin üst hissəsində görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, burada geniş meydança olacaq, yay aylarında ziyarətgaha gələnlərin istirahəti üçün hər cür şərait yaradılacaqdır.

Prezident İlham Əliyev Xəzərin sahilinin bu hissəsində görüləcək digər işlərdən də danışdı, ziyarətgahda davam etdirilən yenidənqurma tədbirləri barədə tapşırıqlarını verdi, buradan paytaxtın mənzərəsini seyr etdi. Dövlətimizin başçısı burada xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev həzrəti Hökümənin məzarını ziyarət etdi. Şeyxülislam Allahşükür Paşazadə həzrəti Hökümənin və imamın burada dəfn edilmiş 3 nəvəsinin ruhuna dua oxudu.

Prezident İlham Əliyev ziyarətgahda nəzir verdi.

Dövlətimizin başçısına məsciddə yüksək zövqlə aparılan tərtibat işləri barədə geniş məlumat verildi. Bildirildi ki, məscidin mərkəzi salonu, foyenin tavanı, divarlar incə naxışlarla bəzədiləcəkdir. Məscidin günbəzində Qurani Kərimdən surə yazılacaqdır. Ümumiyyətlə, məscidin müxtəlif guşələrində Quranın müxtəlif surələri əksini tapacaqdır.

Dindarlar bildirdilər ki, demokratik prinsiplərin, dini etiqad və vicdan azadlığının bərqərar olduğu Azərbaycanda bütün dini ocaqlarda bu cür yüksək səviyyədə yenidənqurma işlərinin aparılması böyük razılıq doğurur. Azərbaycan Prezidentinin bu işlərə bilavasitə nəzarət etməsi isə xüsusi rəğbət doğurur.

Prezident İlham Əliyev dini ocaqlarda ən müasir standartlara cavab verən əsaslı təmir və yenidənqurma işlərinin bundan sonra da davam etdiriləcəyini vurğuladı, Bibiheybət ziyarətgahında görülən işlərdən razılığını bildirdi, müqəddəs Qurban bayramı münasibətilə ən xoş arzularını çatdırdı.

***20 dekabr 2007-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV TƏZƏPİR MƏSCİDİNDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Paytaxtımızın memarlıq simasında özünəməxsus yeri olan Təzəpir məscidində Prezident İlham Əliyevin tapşırığı ilə aparılan əsaslı təmir və yenidənqurma işlərinin yarıdan çoxu görülmüşdür. Məscidin yanında yeni kompleks də tikilir. Kompleksə Qafqaz Müsəlmanları İdarəsinin və İslam Universitetinin inzibati binaları, xaricdən gələn ziyarətçilər üçün qonaq evi, geniş konfrans salonu daxildir. Burada qurbangah, yardımçı otaqlar da tikilmişdir.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, kompleksin tikintisində milli memarlıq üslubuna xüsusi diqqət yetirilir. Kompleksin elektrik, istilik və su təchizatı sisteminin quraşdırılması da son mərhələyə daxil olur.

Məscidin özündə isə daxili tərtibat işlərinə başlanmışdır. Bu incə və böyük ustalıq tələb edən işə tanınmış rəssam-bərpaçılar cəlb olunmuşdur. İnteryerdə istifadə olunan rənglər, xüsusilə qızılı rəng xaricdən gətirilmişdir. Təzəpir məscidinin bərpası və genişləndirilməsi dövlətimizin başçısının tariximizin keçmişinə, mənəvi və dini dəyərlərimizə göstərdiyi diqqət və qayğının daha bir əyani nümunəsidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevə məlumat verdi ki, məscid yenidən qurularkən onun memarlıq üslubu qorunub saxlanılmışdır.

Bildirildi ki, ümumi sahəsi 7600 kvadratmetr olan kompleksin 6 min kvadratmetrində yenidənqurma işləri aparılır. Məscidin fasadı xüsusi özəlliyi ilə seçilən naxışlarla bəzədilmişdir. Oyma naxışlar girişdə daha çoxdur. Burada memarlıq elementləri üstünlük təşkil edir.

Daha sonra məscidin interyeri ilə tanış olan Prezident İlham Əliyevə burada görülən işlər barədə də məlumat verildi. Günbəzdəki naxışlar diqqəti daha çox cəlb etdi. Quran ayələrinin yazılmasında müxtəlif rəng çalarlarından istifadə edilmişdir. Dövlətimizin başçısı şəbəkədən hazırlanmış pəncərələrə də xüsusi diqqət yetirdi.

Prezident İlham Əliyev kompleksə daxil olan binaları gəzdi. Dövlətimizin başçısına məlumat verildi ki, inzibati binalarda işçilərin fəaliyyəti üçün bütün şərait yaradılacaqdır.

Daha sonra Prezident İlham Əliyev kompleksə daxil olan binanın üst qatından ərazini seyr etdi. Məlumat verildi ki, məscidin günbəzinə qızıl təbəqə çəkilmişdir. Ümumiyyətlə isə, məsciddə 320 kvadratmetr sahə qızıl təbəqə ilə işlənmişdir.

Dövlətimizin başçısı konfrans, ehsan salonları ilə də tanış oldu, məscidin ətrafında abadlıq işlərinin aparılması ilə bağlı tapşırıqlarını verdi.

Bildirildi ki, dini ayinlər zamanı insanların təhlükəsizliyinin təmin olunması məqsədi ilə yenidənqurma işləri başa çatdıqdan sonra Tolstoy küçəsinin məscidin yanından keçən hissəsi avtomobillərin hərəkəti üçün bağlanacaqdır.

Prezident İlham Əliyev burada işlərin gedişindən razılığını bildirdi və keyfiyyət məsələlərinə bundan sonra da xüsusi diqqət yetirməyi tövsiyə etdi.

***20 dekabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ƏJDƏRBƏY MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARILAN TƏMİR-TİKİNTİ, ABADLIQ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısına məscid barədə məlumat verdi və bildirdi ki, ərazidə işlərə bu ilin aprelindən başlanılmışdır. Təmir-bərpa işlərində müasir texnologiyalardan istifadə olunsa da, məscidin tarixi abidə olması nəzərə alınır. Ona görə də təmir-bərpa işlərindən sonra da ilkin görkəminə uyğun olacaqdır. Məscidin ətrafında daxili həyət inşa olunur. Burada qurbangah, namazgah və yardımçı otaqlar yerləşəcəkdir.

Prezident İlham Əliyev məscidin daxilində aparılan işlərlə də maraqlandı. Bildirildi ki, məscidin daxilindəki əsas çilçıraq dəyişdiriləcək, işıqlandırma sistemi müasir üslubda qurulacaqdır. Tavan və divarları Qurani-Kərimin ayələri bəzəyəcəkdir.

Prezident İlham Əliyev ətraf ərazini gəzdi, məscidin xarici görünüşünə xüsusi diqqət yetirilməsinin, təmir-bərpa işlərinin yüksək səviyyədə davam etdirilməsinin zəruriliyini söylədi.

***20 dekabr 2007-ci il***

# DÖVLƏT KUKLA TEATRI ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu. Milli geyimli oğlan və qızlar sülh rəmzi olan ağ göyərçinləri havaya buraxdılar.

Prezident İlham Əliyev əvvəlcə teatr binasının ətrafını gəzdi, abadlıq və yaşıllaşdırma işləri ilə tanış oldu. Dövlətimizin başçısı açılış mərasiminə toplaşan inşaatçıları, teatrın əməkdaşlarını salamlayaraq dedi ki, gözəl iş görmüsünüz. İndi bina tamamilə yeni görkəm almış və gözəlləşmişdir. Əlbəttə, içəridə də bütün lazımi avadanlıq, istilik sistemi, kondisioner – hər şey var.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, teatr binasının fasadına, binanın əvvəlki və indiki görünüşünü, təmir və yenidənqurma işlərinin gedişini əks etdirən fotoşəkillərə baxdı.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev dedi ki, cənab Prezident, əsaslı təmir və yenidənqurma işləri Sizin “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” 2007-ci il 19 fevral tarixli Sərəncamınıza uyğun olaraq həyata keçirilmişdir. Bu ilin mayında Siz teatrda işlərin gedişi ilə tanış olmuşdunuz.

Foyedə divar boyu 300 kvadratmetr sahədə xalq rəssamı Toğrul Nərimanbəyovun “Azərbaycanın nağıl aləmi” əsəri çəkilmişdir.

Müasir texniki avadanlıqla təchiz olunmuş səs və radio sexi, səhnə işıqları sexi yaradılmışdır və xüsusi otaqdan kompyuter vasitəsilə idarə olunur. İnzibati otaqlar, hər aktyor üçün isə ayrıca qrim otağı vardır. Rekvizit və kostyum otağında tamaşalarda istifadə olunan əşyaların qorunması üçün xüsusi şərait yaradılmışdır. Geniş məşq salonunda 120-dən çox xüsusi işıq cihazları, müasir texnologiya əsasında kompyuterləşdirilmiş səs avadanlığı quraşdırılmışdır.

2700 kvadratmetr sahəsi olan teatrda Azərbaycan və rus bölməsi ilə birlikdə 30 nəfərlik aktyor heyəti var. 200 nəfərlik tamaşa salonu da büsbütün yeni görkəm almışdır.

Prezident İlham Əliyev teatrın inzibati və qrim otaqlarını, səs və radio,

işıq sexlərini, məşq salonunu gəzdi, yaradılan şəraitdən, işlərin yüksək keyfiyyətlə aparılmasından razılığını bildirdi. Dövlətimizin başçısı ikinci mərtəbədəki eyvandan ətrafı da seyr etdi.

Ə.Qarayev bildirdi ki, teatrda bir il ərzində, dünya standartlarına uyğun aparılan keyfiyyətli təmir və yenidənqurma işlərinə tikinti şirkətləri 20 illik zəmanət vermişdir. XX əsrin əvvəllərində bu binanın layihəsini Bakıda yaşayan polyak arxitektoru Ploşko vermiş və "Fenomen" kinoteatrı kimi tikilmişdir. Sonralar müxtəlif vaxtlarda burada teatr truppaları, muzey və s. fəaliyyət göstərmişdir. Azərbaycanda kukla teatrı 1931-ci ildə yaradılmışdır. 1941-ci ilədək və 1946-50-ci illərdə müstəqil, 1941-46-cı illərdə Gənc Tamaşaçılar Teatrının, 1950-ci ildən Filarmoniyanın nəzdində fəaliyyət göstərmişdir. 1965-ci ildən isə yenidən müstəqil teatrdır. İlk dövrlərdə teatrda Azərbaycan, rus, Qərbi Avropa dramaturqlarının pyesləri, Azərbaycan şifahi xalq ədəbiyyatı motivləri əsasında hazırlanmış tərbiyəvi əhəmiyyət xarakterli əsərlər səhnəyə qoyulmuşdur. 1974-cü ildən teatra Abdulla Şaiqin adı verilmişdir. 1975-ci ildən burada böyüklər üçün də tamaşalar göstərilir.

Sonra teatrın yaradıcı kollektivi balacalar üçün Elşad Rəhimzadənin "Nağıllar aləmində" tamaşasını göstərdi. Uşaqlar tamaşa salonuna gələn dövlətimizin başçısını və xanımını hərarətli alqışlarla qarşıladılar.

Prezident İLHAM ƏLİYEV uşaqları təbrik edərək dedi:

-Salam uşaqlar, mən sizin hamınızı qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edirəm. Gözəl bayram ərəfəsində bizim sevimli kukla teatrımız əsaslı təmirdən sonra indi öz fəaliyyətini davam etdirir. Bu gözəl binada çox gözəl tamaşalara baxacaqsınız.

Bu bina tarixi binadır. Artıq 100 ildir ki, tikilibdir. Biz də bunu sizin üçün əsaslı təmir etdik ki, uşaqlar gəlib burada yaxşı tamaşalara baxsınlar, yaxşı istirahət etsinlər. Yəqin bilirsiniz ki, indi Bakıda müxtəlif teatr və muzeylər təmir olunur. Amma birinci təmir olunan teatr məhz kukla teatrıdır. Ona görə ki, biz ilk növbədə, bütün imkanlarımızı uşaqların rahat yaşamasına, dincəlməsinə yönəltməliyik, uşaqlar üçün işləməliyik və işləyirik.

İndi Bakıda gözəl binalar çoxdur. Onların hamısı gözəl təmir olunur, yeniləşir. Şəhərimizin bu gözəl yerində də gözəl binalar kifayət qədərdir. Kukla teatrının binası da öz memarlığı ilə fərqlənir. Burada işləyən aktyorlar üçün də, tamaşaçılar üçün də yaxşı şərait yaradılmışdır. Əminəm ki, burada yaxşı tamaşalar göstəriləcəkdir.

Uşaqlar bizim gələcəyimizdir. Siz gələcəkdə Azərbaycanın inkişafında öz sözünüzü deyəcəksiniz. Vaxt gələcək, siz ölkəmizin inkişafı üçün la-

zımi qərarlar qəbul edəcəksiniz, göstərişlər verəcəksiniz. Ona görə, gərək siz yaxşı oxuyasınız, yaxşı vətəndaş olasınız. Məktəbdə yaxşı oxuyasınız. Siz bilikli, savadlı olmalısınız ki, vaxt çatanda ölkəmizin gələcəyi üçün bütün lazımi işləri görəsiniz. Uşaqlar ölkəmizin gələcəyidir. 30 ildən sonra, 40 ildən sonra Azərbaycanın inkişafı sizdən asılı olacaqdır. Ona görə, ilk növbədə, mütləq yaxşı oxumaq, yaxşı biliklərə malik olmaq, idmanla məşğul olmaq lazımdır. Hər bir insan elə uşaqlıq yaşlarından idmanla məşğul olmalıdır, idman insanı fiziki cəhətdən sağlam edir. Fiziki cəhətdən sağlam olan insanlar mənəvi cəhətdən də sağlam olmalıdırlar və belə də olur. İdmanla məşğul olmaq, yaxşı oxumaq, böyüklərin sözünə qulaq asmaq və yaxşı yemək lazımdır. Uşaqlar gərək yaxşı yesinlər ki, güclü olsunlar. Beləliklə, böyümək, yaxşı vətəndaş olmaq və gələcəkdə doğma xalqımıza, Azərbaycanımıza töhfə vermək lazımdır.

Mən bu gözəl bayram ərəfəsində sizin hamınızı bir daha təbrik etmək istəyirəm. Dekabrın 31-i, eyni zamanda Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Bütün dünya azərbaycanlıları daha da sıx birləşməlidir. Azərbaycan dövləti inkişaf etməlidir, Azərbaycan xalqı rahat, firavan həyat yaşamalıdır.

Əziz balalar, sizi qarşıdan gələn bütün bayramlar münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram. Sağ olun.

◆◆◆

Uşaqlar dövlətimizin başçısının ürək sözlərini böyük maraqla dinlədilər. Tamaşanın aparıcısı uşaqlar adından dərin minnətdarlıq bildirərək dedi ki, cənab Prezident, bu gözəl hədiyyəyə görə biz Sizə "Çox sağ olun!" deyirik. İcazə verin, xatirə olaraq, Sizə teatrımızın mərhum baş rejissoru, aktyor, dünyada ilk dəfə olaraq bu il Polşanın "Təbəssüm" ordeninə layiq görülmüş Ələkbər Hüseynovun ən sevimli kuklasını təqdim edim.

Cənab Prezident, bu nağıl qəhrəmanları da çox arzu edirdilər ki, onların da belə gözəl, möhtəşəm, qəşəng teatrları olsun. Biz bilirik ki, bu günlərdə Sizin işləriniz lap çoxdur. Amma uşaqlara əsl yeni il hədiyyəsi olan bu binada tamaşa göstərməyin vaxtıdır.

İcazənizlə, bu gözəl balalar üçün tamaşamıza başlayaq və bir daha Sizə deyirik: "Çox sağ olun".

◆◆◆

Uşaqlar "Nağıllar aləmində" tamaşasına böyük maraqla baxdılar.

***26 dekabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAYTAXTIN MƏRKƏZİNDƏKİ BAĞDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva istirahət guşəsini gəzdilər. Məlumat verildi ki, burada müasir üslubda fəvvarə quraşdırılmış, əraziyə xaricdən gətirilmiş üzlük plitələr döşənmiş, oturacaqlar qoyulmuş və müasir standartlara uyğun işıqlandırma sistemi yaradılmışdır. Bütün bunlar əraziyə xüsusi yaraşıq verir. Bir sözlə, Bakının bu guşəsində sakinlərin və paytaxtımızın qonaqlarının istirahəti üçün hər cür şərait vardır.

Prezident İlham Əliyev şəhərin bu mərkəzi hissəsinin göz oxşamasının zəruriliyini bildirdi, işıqlandırma, yaşıllaşdırma işləri, habelə ətraf ərazinin də abadlaşdırılması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.

***26 dekabr 2007-ci il***

# MİLLİ PARKDA MUSİQİLİ FƏVVARƏ İŞƏ SALINMIŞDIR

Milli parkda, Muzey Mərkəzinin qarşısında tamamilə yenidən qurulmuş "Ağ" musiqili fəvvarə işə salınmışdır. Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.

Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Prezidentə onun tapşırığı əsasında burada görülən yenidənqurma işləri barədə ətraflı məlumat verdi. Bildirildi ki, fəvvarənin layihəsi İtaliyada hazırlanıb və mütəxəssislər də oradan gəlmişlər. Belə bir musiqili fəvvarə dünyada yeganədir və layihənin müəlliflik hüququ Azərbaycana məxsusdur. Fəvvarənin hovuzunda Braziliyadan hazır gətirilən ağ kristallik mərmərlər, ətrafa isə Yaponiya texnologiyası əsasında hazırlanan qranit döşənibdir.

Fəvvarənin ətrafındakı işıqlandırma sistemi yapon mütəxəssislərinin ideyasıdır. Fəvvarə və nasoslar zirzəmidə quraşdırılan avtomatik sistemlə idarə olunur.

Musiqi kompozisiyası Çaykovski, Ştraus və Sviridovun əsərləri, habelə Alim Qasımovun ifa etdiyi muğam əsasında hazırlanmışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli parkda gəzintiyə, istirahətə çıxan sakinlərlə də görüşdülər. Dövlətimizin başçısı soydaşlarımıza ən xoş arzularını, qarşıdakı bayramlar münasibətilə təbriklərini yetirdi. Paytaxt sakinləri Prezident İlham Əliyevin Vətən və xalq qarşısındakı xidmətlərini yüksək qiymətləndirdilər, ən səmimi arzularını çatdırdılar. Sonra xatirə şəkli çəkdirildi.

***28 dekabr 2007-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ƏSASLI TƏMİR-BƏRPA İŞLƏRİNDƏN SONRA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Muzeyin direktoru, MEA-nın vitse-prezidenti, akademik Nailə Vəlixanlı, Baş nazirin müavini Abid Şərifov, "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin prezidenti Ağalar Vəliyev, inşaatçılar və paytaxt sakinləri dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı muzeyin binası önündə səmimiyyətlə qarşıladılar, onlara gül dəstələri təqdim olundu.

Dövlətimizin başçısının göstərişi ilə təmir edilən çoxsaylı tarixi binalardan biri olan Azərbaycan Tarixi Muzeyinin binası Bakının ən gözəl memarlıq abidələrindəndir. 1920-ci ildə yaradılmış muzeydə qədim dövrdən başlayaraq, Azərbaycan tarixinin bütün mərhələlərinə dair qiymətli eksponatlar toplanmışdır. Lakin bina uzun illər əsaslı təmir edilmədiyindən bərbad vəziyyətə düşmüşdü. 2004-cü ilin dekabrında muzeydə yaranmış vəziyyətlə yaxından tanış olan Prezident İlham Əliyev binanın əsaslı təmiri və bərpası barədə göstəriş vermiş, 2005-ci ilin aprel ayından bu işlərə başlanmışdı.

Prezident İlham Əliyev əvvəlcə binanın xarici görünüşünə baxdı. Baş nazirin müavini Abid Şərifov məlumat verdi ki, 1895-1897-ci illərdə tikilmiş bina əsaslı şəkildə təmir olunmuş və yeni görkəm almışdır. Bu memarlıq abidəsinin gecələr də yaxşı görünməsi üçün müasir işıqlandırma sistemi quraşdırılmışdır. Hacı Zeynalabdin Tağıyev küçəsinə başdan-başa çapma daş formasında xırda plitələr döşənmişdir. Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi ilə təmir işlərini yerinə yetirən "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti binanın mühəndis-texniki qurğularını, kommunikasiya sistemini yeniləşdirmiş, dam örtüyünü tamamilə təzələmişdir.

Dövlətimizin başçısı ətrafda yerləşən tarixi binaların da təmir olunmasının zəruriliyini vurğuladı.

Sonra Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi, əsas ekspozisiya salonunun yerləşəcəyi birinci mərtəbədə görülmüş təmir işləri ilə tanış oldu.

Muzeyin direktoru Nailə Vəlixanlı bildirdi ki, vaxtilə Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş bu binanın bərpası zamanı divarlardakı naxışla-

rın və bəzək elementlərinin originallığının qorunmasına xüsusi diqqət yetirilmişdir.

300 mindən çox eksponatı olan muzeydə xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin təhsil almasına yardımçı olmuş Hacı Zeynalabdin Tağıyevin həyatı və fəaliyyətinə dair fotoşəkillər, tarixi sənədlər, ona məxsus qiymətli əşyalar da toplanmışdır. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, tariximizə və mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərmiş, bir neçə dəfə bu muzeyə gəlmiş ulu öndər Heydər Əliyevin zəngin fəaliyyəti ilə bağlı guşə də yaradılmışdır. Hazırda muzeydə 130-dan çox işçi çalışır. Muzeyin laboratoriyası da müasir tələblərə cavab verir.

Dövlətimizin başçısı bir əsrdən çox yaşı olan binanın daxili tərtibatının təmirdən sonrakı vəziyyəti ilə, ekspozisiya və fondlarla tanış oldu, milli tariximizin bu zəngin nümunələrinin çox ciddi qorunmasının vacibliyini vurğuladı.

Baş nazirin müavini Abid Şərifov bildirdi ki, binada əsaslı bərpa və təmir işləri uğurla aparılmışdır. Zirzəmidə möhkəmləndirmə işləri görülmüşdür. Hazırlanmış bir neçə layihə əsasında Şərq memarlığına xas çox incə və zəngin naxışlar yüksək səviyyədə bərpa edilmişdir. Şirvanşahlar sarayının bərpasında işləyən tanınmış İtaliya şirkətinin nümayəndələri yerli bərpaçılarla birgə işləmişlər. Onlar Almaniyada, Fransada, Böyük Britaniyada və digər Avropa ölkələrində sırf bu işlə məşğul olurlar və böyük təcrübələri var. İndi bizim yerli mütəxəssislərin də belə zərif bərpa işləri görmək təcrübəsi yaranır.

İkinci mərtəbədə yaradılmış Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, İtaliyanın "Eleka" şirkətinin mütəxəssisləri divarlarda, arakəsmələrdə, tavan və döşəmələrdə yüz il əvvəlki bəzək və naxışları aşkarlayıb ilkin formada bərpa etmişlər. O dövrdə quraşdırılmış qapı-pəncərələr, istilik və işıq sistemləri original üslubda yeniləşdirilmişdir. İndiyədək bir-iki dəfə aparılan yüngül təmir zamanı otaqların ilkin görünüşü tamamilə dəyişdirilsə də, hazırlanmış layihəyə əsasən və şəkillərin köməyi ilə otaqların əvvəlki vəziyyəti qaytarılmışdır.

Dövlətimizin başçısı muzeydə çalışmış Azərbaycan və İtaliya mütəxəssisləri ilə görüşərək, onlara təşəkkür etdi, təmir-bərpa zamanı hər bir memarlıq elementinin qorunub saxlanılmasının asan iş olmadığını söylədi, binanın original görkəminin saxlanıldığını xüsusi vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev binanın keçmiş qonaq, yataq, yeməkxana, uşaq otaqları ilə tanış oldu. Əsasən, Şərqdən gələn qonaqları qəbul

etmək üçün nəzərdə tutulan dəbdəbəli Şərq salonunu, onun incə naxışlarını nəzərdən keçirdi, hər bir otağın ilkin görünüşünü, binanın ümumi fasadını əks etdirən şəkillərə, bərpa olunan ev əşyalarına, musiqi, idman alətlərinə, Zeynalabdin Tağıyevin indiyədək saxlanılan kitabxanasına da baxdı və otaqlardan eyvana çıxaraq ətrafı seyr etdi.

Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Tarix Muzeyi əsaslı təmirdən sonra öz fəaliyyətini davam etdirir. Muzeyin ekspozisiyası Azərbaycan tarixinin nə qədər qədim və zəngin olduğunu göstərir. Muzeyin bütün avadanlığı dünya standartlarına uyğundur. Muzeyin binası və daxili tərtibat Azərbaycanın milli sərvətidir. Biz muzeyi təmir etdirməklə bura yeni həyat verdik.

Azərbaycan xalqının böyük oğlu Hacı Zeynalabdin Tağıyevin evinin bərpası bizim mənəvi borcumuz idi. Öz zəhməti hesabına böyük maliyyə imkanlarını qazanmış bu şəxsiyyət Azərbaycan gənclərinin maarifləndirilməsinə böyük töhfələr vermişdir.

Əminəm ki, muzeyin bundan sonrakı fəaliyyəti həmişə olduğu kimi uğurlu olacaqdır.

Tarix Muzeyinin bütün əməkdaşlarına yeni uğurlar arzulayıram. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. 28 dekabr, 2007-ci il".

Sonra dövlətimizin başçısı müasir dizaynı və avadanlığı ilə seçilən 120 yerlik konfrans salonuna və monitor-nəzarət otağına baxdı. Bildirildi ki, muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Binanın üçüncü mərtəbəsindəki otaqlar bu məqsəd üçün nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin çıxışında quraşdırılmış və Azərbaycan, ingilis, rus və fransız dillərində yazmaq mümkün olan xüsusi elektron lövhəyə imza atdılar.

Akademik Nailə Vəlixanlı muzeyə, çoxsaylı abidələrə və mədəniyyət ocaqlarına ikinci həyat bəxş etdiyinə, bu işlərlə şəxsən maraqlandığına, tariximizə və mədəni irsimizə həssaslıqla yanaşdığına görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı bərpaçılara, inşaatçılara bir daha təşəkkür etdi, bu tarixi binaya və muzeyə çox sayda qonaqların gələcəyini bildirdi.

***28 dekabr 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Prezident İlham Əliyevin Sərəncamı ilə əsaslı şəkildə təmir edilən və yenidən qurulan çoxsaylı monumental binalardan biri olan bu sarayda işlərə aprel ayından başlanılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə yenidənqurma işlərini "Azəraqrartikinti" və "Pim Proje" Türkiyə-Azərbaycan birgə müəssisəsi həyata keçirir. İşlərin gedişi ilə maraqlanan dövlətimizin başçısına məlumat verildi ki, sökүntü işləri əsasən başa çatıb. Binanın fasadına İtaliyadan alınmış üzlük çəkilmişdir. Bütün istilik, işıqlandırma, səs və havalandırma sistemləri ən müasir standartlara uyğun quraşdırılmışdır. Binanın dam örtüyü tamamilə dəyişdirilib, inzibati korpusda rəngsazlıq işləri gedir. Səhnənin və salonun işıqlandırma və səsləndirmə sistemlərini idarə edəcək kinoproyeksiya korpusunda işlərin xeyli hissəsi görülmüşdür.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva səhnənin tərtibatının layihəsi ilə də maraqlandılar, tamaşa salonunun akustik divar elementlərinin bəzək-tamamlama işlərində istifadə olunacaq materiallara uyğun seçilməsi ilə bağlı tövsiyələrini verdilər.

Dövlətimizin başçısına salonda quraşdırılacaq oturacaqların və səhnə pərdəsinin nümunələri təqdim olundu.

Dövlətimizin başçısı foyedə görülən işlərlə maraqlandı, sarayın yenidən qurulmasının yüksək səviyyədə və vaxtında başa çatdırılması ilə əlaqədar tapşırıqlarını verdi.

***28 dekabr 2007-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA DÖVLƏT BAYRAĞI MEYDANININ TƏMƏLİNİN QOYULMASINDA İŞTİRAK ETMİŞDİR

Bakıda Bayıl qəsəbəsində – Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət bayrağı meydanının təməli qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı İlham Əliyev mərasimdə iştirak etmək üçün əraziyə gəldi. Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi: “Cənab Ali Baş komandan, şəxsi heyət Dövlət bayrağı meydanının təməlqoyma mərasiminə hazırdır”.

Prezident İlham Əliyev mərasimə toplaşan dövlət və hökumət nümayəndələri ilə görüşdü, meydanın layihəsi ilə tanış oldu, meydanın və bayrağın görünüşünü əks etdirən fotoşəkillərə baxdı. Burada dövlətimizin başçısı tərəfindən bu il noyabrın 17-də imzalanmış “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında” Sərəncamın mətni də vurulmuşdu.

Müdafiə naziri meydan üçün seçilmiş yerin Dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradacağını vurğuladı.

Bildirildi ki, Amerika Birləşmiş Ştatlarının “Trident Support” şirkəti tərəfindən hazırlanmış layihənin icrasını Azərbaycanın “Azenko” şirkəti yerinə yetirəcəkdir. Bütün işlər 2008-ci il mayın 24-də başa çatdırılacaq, mayın 28-i – Respublika günündə isə rəsmi açılış mərasimi keçiriləcəkdir. 20 min kvadratmetr ərazisi olacaq meydanda bütün infrastruktur yaradılacaqdır.

“Trident Support” şirkətinin təsisçisi və idarəedici direktoru Deyvid Çambers dövlətimizin başçısını salamladı və məlumat verərək dedi:

-Cənab Prezident, dəstəyinizə görə minnətdaram. Bu cür milli layihədə iştirak etmək imkanını yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm. Şirkətimiz bir sıra ölkələrdə nəhəng Dövlət bayrağı meydanlarını tikmişdir. Sizə deməliyəm ki, ölkənizdə bu təşəbbüsə xüsusi həvəslə və milli qürur hissi ilə yanaşırlar. Budəfəki mərasim digər ölkələrdəki mərasimlərdən xeyli fərqlənir.

Şirkətimiz Fars körfəzi regionunda üç nəhəng Dövlət bayrağı meyda-

nı tikmişdir. Abu-Dabidə 123 metrlik, Əmmanda 127 metrlik, Aqabada isə 131 metrlik bayraq dayağı quraşdırmışıq. Burada isə dayağın hündürlüyü 150 metr olacaqdır və bu, bizim üçün, sözün əsl mənasında, böyük bir sınaqdır. Ölkəniz üçün bu işi görməkdən çox məmnunuq.

İcazənizlə, Dövlət bayrağı meydanının texniki parametrləri haqqında bir neçə kəlmə deyim. Dayağın bünövrəsinin diametri 3,2 metr olacaqdır. Müqayisə üçün bildirmək istəyirəm ki, biz Aqabada diametri yalnız 2,8 metr olan bünövrədən istifadə etmişik. Bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Dayağın alt hissəsindəki qalınlıq 40 millimetrdir. Onun bir nümunəsini Sizə göstərirəm.

İLHAM ƏLİYEV: Bu, aşağı hissədə belə olacaq?

DEYVİD ÇAMBERS: Bəli, aşağı hissədə. Dayağın yuxarı hissəsinə qədər biz 13 seksiyadan istifadə etmişik. Yəni, hündürlüyə qalxdıqca, enlik azalır və beləliklə, ən zirvədə qalınlıq 10 millimetr təşkil edir. Bu, küləyin təsirini azaltmaq məqsədi ilə hesablanmışdır. Qurğunun ümumi çəkisi 220 tondur. Dayaq küləyin sürəti saatda 209 kilometr olduqda da, davam gətirəcəkdir.

İLHAM ƏLİYEV: Hava şəraitindən, küləkdən yəqin ki, xəbəriniz var. Xüsusən də, bu ərazidə. Buradan 2 kilometr məsafədə, digər istiqamətdə külək yoxdur. Amma burada, var.

DEYVİD ÇAMBERS: Bəli, məlumatım var. Mən burada çox küləkli hava şəraitində olmuşam. Biz bunu nəzərə almışıq. Zirvədə küləyin maksimum sürəti saatda 200 kilometr olanda, 150 metrlik dayaq 4,2 metr əyiləcəkdir.

İLHAM ƏLİYEV: Lakin, bu, görünməcəyəkdir.

DEYVİD ÇAMBERS: Xeyr, görünməyəcəkdir. Normal havada dayaq üst hissədə təqribən 2-3 düym əyilir. Mən bunu bilirəm, çünki həmin hündürlükdə olmuşam. İşlərimizi başa çatdırdıqdan sonra, Sizinlə məmnuniyyətlə açılışda iştirak edəcəyik.

Bayrağın özünə gəldikdə, bildiyiniz kimi, o 35x70 metrdir. Yəni, onun sahəsi 2450 kvadratmetr təşkil edir.

İLHAM ƏLİYEV: 2450 kvadratmert?!

DEYVİD ÇAMBERS: Bəli, çəkisi isə təqribən 350 kiloqramdır.

İLHAM ƏLİYEV: Bayrağın çəkisi 350 kiloqramdır?!

DEYVİD ÇAMBERS: Bəli, təkcə bayraq 350 kiloqramdır. Biz onun materialı üçün çox davamlı xüsusi poliest materialından istifadə edirik. O, yumşaqdır, lakin çox davamlıdır.

İLHAM ƏLİYEV: Biz binalarda dalğalanan bayraqları tez-tez dəyişməli oluruq. Bu cür bayrağın orta istifadə müddəti nə qədərdir?

DEYVİD ÇAMBERS: Üç və ya dörd həftə, təqribən bir ay. Bu, uzun müddətdir.

İLHAM ƏLİYEV: Bir ay.

DEYVİD ÇAMBERS: Bəli. Bəzi hallarda bayraqlar iki və ya üç gün istifadə olunma müddəti ilə hazırlanır. Lakin böyük bayraqlara gəldikdə, onlar davamlı olur. Biz uzun illər ərzində dayaqların dizaynı üzərində işləmişik və bayrağın möhkəm olmasına tam əminik.

İLHAM ƏLİYEV: Çox sağ olun.

DEYVİD ÇAMBERS: Cənab Prezident, Siz sağ olun, buraya gəldiyinizə görə minnətdaram.

◆◆◆

Prezident İLHAM ƏLİYEV bayrağın hazırlanacağı materiala baxdı, bu işin ölkə üçün xüsusi əhəmiyyət daşıdığını bildirərək dedi:

– Azərbaycanda Dövlət bayrağı meydanı yaradılır. Mən bu barədə keçən ay Sərəncam imzaladım. Əlbəttə ki, biz o vaxta qədər müxtəlif yerlərə baxmışdıq və məhz bu yeri seçdik. Çox gözəl yerdir, bir az təpədə yerləşir və buradan şəhərə çox gözəl mənzərə açılır. Eyni zamanda, şəhərin əksər yerlərindən bu yer görünür. Xüsusilə nəzərə alsaq ki, bayrağın dayağının hündürlüyü 150 metr olacaq, Azərbaycanın bu dövlət rəmzi Bakı şəhərində dalğalanacaqdır. Bu, bizim müstəqilliyimizdir, bizim azadlığımızdır.

Bakıda, başqa şəhər və rayonlarda bizim dövlət bayraqları müxtəlif yerlərdə ucaldılır. Mən bu göstərişi vermişəm. Ancaq bu bayraq, əlbəttə, bütün başqa bayraqlardan son dərəcə fərqlənir. Həm ona görə ki, bu, çox böyük bayraqdır. Bunun ölçüləri 70x35 metrdir. Çəkisi də çox ağırdır, 350 kiloqram ancaq bayrağın çəkisi olacaqdır. Həm də ona görə fərqlənir ki, bu bayraq Dövlət bayrağı meydanında ucaldılacaqdır. Əlbəttə, bu ərazi abadlaşdırılacaqdır. Artıq burada "Azərenerji" böyük işlər görübdür, texnika gətiribdir. Çox mürəkkəb bir iş olacaqdır. Belə böyük bayrağı texniki baxımdan qurmaq çox böyük peşəkarlıq tələb edir. Bu, bizdə var, texnika var, peşəkarlıq var. Əminəm ki, bizim bayrağımız, milli rəmzimiz bizi Azərbaycanın xoşbəxt gələcəyinə aparacaqdır. Bayrağımız həmişə uca olacaqdır.

ETİBAR PİRVERDİYEV ("Azərenerji SC-nin prezidenti): Sizin göstərişinizlə biz, çox çətinliklə də olsa, xüsusi kran tapa bildik. Bayrağın qaldırılmasında ən çətin, texniki və məhdudlaşdırıcı elementlərdən biri həmin

hündürlükdə işləyə bilən xüsusi kranın olmasıdır. Biz 188 metr hündürlükdə işləyə bilən və yükqaldırma qabiliyyəti 600 ton olan kranın əsas hissələrini gətirmişik, buradadır.

İLHAM ƏLİYEV: Çox yaxşı. Mən Azərbaycanda Dövlət bayrağı meydanının yaradılması haqqında Sərəncamı bu il noyabrın 17-də imzaladım. Bu da təsadüfi deyildir. Çünki məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycanda, Naxçıvanda, Naxçıvan Ali Məclisinin ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanın dövlət bayrağı kimi qaldırılmışdı. Bildiyiniz kimi, bizim bayrağımız 1918-ci ildə ucaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti, müstəqil Azərbaycan dövləti yarananda bu bayraq Azərbaycanın Dövlət bayrağı elan edilmişdi. Ancaq 1920-ci ildə Xalq Cümhuriyyəti süqut edəndə, əlbəttə, bayraq da dəyişdirildi. 1990-cı ildə, – onda hələ Azərbaycan müstəqil deyildi, – ulu öndərimiz bu bayrağı Azərbaycanın və Naxçıvanın rəsmi bayrağı kimi elan etdi. Bir neçə aydan sonra isə, 1991-ci ilin fevral ayında bu bayraq Azərbaycanın Dövlət bayrağı kimi elan edildi. Yəni bu, tarixdir. Bu, bir daha onu göstərir ki, ulu öndərimiz Azərbaycanın müstəqilliyi üçün çox böyük işlər görmüşdür. Hələ o zaman ki, Azərbaycan müstəqil dövlət deyildi, bu bayraq Azərbaycanın, bizim müstəqilliyimizin simvolu oldu.

Azərbaycan xalqı əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Bizim öz dövlətimiz yox idi və azərbaycanlılar başqa ölkələrin tərkibində yaşayırdılar. Müstəqillik ən böyük sərvətdir, ən böyük xoşbəxtlikdir. Biz öz taleyimizi özümüz həll edirik. Bizim müstəqil Azərbaycan dövlətimiz var və bu dövlət günü-gündən möhkəmlənir. Hər bir dövlətin rəsmi simvolları var. Ancaq bu simvollarla yanaşı, müstəqil siyasət aparmaq heç də hər bir dövlətin işi deyildir. Bizi bir sıra ölkələrdən, o cümlədən bizim bölgədə yerləşən bəzi ölkələrdən fərqləndirən odur ki, biz müstəqil siyasət aparırıq. Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətdir və bu müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük xoşbəxtlikdir. Bizim müstəqilliyimizi əks etdirən, onun rəsmi rəmzi olan bayrağımız dalğalanmalıdır. Bu gözəl bayraq Bakının bütün yerlərindən görünəcəkdir.

◆◆◆

Mərasimdən xatirə olaraq, Prezidentə hədiyyə təqdim olundu.

Sonra təməlqoyma mərasimi başlandı. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi: “Möhtərəm Azərbaycan Respublika-

sının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı! Fəxri qarovul Sizin hərbi hissəyə gəlməyiniz münasibətilə düzülmüşdür".

Prezident İlham Əliyev fəxri qarovulun əsgərlərini salamladı.

Dövlətimizin başçısı gilizi təmələ qoydu və beton qarışığı tökdü. Bu işi dövlət və hökumət nümayəndələri də icra etdilər.

Prezident İlham Əliyev gələcəkdə ilin bütün aylarında turistlərin və paytaxta gələn qonaqların buranı görməsi, tədbirlərin keçirilməsi baxımından da əhəmiyyət daşıdığını söylədi.

Dövlətimizin başçısı meydanın yerləşəcəyi ərazinin ətrafında abadlıq işlərinin də ən yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi, mərasim iştirakçılarını qarşıdan gələn bayramlar münasibətilə təbrik etdi.

***30 dekabr 2007-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ RAYONUNA SƏFƏRİ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

Rəmzi açılışı bildirən lenti kəsən dövlətimizin başçısı İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birgə muzeylə yaxından tanış oldular.

İki mərtəbədən ibarət və müasir görünüşə malik muzeyin birinci mərtəbəsində ulu öndərin büstü qoyulmuşdur. Burada konfrans salonu, kompyuter otağı, məktəblilər üçün sinif otaqları vardır. Bildirildi ki, məktəblilər muzeyə gələrək, ulu öndərin zəngin həyatı, fəaliyyəti və irsi ilə tanış olacaqlar. İkinci mərtəbədə eksponat salonu yerləşir. Yaradılmış xüsusi guşələrdə ulu öndərin uşaqlıq və gənclik illərindən, ailə həyatından, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdən, Azərbaycana rəhbərliyinin hər iki dövründən bəhs edən fotoşəkillər, dahi şəxsiyyət haqqında yazılmış kitablar toplanmışdır. Burada ümummilli liderimizin Qarabağ bölgəsinə, o cümlədən Ağcabədiyə 1970-ci illərdə dörd dəfə, 1993-cü ildən sonra isə iki dəfə səfərinə, keçirdiyi görüşlərə dair fotoşəkillər və materiallarla da tanış olmaq mümkündür.

Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmə baxdılar.

Dövlətimizin başçısına ümummilli lider Heydər Əliyevin Ağcabədiyə səfərlərini əks etdirən fotoalbom təqdim olundu.

***17 yanvar 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "MUĞAM TELEVİZİYA MÜSABİQƏSİ-2007" QALİBLƏRİNİN QALA-KONSERTİNDƏ OLMUŞDUR

Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan Mədəniyyətinin Dostları Fondunun layihəsi əsasında və Heydər Əliyev Fondunun dəstəyi ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin keçirdiyi və üç aydan çox davam etmiş "Muğam televiziya müsabiqəsi-2007" qaliblərinin qala-konserti olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Əvvəlcə müsabiqə ilə bağlı hazırlanmış sənədli film göstərildi. Film Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın müsabiqənin qalibləri və münsiflər heyətinin üzvləri ilə görüşündə dediyi "Muğam bizim mədəniyyətimizin, Azərbaycan mədəniyyətinin əsas sütunlarından biridir və əlbəttə, onu qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur" – sözləri ilə başlayır. Filmdə muğam müsabiqəsinin münsiflər heyətinin üzvləri – xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Mənsum İbrahimov, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov, "Muğam televiziya müsabiqəsi-2007" layihəsinin icraçısı, əməkdar incəsənət xadimi Nadir Axundov, eləcə də xalq artisti Alim Qasımov ölkəmizdə xalqımızın milli sərvəti olan muğam sənətinin yaşadılmasına, inkişafına, beynəlxalq aləmdə təbliğinə, muğam ifaçılarının yeni nəslinin yetişdirilməsinə göstərilən diqqət və qayğıdan söhbət açırlar. Onlar musiqimizin şahı sayılan muğama qayğının bu səviyyəyə çatmasında Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini yüksək qiymətləndirirlər.

Bildirilir ki, Azərbaycan mədəniyyəti və incəsənətinin böyük hamisi ümummilli lider Heydər Əliyevin arzu və istəklərinin həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyan "Muğam irs", "Muğam dəstgah", "Muğam ensiklopediya", "Muğam antologiyası", "Muğam aləmi" və "Muğam Mərkəzi" və sair layihələr milli musiqi tariximizə yeni səhifələr kimi daxil olacaqdır.

Filmdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə buraxılmış "Qara-

bağ xanəndələri" musiqi albomu barədə ətraflı danışılır, onun təqdimat mərasimindən fraqmentlər göstərilir.

Tamaşaçılar bu filmdə 2005-ci ildə keçirilmiş ilk televiziya muğam müsabiqəsi, Prezident İlham Əliyevin həmin müsabiqənin finalçıları ilə görüşü, dövlətimizin başçısının və YUNESKO-nun baş direktorunun iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməlqoyma mərasimi, muğam ifaçılarının iştirakı ilə Parisdə, Vaşinqtonda, Rusiyada keçirilmiş konsertlər, muğam haqqında yeni jurnalın nəşri barədə bir daha məlumat alırlar.

Sonra səhnə gənc ifaçıların ixtiyarına verildi. Müsabiqənin qalibləri – Ehtiram Hüseynov "Sarı gəlin" xalq mahnısını, Rəvanə Ərəbova "Şüştər" təsnifini, Nasir Ətəpur "Vilayəti" muğamını, Abgül Mirzəliyev "Şirvan şikəstəsi"ni, Güllü Muradova "Mirzə Hüseyn segahı"nı, Elməddin İbrahimov "Qatar" təsnifini məharətlə ifa etdilər. Onların və musiqiçilərin ifaları hərarətli alqışlarla qarşılandı.

Bu qeyri-adi konsert müsabiqə qaliblərinin ifasında "Qarabağ şikəstəsi" ilə başa çatdı.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV konsertdən sonra səhnə arxasına gələrək gənc ifaçılarla görüşdü və onlara müraciətlə dedi:

– Sizi təbrik edirəm, muğam müsabiqəsinin qaliblərisiniz. Üç ay ərzində Azərbaycan xalqı bu müsabiqəyə baxırdı, onu izləyirdi və siz çox gərgin mübarizə şəraitində ən qabaqcıl yerləri tuta bilmisiniz. Bu, böyük nailiyyətdir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, siz gələcəkdə də öz istedadınızla Azərbaycan xalqını sevindirəcək, peşəkarlıq səviyyənizi daha da yüksəklərə qaldıracaqsınız.

Muğam bizim milli sərvətimizdir. Azərbaycan xalqının sərvətidir. Bu aylar ərzində bütün Azərbaycan xalqı muğam sənətini daha da dərindən dərk edə bilmişdir. Artıq bu müsabiqə ənənəvi xarakter daşıyır. Əminəm ki, bundan sonrakı illərdə də bu müsabiqə keçiriləcəkdir və beləliklə, muğam yaşayacaq, inkişaf edəcəkdir. Biz də öz tərəfimizdən hər şey etməliyik ki, bu gözəl sənəti qoruyaq, möhkəmləndirək. Bundan sonrakı nəsillər də muğamın inkişafında öz rolunu oynayacaqlar.

Bu müsabiqə Heydər Əliyev Fondunun və Azərbaycan televiziyasının təşəbbüsü ilə həyata keçirilmişdir. Mən bu təşəbbüsü alqışlayıram. Hesab edirəm ki, çox dəyərli təşəbbüsdür. İndi burada yoxdurlar, amma qiyabi də olsa, münsiflər heyətini də xüsusi qeyd etmək istəyirəm. Onların fəaliyyəti, onların verdikləri şərhlər, sizə məsləhətləri həm sizin üçün, həm də bütün muğamsevərlər üçün çox dəyərli olmuşdur.

Siz də yaxşı bilirsiniz ki, bu aylar ərzində müsabiqəyə demək olar, və-

təndaşlarımızın əksəriyyəti baxmışdır. Nəinki Azərbaycanda, bütün başqa ölkələrdə də baxıblar. İndi peyk vasitəsilə Azərbaycan televiziyası başqa ölkələrdə yayımlanır və bilirəm ki, bütün dünya azərbaycanlıları da bu müsabiqəyə böyük maraqla baxmışlar. Həm də onu demək istəyirəm ki, mənim internet saytıma da bununla bağlı çoxlu sayda məktublar daxil olmuşdur. Xaricdə yaşayan azərbaycanlılar öz sevincini, bu müsabiqənin keçirilməsi işində əməyi olan insanların fəaliyyətini xüsusilə qeyd etmişlər.

Bir sözlə, mən bir daha qeyd etmək istəyirəm ki, siz bu aylar ərzində Azərbaycan xalqına sevinc bəxş etmisiniz. Bu müddət ərzində siz artıq tanınan insanlar olmusunuz. Yəqin ki, sizi küçədə görənlər, ictimai yerlərdə görənlər yaxınlaşırlar, danışırlar, öz münasibətlərini bildirirlər. Əminəm ki, siz bundan sonra da bu yüksək səviyyəni saxlayacaq, sözün əsl mənasında, milli ulduzlara çevriləcəksiniz.

İndi Azərbaycanın musiqi sənətində müxtəlif janrlarda ulduzlar var. Bu, təbiidir. Başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da bu olmalıdır və var. Amma mən çox şadam ki, bizim milli musiqi sənətinin ulduzları artıq yaranıblar, işləyirlər, fəaliyyət göstərirlər və Azərbaycan xalqının milli sərvəti olan, bizim musiqi sənətimizin əsası olan muğam sənətini siz belə gözəl təbliğ edirsiniz.

Mən sizə gələcək fəaliyyətinizdə də uğurlar arzulayıram. Əminəm ki, siz bundan sonra, hələ uzun illər ərzində Azərbaycan xalqını öz sənətinizlə sevindirəcəksiniz. Sizi bir daha təbrik edirəm.

◆◆◆

Dövlətimizin başçısının təbrik sözünü diqqətlə dinləyən və alqışlarla qarşılayan muğam ifaçıları, incəsənət ustaları Prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər. Prezident İlham Əliyev və xanımı gənc ifaçılarla xatirə şəkli çəkdirdilər.

***1 fevral 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ ŞƏHƏRİNDƏ OLMUŞDUR DAHİ NİZAMİNİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədə dahi Nizaminin məqbərəsini ziyarət etmişdir.

Dövlətimizin başçısına məqbərədə aparılan abadlıq işləri barədə məlumat verildi. Prezident İlham Əliyev məqbərənin və ətraf ərazinin görünüşünün müasirləşdirilməsi və daha yüksək səviyyəyə çatdırılması ilə bağlı müvafiq tövsiyələrini verdi.

◆◆◆

Sonra dövlətimizin başçısı şəhərin girəcəyindəki, yenidən bərpa edilmiş “Gəncə darvazası”na və qala divarına baxdı.

***3 mart 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV NAFTALAN ŞƏHƏRİNƏ GƏLMİŞDİR HEYDƏR ƏLİYEV PARKI VƏ MUZEYİ İLƏ TANIŞLIQ

Prezident İlham Əliyev əvvəlcə şəhərin mərkəzində yerləşən və ulu öndər Heydər Əliyevin adını daşıyan parkla tanış oldu. Dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ümummilli liderin parkda ucaldılmış abidəsini ziyarət edərək, gül dəstələri qoydular.

Prezident İlham Əliyev parkı gəzdi. Burada fəvvarələr quraşdırılmış, sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır. 1967-ci ildə salınmış, 2006-cı ildə tamamilə yenidən qurulmuşdur. Dövlətimizin başçısı parkın daha da müasir formada abadlaşdırılması üçün müvafiq tövsiyələrini söylədi. Sonra Prezident İlham Əliyev parkın ərazisində yerləşən Heydər Əliyev muzeyinə gələrək, ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə və eksponatlara baxdı.

2006-cı ildə yaradılmış muzeydə 200-dən çox fotoşəkil və eksponat toplanmışdır. Onların arasında 1982-ci ildə ulu öndərin Naftalanın kurort şəhəri kimi inkişaf etdirilməsi ilə bağlı verdiyi qərar da vardır.

***3 mart 2008-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SAMUX RAYONUNDA OLMUŞDUR HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

2007-ci ildə istifadəyə verilmiş və sahəsi 160 kvadratmetr olan muzey ekspozisiya və konfrans salonlarından, üç xidməti otaqdan ibarətdir. Ekspozisiya salonunda Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillər toplanmış, kompyuter avadanlığı qoyulmuşdur.

Binanın arxasında 700 kvadratmetr sahədə xiyaban salınmışdır.

Prezident İlham Əliyev muzeydə ulu öndərin həyat və fəaliyyəti ilə bağlı filmə baxdı, xatirə kitabına ürək sözlərini yazdı.

Dövlətimizin başçısı rayonun dünənini və bu gününü əks etdirən fotostendlə, eləcə də Samuxun qaz təchizatının sxemi və rayon ərazisindən keçən Şəmkir maşın kanalının baş planı ilə tanış oldu.

Prezidentə məlumat verildi ki, artıq rayona qaz verilir və əhalinin bu sarıdan ciddi problemi yoxdur.

***3 mart 2008-ci il***

## GÖYGÖL (XANLAR) ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Azərbaycan Prezidenti İlham Əliyev Göygöl (Xanlar) rayonuna gəlmişdir.

Rayonun minlərlə sakini dövlətimizin başçısını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladı.

Əvvəlcə rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsinin açılışı oldu. Prezident İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü, abidənin önünə gül dəstəsi qoydu. Postamentlə birlikdə hündürlüyü 9,5 metr olan heykəl qranitdən hazırlanmışdır. Ətrafdakı 3 hektar ərazi də abadlaşdırılmış, istirahət üçün gözəl şərait yaradılmışdır. Burada gül kolları əkilmiş, yaraşıqlı fəvvarələr quraşdırılmış, daş plitələr döşənmişdir. Sonra burada abidənin açılışı münasibətilə rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə təntənəli mərasim keçirildi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz dostlar!

Bu gün biz ulu öndər Heydər Əliyevin abidəsinin açılışına toplaşmışıq. Bu çox əlamətdar bir hadisədir. Ulu öndər bütün dövrlərdə, Azərbaycana rəhbərlik etdiyi illərdə öz xalqına sədaqətlə xidmət etmişdir. Hamımız yaxşı xatırlayırıq ki, 1970-80-ci illərdə Azərbaycanın inkişafında onun çox böyük rolu olmuşdur. O vaxt Azərbaycan başqa müttəfiq respublikalarla müqayisədə ən ağır vəziyyətdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycanda o vaxt aparılan islahatlar ölkəmizin bugünkü inkişafına möhkəm zəmin yaratmışdır. Çünki o illərdə yaradılmış sənaye müəssisələri, inkişaf etmiş kənd təsərrüfatı, tikilmiş sosial obyektlər bu gün də Azərbaycanın hərtərəfli inkişafı üçün öz rolunu oynamaqdadır. Müstəqil Azərbaycanın rəhbəri kimi yenə də Azərbaycanı ən çətin vəziyyətdən çıxaran məhz ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Onun rəhbərlik etdiyi dövrlərdə Azərbay-

can daim inkişaf etmiş, o, Azərbaycanda olmadığı dövrdə isə ölkə böyük fəlakətlərlə üzləşmişdir. Məhz o illərdə – 1980-ci illərin sonu və 90-cı illərin əvvəllərində Azərbaycanın gələcək inkişafı sual altında idi. Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan bir ay sonra ermənilər Dağlıq Qarabağda separatçı hərəkətlərə başlamışdılar. Azərbaycana qarşı təcavüz başlanmışdı və faktik olaraq, Azərbaycan torpaqları işğal altına düşmüşdür. Məhz o illərdə bu işğalın əsası qoyulmuşdur. Azərbaycanın o vaxtkı və Sovet İttifaqının rəhbərliyi erməni qəsbkarları ilə birlikdə Azərbaycan üçün bu çətin şəraiti yaratmışdılar.

Ancaq 1993-cü ildən sonra, yenə də ulu öndər Azərbaycana qayıtdıqdan sonra vəziyyət tamamilə dəyişmişdir və bu gün Azərbaycan uğurla inkişaf edir. 1993-2003-cü illər Azərbaycan dövlətçiliyi üçün həlledici illər olmuşdur. Məhz o illərdə Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirə bilmişdir, Azərbaycanda bütün xoşagəlməz hadisələrə, anarxiya və hərc-mərcliyə son qoyulmuş, sabitlik yaranmışdır. Azərbaycan inkişaf etməyə başlamışdır və bu onillik ölkəmizin bugünkü həyatında çox mühüm rol oynamışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və Azərbaycanı xoşbəxt gələcəyə aparır. Bu gün Azərbaycanda davam etdirilən siyasi və iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir. Dörd il ərzində biz bu birinciliyi qoruyub saxlaya bilmişik. Özü də dünya miqyasında. Azərbaycan iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artır və Azərbaycan vətəndaşları bu nailiyyətlərin bəhrəsini gündəlik həyatlarında görməyə başlamışlar. Bu, çox vacibdir. Çünki bizim bütün iqtisadi siyasətimiz, aparılan islahatlar bir məqsədə yönəlibdir ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, bütün problemlər, sosial məsələlər həllini tapsın və ölkəmiz güclənsin.

Bildiyiniz kimi, dörd ildən artıqdır ki, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı icra olunur. Bu yaxınlarda biz proqramın dörd illik yekunlarını müzakirə etdik və bir daha gördük ki, bu illər ərzində bölgələrdə çox böyük inkişaf olmuşdur. 650 mindən çox yeni iş yerinin açılması, yüzlərlə yeni müəssisənin yaradılması, Azərbaycan bölgələrində infrastrukturun yeniləşməsi və yaradılması, elektrik stansiyalarının tikilməsi, qaz xətlərinin çəkilməsi – bütün bunlar regionların inkişafına xidmət göstərir. Bütün bunlar imkan verir ki, Azərbaycanın bütün bölgələrində insanlar daha da yaxşı yaşasınlar. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik. Azərbaycanın qarşısında duran vəzifələr uğurla icra edilir, bizim bütün proqramlarımız həyatda öz əksini tapır. Regionların sosial-iqtisadi in-

kişafı Dövlət proqramının ölkəmizin hərtərəfli inkişafında çox böyük rolu olmuşdur. Bu proqramın icrası nəticəsində ölkəmizin qeyri-neft sektoru inkişaf edir, bölgələrdə müasir şərait yaradılır və yaradılacaqdır.

Biz uğurlu neft siyasətimizdən istifadə edərək, siyasi və iqtisadi islahatları davam etdirərək elə şərait yaradırıq ki, gələcəkdə Azərbaycan iqtisadiyyatı neft amilindən asılı olmasın. Şübhəsiz ki, bu gün Azərbaycanın inkişafında neft-qaz sahəsi çox böyük rol oynayır. Bu sahədə də əldə edilmiş bütün uğurlar ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə mümkün olmuşdur. Məhz onun təşəbbüsü ilə 1994-cü ildə xarici şirkətlərlə ilk neft müqaviləsi imzalandıqdan sonra Azərbaycan bu sahədə böyük uğurlara nail ola bilmişdir. O vaxt vəziyyət indiki kimi deyildi. Azərbaycan cəmi 3 il idi ki, müstəqil dövlət idi və torpaqlarımız işğal altında idi. Ölkədə hələ vətəndaş müharibəsinin acı nəticələri yaşanırdı, Azərbaycana vəsait qoymaq istəyən xarici şirkətlərin sayı çox məhdud idi, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Daxili imkanlarımız da, demək olar ki, yox idi. Büdcə çox aşağı səviyyədə, xəzinə isə boş idi. O şəraitdə böyük enerji şirkətlərini Azərbaycana cəlb etmək, onları inandırmaq ki, Azərbaycan investisiyalar üçün əlverişli iqtisadi imkanlara malikdir – bu, böyük müdriklik və cəsarət tələb edirdi. Çünki neft müqavilələrinin imzalanması çox ağır geosiyasi şəraitdə baş verirdi.

Bu gün isə Azərbaycan qarşıda duran bütün enerji vəzifələrini uğurla icra edibdir və biz tarixi nailiyyətlərə çatmışıq. Neft-qaz kəmərləri işə salınmışdır. Azərbaycanda böyük miqdarda neft-qaz hasil edilir, ixrac olunur və beləliklə, ölkə zənginləşir. Uğurlu neft-qaz siyasətimiz, iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı, sahibkarlığa həm siyasi və mənəvi, həm də maddi dəstək, kreditlərin ayrılması – bütün bu amillər Azərbaycanın hərtərəfli inkişafına şərait yaradır. Təsadüfi deyil ki, biz dörd il ərzində iqtisadi artım sürətinə görə dünyada birinci yerdəyik. Dörd ildə iqtisadiyyatımız, demək olar ki, 2 dəfə artmışdır və bu meyil davam edir.

Bu dörd il ərzində büdcə xərclərimiz böyük həcmdə artmışdır. Bu gün Azərbaycanın dövlət büdcəsi 12 milyard dollardır. Dörd il bundan əvvəl bu rəqəm 1 milyard 200 milyon idi. Yəni büdcəmiz 10 dəfə artıbdır, xərclərimiz on dəfə artıbdır və bundan səmərəli istifadə edirik və Azərbaycanda müasir infrastruktur yaradılır. Elektrik stansiyaları tikilir, avtomobil yolları, qaz xətləri çəkilir, xəstəxanalar, məktəblər inşa olunur, sosial infrastruktura aid olan digər məsələlər həll edilir. Eyni zamanda vətəndaşlarımızın sosial təminatı yaxşılaşır, minimum əmək haqqı, minimum pensiyalar ildə iki dəfə artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Yanvarın

1-dən minimum əmək haqqı və minimum pensiya 60 manata qaldırılmışdır və bu il yenə də biz buna baxacağıq. Mən göstəriş vermişəm ki, yenidən biz bu məsələyə baxaq və maaşlar, pensiyalar artırılmalıdır. Düzdür, artım çox böyükdür, amma hələ ki, bizi tam qane edə bilməz. Çünki mən istəyirəm ki, Azərbaycan vətəndaşları yaxşı yaşasınlar, aldıqları maaşlar, pensiyalar onların bütün tələbatını ödəsin. Əlbəttə ki, özəl sektorda fəaliyyət göstərənlər bu baxımdan özlərini sosial baxımdan daha yaxşı müdafiə olunmuş hesab edirlər, yəni onların dolanışığı özlərinin fəaliyyətindən asılıdır. Nəzərə alsaq ki, Azərbaycanda bizneslə məşğul olmaq üçün çox gözəl şərait yaradılmışdır və dövlət tərəfindən bütün lazımi tədbirlər görülür. Eyni zamanda, sahibkarlara ildə 100 milyon manata yaxın məbləğdə kreditlər verilir, kənd təsərrüfatı texnikası verilir. Demək olar ki, sahibkarlıqla məşğul olanlar özlərini yaxşı təmin edə bilirlər. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatının 80 faizi özəl sektorda formalaşıb, deyə bilərik ki, özəl sektorda işləyənlərin sayı kifayət qədər çoxdur. Ancaq büdcə təşkilatlarında işləyənlərin sosial müdafiəsi məsələləri, əlbəttə ki, diqqət mərkəzində olmalıdır və o insanlara dövlət qayğısı bundan sonra da davam etdiriləcək, onların iş şəraiti yaxşılaşdırılacaq, əmək haqları artırılacaqdır.

Siz bilirsiniz və Xanlar rayonunun timsalında da biz bunu görürük ki, indi Azərbaycanda məktəb tikintisi nə qədər geniş vüsət almışdır. Hər yerdə, demək olar ki, hər kənddə yeni məktəblər tikilir. Nə üçün biz bunu edirik? İlk növbədə, ona görə ki, bizim gələcəyimiz olan uşaqlarımız yaxşı şəraitdə oxusunlar. Oxumaq üçün onların bütün şəraiti olsun və gələcəkdə Azərbaycan üçün bilikli gənc nəsil yetişsin. Digər tərəfdən, o məktəblərdə təkcə uşaqlar oxumur, həm də müəllimlər işləyirlər. Müəllimlər uşaqlara bilik öyrədir, onları tərbiyə edirlər, demək, bizim gələcəyimizi formalaşdırırlar. Ona görə müəllimlərin əməyi çox yüksək qiymətləndirilməlidir. Onların həm əmək haqları artırılmalıdır və artırılır, həm də iş şəraiti yaxşılaşmalıdır. Biz bunu edirik və bundan sonra da edəcəyik. Son dörd il ərzində Azərbaycanda 1200-dən çox məktəb tikilmişdir. Nəzərə alsaq ki, bütün dövrlərdə Azərbaycanda 4500 məktəb tikilmişdir, bu, misli görünməmiş bir nəticədir. Bu il də 200-dən çox məktəb, əlavə korpuslar tikiləcək və təmir olunacaqdır. Beləliklə, təhsillə – ibtidai və orta təhsillə bağlı olan məsələləri, bu sahədə maddi-texniki bazanın yaradılması məsələlərini biz yaxın 2-3 ildə həll edəcəyik.

***4 mart 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ ƏTRAF ƏRAZİLƏRDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı və xanımı əvvəlcə milli memarlığımızın nadir nümunələrindən olan İçərişəhərə gələrək, burada aparılan əsaslı bərpa və yenidənqurma işlərinin gedişi ilə maraqlandılar. Tarixi erkən orta əsrlərdən başlayan İçərişəhər yeganə qoruq şəhər-muzeydir və 21,5 hektar ərazini əhatə edir. Burada Şərq memarlığı üslubunda tikilmiş 50-yə qədər tarixi, mədəniyyət və dini abidələr qorunur. İçərişəhərin qədim abidələrinin dəyəri nəzərə alınaraq, 1977-ci ildə bura qoruq elan edilmiş, 2000-ci ildə YUNESKO tərəfindən "Dövlət tarix-memarlıq qoruğu" kimi qeydə alınmışdır.

2001-ci il fevralın 2-də ümummilli lider Heydər Əliyevin tapşırığı ilə respublika hökuməti İçərişəhərin "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri" siyahısına daxil edilməsi barədə qərar qəbul etmişdir.

Bərpa və təmir işlərinin gedişi ilə yaxından tanış olan Prezident İlham Əliyev yerindəcə müvafiq tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı və xanımı XX əsr satirik Azərbaycan ədəbiyyatının banisi M.Ə.Sabirin adını daşıyan bağa gəldilər. Paytaxt sakinlərinin istirahət yerlərindən olan Sabir bağında da Prezident İlham Əliyevin tapşırığı ilə geniş abadlıq və quruculuq işlərinə başlanılmışdır. Prezident İlham Əliyevə burada işlərin gedişi barədə məlumat verildi. Azərbaycan Prezidenti və xanımı dahi şair və mütəfəkkir Nizami Gəncəvinin abidəsinin ucaldığı bağa gələrək, burada dövlət başçısının göstərişi ilə aparılan əsaslı yenidənqurma işləri ilə tanış oldular. Prezident İlham Əliyev işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılması ilə əlaqədar tövsiyələrini verdi. Nizami və Sabir bağlarında görülən işləri də Bakı şəhərində həyata keçirilən geniş abadlıq və yenidənqurma tədbirlərinin davamı olaraq, paytaxtımızı daha da gözəlləşdirəcəkdir.

Daha sonra yenidən İçərişəhərə qayıdan Prezident və xanımı burada digər tarix-memarlıq abidələrində görülən bərpa və təmir işləri ilə maraqlandılar. İçərişəhərin planı ilə tanış olan dövlətimizin başçısı iş prosesində tarixi tikililərin memarlıq üslubuna xələl gətirilməməsini bir daha tapşırdı.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva orta

əsr Azərbaycan memarlığının nadir nümunələrindən olan Qız qalasına baxdılar. Qalanın hündürlüyü bütövlükdə 29,7 metr, diametri 16-16,5 metr, divarının qalınlığı aşağıda 5 metr, yuxarı yaruslarda isə 4 metrdir. Son dəfə qalada bərpa işləri 1960-cı ildə görülmüşdür. Burada arxeoloji qazıntılar da aparılmışdır. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qalada saxlanılan eksponatlarla tanış oldular, sonra qalaya çıxaraq, oradan şəhərin mənzərəsini seyr etdilər.

Sonra dövlətimizin başçısı və xanımı Bakının dünənini və bu gününü əks etdirən videosüjetə baxdılar, İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri ilə tanış oldular.

***11 mart 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SABİR BAĞINDA VƏ NİZAMİ MEYDANINDA GÖRÜLMÜŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı əvvəlcə Sabir bağına gəldi. Paytaxtın bu istirahət guşəsində görülmüş işlər buranın görkəmini tamamilə dəyişmişdir. Bağda yeni yaşıllıq zonası salınmışdır, müasir işıqlandırma sistemi quraşdırılmış, üzlük daşlar, mərmər döşənmişdir. Yaşıllıq zonasında Novruzun rəmzi olan səmənilərin əkilməsi isə xoş bayram ovqatı yaradır.

Prezident İlham Əliyev bağı seyr edərək dedi ki, burada işlər ən yüksək səviyyədə və zövqlə görülmüşdür. Həm bu bağ, həm də ətrafdakı binalar şəhərimizi daha da gözəlləşdirir. Beləliklə Bakının tarixi yerləri sanki yenidən canlanır. Bu bağ, bəlkə də, yaranandan bu qədər gözəl olmamışdır. Mən buraya gəlmişdim, bağ həm gündüz, həm də axşam çox gözəldir. Bakı sakinlərinin istirahəti üçün gözəl yer yaradılıbdır.

Sonra dövlətimizin başçısı Nizami meydanına gəldi, görülmüş işlərin nəticəsi ilə maraqlandı. Burada da qısa müddətdə bərpa və yenidənqurma işləri aparılmış, yaşıllıq zolağı, işıqlandırma sistemi tamamilə yeniləşdirilmişdir.

Prezident İlham Əliyev mərtəbəli fəvvarələr kompleksinə baxdı, görülmüş işlərdən razılığını bildirdi. Nizami adına Ədəbiyyat Muzeyi ilə gözəl vəhdət təşkil edən meydanda istirahət üçün lazımi şərait yaradılmışdır.

Daha sonra dövlətimizin başçısı "Azərbaycan" kinoteatrının qarşısına, Natəvanın abidəsinin ucaldığı əraziyə gələrək, burada gedən təmir-bərpa işləri ilə maraqlandı. Prezident İlham Əliyev ətraf binaların da müasir görkəm alması üçün müvafiq tapşırıqlarını verdi.

***18 mart 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR FRANSA MÜĞƏNNİSİ PATRİSİYA KAASIN KONSERTİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdə olmuşlar.

Konsertdən əvvəl Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı "Cartier İnternational" şirkətinin prezidenti Bernard Fornas və dünyanın məhşur kino ulduzu Monika Beluççi ilə görüşdülər.

Filarmoniyanın salonuna toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Konsert proqramından əvvəl çıxış edən "Cartier İnternational" şirkətinin prezidenti Bernard Fornas Azərbaycan Prezidenti İlham Əliyevə və ölkəmizin birinci xanımı Mehriban Əliyevaya konsertə gəldiklərinə görə təşəkkür etdi. O vurğuladı ki, zəngin tarixə, mədəniyyətə və qədim adət-ənənələrə malik Azərbaycan müasir, sürətlə inkişaf edən ölkədir. Beynəlxalq şirkətlər, o cümlədən təmsil etdiyi qurum dünyada nüfuzlu söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verir.

Sonra səhnə Fransanın canlı əfsanəsi adlandırılan Patrisiya Kaasın ixtiyarına verildi. İfasında blüz və caz elementlərini birləşdirən fransa şansonunun kraliçası Patrisiya Kaas Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində fortepianonun müşayiətilə canlı olaraq ən populyar mahnılarını ifa etdi.

Təkrarolunmaz ifası, tamaşaçılarla səmimi ünsiyyəti ilə fərqlənən Patrisiya Kaasın çıxışı ilk dəqiqələrdən alqışlarla qarşılandı.

Müvəffəqiyyətlə keçən konsertin sonunda Patrisiya Kaas Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya dərin minnətdarlığını bildirdi.

***19 mart 2008-ci il***

# BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏNLİKDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva Novruz şənliklərində iştirak etmək üçün Gənclər meydanına gəldilər. Meydana toplaşmış minlərlə şəhər sakini dövlətimizin başçısını, onun xanımını hərarətlə, sürəkli alqışlarla qarşıladı.

Xalqımız qədim el bayramı olan Novruzu doğma Azərbaycanımızın hər yerində böyük sevinc və yüksək əhval-ruhiyyə ilə qeyd edir. Azərbaycan Prezidentinin Novruz bayramı münasibətilə xalqımıza təbrikində deyildiyi kimi, ölkəmizin sərhədlərindən uzaqlarda yaşayan soydaşlarımız da Novruz bayramını bizimlə birlikdə böyük sevinclə qarşılayırlar. Dünya azərbaycanlılarının milli həmrəyliyinin rəmzinə çevrilən bu bayram hər gəlişi ilə onların azərbaycançılıq məfkurəsi işığında doğma Vətənə bağlılıq duyğularını daha da gücləndirir.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar. Atlılar dəstəsinin müşayiəti və milli musiqi sədaları altında meydana tonqal gətirildi. Dövlətimizin başçısı Novruz tonqalını alovlandırdı. Bahar qız el adətincə, Prezidentə və xanımına səməni və bayram xonçası təqdim etdi.

Şənliyin aparıcıları bahar bayramının millətimizə ruzi-bərəkət gətirməsini arzulayaraq, əsrlərin sınağından çıxmış, gözəl adət-ənənələri ilə bu gün də uca tutulan bu el bayramının ulu öndər Heydər Əliyev tərəfindən layiqincə qorunub yaşadılmasını, onun hazırda respublikamızın hər bir guşəsində böyük ruh yüksəkliyi ilə rəsmi səviyyədə geniş qeyd olunmasını xatırlatdılar.

Meydanda qəhrəmanlıqla dolu keçmişimizin mənzərəsini canlandıran səhnələr göstərilir, şən, oynaq musiqi sədaları ətrafı bürüyürdü. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılır, bayram mərasiminin iştirakçılarında daha xoş ovqat doğururdu.

Prezident İlham Əliyev şənliyə toplaşmış paytaxt sakinləri ilə səmimiyyətlə salamlaşdı, onları Novruz bayramı münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

*20 mart 2008-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT FİLARMONİYASININ YERLƏŞDİYİ BAĞDA VƏ DƏNİZKƏNARI MİLLİ PARKDA HƏYATA KEÇİRİLƏN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə filarmoniyanın yerləşdiyi bağa gəldilər. Bakının ilk yaşıllıq zolaqlarından olan bu bağın əsası 1830-cu ildə qoyulmuş, 1859-cu ildə onun ərazisi genişləndirilmişdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, burada bərpa və yenidənqurma işləri ilə yanaşı, arxeoloji qazıntılar da aparılır. Ərazidə İçərişəhərin ikinci qala divarı və qala qapısı da aşkar olunmuşdur. Mütəxəssislərin fikrincə, bu dəniz sularının altında qalan Səbayel qalasının İçərişəhərlə bağlı olması ehtimalını da istisna etmir. Dövlətimizin başçısına burada qədim su quyularının aşkar olunması barədə də məlumat verildi, onların bərpa edilərək, bulaq kompleksi kimi əhalinin istifadəsinə veriləcəyi bildirildi.

Prezident İlham Əliyev və Mehriban xanım İçərişəhərin keçmişini əks etdirən fotoşəkillə, qazıntılar zamanı tapılmış mədəniyyət nümunələri ilə də tanış oldular. Prezident bərpa və yenidənqurma işlərinin keyfiyyətlə görülməsini, maddi-mədəniyyət abidələrini diqqətlə bərpa etməyi tapşırdı.

Sonra dövlət başçısı və xanımı dənizkənarı Milli Parka gəldilər. Prezident İlham Əliyevin Sərəncamı ilə burada geniş abadlıq və yenidənqurma işlərinə başlanmışdır.

Dənizkənarı bulvar kimi tanınan parkın əsası 1909-cu ildə qoyulmuş, sonralar hər iki istiqamətdə genişləndirilmişdir. 1970-ci illərdə, Bakı şəhərində yaşıllaşdırma və abadlaşdırma tədbirləri geniş vüsət alanda dənizkənarı bulvarda da xeyli işlər görülmüşdür. 1998-ci il dekabrın 29-da Prezident Heydər Əliyevin sərəncamı ilə bulvara Milli Park statusu verilmişdir. Hazırda parkın uzunluğu üç kilometr, sahəsi 70 hektardır.

Prezident İlham Əliyevə məlumat verildi ki, parkda yeni çəmənliklər salınacaq, müxtəlif çeşidli gül kolları əkiləcək, ən müasir standartlara cavab verən yeni attraksionlar quraşdırılacaqdır. Dövlətimizin başçısı parkda abadlaşdırma və yenidənqurma işlərinin yüksək keyfiyyətlə görülməsi ilə bağlı tapşırıqlarını verdi.

Dövlətimizin başçısının rəhbərliyi ilə ölkənin paytaxtında həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri nəticəsində simasını günbəgün dəyişən Bakı nəinki regionun, ümumən dünyanın ən gözəl və abad şəhərlərindən birinə çevrilməkdədir. Bunu Azərbaycan paytaxtına gələn çoxsaylı xarici qonaqlar da etiraf edirlər.

***30 mart 2008-ci il***

# HEYDƏR ƏLİYEV PARKI BƏRPA EDİLMİŞ HORADİZİN YARAŞIQLI GUŞƏSİDİR

Azərbaycan Prezidenti İlham Əliyev Horadiz şəhərindəki Heydər Əliyev parkı ilə tanış olmuşdur.

Dövlətimizin başçısına 3 hektar sahəsi olan parkda görülmüş yenidənqurma işləri barədə məlumat verildi. Erməni işğalından azad olunduqdan sonra bərpa edilmiş Horadiz şəhərinin yaraşıqlı guşəsi olan park yaşıllığı ilə diqqəti cəlb edir. Burada quraşdırılmış fəvvarə parkın görkəmini daha da gözəlləşdirir.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış abidəsini ziyarət edərək, gül dəstəsi qoydu.

Dövlətimizin başçısına rayonda sosial-iqtisadi inkişafla bağlı görülən işlər barədə də məlumat verildi.

***18 aprel 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FÜZULİ, BEYLƏQAN VƏ BİLƏSUVAR RAYONLARINA SƏFƏRİ HORADİZ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

Əvvəlcə Horadiz şəhərinə gələn dövlətimizin başçısı burada Heydər Əliyev muzeyində oldu.

Burada rayon ictimaiyyətinin nümayəndələri Prezidenti səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi, eksponatlarla tanış oldu. Muzeydə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə, hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə Füzuli rayonuna səfərlərinə dair fotoşəkillər, dahi şəxsiyyətə həsr olunmuş kitablar toplanmışdır.

Dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə söhbət etdi.

HORADİZ SAKİNİ: Bizim sevincimizin həddi-hüdudu yoxdur. Çünki ulu öndərimizin layiqli davamçısı rayonumuza gəlmişdir. Arzu edirəm ki, bu gəlişiniz uğurlu və bərəkətli olsun. Dünənki yağış, bugünkü günəş bütün bu uğurdan xəbər verir. Hazırda yaşadığımız bu ərazi 1994-cü ildə ulu öndərimizin səyi nəticəsində düşmən tapdağından azad olunmuşdur. Biz çox sevinirik ki, Siz bu yerləri abadlaşdırır, inkişaf etdirir və gülüstana döndərirsiniz. Sizin Sərəncamınızla yeni qəsəbələr salındı, çadır şəhərcikləri ləğv olundu və biz abad qəsəbələrə köçdük. Rahat, geniş, işıqlı otaqlarda yaşamaq, yurdumuzun gözəl, təmiz havasını udmaq, suyunu içmək hamımızın arzusu idi. İnanırıq ki, bizim ən böyük arzumuz da gerçəkləşəcək, yəni işğal altında olan bütün torpaqlarımız Sizin hərtərəfli, məqsədyönlü fəaliyyətiniz nəticəsində düşmən tapdağından azad olunacaqdır.

Mən hamımızın əzizi, bütün xalqımızın dərin məhəbbətini və hörmətini qazanmış Mehriban xanımın da hərtərəfli fəaliyyətini qeyd etmək istəyirəm. Biz onunla, Sizinlə fəxr edirik ki, xalqımızı həqiqətən işıqlı gələcəyə aparırsınız. Qarşıdan prezident seçkiləri gəlir. Mən rayonumuzun bütün ziyalıları adından əminliklə və qətiyyətlə bildirirəm ki, füzulililər artıq öz seçimini ediblər. Siz bizim daimi və əbədi Prezidentimizsiniz. Füzulililər Sizə

inanırlar, Sizinlədirlər və Sizi həmişə dəstəkləyirlər. Siz bu sevgini, bu məhəbbəti öz səmimiyyətinizlə, işgüzarlığınızla və daim xalqın içində olmağınızla qazanmısınız. Ulu Tanrı köməyiniz olsun.

İLHAM ƏLİYEV: Sağ olun, təşəkkür edirəm sizə. Mən gəlmişəm ki, sizinlə görüşüm, sizə öz hörmət və məhəbbətimi ifadə edim, sizi dəstəkləyim. Siz ağır vəziyyətdə yaşamış insanlarsınız. Qeyd etdiyiniz kimi, bu ərazi işğal altında idi. Ermənilər bu bölgəni də işğal etmişdilər. Ondan sonra bizim ordumuz Horadiz qəsəbəsini işğalçılardan azad etdi. Bu qəsəbəyə olunan yardımlar bundan sonra da davam etdiriləcəkdir. Horadizə şəhər statusu verilibdir. Horadizin inkişafı üçün, bütövlükdə işğaldan azad olunmuş ərazilərin inkişafı üçün vəsait ayrılmışdır və yenə də ayrılacaqdır. Bütün çadır şəhərcikləri ləğv edilib və onların əvəzində yeni gözəl qəsəbələr tikilibdir. Bu onu göstərir ki, bizim imkanlarımız var. Bütün ərazilər işğaldan azad olunandan sonra biz həmin yerləri cənnətə çevirəcəyik. Biz bütün dağıdılmış rayonları bərpa edəcəyik, yüksək səviyyədə evlər, məktəblər, xəstəxanalar tikiləcəkdir. Yeni istifadəyə verilmiş qəsəbələrin timsalında görürük ki, nəyi biz edəcəyik. Mən çox şadam ki, burada işlər çox yaxşı gedir, abadlıq, inkişaf var. Daha da sürətlə getməlidir və Füzuli rayonunun inkişafına xüsusi diqqət göstərilməlidir. Siz düşmənlə üz-üzə yaşayırsınız. Sizin kəndlərinizin bir hissəsi təmas xəttinə lap yaxınlıqda yerləşir. Yəni burada yaşamaq böyük cəsarət tələb edir, böyük fədakarlıq, vətənpərvərlik tələb edir. Bütün bu təhlükələrə baxmayaraq siz burada öz doğma torpaqlarınızda yaşayır, yaradır, bu yerləri abadlaşdırır, uşaqları böyüdürsünüz, Azərbaycanı inkişaf etdirirsiniz. Ona görə siz böyük hörmətə layiq olan insanlarsınız. Bütün Azərbaycan ictimaiyyəti bunu bilməlidir və bilir.

Mən buraya çoxdan gəlmək istəyirdim, ancaq eyni zamanda, istəyirdim ki, buraya gələndə yaxşı, xoş tədbirlərdə iştirak edək. Bu gün belə tədbirlər baş verəcək – qəsəbələrin açılışıdır, sosial obyektlərin təməlqoymasıdır. Həm Tibb mərkəzinin, həm də elektrik stansiyasının təməlinin qoyulması bu bölgənin abadlaşmasına böyük dəstək olacaqdır. Sizə cansağlığı, uğurlar arzulayıram. Bilin ki, mən bundan sonra da rayonun inkişafına öz köməyimi göstərəcəyəm.

***18 aprel 2008-ci il***

# AZƏRBAYCANDA MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Moldova mədəniyyəti günlərinin təntənəli açılış mərasimi olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi, onun xanımı Mehriban Əliyevanı və Moldova Prezidenti Vladimir Voronini gurultulu alqışlarla qarşıladılar.

Moldovanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Aparıcılar dövlət başçılarını və mərasim iştirakçılarını salamlayaraq vurğuladılar ki, Moldova və Azərbaycan xalqları arasında əlaqələrin çoxəsrlik tarixi var. Bu əlaqələr heç vaxt qırılmamış, iki ölkə xalqlarının mədəniyyətləri daim təmasda olmuş, bir-birinə qarşılıqlı təsir göstərmiş və qarşılıqlı surətdə zənginləşmişdir. Moldova incəsənət ustalarının bir çoxunun yaradıcılığı azərbaycanlılara yaxşı tanışdır. Eyni zamanda, Azərbaycanın bir çox musiqiçi, yazıçı və şairlərinin yaradıcılığı moldovalılar üçün əziz, onlara yaxındır.

Sonra Moldova incəsənət ustalarının qala-konserti oldu. Tamaşaçılar SSRİ və Moldova Respublikasının xalq artisti Vladimir Kurbetin rəhbərliyi ilə "Jok" Dövlət milli akademik xalq rəqs ansamblının, "Catharsis" duetinin, "Concertino" akkordeonçular ansamblının, Advaxov qardaşlarının rəhbərlik etdiyi orkestrin, Moldovanın tanınmış musiqiçi və müğənnilərindən Viktoriya Lunqu, Konstantin Moskoviç, Natalya Qordiyenko, Mixail Muntyanu və Marin Gerasın çıxışlarını böyük maraqla qarşıladılar.

***23 aprel 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ADINI DAŞIYAN PARKDA GÖRÜLMÜŞ ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı əvvəlcə görkəmli alimin büstünü ziyarət etdi. İndi büstün özü də yeni görkəm almış, onun ətrafında müasir fəvvarələr quraşdırılmışdır.

Prezident İlham Əliyevə 10 hektardan artıq ərazini əhatə edən parkda görülmüş işlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, parka gedən yola yeni asfalt döşənmişdir. Ərazidə 5 mindən çox zeytun ağacı, daş palıd və qarağac, bəzək kolları əkilmiş, oturacaqlar yeniləri ilə əvəz edilmiş, sakinlərin istirahəti üçün gözəl şərait yaradılmışdır. İtaliyalı mütəxəssislərin quraşdırdığı işıqlandırma sistemi isə ən müasir standartlara cavab verir.

Dövlətimizin başçısı parkda ağac əkdi. Ümummilli lider Heydər Əliyev də 2000-ci ildə burada ağac əkmişdi.

Prezident İlham Əliyev parkda görülmüş işlərdən razı qaldı.

***25 aprel 2008-ci il***

# PARK KOMPLEKSİ ZİRƏYƏ XÜSUSİ YARAŞIQ VERİR

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə salamladılar.

Heydər Əliyev Fondunun dəstəyi ilə tamamilə yenidən qurulmuş kompleksdə mədəniyyət və şadlıq evləri, idman və uşaq meydançası tikilmiş, sakinlərin istirahəti üçün hər cür şərait yaradılmış, ərazi yaşıllaşdırılmış, dekorativ ağaclar və gül kolları əkilmişdir.

Kompleksin mərkəzində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur.

Prezident İlham Əliyev büstün üzərindəki ağ örtüyü götürdü.

Dövlətimizin başçısı və xanımı büstün önünə gül dəstələri düzdülər.

Sonra onlar qəsəbə sakinləri ilə səmimi söhbət etdilər.

HACI ƏLİSAHİB (qəsəbə sakini): – Möhtərəm Prezident, qəsəbəmizə gəldiyinizə görə, hamının adından, öz adımızdan Sizə dərin təşəkkürümüzü bildiririk. Sizin bura gəlməyiniz bizim üçün çox şərəfdir. Buraya gəlməyinizlə bizi həm həddən artıq sevindirir, həm də boynumuza böyük haqq, məsuliyyət qoyursunuz. Mənim 70 yaşım var, ikinci dəfədir, Prezidenti görürəm. Bu, bizim sadə Zirə camatına yox, bütün sadə Azərbaycan xalqına verilən ən böyük qiymətdir. Ona görə bilmirik Sizə necə minnətdarlıq edək.

İcazə verin, qəsəbəmiz haqqında Sizə bir az məlumat verim. Camaatın əksəriyyəti neft sahəsində işləyir. Bir hissəsi də vaxtilə sovxozda işləyirdi. Möhtərəm Prezident, keçid dövrü ilə əlaqədar bizdə də müəyyən çətinliklər yarandı. Elektrik enerjisinin çatışmaması, iş yerlərinin azalması, bir də rayon mərkəzindən, şəhərdən uzaq olmağımız, imkanlı adamların çıxıb getməsi elə bil əhalidə düşkünlük yaratmışdı. Mərhum Prezidentimiz, ulu öndərimiz respublikanın o çətin vaxtında xalqa pənah əlini uzatdı, onun dadına çatdı. Sonra da Mehriban xanım bizim dadımıza çatdı. Biz başa düşürük, Bakının istənilən rayonundan namizədliyini versəydi, ona 100 faiz səs verərdilər. Amma bizi qəbul etdi. Həm rayonumuz uzaqdır, həm də ən inkişafdan qalan Türkan, Zirə kimi qəsəbələri vardı. Bu, bizə qarşı çox böyük hörmətdir. İndi baxın nəticəsi budur, möhtərəm Prezident. Görürsünüz, qəsəbə nə qədər təmir olunur. Hələ bu, görünən tərəflərdir, möhtərəm Prezident. Görünməyən tərəfləri də deyim Sizə. Qəsəbəmizin asfaltlanmayan tək-tək küçələri qalıbdır. Gözəl əsas küçələr işıqlandırılıbdır. Bunlar hamısı Mehriban xanımın zəhmətidir. Əlbəttə, Sizin rəhbərliyiniz altında. Bilmi-

rik Mehriban xanıma, Sizə necə minnətdarlıq edək, çox sağ olun. Amma əsas sağolumuzu, qismət olsa, seçkidə deyəcəyik. Mən inanıram ki, səsvermədə təkcə qəsəbəmiz yox, bütün rayonumuz lider olacaqdır. Bir daha Sizə minnətdarlığımızı bildiririk, möhtərəm Prezident.

İLHAM ƏLİYEV: Təşəkkür edirəm. Mən də çox şadam ki, Zirə qəsəbəsi öz simasını çox böyük dərəcədə dəyişibdir. Burada siz bizim xidmətlərimizdən danışdınız. Bu, bizim borcumuzdur. Mənim Prezident kimi, Mehribanın isə sizin deputatınız kimi. Borcumuzdur ki, öz seçicilərimizə həmişə diqqətli olaq, Azərbaycanda gedən və rayonda gedən işlərə daha da böyük təkan verək. Təşəbbüs göstərək ki, insanların həyat səviyyəsi yaxşılaşsın, sosial sahədə işlər yaxşı getsin, bütövlükdə quruculuq-abadlıq işləri aparılsın. Zirənin timsalında biz bütün bunları görürük. Görürük ki, sosial məsələlər həll olunur. Mən indicə gözəl xəstəxananın açılışında iştirak etdim. Hansı ki, siz bilirsiniz, uzun illər, onilliklər yarımçıq qalmış bina idi və ümumiyyətlə, onun gələcəyi qeyri-müəyyən idi. Amma indi ən müasir səviyyədə təmir edilib, demək olar ki, yenidən tikilib və orada ən müasir tibb avadanlığı var. Doğum şöbəsi də var və bu da hər bir yer üçün, xüsusilə, şəhərdən bir az aralıda yerləşən qəsəbələr, kəndlər üçün çox vacibdir. Burada stadion, mədəniyyət evi də var.

Bu gün mən həm Bakıda, həm də burada veteranlarla görüşdüm. Burada xatirə kompleksinin açılışını etdik. Yəni bütün bunlar yenilik, quruculuq, inkişaf deməkdir. Azərbaycanın artan imkanları bizə əlavə şərait yaradır ki, biz bunu daha da tez bir zamanda edək. Əlbəttə, maddi imkanlar vacib rol oynayır. Amma əgər insanların ürəyi yanmasa, əgər təşəbbüs göstərilməsə, maddi imkan nə qədər olsa da, nəticəsi olmayacaq. Zirədə, ətraf qəsəbələrdə gedən böyük işləri mən yüksək qiymətləndirirəm. Bu, belə də olmalıdır. Bütün xalq tərəfindən seçilmiş nümayəndələr xalqa xidmət etməlidir. İstər Prezident olsun, istərsə də parlament üzvü, bələdiyyə sədri. Bütün xalq tərəfindən seçilmiş insanlar və Prezident tərəfindən təyin olunmuş insanlar böyük məsuliyyətlə və xalq üçün işləməlidirlər. Mənim baxışlarım bunlardır, mənim siyasi əqidəm budur. Mən bu vəzifəyə xalqa xidmət etmək üçün gəlmişəm və hər dəfə yenilik, müasirlik görəndə ürəyim sevinir. Azərbaycanın bütün yerləri bax, belə olmalıdır. Nəzərə alsaq ki, üç il bundan əvvəl burada vəziyyət tam başqa idi, – siz bunu məndən yaxşı bilirsiniz, – bu müddət ərzində görülən işləri mən çox yüksək qiymətləndirirəm. Bunda Zirə sakinlərinin böyük əməyi olubdur, bütün bu təşəbbüslərdə onlar fəal iştirak etmişlər. Onlar tərəfindən qaldırılan məsələlər öz həllini tapmışdır. Çünki siz hamıdan yaxşı bilirsiniz ki, problemləriniz nədir. Həm yerli sakinlərin, həm

mərkəzi orqanların, sizin tərəfinizdən seçilmiş insanların birgə fəaliyyəti bütün bu gözəlliyi yaratmışdır. Mən çox sevinirəm ki, Zirənin yeni görkəmi dünyanın ən qabaqcıl şəhərlərinin səviyyəsindədir. Siz də buna layiqsiniz və gələcəkdə daha da böyük işlər görüləcəkdir.

◆◆◆

Sonra dövlətimizin başçısı və xanımı mədəniyyət evi ilə tanış oldular. Burada 120 yerlik salon, kitabxana, dərnək otaqları, kompyuter otağı var.

Mədəniyyət evində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın fəaliyyətinə həsr olunmuş guşə də var.

Prezident İlham Əliyev və Mehriban xanım mədəniyyət evinin eyvanından parkın ərazisini seyr etdilər, sonra uşaq meydançasında qəsəbənin balaca sakinləri ilə səmimi söhbət etdilər, şəkil çəkdirdilər.

Dövlətimizin başçısı və xanımı daha sonra kompleksin ərazisindəki 400 nəfərlik şadlıq sarayı ilə də tanış oldular.

Abadlıq və quruculuq işlərinin aparıldığı qəsəbədə zövqlə tikilmiş binalarda bütün lazımi xidmətlər və idarələr fəaliyyət göstərir ki, bu da sakinlər üçün böyük rahatlıq yaradır.

***9 may 2008-ci il***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN XATİRƏ LÖVHƏLƏRİNİN AÇILIŞI OLMUŞDUR

Bakının Zərifə Əliyeva küçəsində, xalqımızın ümummilli lideri Heydər Əliyevin və ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın vaxtilə yaşadıqları 22 nömrəli binada xatirə lövhələrinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı, ailə üzvləri mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısı xatirə lövhələrinin üzərindən ağ örtüyü götürdü, önünə gül dəstələri qoydu.

Xatirə lövhələrində "Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətçiliyinin banisi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev 1962-1982-ci illərdə bu evdə yaşamışdır" və "Azərbaycanın görkəmli ictimai xadimi, akademik Zərifə Əziz qızı Əliyeva 1962-1982-ci illərdə bu evdə yaşamışdır" sözləri yazılmışdır.

Prezident İlham Əliyev xatirə lövhələrinin müəllifi xalq rəssamı, akademik Ömər Eldarova təşəkkürünü bildirdi.

***10 may 2008-ci il***

## BAKIDA LƏTİF KƏRİMOV ADINA AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİ BİNASININ TƏMƏLİ QOYULMUŞDUR

Dənizkənarı Milli parkın ərazisində Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi binasının təməlqoyma mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə inşa olunacaq bina bükülmüş xalçanı xatırladacaqdır. Binanın layihəsini müsabiqədə qalib gəlmiş Avstriyanın HOFFMANN-JANZ-MATZAKA şirkəti hazırlamışdır. Tikinti işlərini isə yerli AİKON şirkəti həyata keçirəcəkdir.

Ümumi sahəsi 18 min 446 kvadratmetr olacaq üçmərtəbəli binanın birinci mərtəbəsində sərgi salonu, kitabxana, elmi xalçaçılıq toxuma və tikmə mərkəzi, suvenir və kitab köşkü, ikinci mərtəbədə danışıqlar və audiovizual təqdimatlar otağı, üçüncü mərtəbədə böyük tərtibat imkanlarına malik sərgi zonası olacaqdır. Binanın altında arxiv, anbar, laboratoriya, bərpa və konservləşdirmə şöbələri yerləşəcəkdir. Açıq havada heykəllərin və xalçaların nümayişi üçün sahə də nəzərdə tutulmuşdur. Muzeyin foyesində cəvahirat və bahalı bəzək əşyalarının sərgisi üçün seyf tipli otaqlar olacaqdır.

Layihəyə əsasən, binanın uzunluğu 121,25 metr, eni 22,3 metr, hündürlüyü 18,5 metrdir.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, YUNESKO-nun baş direktoru Koişiro Matsuuranı, YUNESKO-nun xoşməramlı səfirləri – İordaniya şahzadəsi xanım Ferialı və İslandiyanın sabiq prezidenti xanım Viqdos Finnboqadottiri hərarətlə qarşıladılar.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Avstriya şirkətinin nümayəndəsi Prezident İlham Əliyevə layihə haqqında məlumat verdilər.

Sonra Azərbaycanın qədim el sənətindən bəhs edən "Xalça" filmi nümayiş etdirildi. Filmdə ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycanın xalq sənətlərinin, o cümlədən xalçaçılığın qorunmasına və inkişafına qayğısından da bəhs olunur.

Prezident İlham Əliyev və YUNESKO-nun baş direktoru Koişiro Matsuura təməlqoyma mərasimində nitq söylədilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu gün ölkəmizin mədəni həyatında çox əlamətdar bir gündür. Bu gün biz Bakıda yeni Xalça Muzeyinin tikintisinə başlayırıq və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Xalçaçılıq sənəti Azərbaycan mədəniyyətinin bir hissəsidir. Qədim dövrlərdən xalçaçılıq sənəti Azərbaycanda yaşayır və inkişaf edir. Azərbaycanda birinci xalçalar eramızdan əvvəl toxunmuşdur. Azərbaycan xalçası öz gözəlliyi, keyfiyyəti ilə həmişə seçilmişdir. Eyni zamanda, Azərbaycan xalçası xalqımızın istedadını göstərir. Xalçaçılıq xalq sənətidir. Ancaq, eyni zamanda, Azərbaycanın görkəmli xalçaçılıq ustaları Azərbaycan xalça sənətinin zənginləşməsinə öz böyük töhfələrini vermişlər. Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır və nümayiş etdirilir.

Bir sözlə, onu deyə bilərəm ki, xalçaçılıq sənəti hər bir azərbaycanlı üçün çox doğma, əziz sənətdir və hər bir azərbaycanlı öz həyatını xalçasız təsəvvür edə bilmir. Amma bütün bunlara baxmayaraq, əfsuslar olsun ki, Azərbaycanda Xalça Muzeyi uyğunlaşdırılmış binada yerləşirdi və əlbəttə ki, Azərbaycanda, Bakıda gözəl xalça muzeyinin tikintisi böyük zərurət idi. Mən çox şadam ki, bu gün biz bu böyük işə başlayırıq. Azərbaycanın Xalça Muzeyi indi Muzey Mərkəzində yerləşir, orada üç-dörd muzey yerləşir. Mən o muzeylə tanış olanda gördüm ki, vəziyyət o qədər də ürəkaçan deyil, mütləq və mütləq Azərbaycanda yeni böyük və gözəl xalça muzeyi tikilməlidir.

Bu gün mən muzeyin layihəsinin yaranmasında böyük rol oynamış Avstriya memarlarını xüsusi salamlayıram. Onların təklifi bütün başqa təkliflərdən üstün olmuş və açıq müsabiqə keçirilmişdir. Hesab edirəm ki, bu layihə öz gözəlliyi, müasirliyi ilə və eyni zamanda, Azərbaycan xalçasına xas olan gözəlliyi ilə seçilir. Ümid edirəm ki, qısa müddət ərzində Bakıda gözəl Xalça Muzeyi tikiləcəkdir. Xalça muzeyini Azərbaycan mütəxəssisləri və fəhlələri tikəcəklər. Onlar bizimlə bərabər buradadırlar və bu işlərdə onlara da böyük uğurlar arzulayıram.

Bu gün mən Azərbaycana gəlmiş YUNESKO-nun baş direktoru cənab

Matsuuranı xüsusi salamlayır və Azərbaycan xalqının hörmətini ona bildirmək istəyirəm. YUNESKO ilə Azərbaycan arasında münasibətlər çox sürətlə və uğurla inkişaf edir. Bu münasibətlər bizə imkan yaradır ki, mədəniyyətlə bağlı olan məsələləri daha da böyük fəallıqla həll edək və bu sahəni ən yüksək səviyyəyə qaldıraq.

Biz Azərbaycanda mədəni irsimizin qorunmasına, tarixi abidələrin qorunmasına çox böyük əhəmiyyət veririk. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda yaşayan bütün xalqların tarixi abidələri lazımi səviyyədə qorunur və bərpa olunur. Əfsuslar olsun ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində xalqımıza məxsus olan bütün tarixi abidələr dağıdılmışdır. Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti, eyni zamanda, bizim tarixi abidələrimizə də böyük ziyan vurmuşdur. Biz isə Azərbaycanda, ölkəmizdə yaşayan bütün xalqların tarixinə, keçmişinə böyük hörmətlə yanaşırıq və öz əməli işlərimizdə bu məsələlərlə məşğuluq.

Bu gün cənab Matsuura ilə biz vaxtilə birlikdə təməlini qoyduğumuz Muğam Mərkəzinə də baş çəkdik və inşaat işləri ilə maraqlandıq. Cənab Matsuuranın Azərbaycana hər bir gəlişi yeni gözəl layihələrin başlanması ilə nəticələnir. Ümid edirəm ki, növbəti səfər zamanı da biz yeni bir gözəl layihənin başlamasına da şahidi olacağıq.

Bir sözlə, mən, xüsusilə cənab Matsuuranın fəaliyyətini vurğulamaq istəyirəm. Onun Azərbaycana, Azərbaycan mədəniyyətinə olan hörməti və xoş münasibəti hər bir Azərbaycan vətəndaşı üçün çox əzizdir. YUNESKO-nun xətti ilə bu günlərdə Azərbaycanda keçirilən konfransda iştirak etmək üçün gəlmiş bütün əziz qonaqları səmimiyyətlə salamlayıram.

Bu layihənin timsalında bugünkü Azərbaycanı görmək olar. Öz tarixi keçmişimizə, mədəniyyətimizə olan hörmət və eyni zamanda, irəliyə aparan yollar yenilik və ölkəmizin müasirləşməsidir.

Əziz qonaqlar, əziz dostlar bu gözəl hadisə münasibətilə mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram.

Sağ olun.

***15 may 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Muğam Mərkəzi ilə tanışlıqda Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, habelə ölkəmizdə səfərdə olan YUNESKO-nun baş direktoru Koişiro Matsuura, təşkilatın xoşməramlı səfirləri – İordaniya şahzadəsi xanım Ferial, İslandiyanın sabiq prezidenti xanım Viqdos Finnboqadottir də iştirak edirdilər.

Mədəniyyət naziri Əbülfəs Qarayev tikinti işlərinin gedişi barədə ətraflı məlumat verdi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli-mədəni dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan mərkəz Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə tikilir.

2005-ci ilin avqustunda Prezident İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın, YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarət olacaqdır. Bina forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur.

Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası olacaqdır. Bina müasir havalandırma və istilik sistemləri ilə təchiz ediləcəkdir.

Tarın qolunu xatırladan dəhlizdə Azərbaycanın görkəmli muğam ifaçılarının büstləri qoyulacaqdır.

Prezident İlham Əliyev Mərkəzin salonunu, otaqlarınıı gəzdi, maketinə baxdı, tikinti işlərinin yüksək səviyyədə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.

***15 may 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT RUS DRAM TEATRI BİNASININ BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Azərbaycan Dövlət Rus Dram Teatrı binasının bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimində iştirak etmişlər.

Prezident İlham Əliyev teatrın binasının bərpa və yenidənqurmadan əvvəlki və indiki görünüşünü əks etdirən şəkillərə baxdı. Sonra teatrın açılışını bildirən qırmızı lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizin teatr tarixində özünəməxsus yer tutan Azərbaycan Dövlət Rus Dram Teatrının binasında bərpa və yenidənqurma işlərinə 2006-cı ilin oktyabrında başlanılmışdı. Əsaslı bərpa işləri ilə yanaşı, binada ən müasir avadanlıq da quraşdırılıb və bunlar ən yüksək standartlar səviyyəsindədir. Əvvəllər 40-dək projektorla təchiz edilmiş səhnə-işıq sistemi hazırda müasir tipli 147 ədəd profil, səpələyici, linzalı və izləyici projektorlarla, eləcə də xüsusi işıq effektləri verən 10 ədəd fırlanan başlıqla təchiz edilmişdir. Sistem müasir səviyyəli pult vasitəsilə idarə olunacaqdır. Səsgücləndirmə sistemi də dünyanın ən müasir standartlarına cavab verir.

Bildirildi ki, tamaşa salonunun çilçırağı, kresloları yeniləri ilə əvəz olunub, qrim və iş otaqları müvafiq mebel və inventarlarla təchiz edilib, teatrın inzibati və yaradıcı heyəti üçün yüksək səviyyəli iş şəraiti yaradılıbdır. Binada müasir tələblərə cavab verən mərkəzləşdirilmiş kondisioner-ventilyasiya və istilik sistemləri, o cümlədən təhlükəsizlik, yanğın və fövqəladə hallarda xəbərvermə sistemləri quraşdırılmışdır. Binanın fasadına yüksək keyfiyyətli materiallardan üzlük çəkilmiş, xüsusi gecə işıqlandırıcıları quraşdırılmışdır.

Teatrda aparılan əsaslı bərpa və yenidənqurma işləri ilə tanışlıqdan sonra Prezident İlham Əliyev baş rejissor, xalq artisti Aleksandr Şarovski ilə görüşdü, ona Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Şöhrət" ordenini təqdim etdi.

Prezident İLHAM ƏLİYEV A.Şarovskini təbrik edərək dedi:

Hörmətli Aleksandr Yakovleviç, teatrın açılışı münasibətilə sizi təbrik edirəm. Bu, teatrın yeni həyatı deməkdir. Bildiyiniz kimi, mən sizi "Şöhrət" ordeni ilə təltif etmişəm. Bu, ilin əvvəlində olmuşdur, lakin həmin ordeni sizə təqdim etməyə imkan yox idi. Bu, Azərbaycan dövlətinin yüksək mükafatını sizə təqdim etmək üçün ən yaxşı fürsətdir. Sizi təbrik edirəm.

ALEKSANDR ŞAROVSKİ: Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım! Bu gün mənim həyatımda ən əsas, ən mühüm, ən həyəcanlı gün olduğunu deməyə ehtiyac yoxdur. Mən bu ordeni sonsuz hörmət bəslədiyim Prezidentin, doğulduğum və bütün həyatım boyu yaşadığım, çox sevdiyim ölkənin Prezidentinin əlindən qəbul etdim. Bu, mənim üçün çox böyük şərəf, çox böyük fəxrdir, hisslərim aşıb-daşır, hətta danışmağa da bir qədər çətinlik çəkirəm. Siz olduqca səxavətlisiniz, Siz mənə və həmkarlarıma teatrı bəxş etdiniz. Bu, teatr deyil, bizim arzumuzdur.

Buna görə də, möhtərəm cənab Prezident, – bu barədə bir neçə ay əvvəl yazmışdıq, – biz bir tamaşa hazırlayırıq. Tamaşa elə belə də adlanır: "Arzular çin olur". Bu tamaşa Sizə, bugünkü günə həsr edilmişdir. Sizdən çox xahiş edirəm, vaxt tapsanız, sentyabrın 15-də hörmətli Mehriban xanımla birlikdə bizim teatra təşrif gətirin. Biz çox istərdik ki, bu tamaşanı Sizə göstərək, çünki Siz bu qədər nəhəng işlər görürsünüz, böyük Heydər Əlirza oğlunun işini davam etdirirsiniz, çoxsaylı körpülər, yollar, zavodlar, elektrik stansiyaları ilə yanaşı, Siz vaxt tapıb bizə bu teatrı da tikdiniz. Bu, misilsiz işdir, mən deməyə söz tapmıram.

Mən böyük vəcdlə, böyük sevinclə deyə bilərəm ki, qarşıdakı seçkilərdə Rus Dram Teatrı İlham Əliyevə səs verəcəkdir.

İLHAM ƏLİYEV: Bu sözlərə görə çox sağ olun. Mən çox şadam ki, iki il bundan əvvəl planlaşdırdığımız və başladığımız işin bəhrəsini bu gün gördüm. Əslində, burada yeni teatr tikilmişdir. Siz bütün tikinti müddətində burada olmusunuz, mən də buraya gəlirdim. Əslində burada yalnız divarlar qalmışdı, onlar da tamam çürümüşdü. Azərbaycanda, Bakıda yeni rus dram teatrı böyük hadisədir. Teatr həm özünün xarici görkəminə görə, həm də avadanlığına görə fərqlənir. Buradakı avadanlıqla, texnika ilə, müasir qurğularla tanış olandan sonra bunu yəqin etmək çətin deyildir. Bütün bunlar çox vacibdir. Bu, yollardan, körpülərdən, elektrik stansiyalarından heç də az əhəmiyyətli deyildir. Bu, mədəniyyətdir, mənəvi həyatdır.

Azərbaycan dolğun həyat sürür, hərtərəfli inkişaf edir. Buna görə də bizim həyatımızın bütün cəhətləri, xüsusən mənəviyyatla bağlı cəhətlər bir Prezident kimi mənim üçün çox vacibdir. Rus Dram Teatrı, əslində, təzədən yaradılmış ilk teatrlardan biridir. Siz bilirsiniz, bizim bütün teatrların yeni-

dən qurulması proqramımız var. Biz ən kiçik teatrlardan – əvvəlcə Kukla teatrından başladıq. O da Bakının ən gözəl tarixi binalarından birində yerləşir. Sonra növbədə Rus Dram Teatrı idi. Rus mədəniyyətinə, rus dilinə münasibət, bütövlükdə bugünkü Azərbaycanın ruhu, bütün millətlərin, bütün xalqların, bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşaması bizim fəxrimizdir. Hesab edirəm, müasir Azərbaycanın ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, burada bütün millətlərin nümayəndələri öz doğma diyarında yaşayırlar, onlar öz ölkəsinin vətənpərvərləridir və müasir Azərbaycanın malik olduğu hər şeydən istifadə edirlər.

Mən sizi təbrik edirəm. Hələ teatrın kollektivi ilə də görüşəcək və onları da təbrik edəcəyəm. Sizə uğurlar, uzun ömür, fəallıq, gümrahlıq arzulayıram. Arzu edirəm ki, yeni tamaşalarla bizi sevindirəsiniz. Mən isə sizin yeni tamaşa hazır olan kimi, məmnuniyyətlə ona baxmağa gələcəyəm.

Sonra teatrın yaradıcı kollektivi ilə görüşən Prezident İLHAM ƏLİYEV onlara müraciətlə dedi:

-Əziz dostlar, Rus Dram Teatrının, əslində, yeni binasının açılışı münasibətilə mən sizin hamınızı təbrik edirəm. Bu teatrın nə vəziyyətdə olmasını biz hamımız yaxşı xatırlayırıq. Biz təmirə başlayan kimi hamımız başa düşdük ki, burada bircə normal divar da yoxdur, binanın damı da daxil olmaqla, hər şeyi təzələmək lazımdır. Buna görə də işlərin əvvəlcə nəzərdə tutulan həcmi, əlbəttə, artdı. Lakin bu bizi dayandırmadı, işi axıra çatdırmağımıza mane olmadı. Bərpa işlərinin və əslində, teatrın tikintisinin başlanmasından ötən iki ildən də az vaxt sonra, bu gün ölkəmizin, müstəqil Azərbaycanın həyatında əlamətdar gündür. Əslində, yeni teatr tikilmişdir, bu teatr ən yüksək standartlara uyğundur. Hər şey – istər texniki cəhət, istər avadanlıqlar, istər artistlər üçün otaqlar ən yüksək səviyyədədir. Bizim çox dinamik inkişaf edən ölkəmizdə belə də olmalıdır.

Bu gün həyatımızın bütün sahələri məhz dinamizmi, səmərəliliyi ilə, yüksək peşəkarlıq və yüksək standartlarla səciyyələnir. Azərbaycanda görülən bütün işlər ən yüksək səviyyədə olmalıdır. Mən əminəm ki, şəhər infrastrukturunun iqtisadiyyatla bağlı olmayan mühüm obyektləri ilə yanaşı, biz ölkəmizin, xalqımızın mənəvi həyatını da yüksəltməliyik, buna həmişə xüsusi diqqət, xüsusi qayğı göstərilməlidir. Həyatlarını incəsənətə, yaradıcılığa həsr etmiş insanlar daim dövlət tərəfindən qayğı hiss etməlidirlər. O cümlədən iş üçün, yaradıcılıq üçün də ən əlverişli şərait olmalıdır.

İndi Azərbaycanda, Bakıda və başqa şəhərlərdə mədəniyyət sahəsinin inkişafına böyük diqqət yetirilir. Bizim Bakı şəhərinin bütün teatrlarının yenidən qurulması üçün proqramımız var. Bu gün mən Aleksandr Yakovlevi-

çə yüksək mükafatı təqdim edərkən dediyim kimi, biz ən kiçik teatrlardan – əvvəlcə Kukla teatrından başladıq. Rus Dram Teatrı ikinci oldu.

İndi bizim planımızda Gənc Tamaşaçılar Teatrını, əslində təzədən tikmək durur. Sonra Azərbaycan Milli Dram Teatrının növbəsidir, onun bərpasına yəqin ki, payızda başlayacağıq. Daha sonra Opera və Balet Teatrı gəlir. Orada biz, sadəcə, ona görə hələ işə başlamamışıq ki, Heydər Əliyev adına Saray təmirdədir, yayda onun təmiri başa çatandan dərhal sonra bu teatrın yenidən qurulması işləri başlanacaqdır.

Bununla yanaşı, bildiyiniz kimi, tezliklə Muğam Mərkəzi – nadir memarlıq nümunəsi istifadəyə veriləcək və Azərbaycan xalqının milli muğam sənəti onun inkişafına dövlət qayğısı baxımından layiqli qiymətini alacaqdır. Muğam Mərkəzinin yanında Xalça Muzeyi tikiləcəkdir. Bu da nadir memarlıq nümunəsidir, dəqiq deyə bilərəm ki, dünyada ikinci bu cür bina yoxdur. Muzey Mərkəzinin yenidən qurulması indi, əslində, başa çatır. Bu, keçmiş Lenin Muzeyidir. Tarix Muzeyi açılmış və əslində özünün ilkin görkəmində bərpa edilmişdir, həm Tarix Muzeyinin özü kimi, həm də Zeynalabdin Tağıyevin tikdiyi ev kimi bu, çox vacibdir. Ədəbiyyat Muzeyində təmir işləri başa çatmağa yaxınlaşır.

Ümumiyyətlə, şəhərdə bütün mədəniyyət ocaqları, istirahət yerləri qaydaya salınır. Ən başlıcası isə, onlar hamısı yüksək standartlara uyğundur, çünki Azərbaycan vətəndaşları yaşamaq, istirahət üçün layiqli şəraitə malik olmalıdırlar. Bu baxımdan bugünkü gün ölkəmiz üçün, Azərbaycanda yaşayan hər bir xalqın ənənələri, mədəniyyəti, tarixi və dini eyni dərəcədə əziz olan müstəqil Azərbaycan dövləti üçün çox səciyyəvidir.

Milliyyətindən, dini etiqadından asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları, bərabər hüquqlara malikdirlər, hamıya münasibət eynidir. Belə də olmalıdır. Əlbəttə, bu, Konstitusiyada yazılmışdır. Praktik olaraq, hər bir ölkənin Konstitusiyasında bu cür bəndlər var. Lakin biri var Konstitusiyada olsun, biri də var həyatda. Mən çox şadam ki, Azərbaycanda müstəqillik illərində sözün yaxşı mənasında əməkdaşlıq və beynəlmiləlçilik ruhu qorunub saxlanır, möhkəmlənir və hesab edirəm ki, hamı – bizim ölkəmiz kimi çoxmillətli olan sizin truppa da bunu hiss edir.

Mən sizə uğurlar arzulayıram, bu gün sizi görməyimə çox şadam. Mən bilirdim ki, bütün işlər yüksək səviyyədə görüləcəkdir, lakin gördüklərim gözlədiklərimdən də artıqdır. Yəni burada yaradıcılıq üçün, işləmək üçün yaxşı şərait var. Adam buraya daxil olanda əhvalı yaxşılaşır. Mən sizə yaradıcılıq uğurları, yeni tamaşalar arzulayır və ən xoş diləklərimi bildirirəm.

***26 may 2008-ci il***

# DƏDƏ QORQUD MEYDANI VƏ TURİZM MƏRKƏZİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Naxçıvan şəhər mərkəzindəki Dədə Qorqud meydanında olmuşlar.

Dövlətimizin başçısına məlumat verildi ki, burada yenidən qurulmuş turizm mərkəzi memarlıq baxımından diqqəti cəlb edir. Keçmiş illərdə burada mədrəsə, sonralar dram dərnəyi fəaliyyət göstərmişdir. Ümummilli lider Heydər Əliyev yeniyetmə yaşlarında dərnəkdə iştirak etmişdir. Onun burada "Vaqif" dramında oynayarkən çəkilmiş fotoşəkli və özünün çəkdiyi məktəbli qızın şəkli nümayiş olunur.

Sonra Prezident İlham Əliyev yenidən qurulmuş beşulduzlu "Təbriz" mehmanxanasına baxdı. Məlumat verildi ki, ən müasir üslubda yenidən qurulmuş mehmanxanada yerli və xarici qonaqları qəbul etmək üçün rahat şərait yaradılmışdır.

Prezident İlham Əliyev yenidənqurma işlərini yüksək qiymətləndirdi.

Sonra dövlətimizin başçısı Dədə Qorqud meydanındakı XVIII əsrə aid Şərq hamamına baxdı. Prezident İlham Əliyev bildirdi ki, bu cür abidələrin qorunub saxlanmasına daim diqqət yetirilməlidir.

***3 iyun 2008-ci il***

## HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və onların xanımları Naxçıvan şəhərindəki Heydər Əliyev muzeyi ilə tanış olmuşlar.

Geniş sahəsi olan muzey ekspozisiya salonu, kitabxana və fonddan ibarətdir. Ekspozisiya salonunda Heydər Əliyevin ağ mərmərdən yonulmuş büstü qoyulmuşdur. Büstün müəllifi xalq rəssamı, akademik Ömər Eldarovdur. Muzeyin fondunda ulu öndərin həyat və fəaliyyəti ilə bağlı 2400-dək eksponat var, ekspozisiyada bunların yalnız bir hissəsi nümayiş etdirilir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, habelə ulu öndər haqqında yazılmış kitablar toplanmışdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, bütün xarici səfərlərini, eləcə də muxtar respublikaya səfərlərini əks etdirən materiallar diqqəti cəlb edir.

Hörmətli qonağa məlumat verildi ki, buradakı kompyuterlər vasitəsilə ulu öndər Heydər Əliyev ilə bağlı istənilən məlumatı əldə etmək mümkündür. Rəssam Aydın Rəcəboğlu tərəfindən klassik üslubda kətan üzərində yağlı boya ilə 2000-ci ildə çəkilmiş “Prezident Heydər Əliyev” portreti muzeyin dəyərli eksponatlarındandır. Muzeydə ulu öndərlə bağlı çoxlu məktub, teleqram, rəsmi sənədlər də geniş yer tutur. Buradakı “Yüksəlişə doğru həyat yolu” adlı xalça da kompozisiyası və nəfis toxunuşu ilə diqqəti cəlb edir. Ekspozisiyada Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvanda işlədiyi dövrü əks etdirən eksponatlar da vardır. Ulu öndərin Naxçıvanda işlədiyi dövrdə iş otağında istifadə etdiyi çıraq, telefon, qələmdan, habelə o vaxtkı geyim əşyaları, saatı da nümayiş etdirilir.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana muzeyin kitabxanası və ümummilli lider Heydər Əliyev haqqında çəkilmiş filmlər barədə də ətraflı məlumat verildi.

1930-cu ildə çəkilmiş ailə fotosu əsasında 2000-ci ildə toxunmuş “Tarix” xalçası qonaqlarda böyük maraq doğurdu.

Rəcəb Tayyib Ərdoğan xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin xatirəsini əziz tutan Azərbaycan xalqına ən xoş arzularını yetirdi.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan qarşılıqlı hədiyyələr təqdim etdilər.

***4 iyun 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısı əvvəlcə binanın fasadına baxdı, burada işlərin gedişi ilə maraqlandı. Prezident İlham Əliyevə məlumat verildi ki, sarayın fasadı xüsusi mərmərlə üzlənmiş, binanın qarşı və yan tərəflərində ABŞ istehsalı olan ekran tipli şüşələr quraşdırılmışdır. Bu ekran tipli şüşələr içəridə keçiriləcək tədbirləri birbaşa sarayın xaricindən də izləməyə imkan verəcəkdir. Bu isə sarayın əsas özəlliklərindən birini təşkil edəcəkdir. Ekran tipli şüşələr şəhərin gecə görüntüsünə də xüsusi yaraşıq verəcəkdir. Onlardan monitor kimi də istifadə olunacaqdır. Bundan əlavə, interyerdəki bütün mühəndis qurğuları dünyanın ən iri meqapolislərində istifadə olunan inşaat materiallarından hazırlanır.

Dövlətimizin başçısı sarayın istismarının da yüksək səviyyədə təşkil olunması ilə bağlı tapşırıqlarını verdi.

Bildirildi ki, artıq binada işlərin 95 faizi görülmüşdür. "Azəraqrartikinti" və "Pim Proje" Türkiyə-Azərbaycan birgə müəssisəsinin həyata keçirdiyi əsaslı təmir və yenidənqurma işləri qısa vaxtda tam başa çatdırılacaqdır. Artıq sarayın dam örtüyü dəyişdirilmiş, işıqlandırma sistemi yenidən qurulmuşdur. Binanın tavanında aparılan işlər də yekunlaşmaq üzrədir. Burada xüsusi alkapon materialdan istifadə olunub ki, bu da döşəməyə vurulan mərmərlə memarlıq baxımından vəhdət təşkil edir. Girişdə yaradılacaq su pərdəsi isə zövq oxşayacaqdır. Saraya gələn qonaqlar buradan xüsusi lazer sistemlə müxtəlif görüntüləri izləmək imkanı qazanacaqlar.

Prezident İlham Əliyev salona da baxdı. 2128 yerlik salonda tamaşaçıların rahatlığı üçün bütün şərait yaradılır. Burada modern avadanlıq quraşdırılır. Salonu işıqlandıracaq çil-çıraqlar da xüsusi özəlliyi ilə fərqlənəcəkdir. Səhnədə də işlər sürətlə aparılır. Akustikası müasir tələblərə tam cavab verəcək səhnədə işlərin mühüm hissəsi başa çatmışdır. Liftlər və eskalatorlar yeniləri ilə əvəzlənmiş, binanın daxilində həssas avtomatik yanğınsöndürmə sistemi qurulmuşdur. İndi inzibati korpusda rəngsazlıq, foyedə, banket zalı və digər yardımçı otaqlarda bəzək işləri aparılır, xidməti otaqlar hazır vəziyyətə gətirilir. Binada xüsusi havalandırma sistemi quraşdırılmışdır. İtaliyadan alınan kondisioner və xüsusi havalandırma sistemləri artıq yerləşdi-

rilmişdir. Sarayın həyətinə 6 min kvadratmetrdən çox mərmər və qranit döşənir, ətrafda yaşıllıqlar salınacaqdır.

Dövlətimizin başçısı işlərin yüksək səviyyədə və keyfiyyətlə görülməsi üçün tapşırıq və tövsiyələrini verdi.

***23 iyun 2008-ci il***

## AZƏRBAYCANDA UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ KONSERT

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Ukrayna mədəniyyəti günlərinin açılışı münasibətilə konsert olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna Prezidenti Viktor Yuşşenko konsertdə olmuşlar.

Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Ukrayna incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna Prezidenti Viktor Yuşşenkonun adından gül çələngləri təqdim edildi.

Konsertdən sonra filarmoniyanın foyesində Azərbaycan Prezidenti İlham Əliyevə Taras Şevçenkonun Bakıda ucaldılmış abidəsinin maketi təqdim olundu. Abidənin müəllifi, ukraynalı heykəltəraş İqor Qreçanik dedi ki, azadlıq mübarizi Taras Şevçenkonun abidəsinin maketinin Azərbaycan Prezidentinə təqdim olunması rəmzi xarakter daşıyır.

Taras Şevçenkonun Bakıda abidəsinin açılmasını əlamətdar hadisə adlandıran dövlətimizin başçısı uğurlu işinə görə müəllifi təbrik etdi.

Bakı Slavyan Universitetinin rektoru, yazıçı Kamal Abdulla Azərbaycan və Ukrayna prezidentlərinə lüğət təqdim etdi.

***30 iyun 2008-ci il***

## BAKIDA GÖRKƏMLİ UKRAYNA ŞAİRİ TARAS ŞEVÇENKONUN ABİDƏSİ AÇILMIŞDIR

Bakının Azadlıq prospekti, 91/23 ünvanında görkəmli Ukrayna şairi Taras Şevçenkonun abidəsinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşşenko mərasimdə iştirak etmişlər.

Azərbaycan Dövlət xor kapellasının ifasında Taras Şevçenkonun məşhur əsərlərindən biri olan "Dumı moi dumı" əsəri səsləndi.

Dövlət başçıları mərasimdə çıxış etdilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Ukrayna-Azərbaycan münasibətlərinin tarixində çox gözəl və əlamətdar bir gündür.

Bu gün Bakıda Ukrayna xalqının böyük oğlu Taras Qriqoryeviç Şevçenkonun abidəsi açılır və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Ukrayna xalqının böyük oğlu Taras Şevçenko həm dahi şair, həm istedadlı rəssam, həm də çox fəal ictimai xadim idi. Milli azadlıq uğrunda mübarizə onun həyat və fəaliyyətinin çox önəmli tərkib hissəsi idi. Azərbaycanda Taras Şevçenkonun xatirəsinə çox böyük hörmət var. Onun demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Mən çox şadam ki, bu abidənin açılışında bizimlə bərabər mənim dostum Ukrayna Prezidenti cənab Viktor Yuşşenko da iştirak edir. Bu abidənin açılışının Ukrayna-Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün çox önəmli rolu vardır.

Bu gün Ukrayna Prezidentinin Azərbaycana işgüzar səfəri çərçivəsində ikitərəfli münasibətlər bir daha təhlil edilmiş və gələcək əməkdaşlıq haqqında vacib qərarlar qəbul edilmişdir. İki ölkə arasında əlaqələr çox sürətlə inkişaf edir. Bildiyiniz kimi, keçən ay mən Ukraynada rəsmi səfərdə olmuşdum, bu gün Ukrayna Prezidenti bizim qonağımızdır. Bütün bunlar

onu göstərir ki, bizim aramızda çox səmimi dostluq münasibətləri vardır və bu münasibətlər gündən-günə inkişaf edir.

Keçən ay Ukraynada rəsmi səfərim çərçivəsində mənə Taras Şevçenkonun adını daşıyan Ukrayna Dövlət Universitetinin fəxri doktoru adı verilmişdir. Bu, mənim üçün çox böyük şərəfdir. Çünki bu ali məktəb dünya səviyyəsində çox məşhurdur. Çox şadam ki, Ukrayna Dövlət Universitetində azərbaycanlı tələbələr də oxuyur. Bakı Slavyan Universitetində isə azərbaycanlı tələbələr Ukrayna dilini öyrənirlər. Bizim aramızda münasibətlər bütün sahələrdə – siyasi, iqtisadi və energetika sahələrində çox sürətlə inkişaf edir. Ancaq bununla bərabər, humanitar sahədə əməkdaşlığın xüsusi önəmi var.

Biz humanitar sahədə əməkdaşlığa çox böyük əhəmiyyət veririk və hesab edirəm ki, Taras Şevçenkonun abidəsinin açılışı bu istiqamətdə çox önəmli bir addımdır. Bizim xalqlarımızın bir-birinə çox böyük rəğbəti vardır və bu abidə bu rəğbətin nümayişidir. Taras Şevçenko milli azadlıq uğrunda mübarizə aparmışdır və çox əlamətdar hadisə ondan ibarətdir ki, bu küçə də Azadlıq prospektidir. Amma bu küçənin əvvəlki adı Lenin prospekti idi. Bu da rəmzi xarakter daşıyır. Ukrayna və Azərbaycan xalqları əsrlər boyu müstəqillik uğrunda mübarizə aparmışlar, müstəqillik əldə etmişdilər, onu itirmişdilər. Ancaq bu gün müstəqil ölkələr kimi uğurla inkişaf edirlər. Taras Şevçenkonun abidəsinin məhz Azadlıq prospektində yerləşməsi xüsusi rəmzi xarakter daşıyır.

Mən, əziz dostlar, bir daha Ukrayna Prezidentini və onunla bərabər Bakıya gəlmiş bütün qonaqları, eləcə də Azərbaycan ictimaiyyətini, Azərbaycanda yaşayan Ukrayna icmasının nümayəndələrini bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram.

***30 iyun 2008-ci il***

# BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİ ƏSASLI YENİDƏNQURMA VƏ GENİŞ TİKİNTİ İŞLƏRİNDƏN SONRA İSTİFADƏYƏ VERİLMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə islam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin 4 nümayəndəsi uyuyur. İmam Museyi Kazımın qızı həzrəti Hökümə xanımın məzarı da bu ziyarətgahdadır. Azərbaycanın say-seçmə övladları ilə yanaşı, maddi-mədəniyyət abidələrimiz, o cümlədən xalqımızın iman və inanc yeri olan Bibiheybət ziyarətgahı da sovet dövründə repressiyaya məruz qalmışdır. 1934-cü ildə bolşeviklər bu müqəddəs ocağı darmadağın etməklə xalqımızın vicdan azadlığı hüququna ağır zərbə vurmuşlar.

Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi, iradəsi, milli mənəvi dəyərlərimizə dərindən bağlılığı sayəsində bu ziyarətgaha yenidən həyat verilmişdir. Ümummilli lider 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət etmiş, 1997-ci il iyulun 23-də, Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoymuşdur. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak etmişdir.

Heydər Əliyev ideyalarına sadiq qalan və onu uğurla davam etdirən Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapmışdır. Dövlətimizin başçısı 2005-ci ilin oktyabrında və 2007-ci ilin dekabrında buranı ziyarət edərkən fikirlərini bölüşmüş, tövsiyələrini vermişdir. Bununla da müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan Bibiheybət məscidinin inşası sürətləndi. Prezident İlham Əliyev tikintinin gedişini daim diqqətdə saxlamış, qarşıya çıxan problemlər dərhal həll olunmuş, qısa müddətdə bu müqəddəs ocaq tanınmaz dərəcədə dəyişmiş, nəfis və möhtəşəm görkəm almışdır.

Açılış mərasiminə gələn Prezident İlham Əliyev yolüstü Bibiheybət buxtasında aparılan ekoloji tədbirlərlə tanış oldu.

Neft mədənlərinin yerləşdiyi həmin ərazi uzun müddət təmizlənmədiyindən, burada heç bir əsaslı ekoloji tədbir həyata keçirilmədiyindən Bibiheybət buxtasında acınacaqlı vəziyyət yaranmışdı. Ətraf ərazi çirklənmiş, torpaq yararsız hala düşmüşdü. Dövlətimizin başçısının tapşırığına əsasən, burada qısa müddətdə xeyli iş görülmüş, silsilə ekoloji tədbirlər həyata keçirilmiş, torpaq neft tullantılarından təmizlənmiş, ətrafda yaşıllıqlar salınmışdır.

Bütün bunlar ərazinin görkəminin tanınmaz dərəcədə dəyişməsinə səbəb olmuşdur. Hazırda ölkəmizin başçısının tapşırığına müvafiq olaraq nəzərdə tutulan tədbirlər davam etdirilir.

Prezident İlham Əliyev burada görüləcək işlərlə bağlı əlavə tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva, qızları Leyla və Arzu ilə birlikdə Bibiheybət ziyarətgah kompleksinə gəldi.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevə burada aparılan əsaslı yenidənqurma və tikinti işləri barədə ətraflı məlumat verdi. Bildirildi ki, ziyarətgah kompleksində ən yüksək səviyyədə yenidənqurma, tikinti və tərtibat işləri aparılmışdır.

Dövlətimizin başçısına ziyarətgah kompleksində yüksək zövqlə aparılan tərtibat işləri barədə geniş məlumat verildi. Qeyd olundu ki, məscidin birinci və ikinci mərtəbələrində, mərkəzi salonda, foyenin tavanında, zirzəminin divarlarında incə memarlıq nümunələri əksini tapmışdır. Məscidin gümbəzi də mükəmməl şəkildə işlənib. Burada smaltadan rəngbərəng şüşə materiallarından ibarət mozaikada Qurani-Kərimdən "Ən-Nisa" surəsi yazılıb. Ümumiyyətlə, məscidin müxtəlif guşələrində Quranın müxtəlif surələri əksini tapmışdır.

Prezident İlham Əliyevə məlumat verildi ki, ərazinin relyefinin mürəkkəbliyi nəzərə alınaraq, ziyarətgah və buradan keçən magistral yol genişləndirilmiş, köhnə evlərin sahiblərinə yeni mənzillər verilməklə və ya kompensasiya ödənilməklə sökülmüşdür. Müsəlmanların digər möhtəşəm ziyarətgahlarında olduğu kimi, bu məsciddə də ilk dəfə muzey və kitabxana zəvvarların ixtiyarına verilmişdir. Burada aparılan yenidənqurma tədbirləri ölkəmizdə dini dəyərlərə nə qədər həssaslıqla yanaşılmasının bariz nümunəsidir.

Kompleksdə çoxlu yardımçı otaqlar da tikilmiş, yeməkxana, hər cür şəraiti olan qurbangah yaradılmışdır. Kompleksin ayrıca qazanxanası, mükəmməl su təchizatı, havalandırma və digər mükəmməl kommunikasiya sistemi vardır.

Prezident İlham Əliyev və xanımı, Milli Məclisin deputatı Mehriban Əliyeva həzrəti Hökümənin və İmamın nəvələrinin məzarlarını ziyarət etdilər. Onların ruhuna dualar oxundu.

Prezident İlham Əliyev nəzir verdi.

Mərasimdən yadigar olaraq xatirə şəkli çəkdirildi.

Dövlətimizin başçısı kompleksin üst qatında həyata keçirilən yenidənqurma və tikinti işləri ilə tanış oldu. Qeyd edildi ki, burada tikilmiş geniş meydançada dini mərasimlər icra olunacaq, müxtəlif mədəni tədbirlər təşkil ediləcəkdir. Burada yay aylarında ziyarətgaha gələnlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.

Prezident İlham Əliyev buradan ətrafı seyr etdi, görülən işlərdən razılığını bildirdi.

◆◆◆

Mərasimin rəsmi hissəsi başlandı. Tədbirin iştirakçıları Prezident İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

◆◆◆

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxulislam Allahşükür Paşazadə çıxış etdi:

– Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm cənab Prezident,

Hörmətli mərasim iştirakçıları, əziz qonaqlar, xanımlar və cənablar.

Hamınızı, özəlliklə möhtərəm Prezidentimiz zati-aliləri İlham Əliyev cənablarını səmimi qəlbdən salamlayır, Azərbaycan müsəlmanları üçün böyük əhəmiyyət kəsb edən bu tarixi gündə bizi şərəfləndirdiyinizə görə dindarlar adından minnətdarlığımı bildirirəm.

Bu gün həqiqətən önəmli bir gündür. Peygəmbər əleyhissəlam nəslinin nümayəndəsi imam Museyi Kazımın qızı həzrəti Hökümə xanımın məzarı üzərində ulu öndərimiz Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və möhtərəm Prezidentimiz İlham Əliyevin dəstəyi ilə tikintisi və bərpası tamamlanan Bibiheybət məscidi ziyarətçilərin ixtiyarına verilir.

Bibiheybət məscidi hər bir azərbaycanlı, hər bir müsəlman üçün özəl əhəmiyyət kəsb edir. Çünki o, adi ziyarətgah deyil, zülmə, fitnə və təxribata məruz qalmış dini abidələrin ümumi rəmzi, bir növ şəhidlik simvoludur.

Həzrəti Hökümə xanım Azərbaycana pənah gətirən müqəddəs şəxslərdən yalnız biridir. Tarixən Azərbaycan torpağı zülm və istibdaddan qaçan bütün mömin insanlar üçün mənəvi sığınacaq olmuş, ikinci vətənə çevrilmişdir. Bu, əslində Azərbaycanın geosiyasi siması, xalqımızın ləyaqət və humanizminin göstəricisidir.

Buraya toplaşanlar yaxşı bilirlər ki, Bibiheybət məscidi erməni daşnaklarının bolşevik siyasətinə güclü təsiri ilə Azərbaycanda milli birliyi sarsıtmaq üçün 1934-cü ildə dağıdılıb.

Maraqlı tarixi faktlardan biri də odur ki, ölkədə dini repressiyaların tüğyan etdiyi, məscid, kilsə və sinaqoqların dağıdıldığı bir vaxtda, yalnız Eçmiədzin heç bir siyasi təqibə və təzyiqə məruz qalmamışdır. Bu faktı dəyərləndirmək tarixçilərin işidir. Lakin tam əminliklə demək olar ki, erməni kilsəsinin bolşevik rejimi ilə əməkdaşlığı riyakar separatizmin bariz nümunəsidir. Bu gün siyasi təqiblərə, Sibir sürgünlərinə, fiziki məhvə məruz qalan minlərlə müsəlman din xadimlərinin, ziyalıların, haqq əzabkeşlərinin xatirəsini əbədiləşdiririk. Bu mənada Bibibeybət və digər dini abidələrimizin bərpası milli mədəniyyətimizin uğuru və dövlət-din münasibətlərinin zirvəsidir. Bu müqəddəs ocaqlar öz nadir milli memarlıq xüsusiyyətləri və tarixi ilə ölkəmizin çağdaş mədəni simasına misilsiz gözəllik və zənginlik gətirəcək, Vətənimizin dünya miqyasında nüfuzunu daha da artıracaqdır.

Qurub-yaratmaq bir missiya, keçmişi bərpa edib qorumaq isə başqa bir missiyadır və hər iki missiya müqəddəsdir. Ulu öndərimiz keçmişi bərpa edib qorumaqla tarixə sahib çıxmış, yenisini qurub-yaratmaqla isə tarixə çevrilmişdir. Bu mənada onu keçmişi qoruyan və gələcəyi quran lider adlandırmaq olar.

1994-cü ildə Qurban bayramı günü rəhmətlik Heydər Əliyev ilk dəfə bu müqəddəs ocağı ziyarət etdi. 1997-ci ildə Peyğəmbərin mövludu günündə yeni məscid kompleksinin bünövrəsinin qoyuluşunda şəxsən özü iştirak etdi. Düz on il bundan əvvəl ulu öndər Heydər Əliyev Bibiheybətin ilk təməl daşını qoydu. Mən onun həmingünkü sevincini, tikintiyə qayğısını, görüləcək işlər üçün maraq və narahatlığını indi də unuda bilmirəm.

Heydər Əliyev həqiqətən XX əsrdə Azərbaycana bəxş edilən bir ilahi nura bənzəyirdi. Çünki o, insanların ürəyində iman işığını yandırmağı bacarmışdır. O, gözəl bilirdi ki, mənəvi dəyərləri bərpa etməklə xalqın milli və mədəni inkişafını təmin etmək olar. Məhz onun uzaqgörən müdrik siyasəti nəticəsində Azərbaycan milli mədəni dəyərlərin bərpasına nail oldu, dünyada dini tolerantlığın gözəl nümunəsinə çevrildi. Məscidlərlə yanaşı,

kilsələr, sinaqoqlar, ziyarətgahlar da yeni vüsətlə inşa olundu və dövlətimiz dünya düzənində mədəniyyətlərin qovuşuğu kimi tanındı.

Bu siyasətin nəticəsidir ki, qarşıdan gələn 2009-cu ildə Bakıda MDB Dinlərarası Şurasının həmsədrləri kimi Ümumrusiya və Moskva patriarxı II Aleksinin və Qafqaz Müsəlmanları İdarəsi adından Şeyxülislamın birgə təşəbbüsü ilə dinlərarası dialoq üzrə beynəlxalq sammit keçiriləcəkdir. Bu mötəbər sammit Azərbaycanın beynəlxalq nüfuzunun daha da artması, xalqımızın dinlərarası dialoqa dəstəyi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Allah ulu öndərimiz Heydər Əliyevə rəhmət etsin. O, bu qədər zəhmət və qüvvə sərf etdiyi işin son bəhrəsini görmədi. Amma insanlar əməlləri ilə yaşayırlar. Bu gün Heydər Əliyev özü olmasa da, onun ocağından bəhrələnən layiqli oğlu vardır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev ulu öndərin siyasi kursunu və xeyirxah əməllərini ləyaqətlə davam etdirir. Bu məscid-kompleksin tikintisi də Heydər Əliyevin yadigarı kimi İlham Əliyev tərəfindən diqqət və qayğı ilə sona çatdırıldı.

Biz dindarlar Allaha şükür və sənalar edirik ki, ölkəmizi ulu öndərin irs qoyduğu dəyərlərlə idarə edən və inkişaf etdirən möhtərəm Prezidentimiz İlham Əliyev xalqımızın milli mənəvi xəzinəsini və dinlərarası tolerantlıq ənənələrini qoruyur, onların dirçəldilməsinə yardım edir. İlham Əliyev dünya siyasətçiləri arasında lider kimi tanınan dövlət rəhbəridir. O, Azərbaycanı siyasi və iqtisadi xətt üzrə yüksəlişə aparır. Milli mənəvi dəyərlərin inkişafında da möhtərəm Prezidentimizin xidmətləri əvəzsizdir.

Desəm ki, əməlisalehlik Əliyevlər ailəsinin təməlindən irəli gəlir, yanılmaram. Dinin əxlaqi və mənəvi dəyərlərinə sədaqət nümunələrini biz daim bu ailənin timsalında görürük.

İslamın müasir şəkildə dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun və onun prezidenti möhtərəm Mehriban xanımın xidmətlərini xüsusi qeyd etmək istərdim. Fondun fəaliyyətində milli mənəvi dəyərlərimizin qorunmasına, tarixi abidələrin bərpasına böyük önəm verilməsi həm Heydər Əliyev ənənələrinin davam etdirildiyinin, həm də Mehriban xanım Əliyevanın milli mənəvi dəyərlərimizə ehtiramının göstəricisidir.

Bu yaxınlarda İslam Konfransı Təşkilatının Gənclər Forumunda Leyla xanımın İslamda qadın hüquqları mövzusunda çıxışı təkcə mənim yox, bütün Azərbaycan müsəlmanlarının qəlbini riqqətə gətirdi.

Biz bu gün bu şərafətli mərasimdə tam əminliklə deyə bilərik ki, inşaallah, nə qədər ki, Azərbaycan xalqının tarixində Heydər Əliyev ənənəsi, Heydər Əliyev varisliyi vardır, gələcəyimiz, sabahımız əmin əllərdə olacaq

və Qarabağın şəhidlik zirvəsində olan məscidləri üzərində üçrəngli bayrağımız və müqəddəs azanımız ucalacaqdır.

Bibiheybət məscidi həyata qaytarılmış ilk şərəf abidəmizdir. Allahın köməyi ilə başqa dini komplekslərimiz də tezliklə tamamlanıb, möminlərin istifadəsinə veriləcəkdir. Mən bu işdə əməyi olan hər bir kəsə minnətdarlığımı bildirmək istərdim. Müqəddəs kitabımız Qurani-Kərimdə buyurulur ki, "Xeyir işlər görün, Allah, onun Peyğəmbəri və möminlər əməllərinizi görəcəklər".

Bu gün mən demokratik prinsiplərin, dini etiqad və vicdan azadlığının bərqərar olduğu Azərbaycanda bütün dini ocaqlarda yüksək səviyyədə aparılan yenidənqurma işlərinə görə Prezidentimizə və dövlətimizə Qafqaz müsəlmanları adından dərin təşəkkürümü bildirirəm. Bir daha qeyd edirəm ki, Azərbaycan müsəlmanları özlərinin seçimlərində heç zaman yanılmadıqları kimi, bu dəfə də haqqa, ədalətə və sabitliyə dəstək olacaq, seçkilərdə Prezident İlham Əliyevə səs verəcəklər.

Cənab Prezident, hər zaman sənalarımız və xeyir-dualarımız sizinlədir. Allah haqqın xatirinə Azərbaycanın üzərindən mərhəmət nəzərini əsirgəməsin. Amin!

Əssalamu əleykum və rəhmətullahu və bərəkatuhu.

Çox sağ olun, diqqətinizə görə minnətdarlığımı bildirirəm.

◆◆◆

Bakı və Xəzəryanı bölgə yeparxiyasının yepiskopu Aleksandr Ata çıxış edərək dedi:

– Zati-aliləri cənab Prezident,

Hörmətli şeyx həzrətləri, hörmətli Mehriban xanım,

Hörmətli din xadimləri, xanımlar və cənablar!

XX əsrdə Vətənimizin başına çox qanlı müsibətlər gəlmişdir, xalqımızın bütün müqəddəs dəyərləri, bütün tarixi sərvətləri məhv edilmişdir. Bu dağıntılara görə Azərbaycan dövləti cavabdeh deyildir. Lakin Azərbaycan dövləti xalqın dini-əxlaqi dəyərlərini və müqəddəs sərvətlərini ona qaytarmaq məsuliyyətini öz üzərinə götürmüşdür. Bu gün sizinlə birlikdə biz də bu prosesin, haqqın, ədalətin təntənəsinin şahidləriyik. Ötən müddətdə kafedral pravoslav kilsəsi, Avropa yəhudiləri sinaqoqu, Roma katolik kilsəsi bərpa edilmişdir və bu gün biz yenidən qurulmuş Bibiheybət məscidinin açılışında iştirak edirik.

Yəqin hamınızın yadındadır, bir neçə onillik bundan əvvəl Azərbayca-

nın cənubuna gedən maşınlar burada dayanır, insanlar ya az bir müddətə ayaq saxlayır, ya da maşınlardan çıxaraq dua edir, nəzir verirdilər. O vaxt yalnız kiçik tarixi nişanələr xatırladırdı ki, bir vaxtlar bura İslam dünyasının böyük ziyarətgahı olmuşdur. Bu gözəl məscidin qədim fotoşəkilləri arxivlərin ehtiyat fondlarında saxlanırdı. Bu gün biz bu məscidin bərpa olunmasının şahidiyik. Bərpa işlərindən sonra o, əvvəlkindən daha möhtəşəm, daha gözəl görünür. Biz ümummilli lider Heydər Əliyevin Azərbaycan üçün müəyyən etdiyi yolun bu gün də uğurla davam etdirilməsinin, Azərbaycanı beynəlxalq səviyyəyə, beynəlxalq arenaya çıxarmış proseslərin daha da güclənməsinin şahidləriyik.

Çox hörmətli cənab Prezident!

İcazə verin, mərhum Heydər Əliyevin kursunu sədaqətlə davam etdirdiyinizə görə Sizə ürəkdən təşəkkür edim. Biz inanırıq ki, Azərbaycan bu yolla irəliləməklə tərəqqiyə nail olacaq və dünya dövlətləri arasında layiqli yer tutacaqdır.

Möhtərəm dostum şeyxülislam!

İcazə verin, bu əlamətdar, təntənəli hadisə münasibətilə sizi ürəkdən təbrik edim. Bu gözəl günü görmək üçün sizin nə qədər qüvvə sərf etdiyinizi bilirəm. Mən islamın daha bir ziyarətgahının – Bibiheybət məscidinin bərpa olunması münasibətilə bütün dindar müsəlmanları təbrik edirəm. Əminəm ki, indi həmvətənlərimiz Kərbəlaya, yaxud Məkkəyə, Mədinəyə, İrana, Kufəyə ziyarətə gedərkən öz vətənimiz üçün utanmayacaqlar, çünki onlar deyə biləcəklər ki, bizim Bakıda belə bir gözəl məscid – müsəlmanların ən böyük ziyarətgahlarından biri Bibiheybət məscidi var.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm. Arzum budur ki, Ulu Tanrının bu evindən həmişə dua sədaları eşidilsin, yaşlı nəslə mənsub olanlar burada mənəvi rahatlıq tapsınlar, gənc nəslin nümayəndələri isə bu cür parlaq mədəniyyət yaratmış Azərbaycan xalqının dini-əxlaqi dəyərləri ilə tanış olsunlar.

Sizin hamınızı ürəkdən təbrik edirəm və sizin sevincinizə şərik çıxıram.

◆◆◆

Mərasimdə çıxış edən Dağ Yəhudiləri İcmasının sədri Semyon İxiilov dedi:

– Zati-aliləri cənab Prezident!

Möhtərəm şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli dindarlar, hörmətli qardaşlar və bacılar!

Bu gün təkcə Azərbaycan xalqı üçün deyil, həm də bütün müsəlman dünyası üçün bayramdır. Bu gün bizim hamımız üçün, Azərbaycanın bütün dindarları üçün də bayramdır. Düz 11 il bundan əvvəl dahi Heydər Əliyev gilizi öz əli ilə bu möhtəşəm binanın bünövrəsinə qoymuşdu. Bu gün biz ümummilli liderin həmin arzusunun həyata keçməsinin şahidiyik. Bu məscidin bərpası böyük Heydər Əliyevin yolunun davamçısı, möhtərəm Prezidentimiz İlham Heydər oğlu Əliyevin bilavasitə köməyi sayəsində mümkün olmuşdur. Buna görə, möhtərəm Prezident, müqəddəs ziyarətgahların bərpası üçün çəkdiyiniz zəhmətə görə Sizə çox sağ ol deyirik. Təbii ki, hörmətli şeyxülislam da bu işdə Sizə kömək etmişdir. Parlaq şəfəq saçan bu ziyarətgahda olmaq bizə xoşdur.

Əziz dostlar, mən sizin hamınızı bu bayram münasibətilə təbrik edirəm. Mən Azərbaycanın birinci xanımının şəxsində bütün qadınlarımızı bu əlamətdar hadisə münasibətilə məxsusi təbrik etmək istəyirəm.

Çox sağ olun.

◆◆◆

Bakıdakı Roma katolik kilsəsinin başçısı Yan Çapla mərasim iştirakçılarını salamlayaraq dedi:

– Çox hörmətli cənab Prezident!

Hörmətli şeyxülislam!

Mən hər dəfə bu məscidin yanından keçəndə burada ayaq saxlayırdım və məni həmişə çox səmimi bəşəri hisslərlə qəbul edirdilər. Bu, heç də hər yerdə belə olmur.

Bu məscid Bakının cənub tərəfində yerləşir. O, şəhərin rəmzlərindən biridir. Mən həmişə düşünürəm ki, qonaqpərvərlik keyfiyyəti də Azərbaycan xalqının rəmzlərindən biridir. Bu məscid memarı Heydər Əliyev olan müstəqil Azərbaycanın yeni tarixinin rəmzidir. Dini icmalar arasında münasibətlərin yeni mədəniyyətini, müxtəlif dinlərin nümayəndələri arasında münasibətlərin yeni mədəniyyətini Heydər Əliyev yaratmışdır. II İoann Paveli Bakıya o dəvət etmişdir, katolik kilsəsinin tikintisi üçün torpaq sahəsini o ayırmışdır. Buna görə biz ona çox minnətdarıq. Bu kurs bu gün də davam edir və biz ümid edirik ki, bundan sonra da davam edəcəkdir. Buranı ziyarət edəcək, burada mənəvi rahatlıq tapacaq bütün müsəlmanların Azərbaycanın rifahı naminə dinc ömür sürmələri üçün Ulu Tanrıdan onlara kömək diləyirik.

Sağ olun.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarına təşəkkür edərək dedi:

-Çox gözəl çıxışlar oldu, çox sağ olun İlham müəllim.

Əlbəttə, mən bir şeyi çatdırmaq istərdim ki, bu günlər, bu aylar bizim üçün müqəddəs aylardır. İki gündən sonra Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 39 ili tamam olacaq. Allah ona rəhmət eləsin. Bu günləri biz bir daha onun xatirəsini anırıq, yenə də Allah rəhmət etsin deyirik.

Sizin də dövlətin ali rəhbərliyinə gəlməyinizin beş ili tamam olur. İstərdim ki, Sizi bəri başdan təbrik edim və Allah-Taaladan Sizə dualar diləyim.

Əlbəttə ki, bu gün çox xoşbəxt gündür. Bu gün burada dedik ki, insanlar öz əməlləri ilə yaşayırlar. Bu gün burada yatanların ruhu da bizimlə bərabərdir. Bura gələnlərin, zəhmət çəkənlərin ürəkləri, dünyadan gedənlərin, xüsusilə Heydər Əliyev həzrətlərinin ruhu şad olsun deyə, istərdim ki, biz məclisimizi Qurandan bir neçə ayənin oxunması ilə tamamlayaq.

Mən xahiş edirəm, buyurun, bizim mədrəsənin, universitetin məzunu beynəlxalq müsabiqələrdə birinci yerlərə çıxmış tələbələrdən birinin qiraətində Qurandan həmin ayələri dinləyək.

Qurani-Kərimdən ayələr oxundu.

◆◆◆

Sonra Prezident İlham Əliyev və mərasim iştirakçıları məscidin zirzəmi hissəsində aparılmış yenidənqurma işləri ilə tanış oldular.

Qeyd edildi ki, burada eyni vaxtda 3 min nəfər namaz qıla bilər. Qadın və kişilərin ayrı-ayrılıqda namaz qılmaları üçün müvafiq şərait yaradılmışdır. İnşaat və tərtibat işləri klassik Şərq üslubunda aparılmışdır.

Prezident İlham Əliyev ətraf ərazilər və burada görülən işləri seyr etdi. Ümumi tikinti sahəsinin böyük bir ərazini əhatə etməsi kompleksin möhtəşəmliyinin bariz göstəricilərindəndir. İndi "ziyarətgah və dini məbədlərin yenidən qurulmasının miqyasına görə heç bir ölkə Azərbaycanla müqayisə oluna bilməz" qənaəti beynəlxalq aləmdə birmənalı qəbul edilir. Bibiheybət ziyarətgah kompleksi bu həqiqətin bariz nümunələrindəndir.

Mərasim iştirakçıları demokratik prinsiplərin, dini etiqad və vicdan azadlığının bərqərar olduğu Azərbaycanda bütün dini ocaqlarda bu cür yüksək səviyyədə yenidənqurma işlərinin aparılmasının böyük razılıq doğurdu-

ğunu vurğuladılar, bunun ölkəmizin beynəlxalq imicinin möhkəmləndirilməsinə əvəzsiz töhfələr bəxş etdiyini dedilər. Bildirdilər ki, Azərbaycan Prezidentinin bu işlərə bilavasitə nəzarət etməsi xüsusi rəğbət doğurur.

Prezident İlham Əliyev dini ocaqlarda ən müasir standartlara cavab verən əsaslı təmir və yenidənqurma işlərinin bundan sonra da davam etdiriləcəyini vurğuladı, Bibiheybət ziyarətgahında görülən işlərdən razılığını bildirdi.

Sonra Prezident İlham Əliyev məscidin muzeyi ilə tanış oldu. Burada Bibiheybət ziyarətgah kompleksinin tarixi eksponatlarda hərtərəfli əksini tapmışdır.

Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin buraya göstərdiyi mütəmadi diqqət və qayğını əks etdirən eksponatlara da geniş yer verilmişdir.

Açılış mərasimindən yadigar olaraq Prezident İlham Əliyevə, xanımı Mehriban Əliyevaya Qurani-Kərim hədiyyə edildi.

Mərasim iştirakçıları milli mənəvi dəyərlərə həssas münasibətinə və konkret qayğısına görə ölkəmizin başçısına və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.

Prezident İlham Əliyev dindarlara və kompleksin yenidən qurulmasında gərgin zəhmət sərf edənlərə razılığını bildirdi, ən xoş arzularını çatdırdı.

***12 iyul 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIZI RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu. Bildirildi ki, 2007-ci ilin may ayında tikintisinə başlanılmış muzey hazır olduqdan sonra, avqustun 1-dən Mədəniyyət və Turizm Nazirliyində qeydiyyata alınmışdır.

Ekspozisiya salonunda ulu öndərin həyatının müxtəlif mərhələlərini – uşaqlıq, gənclik dövrünü, müxtəlif vəzifələrdə çalışdığı, respublikaya rəhbərlik etdiyi illəri, Prezident kimi səfərlərini, keçirdiyi görüşləri əks etdirən yüzlərlə fotoşəkil, eləcə də dahi şəxsiyyət haqqında yazılmış müxtəlif kitablar toplanmışdır. Burada ulu öndərin büstü də qoyulmuşdur. Binada kompyuter, iş otaqları, konfrans salonu da vardır. Uşaq və gənclər burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı videofilmlərə də baxa biləcəklər.

***22 avqust 2008-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIZI RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Muzeydə 300 eksponat toplanmışdır. Burada Xızının qədim tarixindən xəbər verən arxeoloji tapıntılar, qədim silahlar, xalq sənətinə aid nümunələr, məişət əşyaları, musiqi, kənd təsərrüfatı alətləri diqqəti cəlb edir.

Muzeydə Xızıda doğulub boya-başa çatan Azərbaycanın görkəmli yazıçısı və dramaturqu Cəfər Cabbarlının yaşadığı evin maketi də nümayiş etdirilir.

Bildirildi ki, sakinlər yeni yaradılan muzeyə müxtəlif əşyalar təqdim edirlər. Bu rayon Xızır peyğəmbərin adını daşıdığından Azərbaycanın müqəddəs guşələrindən biri sayılır.

Prezident İlham Əliyev Xızı təbiətinin zənginliyini və qədim tarixini əks etdirən eksponatlara baxdı. Dövlətimizin başçısı qədim əşyaların bir yerdə toplanmasının zəruriliyini, tariximizə diqqətin artırılmasının vacibliyini vurğuladı və müvafiq tövsiyələrini verdi.

***22 avqust 2008-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALTIAĞAC MİLLİ PARKI, ZƏNGİN FAUNA VƏ FLORASI İLƏ TANIŞ OLMUŞDUR

Buraya toplaşan meşə təsərrüfatı işçiləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Bu park Prezident İlham Əliyevin Sərəncamı ilə 2004-cü il avqustun 31-də Xızı və Siyəzən rayonlarının ərazilərində – Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan Dövlət Meşə Fondu torpaqlarının bazasında yaradılmışdır. Ərazinin 90,5 faizini palıd, fıstıq və vələs ağaclarının üstünlük təşkil etdiyi, zəngin flora və faunası olan dağ meşələri təşkil edir.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, fotostendlərə baxdı.

Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov dövlətimizin başçısına məlumat verdi ki, parkın ərazisi 11 min 35 hektardır. Parkda MDB məkanında, o cümlədən Qafqaz regionunda yeganə olan Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiyası Klinikası da fəaliyyət göstərir. Burada müasir laboratoriya, lazımi avadanlıq vardır. Əsas məqsəd Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftının, flora və faunasının qorunub saxlanması, bərpası, təbii komplekslərinin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata keçirilməsi, həmçinin tədqiqatlar, turizm və istirahət üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən maarifləndirilməsinin təşkilidir.

Prezident İlham Əliyev Altıağac Milli Parkının ekoturizm və informasiya mərkəzi, inzibati binası, turist ləvazimatlarının kirayəsi və satışı şöbəsi ilə tanış oldu, parkda saxlanılan meşə heyvanlarına tamaşa etdi.

***22 avqust 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYIT ŞƏHƏRİNDƏ YENİDƏN QURULMUŞ MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA OLMUŞDUR

Buradakı "Göyərçin" abidəsi və park dövlətimizin başçısının tapşırığı ilə yenidən qurulmuşdur. Parkda yerə daş plitələr döşənmiş, dekorativ gül kolları və ağaclar əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmış, köpüklü fəvvarə tikilmişdir. Sakinlərin istirahəti üçün lazımi şəraitin yaradıldığı parkda iaşə obyektləri də fəaliyyət göstərir. Sumqayıtda Yeni ailə quranlar günü hər il iyul ayında bu parkda qeyd edilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etdilər.

SAKİN: Cənab Prezidentimiz, qəhrəman Sumqayıt şəhərinə xoş gəlmisiniz. Allah-Taaladan Sizə uzun ömür, cansağlığı, işinizdə müvəffəqiyyətlər arzu edirəm. İnsanlarımızı mehribanlığa, həmrəyliyə çağırıram. Biz Sizin əsgərinizik, nə vaxt əmr etsəniz gedərik. Mənim özümün 80 yaşım var. Sumqayıtdakı bu gözəl bərpa işlərinə, bu komplekslərə, məscidlərə, bu parklara görə çox sağ olun. Allah rəhmət eləsin Heydər Əliyevə, onun qoyduğu təməldir, indi də Siz davam etdirirsiniz. Mehriban xanım, çox sağ olun, var olun, xoş gəlmisiniz.

İLHAM ƏLİYEV: Çox sağ olun, təşəkkür edirəm. Sumqayıta gələndə sevinirəm ki, şəhər gözəlləşir, abadlaşır, yaxşı xiyabanlar, küçələr salınır. Bu park da gözəlləşibdir. Xatırlayıram, bir neçə il əvvəl bu parka gəlmişdim, vəziyyət o qədər də ürəkaçan deyildi.

SAKİN: Heç yox idi, bərbad halda idi.

İLHAM ƏLİYEV: Amma görün, indi nə gözəl olubdur.

SAKİN: Deyəsən, beşinci dəfədir buraya gəlirsiniz. Rəhmətlik atanız, ulu öndər Heydər Əliyev Sumqayıtı çox sevirdi, sumqayıtlıları da çox sevirdi. Görürük ki, Siz də bizi sevirsiniz. Çox sağ olun, bizim şəhərin işi ilə məşğulsunuz, problemləri ilə maraqlanırsınız, həll edirsiniz. Mən Sumqayıtın Ağsaqqallar Şurasının sədriyəm. Siz Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasəti uğurla aparırsınız. Biz ağsaqqallar, sumqayıtlılar Sizə arxadayağıq. Sizə cansağlığı, uzun ömür, ailə səadəti, Sizin rəhbərliyiniz altında ölkəmizə əmin-amanlıq, ən xoş günlər diləyirik.

İLHAM ƏLİYEV: Sağ olun, mən Sumqayıtın inkişafına doğrudan da çox böyük diqqət göstərirəm və işlərlə maraqlanıram. Biz Sumqayıtı, eyni

zamanda, çox müasir sənaye şəhərinə çevirməliyik. Əvvəllər Sumqayıt məhz bu məqsədlər üçün də salınıbdır. Amma əvvəllər tikilmiş fabriklər, zavodlar bu gün artıq köhnəlmişdir.

SAKİN: 250 minlik Sumqayıtda indi 500 min əhali yaşayır. 500 min əhali işıq, su, qaz, çörək – hamısı ilə təmin olunur. Şəhərdə çoxlu qaçqın-köçkün vardır. Bu da böyük problemdir. Şəhərdə hər şey, bütün kommunikasiya 250 min əhali üçün nəzərdə tutulmuşdu. Amma indi olub 500 min əhali. Hələ gəlib-gedən qonaqları demirəm.

İLHAM ƏLİYEV: Bəli, buna görə biz son illər ərzində ən böyük elektrik stansiyasını məhz Sumqayıtda tikirik. 517 meqavat gücündə stansiya həm Sumqayıtı dayanıqlı elektrik enerjisi ilə təmin edəcək, həm də ümumiyyətlə, bizim energetika sistemimizi sağlamlaşdıracaqdır. Bakı-Sumqayıt yolunun tikintisi artıq başa çatıbdır. Beton örtüklü gözəl yoldur. İndi beton örtüklü yollar ancaq dünyanın ən inkişaf etmiş ölkələrinin ən birinci şəhərlərində salınır. Bu ətrafda heç yerdə beton örtüklü yol yoxdur. Biz bunu Bakıdan Sumqayıta tikdik. İndi Sumqayıtdan şimal sərhədinə qədər gedəcəkdir. Şəhərlərarası yol işıqlandırılacaqdır. Mən bunu bilirəm, işıqlandırılan şəhərlərarası yollar ancaq nadir hallarda Avropanın ən böyük şəhərlərində var. Başqa şəhərlərarası yollarda işıq yoxdur. Burada isə olacaqdır.

Yəni bütün bunlar şəhər üçün, insanların yaxşı, rahat yaşaması üçündür. Binalar rənglənir, bərpa olunur, xiyabanlar, parklar salınır. Kanalizasiya, su təchizatı məsələləri həll edilir. Məktəblər tikilir, təmir olunur. Bu gün mən böyük Paralimpiya Mərkəzinin açılışında iştirak etdim. Ondan əlavə, böyük idman kompleksi tikilir. Yəni bütün bunlar onun üçündür ki, insanlar yaxşı yaşasınlar. Bura həm böyük, həm də müasir sənaye şəhəri olacaqdır. Yəni Azərbaycana lazım olan sənaye müəssisələrində insanlar işlə təmin edilsinlər və həm sosial məsələlərin həlli, insanların rahatlığı üçün, həm də gözəllik üçün şəhərin böyük imkanları olsun. Siz burada yaşayırsınız, məndən daha yaxşı bilirsiniz ki, son illər ərzində burada böyük işlər görülübdür.

SAKİN: Sizi Sumqayıt gəncləri adından salamlamaq, bu gün gənclərə, gənc ailələrə göstərilən dövlət qayğısına görə təşəkkürümü bildirmək istəyirəm. Elə bu Paralimpiya Kompleksinin tikintisi hər cəhətdən sağlam gənclərin yetişməsi üçün böyük imkan yaradır. Yəni gənclər pis vərdişlərdən uzaq olurlar. Həqiqətən də, biz bunun şahidiyik, həyatda öz gözlərimizlə görürük. Bütün bunlara görə Sizə çox sağ olun deyirik.

Pekində idmançılarımızın uğurlarını, Sizin onlara dəstək olmağınızı, Azərbaycan bayrağının qalxmağını görəndə, himnimizi eşidəndə sevincdən

göz yaşlarımız axırdı. Doğrudan da qürur hissi keçiririk ki, belə bir dövlətin vətəndaşlarıyıq, belə bir Prezidentimiz var. Cənab Prezident, Sumqayıt gəncləri hər zaman Sizinlə olacaqdır. Mən bunu tam əminliklə deyirəm.

İLHAM ƏLİYEV: Çox sağ olun, təşəkkür edirəm. Bizim həm çox gözəl, vətənpərvər gənc nəslimiz yetişir, həm də veteranlarımız belə möhkəmdirlər.

SAKİN: Allah Azərbaycana kəc baxanı zəlil etsin, gözlərini kor etsin, Azərbaycan inkişafdadır.

SAKİN: İlham müəllim, bütün müəllimlər adından, bütün veteranlar adından Sizə öz təşəkkürümüzü bildiririk ki, Siz pensiyaçıların təqaüdünü 25 faiz artırdınız. Bu, gələcəkdə bizim güzəranımızın yaxşı olmasından xəbər verir. Təşəkkür edirik, çox sağ olun.

İLHAM ƏLİYEV: Sağ olun, bəli və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycanda ildə iki dəfə pensiyaların və minimum əməkhaqqının həddi qaldırılır və bundan sonra da biz bunu edəcəyik. Bizim iqtisadi islahatlarımız, iqtisadi imkanlarımız, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyamız buna imkan yaradır. İndi Azərbaycan çox sabit ölkədir. Hər bir inkişaf üçün ən başlıca şərt sabitlikdir. Bu da var, Azərbaycan inkişaf edir, vətəndaşlar təhlükəsizlik, sülh, əmin-amanlıq şəraitində yaşayırlar.

SAKİN: Cənab Prezident və Mehriban xanım, bizim Sumqayıt şəhərinə xoş gəlmisiniz. Ümummilli liderimiz Heydər Əliyevə Allah rəhmət eləsin. Mən onunla çox görüşmüşəm, onunla şəklim də var. İkinci dəfədir ki, Sizinlə görüşürəm. Yenə də deyirəm, xoş gəlmisiniz, qədəmləriniz uğurlu olsun.

Rəhmətlik Heydər Əliyevin apardığı siyasəti Siz davam etdirirsiniz, onun qoyduğu yolla gedirsiniz. Bu beş ildə hər sahədə nə qədər inkişaf var, bunlar barədə çox danışmaq olar. Əfv Fərmanına, pensiyaların artırılmasına görə minnətdarıq Sizə. Çox sağ olun, canınız sağ, ömrünüz uzun olsun. Azərbaycanımız durduqca, Siz də var olun. Sağ olun, Mehriban xanım.

İLHAM ƏLİYEV: Sağ olun, təşəkkür edirəm.

***28 avqust 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK RTMİŞDİR

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

İkimərtəbəli, müasir memarlıq üslubunda tikilmiş binanın birinci mərtəbəsində eksponatlar 4 bölmədə yerləşdirilmişdir. Birinci bölmədə ümummilli lider Heydər Əliyevin həyatının uşaqlıq və gənclik illərinə, sovet dövründəki fəaliyyətinə dair fotoşəkillər nümayiş etdirilir. İkinci bölmədə dünyanın görkəmli şəxsiyyətlərinin ulu öndər barədə kəlamları ilə tanış olmaq mümkündür. Digər bölmələrdə isə ümummilli liderin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini, ötən əsrin 70-80-ci illərində və ölkəmizin müstəqilliyi dövründə Cəlilabada səfərlərini əks etdirən fotoşəkillər toplanmışdır.

Muzeyin ikinci mərtəbəsində kompyuter və inzibati otaqlar, arxiv yerləşir.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

***7 sentyabr 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV SEYRƏNGAHI İLƏ TANIŞ OLMUŞDUR

Beş hektar sahədə yerləşən seyrəngahda süni göl, fəvvarə, pilləli şəlalə yaradılmışdır, uşaq-əyləncə mərkəzi və beş istirahət kotteci də vardır. Burada üçmərtəbəli hotel, kafe, çayxana, yeməkxana fəaliyyət göstərir. Bu obyektlərdə 40 nəfər işlə təmin olunmuşdur.

Dövlətimizin başçısı seyrəngahda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

MİRAĞA SALMANOV (sakin): Cənab Prezident, Sizin keçən gəlişinizdən ötən bir ildə Cəlilabad simasını o qədər dəyişib ki, tanınmaz olubdur. Bunların hamısını bizə Siz bəxş etmisiniz. Sizin sayənizdə bunlara nail olmuşuq, cənab Prezident.

Cəlilabadda quruculuq işləri göz qabağındadır. Sizin keçənilki tapşırığınıza əsasən Yardımlı-Cəlilabad yolu çəkilibdir. Bu yolun üstündə 60 kənd var. Cənab Prezident, keçmişdən belə bir adət var, deyirlər ki, yol çəkənin atasına rəhmət! Allah Sizin atanıza qəni-qəni rəhmət eləsin. 1998-ci ildə mənə ulu öndərlə görüşmək nəsib olmuşdur. Bu gün də Sizin o nurlu simanızı görürəm. Vallah, mən səmimi adamam, hamı başa düşür, həmin nur sizin üzünüzdən yağır. Allah Sizi uca etsin, bəd-nəzərdən qorusun, cənab Prezident!

Cənab Prezident, çox sağ olun, bütün cəlilabadlılar Sizə minnətdarlıq edir ki, indi biz həkim müayinəsindən keçməyə yüz kilometrlərlə yol ölçüb Bakıya yox, Lənkərana gedirik. Amma Sizin sayənizdə xəstəxana yaradılıb, biz daha heç Lənkərana da getməyəcək, elə Cəlilabadda müayinə olunacağıq.

Cənab Prezident, Siz bizim gələcəyimizi düşünürsünüz, uşaqlarımızın qayğısına qalırsınız. Biz çox fəxr edirik ki, belə bir Prezidentimiz var. Elə bil, bu, Allahın bizə bəxş etdiyi bir nemətdir. Hazırda burada da idman kompleksi tikilir, bunlar Azərbaycan xalqının gələcək nəsillərinin sağlamlığına xidmət edəcəkdir. Sizi Olimpiadada da gördük. Biz fəxr etdik, Siz idmançılarımıza ruh verirdiniz.

Cənab Prezident, bu gün Cəlilabadda gedən işləri saymaqla qurtarmaq olmaz. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən məktəblərimiz var. Bu seyrəngahı bizə Siz bəxş etmisiniz. Vaxtilə bura zibillik idi. Siz özünüz

də görmüşdünüz. Deyirəm ki, Allah bizə bir 20 il də ömür versin, Sizin bu yaratdığınız cənnətdə biz də yaşayardıq.

İLHAM ƏLİYEV: Sağ olun. Bu inkişafı görəndə mən də çox sevinirəm. Yadımdadır ki, keçən il mən burada olarkən işlər hələ tam başa çatmamışdı, yarımçıq idi. Amma görünürdü ki, gözəl bir seyrəngah olacaqdır. Son bir il ərzində burada çox güclü işlər görülüb. Siz burada yaşayırsınız, görürsünüz, hiss edirsiniz. Mən də vaxtaşırı gəlirəm və görürəm, həm yeni-yeni yollar salınır, işıq dirəkləri qoyulur, binaların xarici görkəmi dəyişir. Gözəl park – Heydər parkı, Heydər Əliyev Muzeyi, bir neçə məktəb tikilib, biz açılışını qeyd elədik. Bu da çox vacibdir. Azərbaycanın gələcək inkişafı üçün mütləq bilikli vətəndaşlar olmalıdır. Uşaqlar yaxşı şəraitdə oxumalıdırlar. Müəllimlər üçün də yaxşı şərait yaradılmalıdır. İndi Olimpiya kompleksi tikilir, yəqin ki, gələn il onun da açılışında iştirak edəcəyəm.

Müalicə-Diaqnostika Mərkəzi tikilir. Əvvəllər biz hər bir bölgədə, hər bir regionda diaqnostika mərkəzinin tikintisinə nail olmuşduq, amma indi bütün rayonlarda yaradılır. Ən yüksək tibbi xidmət göstəriləcəkdir, yəni bu, insanların rahatlığı üçündür. Bütün bu qoyulan investisiyalar – Olimpiya Kompleksi, məktəblər, xəstəxana – bunlar hamısı kommersiya xarakteri daşımır, sadəcə olaraq, insanların daha da yaxşı yaşaması üçündür. Cəlilabad-Yardımlı yolunun tikintisinə də başlamışıq. O vaxt mənə müraciət olunmuşdu ki, belə bir layihə var və bu yola böyük ehtiyac var. Yol tikilib qurtarandan sonra, əminəm ki, kəndlərdə yaşayan insanların həyat səviyyəsi xeyli dərəcədə yaxşılaşacaq, mərkəzi yollarla əlaqə yaxşılaşacaqdır. Bu kəndlərə daha da çox insanlar gedib iş görəcəklər. Müxtəlif biznes imkanları yaranacaqdır.

Yəni bütün bunlar ona görə edilir ki, insanlar daha da yaxşı yaşasınlar. Cəlilabadda həm sənaye potensialı inkişaf edir, – mənə verilən məlumata görə, son dörd ildə sənaye istehsalı iki dəfədən çox, ümumi daxili məhsul iki dəfədən çox artıb, bu, böyük nəticə, böyük nailiyyətdir, – həm də burada işlər böyük zövqlə, səliqə ilə aparılır. Biz görürük ki, bu parklar, burada əkilən ağaclar necə gözəldir. Bu, xüsusi diqqət tələb edir və mən çox şadam ki, burada yerli rəhbərlik də çox fəal işləyir. Əslində, bizim uğurumuzun səbəbi bundadır. Biz düzgün qərarlar qəbul edirik, vəsait ayırırıq, büdcə xərcləri ildən-ilə artır. Yerlərdə bütün fəallar, bütün vəzifəli şəxslər, ictimaiyyət – hərə öz yerində gərək səmərəli işləsin ki, inkişaf daha da sürətlə getsin.

Mən çox şadam ki, Cəlilabadın simasında biz Azərbaycanda son illər ərzində gedən işlərin nəticələrini görürük. Siz də bunu görürsünüz. Siz bu-

rada yaşayırsınız, bəlkə də, bu yaxşı dəyişikliklərə tez öyrəşirsiniz, bu da çox yaxşıdır. Amma mən, misal üçün, keçən il gəlmişdim, ondan əvvəl 2005-ci ildə gəlmişdim və hər dəfə gələndə bu dəyişiklikləri görürəm və sizinlə bərabər mən də buna sevinirəm.

MİRAĞA SALMANOV: Hamımız gördük ki, çətin vəziyyətlərdə necə təmkinli qərarlar qəbul etdiniz. Xalq bunu görür, hamı duyur, hamı danışır. Vallah, bunu demək lazımdır.

İLHAM ƏLİYEV: Biz ölkəmizi qorumalıyıq, Azərbaycanın müstəqilliyini qorumalıyıq, möhkəmləndirməliyik, ölkəmizin milli maraqlarının təmin olunması üçün nə lazımdırsa, onu da edəcəyik və edirik. Hər bir atılan addım istər daxildə, istərsə də bölgədə Azərbaycanı gücləndirir. Bizim bölgədə mövqelərimiz böyük dərəcədə möhkəmlənibdir.

Son illər, aylar ərzində, bölgədə Azərbaycanın nüfuzu, Azərbaycanın çəkisi, regionda aparıcı ölkə kimi dünya birliyinə özünü təqdim etməsi – bütün bunlar reallıqlardır. Bütün dünya bunu görür, bunu dərk edir, dəstəkləyir. Azərbaycan bölgədə sabitləşdirici rol oynayır və bu rol getdikcə artır. Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik və rifah içərisində yaşamalıdır. Bunu etmək üçün bizim bütün imkanlarımız var: ölkədə qəbul edilmiş proqramlar, artan maddi imkanlarımız, uğurlu neft strategiyamız, sosial məsələlərin həlli. Hansı istiqamətə baxsaq görərik ki, inkişaf var. İqtisadi inkişaf baxımından dünyada ikinci belə bir ölkə yoxdur ki, son dörd il ərzində iqtisadi artım bu qədər sürətlə getsin. Yəni, biz dünya miqyasında bir nömrəli ölkəyik.

Sosial məsələlərin həlli baxımından təkcə Cəlilabad rayonunda deyil, bütün başqa rayonlarda da, hər yerdə məktəblər, xəstəxanalar, yollar, yeni fabriklər, zavodlar tikilir. Bölgələr inkişaf edir, yeni iş yerləri açılır. Son beş il ərzində 700 mindən çox yeni iş yeri açılmışdır. Bu, böyük bir nailiyyətdir. Hər bir iş yeri insanlara daha da yaxşı şərait yaradır, onları daha da yaxşı əmək haqqı ilə təmin edir, eyni zamanda, daxili istehsal artır.

Azərbaycan indi özünü ən zəruri əksər ərzaq məhsulları ilə 85-95 faiz səviyyəsində təmin edir. Heç vaxt belə olmamışdır. Burada ağsaqqallar, təcrübəli insanlar var, bilirlər, vaxtilə Sovet İttifaqında hər bir respublika üzrə xüsusi iqtisadi planlar var idi. Məsələn, Azərbaycanda kənd təsərrüfatı əsasən üzümçülük, pambıqçılıq istiqamətində inkişaf edirdi. Başqa respublikalardan isə ət, yağ, digər ərzaq məhsulları gətirilirdi. İndi biz özümüzü təmin edirik. Şəkərlə 100 faiz, bitki yağları ilə 100 faiz təmin edirik. Kə-

rə yağı, süd, ət, yumurta ilə, meyvə-tərəvəzlə Azərbaycanda istehsal olunan məhsullar hesabına təmin edirik. Təkcə taxıl istehsalında biz hələ ki, xarici idxaldan asılıyıq. Ancaq son qərarlar, kənd təsərrüfatının inkişafına dair atılmış addımlar bu istiqamətdə də böyük irəliləyişə gətirib çıxaracaqdır. Biz indi elə etməliyik ki, taxıl istehsalı tam şəkildə Azərbaycanı təmin etsin. Beləliklə, Azərbaycanda ərzaq təhlükəsizliyi məsələsi həll olunur.

Enerji təhlükəsizliyini təmin etmişik, indi başqa ölkələrə enerji daşıyıcıları ixrac edirik. Nəqliyyat təhlükəsizliyini təmin etmişik. Qonşu ölkələrlə bizim nəqliyyat əlaqələrimiz güclənibdir. İndi Bakı-Astara avtomobil yolu tikilir, bir hissəsi tikilibdir. Dəmir yolu, hava nəqliyyatı və ərzaq təhlükəsizliyi – bax, bu üç əsas məsələ indi demək olar ki, bütün ölkələri narahat edir. Dünyada enerji daşıyıcılarının, ərzaq məhsullarının qiyməti artır. Əgər biz idxaldan asılı olsaq, Azərbaycanda da qiymətlər artacaqdır. Bizdə də bu var – inflyasiya, qiymət artımı var. Amma elə etməliyik ki, daxildə istehsal olunan məhsullar qiymətin aşağı salınmasına gətirib çıxarsın. Əlbəttə ki, bütün bu nəticələrə çatmaq üçün ölkəmizdə sabitlik, əmin-amanlıq davam etməlidir.

Azərbaycan öz əməyi ilə bütün bu uğurları əldə edibdir. Əminəm ki, gələcək illər üçün nəyi nəzərdə tutmuşuqsa, onu da edəcəyik.

LYUBOV DANİLOVA (sakin): Çox hörmətli cənab Prezident, axır ki, mən vaxtilə Sizin atanıza dediyim kimi, ən səmimi, xoş sözlərimi indi də Sizə ünvanlamaq imkanı əldə etdim. Bu gün biz Sizi bərəkətli Cəlilabad torpağında salamlamağımıza çox şadıq. Axı, Siz ümummilli liderin davamçısısınız, elə böyük insanın, əsrin insanının işlərini davam etdirirsiniz. Biz Sizin ailənizi sevirik. Sizin ünvanınıza çox xoş sözlər söyləmək olar. Heydər Əliyev bizim rayonda tez-tez olur, onu sevirdi. Bəlkə də mən eqoist adamam, əlbəttə, o, başqa rayonları da sevirdi, lakin hələ uşaq vaxtımdan yadımdadır ki, o, bizim rayonu çox sevirdi. Həmişə deyirdi ki, nə üçün Cəlilabadda üzüm yoxdur, nə üçün Cəlilabadda, Privolnoye kəndində gül-çiçək, ağaclar yoxdur. Bu gün biz hiss edirik ki, Siz də rayonumuza çox böyük qayğı göstərirsiniz. Ona görə də rayonumuz vaxtilə Heydər Əliyevin sayəsində olduğu kimi, indi də Sizin sayənizdə tərəqqi edir. Bu gün bizim hamımızın sevimlisi, ölkəmizin birinci xanımı Mehriban xanım haqqında söz deməmək olmaz. O, Sizin bütün qərarlarınızı həyata keçirmək üçün çox iş görür. İdmana xüsusi diqqət yetirilir.

Biz artıq 200 ildən çoxdur ki, bu gözəl, xeyirxah diyarda yaşayırıq. Heç vaxt din, dil, təhsil və mədəniyyətlə bağlı problemlərlə üzləşməmişik. Biz hamımız bir beynəlmiləl ailədə yaşayırıq. Bu fikri belə bir fakt da təs-

diqləyir ki, bu gün mənim rəhbərlik etdiyim "Ruçeyok" rus folklor ansamblı 1987-ci ildən bəri respublikada keçirilən bütün tədbirlərdə iştirak edir. Bir haşiyə çıxmaq istəyirəm: Mən Heydər Əliyevi çox sevirdim, ömrümün axırına qədər də onu unutmayacağam. Mən ona həmişə deyirdim: Heydər Əliyeviç, mənim atam yoxdur, Siz mənə ata əvəzi olmusunuz. Heydər Əliyeviçin andiçmə mərasimi münasibətilə qoşduğumuz çastuşka bütün dünyaya yayılmışdı, çünki bir çox ölkənin telekanalları bu hadisəni lentə çəkmişdi. Hörmətli İlham Heydəroğlu, mən Sizin üçün də bir çastuşka hazırlamışam.

Çox sağ olun ki, Siz ümummilli liderin işini davam etdirirsiniz. Siz həmişə xalqın yanındasınız. Sizin həmişə beləcə cavan, əzmkar olmağınızı arzu edirik. Qoy, bizim çiçəklənən doğma Azərbaycan bundan sonra da tərəqqi etsin, qoy, bütün dünyada Heydər Əliyevi tanıdıqları kimi, bu diyarı da tanısınlar. Heydər Əliyev bizim hamımız üçün yeni yol açmışdır. Onun sayəsində ölkəmizdə sülh və əmin-amanlıq bərqərar olmuşdur. Respublikamız onun sayəsində dünya səhnəsinə çıxmış, bütün beynəlxalq təşkilatların tamhüquqlu üzvü olmuşdur. İlham Heydər oğlu, Sizə, ailənizə, uşaqlarınıza, xoşbəxtlik diləyirik. Qoy, ailənizdə həmişə firavanlıq olsun, Siz də həmişə ailənizin üstündə olun.

İLHAM ƏLİYEV: Sağ olun, bu səmimi sözlərinizə görə təşəkkür edirəm. Doğrudur, Heydər Əliyev Cəlilabadı həmişə çox sevirdi. Siz düz dediniz ki, Heydər Əliyev dəfələrlə burada olmuşdur. Demək olar ki, hər il buraya gəlirdi. 1970-ci illərdə sizin rayon tərəqqi edirdi. Burada başqa rayonlardan daha çox üzüm istehsal olunurdu. Rayonda çoxsaylı sosial obyektlər tikilmişdi. Heydər Əliyev Azərbaycandan gedəndən sonra nə oldu – tənəzzül başlandı, hər şey dağıldı. Ölkəmiz müstəqillik əldə edəndən sonrakı ilk illərdə onun inkişaf perspektivi yox idi, müstəqilliyi itirmək təhlükəsi yaranmışdı. Təxminən 1980-ci illərin ortalarından 1993-cü ilə qədər sözün tam mənasında Azərbaycanda ən ağır dövr idi. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra isə dirçəliş prosesi başlandı. Bu gün Azərbaycan ən dinamik inkişaf edən ölkədir. Bizdə bütün xalqlar bir ailə kimi yaşayır. Bizdə milli, dini və dil mənsubiyyətinə görə heç bir ayrı-seçkilik yoxdur və bu, həmişə belə olacaqdır. Bu baxımdan, Azərbaycan dünya dövlətlərinin çoxu üçün nümunədir. Çünki bizim ölkədə millətlərarası həmrəylik hökm sürür, bütün xalqlar arasında sülh, dostluq, qardaşlıq münasibətləri möhkəmlənir, hər kəsin öz ənənələrini, öz dinini, dilini, mədəniyyətini qoruyub saxlamaq və onları zənginləşdirmək imkanı var. Ölkəmizin xüsusiyyəti bundadır. Bizim əhatəmizdə elə ölkələr var ki, orada yalnız bir millət yaşayır, başqa millətlər yoxdur, yalnız monomillət vardır. Bu isə heç bir

yaxşı nəticəyə gətirib çıxarmayacaqdır. Bu onu göstərir ki, həmin ölkələrdə başqa xalqların yaşaması çətindir. Onlar bir-biri ilə yola getmir, təzyiqlərə, təqiblərə, müxtəlif mənfi təsirlərə məruz qalırlar. Azərbaycanda isə əksinə, hamı bir ailə kimi yaşayır, hamı sevinir, fərəhlənir.

LYUBOV DANİLOVA: Hətta vaxtilə bizim kənddən köçüb getmiş adamlar da indi geri qayıdırlar. Ən başlıcası isə, hörmətli İlham Heydər oğlu, deməliyəm ki, mən tez-tez Rusiyada oluram. Bilirsinizmi, Cəlilabaddan köçüb gedənlər onun haqqında necə səmimi sözlər söyləyirlər, nə qədər xoş xatirələri var. Qadınlardan biri deyirdi ki, biz tarlada işlədiyimiz vaxt Heydər Əliyev gəlmişdi, mənim əllərim çirkli idi, o isə mənim əlimi sıxdı. Bu, insana xas olan səmimiyyətdir. İnsanlar məhz belə cəhətləri xatırlayırlar. Bütün görüşləri xatırlayırlar – əsas məsələ budur. Allah Heydər Əliyevə rəhmət eləsin. Heydər Əliyev həmişə qəlbimizdədir – dar günümüzdə də, fərəhli anlarımızda da.

İLHAM ƏLİYEV: Onun işləri davam etdirilir.

LYUBOV DANİLOVA: O, daim bizim qəlbimizdə yaşayacaq, heç kəsin yadından çıxmayacaqdır. Kaş, hamının belə prezidentləri olsun.

***7 sentyabr 2008-ci il***

## BAKIDA BÖYÜK ÖZBƏK ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ ƏLİŞİR NƏVAİNİN ABİDƏSİ AÇILMIŞDIR AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İŞTİRAK ETMİŞLƏR

Bakının Nərimanov rayonunda, Azadlıq prospekti ilə Nəcəf Nərimanov küçəsinin kəsişdiyi yerdəki parkda böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin abidəsi açılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti İslam Kərimov mərasimdə iştirak etmişlər.

Parka toplaşmış şəhər sakinləri dövlət başçılarını ehtiramla qarşıladılar. Prezidentlər yeni parkda görülmüş abadlıq işləri ilə tanış oldular. Bildirildi ki, abidənin müəllifi özbəkistanlı memar Ravşan Mirtajiyevdir.

Mərasimi Azərbaycan Prezidenti İlham Əliyev açdı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli dostlar!

Bu gün Özbəkistan və Azərbaycan xalqları arasında münasibətlərin tarixində çox əlamətdar gündür. Bu gün Bakıda, şəhərimizin mərkəzi küçələrindən birində özbək xalqının böyük oğlu, böyük şair, mütəfəkkir, dövlət xadimi Əlişir Nəvainin abidəsi açılır. Bizə çox xoşdur ki, bu gün abidənin açılışında Özbəkistan Prezidenti İslam Abduqəniyeviç Kərimov iştirak edir.

Azərbaycanda Nəvainin yaradıcılığına çox bələddirlər. Bu böyük şairin, demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. O, Özbəkistan ədəbiyyatının, Şərq xalqları ədəbiyyatının inkişafına çox böyük təsir göstərmişdir.

Bu abidə bu böyük insanın xatirəsinə ehtiram əlaməti olmaqla bərabər, həm də əsrlər boyu bir-biri ilə sülh, həmrəylik şəraitində yaşamış, həmişə dostluq etmiş özbək və Azərbaycan xalqları arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir. Bu münasibətlər bu gün də davam edir. İndi, mən deyərdim ki, ölkələrimizin tərəqqisi dövründə, Özbəkistanın və Azərbaycanın müstəqilliyinin, dövlət suverenliyinin möhkəmləndiyi və inamla inkişaf etdiyi dövrdə ölkələrimiz arasında münasibətlər yeni xarak-

ter kəsb edir. Biz keçid dövrünə, transformasiya dövrünə xas olan çətinliklərin, demək olar, hamısını keçmişdə qoymuşuq.

Bu gün artıq heç kəs şübhə etmir ki, həm Özbəkistan, həm də Azərbaycan gələcəkdə də fəal inkişaf edəcək, inteqrasiya, kooperasiya edəcək və ölkələrimizin xalqları daha yaxşı yaşayacaqlar. Ona görə də bizim firavanlığımız da, Mərkəzi Asiya və Qafqaz regionunda sülh və sabitlik də ölkələrimiz arasında sıx münasibətlərdən asılıdır. Biz bu münasibətləri çox əziz tuturuq, onlar qardaşlıq münasibətləri xarakteri daşıyır, ənənələrə, möhkəm tarixi bazaya əsaslanır və bu gün çox uğurla inkişaf edir.

Mən çox şadam ki, biz hörmətli qonağımız, Özbəkistan Prezidenti İslam Abduqəniyeviç Kərimovu Bakıda qəbul edirik. Biz dünən və bu gün bir daha yəqin etdik ki, münasibətlərimiz nə qədər yaxındır. Mən dünən İslam Abduqəniyeviçə dedim ki, özbək xalqının bəxti gətirib: onun tarixinin ən məsul dövründə, Özbəkistanın müstəqil dövlət kimi formalaşdığı vaxtda bu ölkəyə İslam Abduqəniyeviç Kərimov rəhbərlik etmişdir.

Bu mənada bizim bəxtimiz az gətirdi. Azərbaycan dövlətçiliyinin formalaşması müstəqilliyin əldə edilməsi ilə eyni vaxtda deyil, iki il sonra başlandı. Bu iki il ölkəmizi geri saldı və müstəqilliyin ilk illərinin ağır nəticələrini aradan qaldırmaq və inkişaf yoluna çıxmaq üçün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çox gərgin səylər göstərməsi lazım gəldi. Bu gün ölkələrimiz arasında yaranmış münasibətlər də çox cəhətdən xalqlarımızın iki liderinin fəaliyyəti, onların dostluğu və şəxsi münasibətləri sayəsində formalaşmışdır.

Biz Azərbaycanda ötən illər ərzində, o cümlədən ölkələrimiz arasında münasibətlərdə seçilmiş xətti davam etdiririk və gələcəkdə də bu münasibətləri inkişaf etdirmək, onları yeni səviyyəyə qaldırmaq üçün lazım olan hər şeyi edəcəyik.

Bakıda Əlişir Nəvainin abidəsinin açılması, şəhərin mərkəzi küçələrindən birinə böyük alim, böyük özbək xalqının nümayəndəsi Mirzə Uluqbəyin adının verilməsi kimi xalqlarımızın həyatındakı mühüm hadisələr isə, sadəcə, münasibətlərimizi səciyyələndirən, qarşılıqlı rəğbət hisslərimizin dərinliyini, qarşılıqlı sevgi və qardaşlıq münasibətlərini əks etdirən səciyyəvi cəhətlərdir.

Mən sizin hamınızı – həm qardaş Özbəkistan xalqını, həm də Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Əminəm ki, bu hadisə gələcəkdə ölkələrimiz arasında daha sıx münasibətlər yaranmasına kömək edəcəkdir.

Sağ olun.

***AzərTAc***
***12 sentyabr 2008-ci il***

# BAKI MUSİQİ AKADEMİYASININ BİNASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Üzeyir musiqi günündə Bakı Musiqi Akademiyasının binasının əsaslı təmir-bərpa işlərindən sonra açılış mərasimi olmuşdur.

Mərasimə toplaşmış müəllim və tələbələr, mədəniyyət və incəsənət xadimləri Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.

Dövlətimizin başçısı və xanımı əvvəlcə dahi bəstəkar Üzeyir Hacıbəylinin akademiyanın binası qarşısındakı abidəsi önünə gül dəstələri qoydular.

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin və Dövlət Xor Kapellasının ifasında ölməz "Koroğlu" operasından parçalar ifa olundu.

Sonra Prezident İlham Əliyev binada aparılmış əsaslı təmir-bərpa işləri ilə tanış oldu.

Təmir-bərpa işlərinə "Bakı Musiqi Akademiyasının maddi-texniki bazasının yaxşılaşdırılması haqqında" Prezident Sərəncamına uyğun olaraq, keçən ilin sentyabrında başlanmışdı. Binanın əsaslı təmirinə və akademiya üçün yeni musiqi alətlərinin alınmasına Prezidentin Ehtiyat Fondundan 7 milyon manat vəsait ayrılmışdı.

Bir ilə yaxın müddətdə görülmüş işlərin nəticəsində bina tamamilə yeni görkəm almışdır. Ən müasir materiallardan istifadə olunmaqla binanın fasadı, otaqları, kabinetləri əsaslı təmir olunmuş, istilik və havalandırma sistemi, mühəndis-kommunikasiya xətləri yenilənmişdir. Bu işlərdə Almaniya və İtaliya istehsalı olan avadanlıq və materiallardan istifadə edilmişdir. Binanın tarixi memarlıq üslubu qorunub saxlanmış, 1300 kvadratmetr sahədə qranit və mərmərdən istifadə olunmuşdur.

Dünya şöhrətli bəstəkar Qara Qarayevin vaxtilə dərs dediyi sinif, 308 tamasaçı yeri olan orqan musiqisi salonu, 600-dən çox tamasaçı yeri olan Şövkət Məmmədova adına Opera studiyası da yüksək səviyyədə yenidən qurulmuş, müasir akustika və işıq sistemləri quraşdırılmışdır.

Bundan əlavə, akademiyanın maddi-texniki bazası da müasirləşdirilmiş, bir çox yeni alətlər alınmışdır.

Prezident İlham Əliyev binanın fasadına baxdı, sinif otaqlarında oldu, görülmüş işləri yüksək qiymətləndirdi.

Akademiyanın konsert salonunda davam etdirilən mərasimdə dövlətimizin başçısı çıxış etdi.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli xanımlar və cənablar,

Əziz dostlar,

Bu gün ölkəmizin mədəni həyatında çox əlamətdar, gözəl bir gündür. Bu gün, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin doğum günündə Bakı Musiqi Akademiyasının binasının təmirdən sonra açılışını qeyd edirik. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Üzeyir bəyin ölməz, unudulmaz əsərləri Azərbaycan xalqının qəlbində yaşayır və əbədi yaşayacaqdır. Üzeyir Hacıbəyli Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir. Onun yaradıcılıq irsi, ictimai fəaliyyəti Azərbaycanın mədəni həyatının inkişafında çox böyük rol oynamışdır. Azərbaycanın Dövlət himni öz musiqisi ilə, öz əzəməti ilə fərqlənir. Mən çox şadam ki, bu gözəl gündə biz sizinlə birlikdə Bakı Musiqi Akademiyasının, demək olar, yeni həyatının başlanmasını qeyd edirik.

Bildiyiniz kimi, bir il bundan əvvəl bu binanın əsaslı təmiri haqqında mənim tərəfimdən Sərəncam imzalanmışdı və cəmi bir il ərzində bina, demək olar ki, tamamilə yenidən qurulub. Öz memarlığını, tarixi simasını saxlamaqla, bina tamamilə müasirləşibdir. Bu gün akademiya ilə tanış olarkən bir daha gördüm ki, burada ən yüksək standartlar tətbiq edilib, ən gözəl şərait yaradılıbdır. Əlbəttə, burada işləyənlər üçün və oxuyanlar üçün böyük əhəmiyyət kəsb edən odur ki, çox gözəl musiqi alətləri artıq vardır. Əminəm ki, bütün görülən işlər Azərbaycanın musiqi mədəniyyətinin inkişafı üçün də öz müsbət rolunu oynayacaqdır.

Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycanın bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti o cümlədən Azərbaycanın musiqi mədəniyyəti ilə də sıx bağlıdır. Xalqımız uzun illər, demək olar ki, əsrlər boyu müstəqillikdən məhrum idi. Biz başqa ölkələrin tərkibində yaşamışıq. Ancaq öz milli ənənələrimizi saxlamışıq, qorumuşuq, milli-mənəvi dəyərlərimizi qorumuşuq. Mən tam əminəm ki, bu işdə əsas rol oyna-

yan bizim mədəniyyətimiz olubdur. Musiqimiz, ana dilimiz, ədəbiyyatımız olub ki, Azərbaycan, azərbaycanlılar öz milli xüsusiyyətlərini qoruya, saxlaya bilmişdir. Bu gün biz müstəqil ölkə kimi inkişaf edərkən, əlbəttə, çox istəyirik ki, ölkəmizin inkişafı çoxşaxəli olsun. Biz iqtisadi cəhətdən çox sürətlə inkişaf edirik. Azərbaycanda siyasi proseslər çox müsbət istiqamətdə gedir. Bütövlükdə, cəmiyyətdə yaranmış gözəl ab-hava Azərbaycanın ümumi inkişafını təmin edir və gələcəkdə də təmin edəcəkdir.

Əlbəttə ki, belə bir gözəl şəraitdə, dövlətin artan imkanları sayəsində biz həyatımızın bütün sahələrinin inkişafı üçün əməli-praktik tədbirləri görməliyik. İlk növbədə, qeyri-maddi dəyərlərin qorunmasına, inkişafına daha da böyük diqqət göstərməliyik. Bakı Musiqi Akademiyasının əsaslı təmiri, deyə bilərəm ki, yenidən qurulması bunun əyani sübutudur, son illər ərzində Azərbaycanda aparılan siyasətin bir parçasıdır.

Azərbaycanın çox gözəl perspektivləri var. Biz uğurla inkişaf edirik və öz problemlərimizi özümüz həll edirik. Azərbaycanın zəngin təbii ehtiyatları, çox bilikli kadr potensialı, coğrafi vəziyyəti və ölkədə gedən müsbət proseslər, cəmiyyətdə həmrəyliyin möhkəm olması – bütün bu amillər Azərbaycanda həm sabitliyin qorunmasına, möhkəmlənməsinə şərait yaradır, həm də uğurlu inkişafın gələcək addımlarını müəyyən edir.

Bizim ölkəmiz hərtərəfli inkişaf edir, bütün problemlər öz həllini tapır və mən çox istəyirəm ki, biz qarşıda duran bütün vəzifələri daha da tezliklə icra edək. Mən əminəm ki, Azərbaycanın zəngin mədəni irsi, çox gözəl mədəni ənənələri yaşayacaq və gənc nəsil bu ruhda tərbiyə olunacaqdır. Bizim indi əsas vəzifələrimizdən biri ondan ibarətdir ki, Azərbaycanda yetişən gənc nəsil həm bilikli, savadlı olsun, həm də peşəkar, vətənpərvər olsun və gələcək illərdə Azərbaycan etibarlı əllərdə olsun. Bütün dövrlərdə. Çünki bugünkü gənclər bir müddətdən sonra ölkənin gələcək inkişaf istiqamətlərini müəyyən edəcəklər, onların qərarlarından ölkəmizin taleyi asılı olacaqdır. Elə etməliyik ki, Azərbaycanda yetişən gənc nəsil bütün bu sadaladığım parametrlərə uyğun olsun. Bunu etmək üçün, əlbəttə ki, təhsil məsələlərinə biz çox böyük diqqət göstərməliyik.

Bakı Musiqi Akademiyası həm mədəniyyət ocağı, həm də təhsil ocağıdır. İki vacib istiqaməti özündə birləşdirir və hər iki istiqamətdə Azərbaycan dövlətinin çox ciddi, düşünülmüş və konkret proqramları vardır.

Azərbaycanın artan imkanlarını, ilk növbədə insan kapitalının möhkəmlənməsinə yönəldirik. İndi təhsil məsələlərinə ayrılan xərclər büdcəmizin böyük hissəsini təşkil edir və ildən-ilə bu xərclər artır. Azərbaycanda məktəb tikintisi geniş vüsət almışdır. Son 4-5 il ərzində 1400 yeni mək-

təb tikilibdir. Demək olar ki, yeni tikilmiş bütün məktəblərdə kompyuterləşmə məsələləri öz həllini tapıbdır. Əgər beş il bundan əvvəl 1000 şagirdə 1 kompyuter düşürdüsə, bu gün 29 şagirdə 1 kompyuter düşür. Bu nə deməkdir? Bu o deməkdir ki, bizim uşaqlarımız kiçik yaşlarından yeni texnologiyalara bələd olacaqlar. Onlar daha da bilikli, dünyaya açıq olacaqlar, dünyada gedən prosesləri izləyəcəklər. Dünyada mövcud olan bütün yenilikləri öyrənəcəklər. Hər halda, belə imkan yaranacaq və onlar orta məktəbi bitirərkən artıq öz hazırlıq səviyyəsinə görə daha da peşəkar ola bilərlər. Ali məktəbin əlbəttə ki, bu işlərdə rolu daha da vacibdir ki, insanın formalaşması daha çox ali məktəb divarları arasında başlayır. Azərbaycanda ali məktəblərdə aparılan islahatlar, təhsilin keyfiyyətinin təkmilləşlməsi, əlbəttə ki, bizi çox sevindirir. Ancaq təbii ki, daha da böyük işlər görmək lazımdır. Əminəm ki, Azərbaycanda bu istiqamətdə aparılan siyasətin davam etməsi nəticəsində biz bütün bu məqsədlərə çatacağıq. Azərbaycan gəncləri həm mənəvi cəhətdən, həm fiziki cəhətdən, həm də peşəkarlıq baxımından ən yüksək meyarlara uyğun olacaqlar.

Hər bir ölkənin inkişafı, əlbəttə ki, müxtəlif amillərlə ölçülür. Burada həm iqtisadi potensial rol oynayır, ölkələrin coğrafi mövqeyi, siyasi proseslərin müsbət istiqamətə yönəldilməsi və həm də, əlbəttə ki, hər bir ölkənin mədəni həyatı, mədəni irsi və potensialı böyük rol oynayır. Ölkələr haqqında dünyada yaranan fikirlər xeyli dərəcədə onların mədəni həyatının zəngin olmasından asılıdır. Biz bunu bilirik. Bu, belə sahədir ki, bunu gizlətmək mümkün deyildir. Bəzi hallarda dünyada gedən proseslər və siyasi addımlar, eyni zamanda, kütləvi informasiya vasitələrində Azərbaycan haqqında verilən məlumatlar həqiqəti əks etdirmir. Dünya ictimaiyyəti üçün aydın deyil ki, bizim ölkəmiz son dörd il ərzində dünya miqyasında iqtisadi inkişaf baxımından birinci ölkədir. Dünya Bankının hesablamalarına görə, bu il Azərbaycan islahatların aparılması sahəsində birinci ölkədir. Ancaq ölkəmizin mədəni həyatı, ölkəmizdə güclü kadrların mövcudluğu, peşəkar ifaçıların, mədəniyyət xadimlərinin fəaliyyəti, əlbəttə ki, daha da çox diqqəti cəlb edir. Biz çalışmalıyıq ki, Azərbaycanı dünya birliyinə lazımi səviyyədə təqdim edək. İstəyirik ki, bizi tanısınlar, daha da yaxından tanısınlar. Buna nail olmaq üçün, şübhəsiz, mədəniyyət xadimlərinin fəaliyyətindən çox şey asılıdır.

Bu gözəl fürsətdən istifadə edib bir də demək istərdim ki, Azərbaycan Respublikasının Prezidenti kimi mən Azərbaycanın mədəni həyatının inkişafı üçün, mədəniyyətlə bağlı bütün tədbirlərin görülməsi üçün bundan sonra da öz səylərimi göstərəcəyəm.

Bu gün bu işlər çox geniş vüsət alıbdır. Azərbaycanda, demək olar ki,

bütün teatrlar təmir olunur, yenidən tikilir, bütün muzeylərdə təmir-bərpa işləri aparılır. Bütün bu işlər ən yüksək səviyyədə görülür. Yəni bizim istəyimiz odur ki, Azərbaycanda mədəniyyətlə bağlı olan bütün işlər, bütün tikinti işləri ən yüksək dünya standartlarına cavab versin və biz buna nail oluruq.

Biz hələ bu işin əvvəlindəyik, başladığımız böyük quruculuq, abadlıq işləri yəqin ki, bu il və gələn il başa çatacaqdır. Ondan sonrakı illərdə mədəniyyətlə bağlı bütün infrastruktur obyektləri yeniləşməlidir, yenidən tikilməlidir və ən qabaqcıl dünya standartlarına uyğunlaşdırılmalıdır.

Necə ki, bu gün deyə bilərəm, Bakı Musiqi Akademiyası gözəllik baxımından, memarlıq baxımından və təchizat baxımından Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada işləmək də, oxumaq da xoşdur. Həm müəllimlər, həm də tələbələr üçün çox gözəl şərait yaradılıbdır.

Doğma Bakımızın siması dəyişir, bütün tarixi binalar təmir olunur. Bilirsiniz ki, bununla bağlı bir müddət əvvəl mən xüsusi Sərəncam imzalamışdım və Bakıdakı bütün tarixi binaların yeniləşdirilməsi, bərpası və original formaya çatdırılması işində artıq böyük nailiyyətlər var və bu proses davam edir. Mən bilirəm ki, Bakı sakinləri bu işləri çox böyük sevinclə qarşılayırlar, hər birimiz buna sevinirik. Tarixi binaların təmirindən sonra yeniləşən simaları hər bir Bakı sakinini sevindirir.

Bir sözlə, mədəniyyətin inkişafı ilə bağlı çox işlər görülübdür. Azərbaycan dövləti ölkəmiz üçün vacib olan bu sahəyə bundan sonra da lazımi diqqət göstərəcəkdir. Dövlət Azərbaycanın mədəni həyatının daha da inkişafı üçün öz işini davam etdirəcəkdir.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə mən bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Bakı Musiqi Akademiyasının bütün kollektivinə yeni uğurlar və yeni qələbələr arzulayıram.

Sağ olun.

◆◆◆

Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti, professor FƏRHAD BƏDƏLBƏYLİ mərasimdə çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Siz Üzeyir bəyin ocağına xoş gəlmisiniz. Biz bu gün doğrudan da xoşbəxtik, ona görə ki, bu gün bizim üçün əziz bir gündür. 1995-ci ildə ulu öndərimiz Heydər Əliyev xüsusi Fərman imzalayıb və bu gün – 18 sentyabr həmişə Üzeyir musiqi günü kimi bütün Azərbaycanda qeyd edilir.

O ki qaldı, bu binaya – bu, bizim evimizdir. Təsəvvür edin, hamımız, burada oturanlar 5 yaşından bu binaya gəlirik, çünki Bülbül adına məktəb vaxtilə burada yerləşirdi. Ona görə bura bizim üçün çox əzizdir.

Üzeyir bəyin ocağı yaşayır. İndi bu ocaqda Azərbaycanın ən görkəmli bəstəkarları, ifaçıları toplaşıblar, Siz onların hamısını tanıyırsınız. Onlar Prezident təqaüdçüləridir. Bizdə 20 nəfər Prezident təqaüdçüsü var. Mən bilmirəm, hansı təhsil ocağında bu qədər Prezident təqaüdçüsü var? Müəllimlərimiz can-başla işləyirlər, son on ildə beynəlxalq müsabiqələrdə 1-ci, 2-ci, 3-cü yerləri tutan, laureat, diplomant adına layiq görülən neçə-neçə tələbəmiz olmuşdur.

Mən adları demək istəmirəm, amma cənab Prezident, çox istərdim ki, Sizin Sərəncamınızı yerinə yetirən ən yüksək vəzifəli şəxslərdən tutmuş, fəhlələrə qədər hamıya ürəkdən minnətdarlığımı bildirəm. Çünki onlar qışın soyuğunda, yayın istisində gecə-gündüz işləyiblər, çalışıblar ki, məhz 18 sentyabra qədər işi qurtarsınlar. Biz çox xoşbəxtik ki, buna nail ola bildik.

Mən çox danışmaq istəmirəm. Sadəcə, demək istərdim, biz xoşbəxtik ki, Sizin yanınızda çiyin-çiyinə Mehriban xanım var. Musiqimizin təbliği sahəsində Mehriban xanımın xüsusi xidmətləri var. Dünən onun son layihələrini, möhtəşəm “Üzeyir dünyası” və “Muğam ensiklopediyası” layihələrinin təqdimatı oldu. Uşaqların və gənclərin simfonik orkestri Parisdə, YUNESKO-da çıxış etdi. Biz hamımız o məşhur konsertə baxırdıq.

Ulu öndərimizin “Mən fəxr edirəm ki, azərbaycanlıyam” sözləri hamımızın yadındadır. Bu konserti izləyərkən, avropalıların bizim uşaqlarımızı ayaq üstə alqışladığını görəndə, biz həqiqətən də çox xoşbəxt idik. Ona görə də Mehriban xanım, bu layihələrə görə sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm. YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Heydər Əliyev Fondunun prezidenti kimi siz böyük işlər görmüsünüz. Bu, ancaq musiqiyə aiddir. Mən hələ təhsili demirəm, o qədər məktəblər tikilir, o qədər kompyuterlər alınır. Yəni indi şagirdlər, tələbələr üçün, müəllimlər üçün hər cür şərait var. Ona görə sizə dərin minnətdarlığımı bildirmək istərdim.

Cənab Prezident, həmişə Siz gələsiniz. Ulu öndərimiz bu binaya bir neçə dəfə gəlmişdi. Məhz Heydər Əliyevin sayəsində Rostropoviç yenidən Bakıya gəldi, burada müntəzəm ustad dərsləri keçdi.

Mən Sizi ürəkdən salamlayıb yenə deyirəm: “Üzeyir bəyin ocağına xoş gəlmisiniz!”

Çox sağ olun.

***18 sentyabr 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ELM MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 24-də Qazax şəhərində Heydər Əliyev Elm Mərkəzinin açılışı olmuşdur.

Prezident İlham Əliyev açılışı bildirən rəmzi lenti kəsdi.

Original formalı geniş binada ümummilli liderin həyat və fəaliyyətini əks etdirən böyük ekspozisiya salonu vardır. Qazaxlılar xalqımızın dahi oğlunun, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun xatirəsini əziz tuturlar. Hələ ötən əsrin 70-ci illərində Heydər Əliyevin Qazaxa səfərləri bu rayonun həyatında silinməz izlər buraxmışdır. Mərkəzdə o dövrdən yadigar olan fotolar, habelə ümummilli liderin 1998-ci ildə prezident seçkiləri ərəfəsində rayona səfərlərini və ictimaiyyətlə görüşlərini əks etdirən fotoşəkillər böyük maraq doğurur.

Mərkəzdə dünyada çox az sayda ölkədə olan, yalnız əlin toxunması ilə idarə edilən Ubiq'Window sistemi qurulmuşdur. Bu qurğunun köməyi ilə fotoşəkillər, video görüntülər və mətnlər vasitəsilə ulu öndərin həyat və fəaliyyəti barədə məlumat almaq mümkündür.

Mərkəzdə kitabxana, kompyuter kursları da yaradılmışdır. Burada elmi araşdırmalar da aparılacaq, gənclər ulu öndərin zəngin irsini öyrənəcəklər.

Mərkəzdə Qafqazda yeganə olan planetari qurulmuşdur. Onun yerləşdiyi salon kürə formalıdır. Salonun tam 180 dərəcə səthi ekran rolunu oynayır. Xüsusi qurğu vasitəsilə həmin ekranda qalaktikalar, günəş sistemi, planetlər və sair göstərilir.

Prezident İlham Əliyev fotoşəkillərə və eksponatlara, ekranda nümayiş etdirilən səma cisimlərinə baxdı. Dövlətimizin başçısı Elm Mərkəzindəki funksional əlaqə studiyasında bir neçə rayon məktəbləri ilə monitor vasitəsilə birbaşa əlaqəyə girdi:

-Salam uşaqlar, necəsiniz?

UŞAQLAR: Salam. Yaxşıyıq.

İLHAM ƏLİYEV: Mən sizi salamlayıram və yeni dərs ilinin başlanması münasibətilə sizi təbrik edirəm.

UŞAQLAR: Cənab Prezident, çox sağ olun, təşəkkür edirik.

İLHAM ƏLİYEV: Siz yaxşı oxumalısınız, peşəkar olmalısınız, savadlı, bilikli olmalısınız. Azərbaycanın gələcəyi sizinlə bağlı olacaqdır. Azərbaycanda təhsilin səviyyəsinin qaldırılması üçün dövlət çox işlər görür. Yeni məktəblər tikilir, təhsilin keyfiyyəti artır. Artıq burada ən müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq olunur. Mən çox şadam ki, bu gün Qazaxda, Heydər Əliyev Elm Mərkəzində belə gözəl avadanlıq qurulubdur və 9 məktəbdə eyni avadanlıq var. Biz bir-birimizi görürük, söhbət edirik. Mən çox şadam ki, Azərbaycanda bu sahədə çox böyük işlər görülür.

Bütün uşaqlar kompyuteri, yeni texnologiyaları bilməlidirlər və bütün müasir, mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunmalıdır. İlk növbədə, təhsil sahəsində. Çünki təhsilin səviyyəsindən ölkənin gələcəyi asılıdır. Mən bu gün sizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz yaxşı oxuyasınız və böyüyəndə Azərbaycan üçün çox dəyərli vətəndaşlar olasınız.

RAUF HÜSEYNOV (Qazax rayon İcra hakimiyyətinin başçısı): Cənab Prezident, şagirdlər Sizə öz suallarını çatdırmaq istəyirlər.

ŞAGİRD: Möhtərəm cənab Prezident, şairlər diyarı Qazax mahalına xoş gəlmisiniz. İlk növbədə, rayonumuza təşrif buyurduğunuza və "Vətən sərhəddən başlayır" prinsipinə sadiq qalıb, sərhəd rayonlarının, eləcə də Qazaxın abadlaşdırılmasına, yeni məktəblərin tikintisinə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Bu gün məktəbimizin şagirdləri adından demək istəyirəm ki, əvvəllər orta məktəbi əla qiymətlərlə başa vuran şagirdlərə qızıl və gümüş medallar verilərdi. O ənənənin bərpa olunması mümkündürmü?

İLHAM ƏLİYEV: Bilirsiniz, keçmişdə müxtəlif ənənələr olmuşdur. Biz bütün ənənələrə gərək bugünkü Azərbaycanın reallığına nə dərəcədə cavab verib-verməmək baxımından yanaşaq. Əlbəttə ki, məktəbdə yaxşı qiymətlərlə oxuyan şagirdlər daha da böyük üstünlüklərə malik olmalıdırlar. Bildiyiniz kimi, indi Milli Məclisdə Təhsil haqqında Qanun müzakirə olunur. Düzdür, bu müzakirə çox uzandı. Amma geniş müzakirə aparılır və yəqin ki, lazım olan bütün tədbirlər bu Qanunda öz əksini tapacaqdır.

Mən çox istəyirəm ki, məktəblərdə oxuyan şagirdlər çox bilikli olsunlar və onların ibtidai və orta təhsili yüksək səviyyədə olsun ki, gələcəkdə müxtəlif sahələrdə çox uğurla işləsinlər. Hər bir gənc öz doğulduğu rayonun inkişafına da öz töhfəsini versin. Son illər ərzində Qazax rayonunda da çox böyük işlər görülüb və yeni müəssisələr açılıbdır. Keçən il çox gözəl

Olimpiya Kompleksi açılmışdır, onun açılışında bərabər iştirak etmişdik. Bu gün, bir neçə dəqiqədən sonra müasir Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak edəcəyəm. Yəni həm tibbi xidmət, həm təhsil, həm infrastruktur, həm də yeni müəssisələr, yeni iş yerləri – Azərbaycanın bütün rayonları bax bu istiqamətdə inkişaf edir. Biz məsələlərə kompleks şəkildə yanaşırıq. Əlbəttə ki, təhsil məsələlərinin ön planda olması Azərbaycanın dövlət siyasətinin təzahürüdür.

Bizim gələcək bütün uğurlarımız bugünkü gənclərin fəaliyyətindən asılıdır.

Mən sizi bir daha həm salamlayıram, həm də yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm. Sizə bir daha tövsiyə edirəm ki, yaxşı oxuyasınız və bilikli mütəxəssislər olasınız. Sağ olun.

ŞAGİRDLƏR: Cənab Prezident, təşəkkür edirik.

Sonra dövlətimizin başçısı Elm Mərkəzinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

***24 sentyabr 2008-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX DÖVLƏT RƏSM QALEREYASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Burada Azərbaycan rəssamlarının 373 əsəri toplanmışdır. Rəsm qalereyasının əsası 1986-cı ildə qoyulsa da, binada yalnız bu il yenidənqurma işləri aparılmışdır. İndi o, şəhərin yaraşıqlı memarlıq nümunələrindən birinə çevrilmişdir.

Qalereya ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, hazırda sərgi salonunda 62 rəsm əsəri nümayiş etdirilir. Onların bir qismi Rəssamlar İttifaqının hədiyyəsidir. Tanınmış yerli fırça ustaları Nəcməddin Hüseynovun və Alyoş Abdullayevin əsərləri qalereyanın qiymətli eksponatlarından sayılır. Azərbaycanın xalq rəssamı Toğrul Nərimanbəyovun əsərinin isə ekspozisiyada xüsusi yeri var. Qalereyada uşaq rəsm dərnəyi də fəaliyyət göstərir.

***24 sentyabr 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AĞSTAFADA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Həmin gün Ağstafa şəhərində Heydər Əliyev Mərkəzinin açılışı oldu. Açılış mərasiminə gələn dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin mərkəzin həyətində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu. Abidənin müəllifi, xalq rəssamı, akademik Ömər Eldarovdur.

Prezident İlham Əliyev mərkəzin açılışını bildirən lenti kəsdi.

Mərkəzin tikintisinə bu ilin martında başlanmışdır. 3,7 hektar ərazidə Heydər Əliyev Muzeyi, 450 yerlik konsert salonu, 20 və 50 yerlik konfrans salonları, kino salonu, elektron kitabxana, linqafon və internet otaqları, sərgi salonu vardır. Burada açıq havada tədbirlər keçirmək üçün də şərait yaradılmışdır. Məktəblilər burada təşkil ediləcək internet və xarici dil kurslarında məşğul olacaqlar.

Bir-birinə bitişik 3 korpusdan ibarət tikintinin sifarişçisi Heydər Əliyev Fondu, podratçı isə "Akkord" şirkətlər qrupudur.

Mərkəzin həyəti Hollandiyadan gətirilmiş gül və ağac kolları ilə bəzədilmişdir. Burada quraşdırılan fəvvarə həyətə xüsusi gözəllik verir.

Dövlətimizin başçısı Heydər Əliyev Muzeyi, konfrans salonları, elektron kitabxana, linqafon və internet kabinetləri ilə tanış oldu.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev burada rayon veteranları ilə görüşüb söhbət etdi.

Rayon Ağsaqqallar Şurasının sədri MƏMMƏD MƏSMƏLİYEV dövlətimizin başçısına müraciətlə dedi:

– Cənab Prezident, Ağstafa rayonuna xoş gəlmisiniz! Son illərdə respublikamızda böyük işlər görülmüşdür. Hər yerdə abadlıq işləri gedir, məktəblər, yeni xəstəxanalar tikilir. O cümlədən Ağstafa rayonunda da yaxşı işlər görülmüşdür. Ağstafa camaatı Sizdən çox razıdır, Allah Sizə cansağlığı versin. Heydər Əliyev Fondunun hesabına rayonda 3 məktəb tikilibdir, bu mərkəz də həmin Fondun hesabına tikilibdir. Tikiş fabrikinin açılış mərasimində də olacaqsınız. Mən deyərdim ki, son illərdə respublikada işsizliyin aradan qaldırılması, 700 min nəfərin işlə təmin olunması üçün görülən işlər həmin fabrikdə 1000 nəfərlik iş yerinin açılması ilə yekunlaşır. Ona görə Si-

zə uğurlar, uzun ömür, cansağlığı arzu edirəm. Bu, bizim xalqımızın müvəffəqiyyətidir, Azərbaycan xalqının rifahının yaxşılaşmasıdır.

İLHAM ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Mən də sizi bu gözəl mərkəzin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Doğrudan da, mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Misal üçün, Heydər Əliyev Muzeyində olan fotoşəkillər çox nadir şəkillərdir. Hətta mən dedim ki, onlardan bəzilərini Bakıya, Heydər Əliyev Fonduna göndərsinlər. Çünki, o şəkillər müxtəlif vaxtlarda çəkilib və ola bilsin, onların bəziləri bizdə arxivdə yoxdur.

Burada həm böyük, həm kiçik iclas zalları, uşaqlar üçün dərnək, rəssamlıq dərnəyi, rəsm qalereyası, kompyuter otağı, xarici dilləri öyrənmək üçün linqafon otağı var. Yəni, sözün əsl mənasında, mərkəzdir və ətrafı da çox gözəldir. Əlbəttə ki, siz yəqin yaxşı xatırlayırsınız, burada heç nə yox idi. İndi gözəl park salınıb, fəvvarələr, oturacaqlar var, yəni burada insanlar həm dincələ bilərlər, həm də vaxtlarını səmərəli keçirə bilərlər. Gənclər də gəlib burada elektron kitabxana vasitəsilə dünyanın bütün kitabxanalarına daxil ola bilərlər. Yəni bu mərkəzin çox böyük mənası var və mən çox şadam ki, məhz Ağstafa rayonunda belə gözəl mərkəzin tikintisinə nail ola bilmişik. Bu mərkəzin fəaliyyəti və Ağstafa rayonunun inkişafına da böyük kömək göstərəcəkdir. Çünki gənclər bilikli, savadlı olmalıdırlar. Bütün rayonlarımızda yeni tikilən obyektlər müasir olmalıdır.

MƏMMƏD MƏSMƏLİYEV: Bu işlər Sizin fəaliyyətiniz nəticəsində görülübdür. Bu mərkəzdəki 500 nəfərlik zal Heydər Əliyev Sarayının beşdə bir hissəsi qədərdir.

İLHAM ƏLİYEV: Dörddəbir hissəsi, o, 2000 nəfərlkdir!

Burada müxtəlif tədbirlər keçirmək olar. Ən gözəl səviyyədə tikilibdir. İndi tikiş fabrikinə gedib baxacağam.

MƏMMƏD MƏSMƏLİYEV: 1000 nəfər işləyəcək.

İLHAM ƏLİYEV: Bəli! Mən bilirəm, onun şəkillərini görmüşəm. Böyük istehsal sahələri var. Orada 1000 nəfər işləyəcək, özü də, bildiyimə görə, xüsusilə qadınlar işləyəcəklər. Bu da çox vacibdir.

MƏMMƏD MƏSMƏLİYEV: Yeni parklar salınır, xiyabanlar salınır. Burada bizim parkımızda indi Heydər Əliyevin büstü var. Heydər Əliyev bizim rayonda çox olubdur. Mən onun dövründə Mərkəzi Komitənin bürosu tərəfindən vəzifəyə təsdiq olunmuşdum. Həmin dövrdə "Xalqlar Dostluğu ordeni", müxtəlif medallarla təltif edilmişəm. Mən vaxtında Heydər Əliyevə öz minnətdarlığımı bildirmişəm. Onunla uzun müddət işləmişik. Yaxşı

da işləmişik. Bu işlər hamısı onun gördüyü işlərin davamıdır. Elə-belə, boş yerdən yaranmayıbdır.

Heydər Əliyevin fəaliyyəti nəticəsində görülmüş işlərdir ki, bu gün də Siz davam etdirirsiniz. Fəxr edirik ki, Heydər Əliyevin Sizin kimi davamçısı var.

İLHAM ƏLİYEV: 1970-ci illərdə Azərbaycanın uğurlu inkişafının təməli qoyulmuşdur. Buradakı fotoşəkillər də göstərir ki, nə qədər böyük işlər görülübdür. Demək olar ki, Azərbaycan yenidən tikilib. Amma sonra, 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində vəziyyət dəyişdi. Azərbaycan iqtisadiyyatı da bərbad vəziyyətə düşdü, sənayedə də tənəzzül, böhran başlandı. Həm də vətəndaş müharibəsi. Azərbaycan müstəqilliyə qovuşanda keçmiş Sovet İttifaqı respublikaları arasında ən ağır vəziyyətdə idi. Amma ondan sonra yenə də Heydər Əliyevin səyləri nəticəsində 1993-cü ildən 2003-cü ilə qədər inkişaf dövrü olmuşdur. Yenə Azərbaycan ayağa qalxdı, islahatlar başladı və bütün rayonlarda işlər görülməyə başlandı. O ki, qaldı son beş il ərzindəki görülən işlərə, o barədə mən çox danışmaq istəmirəm. Hər halda çalışacağam ki, bütün rayonlarda inkişaf, abadlıq, quruculuq olsun, məktəblər, xəstəxanalar, belə gözəl mərkəzlər, sənaye müəssisələri tikilsin, iş yerləri açılsın. Azərbaycanda son beş il ərzində 700 mindən artıq iş yeri açılıb və onlardan təxminən 550 mini daimi iş yerləridir. Bu, çox vacibdir. Hər yerdə yeni fabriklər, zavodlar, müəssisələr yaradılır, yollar çəkilir. Misal üçün, Bakı-Ağstafa-Qazax yolu.

MƏMMƏD MƏSMƏLİYEV: Bakıda olmuşam, gözəl yol infrastrukturu yaradılır, tıxaclar aradan qaldırılır.

İLHAM ƏLİYEV: Bakıda öz yerində. Bakı paytaxtdır, onun böyük potensialı var. Bakı, əlbəttə ki, gözəl şəhərdir, daha da gözəlləşir. Əsas Bakıdan uzaqda yerləşən rayonların inkişafına diqqət göstərməliyik. Sərhəd rayonlarına ilk növbədə, o cümlədən Ağstafa rayonuna. Mən çox şadam ki, burada işlər yaxşı gedir və yəqin son aylar ərzində böyük dəyişikliklər hiss edirsiniz. Altı aya tikiş fabriki tikilibdir. Növbəti illərdə işlər daha da sürətlə gedəcəkdir. Sizə yeni uğurlar və cansağlığı arzulayıram! Sağ olun!

Prezident təqaüdçüsü YASƏMƏN MƏMMƏDOVA: Xoş gəlmisiniz, Allah Sizə cansağlığı versin, ailəliklə xoşbəxt olun! Heydər Əliyevin qoyduğu yolu belə davam etdirin. Çox sağ olun, minnətdarıq! Bütün cavanlar, qocalar, veteranlar – hamımız Sizə cansağlığı, uzun ömür arzulayırıq.

***24 sentyabr 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ RAYONUNDA ZƏRİFƏ ƏLİYEVA PARKINDA OLMUŞDUR

Sentyabrın 24-də Tovuz rayonuna gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə Tovuz şəhərində salınmış akademik Zərifə Əliyeva adına parkla tanış oldu, görkəmli oftalmoloq alimin abidəsi önünə gül dəstəsi qoydu. Tovuz şəhərindəki keçmiş mədəniyyət və istirahət parkı yenidən qurulduqdan sonra rayon ictimaiyyətinin arzusuna uyğun olaraq, ona akademik Zərifə xanım Əliyevanın adı verilmişdir. Ümumi sahəsi 1,2 hektar olan parkda müasir üslubda şəlalə, fəvvarələr, yay teatrı var. Parkda çoxlu ağac və gül kolları əkilmiş, yaraşıqlı oturacaqlar qoyulmuş, işıqlandırılma sistemi müasirləşdirilmişdir.

Prezident İlham Əliyev parkı gəzdi və burada yaxşı səliqə-sahman, sakinlərin istirahəti üçün gözəl şərait yaradıldığını vurğuladı.

***24 sentyabr 2008-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞINDA OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

İkimərtəbəli, öz görkəmi ilə şəhərin mərkəzi meydanına xüsusi yaraşıq verən binanın ümumi sahəsi 200 kvadratmetrdən çoxdur.

Muzeydə ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini, eləcə də Tovuz rayonuna səfərlərini və keçirdiyi görüşləri əks etdirən fotoşəkillər, dahi şəxsiyyətə həsr olunmuş kitablar toplanmışdır. Burada ulu öndərin büstü də qoyulmuşdur.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

***24 sentyabr 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZ RAYONUNDA KARVANSARA TİPLİ QALA KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Prezident İlham Əliyev Tovuz şəhərinin girəcəyində turizm marşrutuna daxil edilmək məqsədi ilə qədim memarlıq üslubunda tikilmiş karvansara tipli qala kompleksi ilə tanış olmuşdur.

Üçmərtəbəli kompleksin ümumi sahəsi 1560 kvadratmetrdir. Kompleks şəhərə gələn qonaqları və turistləri ətraflı məlumatlandırmaq baxımından və gəzintisi üçün çox maraqlıdır. Burada qədim zamanlardan bəri bu ərazidə yaşayan insanların istifadə etdiyi məişət əşyaları toplanmışdır.

Prezident İlham Əliyev qalanın içərisini gəzdi, 1813-1828, 1918-1920-ci illərə və müasir dövrə aid xəritələrə baxdı.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleks rayon ərazisindəki eramızdan əvvəl 1-ci minilliyə aid edilən Torpaqqalanın, IV əsrə aid Şəmşədil qalasının və VI əsrə aid Köhnəqala abidələrinin rəmzi bərpasıdır.

Prezident İlham Əliyev Tovuzun qədim tarixi və zəngin təbiəti olduğunu vurğulayaraq dedi ki, burada turizmin inkişafı üçün şərait yaradılması zəruridir.

Dövlətimizin başçısı qalanın önündə xatirə şəkli çəkdirdi.

***24 sentyabr 2008-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏDƏKİ ŞAH ABBAS MƏSCİDİ İLƏ TANIŞ OLMUŞDUR

Bu cümə məscidi 1606-cı ildə memar Şeyx Bəhaəddinin layihəsi əsasında tikilmişdir. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məsciddə bərpa və təmir işləri aparılmışdır. Dövlət tərəfindən qorunan bu abidə indi yeni görkəm almışdır.

Dövlətimizin başçısı məsciddə aparılmış təmir-bərpa işlərinin səviyyəsindən razılığını bildirdi. Prezidentə "Qurani-Kərim" hədiyyə olundu.

◆◆◆

Sonra Prezident İlham Əliyev şəhərin Heydər Əliyev adına baş meydanında ulu öndərin abidəsini ziyarət edərək gül dəstəsi qoydu. Burada şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Şəhərin 2502 illiyi münasibətilə dövlətimizin başçısına qədim Gəncə darvazasının açarları təqdim olundu.

Dövlətimizin başçısı təşəkkür edərək, indiki səfəri zamanı Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etdiyini, quruculuq-abadlıq işləri ilə tanış olduğunu söylədi. Respublikanın ikinci böyük şəhəri olan Gəncənin inkişafını yüksək qiymətləndirdi və insanların yaxşı yaşaması, sosial vəziyyətinin yaxşılaşdırılması üçün bundan sonra da lazımi tədbirlərin görüləcəyini bildirdi. Prezident İlham Əliyev gəncəliləri qarşıdan gələn Ramazan bayramı, habelə Gəncə şəhər günü münasibətilə ürəkdən təbrik etdi.

◆◆◆

Daha sonra dövlətimizin başçısı Nizami Gəncəvinin məqbərəsini ziyarət etdi.

Bununla da Prezident İlham Əliyevin Gəncəyə səfəri başa çatdı.

***24 sentyabr 2008-ci il***

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin**
**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin**
**"Prezident Kitabxanası" ilə birgə layihəsi**


Redaksiya şurası: **Lətifə Məmmədova**
**Mayıl Əhmədov**
**Zakir İsmayılov**
**Fikrət Babayev**
**Vaqif Bəhmənli**
**Sonaxanım Abasova**
**Həliməxanım Rzaquliyeva**
**Məhəbbət Əliyeva**
**Zeynəb Baharova**
**Nazim Mustafayev**
**Natəvan Hacıyeva**
**Səba Quliyeva**
**Fəridə Hüseynova**
**Familə Quliyeva**
**Zülfiyyə Mütəllimova**
**Samir Abbasov**
**Məmməd Əliyev**
**Əfsun Əhmədov**
**Aslan Cəfərov**
**Fazil Məmmədov**
**Xuraman İsmayılova**
**Solmaz Əliyeva**
**Yeganə Qarayeva**
**Esmira Fuad**
**Leyla Rəhmanova**

*Nəşr **AzərTAc**-ın materialları əsasında hazırlanmışdır.*

**Prezident**
**İlham Əliyev və mədəniyyət**
**(2003-2008)**
2 clddə (I cild)


Naşiri:
***Qoşqar Qarayev***

NƏŞRİYYAT REDAKTORU
*Akif Dənzizadə*

TEXNİKİ REDAKTORU
*Polad Hüseynov*

KORREKTORU
*Xəyalə Azadəliyeva*

OPERATORU
*Rəna Əzizova*

ÇAPA MƏSUL
*Yasəf Həşimov*

Çapa imzalanmış 25.09.2008,
formatı 70x100 1/16,
fiziki ç.v 31, ofset kağızı №1,
tayms qarnituru,
sifariş Dv-12. Sayı 1000

Kitab
**«İDEAL-PRİNT»**
nəşriyyatında nəşrə hazırlanmış
və
ofset üsulu ilə çap olunmuşdur.

Bakı şəhəri, Xırdalan dairəsi,
T/F.: **442-67-67, 418-38-72**



*Azərbaycan Prezidenti İlham Əliyev görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviçlə.*



*Azərbaycan Prezidenti İlham Əliyev görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviçi qəbul etmişdir.*



***Azərbaycan Prezidenti İlham Əliyev Afinada Yunanıstanın turizm naziri Dimitris Avramopulos ilə görüş zamanı.***



***Azərbaycan Prezidenti İlham Əliyev yazıçı-tədqiqatçı Murad Acini qəbul etmişdir.***



*Azərbaycan Prezidenti İlham Əliyev Lənkəran şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimində.*



*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun sədri Sadiq Kamal Turalı və Atatürk Araşdırmalar Mərkəzinin sədri Mehmet Sarayı qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın P.İ.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Vladimir Fedoseyevi qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev görkəmli qazax sairi, alim və ictimai-siyasi xadim Oljas Süleymenovu qəbul etmişdir (2006-cı il).*



*Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının nümayəndə heyətini qəbul etmişdir.*






***Azərbaycan Prezidenti İlham Əliyev akademik Yusuf Məmmədəliyevin abidəsi qarşısında (Naxçıvan şəhəri)***



***Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı akademik Yusuf Məmmədəliyevin ev-muzeyində.***



*Azərbaycan Prezidenti İlham Əliyev məşhur musiqiçi Herbi Hankooku qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev MDB ölkələri Mədəni Əməkdaşlıq Şurasının 21-ci iclası iştirakçılarını qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin mədəniyyət və turizm naziri Atilla Koçu qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın turizm naziri Nilufər Bəxtiyarı qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri: "Duzdağ" sanatoriyasının layihəsi ilə tanışlıq.*



*Azərbaycan Prezidenti İlham Əliyevin "Duzdağ" sanatoriyasının təməlqoyma mərasimində iştirakı.*



*Azərbaycan Prezidenti İlham Əliyev İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev məşhur opera müğənnisi, SSRİ xalq artisti Yelena Obraztsovanı qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının mədəniyyət və informasiya naziri İyad ibn Əmin əl-Mədəninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev musiqi xadimi, "İpək yolu" layihəsinin rəhbəri, ABŞ violonçelçalanı Yo Yo Manı qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev xalq artisti, Milli Məclisin deputatı Zeynəb Xanlarovanı qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Bakı Caz Festivalında iştirak edən məşhur azərbaycanlı pianoçu, bəstəkar və caz ifaçısı Əzizə Mustafazadəni və anası, tanınmış musiqiçi Elza Mustafazadəni qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Prezident Kitabxanasında.*




*Azərbaycan Prezidenti İlham Əliyev Prezident Kitabxanasının nadir ədəbiyyat fondunda.*



*Azərbaycan Prezidenti İlham Əliyev Luvr muzeyinin direktoru Anri Luareti qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanın mədəniyyət naziri Mirzoşoxrux Asrorovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*



***Azərbaycan Prezidenti İlham Əliyev İSESKO-nun Baş direktorunu "Şöhrət" ordeni ilə təltif edir.***



*Azərbaycan Prezidenti İlham Əliyev məşhur memar xanım Zaha Hadidini qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev xalq artisti Habil Əliyevi qəbul etmişdir.*



***Azərbaycan Prezidenti İlham Əliyev görkəmli qazax şairi, alim və ictimai-siyasi xadimi Oljas Süleymenovu qəbul etmişdir (2007).***



***Azərbaycan Prezidenti İlham Əliyev Qugenhaym Fondunun direktoru Tomas Krensi qəbul etmişdir.***



*Azərbaycan Prezidenti İlham Əliyev xalq artisti Arif Babayevə "İstiqlal" ordenini təqdim etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev məşhur yazıçı Çingiz Aytmatovu qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev YUNESKO-nun baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.*



*Azərbaycan Prezidenti İlham Əliyev və YUNESKO-nun baş direktoru Koişiro Matsuura.*



*Azərbaycan Prezidenti İlham Əliyevin Belarus Milli Kitabxanasında.*



*Azərbaycan Prezidenti İlham Əliyevin Belarus Milli Kitabxanasındakı Kitab muzeyində.*